AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 12

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2018

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya üzrə elmlər doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2018, № 12

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2018

www. filologiyameseleleri. net

DİLÇİLİK

Prof.MƏSUD MƏMMƏDOV
Tarix üzrə fəlsəfə doktoru, dosent
LEYLA MƏCIDOVA

AZƏRBAYCAN DİLİNİN "İLƏ", "TƏK", "TƏKİN", "NƏ" MORFEMLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ

Açar sözlər: qoşma, morfemlər, şəkilçi, həmcins üzvlər, dil, forma
Key words: postposition, morphemes, suffix, homogeneous parts, language, form
Ключевые слова: послелог (постпозиция), морфемы, суффикс, однородные части, язык, форма

Dilçilik elmində sözün işlənmə yerinə, məkanına, xüsusiyyətinə və funksiyasına görə bölgülər aparılmışdır. Bu da zərurətdən yaranmışdır. Tarixən səsədən hecaya və sözə doğru inkişaf edən dil get-gedə genişlənərək mürəkkəbləşmişdir. İnkişaf prosesində ilkin sözlərin bəziləri forma və məzmununu dəyişərək, sonradan yaranmış sözlərə köməkçi olmaqla, onları zəncirvari bir-birinə bağlayaraq bir bütövlük yaratmışdır. Dildə olan bütün sözlər və sözlərin tərkibi morfemlərdən ibarətdir. Morfemlərin bir-birinə bağlanması hesabına söz, söz birləşməsi, sadə və mürəkkəb cümlələr yaranmışdır. Bizim də bəhs etdiyimiz məsələ Azərbaycan dilində yaşayan bəzi morfemlərdən ibarətdir.

Muxtar Hüseynzadə yazır ki, "qoşmalar əsas söz köklərindən əmələ gəlib, şəkilçiləşməyə doğru inkişaf edən və hər ikisindən (həm müstəqil mənalı söz köklərindən, həm də müstəqil mənþya malik olmayan şəkilçilərdən tamamilə fərqlənən bir nitq hissəsidir. (1, 218). Müəllif "Qoşmanın inkişafı" bölməsində "ilə" morfemi haqqında öz fikrini belə bəyan edib: "Həm qoşma kimi, həm də bağlayıcı kimi (burada "qoşma və bağlayıcı kimi" deyilməz, çünki insan deyil, ***"təkin"*** deyilməlidir.-Məsud Məmmədov) işlənənlər **ilə**, **üçün**, **görə**, **ötrü** qoşmalardan ibarətdir. Bunlardan ***"ilə"*** sözü həm qoşma, həm də bağlayıcı vəzifəsində işlənir. ***"İlə"*** sözü iki sözün arasında işlənirsə, həmin sözlər cümlənin həmcins üzvü ola bilərsə, sözlər arasındakı ***"ilə"***-ni "və" bağlayıcısı ilə və ya vergül işarəsi ilə əvəz etmək münkün olarsa, ***"ilə"*** sözü bağlayıcı olur. Məsələn, Xalıqverdi ilə qonağı tapılmalıdır. (Ə.Vəliyev). Bu cümlədə ***"ilə"*** sözü istənilən zaman həm ***"və"*** bağlayıcısı, həm də

vergül işarəsi ilə əvəz oluna bilər: aralarında ***"ilə"*** işlənən sözlər (Xalıqverdi-qonağı) cümlənin həmcins üzvləridir. (1, 220). Maraqlıdır ki, tanınmış alim "ilə" ünsürünü "söz" ifadəsində göstərmişdir. O, fikrinin davamında da "ilə"-ni söz təkin verib. «***"ilə"*** sözlərin sonuna qoşularsa, qoşulduğu sözlə birlikdə cümlənin tamamlığı və zərfliyi olarsa, ***"və"*** bağlayıcısı və vergül işarəsi ilə əvəz edilə bilməzsə, qoşma olur.» Məsələn, şagirdlər öz məktəb yoldaşları ilə çox mehriban dolanırdılar. (1, 220). Sonra, əlavə edib: "həm qoşma, həm də şəkilçi kimi işlənənlər ***"ilə (-la, -lə)", "-can, -cən"*** qoşmalarıdır. Bunlar şəkilcə qoşmalıqdan çıxsalar da məzmunca, əvvəlki mənalarını saxlayırlar."(1, 221). Beləliklə, müəllif ***"ilə"*** ünsürünü gah söz təkin, gah da şəkilçi təkin göstərmişdir. Əslində, həm "bundan və həm də ondan olan hər hansı bir morfem və ya ünsür mənşəyinə görə, xüsusiyyətinə görə fərlənirsə, demək sözün, sözdəki morfemlərin ilkin formasını araşdırıb tapmaq vacibdir.

Qoşmanın mənaca növlərinə gəldikdə, bu sırada ***"ilə"*** də durur. Bu qoşma haqqında bütün dilçilər bir fikirdədirlər: "Həm adlıq, həm də yiyəlik halda olan sözlərə qoşulur, kim (kimi), tək (təkin) və s. qoşmalarda ismin adlıq, yiyəlik və yönlük halında olan sözlərə qoşulur. Bu belədir, amma misala gəldikdə Azərbaycan ziaylılarının 99%-i səhvə yol verirlər. Məsələn, M.Hüseynzadənin verdiyi nümüunələrə baxaq: qızıl kimi < olmalıdır: qızıl təkin; gəzmək kimi < olmalıdır: gəzmək təkin; indiyə kimi < olmalıdır: indiyə qədər, Q.Kazımovun misallarından: şüşə kimi < olmalıdır şüşə təkin, çömçə kimi < çömçə təkin və s. bir cür yanaşmanı "İdrakdan kənar dərk etmə" adlandırmışıq. İzahını verim, yerinə düşər. Əlbəttə, məlumdur ki, Türk dillərində kim? sualını ancaq inasana aid edirlər. Bunlar konkret də olar. (əli kimi, Vəli kimi və hətta dəli kimi). Eləcə də, əvəzliklərlə, çünki şəxsiyyəti əvəz edir. (sənin kimi, onun kimi, mən kimi), amma heyvan adları (onlar canlı da olsalar, kim//kimi yox) nə? sualına cavab verirlər. Məsəslən, nə?-it, at, daş, ağac, dağ və s. bu səbəbdən də deməliyik, it təkin hürdü, dəmir tək bərk idi, demək, it kimi hürdü; dəmir kimi bərk idi- ifadələri.

Dünyanın başqa dillərinə müraciət etsək, görəcəyik ki , bütün canlılar kim? sualı ilə dərk olunur. Misal üçün, rus dilində olduğu kimi ***кто?- человек (insan), кто? –собака (it), что?*** sualı ilə cavablanır. Demək, türk dillərində, xüsusən, Azərbaycan dilində insan başqa canlılardan fərləndirilmiş və heyvandan ayrılmışdır. Bu səbəbədən ancaq insana (şəxsə) ***kim?*** sualı verilir, heyvan isə ***nə?*** sualı ilə cavablanır. Bu cür yanaşma Azərbaycan oğuzlarının qədimliyi və zehni inkişafının güclü olmasına dəlalət edir. Bir də, bağlayıcıları öyrənən zaman yuxarıda dediklərimiz bir daha (***kim?nə?*** sualları ilə) təsdiqini tapır. Əlbəttə, göstərdiyimiz faktlar idrakdan kənar olsa belə, izahı doğru verilmişdir. Belə ki, sintaktik vəzifəsinə görə bağalayıcılar iki

qrupa ayrılır: a) tabesizlik; b) tabelilik bağlayıcıları. Tabesizlik bağlayıcıları da öz növbəsində dörd qrupa ayrılır və onların birincisi birləşdirmə bağlayıcılarıdır. Bu qrupa ***"və", "ilə", "nə"*** və s. daxildir. ***"Nə?"*** bağlayıcısı kimi də ***"nə?"*** sualı təkin öz vəzifəsini mexaniki olaraq, yerinə yetirir. Yəni, bizdən asılı olmadan dilin daxili qanununa tabe olur: "*Nə məlulam, nə də şadam. (Elçin). Nə Mahmud, nə də Məryəm ağlına gətirə bilməzdi ki, dünyada belə bir yeddi gün mövcuddur. (Elçin). Bu günki əhvalın xoşuma gəlmir, nə fərli yeyirsən, nə içirsən.(İ.M.).Mahmud nə yoxulmaq bilirdi, nə də soyuq yağış ona təsir edirdi.(Elçin). Batonla nə Fatma həkim bacara bildi, nə Orxan.(2, 358).* Göründüyü kimi, "nə" bağlayıcısı sual əvəzliyi "nə" təkin eyni ilə özünün xüsusiyyətini göstərir.

Maraqlı orasındadır ki, ***kim? nə? (kimi, nəyi)*** indiyədək doğru yerində işlətmirik. Azərbaycan alimlərinin əksəriyyəti bədii ədəbiyyatlardan cümlələri ünvanına görə seçəndə belə fərqli cəhətləri görürük, nədənsə nəzərdən doğru və a qələt olduğunu qaçırdırıq. Q.Kazımovun misallarına baxın: Qızılgül kimidir isti yanaqlar (S.V.). Bu ifadədə şəxs nəzərdə tutulur və ***"kimi-dir"*** ünsürü doğrudur. Amma "Yol rayonun mərkəzinə kimi uzanırdı"- cümləsindəki kimi yerində deyil, olmalıdır: "mərkəzinədək" və ya "mərkəzinə qədər". Hörmətli Q.Ş.Kazımovun S.Vurğundan gətirdiyi misala söz ola bilməz:

Kimlər gəldi, kimlər getdi
Bu dünyada, bu dünyada

Və ya

Nələr yaradırsan, tarix, sən nələr (S.V.)

Müəllif M.İbrahimovun əsərlərindən gətirdiyi nümunələrə nəzər saldıqda : O şeydə Səkinə güzəşt nə olduğunu bilmir, qaya kimi möhkəm dururdu. Burada "qaya kimi" deyil, "qaya təkin" deyilməli və yazılmalıdır. H.Mirzəzadə **kimi, kibi** haqqında yazır ki, "əski əlifba ilə iki imlada bu qoşma keyfiyyət, müqayisə bildirmək üçün işlənmişdir. Tək, təki, təkin- məsafə bildirir və "***kimi***" sinonim vəziyyətdədir. Sonra da qeyd olunur ki, mənşə etibarilə hər ikisi eyni söz kökündən əmələ gəlmişdir. (4. 200). Sonuncu fikir doğru deyil, əgər sinonimlik varsa, məna yaxınlığı ola bilər, amma mənşə baxımından fərqli olmalıdır. Burada da fərq var: ***kim? nə? = tək>təkin***. M. Hüseynzadə yazıb: "kimi, dək, can və cən- qoşmaları ismin yönlük halında işlənən başqa sözlərə qoşulduqda məkan miqyası (son nöqtəsini) bildirir. Məsələn: Qonaqları vağzala kimi (vağzaladək, vağzalacan) yola saldı." (222). Burada da vağzala kimi deyilməməlidir, çünki "vağzal" cansızdır.

"İlə" morfemi haqqında alimlərimiz özlərinin qiymətli fikirlərini söyləmişlər. Q.Kazımov yazır ki, "***ilə (-la, -lə)*** qoşması vasitə, alət, birgəlik, məkan, zaman, qarşılaşdırma, tək-qoşması müqayisə, bənzətmə mənalarına malikdir. Məsələn, Şahlar pıçıltı ilə məndən soruşdu (i.Ə.). ***O, yaş gözləri ilə***

Ziyad xana baxdı (Elçin). ***O, bu sözü eşidən kimi qəhərləndi, yana çevrilib yaylığının ucu ilə gözlərini sildi*** (M.İ.). ***Yumşaq xalının üstü ilə gedib işığı söndürdüm*** (İ.Ə.). ***Görəsən, Gülnisə xala indi oğlu ilə nə danışır?*** (İ.Ə.)

Bu nümunə üçün verilmiş cümlələrin məqsəd və məramı "ilə" qoşmasının tutduğu vəzifəni görkəmli alim Q.Kazımov doğru göstərir, amma onun)ilə) göstərdiyi xüsusiyyətlər hamısı əvəzliklə birləşir və "ikilik", "birgəlik" yaradır. Bütün hadisələrin məzmununda mən > o, mən > sən, biz >onlar, sən>siz durur. Məsələn, ***"Şagirdlər öz məktəb yoldaşları ilə çox mehriban dolanırdılar."*** və s. Buradaca Deməliyik ki, "ilə" qoşması samitlə bitmiş sözlərdən sonra bitişik deyilir və dilin daxili qanununa görə bitişik də yazılmalıdır, baxmayaraq bəzən ayrı da yazırlar. Məsələn, göstərilən misallardan: Onların dediyinə görə Şah Abbas da, Qacar da Tiflisi talamağa bu yolla gediblər (İ.Ş.). Bu misaldakı yol son samiti sonor ***"l"***-dir. Xatırlamaq üçün Deməliyik ki, sonor səslər başqa samitlərdən güclü səslənir və bu səsdən sonra gələn ***"ilə***" ünsürü ***"i"*** səsinin ***"-l"*** sonor səsindən zəif olduğundan, eləcə də, -lə sonuncu ünsür heca olduğundan güclü səslənir və ***-l*** səsi ilə birləşir (-llə). Əgər hər hansı bir sözün sonuncu felksiyası saitlə bitirsə onda ***"ilə"*** ayrıca deyilişi eşidilir və eləcə də yazılmalıdır: Məsud öz ayağı ilə bizə gəldi. Əli qardaşı ilə bakıya getdi. və s.

Deməliyik ki, "ilə" digər türk dillərində ***bilen//bile*** formasında özünü göstərir. Məsələn, özbək dilində: Əli bilən bordım. –Əli ilə getdim. Maraqlıdır, Azərbaycan dilində olan ***"bilmək"*** feilin məsdər forması çox vaxt feili-sifət təkin özünü göstərir: Tanrı bilən yaxşıdır. – Bu cümlədə də birgəlik var və özü də ***bilən*** feili-sifəti Tanrı sözü ilə birlikdə birgəlik yaradır, cümlədə mübtəda (Tanrı bilən) olur. Burada bir vacib məsələni də yada salıram ki, idrakdan kənar qalmasın. Göstərilən birgəlik bildirən ***"bilən"*** ifadəsində cəmlik, daha doğrusu yığcamlıq bildirən ***-ən*** morfemi durur. Diqqət yetirsək, ***ilə*** (və ya ***–la, -lə***) işarə əvəzliyi təkində özünü biruzə verir və ümumiləşərək birgəlik məzmununu yaradır. Məsələn: Vəli ilə Bakıya getdim. Və ya (Özbək dilində) Vəli bilən Bakıya vardım. Bu cümlələrdə hərəkət iki şəxsin tərəfindən icra olunduğu bəyan olur. Amma kimin Vəli ilə getdiyi məlum deyil, kimin yerini –im morfemi məlum edir və mən+i əvəzliyinə işarə edir. Buradan belə bir nəticəyə gəlmək olar ki, ilə ünsürü əvəzliklə də bilavasitə bağlıdır. Türk dillərinin əksəriyyətində "ilə"nin ilkin variantı qalmaqdadır (təkcə salar dilindən başqa. Bu dildə də "ilə" qoşması Azərbaycan dilinin ilə qoşması təkindir). Məsələn, Başğır.-birle, tatar.-birle, Qaraçay-balkar dilində -bla, Karain .-bıla, Özbək.- bilan, Tuva.-bile, Tofalar –bile və s. Q.kazımov yazır ki,Türk dillərində "bile" forması indiki dövrümüzdə şəkilçiləşmə prosesi keçirir, yəni eyni ilə Azərbaycan dilində olduğu təkin, "***bile"*** sözündəki "b" səsinin düşməsi nəticəsində "ilə" forması yaranır. Azərbaycan dilində ilə, -la, -lə ünsürləri ilə əvəz olunur, sözə

birləşərək şəkilçi vəzifəsini yerinə yetirir. Bu da başqa Türk dillərindən fərqli amildir. Hörmətli Q.Kazımov doğru qeyd edir ki, "ilə qoşması həm bütöv, həm də -la, -lə şəklində sözə birləşərək işlənilir. Məsələn, sənin-ilə, həsən ilə. Müəllif yerindəvə göstərir ki, "ilə qoşması samitlə bitən sözlərdə həm bitişik, həm də ayrı yazılır. Məsələn: Onların dediyinə görə, Şah Abbas da, Qacar da Tiflisi talamağa bu yolla (bu yol ilə) gediblər. Saitlə bitən sözlərdə isə ayrı yazılmalıdır. Məsələn, İndi həmin adam öz ayağı ilə gəlib çıxmışdı (İ.Ş.).

Azərbaycan dilçilərinin əksəriyyəti doğru olaraq yazırlar ki, "ilə" ismin adlıq halına qoşulur, adlıq hallı sözlərə qoşularaq, əsasən, birgəlik, bəzən də vasitə mənası ifadə edir. Əvəzliklə qoşulanda da yiyəlik halda olur. Müəllif bir vacib məsələni də qabardır və qeyd edir ki, "Lakin bədii dildə, mətbuat dilində bu qaydaya əməl olunmur. Məsələn: Sonra xumar baxışıyla canlar alan o sərvinaz gözlərimə yenə baxdı... (S.V.) (2.347). Bilməliyik ki, ilə (-la[2]) bağlayıcı funksiyasını yerinə yetirdikdə, həmcins mübtədalar və tamamlıqlar arasında işlənir. Məsələn: Doğru ilə yalan bir araya sığmaz. Sədr ilə hesabdarı rayon mərkəzinə çağırdılar (M.İ.). Q.Kazımov yazır ki, "ilə-bağlayıcı kimi işləndikdə onu "və" bağlayıcısı ilə əvəz etmək olur: Elə bu vaxt Məryəm və Mahmud yenə əl-ələ verib o düzənlikdə gəzişirdi (2.357). Əslində bu məsələyə dair ilk doğru fikrini Azərbaycanın görkəmli alimi Muxtar Hüseynzadə irəli sürmüşdür. O, ilə (-la, -lə) qoşması haqqında öz fikrini belə bəyan edir: "ilə" (-la, -lə) qoşması ismin adlıq və yiyəlik hal şəkilçisi tələb edən qoşmasıdır. Bu qoşma da sabit deyildir. Dilimizdə bu köməkçi söz həm qoşma kimi, həm bağlayıcı kimi, həm də çəkilçi kimi işlənir. Bunun inkişafı şəkilçiləşməyə doğru gedir (1.224). Amma bizcə, sözün şəkilçi keçidi inkişafa doğru yox, əksinə tənəzzülə uğrmasıdır. Alimin verdiyi misallara müraciət edək: bahadır anası ilə bərabər tövşəyə-tövşəyə içəri girəndə, Pəri ilə Teybə bir-birinin saçından tutub dartışdırırdılar. (H.Mehdi). Bu bir cümlədə ilə həm qoşma(anası ilə bərabər) və həm də bağlayıcı təkin (Pəri ilə Teybə) çıxış edir. elə bu səbəbdən də Q.Kazımov doğru olaraq yazır ki, "Bu qrupa daxil olan bağlayıcıların əlaqələndirdiyi dil vasitələri bərabərhüquqlu olur, biri digərindən asılı olmur, biri digərini izah edib aydınlaşdırmır. Tərəflər eyni dərəcədə bir-birindən asılı olur. Odur ki, bu bağlayıcılara biz iki məqamda-həmcins üzvlər və tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında rast gəlirik. MEA, Nəsimi adına Dilçilik İnstitutunun nəşr etdirdiyi "Azərbycan ədəbi dili tarixi", I cild (XIII-XVI əsrlər) kitabında da Azərbaycan dilçilərinin "ilə" qoşması və bağlayıcısı haqqında fikirləri təkrarlanır. Əlavə olaraq bir məsələ qeyd olunur ki, "şərti olaraq birgəlik mənası ilə təqdim olunan ***"ilə"*** qoşması (fonetik variantları ilə) "Kitabi- Dədə Qorqud" dövründən başlayaraq Azərbaycan ədəbi dili tarixinin bütün mərhələlərində yazı dilinin forma və janr məhdudiyyəti tanı-

mayan ən fəal və ən çoxmənalı qoşmalardan biridir. Sonra da qeyd olunur ki, "demək olar ki, müasir vəziyyətinə uyğun şəkildə ***"ilə"*** və onun variantları qoşma olmaqla əlavə bağlayıcı "və" adverbiallaşdırıcı formadır" (5, 423).

Göründüyü təkin "ilə" sözünün etimologiyası verilməmiş və türk dilinin yazılı abidələrinin faktları kənarda qalmışdır. Bircə qeyd olunur ki, "ilə bağlayıcısına hələ Nəsimi dövrü ədəbi-bədii dilində tez-tez rast gəlmək olur (5, 433). Bundan başqa yazılıb ki, ***"və"*** ərəb mənşəlidir, lakin ***"ilə"*** sözünün mənşəyi haqqında bor söz deyilmir. əslinə qalsa, ərəblər V əsrə qədər nə yazmağı, nə də oxumağı bilirdilər. Onlarda şifahi deyim çox aktiv olub, çox məsələləri yaddaşda saxlamaq bacarığına malik olublar. Araşdırmalar bəlli edir ki, ərəblərdə hesablamalar daha tez yaranmışdır. Azərbaycan dilində cəbr, həndəsə, riyaziyyat və s. elə ərəb mənşəlidir. Qaldı ki, ***"və"*** bağlayıcısına –onun ərəb mənşəli olması doğrudur, belə ki, Azərbaycan dilində ***"v"*** ilə başlanan sözlərin əksəriyyəti alınmadır. Amma məlumdur ki, Şərq coğrafi məkanı çoxdilli xalqların məkanı olub. Buradakı xalqlar ikidilli, üçdilli şəraitində yaşayıb ünsiyyət bağlamışlar və onların vəhdətindən ***"və"*** ünsürü bizə miras qalmışdır. Bundan başqa, düşüncələr deyir ki, irqindən, dilindən asılı olmadan ***vaxsey, vavella, vay*** ifadələri də ərəb mənşəlidirlər?! Əlbəttə, bunu təsdiq tmək asan deyil. Bu "idrakdan kənar dərketmə"dir. Belə ki, vayşivən dedikdə iki eyni mənalı sözün birləşməsini görəcəyik- ***vay*** elə ***şivən*** deməkdir. Bunların hər ikisi alınmadır.

Deməliyik ki, "ilə" qoşması haqqında hərtərəfli və geniş izahatı H.Mirzəzadə vermişdir. Amma bu qoşmanın mənşəyini göstərməmişdir, lakin müqayisələr üçün sözlər vermişdir. Müəllif yazıb: "bu gün türk dillərinin çoxunda müxtəlif səs tərkibinə malik olan formaları ***birlən, birlə, menen, berlə, belen, ilə, -la, -lə*** tarix boyu Azərbaycan dilində işlənmişdir. Xətainin "Dəhnamə" əsərində bilən qoşmasına rast gəlirik. Məsələn:Axar sənəm ayağına çün çay. Dürdanə bilən səni qılar bay (1, 208). Düşünürəm ki, "Dürdanə bilən sözün mənası bilərək ifadəsini bildirir. Məlumdur ki, ***-ak, -ək*** morfemindəki ***r//k*** ünsürü, yığcamlıq, cəmlik bildirir. Elə bilən sözü də bil və -ən cəmlik ikilik bildirən göstəricidir. M.Hüseynzadə bir az fərqli fikirdə olmuşdur. Müəllifə görə, birlə, bilə qoşması iki tərkib hissədən əmələ gəlmişdir, yəni say bildirən bir sözünün feil düzəldən –lə şəkilçisi və qədim feili-bağlama şəkilçisi ***–n-*** ünsürü ilə birləşməsindən düzəlmişdir. Bir-lə-n vaxtilə birlikdə demək imiş (1, 208). Bəli, burası belədir, hələ düz+lə+n ifadəsi də bu strukturdadır. Amma İlliç Svetiviçin tədqiqat metodu ilə müxtəlif dillərin materialları əsasında axtarış aparsaq, onda məlum olar ki, türk dillərinə qohum olmayan dillərdə də belə oxşar xüsusiyyətlər var. Məsələn, iran dillərinin talış qrupunda ***"i"-"bir"*** deməkdir və ***il+lə>i+lə*** dedikdə bir dənə, ***i*** qılə dedikdə isə bir gilə düşünülür və bunların fərqi kontekstdə daha aydın seçilir. Talış dilində ***ilə>illə*** -birdənə sözünün variantı qıləy sözüdür,

ifadəsidir. Müqayisə üçün: illə sefım çıne- "*bir dənə alma dərdim*" və ya "*i git məşum səy*"-" bir cüt ayaqqabı aldım". Buradakı "git" –cüt deməkdir. əslində gilə-"qılə"- yumru, girdə əşyalara hər iki dildə deyilir. Məsələn, yuxarıdakı cümlədə qıləy sefım çınime-təkibindəki qıləy sözünü "ilə" morfemi ilə əvəz etmək olar və "i"-bir sözü ixtisar olur: i qıləy-demək əvəzinə, -qıləy-birdənə deyilir. Məncə çoxları "Quran" kəlamını bilir və deyir: La-illah-il-əllah- Tərcüməsi Allah təkdir, vahiddir. Onda bəs bu ifadəni "ilə"-ni hansı dilə bağlamaq olar? Demək çətindir. Göründüyü kimi F.A.Cəlilovun fikri bir daha yada düşür və müəllifin yazdığı "ilə vəhdətlik yaradan ünsürü" həqiqətən tədqiq olunmağa ehtiyacı var və biz də bu məsələnin həllinə nostratik metodla həyata keçməsinin tərəfdarı olduq.

F.A.cəlilov qeyd edir ki, "birgəlik- alət halının nəzərdən keçirdiyiniz çoxçeşidli şəkilçiləri ***–be, -la, -n₁, -n₂*** arxetiplərindən törəyən morfemlərin qoşulmaları ilə yaranmışdır. Sonralar –la morfemi birlə ***(birlə)*** və ilə ***(i-lə)*** qoşmasının, ***-be*** morfemi ilə ***-bıla//bılan*** qoşmasının formalaşmasında iştirak etmişdir ki, həmin qoşmalar da birgəlik –alət halının funksiyasını daşıyır. Müəllifə görə "ümumiyyətlə, birgəlik –alət halının bəzi şəkilçiləri digər hallardan fərqli olaraq vurğusuz deyilir. Bu hadisəni Talış dilinə də aid etmək olar. Məsələn, talış dilində ***əvun+lə-*** onlarla, ***dəylə-onunla*** və s. Professor F.A.Cəlilov doğru olaraq qeyd edir ki, "şəkilçi yalnız ***ilə //ilən*** qoşmasından yarana bilər, çünki vurğusuz hecada saitni itirən ilə//ilən qoşması həmin vəziyyətə düşə bilər (4, 200). Bəs onda ilə qoşması hansı sözdən və hansı formadan yaranıb?! Əlbəttə ki hərəkətdən-feildən, çünki bu ünsür sözlərə qoşularaq vəhdətlik yaradır, birgəlik işin icrasına xətm verir.

Məşhur türkoloq K.M.Musayev bu məsələyə , məncə, daha dəqiq yanaşır və qeyd edir ki, tərkibində bir və -lə// -la ünsürləri ilə birləşən birlən qoşması bir-sıra sayının hesabına yaranmışdır. Bu qoşma Orta Asiya türklərinin dilində geniş yer almışdır. Sonrakı inkişafı ***-da //-ta*** ilə bağlıdır: «***kaz. biraqta, kirq. biroqta-но, однако me***». Müəllif yazıb: «Наконец, наибольее расраспространение в тюрских языках получил союз, возникокший от глагольной основы, образованной от числительного – bir (bir+ глаголообразующий афф. –la+аффикс деепричастия -н): кум. ***Bulan;*** Узб. ***bilan***; Уйг. ***bilan;*** Туркм. ***bilen***; Кирг., Каз. ***benen/menen/penen***; Туб. bile; Квалк. ***bla***; Каз.***men/ ben*** / pen; Ног. ***man/ban/pan***, ***men/ben/pen***; Ктат. ***nen/ilə***; ***Гаг.lan/l̇än, nan/nän***, Тур. ***ilə/-la/-***le: Alt. ***la/la/lo/lö***; ***nan/nen***. Все с соединителььным значением «и». Широкая распростпанност числительного "bir" и возникшего на его основе саюза дают возможность препологать, что первичная форма данного союза, имевшая вначале функцию последого, а еще ранее наречия деепричастия, является обшщетюркской и существовала еще в пратюркскую эпоху. (6,514). Deməliyik ki, K.M.Musayev və aşağıda fikirlərini yazdığım

F.A.Cəlilov rus türkoloqları (a.N.Koponov və başqaların) əsərlərinə istinadən fikir söyləmişlər, amma yeni yanaşmada. Məsələn, F.A.Cəlilov yazır: "Doğrudur, birlən/bilən/blan transformasiyası mümkündür, lakin bu transformasiya onlarla allomorf olar. Birgəlik halın şəkilçilərini əhaə edə bilmir və həm də qədim forma burada innovasiya kimi verilir. Məsələn, Karaim dilindəki ***atba (atnan),*** Çuvaş dilindəki ***manpa (mənnən)*** sözlərində işlənən ***–ba/-na*** birgəlik hal şəkilçisi birlən qoşmasının tərkibi ***(bir-lə-n)*** aşkara göstərir ki, bu sözün özündə birgəlik anlamı ilə bağlı üç müxtəlif morfem vardır və həmin morfemlərin qovuşmasından yaranan bu söz daha cavandır (4, 231). Məsələni belə izah etmək də doğru deyil, yəni "qovuşma cavan və ya qoca" ola bilməz. Söz cümlə daxilində (danışıqda daha çox) ixtisara məruz qalıb və get-gedə tarixi formasını dəyişərək ilə (bəzi dialektlərdə ilən) şəklinə düşmüşdür. Bu morfem feildən yaranmış, öz birgəliyini qorumuş xalis türk mənşəli söz morfemdir.

Ədəbiyyat:

1. M.Hüseynzadə, Müasir Azərbaycan dili, Bakı-1963
2. Q.Ş.Kazımov, Müasir Azərbaycan dili, Bakı-2010
3. H.Mirzəzadə, Azərbaycan dilinin tarixi qrammatikası, Bakı-1990
4. F.A.Cəlilov, Azərbaycan dilinin morfonolohiyası, Bakı-1985
5. Azərbaycan ədəbi dili tarixi (XIII-XVI əsr), I cild, bakı-2007
6. Сравнительно- историческая грамматика тюркских языков. Морфология. Москва -1988
7. M.Şirəliyev, Azərbaycan dialektologiyasının əsasları, Bakı-1967

М.Мамедов
Л.Маджидова

Лингвистический анализ морфемы "ilə", "tək", "təkin", "nə" в Азербайджанском языке

Резюме

Известно, что лексические изыскания являются неотъемлемой частью историко-сравнительного изучения языков, первые поиски генетической общности которых начинаются, по существу, с лексических сопоставлений. Подбор убедительных параллелей необходим для проникновения в сущность особенностей развития и исторически сложившихся регулярных расхождений в звуковом облике сравниваемых слов, что является краеугольным камнем сравнительно-фонетических построений. В статье рассматриваются союзы "ilə" и морфе-

мы “təkin”, “nə” именно в сравнительным аспекте. Развитие союзов как отдельной служебной части речи происходит за счет наречий, глаголов, частиц, местоимения и др. частей речи и в большинстве тюркских языков индивидуально. Но есть в ряде языков развития сходные. Наибольшее распространение в тюркских языках получил союз, возникший от глагольной основы, образованной от числительного bir (bir+ глаголообразующие афф.-la+ аффикс деепричастия -n)>birlən > bilən>bilə><ilə. Нами анализируется случаи, где они выполняют функцию союза.

M.Mammadov
L.Majidova

Linguistic analysis of the morphemes "-ilə", "-tək", "-təkin", "-nə" in the Azerbaijani language.

Summary

It is known that lexical research is an integral part of the historical comparative study of languages, the first search for a genetic commonalities of which begins, in essence, with lexical comparisons. Selection of convincing parallels is necessary for penetrating into the essence of characteristic of development and historically formed regular discrepancies in the sound form of compared words, which is the cornerstone of comparative-phonetic constructions. The article deals with conjunctions "ilə" and the morphemes "-təkin", "-nə" in the comparative aspect. Formation of conjunctions as a separate functional part of speech is due to adverbs, verbs, particles, pronouns and other parts of speech and in most Turkic languages it takes place individually. But there is a similar conditons in a number of languages. The most widespread in the Turkic languages was a conjunction derived from the verbal stem formed from the numeral *bir* (*bir* + verbal affix.-*la* of the participle*) -birlən> bilən> bilə> <ilə*. We analyze cases where they perform the function of a conjunction.

Rəyçi: **Nadir Məmmədli**
Filologiya üzrə elmlər doktoru, professor

ƏSMƏTXANIM MƏMMƏDOVA
BDU
Filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: kamillik@mail.ru

MÜASİR FARS DİLİ SEQMENTASİYASINDA /CC/ NOVLU SAMİT BİRLƏŞMƏLƏRNİN FONETİK SƏCİYYƏSİ

Açar sözlər : samit, sait, novlu samitlər , heca, fonem,
Ключевые слова: согласный, гласный, щелевые согласные, слог, фонем
Key words: consonant, vowel, fricatives, syllable, phoneme

Giriş: Fars dili fonem inventarının sayının 6 monoftonq sait, 23 samitdən ibarət olduğunu bildiyimizdən 3 heca növünü əsas götürərkən, bu dilin hecalarının sayı 76314 olmalıdır. Lakin dildəki fonemlərin yanaşı işlənməsindəki məhdudiyyətə əsasən bu hecaların sayı xeyli azdır.

Müqəddimə: Bütün dünya dillərində hər bir fonemin hansı fonemin yanında gəlməsi həmin dilin daxili qanuniyyətindən asılıdır. (2, s. 257) Fonemlərin bir-birinin yanında yerləşməsi "məhdudiyyətə" (constraint-ing.), yerləşmə imkanına (struktral pressure) bağlıdır. Belə olduqda dilin həqiqətdə işlətdiyi hecaların sayı yuxarıda verilmiş rəqəmin onda birindən də kiçik bir ədəd təşkil edir. Dildə qəbul edilib işlənən hecalar üçün iki xüsusiyyət vacibdir: 1. Hecanı təşkil edən səslər dilin heca quruluşuna uyğun olmalı; 2.Həmin heca dilin sözləri daxilində, söz yaradıcılığında iştirak etməlidir. Biz bu tədqiqatımızı dildə mənası olan birhecalı sözlər əsasında qurmuşuq.

1.1. Heca modellərində sait və samitlərin fonetik şəraiti:

Bildiyimiz kimi hecanı təşkil edən sait səslər aparıcı, mərkəz səslərdir. Samit səslər isə ya mərkəz səsdən əvvəl, ya da sonra gəlir. Fars dilinin bir hecalı sözlərinin hər birində sait səslər istisnasız olaraq iştirak edir. /V/, /VC/,/CV/, /VCC/,/CVC/,/CVCC/ (klassik fonetikada belə qəbul edilmişdir). Son dövrlər bəzi fonetistlər örtüsüz /V/, /VC/, /VCC/ kimi hecaların varlığını qəbul etmədiklərindən, bu dildə ən işlək 3 heca modeli - /CV,CVC,CVCC/ olduğunu vurğulayılar. (5, s. 109; 3, s.145)

Fars dili sait fonemlərinin hhər biri mərkəz səs kimi hecaların tərkibində iştirak edə bilirlər:

1. /CV/ heca tipində mərkəz səsdən sonra heç bir fonem gəlmir. Yəni sait fonem həm də hecanın sonunu bildirir. Məsələn: /ba; bə-dən; be; bo-lur; bu; bi; /. Qeyd edilməlidir ki, hecanı başlayan, həm də mərkəz səslə samit arasında da müəyyən əlaqə mövcuddur. Araşdırma göstərir ki, belə vəziyyətdə dilin hər bir samit səsi gələ bilmir. Belə ki, fars dilində 6

monoftonq saitin /o/ fonemi istisna olmaqla 23 samitdən sonra heca başında gələ bilir. / ž / samiti /o/ saitindən əvvəl heç bir heca daxilində söz və morfem kimi işlənə bilmir. Başqa sözlə fars dilində /žo/ hecası mövcud deyildir.(1, s. 69)

2. /VC/ tipli hecalardakı məhdudiyyət /CV/ hecasına nisbətən daha çoxdur.

- heca yaradan səslər /e/ və /o/ saitləridirsə, /g/ samiti hecanın sonuncu səsi ola bilməz. Çünki, fars dilində /eg/, /og/ samit birləşmələrinə təsadüf edilməmişdir.

- hecanın mərkəzi səsi /u/ saitidirsə, ondan sonrakı samit səs /v/ ola bilməz. Başqa sözlə, fars dilində /uv/ hecası yoxdur.

- hecanın mərkəzi səsi /i/ saitidirsə, ondan bilavasitə sonra gələn səs / ž / ola bilməz. Fars dilinin hecaları arasında /iž/ yoxdur.

- yuxarıda verdiyimiz bu istisnalardan başqa /VC/ hecasıında fars dilinin hər bir samiti mövcud saitləri izləyə bilirlər.

3. Bir samit səslə başlayıb, bir samitlə qapanan heca /CVC/. Göründüyü kimi burada samit səs həm də hecanın sonudur. Məsəslən : Məsələn: /dar; dur; dir; ça-dor; dər; dež/.

4. Bir samit səslə başlayıb, iki samit səslə qapanan heca /CVCC/. Belə hecalarda mərkəz səsdən sonra 2 samit fonem bilavasitə hecanı qapaiır. Mərkəz səsdən sonra gələn bu iki samit də müəyyən qanuna uyğun şəkildə saiti izləyirlər. Məs.: /daşt; dust; bist; dəst; cost; nesf./

2.1. Samit səs birləşmələri:

Fars dilində hecanın sonu və söz daxilində ən çoxu 2 və ys 3 samit səs yanaşı gələ bilir. (4, s.125) Bu yanaşı işlənən samitlərə fars dilində (xuşe); ingilis dilində isə (cluster combination) deyilir. İki yanaşı gələn samit /VCC/ və /CVCC/ tipli hecalarda; üç samit fonem birləşməsi isə sözlər daxilində /CVCC/+/CVC/, yaxud /CV/ heca tiplərinin birləşməsi zamanı olur. Məs.: /dəstbafi/- əl ilə toxunmuş; /dəstbus/-əl öpmə; /dəstbənd/- qolbaq və s.

Bizim tədqiqatımızda /CVCC/ tipli bir hecalı sözlərdəki yanaşı gələn və birləşmə yaradan samitlər, onlarda baş verən fonetik məhdudiyyət, uyğunluq xüsusiyyəti çərçivəsində dilin qanuniyyəti araşdırılmışdır.

Fars dilində 23 samit fonem olduğunu nəzərə alsaq, bu dildə /CC/ tipli iki samit birləşməsi: 23x23 = 539 olmalı idi. Heç bir istisna olmadan ikihecalı leksemlərin birləşmələri zamanı 2 samitin yanaşı düşməsi mümkündür. Ancaq bir cəhəti unutmaq olmaz ki, heca ayrıcında daxili fasilə, iki leksem birləşməsi zamanı isə həm fasilə, həm də durğu onların tələffüzündə fonetik, akustik fərqlər yaradır. İkihecalı sözlər daxilindəki /CC/ birləşməsi 529 – dan 331; birhecalı sözlər daxilində isə cəmi 205 – dir. Yəni əslində birhecalı /CVCC/ tipli sözlərdə /CC/ (iki samitin yanaşı gəlməsi böyük məhdudiyyət qarşısında qalır)

Demək dildə 529 mümkün variantdan yalnız 205 –nə rast gəlinir, 324 –ü isə dildə potensial vəziyyətdə qalır. Məsələ ondadır ki, yuxarıda daha çox iki samitin yanaşı gələ bilməsi zamanı (ikihecalı sözlərdə: 331); leksemlər arasında, sürətli tələffüzdə məhdudiyyətin olmaması yanaşı gələn samitlərin öz xarakterlərindəki (yanaşı gələ bilməmək) cəhətə görə dilin fonem quruluşu çatışmazlığı ləğv etmək, tələffüzü asanlaşdırmaq üçün assimilyasiya, eliziya, dissimilyasiya, metateza, proteza,cingiltiləşmə, karlaşma kimi müxtəlif fonetik hadisələrdən istifadə edir.

3.1. Növlu samitlər /CC/ birləşməsində

İki novlu samitin əmələ gəlməsi üçün artikulyasiya məxrəcində iki nöqtədə tələffüz orqanları daralmalı və nov əmələ gətirməlidir. Bu daralma, novlaşma bəzən səs telləri yaxınlığında, bəzən xirtdəkdə,bəzən yumşaq damaqla dil arasında (müxtəlif yerlərində), dodaqlar, dişlərin arxası və s. yerlərdə daralma və novlaşma yaranır.

Cədvəl 2-1 $C_{nəvlu}$ C_{novlu} 2 novlu samitin yanaşı gəlməsini əks etdirən cədvəl

f	v	s	z	š	ž	x	h	novlu- novlu
	lovh							h
nəfx		nəsx						x
								ž
kəfš	hovš					bəxš	fohš	š
ləfz	lovz					ʼəxz	məhz	z
nəfs	lovs					šəxs	bəhs	s
	jovf	nesf	həzf	kə šf				f
ʼəfv			ʼozv	əšv			məhv	v

Aşağıdakı cədvəldə novlu samitlərin tələffüz orqanlarının hansı hissəsində hava axını üçün nov əmələ gəldəyini aydın görmək olur.

Cədvəl 2-2 C_{novlu} C_{novlu} samit birləşməsində iki novun tələffüz orqanlarının hansı hissəsində əmələ gəlməsini göstərən cədvəl.

C_{novlu} C_{novlu} birləşmələr	Birinci novun əmələ gəldiyi yer	ikinci novun əmələ gəldiyi yer
/xs , xz, xš /	dilçək dibi	damaq (yumşaq damaq)
/sx/	dişarxası (dil)	dilçək dibi
/sf, zf, zv, šf, šv/	- - - - - - - -	damaq
/vs,fs, vš, fš,fz, vz /	aşağı dodaq	yumşaq damaq
/fx/	- - - - - - - -	dilçək
/vh/	- - - - - - - - -	xirtdək

/fv, vf/	- - - - - - - -	aşağı dodaq
/hv/	xirtdək	- - - - - - - -
/ hs, hz, hš/	- - - - - - -	yumşaq qamaq

Araşdırma göstərir ki, 23 yanaşı gələn nolu samitlərin 6 – nın tələffüz məxrəclərində hava axını üçün nov yaradan üzv eynidir. Lakin burada onların əmələgəlmə yerinə nəzər salsaq, onların ; 4 - nün yumşaq damağın müxtəlif yerlərində (başlanğıc, orta və qurtaracağında) olduğu, yalnız ikisinin /vf; fv/ samit birləşmələrindəki fonemlərin novlarının çox yaxın yerdə olduğu görünür. Buradaca demək lazımdır ki, buna verilən misala nəzər yetirsək, ʼ/ ʼəfv/ sözündə /f/ yerinə uzun /ə/ tələffüz olunur. Belə ki, həmin söz / ʼə:v/ kimi tələffüz edilir və eşidilir. Bundan əlavə ərəb dilindən alınmış daha iki nümunədə /jovf/ və /xovf/ sözlərində و /v/ samiti öz sait variantına keçərək, /ou/ kimi, yəni /jouf/, /xouf/ kimi tələffüz edilir. Yanaşı gələn iki C_{novlu+} C_{novlu} variantlarının fars dil daşıyıcıları üçün ən asan tələffüz formaları aşağıdakılardır:

1.Samit fonemlərin formalaşdığı tələffüz orqanları, nov əmələ gələn artikulyasiya yerlərinin bir-birindən fərqli olması;

2.Fonemlərin formalaşdığı tələffüz orqanları arasındakı məsafənin çox olmasıdır.

Cədvəl 2-3. Novlu samitlərin kar və cingiltili xüsusiyyətlərinə görə tədqiqi

Birinci samit	s a m i t	i k i n c i	s a m i t	Birləşən samitlərin növü
kar C_2	cingiltili C_1	kar C_2	cingiltili C_1	
-	2	-	2	birinci - C_1C_1
10	-	10	-	ikinci - C_2C_2
5	-	-	5	üçüncü- C_1C_2
-	6	6	-	dördüncü - C_2 C_1

Yanaşı gələn iki novlu samiti cingiltili, kar xüsusiyyətlərinə görə araşdırdıqda, aşağıdakı nəticələri əldə etmək mümkündür. Dildə təsadüf edilən 23 novlu /CC/- dən cəmi 2 –si /$C_1C_{1/}$; 10 – nun hər ikisi kar- /$C_2C_{2/}$; 6-sı: /C_2 $C_{1/}$; 7 – si: /$C_1C_{2/}$ –dir. 16 nümunədə birinci tərəf; 15 nümunədə isə ikinci tərəf kar samitdir. Bu araşdırmadan belə nəticəyə gəlmək olur ki:

1. İki novlu samitin yanaşı gəldiyi birhecalı sözlərin tələffüzündə kar samitlər və karlaşma xüsusiyyəti üstünlük təşkil edir.

2. İki novlu birləşməsində ən asan tələffüz iki kar samit yanaşı gəldikdə, yəni C_2C_2 - nin iştirak etdiyi sözlərdə olur: /bəxš, šəxs, kəšf, nesf/ və s.

3. İki novlu samitlərin birincisi kar , ikincisi cingiltili olduqda, sondakı cingiltili samit iki təsirə məruz qalır. Həm özündən əvvəlki kar samitin təsirindən geriyə assimilyasiya (regressive assimilation; həmquni-ye pəsgəra) nəticəsində, həm də söz sonunda Hind Avropa dillərində söz sonunda cingiltili samitin karlaşması qanununa əsasən ikiqat karlaşmaya məruz qalır. Son olaraq /C_2 $C_{1/}$→ /$C_2C_{2/}$ – yə çevrilir: /hefz→hefs; məhz→məhs kimi tələffüz edilir./

Fars dilində mövcud olan 8 novlu samit /f, v , s, z, š, ž, x, h/ əgər heç bir maneəsiz və məhdudiyyətsiz bir-birini izləyə bilsəydi, o zaman dildə: 8 x=8 belə birləşmə variantı olardı. Lakin 2-1 cədvəlindən göründüyü kimi dildə iki novlu birləşmənin yalnız 23 nümunə olmaqla 41-i potensial vəziyyətdə ehtiyat mənbə kimi mövcuddur. Bu tip birləşmələrin təxminən 3/2 – sinin dildə işlənməməsi isə samit fonemlərin yanaşı gələ bilməmək məhdudiyyəti ilə əlaqədardır. Həmin məhdudiyyətin novlu samitlər üçün nədən ibarət olduğunu nəzərdən keçirək:

1. Novlu /CC/ birləşməsində iki eyni samit yanaşı gələ bilmir./məs.: ss, ff, vv... /. Belə olduqda bu samitlərdən biri mütləq tələffüzdən düşür.

2./ CC/ novlu samitləri eyni və ya çox yaxın tələffüz məxrəcində formalaşırsa, dildə belə birləşmələr mövcud deyildir:/sž, žf, žv və s./

3. /ž/ novlu samitinin birləşmələrdə iştirakı sıfra bərabərdir. Bu samit səs fars dilinin özünə məxsus dörd səsindən biridir. /ž/ söz yaradıcılığında da çox passiv iştirak edir. Odur ki,araşdırmada /sž, žf, žv/ birləşmələrə təsadüf edilməmişdir.

4. /h/ novlu /CC/ birləşmələrində həmişə birinci yerdə durur: /məhz, bəhs, foks və s./ Yalnız bir dil faktında ərəb dilindən alınmış /məsh/ sözündə birinci samit olur. Məlum olduğu kimi burada /h/ tələffüzdən düşür. Əvəzində mərkəz səsi /ə/ tələffüzcə uzanır, nəticədə söz /mə:s kimi tələffüz edilir. Fars dilində /zh, fh, sh.../ kimi birləşmələrə təsadüf edilməmişdir.

5. /CC/ birləşməsndə novlu , sürtünən samitlər tələffüz məxrəcləri çox yaxın olduğu üçün yanaşı gələ bilmirlər. Ona görə də fars dili bir hecalı sözlərinin sonunda /...zš, šs / samit birləşmələri mövcud deyildir.

6. /CC/ birləşməsində /hx, xh/ kimi novlu samitlərin tələffüz məxrəcləri xirtdəkdə, boğazda bir-birinə çox yaxın olduğu üçün onlar da fars dilində işlənmir.

7. Onu da qeyd etmək lazımdır ki, /h/ /CC/ birləşməsinin birinci samiti olarsa, birləşmənin ikinci samiti yalnız / š, z, s,v/ ola bilər.

Nəticə: Bizim tədqiqatımızda /CVCC/ tipli bir hecalı sözlərdəki yanaşı gələn və birləşmə yaradan novlu samitlər, onlarda baş verən fonetik məh-

dudiyyət, uyğunluq xüsusiyyəti çərçivəsində dilin qanuniyyəti araşdırılmışdır. /CC/ samit birləşməsində iki novun tələffüz orqanlarının hansı hissəsində əmələ gəlməsi , eləcə də birləşən samitlər kar və cingiltili xüsusiyyətlərinə görə tədqiq edilmişdir. Alınan nəticələr məqalə boyu tezislər şəklində verilmişdir.

Ədəbiyyat:

1. Məmmədova Ə.B., Müasir fars dili fonemlərinin heca daxilində reallaşması Dil və Ədəbiyyat Beynəlxalq Elmi-nəzəri jurnal, 4(64), səh. 66 -72, Bakı, 2008
2. Məmmədova Ə.B., Müasir fars dili samit fonemlərinin distribusiyası Az.MEA, akad. Z.M.Bunyadzadə adına Şərqşünaslıq İnstitutunun Elmi tədqiqləri, Şərq filologiyası məsələləri, IY buraxılış, səh. 252-275, Bak,ı 2009
3. Məmmədova Ə.B., Fars dilinin orfoqrafiyası **(dərs vəsaiti)** "Elm və təhsil" nəşriyyatı, 231 səh. Bakı 2011
4. Мамедова А.Б., Фонемный инвентарь современного персидского языка, «Перспективы науки», Научно-практический журнал,№ 10, октябрь, стр. 125-129, Тамбов: 2013
5. Yədollah S., Avaşenasi-ye zəban-e farsi, virayeş-e dovvom, Mərkəz-e nəşr-e daneşqahi, Tehran: 1392, 195 s.

Мамедова Асметханум

A.Mammadova

The phonetic characteristic fricatives consonant units in modern Persian segmentation /CC/

Summary

This article has been investigated inside the /CC/ units of the contemporary fricatives consonants of modern Persian language / CC / merger. From the research, it can be seen that none of the consonant voices found in the tongue can come along with one word. Only a certain part of the new consonants on the basis of domestic law can be accompanied by certain consensus.

The / CC /consonant combination has two types of pronouns in the composition of the pronunciation organs, as well as the fact that they are profit and dumb. The most optimal option for pronouncing the type of fricatives consonant / CC / combination in the pronunciation of language is that the articulation denominator of the consonants is interval and distance. The obtained results are reflected in various theses.

А.Мамедова

Фонетические особенности щелевых согласных в сочетаниях / СС / в сегментации современного персидского языка

Резюме

В этой статье исследуется вопрос о щелевых согласных в консонантных сочетаниях в персидском языке. В результате исследования можно прийти к выводу о том, что не все согласные звуки, имеющиеся в языке, могут находиться рядом в рамках одного слова. Согласно внутренним законам языка , лишь определенное число щелевых согласных могут сочетаться с определенными согласными звуками в слове.

В консонантных сочетаниях играет определенную роль то, в каких именно органах артикуляции происходит образование двух щелевых согласных, а также то, являются они звонкими или глухими звуками.

В произношении носителей языка в консонантных сочетаниях щелевых согласных самым оптимальным вариантом является удаленность друг от друга органов артикуляции и наличие расстояния между ними. Полученные выводы отражены в различных тезисах.

Rəyçi: Leyla Mahmudova
Fillogiya elmləri namizədi, dosent

LEYLA MAHMUDOVA
BDU-nun dosenti
mahmudova.1969@mail.ru

MÜASİR FARS DİLİNDİ HƏMCİNS MÜBTƏDALI CÜMLƏLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: sadə cümlə, cüttərlibli cümlə, şəxssiz cümlə, feili xəbər, sintaktik məna, qrammatik məna, fars dilində xəbər.
Ключевые слова: простое предложения, двусоставные предложение, безличное предложение, глагольное сказуемое, синтаксическое значение, грамматическое значение, сказуемое в персидском языке.
Key words: a simple sentence, mononuclear sentences, impersional sentences, verbal predicate, sintaksis meaninq, qrammatik meaninq, predicate in Persian language.

Həmcins üzvlər bərabərhüquqlu, bir-birindən asılı olmayan sözlərin birləşməsidir. Həmcins üzvlərin qovuşması ancaq cümlə cərcivəsində olur. “Bunlar (həmcins üzvlər) nominativ vəzifəyə malik deyildir. Daha doğrusu, onlar həqiqi varlığın, əşyaların və hadisələrin adları deyil, bir sözün başqa sözlə semantik cəhətdən genişləndirilməsidir” (1, 12).

Həmcins üzvlər cümlədə eyni sintaktik vəzifə daşıyır, eyni üzvə aid olur, ya birləşdirici fasilə, sadalayıcı intonasiya və ya bağlayıcılarla bağlanır. Qrammatik həmcinsliklə məntiqi həmcinslik bir-birinə uyğun gəlir. aid olduqları sözlərlə eyni sintaktik münasibətdə olan eyni adlı cümlə üzvləri hec də həmişə həmcins üzvlər kimi cıxış etmir.

Dildəki təkrarların coxu ilk baxışda həmcins üzvlərə bənzəyir, cünki bunlar da həmcins üzvlər kimi eyni cümlə üzvlərinə aid olur. Işin təkrarlığını, davamlılığını, şəxsin, əşyanın kəmiyyətcə coxluğunu, əlamətinin qüvvətləndiyini göstərən eyni sözün təkrarlanmasını həmcins üzv hesab etmək olmaz. Çünki həmcins üzvlərdə müxtəlif əşya, əlamət, keyfiyyət və ya iş sadalanır (2, 213).

Həmcins üzvlər tabesizlik əlaqəsi ilə bağlanıb eyni sintaktik münasibətdə olur. Onlar cümlədə eyni sintaktik vəzifədə cıxış edir. Bunlar da müxtəlif bağlayıcılarla və yaxud sadalama intonasiyası ilə bir-birinə bağlanır. Onlar aid olduqıarı sözə münasibətdə əsasən eyni şəkli əlamətə malik olur.

Həmcins üzvlər bəzən ayrı-ayrı nitq hissələri və ya söz birləşmələri ilə müxtəlif şəkildə ifadə edilə bilər.

Cümlə tərkibində onun ayrı-ayrı üzvləri eyni sintaktik vəzifə daşıya, həm də eyni sintaktik münasibətlə eyni üzv ətrafında birləşə bilər. Cox

zaman həmcins üzvlər üçün eyni morfoloji ifadə səciyyəvidir. Həm mübtəda, xəbər, tamamlıq, təyin, zərflik, həm də bütöv birləşmələr cümlə tərkibində həmcins ola bilər. Bunlardan başqa eyni cümlədə eyni üzv olur ki, bunlar eyni sintaktik vəzifə daşıyır. Onlar eyni cümlə üzvünə aid olub, məna cəhətdən onu eyni dərəcədə təyin edir, eyni suala cavab olur. Həmcinsliyin xarici ifadə vasitəsinə intonasiya, bağlayıcılar, sözün forması daxildir (2, 215).

Cümlədə iki və ya daha artıq eyni üzv bir və ya bir neçə üzvlə eyni cəhətdən sintaktik əlaqədə olarsa, belə üzvlərə həmcins üzvlər deyilir.

Həmcins üzvlər cümlədə eyni sintaktik vəzifə daşıyır, eyni üzvə aid olur. Həmcins üzvlər bir-biri ilə ya yalnız birləşdirici pauza ilə, ya da bağlayıcı ilə birləşdirilir. Həmcins üzvlər cümlənin bütün üzvlərindən ola bilər.Məsələn:

خانواده برای خود هنجار و حریم و قانون و آدابی دارد.

(xanevade bəraye xod həncar o hərim o ğanun o adab darəd)

Ailənin özünün tərzi, qadağaları, qanun və adətləri vardır.

هرکس به آسانی نمی تواند آن حریم و دیوار امنیت خانواده را فرو بریزد و وارد فضای پاک و امن آن شود.

(hər kəs nemitəvanəd beasani nemitəvanəd an hərim o divar-e əmniyyət-e xanevade ra foru berizəd və vared-e fəza-ye pak o əmn-e an şəvəd)

Hər kəs asanlıqla bu qadağalardan və ailənin təhlükəsizlik divarından keçə və onun təhlükəsiz və pak fəzasına daxil ola bilmir.

علم و فن انسان را در مسیر کمال و رسیدن به اخلاق متعالی کمک کنند

(elm o fənn ensan ra dər məsir-e kəmal və residən be əxlağ-e moteali komək konənd)

Elm və bilik insanın kamala və yüksək əxlaqa çatmasına kömək edir.

Cümlədə iki və ya daha artıq mübtəda eyni xəbərlə sintaktik əlaqədə olarsa, belə mübtədalara həmcins mübtədalar deyilir.

رایانه، اینترنت، تلفن و دیگراختراعات علمی از مظاهر آفرینش گری انسان است.

(rayane, internet, telefon və digər extera’at-e elmi əz məzaher-e afərineşgəri-ye ensan əst)

Kompyuter, internet, telefon və digər elmi ixtiralar insanın yaradıcılıq simvollarıdır.

Həmcins mübtədalı cümlələrdə mübtəda cansızlarla itadə edilmişsə, xəbər təkdə olur.

روزها، هفته ها و ماه ها گذشت.

(ruzha, həfteha və mahha qozəşt)

Günlər, həftələr və aylar keçdi.

Həmcins mübtədalar canlılarla ifadə olunduqda, xəbər cəmdə olur.

در جمهوری آذربایجان دانشجویان، کارگران، ماموران حق انتخابات دارند.

(dər comhuri-ye Azərbaycan daneşcuyan, kargəran, məmuran həğğ-e entexab darənd)

Azərbaycan respublikasında tələbələr, fəhlələr, məmurlar seçki hüququna malikdirlər.

Həmcins mübtədalar ya birləşdirici pauza ilə (vergüllə), ya da "و"bağlayıcı vasitəsilə bir-biri ilə bağlanır.

Yalnız birləşdirici pauza ilə bağlanan həmcins mübtədalar:

برادرش، خواهرش، پسرعمویش به خانه ی علی رفتند.

(bəradərəş, xahərəş, pesər əmuyəş be xane-ye Əli rəftənd)

Qardaşları, bacıları, əmisi oğlanları Əligilə getdilər.

"و" bağlayıcısi ilə bağlanan həmcins mübtədalar:

روزی نجف و رحیم برای گردش به پارک رفتند.

(ruzi Nəcəf və Rəhim bəra-ye gərdeş be park rəftənd)

Bir gün Nəcəf və Rəhim parka gəzməyə getdilər.

Həmcins mübtəda ikidən çox olduqda onların ancaq son ikisi "و" bağlayıcısı ilə, əvvəlkilər isə birləşdirici pauza ilə bir-birinə bağlanır:

علم ، دانش و دست آورد های جدید علمی زندگی انسان را دگرگون می سازد.

(elm, daneş və dəstavərdha –ye elmi zendegi –ye ensan ra degərqun misazəd)

Elm, bilik və elmi cihazlar insanın həyatını dəyişdirir.

"و" bağlayıcısından başqa həmcins mübtədalar هم چنین، حتی، نه..، هم، و هم، گاه، و گاه، یا، و یا خواه، وخواه bağlayıcıları ilə də bir-birinə bağlana bilər:

گاه او و گاه من بچه ها را می بوسیدیم.

(qah u və qah mən bəççeha ra mibusidim)

Gah mən, gah da o, uşaqları öpürdük.

هم دانشجویان و هم دانشیاران از نتایج آزمایش ها راضی ماندند.

(həm daneşcuyan və həm daneşyaran əz nətayec-e azmayeşha razi mandənd)

Həm tələbələr və həm də müəllimlər təcrübələrin nəticələrindən razı qaldılar.

کسانی که حسین را می شناختند و حتی در عروسی او شرکت می کردند امروز به او سلام نمیدادند.

(kəsani ke Hoseyn ra mişenaxtənd və hətta dər ərusi-ye u şerkət kərde budənd emruz be u səlam nemidadənd)

Hüseyni tanıyanlar və hətta onun toyunda iştirak edənlər bu gün onunla salamlaşmırdılar.

Ədəbiyyat

1.Арендс А.К. Краткий синтаксис современного персидского литературного языка. М.-Л., 1941.
2.Budaqova Z. İ. Cümlənin həmcins üzvləri. Bakı., 1981.
3. Budaqova Z. İ. Cümlənin ikinci dərəcəli üzvləri. Bakı., 1981
4.Белицин А.П. Безличные предложения в современном персидском языке. Москва, 1969.
3.Пейсиков Л.С. Вопросы синтаксиса персидского языка. Москва, 1956.
4.Рубинчик Ю.А. Современный персидский язык. Москва, 1960.
5.Mahmudov H.Ş. Fars dilində şəxssiz cümlələr. Bakı, 1974.
6.Mahmudov H. Ş. Fars dilində sadə cümlə sintaksisi, Bakı, 1973.
7.Nizami Gəncəvi. Xosrov və Şirin, Bakı, 1981.
8.بهار ملک الشعراء محمد تقی. سبکشناسی. جلد دوم. تهران، 1323
9.خانلری پرویز ناتل. دستور زبان فارسی. تهران، 1351
10.نظامی گنجوی. خسرو و شیرین. باکو، 1960

Л.Махмудова

Семантические особенности предложений с однородными подлежащими в современном персидском языке

Резюме

Статья посвящена особенностям предложений с однородными подлежащими в современном персидском языке.

В частности, указывается, члены также имеют тот же синтаксис, что и предложение, принадлежат к одному члену или соединяются с паузой, сериализованной интонацией или коннекторами.

Идентичность грамматики и логическое совпадение совпадают. члены того же предложения, которые находятся в одинаковых синтаксических отношениях со словами, на которые они ссылаются, не всегда являются членами одной и той же группы.

Многие из повторений на языке похожи на членов на первый взгляд, потому что они являются членами того же предложения, что и те же члены. Дублирование того же слова, которое указывает на повторение, долговечность дела, количественный характер человека, силу его знака, не может рассматриваться как член. Поскольку у членов также есть разные предметы, знаки, качества или задания.

L.Mahmudova

Semantic features of the sentence in modern Persian LANGUAGE

Summary

This article is dedicated semantic features of the sentences in modern Persian language. Membership members also have the same syntax as the sentence, belongs to the same member, or connects with a pause, serialized intonation or connectors.

Grammar identity and logical identity coincide. the members of the same sentence who are in the same syntactic relationship with the words they refer to are not always members of the same group.

Many of the repetitions in the language are similar to the members at first glance because they are members of the same sentence as the same members. Duplication of the same word, which indicates the repetition, durability of the case, the person's quantitative character, the strength of his sign, can not be regarded as a member. Because members also have different items, signs, qualities or jobs.

Rəyçi: Nigar Musayeva
Filologiya elmləri namizədi, dosent

LALƏ MİKAYILZADƏ
Azərbaycan dili və onun tədrisi metodikası kafedrası,
Pedaqogika üzrə fəlsəfə doktoru,dosent
lalamak@mail.ru

AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN İNKİŞAF TƏMAYÜLÜNDƏ NİTQ VƏ DİLİN ROLU

Açar sözlər: ədəbi dil tarixi, dil və nitq, dilin funksional inkişafı, monoloji nitq, dioloji nitq, şifahi nitq, yazılı nitq və s.
Ключевые слова: литературный язык история , язык и речь , язык, функциональное развитие , монологи , письма , речи и так далее.
Key words: literary language history , language and speech , language, functional development, monologues , speaking , writing, speech and so on.

Mədəniyyət insanların ictimai əmək prosesində yaratdığı maddi sərvətlərin və mənəvi nemətlərin toplusudur. Ümumi milli və mənəvi mədəniyyətin tərkib hssəsini nitq mədəniyyəti təşkil edir. Dil insanlar arasında mühüm ünsiyyət vasitəsi olsa da, sadəcə ünsiyyət prosesində əsas iştifadə olunan vasitə deyil, ümumilikdə fikrin ifadəsinə, düşüncənin təzahürünə xidmət edir. Fikir isə gerçəklik faktını ifadə etdiyi kimi, danışanın ona olan münasibətini də bildirir. Belə ki, danışan söylədiyi fikrə özünün bu və ya digər formada emosional münasibətini əlavə edir ki, bu zaman cümlədəki fikir modal məzmunu da özündə ehtiva edir. Dilin özünün rabitəliyliyi, dəqiqliyi, aydınlığı, yiğcamlığı, təmizliyi, düzgünlüyü, sadəliyi, orijinallığı, münasibliyi, səlisliyi və sairə gözəl və emosional nitq üçün əsas şərt hesab edilir. Gözəl nitq millətin mədəni-intellektual səviyyəsinin etiketidir. Azərbaycan dili qrammatik quruluşuna görə türk dillərinin oğuz qrupuna daxil olan ən qədim və zəngin bir dildir. Həm fonetik, həm leksik, həm də qrammatik quruluşuna görə dünyanın ən inkişaf etmiş zəngin dillərindən biri olan Azərbaycan dili fikri ifadə imkanlarına, poetik və psixoloji – estetik təsir gücünə görə dünya dilləri içərisində özünəməxsus xüsusiyyətləri ilə seçilir. Böyük türk tədqiqatçısı Fuad Köprülü yazırdı ki, bütün türk ədəbiyyatını tərəzinin bir gözünə, təkcə "Dədə Qorqud kitabı"nı o biri gözünə qoysan, Dədə Qorqud gözü ağır gələr. Bu dildə xalqımızın zəngin nitq mədəniyyətindən xəbər verən İ. Həsənoğlu, F.Nəimi, Q. Bürhanəddin,N.Gəncəvi,İ.Nəsimi,M.Füzuli,-A.Axundov,M.Ş.Vazeh,M.F.Axundov,M.Ə.Vəzirov M.Ə. Sabir, C.Məmmədquluzadə, Ü. Hacıbəyli kimi dahi sənətkarlarımızın sənət əsərləri yaranıb. Milli mədəniyyətin, nitq mədəniyyətinin qoruyucusu, daşıyıcısı xalqdır. Azərbaycan dilinin zənginliyi və gözəlliyi, tarixən alimlərin, yazıçıların, ictimai xadimlərin və başqalarınn diqqətini cəlb etmişdir. Onların çoxu Azərbaycan

dilini öyrənməyə, bu dildə danışmağa çalışmışla. Böyük rus şairi M.L.Lermontov 1837-ci ildə məktublarının birində dostu S.XŞRayevskiyə yazırdı: " ... dağlar aşdım, Şuşa, quba və Şamaxıda oldum, Azərbaycan dilini öyrənməyə başladım. Bu dil burada, ümumiyyətlə Asiyada, fransız dilinin Avropada olduğu qədər zəruridir".(M.Y.Lermontov.VI cild, M, 1957, 440-441.)Yeni dövr Azərbaycan ədəbi dilinin sonuncu , yəni müasir mərhələsində dil həyatının mühüm hadisələrindən biri Azərbaycan ədəbi dilinin dövlət dili statusu almasıdır. Ancaq dilimizin tarixindəki həlledici, taleyüklü ictimai-siyasi hadisələrə nəzər salsaq, gərək XIX əsrin sonlarına qayıdaq. XIX əsrin 80-ci illərində Qafqazda olmuş Y. Veydenbaum çıxışlarında vurğulayırdı ki, sadəliyi, ahəngdarlığı və öyrənmək üçün asanlığı Azərbaycan dilini bütün Şərqi Qafqaz üçün beynəlxalq dilə çevirmişdir. Maraqlıdır ki, hələ o zaman "Şərqi Qafqaz üçün beynəlxalq dil" statusu almış Azərbaycan dilinin inkişafı və qorunması sonrakı dövrlərdə də dövlət səviyyəsində mücadilə edən rəhbərlər, siyasi xadimlər olmuşdur. Məsələn, Azərbaycan dilinin funksional inkişafı sahəsində köklü dəyişikliklərə məhz 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən sonra nail olmaq mümkün oldu. Dil sahəsində milliləşdirmənin həyata keçirilməsi bu dövrdə milli hökumətin fəaliyyətinin əsas istiqamətlərindən biri idi. 1918-ci il iyunun 27-də milli hökumətin qərarı ilə ilk dəfə olaraq Azərbaycan dilinə dövlət dili statusu verildi və dövlət orqanlarında sənədləşmələrin bu dildə aparılmasına başlandı. 1918-ci il avqustun 28-də Azərbaycan dilində təhsilli milli kadrların hazırlanması məqsədilə ölkədəki təhsil müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul olundu. 1918-1920-ci illər müstəqillik dövrünün əsas nailiyyətlərindən biri də Azərbaycan dilində fəaliyyət göstərən ali təhsil müəssisələrinin yaradılması və Azərbaycan əlifbasının islahatı üçün ilk addımların atılması oldu. Ona görə də 1918-1920-ci illər dövrünü Azərbaycan dilinin hərtərəfli inkişafında intibah nöqtəsi hesab edilir. Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş yeni Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi öz layiqli yerini tutur: Konstitusiyanın 21-ci maddəsində "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir" – qanunu təsdiqini tapır. Bütün bu deyilənləri nəzərə alaraq, Azərbaycan dilinin inkişafında dilin funksionallığı, genişmiqyaslı əhəmiyyəti üçün nitqin, nitq və ünsiyyət mədəniyyətinin rolu danılmazdır. Dil və nitq arasında əlaqə obyektiv zərurət kimi mövcuddur, çünki dil öz varlığını nitqdə, nitq isə öz mənbəyini dildə tapır. Nitq prosesi olmasa, dil, dil olmasa, nitq prosesi təzahür edə bilməz. Nitq dilindinamik hissəsidir, nitqin bazası dildir. Həm şifahi, həm də yazılı nitqin qanunları ədəbi dil normalarına uyğun şəkildə inkişaf etdirilərsə, mədəni-intellektual düşüncədə dil öz aparıcı funksiyası ilə milli mədəniyyət simvolu kimi daima öz yerini mühafizə etmiş olar. Şifahi nitq özünəməxsus xüsusiyyətləri

(Şifahi nitq danışılır və eşidilir, şifahi nitq leksikasında hamıya aydın ümumişlək sözlərə daha çox yer verilir, şifahi nitqdə cümlələr, əsasən qısa və sadə olur, şifahi nitqdə danışıq dilinin xüsusiyyətləri mühafizə olunur, şifahi nitqdə intonasiya, fasilə, vurğu və s. vasitələrdən istifadə olunur, mimika, jest və başqa hərəkətlər özünü göstərir, şifahi nitqin axını sürətli olur və s.) ilə yazılı nitqdən (yazılı nitqdə elmi, texniki, siyasi və başqa terminlər çox işlədilir, yazılı nitq ədəbi dilin əsasında formalaşıb inkişaf edir, yazılı nitqdə intonasiya fasilə vurğu və s. şifahi nitq ünsürlərini əks etdirən durğu işarələrindən istifadə edilir, yazılı nitqdə mimika və jest əsas rol oynamır, yazılı nitq hər hansı məlumatın fikirlərin nəsildən – nəslə keçməsində əsas rol oynayır və s.) fərqlənir. "Dil" və "nitq mədəniyyəti" məfhumları eyni obyektli müxtəlif planlıdır. Hər iki anlayışlar bir – biri ilə əlaqədardır. Bir – birini tamamlayır. Hər ikisi birbaşa insanların davranışı və nitqi ilə bağlıdır. Dil mədəniyyəti anlayışı genişdir və ümumidir. Dil mədəniyyəti dedikdə hər bir xalqın öz dilində öz fikrini bütün incəliyi ilə ifadə edə bilməsi başa düşülür. Hər bir mədəniyyət dili üçün onun ahəngdar fonemlər sistemi, geniş lüğət tərkibi sabit qrammatik quruluşu, mükəmməl və dəyişməz yazı sistemi olmalıdır. Nitq mədəniyyəti əsasən yazılı, şifahi nitqlə bağlıdır. Dil mədəniyyəti nəzakətli ünsiyyət, xoş rəftar mehribançılıq, qarşılıqlı anlama ilə bağlıdır". [1] Dil mədəniyyəti tarixi səciyyə daşıyır. Ona görə də dil mədəniyyəti keçmişin canlı şahidi, müasir mədəniyyətin fəal iştirakçısıdır və nitq mədəniyyəti dilin funksional və struktur inkişafının ən yüksək mərhələsidir. Nitq mədəniyyəti sözün geniş mənasında həm də fikir, düşüncə mədəniyyətidir. Öz düşüncəsini düzgün yazmaqla və danışmaqla ifadə edərək kamil nitqə malik olmaq mədəni nitqin əsas əlamətidir. Nitq mədəniyyəti dilin normalarının və kateqoriyalarının tələbələrinə riayət etmək deməkdir. "Dil bütün ictimai, o cümlədən, əxlaqi-etik münasibətləri öz formaları və kateqorii-yaları sayəsində əks etdirir. Bunların içərisində cəmiyyətin bütün üzvləri üçün zəruri hesab edilən etiket normaları xüsusi yer tutur. Buraya salamlaşma, təbriketmə, arzulama, təqdimetmə və s. daxildir. Bir çox dilçilər dilin bir sistem kimi ictimai təbiətə malik olduğunu qeyd edirlər. Görkəmli dilçi alim J.Vandriyesin yazdığı kimi, "yalnız dilin ictimai rolunu öyrənməklə onun mahiyyəti haqqında təsəvvür əldə etmək mümkündür". [2,110]Monoloji və dioloji nitq nitq mədəniyyəti sahəsində fərqli xüsusiyyətləri ilə diqqəti cəlb edir. "Danışan və dinləyənin nitq prosesində iştirakı həmişə eyni formada olmur. Bir nitq praktikasında danışan və dinləyən, demək olar ki, eyni dərəcədə fəaliyyət göstərir: sual verir, dinləyən cavab, danışan rəyini söyləyir, müsahib ona münasibətini bildirir. Başqa bir nitq formasında isə dinləyən ya ehtiyac, ya da imkanının olmaması üzündən müsahibinin danışığına müdaxilə etmir, münasibət göstərmir. Bu cür şərhetmə və dinləmə nitqin dialoji və monoloji formalarını yaradır. Dialoji nitq müəyyən situasiyada iki və daha artıq şəxs

arasında gedən qarşılıqlı söhbət, növbələşən canlı ünsiyyət, danışıqdır. Burada danışan, daha doğrusu, fikri ifadə edən şəxs əvvəlcə daxilən öz-özünə düşünür, sonra isə xarici nitqə keçir, demək istədiyini sözlə ifadə edir. Dialoji nitqdə həmsöhbətlərdən birinin ifadə etdiyi fikir digəri tərəfindən qavranılır. Burada monoloji nitqdən fərqli olaraq söhbətə öncədən hazırlıq görülmür. Bu səbəbdən dialoji nitqdə tərəflər daha fəal olurlar. Lakin nitqin situasiyasından, təşkili formasından asılı olaraq dialoji nitqə də hazırlıq görülə bilər. Dialoji nitqin bütün formalarında (dialoji söhbət, danışıq formalarında) onun iştirakçıları hadisəni təfərrüatı ilə danışır, olanlara öz münasibətini bildirir, dediklərinin daha inandırıcı olması üçün sübutlar, dəlillər gətirirlər. Qarşılıqlı söhbət zamanı tərəflərin işlətdikləri müxtəlif formalar (müraciətlər, ara sözlər, ritorik suallar və s.) ümumi bir bütövlük, fikri vəhdət yaradır.Orada ifadələr bir qədər qısa, sintaktik quruluşlar sadədir. Yarımçıq cümlələrdən daha çox istifadə olunur. Nitqin bu növündə digər vasitələrdən də - jest, mimika, əl-qol hərəkəti və s. geniş istifadə olunur. Hər şeydən əvvəl dialoji nitq bilavasitə reaksiya tələb edən nitqdir. Belə ki, dialoji nitq zamanı həmsöhbət deyilənlərə öz münasibətini bildirir: ya sual verir, ya təsdiq edir, ya inkar edir. Dialoji nitqin bu cəhəti danışanan öz fikrini ifadə etmək istiqamətinə təsir göstərir, onu müəyyən səmtə yönəldir".[3]İnformasiya mübadiləsi prosesində insanlar bir-birlərinin fikirləri, düşüncə və ideyaları, hissləri, istək və arzuları ilə tanış olurlar. Bu informasiya mübadiləsi zamanı dioloji nitq yaranır. Bu cür informasiya mübadiləsi olmadan insanların birgə yaşayışı və fəaliyyəti çətinləşər, mümkün olmazdı. İnsanların bir-biri ilə informasiya mübadiləsi psixoloji ədəbiyyatda ünsiyyətin kommunikativ tərəfi adlanır. İnformasiya mübadiləsi zamanı iki tərəf iştirak edir: məlumatı, informasiyanı ötürən və məlumatı qəbul edən. Birinci tərəf – informasiyanı ötürən kommunikator, ikinci tərəf – informasiyanı qəbul edən isə resipient adlandırılır.Ona görə də nitq prosesində hər bir söz özünün müvafiq mənasında çatdırılmalıdır. Buna isə sözü müvafiq kontekstdə işlətməklə nail olmaq mümkündür. Nitqdə sözlərin mənasının köməyi ilə müvafiq məzmunu çatdırmaqla yanaşı danışdığımıza öz emosional münasibətimizi də bildiririk. İctimai-tarixi təcrübənin mövcud olma, saxlanma və ötürülmə, kommunikasiya, eləcə də insanın davranışını tənzim etmə, intellektual fəaliyyətin silahı kimi fəaliyyət göstərmə spesifikasına malik olan dilin funksiyaları nitqin də fəaliyyət istiqamətini təyin edir. Şifahi nitqdə danışıq üslubu daha aydın şəkildə öz ifadəsini tapır. Danışıq dili üçün sərbəstlik, emosionallıq, sintaktik konstruksiyaların sadələşdirilməsi, dil norması sərhəddini aşmaq kimi yaradıcı yanaşma metodu səciyyəvidir. Dil paradiqmasının mövcud formalarından kənara çıxılanda belə danışıq dili yeni çalar qazanır. Nitqdə dilin lüğəvi zənginliyi, intonasiyası, poetikası, estetik funksiyaları az və çox dərəcədə ifadəsini tapır. Nitqdə yalnız qrammatik məna ilə sözün leksik mənası arasındakı uyğunsuzluğun aradan

qaldırılması nəticəsində ifadəlilik əldə edilə bilər.Yoxsa, leksik və qrammatik mənanın sintezi əvəzinə onlar arasında ziddiyyət aşkarlanar. Ümumiyyətlə, nitqin köməyi ilə başqaları ilə ünsiyyət saxlayır, fikir mübadiləsi edir, ictimai təcrübəni mənimsəyir, zənginləşdirir, yeni nəslə veririk. Nitq vasitəsi ilə hisslərimizi, arzu və istəklərimizi, bu və ya digər cismə, hadisəyə münasibətimizi bildiririk. Nəhayət nitq vasitəsilə başqalarına təsir edir, onların davranış və rəftarlarında müəyyən dəyişiklik yaradır, hər hansı bir işi yerinə yetirməyə təhrik edirik". [4] "Nitqdə elə konstruksiyaları yaranır ki, onların fikir ifadə etməsində intonasiya həlledici amilə çevrilir. İntonasiya müəyyən ünsiyyət şəraitində cümlələrin məna və məzmununu konkretləşdirməkdə və onların kommunikativ növlərini təmin etməkdə mühüm rol oynayır. Emosional narazılıq bildirən təkrarlarda istehza, gülüş, nifrət məna çalarları var.Emosionallığın kommunikativ ifadə vasitələri müxtəlif münasibətləri bildirməkdə mühüm rol oynayırlar. Emosionallığın intensivliyini əldə etmək üçün bu vasitələr bir mərkəzə toplanır.Nitqdə iştirakçı tərəflər yalnız informasiyanın ötürülməsi ilə kifayətlənmirlər. Hər bir kommunikant müsahibənin hisslərinə təsir göstərməyə çalışır. Müsahibə təsir göstərmək arzusu nə qədər çox olursa, dil vasitələrinin seçilməsi, nitqdə işlədilməsinə diqqət artırılır. Məlümatın ekspressivliyi dil vasitələrinin daha ciddi şəkildə seçilməsinə səbəb olur. [5, 8] Əlbəttə, danışıq dili ilə şifahi nitq (dil) qarışdırılmamalıdır. Bədii əsərlərdə, bədii mətnlərdəki danışıq dili bizim gündəlik həyatımızdakı şifahi nitqdən fərqlənir. Nitq yalnız dildən istifadə zamanı yaranır. Nitq prosesində istifadə olunmayan dilin yox olmaq ehtimalı qaçılmazdır. Ana dilində düşünmək və bu düşüncəni doğma sözlərlə ifadə edib nitq yaratmaq kimi bir missiyanın özündə də dilə xidmət funksiyası var. Bu funksiyanı yerinə yetirmək üçün isə dilin qanunlarını, gözəl nitq normalarını, dilin və nitqin qarşılıqlı təsirini aşılayan elmin nəzəri və praktik mahiyyətini mükəmməl şəkildə öyrənmək lazımdır.

Ədəbiyyat

1. http://www.cahid.info/
2. http://files.preslib.az/projects/remz/pdf/atr_dil.pdf
3. https://az.wikibooks.org/wiki/Nitq_m%C9%99d%C9%99niyy%C9%99ti/Nitqin_n%C3%B6vl%C9%99ri_(monoloji_v%C9%99_dialoji)
4. www.elmler.net - Virtual İnternet Resurs Mərkəzi. Ümumi psixologiya
5. AMEA.Dilçilik institunun əsərləri. Xüsusi buraxılış. Bakı, 2012.
6. Титц Габриэле. Этикетные формулы обращения и привлечения внимания в современной русском языке. АКД. Воронеж., 1977.

Л.Микаилзаде

Литературный тенденции развития языка азербайджана: язык и речь

Резюме

В статье говорится, что функциональность языка, на важность масштабной речи, речи, общения, культура играет значительную роль. Во время выступления, есть язык . Не исползумый язык речи сталкиваются с угрозой исчезновения . Говорите на родном языке отлично, чтобы защитить его от естественного языка иностранца,вы должны думать . Устных и письменных языков разработана в соответствии с законами литературного языка, культурной и интеллектуальной мысли , языка и национальной культуры , как символ своего ведущего функции всегда поддерживать свое место .Речь доступна только при использовании языка. Неизбежно, что язык, который не используется в процессе речи, будет уничтожен. Существует функция языка для служения на родном языке, а также для размышления и выражения этой мысли в родных словах и для создания речи. Для выполнения этой функции необходимо изучить теоретическую и практическую сущность науки, которая подразумевает законы языка, тонкие речевые нормы, взаимодействие языка и речи.

L.Mikailzade

Azerbaijani literary language development trend: language and speech

Summary

The article states that the language functionality, to the importance of large-scale speech, speech , communication, culture played a significant role . During the speech, there is a language . Unuseful speech language are facing the threat of extinction. Speak the native language perfectly , to protect it from natural language alien to meditate , you have to think about it . Both oral and written language developed in accordance with the laws of the literary language, cultural and intellectual thought, language and national culture as a symbol of its leading function would always maintain its place .Speech is only available when using the language. It is inevitable that the language which is not used in the process of speech be destroyed. There is a function of the tongue to serve in the mother tongue as well as to think and express this thought in native words and to create a speech. In order to perform this function, it is necessary to study the theoretical and practical essence of science that implies the language's laws, fine speech norms, the interaction of language and speech.

Rəyçi: Şəhla Əhmədova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NAİLƏ MƏMMƏDOVA
ŞƏLALƏ ABASOVA
filologiya üzrə fəlsəfə dosktoru, dosent
BDU
shalala@mail.ru

NİTQDƏ SƏS MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI ÜÇÜN İŞLƏRİN MƏZMUNU

Açar sözlər: nitq mədəniyyəti, diksiya, dil, ünsiyyət, nitq, səs, nitq prosesi.
Ключевые слова: культура речи, дикция, язык, общение, речь, звук, процесс речи.
Keywords: standard of speech, diction, language, communication, speech, sound, process of the speech

Nitq mədəniyyəti insanın cəmiyyət üçün mədəni, yetkin bir şəxsiyyət kimi formalaşmasının başlıca göstəricilərindən biridir. Nitq mədəniyyəti geniş məzmunlu anlayışdır. Nitq mədəniyyəti insanın lüğət ehtiyatını, onun məqsədə, məzmuna uyğun danışmaq və yazmaq bacarığını, dinləyici və oxucusunun tələbinə uyğun üslub seçimini, rabitəli nitqinin əsas cəhətlərini əhatə edir. Ictimai həyatın, tədris olunan fənlərin, həyata keçirilən müxtəlif tipli tədbirlərin elə bir sahəsi yoxdur ki, orada nitqə, nitq mədəniyyətinə, gözəl natiqlik məharətinə diqqət yetirilməsin. Məktəblərdə bu problemin həlli üçün tədris proresindən əlavə tədbirlər keçirilir. Məsələn. Məktəblərdə nitq rejminin yaradılması, müəllim və şagirdlərin, hətta məktəbə gələn qonaqların, valideynlərin, digər kənar şəxslərin nitqinə müxtəlif tələblər verilir. Buraya dialekt və şivə xüsusiyyətləri ilə danışmağın qadağan edilməsi, orfoqrafiyanın orfoepiyaya tətbiq edilməməsi, ədəbi tələffüz qaydalarına riayət edilməsi və s. tələblər daxildir. Lakin nitq mədəniyyətinin inkişafını təkcə, məktəblə, təlimlə məhdudlaşdırmaq olmaz. Nitq mədəniyyəti ailədə, məhəllədə, kollektivdəki nitq mühiti ilə əlaqədar inkişaf edir. Ona görə də ailədə valideynlərin, məktəbdə müəllimlərin, məktəbdənkənar müəssisələrdə, kollektivlərdə çalışanların əsas vəzifələrindən biri gənclərin nitq mədəniyyətinin formalaşmasına kömək etməkdir. Nitq mədəniyyəti şəxsin yüksək mədəni göstəricilərindəndir. Məhz bu səbəbdəndir ki, son dövrlərdə Azərbaycan təhsil sistemində nitq mədəniyyətina diqqət artmış, istər orta, istərsə də ali məktəblərdə, dərsliklərdə, elmi-tədqiqat əsəsrlərində nəzəri və metodiki ədəbiyyatlarda bu məsələyə geniş yer verilmişdir.

Nitq mədəniyyətinin iki sahəsi var: şifahi və yazılı nitq. Bunlar bir-biri ilə sıx bağlı olsa da, hərəsinin özünəməxsus xüsusiyyətləri vardır, yəni onlar

öz məzmunlarına və formalarına görə fərqlənirlər. Bu mənada şifahi və yazılı nitqi inkişaf etdirmək üçün bir-birindən fərqli iş formalarından, üsul və yollardan istifadə edilir. Şifahi nitq ünsiyyət vasitəsi olduğu üçün bütün sferalarda onun rolu yazılı nitqə nisbətən daha çoxdur. Lakin təlim prosesində və tədqiqat sahələrində şifahi nitqə çox diqqət yetirilmir, yəni danışıq və oxu qaydaları, onun texnologiyasına aid mənbələr çox azdır.

Azərbaycan dili və nitq mədəniyyəti məşğələlərinin tədrisi proresidə bu problemin bütün məsələlərini sistemli şəkildə müasir tələblərə uyğun həll etmək üçün fənnin spesifikasını nəzəzrə alaraq metodik göstərişlərin, dərslik və dərs vəsaitlərinin işlənib hazırlanması lazımdır. Şifahi və yazılı nitqin inkişafına dair məşğələlərin təşkili zamanı müəllimlər bu sahədə yazılan metodik göstəriş və vəsaitlərə müraciət etməklə tədrisin məzmun və keyfiyyətinə nail olurlar.

Nitq mədəniyyəti dedikdə birinci növbədə bu anlayışın məzmununu aydınlaşdırmaq, sonra isə onun normalarını və bu normaların xüsusiyyət-lərini izah etmək lazımdır. Bu haqda oxuyuruq."Nitq dil anlayışı ilə sıx bağlıdır. Bunlar bir hadisənini iki cəhətidir. Dil dedikdə, ünsiyyət vasitəsi olan sözün xüsusiyyətləri, yəni, onun səs tərkibi, morfoloji quruluşu, bir-biri ilə əlaqə formaları, sözlərdən cümlə düzəltmək qaydaları kimi cəhətlər nəzəzrdə tutulur. Bu vasitə və qaydalar özlüyündə donuqdurlar, yalnız ünsiyyət proresində tətbiq olunduqda, onlardan istifadə etdikdə canlanırlar, yeni keyfiyyət qazanırlar. Beləliklə, dil vasitələrinin, qaydalarının ünsiyyət proresində tətbiqinə nitq deyilir" (6, s. 3). Bəs nitq mədəniyyəti nədir? Bu ifadədə mədəniyyət sözü geniş anlayışdır və onun sahələri çoxdur: davranış mədəniyyəti, mətbəx mədəniyyəti, təsərrüfat mədəniyyəti və s. "Mədəniyyət" hamı tərəfindən dəyərləndirilən, qəbul olunan cəhətləri əhatə edir. Nitq mədəniyyəti anlayışını dərindən başa düşmək üçün nitq ilə dil məsəslələrini aydınlaşdırmaq, dərk etmək lazımdır. F. Sosyur dili ictimai, nitqi fərdi hesab edir. Dil ünsiyyət vasitələrini əhatə edirsə, nitq ünsiyyətin özüdür (6, s. 4).

Nitq mədəniyyəti haqqında bir çox təriflər vardır. Ümumiyyətlə, dil və nitq probleminə dair elmi və metodiki ədəbiyyatda bir çox fikirlər mövcuddur ki, bunların hamısı haqqında danışmaq imkan xaricindədir. Bu fikirlərdən yekun nəticəyə gəlmək olar:"Ünsiyyət proresində dil vasitələri və qaydaları hamı tərəfindən bəyənilərək qəbul edilib işlənirsə, dəyərləndiri-lirsə, bu nitq mədəniyyəti hesab edilə bilər" (1, səh.269). Bir çox dilçilərə görə, nitq mədəniyyəti ədəbi dil normalarına əməl etmək deməkdir. Ensiklopediyada isə yazılır: "Nitq mədəniyyəti - nitqin ədəbi dil normalarına uyğunluğu, dilin ifadə və imkanlarından nitqin məqsəd və məzmununa müvafiq şəkildə istifadə etmək bacarığıdır" (1, s. 269).

Beləliklə, insanın yüksək keyfiyyətlərindən biri onun yüksək nitq mədəniyyətinə yiyələnməsidir. Nitq mədəniyyəti insanın əqli fəaliyyətinin yaranmasında böyük rol oynayır. Insanlar nitq mədəniyyətinə yiyələndikcə xarici aləmdəki əşyalar, hadisələr haqqında biliklərə yiyələnirlər. Nitq mədəniyyətinin yüksək səviyyəsi onun dilin bütün sahələri, cəhətləri – fonetika, leksikologiya, söz yaradıcılığı, qrammatika, orfoepiya, orfoqrafiya, üslubiyyat ilə birlikdə inkişaf edir. Nitq mədəniyyətinə yiyələnmək üçün dilin bütün komponentlərini kompleks şəkildə mənimsəmək lazımdır. Nitqdə bütün normalara – aydınlıq, məntiqilik, səlislik, yığcamlıq, ifadəlilik, obrazlılıq, ardıcıllıq, emosionallıq və s. kimi normalara riayət edilməlidir. Bütün bu işlər təlim zamanı yerinə yetirilir. Belə ki, təlim şagirdlərin nitq mədəniyyətinin mənbələrini üzə çıxarır, nitq inkişafının imkanlarını artırır. Təlim proresində müəllim şagirdlərin həm öz nitqlərinə, həm də başqalarının nitqinə məsuliyyətlə, şüurlu şəkildə yanaşmaları üzərinə iş aparmalıdır. Məşhur metodist Y.Kərimov yazır: "Nitq yalnız fikirlərin ifadə vasitəsi deyil, həm də onların yaranması silahıdır. Ona görə də müəllim nitqin inkişafı ilə birlikdə şagirdlərin təfəkkürünü də inkişaf etdirməlidir" (5, s. 398). Müəllif göstərir ki, şagirdi başlı-başına buraxmaq, ünsiyyət proresində nitqin öz-özünə inkişaf edəcəyinə ümid bəsləmək səhv olardı. Uşaqlara düzgün danışmağı öyrətmək üçün müəllim onun nitqinin bütün sahələrinə, sözlərin necə tələffüz etməsinə, vurğunu düzgün ifadə etməsinə, sözləri, ifadələri yerli-yerində işlətməsinə, intonasiyasına və s. diqqət yetirməli, şagirdin bu sahədəki nöqsanlarını düzəltməlidir.

Insan öz düşüncələrini, fikirlərini ifadə etmək üçün müvafiq sözlər, ifadələr seçməyi bacarmalıdır, fikrini məntiqi cəhətdən düzgün qurmağa çalışmalıdır. Bu cəhətdən K.Uşinski deyirdi ki, uşaqların dil, nitq qabiliyyətlərini inkişaf etdirmək üçün hər şeydən əvvəl, onlarda düzgün fikirləşmək qabiliyyəti formalaşdırmaq lazımdır: "Fikirdən ayrılıqda dili inkişaf etdirmək mümkün deyil, ona üstünlük verərək, fikirdən əvvəl inkişaf etdirmək isə, şübhəsiz, zərərlidir" (7, s.42).

Nitqin, nitq mədəniyyətinin düzgün inkişaf etdirilməsi üçün müəllim bu sahədə didaktik tələbləri bilməli, bu tələblərə təlim prosesində əməl etməlidir.

Şagirdlərin nitqi inkişaf etdikcə onlar təlim materialını daha yaxşı qavrayır, yadda saxlayırlar. Şagirdlərin nitqinin ifadəliliyi, inkişaf etməsi onların fonetika, leksikologiya, qrammatikanı necə mənimsəmələrindən də çox asılıdır. Ona görə də təlim prosesində sözün səs kompleksini, leksik mənasının və s. dərindən mənimsədilməsi davamlı şəkildə həyata keçirilməlidir.

Nitq mədəniyyətinin inkişafı prosesində şagirdlərdə nitqin səs mədəniyyətinin də inkişafına diqqət yetirilməlidir. Bu iş nitq mədəniyyətinin demək olar ki, tərkib hissələridir. Nitqin səs mədəniyyəti anlayışına səslənən nitqi

xarakterizə edən xüsusi tələffüz keyfiyyətləri – orfoepiya, səsin tələffüzü, diksiya, həmçinin səsin ifadəliliyinin elementləri – intonasiya, səsin sürəti, bundan başqa nitqin ünsiyyət mədəniyyətinin əlamətləri – nitqin tonu, eləcə də şagirdlərin nitqi eşitmə qabiliyyəti və eşitmə aparatının inkişaf etdirilməsi və s. məsələlər daxildir.

Nitqin səs mədəniyyəti üzərində işlər, əsasən, ibtidai siniflərdən başlayır. Y.Kərimov yazır ki, kiçik yaşlı uşaqların əksəriyyətinin nitqinin səs mədəniyyəti nöqsanlı olur. Belə ki, ayrı-ayrı səsləri düzgün tələffüz etməmək, tələsik və anlaşılmaz danışmaq, ləng danışmaq, kəkələmək, sözdə səsləri, hecaları buraxmaq kimi hallar nitqin səs mədədniyyəti üzərində ciddi işlər tələb edir. Belə nöqsanlar uşaqlarda komplekslərin olmasına gətirib çıxarır, hətta onların əqli inkişafının geri qalmasına səbəb olur. Buna görə də, nitqi nöqsanlı şagirdlərlə müəllimlər ciddi şəkildə işlər aparmalıdırlar. Bu hallarda müəllimlər müxtəlif yollar axtarmalı, şagirdlərin səs mədəniyyəti üzərində işlər aparmaqla onların nitqindəki qüsurları, nöqsanları aradan qaldırmalıdırlar. Təcrübə göstərir ki, yuxarı sinif şagirdlərinin də, ali məktəb tələbələrinin də səs mədəniyyəti üzərində işlərin aparılması zəruridir. Ona görə də Azərbaycan dili müəllimləri şagirdlərin fonematik tələffüz və eşitmə qabiliyyətinin inkişafı qayğısına qalmalı, onların dilimizin səslərinin, fonemlərinin düzgün tələffüzünə nail olmalıdır. Müəllim elə etməlidir ki, şagirdlər səslənməsinə görə yaxın olan dil vahidlərini – səsləri, sözləri fərqləndirməyi bacarsınlar. Nitqin səs mədəniyyəti üzərində düzgün iş aparılırsa, şagirdlər səslənməyə görə ayrı-ayrı sözlərin mənasını başa düşüb dərk edirlər. Nitq prosesində bəzən şagirdlər fonemləri səhv tələffüz edirlər, buna görə də sözlərin mənası dərk edilmir, qarışıq düşür. Məsələn: boz-poz, səhər-zəhər, baxır-paxır, səhər-şəhər. Şagirdlərin nitqində səslərin səhv tələffüzü zamanı didaktik işlərə yer vermək lazımdır. Məsələn, şagirdlərin qarışdırdıqları səslərə uyğun sözləri yazdırmaqla, sözlərin mənasını tapmağı, onları cümlədə işlətməyi tələb etmək bu sahədə işlərin məzmununa daxildir.

Nitqin düzgün, aydın ifadə edilməsi nitqi yaradan artikulyasiya orqanlarının - əsas danışıq üzvlərinin – (dil, dişlər, burun, çənə, damaqlar, qırtlaq, səs telləri, ağ ciyərlər) və s. sağlamlığından, vəziyətindən çox asılıdır. Tələffüz zamanı ağ ciyərlərdən gələn hava axını saydığımız orqanlardan keçərək bir sıra maneələrə rast gəlir və rəqslənmə sayəsində ağız boşluğunda nitq səsləri əmələ gəlir. Nitq cihazında mövcud olan bəzi çatışmazlıqlara, pozuntulara görə şagirdlər bəzən səsləri düzgün tələffüz edə bilmirlər. Bu vaxt müəllim nitqin səs mədəniyyətini formalaşdırmaq üçün yol axtarmalı, səsin düzgün tələffüzünə nail olunca məqsədyönlü işlər aparmalıdır. Şagirdin düzgün tələffüz edə bilmədiyi səsi müxtəlif nitq materiallarında möhkəmləndirmək mümkündür. Müəllim, belə səslərin sözün əvvəlində, ortasında, axırında işlənməsinə aid nümunələri lövhədə yazır və həmin

sözləri şagirdlərə ifadəli şəkildə ucadan oxutdurur. Məsələn, şagird "r" səsinin tələffüzündə çətinlik çəkirsə, müəllim *rayon, radio, tarix, taraz, damar, hamar, qar, tar* tipli sözləri şagirddən təkrar-təkrar oxumağı tələb edir. Bundan başqa həmin səsin iştirak etdiyi yanıltmaclar, şeirlər, tapmacaların oxunması, əzbər söylənməsi də faydalı iş növlərindən hesab olunur. Nitqin səs mədəniyyəti üzərində iş zamanı məşğələlərdə materialların çətinlik dərəcəsi tədricən artırılır.

Təlim prosesində nitq orqanlarının üzərində müəyyən məşqlər də aparıla bilər. Məsələn, alt çənəni bir qədər müəyyən vəziyyətdə saxlamaq, dodaqların çevikliyini inkişaf etdirmək olar. Təlim prosesində nitq səsləri üzərində aparılan işlər nəticə verməzsə, artıq bu işə loqopedlər cəlb edilməlidir.

Orta məktəblərin ibtidai siniflərində, yaxud yuxarı siniflərində, həmçinin ali məktəblərdə nitqin səs mədəniyyəti üzrə işlər əsasən fonetika təlimində yerinə yetirilir. Lakin bu cür işlər ali məktəblərin müvafiq fakültələrində - filologiya fakültəsində "İfadəli oxu" fənninin tədrisi prosesində də həyata keçitilə bilər.

Nitq prosesində tənəffüsün düzgünlüyü də əsas meyarlardan biridir. Y.Kərimov bu haqda yazır: "Adi hallarda nəfəsalma və nəfəsvermənin uzunluğu, təxminən, eyni ritmlə burun vasitəsilə yerinə yetirilir. Nitq prosesində nəfəsalma sürətlə, nəfəsvermə isə yavaş-yavaş, qənaətlə baş verir. Nitqdə fasilənin dəqiq gözlənilməsi, nitqin axıcı və ifadəli olması nəfəsalmanın nə qədər düzgün təşkil edilməsindən asılıdır " (12. S. 417). Müəllif burada maraqlı bir fakta nəzəri cəlb edir və göstərir ki, nəfəs ala-ala danışmağa alışan uşaqlar hava ehtiyatını tam yeniləşdirə bilmədiklərindən tələsir, səsləri təhrif edir, unudurlar. Belə uşaqlar adətən alçaqdan danışır. Onların qeyri-dəqiq, fasiləsiz nitqi bəzən məntiqsizliyə aparıb çıxarır. Müəllifin fikrincə, nitqin səs mədəniyyəti səsin yüksəkliyi üzərində işləməyi tələb edir. Səsin yüksəkliyi nədir? səsin yüksəkliyi səs tonu ilə əlaqədardır. Səsin yüksəkliyi səs tonunun bir qədər diqqətlə qalxması və düşməsinin – rəqslənmənin tezliyi ilə ifadə olunur. Beləliklə, səsin tonu ilə əlaqədar olaraq nitqin səsləri gah uca, gah orta, gah da zəif tələffüz edilir.

Insanların səsləri öz çalarları ilə fərqlənirlər ki, bu, səsin tembri adlanır. Tembr səsin titrək, tutqun, boğuq, rəvan və s. olması ilə fərqlənir. Səsin düzgün tələffüzü, düzgün nitq mədəniyyətinə yiyələnmək səs mədəniyyəti üzərində işlərin təmin edilməsindən, həmçinin şəxsin özünün səsin qorunmasından – səsi gərgin saxlamamaq, ucadan qışqırmamaq, soyuqdan qorumaq və s. də asılıdır.

Rus metodistlərindən M.A.Ribnikovanın bu haqda fikri maraqlıdır. "Inkişaf etməmiş, qeyri-dəqiq nitq səslərin qarışdırılması aydın olmayan diksiya, sait və samitlərin kifayət qədər ayrılmaması ilə fərqlənir. Nitq

üzərində iş fonetik dəqiqliyin inkişafını öz qarşısında bir vəzifə kimi qoymalıdır" (8. səh. 149).

Nitqin səs mədəniyyəti üzərində iş – səslərin rəqslənməsinin, artikulyasiyasının, səslərin müxtəlif cəhətlərinin öyrədilməsi vacibdir. Şagirdlərin bir qismi müxtəlif məxrəclərdə tələffüz edilən samitlərin səslənməsində - tələffüz edilməsində çətinlik çəkirlər. Azərbaycan dilinin fonetikası kifayət qədər tədqiq edilmiş və fonetika bəhsinə həsr olunmuş əsərlərdə səslərin təsnifi, tələffüz məxrəci, artikulyasiyası geniş təsvir edilmişdir. Nitq səslərinin bütün xarakterik xüsusiyyətlərinin ənənəvi və müasir təlim metodları ilə dərindən mənimsədilməsi şagirdlərin nitqlərinin inkişafının, onların nitq mədəniyyətinin formalaşdırılmasının özülünü təşkil edir. Bu məqsədlə təlim prosesində fonetik çalışmalara geniş yer vermək lazımdır. Şagirdlərə nitq səslərinin artikulyasiyasının dərindən mənimsədilməsi üçün şifahi çalışmalara üstünlük vermək lazımdır. Belə çalışmalar zamanı şagirdlər səsin müxtəlif sözlərdə, sözün ilk və sonrakı hecalarında, sonunda işlədilməsi, onun səslənməsindəki fonematik incəlikləri praktik şəkildə dərk edirlər. Məslən: ***alim, katib, kamil, arif*** tipli sözlərin yazılışında **a** səsinin uzun tələffüz edilməsini göstərən heç bir işarədən istifadə edilmir. Belə sözlərdə **a** səsinin kəmiyyətə görə dəyişikliyini – uzun tələffüz olunmasını müəllim əyani şəkildə şifahi çalışmalar vasitəsilə mənimsətməlidirlər. Yazılışı ilə deyilişi fərqlənən sözlərin mənimsədilməsi üçün şifahi çalışmalarla yanaşı yazılı çalışalara da geniş yer verilməlidir ki, şagirdlər orfoepiya və orfoqrafiya arasındakı fərqi görmə yaddaşı vasitəsilə daha yaxşı yadda saxlaya bilsinlər. Şifahi çalışmalar zamanı şagirdlərin diksiyası da inkişaf etdirilir ki, bu da nitqin səs mədəniyyəti üzrə işlərdən biri kimi onları yaxşı diksiyaya yiyələndirməkdir. Diksiya səsin aydınlığı deməkdir. Səsin aydınlığı, yəni düzgün diksiya ilk növbədə səslərin - sait və samitlərin düzgün tələffüzündən asılıdır. Səslərin düzgün tələffüz edilməsi isə nitq aparatının, nitqin anatomiyasının düzgün, dəqiq fəaliyyətindən, bu fəaliyyətin düzgün əlaqələndirilməsindən asılıdır. Şagirdlərin normal diksiyaya yiyələnmələri üçün müəllimin nümunəvi nitqinin böyük əhəmiyyəti vardır. Bundan başqa müəllim bu işdə müasir texniki vasitələrdən istifadə edərək normal, gözəl diksiyaya malik olan aktyorların, diktorların lent yazılarını, disklərini səsləndirməklə məqsədlərinə nail ola bilərlər.

Ədəbiyyat

1. Azərbaycan Sovet Ensiklopediyası. VII c., Bakı, səh.269.
2. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı, 1968.

3. Abdullayev N., Məmmədov Z. Müəllimin nitq mədəniyyəti. Bakı, 2001
4. Axundov A. Müasir Azərbaycan dilinin fonetikası. Bakı,1985
5. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, 2005
6. Muradov B., Bayramov H. Nitq mədəniyyətindən mühazirələr. Bakı, 2006
7. Ушинский К.Д. Собрание сочинений. Том, V, М, 1947, стр.42
8. Рыбникова М.А. Очерки по методике литературного читения, Москва, 1963, стр 149

Н.Мамедова,
Ш.Абасова

Содержание работ при фомировании культуры звука в речи

Резюме

В статье говорится о содержании работ при формировании культуры звука в речи. Отмечается, что есть два вида речи - устная речь и письменная речь. Хотя они связаны друг с другом, но имеют свои особенности, различаются по содержанию и формам. В этом значении для развития речи используются различные формы и методы работ. Так как устная речь является средством общения, ее роль во всех сферах больше роли письменной речи. Однако в процессе обучения и в исследовательской деятельности устной речи уделяется мало внимания и имеется мало источников о правилах разговорной речи и чтении и их технологиях.

Говоря о культуре речи, следует в первую очередь определить содержание этого понятия, затем выявить нормы и особенности этих норм. По мере развития речи у учащихся они лучше усваивают и запоминают материал обучения. Выразительность речи учащихся и ее развитие тесно связано с усвояемостью ими фонетики, лексикологии и грамматики. Поэтому в процессе обучения должно продолжительное время глубоко усваиваться звуковой комплекс слова и его лексическое значение.

Naile Mammadova,
Shalala Abasova

Content of works in forming culture of the sound in the speech

Summary

In article it has told about the content of works in forming culture of a sound in the speech. It is noted that thtre are two oral and written types of the speech. Though they are connected with each other and have the features, they differ according to contents and forms. In this meaning for development of the speech various forms and methods of works are used. As oral speech is the means of communication, its role in all spheres is more than role of a written language. However in the course of training and in research activity of oral speech not enough attention is paid and there are few sources about rules of informal conversation and reading and their technologies.

Speaking about the standard of speech it is necessary to define first of all the maintenance of this concept, then to reveal norms and features of these norms. In process of development of the speech in pupils they acquire better and remember training material. Expressiveness of the speech of pupils and its development it is closely connected with comprehensibility them phonetics, lexicology and grammar. Therefore in the course of training long time a sound complex of a word and its lexical meaning has to be acquired deeply.

Rəyçi: Zöhrə Nəbiyeva
Filologiya üzrə fəlsəfə dosktoru, dosent

ŞƏRQİYYƏ HÜMBƏTOVA
Fil.ü.f.d.,dosent
ADPU-nun Şəki Filialı

"OĞUZNAMƏ"NIN DİLİNDƏ PAREMIK VAHİDLƏRİ QRAMMATIK CƏHƏTDƏN FORMALAŞDIRAN ÜÇÜNCÜ NÖV TƏYINI SÖZ BIRLƏŞMƏLƏRI

Açar sözlər: "Oğuznamə", abidə, paremik vahidlər, III növ təyini söz birləşməsi, birinci tərəf (təyin), ikinci tərəf (təyinlənən), isim.
Ключевые слова: «Огузнаме», памятник, паремические единицы, III тип определительных словосочетаний, первая сторона (определение), вторая сторона (определяемое), существительное.
Key words: "Oghuzname", monument, paremic units, combination of III type phrases, first party (designation), second party (designated), the noun.

"Oğuznamə"nin dilində paremik vahidlərin qrammatik cəhətdən formalaşmasında mühüm rol oynayan ismi birləşmələrin bir hissəsini də üçüncü növ təyini söz birləşmələri təşkil edir. Abidənin dilində belə birləşmələrdən də kifayət qədər istifadə edilmişdir. Üçüncü növ təyini söz birləşmələrinin tərəfləri idarə və uzlaşma əlaqələri əsasında birləşir. Bu birləşmələrin birinci tərəfi (təyini) yiyəlik hal şəkilçisi, ikinci tərəfi (təyinlənəni) isə mənsubiyyət şəkilçiləri ilə işlənir. Yiyəlik münasibəti, mənsubiyyət, aidiyyət və s. mənalar ancaq bu vəziyyətdə dəqiq şəkil alır. Birinci tərəf müəyyən yiyəlik halda işləndiyi üçün konkretliyi, müəyyənliyi ifadə edir. Bu da ondan irəli gəlir ki, III növ təyini söz birləşmələrində birinci tərəf onun ikinci tərəfinin müəyyən cəhətlərini əks etdirir. Bu birləşmələrdə birinci tərəf ikinciyə idarə, ikinci tərəf birinciyə uzlaşma yolu ilə tabe olur. Şərti olaraq, bu cür birləşmələrin əsas tərəfi mənsubiyyət şəkilçili ikinci tərəf hesab olunur.

III növ təyini söz birləşmələrinin digər səciyyəvi cəhətləri isə bunlardır: tərəfləri isim və ya isimləşərək işlənə bilən bütün əsas nitq hissələri ilə (isim, sifət, say, əvəzlik, məsdər, feli sifət və zərflə) ifadə olunur; tərəfləri arasına istənilən qədər söz daxil ola bilir; tərəfləri birlikdə bir anlayış ifadə etdiyi üçün cümlənin mürəkkəb üzvü (mürəkkəb mübtəda, xəbər, tamamlıq və zərflik) kimi çıxış edir və s. Müqayisələr göstərir ki, bu xüsusiyyətlər dilimizin bütün inkişaf dövrləri üçün səciyyəvi olmuşdur.

"Oğuznamə"nin dili üzərində aparılan müşahidə nəticəsində məlum olur ki, paremik vahidləri qrammatik cəhətdən formalaşdıran III növ təyini söz birləşmələri də birinci və ikinci növ təyini söz birləşmələri kimi, öz yaranma qayda və qanunlarına görə Müasir Azərbaycan dilindəkindən o qədər də

fərqlənmir. Abidənin dilində işlənmiş üçüncü növ təyini söz birləşmələrinin tərəfləri aşağıda göstərilən nitq hissələri ilə ifadə olunmuşdur:

Hər iki tərəfi isimlə ifadə olunanlar.Məs.: **Eşəgün dişini**, **kosanın yaşını**, **Allahın işini** yenə Allahdan qeyri kimsə bilməz.(6,40) **Çırağın yağı** çoq olicək yanmaz.(6,84) **Düşmənin ömri** qar ömri kibi ola.(6,97) Övrətdən **ərün əqli** artıqdır.(6,127) **Qələmin qiymətin** yazıçı bilür.(6,142) **Nəbatatın atası- anası** yağmurdur.(6,166)

Birinci tərəfi (təyini) isim, ikinci tərəfi (təyinlənəni) sifətlə ifadə olunanlar.Məs.: **Atın yüksəgin** al, şayəd çayı binüp keçməli olasan.(6,59) **Qonağın əbləhi** oldur ki, ev issini (ev sahibini) ağırlaya.(6,137) **Kölənin sufisi**ndən, **türkün avamından** qorqmaq gərək.(6,146) **Yemişin eyüsin** tonuz yer.(6,185)

Yaxud birinci tərəfi sifət, ikinci tərəfi isimlə formalaşanlar. Məs.: **Ağın adı** var, **qaranın dadı** var.(6,65) **Acın işi** önməz.(6,56) **Arığın toyı** bitməz.(6,56) **Xəstənin könli** tar olur.(6,91) **Toğrunun andı** təsbeh yerinə keçər.(6,125) **Gözsüzün gözi** dəgənəkdir.(6,151)

Birinci tərəfi isim, ikinci tərəfi sayla və ya əksinə birinci tərəfi say, ikinci tərəfi isimlə ifadə olunanlar. Məs.: **Orucun onı** qalansa, adamın göni qalur.(6,65) **İkisinin sözüni** üçünci tuyar.(6,38) **Yoxsulun bini** yüzə keçər.(6,178)- cümləsində isə "yoxsulun" sözü substantivləşmiş sifətdir.

Birinci tərəfi isim, ikinci tərəfi əvəzliklə ifadə olunanlar.Məs.: **Qəribin kimsəsi** yoq, Allahı vardır.(6,129)

Birinci tərəfi əvəzlik, ikinci tərəfi isimlə ifadə olunanlar.Məs.: Can **bənim canım**dır.(6,85) El eybin sana söyləyən **sənin eybini** də elə söylər.(6,24) Haman **sənin tarlan**a yağmasun.(6,171) Kimsə **kimsənin nəsibi**n yeməz.(6,154)

Birinci tərəfi isim, ikinci tərəfi məsdərlə və ya əksinə birinci tərəfi məsdər, ikinci tərəfi isimlə ifadə olunanlar.Məs.: Ərənlərin xərcinə, övrətlərin əməlinə, **oğlancıqların sevinməsi**nə bayram demişlər.(6,49) Eyü **görməgin muzdı** çoq olur.(6,29)

Birinci tərəfi isim, ikinci tərəfi feli sifətlə və ya əksinə ifadə olunanlar. Bu növ birləşmələrin birinci tərəfində substantivləşmiş feli sifət və ya feli sifət tərkibi işlədilir.Məs.:**Gücün yetdüginə** güc eylə.(6,156) **Yılanın sevmədigi** yarbuzdur, ol dəxi ini qapusunda bitər.(6,180) **Utananın oğlu-qızı** olmaz.(6,55) **Ərlə övrət arasına girənin hörmətsizligi** qalır.(6,22) **Oyunda ağlayanın başı** kəl (keçəl) olur.(6,24) Nəfəsün canı var, **tutmayanın ziyanı** var.(6,166)

Birinci tərəfi isim, ikinci tərəfi zərflə və ya əksinə birinci tərəfi zərf, ikinci tərəfi isimlə ifadə olunanlar. Məs.: **Toqun ögi**nə aş qosan, bin dürlü bəhanə bular.(6,81) Gəldünsə geri var, Hər **nəsnənin yeri** var.(6,154) **Yerin** də **qulağı** vardır.(6,178)

Abidənin dilində müşahidə etdiyimiz üçüncü növ təyini söz birləşmələrinin də tərəfləri müəyyən qrammatik dəyişmələrə uğrayır. Birləşmənin hər iki tərəfi ayrılıqda cəm şəkilçisi qəbul edir, bundan əlavə, birləşmənin ikinci tərəfinə hal şəkilçiləri artırıla bilir.

a) Birləşmənin tərəflərindən biri cəm şəkilçisini qəbul edir.Məs.:**Ərənlərin** (igidlərin) **ardı, ögi** bir olur.(6,24) **Ərənlərin xərci**nə, **övrətlərin əməli**nə, **oğlancıqların sevinməsi**nə bayram demişlər. (6,49) **Lutların** (yeməklərin) **soltanı** daneyi –birincdür.(6,159)

b) Birləşmənin ancaq ikinci tərəfi hallanır.

Yönlük halda: **Dostun əskisinə**, **həmmamın əskisinə**, **sücinin**(şərabın) **əskisinə** nəsnə irməz(çatmaz).(6,102) Sən el ögünə yat, el **sənin boyuna** qaftan biçə bilür.(6,111) **Yolçının ziyanına** dəgməz.(6,184) Qarıncanın məlullüğin **qurbağanın şənlüginə** tut.(6,141) Təsirlik halda: **Ərgənün qazancını** it yer, yaqasını bit yer.(6,26) **Eşəgün dişini**, **kosanın yaşını**, **Allahın işini** yenə Allahdan qeyri kimsə bilməz.(6,40) **Dostun rizqin** düşman kibi ye.(6,100) **Qonşunun eşəgin** iki istə sənin üç olsun.(6,134)

Misallardan göründüyü kimi, III növ təyini söz birləşmələri hallanarkən bəzən təsirlik hal şəkilçisi düşür, yalnız bitişdirici n samiti qalır. Bu xüsusiyyətlə əlaqədar H.Mirzəzadə yazır: "Yazı abidələrinin dilində bəzən üçüncü növ təyini söz birləşməsinin ikinci tərəfi ismin başqa hallarından fərqli olaraq təsirlik halda bitişdirici samiti və hal şəkilçisini (-i) qəbul etmir: Əbu Talib didi mən munın adı Zeyd qoydum.(Şühədanamə)"-(5,260)Yerlik halda: **Elün ağzında** mərcimək islanmaz.(6,56)

Çıxışlıq halda: **Devlətsizin evindən** dövlətlünün yurdı yegdir.(6,95) **Yigidün bəxtindən** qocaların fikri yegdir.(6, 185)

Müasir dilimizdə olduğu kimi, tarixən də üçüncü növ təyini söz birləşməsinin tərəflərində bir növ sərbəstlik nəzərə çarpır.Yəni əlaqəli nitq içərisində tərəflər biri digərindən ayrı düşür, tərəflərin arasına başqa sözlər daxil olur. Həmin sözlər birləşmənin ikinci tərəfinə aid olub onu izah edir. Məs.:Fürsəti fövt eyləyüb qoma bugüni yanına, **Dünyanın** yoqdur **vəfası,** baqma şimdi varına(6,130) **Qurdun** bazarda nə **işi** var?!(6,138) **Qurd** ilə **qoyunun** nə **oyunı** var?!(6,143) **Kosaların** öylədən sonra **əqli** kəm olur, hətta bir oğlancıq dəxi aldar.(6,148) **Yayanın** (piyadanın) gögdə **yıldızı** yoqdur.(6,173) **Yilin** on iki **ayı** qarıdan qaç.(6,178)

Qeyd etdiyimiz kimi, III növ təyini söz birləşmələrinin ifadə etdiyi əsas məna xüsusiyyəti onun müəyyənlik bildirməsindən ibarətdir. Yəni onun təyini müəyən subyekti, təyinlənəni isə müəyyən obyekti əks etdirir. Bununla belə, üçüncü növ təyini söz birləşmələrinin müxtəlif məna variantları da mövcuddur ki, bu da onun tərəflərinin müxtəlif nitq hissələri ilə ifadə olunmasından irəli gəlir. "Oğuznamə"nin dilində paremik vahidləri

qrammatik cəhətdən formalaşdıran üçüncü növ təyini söz birləşmələrində təsadüf edilən məna variantları aşağıdakılardan ibarətdir:

a) Birləşmənin təyini sahib şəxsi və ya əşyanı, təyinlənəni mənsub əşyanı bildirir. Məs.: **Ataların sözü** Qurana girməz, amma Quran yanınca yalın-yalın yalışur.(6,21) Can **bənim canım**dır.(6,85) **Danişməndin sərmayəsi** kitabdır.(6,96) **Qurdun adı** yavuz (pis), arada dülkü var, baş kəsərlər.(6,141)**Kişinin atı** başa bərabərdir, xəsmi-qövmi yanı-yancığıdur.(6,147)Yoxsul **bayın gəlincikidir**.(6,180) Y**olçunun aqçası** buçuğa keçər.(6,185)

Misallardan göründüyü kimi, bu qrup birləşmələrin tərəfləri arasında sahib mənsubluq əlaqəsi mövcuddur. Belə ki, birləşmənin birinci tərəfi ikinci tərəfdə verilənlərin kimə mənsub, aid olduğunu bildirir.

b) Birləşmənin təyini tam bir əşyanı, təyinlənəni isə həmin əşyanın müəyyən bir üzvünü, hissəsini bildirir.Məs.:**Oğlanın ağzı** büzük gərək.(6,43) El içində **itün quyruğun** kəsmə.(6,51) **Öksüzün** (yetimin) **qarnı** toymaz.(6,55) **Elün ağzında** mərcimək islanmaz.(6,56)

c) Birləşmənin təyini iş görəni-subyekti, təyinlənəni isə həmin subyektin gördüyü işi, hərəkəti bildirir. Məs: **Ərin işi** yenməz, qaşı yenür. (6,23) **Eşəgin su keçməsi** kəm olur.(6,54) **Tavşanın qaçışı**na baqdım da, ətindən igrəndim.(6,124)

ç) Birləşmənin təyinlənəni tərəflər arasındakı məkan əlaqəsini bildirir. Məs.: Eyü çəri **evün ögü**nə uğramasun.(6,52) Bazar **elin bazarı**dır.(6,67) **Devlətsizin evi**ndən **devlətlünün yurdı** yegdir.(6,95) **Dövlətlünün evi** tütünündən bəllüdür.(6,97) d) Birləşmənin tərəflərindən biri zaman məfhumu bildirən isimlə ifadə olunaraq tərəflər arasında zaman əlaqəsini bildirir. Məs.: **Bu günün yarını** (sabahı) var, yarının bir xoş güni vardır.(6,72)

e) Birləşmənin tərəflərindən biri tərəflər arasında vəzifə əlaqəsini bildirir. Məs.: İmam **cəmaətin qulı**dır.(6,57) Müəzzin(azançı) **imamın qulı**dur.(6,163)

Abidənin dilində üçüncü növ təyini söz birləşmələrinin tərəflərinin inversiyaya uğramasına- söz sırasının pozulmasına da rast gəlinir, belə hallarda bir qayda olaraq, təyin təyinlənəndən sonra gəlir. Məs.: **Gecəsi qarğanın** bayquşa gündür, eşəgin ölçüsü itə dügündür.(6,155) **Yaşı eşəgün** bazarında sorılur.(6,177)

Yeri gəlmişkən qeyd edək ki, bu hadisə, yəni təyinlə təyinlənənin yerini dəyişməsi türkalogoyada iki cür izah olunur: şeir dilində poetikliyi qüvvətləndirən vasitə kimi, nəsr dilində türk dillərinin daha qədim sintaktik quruluşunun relikti (qalığı) kimi.(8,377)

"Oğuznamə" dilində "**İkisinin sözü**nü üçüncü tuyar"(6,38) – paremisindəki **ikisinin sözü** -üçüncü növ təyini söz birləşməsində birinci tərəfdə

işlənmiş iki sözünün yiyəlik hal şəkilçisindən əvvəl mənsubiyyət şəkilçisi qəbul etməsi də müəyyənliyi qüvvətləndirmişdir. Qeyd etmək lazımdır ki, orta əsrlərin ədəbi və bədii əsərlərinin dilində olduğu kimi, "Oğuznamə"nin dilində də bəzən üçüncü növ təyini söz birləşmələri, bir qayda olaraq, formal cəhətdən ikinci növ təyini söz birləşməsinə oxşayır. Lakin məna və vəzifə cəhətdən tamamilə üçüncü növ təyini söz birləşməsi kimi dərk edilir. Belə birləşmələrdə birinci tərəf, əsasən xüsusi isimlərdən əmələ gəldiyi üçün ikinci tərəfin aidiyyət, mülkiyyət mənası nöqteyi-nəzərindən morfoloji əlamətə, yəni –ın, - in, -un, -ün şəkilçisinə ehtiyac duyulmur; çünki birləşmənin məzmununda heç bir qeyri – müəyyənlik, mücərrədlik izi yoxdur. Məs.: Bəglər xəşmi **Tanrı xəşmi**ndən artıqdır.(6,78) Vermək **Tanrı verməsi**dir.(6,167)

"Bəzən də eyni münasıbəti ümumi isimlərlə yarandığı zaman müşahidə edirik. Burada yenə birinci tərəf mətn daxilində mücərrədlikdən daha çox məlum bir əşya haqqında təsəvvür yaradır."(5,257) Məs.: **Qurd ənigi** (balası) yenə qurd olur.(6,134) Meyxanə **el evi**dir.(6,164)) **Qış azlığı**na aldanma buyarsan(donarsan).(6,139) **Yalançılıq kökün** bərabərlıq kəsər.(6,174) Göründüyü kimi, paremilərin tərkibindəki birləşmələr (qurd ənigi, el evi, qış azlığı, yalançılıq kökü) formaca ikinci növ təyini söz birləşmələri olsa da, əslində məzmununa görə üçüncü növ təyini söz birləşmələridir. H.Mirzəzadə bu növ birləşmələri şərti olaraq üçüncü növ təyini söz birləşmələrinin naqis forması adlandırır.(5,257)

Daha sonra H.Mirzəzadə üçüncü növ təyini söz birləşmələrinin qədim formalarından bəhs edərək yazır: "...birinci tərəfdə hər üç şəxsin mənsubiyyət şəkilçisi iştirak edirsə, o zaman həmin tərəf yiyəlik şəkilçisi (-ın, -in, -un, -ün) qəbul etmir. İkinci tərəfdə mənsubiyyət şəkilçisi bir qayda olaraq işlənir. Bu vəziyyətdə formaya nisbətən məna üstünlük qazanır. Belə hallarda birinci tərəf mənsubiyyət şəkilçisi ilə ifadə edildiyi üçün, ikinci tərəflə birlikdə konkret məzmun kəsb edir, mücərədlikdən və ümumilikdən uzaqlaşır."(5,258) Məs.: Yavuqladuğun nəsnəyi **qonşun tanası** kibi arama.(6,174)

Abidənin dilində bir qrup üçüncü növ təyini söz birləşmələrinə də təsadüf edilir ki, "birinci tərəf, yəni sahib tərəf iki sözdən ibarət olduğu halda, birinci və ya ikinci söz bəzən yiyəlik hal şəkilçisi qəbul edir, bəzən də şəkilçisiz işlənir."(5,39) Məs.: **Köçdügün yurdun qədri** qonduğun yurtda bilinər.(6,155) El içün **ağlayanın gözi yaşı** dügiməz(dayanmaz).(6,44) **Kimsənin sözi arasına** girmə.(6,145)

Paremik vahidlərdə daha bir qrup üçüncü növ təyini söz birləşmələrinə də rast gəlinir ki, onların təyini (birinci tərəfi) və ya təyinlənəni (ikinci tərəfi) həmcins üzvlərlə ifadə olunur.

a) Təyini həmcins üzvlərlə ifadə olunanlar:**Kölənin, qaravaşın tanrısı** çomaqdır.(6,144) **Nakəslə comərdin xərci** birdir.(6,166)

b) Təyinlənəni həmcins üzvlərlə ifadə olunanlar: **Ərənlərin ardı, ögi** bir olur.(6,24) ... Bəglərlə **irişənin başıyla malı** yetər.(6,50)

Abidənin dilindəki üçüncü növ təyini söz birləşmələrinin tərəflərinin söz birləşmələri ilə ifadə olunması da maraqlı məsələlərdəndir. Bu növ birləşmələr mürəkkəb təyini söz birləşmələri sayılır. Məlum olduğu üzrə, "... həm məna, həm də formaca bir – birinə bağlanan, tərkibində iştirak edən sözlərin (sayından asılı olmayaraq) hamısı birlikdə bir cümlə üzvü kimi işlənə bilən birləşmələr mürəkkəb təyini söz birləşməsi hesab edilir."(3,100) Belə birləşmələrin aşağıdakı növlərinə təsadüf olunur:

1. Birləşmənin birinci tərəfi birinci növ təyini söz birləşməsi ilə ifadə olunur.Məs**.: Uyur**(yatan) **yılanın quyruğu**n basma.(6,22) **Ölmüş evin rizğı** öləcək evə qoyulur.(6,39) Bir evdə ki kölə- qaravaş olmaya, **ol evin bərəkəti** olmaz..(6,77) **Çağa yavrının**(quzunun) **ağzı** böyük olur.(6,85) **Sarıca arının ini**nə ağac soqma.(6,114) **Qarağı** (kor) **legləgin yuvası**n haq yapar.(6,132) **Naçar işün adı** şükürdür.(6,166)

Verilmiş paremik ifadələrdəki üçüncü növ təyini söz birləşmələrinin təyinləri (uyur yılan, ölmüş ev, ol ev, çağa yavrı, sarıca arı, qarağı legləg, naçar iş) birinci növ təyini söz birləşmələri ilə ifadə olunmuşdur.

2. Birləşmənin birinci tərəfi ikinci növ təyini söz birləşməsi ilə ifadə olunur.Məs.: **Adam oğlının əli** gövhərdir.(6,44) **Türk atınun samanı** bol gərək.(6,82) **Qış gününün yemişi** oddur.(6,142)

Təqdim olunan nümunələrdə mürəkkəb təyini söz birləşmələrinin təyinləri (adam oğlı, türk atı, qış günü) ikinci növ sadə təyini söz birləşməsidir.

3. Birləşmənin ikinci tərəfi birinci növ təyini söz birləşməsi ilə ifadə olunur. Məs.: **Şəhərin dövlətsiz qızı** köyə(kəndə) gəlin gedər, **köyün dövlətlü qızı** şəhərə gəlin gedər.(6,113) Köyün dövlətü sinəgi (milçəyi) yoğurd tulquğuna qonar, şəhərə varar. **Şəhərin dövlətsiz sinəki** cikrətmənə qonar, köyə gedər.(6,146)

Burada üç sözlü (şəhərin dövlətsiz qızı, köyün dövlətlü qızı, şəhərin dövlətsiz sinəki) mürəkkəb təyini söz birləşmələrinin təyinlənənləri (dövlətsiz qızı, dövlətlü qızı, dövlətsiz sinəki) birinci növ təyini söz birləşmələridir.

4. Birləşmənin ikinci tərəfi ikinci növ təyini söz birləşməsi ilə ifadə olunur. Məs.:**Kölənin ənsəsi tamarı** qıssa olur, anun içün söz götürməz, tez qaqar (qəzəblənər).(6,157)

5. Birləşmənin hər iki tərəfi birinci növ təyini söz birləşməsi ilə ifadə olunur. Məs.: **Böyük başın böyük ağrısı** var.(6,73) Birdən binə səbəb olur, **bir qəhərin bir lütfi** olur.(6,74) **Çürük baqlanın kor alıcısı** olur.(6,83) **Hər**

kişinin bir dürlü halı var.(6,169) **Hər ağacın bir yemişi** olur.(6,171)

Minillərin fikri ifadəsi olan "Oğuznamə"nin dilində paremik vahidlərin tərkibində işlənmiş üçüncü növ təyini söz birləşmələri araşdırılarkən aydın olur ki, onlar da öz tarixi inkişafı prosesində müəyyən dəyişikliyə uğramışdır. Bu birləşmələrin bəzi xüsusiyyətləri arxaikləşərək dildən çıxmış, digər bir qism xüsusiyyətləri isə təkmilləşmişdir. Buna görə də abidənin dilindəki üçüncü növ təyini söz birləşmələrini Müasir Azərbaycan ədəbi dilindəki təyini söz birləşmələri ilə qarşılaşdırdıqda bunlar arasında həm oxşar, həm də fərqli cəhətlərin olduğunu görmək mümkündür. Bunların oxşar cəhətləri ondan ibarətdir ki, onlar tərəflərinin nitq hissələri ilə ifadəsinə, tərəflər arasındakı sintaktik əlaqəyə, morfoloji əlamətlərinə, ifadə etdiyi məna variantlarına və s. görə Müasir Azərbaycan ədəbi dilində işlənən üçüncü növ təyini söz birləşmələri ilə eyniləşir.

Abidənin dilindəki üçüncü növ təyini söz birləşmələrində diqqəti cəlb edən cəhət bəzi hallarda onun tərəflərinin yerinin sabit olmamasıdır. Qədim və orta əsrlərə aid mənbələrdəki kimi, bəzən təyin təyinlənəndən sonra işlədilir. Bəzən də birinci tərəfdəki yiyəlik hal şəkilçisi işlədilmir. "Oğuznamə"dilində üçüncü növ təyini söz birləşmələrinə aid müşahidə edilən bu xüsusiyyətlər, şübhəsiz, onların yaranma və inkişaf tarixinin müəyyən dövrünü özündə əks etdirir.

Yuxarıda göstərilən fərqli xüsusiyyətlər Müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş olsa da, başqa yazılı mənbələrdəki təzahürü həmin hadisələrdə qədim xüsusiyyətləri görməyə imkan yaradır.

Ədəbiyyat

1. Azərbaycan ədəbi dili tarixi. I cild. XIII – XVI əsrlər. Bakı, "Şərq – Qərb", 2007.
2. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, "Elm və təhsil", 2011
3 .Həsənov.Q.M. "Dəhnamə"nin sintaksisi. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1967

4.Kazımov.Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, "Təhsil" nəşriyyatı, 2007.

5. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, Azərbaycan Universiteti, 1990.
6. "Oğuznamə". Bakı, "Şərq – Qərb", 2006.
7. Seyidov Y. Əsərləri. III cild, Bakı, 2007

8.Tanrıverdi Ə.V. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, "Elm və təhsil" 2012.

Ш. Гумбатова

III тип определительных словосочетаний, формирующие паремические единицы с грамматической стороны в языке «Огузнаме»

Резюме

Определенную часть именных (субстантивных) словосочетаний, формирующие паремические единицы с грамматической стороны в языке «Огузнаме» составляет III тип определительных (атрибутивных) словосочетаний. Такие словосочетания на языке памятника употреблены в достаточном количестве.

При исследовании III типа определительных (атрибутивных) словосочетаний, употребляющихся в составе паремических единиц в языке «Огузнаме», выясняется, что они тоже в процессе своего исторического развития подверглись определенным изменениям. Некоторые особенности этих словосочетаний архаизировались и вышли из состава языка, а остальная часть особенностей усовершенствовались. Исходя из этого, сопоставив III тип определительных (атрибутивных) словосочетаний на языке памятника с определительными словосочетаниями в Современном Азербайджанском литературном языке, можно увидеть сходные и различительные черты между этими словосочетаниями. Сходство их состоит в выражении сторон одинаковыми частями речи, синтаксической связью между сторонами, морфологическими элементами ,вариантами выражаемых значений и т.д. происходит отождествление с III типом определительных (атрибутивных) словосочетаний в Современном Азербайджанском литературном языке. Один из особенностей, привлекающих внимание у III типа определительных (атрибутивных) словосочетаний в языке памятника «Огузнаме»- является в некоторых случаях непостоянное расположение его сторон, то есть определение может употребляться после определяемого слова. А иногда окончание родительного падежа в первой части не употребляется. Несмотря на архаизацию этих особенностей в Современном Азербайджанском литературном языке, проявление их себя в других письменных источниках, дает воз-можность видеть древние особенности в тех случаях. Эти особенности, присущие к III типу определительных (атрибутивных) словосочетаний, наблюдаемые в языке «Огузнаме», несомненно отражают себя в определенном этапе их возникновения и исторического развития.

Sh.Humbatova

The third kind of word combinations that form grammatical formations of paremic unitsin the language of "Oghuzname"

Summary

In the language of "Oghuzname", the third form of word combinations is also a part of the name that plays an important role in the grammatical formations of paremic units. In the language of the monument it has been used quite well in such combinations. In the language of "Oghuzname", the third type of paremic units used in the study of word combinations reveal that they have undergone certain changes in their historical development process. Some of the features of these combinations have been abandoned in our language and some other features have improved. Therefore, it is possible to see that the third type of monument in the language of the monument corresponds to the combination of word combinations in the literary language of modern Azerbaijan, there are both similar and distinctive features. The similarities of these are the fact that they have the narration of the parties, the syntactic relationship between the parties, the morphological signs, the meaning of their meaning, and so on. The third type of expression in modern Azerbaijani literary language is uniquely identifiable with word combinations.

The third aspect in the language of the monument, which draws attention to the word combinations, is that in some cases the place of the parties is unstable, ie, after the appointment is determined. Sometimes there is no reference to the circumstance of the first one. Although these features are archaic for the modern Azerbaijani literary language, their manifestations in other written sources enable them to see the ancient features of those events.

These features, which are observed in the language of “Oghuzname”, are the third type of expression, which, of course, reflects a certain period of history of their establishment and development.

Rəyçi: **Gülarə Abdullayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

DÜRDANƏ ƏLİYEVA
Bakı Slavyan Universiteti, dosent
durdana@mail.ru

TÜRKOLOGİYADA FOLKLOR MƏTNLƏRNİN DİL VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ (Biblioqrafik təhlil)

Açar sözlər: türk dili, folklor mətni, nağıl, biblioqrafik təhlil.
Ключевые слова: тюркский язык, фольклорный текст, сказка, библиографический анализ.
Key words: Turkic language, folklore text, fairy tale, bibliographic analysis.

Folklorun istər dilçilik, istərsə də ədəbiyyatşünaslıq baxımından öyrənilməsini müqayisə etsək, türk dilində bu işin ədəbiyyatşünaslıq baxımından daha şaxəli və daha fundamental olduğunu görürük. Tədqiqatların çoxluğunu və genişliyini nəzərə alaraq, biz yalnız atalar sözləri, lətifə və nağılların tədqiqi vəziyyəti haqqında məlumat verəcəyik. Xalq nağıllarının Türkiyədə nəşrinə XX əsrin əvvəllərindən başlandı. Bu işdə 1908-ci ildən fəaliyyətə başlayan Türk Dərnəyi ilə, 1912-ci ildə təşkil olunan Türk Ocağının rolu böyük oldu. Türk nağıllarının toplanılıb çap olunmasının başında K.D.Hanım dayanırdı. K.D.imzası ilə 1912-ci ildə Türkiyədə çap olunan kitabda 13 nağıl var idi. Bu kitab haqqında ilk dəfə Ziya Gökalp, daha sonra isə Pertev Naili Boratav məlumat vermişdir. 1922-ci ildə Ziya Gökalp özünün topladığı nağılları Diyarbəkirdə kiçik bir məcmuədə çap etdirir. Sonralar bu nağıllara öz yazdığı nağılları da əlavə edərək "Altın işık" adı ilə kitab halında çap etdirir. Bundan sonra Türkiyədə nağılların toplanması və çapına maraq artır. Bu sırada Hamit Zübeyr Koşay, Bahtevar Hanım, Ali Rıza Yalgın, Sabahat Emir, Yusuf Ziya Demircioğlu, N.Tezel, Mehmet Tuğrul və başqalarının adlarını çəkmək olar ki, onlar türk nağıllarının toplanması və nəşri işində birincilər sırasındadırlar. Türk nağılları ilə bağlı ilk tədqiqatlar avropalılar tərəfindən aparılmışdır. Elə bunun nəticəsində də türk nağılları digər dillərə tərcümə edilərək çap olunmuşdur. Türk nağıllarının ilk tədqiqatçısı Fransa Kralı XVI Luinin mütərcimi və katibi M.Digeondur. Onun "Nouveaux Ture Et Arabes" adlı əsərinin 1781-ci ildə çap olunan II cildində üç nağıl mətni təqdim edilir - 1 (Halil), 3 (Derviş), 5 (Şirvanlı Tüccar). Bu əsər elm aləminə ilk dəfə Saim Sakaoğlu tərəfindən təqdim edilmişdir. Rus türkoloqu F.V.Radlov 1866-1907-ci illərdə 10 cildlik Türk xalqlarının xalq ədəbiyyatı nümunələrini "Proben der Volksliteratur der Turkischen Stämme" adı ilə çapa hazırlayır. 1997 – ci ildə

toplunun VIII cildi Saim Sakaoğlu və Mətin Ergün tərəfindən latın əlifbasına keçirilərək Türk Dil Qurumu tərəfindən çap olunmuşdur.

Macar türkoloqu İqnacz Kunoşun türk nağılları ilə bağlı araşdırmaları da çox qiymətlidir. O,1885-ci ildə Budapeştdən Türkiyəyə gələrək 5 il müddətində tədqiqatlar aparmışdır. Onun türk nağılları ilə bağlı araşdırmalarını belə qruplaşdırmaq olar: 1. Osaman-török nepköltesi gyujtemeny. Bu əsərin I cildi nağıllara ayrılmış və burada 98 nağıl təqdim edilmişdir. 2. "Türkische Volksmärchen aus Stanbul" (Leipzig 1905) adlanan əsərdə 51 İstanbul nağılları təqdim edilir. 3. "Türkishe Volksmärchen aus Adakale" I, II, (Leipzig 1907) - burada isə Tuna çayı sahillərində yaşayan türklərin nağılları təqdim edilmişdir. Alman alimi Teador Menzel "Billur Köşk Nağılları"nı alman dilinə tərcümə edərək çap etdirir. Kitabın ikinci cildi 1924-cü ildə "Der Zauberspigel"i çap etdirir. 1960-cı ildə isə Varren Valker Əhməd Edip Uysal ilə birlikdə Türkiyədə topladığı nağılları nəşr etdirir. Otto Spies isə fərqli mənbələrdən topladığı 60 türk nağlını alman dilinə tərcümə edərək çap etdirir. Nağıl mətnlərindən sonra müəllif "son söz" başlığı altında türk nağılları ilə bağlı tədqiqatların qısa təhlilini verir. Türk nağıllarının və folklorunun araşdırılmasından bəhs edən zaman rus türkoloqlarının bu sahədə gördükləri işlər xüsusi qeyd olunmalı və ayrıca təhlil edilməlidir**.** Türk nağıllarının elmi şəkildə araşdırılmasından danışan zaman Petrev Nail Boratavdın adı xüsusi qeyd edilməlidir. O,müəllimi Volfram Eberherd ilə birlikdə "Typen Türkisher Volksmarchen"-Türk nağıllarının kataloqu"nu hazırlayır. 378 türk nağlını əhatə edən bu kataloqda nağlın motivləri və tipləri qruplaşdırılmışdır. Elm aləmində bu kataloq TTV adı ilə tanınır. N.Boratav 1955-ci ildə ilk nağıl kitabını fransız dilində çap etdirir. "Contes Turcs" adlı bu kitabda 1 yanıltmac və 21 nağıl mətni təqdim edilirdi. 1958-ci ildə N.Boratav "Zaman-zaman içində" adı ilə türk dilində nağıl kitabını çap etdirir. Kitabda 21 yanıltmac və 22 nağıl mətni toplanmışdır ki, nağılların 18-i onun "Contes Turcs" kitabından götürülmüşdür. 1967-ci ildə N.Boratav 48 türk nağlını alman dilinə çevirərək "Türkische Volksmärchen" adıyla Berlində çap etdirir. Bu kitabda bir yanıltmac, 48 nağıl və 19 Karatəpəli lətifə mətni təqdim edilmişdir. Kitabın diqqəti çəkən cəhəti, onun sonunda "Türk nağılları haqqında" adlı hissədə türk nağıllarının tarixi inkişafı və formalaşması haqqında məlumatın verilməsi idi. 1978-ci ildə Erman Artun "Tekirdağ folkloru araşdırmaları" adlı kitabını çap etdirir ki, burada türk nağıllarının məxsusi xüsusiyyətləri geniş şəkildə təhlil edilir. 1985-ci ildə Mehmet Rifat və Sema Rifat V.Proppun 1928-ci ildə çap olunmuş "Morfologiya skazki" ktabını fransız dilindən türk dilinə tərcümə edir və "Masalın Biçimbilimi" adı ilə çap etdirirlər.Türk nağıllarının ilk tam elmi araşdırıcısı Saim Sakaoğludur. Onun 1971-ci ildə bitirdiyi işi "Gümüşhane Masalları. Metin Toplama ve Tahlil" adlanırdı ki, burada 70 nağıl mətni

verilmiş və onların mətni təhlil edilmişdir. Əsər ön söz, giriş və dörd fəsildən ibarət idi. Girişdə nağlın xüsusiyyətləri, növləri, müxtəlif ölkələrdə nağılların tədqiqi haqqına geniş məlumat verilir. I fəsildə Gümüşxana nağıllarının formal xüsusiyyətləri, II fəsildə təsnif və təhlili, III fəsildə isə nağılların ortaq elementləri təhlil edilmişdir. IV fəsildə isə 70 nağıl mətni təqdim edilmişdir. Qeyd edək ki, Saim Sakaoğlu bütün elmi yaradıcılığı boyu türk nağıllarına və onların elmi şəkildə öyrənilməsinə sadiq qalan tədqiqatçılardandır və haqqında bəhs etdiyimiz və adlarını çəkdiyimiz bütün türk nağıl tədqiqatçıları içərisində yalnız o, məzmun-obraz-ad əlaqəsindən bəhs etmişdir. Onun 1983-cü ildə yazdığı "Kıbrıs türk masalları" adlı doktorluq işi də türk nağıllarının öyrənilməsinə həsr olunmuşdur. Bu əsərdə 20 nağıl təhlil edilmişdir.

1973-cü ildə Bilge Seyidoğlu "Ərzurum xalq nağılları ilə bağlı araşdırmasını tamamlayır. Bu tədqiqat işində isə Ərzurumdan toplanmış 72 nağıl mətni təhlil edilmişdir. Bunun ardınca Umay Günay "Elazığ Masalları (Mətn təhlili)" adlı doktorluq dissertasiyasını yazır. Bu dissertasiyada isə 70 Elağız nağlı V.Proppun metodu ilə təhlil edilmişdir. Dissertasiyanın girişində dünyada və Türkiyədə nağılların öyrənilməsi və təhlili haqqında məlumat verilmiş, Proppun "Nağlın morfologiyası" əsəri ingilis dilindən türk dilinə tərcümə edilərək təqdim edilmişdir. II fəsildə nağıllar Propp metoduna əsasən təhlil edilmiş, III fəsildə isə Elağız nağıllarının digər türk nağılları ilə ortaq xüsusiyyətləri təhlil edilmişdir. Əli Berat Alptekin "Taşəli Platosu nağıllarında motiv və tip" adlı doktorluq işini 1982-ci ildə tamamlamışdır. 70 nağılın araşdırıldığı iş iki cilddir: I cilddə tədqiqat, II cilddə isə mətnlər və lüğət yer almışdır. İş girişdən sonra altı hissədən ibarətdir. Burada nağılların quruluşu, forması, tipləri təsnifi verilmiş, nağıllardakı motivlər təsbit edilmiş, yığılan nağılların mətni ilə lüğəti təqdim edilmişdir.

Ziyat Ağnlu isə "Min bir gecə nağıllarının türk nağıllarına təsiri" adlı doktorluq dissertasiyasını 1982-ci ildə tamamlamışdır. İşin girişində Min bir gecə nağıllarının xüsusiyyətləri və bu nağıllarla bağlı aparılan tədqiqat işlərinin təhlili, I hissədə nağıllar arasındakı əlaqə və Min bir gecə nağılları ilə türk nağılları arasındakı bənzər motivlər araşdırılır, II hissədə isə 215 nağıl mətninin motivləri verilir. Türk nağıllarının digər bir tədqiqatçısı Esma Şimşəkin 1990-cı ildə yazdığı "Yukarı Çukurova Nağıllarında Motif və Tip Araşdırması" adlı doktorluq dissertasiyasında isə nağıl, nağlın xüsusiyyətləri, digər növlərlə olan əlaqələri verilmişdir. İş altı hissədən ibarətdir. Burada türk nağılları və Yukarı Çukurova nağılları ilə bağlı aparılan tədqiqatlar; nağılları təhliletmə formaları, nağılların tip təsnifi, formal strukturu, qeydlər, nəticə və biblioqrafiya verilmişdir. VI hissədə 70 nağıl mətni və lüğət təqdim edilmişdir. Türkiyədə nağıllarla bağlı aparılan tədqiqatların bir neçəsinin təhlilini təqdim etdik və gördüyümüz kimi, bütün tədqiqatların

istiqaməti eynidir. Türkiyədə adları sadalanan alimlərdən başqa Mehmet Özçelikin "Afyonkarahisar Masalları Üzerine Bir Araştırma" (1993); Tülay Aksanın "Popüler Kültür Yayılım Alanları: Masalın İmajinasyon Yaratma ve Sosyal Bilimlerin Gelişmesine Katkısı" (1995); Behiye Köksalın "Gaziantep Masalları Üzerine Bir İnceleme" (1995); Yılmaz Önayın "Van Masalları Üzerine Bir Araştırma" (1996); Muhsine Yavuzun "Masalların Eğitim İşlevleri ve Dil Öğretimindeki Yeri" (1996); Ruhi Karanın "Erzincan Masalları (Metinler ve İncelemeler)" (1996); Şahin Köktürkün "Azerbaycan ve Türkiye`den Derlenmiş Masalları Karşılaştırma Denemesi" (1996); Seyit Emiroğlunun "Meram İlçesi (Konya) Masalları Üzerine Bir İnceleme" (1997); Berrin Karakuzunun "Kadınhanı Halk Anlatımları Üzerine Bir Araştırma" (1998); Recep Akayın "Türk ve Alman Masallarında Çocuk Fiqürleri" (1999); Ahmet Öcalın "Karakuyu Köyü (Boğazlıyan-Yozgat) Çevresi Masalları" (2001); Aziz Kılınçın "Yakaafşar Kasabası Anlatı Türleri Üzerine Bir İnceleme (Hikâye-Masal-Fıkra)" (1988); Türkan Tayyarın "Almanya`da ve Türkiye`de Sanat Masalları (Model Metinlerle Karşılaştırma)" (1988); Metin Ergünün "Türkmen ve Anadolu Halk Masallarının Yapı ve Motif Açısından Mukayesesi Üzerine Bir Araştırma" (1990); Mehmet Yardımcının "Yaşayan Malatya Masalları-Metinler ve İncelemeler" (1990); Emin Ulunun "Tokat Çevresinde Cin Fıkraları ve Masalları (İncelemeMetin)" (1992); Rasim Denizin "Kayseri Masalları" (1994); Mehmet Yılmazın "Kırgız Halk Masalları-Motif İndex ve Tercüme" (1994); Mehmet Açanın "Obruk (Konya) Köyleri Halk Edebiyatı Ürünleri Üzerine Bir İnceleme" (1995); Mustafa Severin "Erciyes Yöresi Masallarında Tipler" (1995); Suna Pamir Bildikin "Yıldızelili Atifet Bildik`ten Derlenen Masallar Üzerinde Bir Araştırma" (1997); Halit Altay Gödenin "Yalvaç Masalları Üzerine Bir İnceleme" (1997); Arzu Dolunun "Diyarbakır ve Yöresi Masallarında Motif İncelemesi" (1998); Melek Kertenin "Adana Masalları Araştırması" (2000); Nedim Bakırcının "Niğde Masalları" (2000) tədqiqatlarını da nümunə göstərə bilərik. Bu tədqiqatların təhlilləri göstərdi ki, istər türk, istərsə də dünya türkoloqları türk nağıllarına müraciət edən zaman daha çox onların ədəbiyyatşünaslıq baxımından təhlilinə diqqət yetirmiş, onların dil xüsusiyyətlərinə, semantikasına, linqvistik təhlilinə az yer ayırmışlar.

Türk mədəniyyəti satira baxımından olduqca zəngindir. Bu zənginlikdə türk lətifə qəhrəmanlarının böyük rolu vardır. Bu gün türk lətifəsi deyincə, ağlımıza Nəsrəddin Hoca, Təmel və s. kimi hər kəs tərəfindən tanınan tiplər gəlir. Məşhur tiplərin yanında daha kiçik bölgələrdə tanınan regional və məhəlli tiplər də mövcuddur ki, onların da türk lətifələrinin tanınmasında böyük rolu vardır. Lətifənin ayrıca bir folklor janrı kimi elmi baxımdan araşdırılması XIX əsrdən başlansa da, təməl araşdırmalar 1950-ci

illərdən sonraya təsadüf edir. Bu dövrdən günümüzə qədər Türkiyədə türk lətifələrilə bağlı çox tədqiqatlar aparılmışdır.

Pertev Naili Boratav, Şükrü Elçin, Şükrü Kurgan, Dursun Yıldırım, Saim Sakaoğlu və başqalarının bu sahədə əməyi çoxdur. Saim Sakaoğlunun bu işdə rolu xüsusi qeyd olunmalıdır. Alimin lətifə, onun növ və tipləri ilə əlaqədar qələmə aldığı məqalə, kitab, qəzet və jurnal yazıları bu gün lətifə üzrə istər dilçi, istər folklorşünas, istərsə də etnoqrafların istinad etdikləri əsas mənbələrdən biridir. Prof. S.Sakaoğlunun lətifə ilə bağlı tədqiqatları məşhur türk lətifə tipi Nəsrəddin Hoca ilə bağlıdır. O, "Mən, lətifə dinləməyi Orta Anadolumuzun ağ saqqallı cavanı Nəsrəddin Hocamızın lətifələri ilə sevməyə başladım" - deyərək, Nəsrəddin Hoca lətifələrinin ona etdiyi təsiri dilə gətirmişdir. Sakaoğlunun lətifələrlə bağlılığının digər bir səbəbi isə onun Konyalı olması idi. Alimin Nəsrəddin Hoca ilə bağlı yazılarının bəziləri Nəsrəddin Hocaya vurulan ləkələrin təmizlənməsinə xidmət edir. Alimin maraqlı məqalələrindən biri də "Nəsrəddin Hocamızın Türk Dünyasındakı Yoldaşları"dır. Məqalədə Nəsrəddin Xocanın Türk dünyasındakı oxşarlarının lətifələri müqayisə edilmişdir. Alimin türk lətifələri və Nəsrəddin Hoca ilə bağlı tədqiqatları onun “Türk Fıkraları və Nasreddin Hoca” kitabında ümumiləşdirilmişdir. 1992-ci ildə nəşr olunmuş əsər "Fıkralar Üzərinə" adlı bir giriş və iki bölmədən ibarətdir. Birinci fəsil, "Türk Fıkraları-Fıkra Növləri", ikinci fəsil, "Nəsrəddin Hoca" adlanır. Qeyd edək ki, alimin lətifələrlə bağlı araşdırmaları təkcə Nəsrəddin Xoca ilə kifayətlənmir. Onun türk lətifələrinin tipləri, janr xüsusiyyətləri, özünəməxsusluğu, oxşar və fərqli xüsusiyyətləri ilə bağlı da məqalələri nəşr olunmuşdur.

Türkiyədə lətifə növü ilə bağlı aparılan araşdırmalar başlanğıcda daha çox nizamsız xarakter daşımışdır. Türk lətifələri ilə bağlı tədqiqatlar aparan tədqiqatçılar arasında P.N. Boratav, Dursun Yıldırım, Nevzat Gözaydın, Saim Sakaoğlunu xüsusilə qeyd edə bilərik. Xüsusilə də Naseddin Xoca lətifələri ilə bağlı Şükrü Elçin, Şükrü Kurgan, Ahmet Kutsi Tecer və Abdülbaki Gölpınarlı'yı da bu sıraya daxildir. Son illərdə İ. Altunel "Anadolu Fıkra Tipleri Üzərinə Bir araşdırma, Araşdırma-mətnlər" adlı doktorluq işində Türkiyədən 811 lətifə mətnini yığmış və nəşr etmişdir. K.Yedekçioğlu "Öyünmək Kimi Olmasın Amma Kayseriliyim (Kayseri Fıkraları)" adlı əsərilə, H. Köksal “Ərzurum Fıkraları”, Ə. Duymaz "Çəpni lətifələri", İ. Altunel "Yerli Fıkra tipləri - Konyalı Gale Mehmet" başlıqlı məqalələri ilə türk lətifələrinin elmi olaraq təhlilini aparmışlar. Tənzimat dövrünə qədər Türkiyədə atalar sözlərinin elmi baxımdan araşdırılmasına təsadüf edilmir. Amma bu mərhələyə qədər türk atalar sözlərinin toplanması və çapı həmişə diqqət mərkəzində olmuşdur. 1840-cı ildən başlayaraq, türk atalar sözlərinin toplanması və təhlilinə xüsusi diqqət yetirilir. Cümhuriyyət dönəmində atalar sözləri ilə bağlı tədqiqatların sayı daha da artdı. Bu illərdə

Xalq Bilgisi Xəbərləri, Folklor poçtu və xüsusilə də Türk Folklor Araşdırmaları jurnallarının fəaliyyətini xüsusi qiymətləndirmək lazımdır. Bu jurnallarda təkcə atalar sözləri çap olunmur, həm də elmi təhlilləri də təqdim edilirdi. 1960-cı illərdə Türk Dil Qurumu bölgə atalar sözlərinin toplanması və təhlilinə başlaması ilə bu sahə yeni bir istiqamətə yönəldi. Belə ki, toplanmış nümunələrin izahlı lüğətləri tərtib olunur, filoloji baxımdan elmi təhlillər aparılırdı. Bu gün folklor nümunələrinin öyrənilməsi səviyyəsini müqayisə etsək, Türk folklorşünaslığında atalar sözlərinə daha çox diqqət ayrıldığını görürük. 1990-cı illərdən atalar sözlərinin akademik səviyyədə araşdırılmasına başlandı. Bu dönəmdən başlayaraq, atalar sözləri doktorluq işlərinin mövzusuna çevrildi. Bu dövr tədqiqatları nəzərdən keçirdikdə görürük ki, bu araşdırmalar təkcə türk dilinin deyil, digər türk dillərində olan atalar sözlərini də əhatə edir. Bu tədqiqatlarda qohum və ya qohum olmayan dillərin atalar sözlərinin mətn, məzmun və dil baxımından müqayisəli təhlili aparılmış, ya da ayrıca türk dilinin müxtəlif regionlarını əhatə edən atalar sözlərinin linqvistik və ədəbiyyatşünaslıq baxımından təhlili verilmişdir. Maraq doğuran isə türk alimlərinin türkmən folklorunun, bu sırada türkmən nağılları ilə bağlı apardıqları tədqiqatlarının mövzularının ədəbiyyatşünaslıq baxımından aktuallığıdır . Belə tədqiqatlara Yusuf Ziya Sümbüllünün "Türkmen Halk Masalları Üzerine Motif İncelemesi (Büyülü Masallar) (2000) və Ahmet Gökçimenin "Türkmen Masalları Üzerine Motif İncelemesi (Hayvan Masalları) (2010) doktorluq dissertasiyalarını nümunə göstərmək olar. Hər iki dissertasiya türkmən nağıllarının mövzu və motiv baxımından təhlilinə həsr edilirdi. Türkmən nağıllarında mifoloji heyvanlar və onların mətnlərdəki mövqeyini, funksiyalarını tədqiq edən Əhmət Gökçimen araşdırmalarında türkmən nağıllarındakı Div, At, Simurq, Əjdaha mifonimlərinin ayrı-ayrı nağıllarda tutduqları mövqeyinə görə təhlil edərək, onların etimoloji izahını verməyə çalışmışdır. Türkmən folklorunun tədqiqindən danışan zaman Fikrət Türkmənin adını xüsusi qeyd etmək lazımdır. Türkmən lətifələrinin istər mətn, istər dil, istərsə də üslub xüsusiyyətlərinin öyrənilməsi haqqında danışan zaman ilk növbədə onun adı yada düşür. Türkmən lətifələrinin araşdırıcıları sırasına Xəlil İbrahim Şahin, Boray İdem və başqaları da daxildir. Bu adları sadalanan tədqiqatçılar türkmən lətifələrini toplamaqla yanaşı, bu folklor nümunələrinin obrazlar silsiləsini də təhlil etmiş, onları müxtəlif qruplar üzrə təsnif etməyə çalışmışlar. Türkmən folklorunun tədqiqindən danışan zaman Azərbaycan tədqiqatçılarından Q. Paşayevin də adını çəkmək lazımdır. Alimin İraq-Türkmənləri ilə bağlı 1982-ci ildə yazdığı "İraq Türkmən folkloru" kitabı bu sırada bütün türk dünyasında xüsusilə dəyərləndirilən bir tədqiqatdır. Elə bu səbəbdən də kitab Bakı nəşrindən sonra 1995-ci ildə Bağdadda, 1998-ci ildə isə İstanbulda nəşr olunmuşdur.

Bu xarakterli tədqiqat işlərindən biri də Aylar Kerbabayevanın "Türkmən romanında folklorun rolu (A.Qovşudovun və B.Kerbabayevin romanları əsasında)" (1994) namizədlik dissertasiyasını nümunə göstərmək olar. Dissertasiya tanınmış türkmən yazıçıları Ata Qovqaudovun "Mexri-Vesa" (Mehrinin nəvəsi) və "Köpetdaqış ateqinde" və Berdi Kerbabayevin "Suv damşısı-altın danesi" romanlarında türkmən folklor ənənələrinin gözlənməsi və folklor nümunələrinin bu romanlarda ifadəsinin təhlili üzərində qurulmuşdur. Tədqiqatçı folklor və yazılı ədəbiyyat əlaqələrini araşdıran zaman folklor qəhrəmanlarının bu işdə rolundan və tədqiq edilən romanlarda bu obrazların adları üzərində yazıçıların fərdi üslubi əməliyyatları, adların etimologiyasının bu üslubi oyunda yazıçıya yardımı və s. problemlərə də toxunmuş və elmi şərhlər vermişdir. Bu dövrdə yazılan tədqiqatlardan biri Dövlətgəldi Babayevin "Folklorda etik və estetik idealın əlaqəsi (türkmən şifahi xalq ədəbiyyatı nümunələri əsasında)" (1985) namizədlik dissertasiyasını nümunə göstərmək olar. Dissertasiya sosiologiya ixtisası üzrə yazılsa da, burada məhz folklorda etik və estetik idealın təqdim olunmasında adların rolundan da danışılmış, xüsusi adların sosial mühitdə etik və estetik mövqeyi təhlil edilmişdir.

Hələ keçən əsrlərdə avropalılar Orta Asiyaya səyahət etdikləri zaman yerli xalqların atalar sözlərinə diqqət yetirmiş, onların topladıqları atalar sözləri Avropa nəşriyyatlarında çap olunmuşdur. Belə səyyahlardan biri olan A.Vambery 1867-ci ildə Leypsiqdə çap etdirdiyi "Cağatay Dili" kitabında türk xalqlarının yüzdən artıq atalar sözünü təqdim etmişdir. Müəllif onların hamısını özbək atalar sözləri ilə vermişdir. Daha sonralar akademik A.N.Samoyloviç bu kitab haqqında danışan zaman bu atalar sözlərinin Hive xanlığından toplandığı üçün türkmənlərlə bağlı olduğunu söyləmişdir. Türkmən folklorunun elmi baxımdan araşdırılmasına hələ Çar Rusiyası dönəmindən başlanmışdır və bu prosesdə rus alimlərinin əməyi danılmazdır.

XIX əsrin sonları XX əsrin əvvəllərindən başlayaraq, rus türkoloqları türkmən folklorunun toplanması və araşdırılmasına maraq göstərmiş və türkologiyaya dəyərli töhfələr vermişlər. F.Bakulin, R.Yeznayev, F.A.Mihaylov, V.A.Jukovski, P.M.Melioranski, V.V.Bartold, A.N.Samoyloviç, A.A.Semyonov, V.A.Gordlevski, E.E.Bertels, V.M.Jirmunski, A.P.Potseluyevski, A.N.Kononov, A.N.Baskakov, S.Braginski, P.G.Skosyoryev və başqaları "Kitabi Dədə Qorqud"un türkmən variantından başlayaraq, ən kiçik folklor nümunələri hesab edilən deyimlərə qədər tədqiqatlar aparmış və dəyərli mülahizələr irəli sürmüşlər. Bu adları sadalanan alimlərdən A.N.Samoyloviç türkmən folklorunun dili və üslubu üzərində araşdırma aparan və tədqiqatları bu gün də öz əhəmiyyətini itirməyən tədqiqatçılardandır. Hələ tələbə ikən türkmən ədəbiyyatı ilə maraqlanmağa başlayan alim türkmən folklorunun dili və üslubu haqqında

düzgün nəticələr əldə etmək üçün öncə folklor nümunələrini toplamaqla yanaşı, həmin nümunələrin aid olduğu tirələri (boyları), onların adət-ənənələrini dərindən öyrənmiş, daha sonra təhlillərə başlamışdır. Onun türkmən folkloru ilə bağlı ilk məqaləsi 1909-cu ildə "Türkmən tapmacaları rus dilinə tərcümədə" adı ilə çap olunmuşdur. Burada 151 tapmaca və onların mənası, məzmun, dil və üslub xüsusiyyətlərinə görə təhlilləri təqdim edilmişdir. Elə həmin ildə o, "Qorqud və Koroğlu haqqında rəvayət" adlı məqaləsini çap etdirir ki, burada da türkmənlərin iki böyük dastanı haqqında məlumat verir. 1910-cu ildə alim "Üç türkmən nağılı rus dilinə tərcümədə" məqaləsini çap etdirir. Burada o, "Ağanın 40 oğlu və 40 ox", "Şahın pəri qızla evlənməsi", "Üç şahzadə" nağlı və bu nağıllarla bağlı müxtəlif rəvayətləri öz şərhləri ilə təqdim edir. Məqalənin sonunda isə belə zəngin folklora malik olan dilə qarşı elm adamlarının diqqətsizliyindən təəssüfləndiyini bildirir. Bu məqalədən sonra onun "Heyvanlar haqqında; Hivə nağılları" adlı məqaləsini çap olunur. 1912-ci ildə A.N.Samoyloviçin türkmən folkloru ilə bağlı tədqiqatları daha da genişlənir və "Türkmən caduları" adlı məqaləsini çap etdirir ki, burada o küf və çıq türkmən tirələrinə aid olan caduları, onların özəl xüsusiyyətlərini təqdim edir. Qeyd edək ki, bu məqalə bütün türk dilləri ilə bağlı aparılan tədqiqatlar içərisində ilk cadu ilə bağlı araşdırma idi. 1914–cü ildə Samoyloviçin türkmən nağılları ilə bağlı növbəti "Türkmən, Özbək və Qırğız variantlarında 40 sehrli nağıl" adlı məqaləsi çap olunur ki, bu məqalə də türk dillərinin sehrli nağıllarının dil və üslub, motiv və məzmun baxımından ilk müqayisəli təhlili idi.

Türkmən folklorunun rus türkoloqları tərəfindən araşdırılmasından danışan zaman A.P.Poseluyevskinin adını da xüsusi qeyd etmək lazımdır. 1923-cü ilin oktyabrında Aşxabada gedən ziyalılar arasında o da var idi. Tərcümeyi-halında özü haqqında məlumat verən zaman o, yaxşı bildiyi dillər arasında türkmən dilini də qeyd etmişdir. Elə həmin ildən də A.P.Poseluyevskinin türkmən dili və ədəbiyyatı ilə bağlı fəaliyyəti başlayır. İlk işi isə türkmən əlifbasının reformasını hazırlaması oıur. Türkmənistana gəldiyi gündən isə xalq folklor nümunələrini toplamağa başlayır və 1927-ci ildə "Türkmənşünaslıq" jurnalının 2-ci sayında "Türkmən folkloru toplusu" məqaləsi çap olunur. Burada alim türkmən folklorunun dil və üslub, məzmun və forma xüsusiyyətlərini təhlil edirdi. Bundan sonra A.P.Poseluyevskinin türkmən folkloru ilə bağlı araşdırmaları daha da genişlənir və o, Türkmən Dövlət Elmi-Tədqiqat İnstitutunun arxivinin folklor bölməsini dərindən araşdıraraq təhlil edir və bununla bağlı Sovet folkloru jurnalında ardıcıl yazılarla çıxış edir. XIX əsrdə türkmən atalar sözləri ilə bağlı çap olunan kitablardan biri də N.P.Ostrovmovun "Türküstanın yerli xalqına aid atalar sözləri" [326] adlı tədqiqatıdır. Tədqiqatı əhəmiyyətli edən, ön sözündə atalar sözləri haqqında qısaca elmi bilgilərin verilməsidir. Atalar sözlərini

toplayan, Rus dilinə tərcümə edib çapa hazırlayan N. P. Ostromov ön sözdə atalar sözlərindəki etnoqrafik məlumatların elmi dəyəri ilə birlikdə, xalqın keçmişini, dünya görüşünü öyrənmədəki əsas rolunu vurğulamışdır. Sırdərya Bölgə Statistik Komitəsinin başçısı olaraq N. P. Ostromov bu komitənin çox önəmli etnoqrafik məlumatları topladığını bildirmişdir. Bu şəkildə etnoqrafik məlumatları toplamanın və yenidən işləmənin elmi baxımdan əhəmiyyətini bu bölgədə yaşayan və çalışan rusların yerli xalqın həyatına daha düzgün baxmasında yardımcı olacağını bildirmişdir. O, atalar sözlərinin tərcüməsində Abdısəttar Xan Abdulqafur adlı şəxsə də təşəkkür etmiş və çap olunan atalar sözlərinin az olduğunu, gələcəkdə bu tədqiqatın davam etdiriləcəyini söyləmişdir [30, s. 5]. N. P. Ostrovmov tədqiqatda 492 atalar sözünə yer verərək atalar sözlərinin tərcüməsini rus, orijinal mətnlərini də ərəb əlibası ilə vermişdir. Kitabın adından da göründüyü kimi, buradakı atalar sözləri heç bir tayfaya aid edilmədən "yerli xalqın atalar sözləri" şəklində təqdim edilir. Folklorşünaslar bu atalar sözlərini Türkmənistanın yerli xalqı olan türkmən, özbək, qazax, qırğız və buna bənzər tayfalardan toplamışlar, ancaq bu atalar sözlərinin hansi tayfaya aid olduğuna önəm verməmişlər. Üstündən bir əsrdən artıq bir zamanın keçdiyi bu kitabda günümüzə qədər gəlib çıxmış türkmən atalar sözlərinin toplandığını görmək mümkündür.

XX əsrin əvvəllərində Aşxabatda S. Agabekovun "Uçebnik turkmenskogo nareçiya s prilojeniyem sbornika poslovits i pogovorok turkmen zakaspiyskoy oblasti" "Türkmən dili dərs kitabı (Xəzərsahili Türkmən vilayətinin atalar sözləri və məsəlləri əlavəsi ilə)" adlı dərs kitabı çap olunur. Kitabda elm tarixində ilk dəfə olaraq "Türkmən atalar sözləri" başlığına rast gəlirik və kitabda bunların türkmənlərə aid olduğu xüsusi vurğulanır. Müəllif ön sözdə atalar sözlərinin elm adamları və tələbələr üçün hazırlandığını, eyni zamanda onların məzmunca xalqın fəlsəfəsini aydın bir şəkildə ifadə etməsilə də diqqət çəkici olduğunu söyləmişdir. Mümkün olduğu qədər onların məzmununu pozmadan mənasını qoruyaraq tam olaraq tərcümə etməyə çalışdığını, oxuyucunun anlamaqda çətinlik çəkəcəyi yerlərdə izahlar qoyduğunu və atalar sözlərinin Axal Təkəlilərin ləhcə xüsusiyyətlərini qorumaqla verildiyini söyləyir [18,s. 3]. Kitabda yer alan iki yüzə yaxın atalar sözünün təqdimi zamanı nə əlifba sırası, nə də mövzu gözlənilməmişdir. Tədqiqatın əhəmiyyətli tərəfi, atalar sözlərinin əvvəlcə ərəb və rus əlifbaları ilə türkmən dilində, daha sonra isə rusca tərcüməsinin gərəkli yerlərində izahların verilməsidir. Bu da atalar sözlərinin həm türkmənlər, həm də ruslar tərəfindən oxunmasına imkan verir. Müəllif atalar sözlərinin sonuna Sopı Allahyardan iki misra əlavə etmiş və ayrıca onun rusca tərcüməsini vermişdir: "Sudcuk tildir adcab genci muazzam, Eta kılgan bilen hiç bolmagay kam" (Şirin dil nə qədər işlətsən də, azalmayan bir xəzinədir)

[18, s.25]. Bu misraları nümunə olaraq istifadə edən müəllifin atalar sözlərini azalmayan xəzinə qəbul etdiyini, onlardan faydalanmağı, yerində istifadəni oxuculara təlqin etdiyini söyləmək mümkündür. 1908-ci ildə Tiflisdə çap olunan "Qafqaz ərazisinin və tayfalarının təsviri üçün toplu" adlı jurnalın 38-ci sayında A. Volodinin "Türkmən xalqının poeziyasından" (Türkmən Xalq Şeirindən) başlıqlı yazısı çap olunmuşdur. Burada müəllif digər folklor nümunələri ilə birlikdə Stavropol türkmənlərinə aid olan 20 atalar sözünə yer vermişdir. Yuxarıda sadalanan tədqiqatlarda atalar sözləri hər hansı bir tərəfdən elmi təhlilə cəlb edilməmiş, bu atalar sözləri türkmənlərlə doğrudan əlaqələndirilməmiş və bu tədqiqatların hamısı Türkmənistan sərhədlərindən kənarda elm mərkəzlərində çap olunmuşdur. 1917-ci ilə qədər atalar sözlərinin araşdırılması və çapından danışan zaman 1915-1916-ci illərdə Aşxabadda türkməncə və farsca çap olunan "Zakaspiyskaya Tuzemnaya Gazeta" qəzetinin adını da çəkmək lazımdır. Bu qəzetdə atalar sözlərindən nümunələr və onları araşdırmağı təlqin edən yazılar çap olunmuşdur. Bu illərdə hazırlanan məktəb kitablarında, rusca-türkməncə sözlüklərdə də türkmən atalar sözlərinə yer verilmişdir.

1917-ci ildə Sovetlərin hakimiyyətə gəlməsilə birlikdə Türkmənistanda mədəniyyət və elm sürətlə inkişaf etməyə başlayır. Rusiyanın tanınmış elm adamları Türkmənistana gələrək müxtəlif sahələrdə mütəxəsislər hazırlamağa başlayırlar. 1924 - cü ildə Türkmənistan müstəqil bir respublika olduqdan sonra bu fəaliyyət daha da artmışdır. Bir çox qəzet və jurnallar çap olunmağa başlamış, kitab çapı genişlənmişdir. Bu dönəmdə Türkmənistan Dövlət Nəşriyyatı Muhammət Gəldiyevin topladığı atalar sözlərini və tapmacaları "Makal ve Matallar Yıgındısı (Babalar Sözi)" (1925) adıyla çap edir. Kitabda 507 atalar sözü, 52 tapmaca toplanmışdır. Bu tədqiqatı çapa hazırlayan əsərin "Mün-de Bir Makal" adıyla çapını düşündüyünü, ancaq nəşriyyat evinin şərtlərinə görə dəyişiklik olduğunu söyləmişdir. Kitabda atalar sözləri tematik olaraq 48 başlıq altında təsnif edilmişdir. M. Gəldiyevin bu kitabı Sovet dönəmində Türkmən folkloru haqqında aparılmış ilk tədqiqatlardan biridir. Elmi mərkəzlərin artması, elm adamlarının və folklorşünasların yetişməsilə Türkmən atalar sözlərinin toplanaraq çapı daha da artdı. 1943–cü ildə Sovet ədəbiyyatı jurnalının altıncı sayında B. Garrıyevin "Türkmen nakılları" məqaləsi çap olunur. Müəllif məqalənin sonunda 800-ə qədər türkmən atalar sözünü təqdim etmişdir. 1944-cü ildə çap olunan "Şahırlar sesi" adlı külliyatda klassik və çağdaş şairlərin əsərləri ilə birlikdə vətənsevərlik, qəhrəmanlıqla bağlı 400-ə qədər türkmən atalar sözünə də yer verilmiştir.

Rus oxucularını türkmən atalar sözləri ilə tanış etmək və Rus dilini öyrənənlərə yardımcı olması məqsədilə 1945–ci ildə V. Popovun tərcüməsi ilə "Min türkmən atalar sözü və deyimi" adında bir kitap çap olunur. Kitabın

redaktoru B. Garrıyev kitaba ön söz yazmaqla yanaşı, ayrıca mənası bilinməyən sözlərlə bağlı bir lüğət hazırlamışdır. Bu illərdən sonra türkmən atalar sözlərinin ayrıca bir kitab olaraq çapı artmışdır. K. Berkeliyevin "Türkmen Nakılları ve Atalar Sözi", "Nakıllar ve atalar sözi" və b. adlı tədqiqatlarla atalar sözlərinin çapı artdı. Bunlardan başqa, atalar sözləri, müxtəlif vaxtlarda çap olunan "Türkmən xalq yaradıcılığı" (1945), "Türkmən xalq şahırana Döredicilig" (1956), "Türkmən poeziyasının antologiyası" (1958), "İki halkın hikmetleri" (1963), "Dana sözler" (1978), "Ataların hikmetleri" (1984), "Hazınalı horcun" (1988) adlı tədqiqatlarda da yer almışlar. Türkmən atalar sözlərinə Türkmənistan sərhədlərindən kənarda çap olunan kitablarda, qəzet və jurnallarda da rast gəlmək mümkündür. Türkmən xalq mədəniyyətinin bu dəyərli nümunələrini toplayıb xalqa çatdırmaqda yuxarıda danışdığımız tədqiqatlardan, ta görtçildliyə kimi olduqça yaxşı bir vəziyyətdə idi. Ancaq atalar sözlərinin nəzəri məsələləri ilə bağlı araşdırmalar yenə də azlıq təşkil edirdi. Bəzi kitablara yazılan ön sözlər, qəzet və jurnallardakı məqalələr, dərsliklərdəki məlumatların olmasına baxmayaraq, yenə də azlıq edirdi. "Türkmən xalq dörd cildliyi əsasında oçerklər" adlı məqalələr külliyatında "Nakıllar ve atalar sözi" adlı ayrıca bir fəsil vardır. Burada atalar sözlərinin qədimliyi, zaman və hadisələrlə bağlılığı, çapı haqqında məlumatlar verilir, tematik bir təsnifat çərçivəsində atalar sözlərinin fəlsəfi məzmunu, estetik keyfiyyəti və formal xüsusiyyətləri təhlil edilirdi [32,s.105-122]. Türkmən folklor araşdırmalarında atalar sözlərilə bağlı iki doktorluq işi yazılmışdır. Bunlar K. Berkeliyevin 1958-ci ildə monoqrafiya kimi çap etdirdiyi "Türkmen nakılları ve atalar sözi" və M. Mıradovanın 1967-ci ildə çap etdirdiyi "Türkmen ata sözleri ve deyimlerinin milli özellikleri" adlı tədqiqat işləridir.

Türkmən atalar sözlərinin ətraflı bir şəkildə araşdırıldığı yeganə tədqiqat işi K. Berkeliyevin "Türkmen nakılları ve atalar sözi" (1961) adlı monoqrafiyasıdır. Tədqiqatda atalar sözlərinin tarixi və sosyal məzmunu, estetik xüsusiyyətləri araşdırılsa da, burada da bu günə qədər türkmən atalar sözlərinin öyrənilməsi ilə bağlı adları sadalanan tədqiqatdan uzağa gedə bilməmişdir. Məhz bu səbəbdən də türkmən atalar sözlərinin dil baxımından öyrənilməsi çox aktualdır, amma bu gün türkmən folklor araşdırmalarının önündə atalar sözlərinin başqa tərəflərdən də öyrənilməsi vacibdir. Daha dəqiq desək, "nakıl" ve "atalar sözləri" arasındakı fərq, bunların yaranması və özəllikləri, qəlibləşməsi kimi məsələlər. "Nakıl" ilə "atalar sözü"nün fərqinə baxdıqda bunlara həm elm aləmində, həm də xalq arasında eyni məfhum olaraq baxıldığını görürük. Bunlar məcazi mənalı sözlər şəklində istifadə edilirlər. Tədqiqatlara "Nakıllar ve atalar sözləri" şəklində ad verilsə də və ön sözlərdə bunların fərqi haqqında danışılsa da, nümunələrdə nakıl və atalar sözləri bir-birindən ayrılmamış və qarışıq şəkildə verilmişlər. Məsələn:

Mehmet Kılıçın "Türkmən folkloru" [1996] kitabında müəllif nakılların özəl xüsusiyyətlərini sadalayırsa da, "Aşakıda dürlü nakıllar görkezliyor" deyərək, atalar sözlərini təqdim edir. Dərsliklərdə və monoqrafiyalarda da vəziyyət eynidir. "Nakıl"ların və "atalar sözü"nün məzmununa diqqətlə baxdıqda onlar arasında bəzi fərqlər olduğunu görmək mümkündür.

Qeyd edək ki, bu günə qədər türkmən dilinin atalar sözlərini araşdıran tədqiqatçılar bir çox "atalar sözü"nün tarixini acmağa çalışmışlar. Son zamanlarda Y. Esen, D.Hacımıradov, A.Kurt, Ş.Hudaynazarov, A.Halmırat və başqa folklorşünasların, A. Atabayev, K. Nurbadov, A.Öreyev kimi yazıçı və şairlərin, A. Övezov, A. Meredov, A. Annanurov kimi tədqiqatçıların araşdırmalarında bəzi "atalar sözü"nün tarixi haqqında maraqlı fikirləri qəzet, jurnal və monoqrafiyalarda yer almışdı. Sovetlər Birliyi dönəmində türkmən dilində bir çox siyasi frazemlər türkmən dilində atalar sözü kimi qəbul edildi. Məsələn: "Kolxozçunun canı da bir, çörəyi də bir", "Moskva dostluğun mərkəzidir", "Sovetlər Birliyi dostluğun mərkəzidir", "Kolxozun malı kimin? Kim işləyirsə onun" kimi yüzlərcə siyasi şüarlar dərsliklərdə "Sovet dövründə yaranan atalar sözləri" adı ilə təqdim edilir. Rus alimi V. Dalın atalar sözləri haqqında dediyi: "Onlar (atalar sözləri) qurulmazlar, onlar könüllərin səsidir, insan müdaxiləsi olmadan sərbəst bir şəkildə yaranırlar" [282, s.13] tərifinə əsasən yanaşsaq, yuxarıdakı ifadələri atalar sözləri adlandırmaq olmaz, çünki onlar Sovet dönəminin siyasəti və ideologiyası əsasında qurulmuşlar. Qaqauz folkloru müxtəlif dövrlərdə istər rus, istərsə də türk tədqiqatçılarının diqqətini cəlb etmiş və müxtəlif mülahizələr irəli sürülmüşdür. Qaqauz folklorunun tədqiqi tarixini İ.V.Sırf şərti olaraq dörd mərhələyə bölmüşdir: I mərhələ - XIX əsrin sonu – 1917-ci il; II mərhələ - 1920-1940-cı illər; III mərhələ - 1950-1980-ci illər; IV mərhələ - XX əsrin sonu – XXI əsrin əvvəlləri [31, s. 127]. Biz bu bölgüdən çıxış edərək bu günə qədər aparılmış araşdırmaların tarixi şərhini verməyə çalışacağıq.

I mərhələ - XIX əsrin sonu – 1917-ci il. XVIII əsrdə Rusiya mütəfəkkirlərinin müxtəlif xalqların mədəniyyətinə və etnoqrafiyasına marağın artması folklorun diqqət mərkəzinə keçməsinə səbəb oldu. XIX əsrin ortalarından folklorun toplanmasına xüsusi diqqət yetirilir. Belə təşəbbüskarlardan biri Rusiya coğrafiya cəmiyyətinin üzvü, hərbi zabit, etnoqraf-alim V.A.Moşkov idi. Qaqauzlara aid xalq sənəti ilk dəfə rus generalı, etnoqraf, antropoloq, tarixçi və dilçisi Valentin Aleksandroviç Moşkov tərəfindən tədqiqata cəlb edilmişdir. "Bessarabiya qaqauzlarının şivələri" adlı tədqiqat Proben jurnalının IV cildi olaraq nəşr olunan kitabın 128 səhifəsinin 32-ni "Ön söz" əhaə edirdi. Burada Moşkov qaqauzların kökü və adı ilə bağlı izahını verir, onların tarixindən bəhs edir. Əsər 7 fəsildən ibarətdir. I fəsil "Mifoloji və dini nağıllar, hekayələr və əfsanələr" adlanır ki, burada 117

izahlı mətn təqdim edilir. II fəsil "Gündəlik həyatdakı lətifələr" adlanır ki, burada da 68 lətifə mətni verilir. III fəsil "Tapmacalar" adlanır və burada 98 bilməcə verilir. "Atalar sözləri" adlanan IV fəsil 271 atalar sözündən, "Yanıltmaclar" adlı V fəsil 7 mətndən ibarətdir. "Türkülər" adlanan VI fəsil isə 6 bölmədən ibarətdir və burada 59 qaqauz türküsü təqdim edilir. VII fəsildə 111 qaqauz manisi verilir. Kitabın sonunda Moşkov tərəfindən lüğət əlavə edilmişdir ki, bu da mətnlərin düzgün başa düşülməsi üçün çox əhəmiyyətlidir. Bu kitabdan sonra Moşkovun qaqauzlar və türklərin tarixi, etnoqrafiyası ilə bağlı bir neçə kitabı da işıq üzü görür: "Bessarabiya vilayəti Bender qəzasından qaqauzca mətinlər", "Bender qəzası qaqauzları", "Balkan yarımadasındaki türk kavimleri" və s. O, az araşdırılmış xalqlarla maraqlanaraq qaqauz folklorunun elmi araşdırılmasının əsasını qoymuşdur. V.A.Moşkov 1894-1895-ci illərdə Rusiya imperiyasının Bessarabiya quberniyasının Bender və İzmayıl vilayətlərinin qaqauz kəndlərini gəzərək külli miqdarda etnoqrafik və folklor nümunələri toplayır və "Qaqauz mətnləri" adı ilə ilk dəfə elm aləminə təqdim edir. [29, s.70–83]. Elm aləmində çox böyük marağa səbəb olan bu mətnlərdən sonra Moşkov "Bender vilayətinin qaqauzları" (1901) adlı oçerklərini çap etdirir ki, burada Bessarabiya qaqauzlarının folkloru haqqında geniş etnoqrafik məlumatla yanaşı, maraqlı illüstrasiyalar da təqdim edilir. Məhz bu oçerklərdə qaqauzların öz folklor ənənələrində qonşuları bolqar, moldovan və Osmanlı türklərindən bəhrələndikləri fikrini söyləyir. Bu isə qanunauyğun bir hal idi. XX əsrin əvvəllərində V.A.Moşkovun "Bessarabiya qaqauzlarının dialektləri" adlı kitabı işıq üzü görür ki, burada da külli miqdarda qaqauz folklor nümunələri təqdim edilirdi. Bu nümunələrin maraqlı cəhəti onda idi ki, onların nəinki bir neçə variantı təqdim edilirdi, hətta dialekt forması da təqdim edilirdi. Əsərin elmi əhəmiyyəti onda idi ki, nümunələrin hamısı akademik fonetik transkripsiyada, janr və növlərə görə təsnif olunmuş, qaqauz xalq mahnıları isə nota köçürülmüş şəkildə verilmiş, kitabın sonuna isə Bessarabiya qaqauzlarının dilinin lüğəti əlavə edilmişdir. Girişdə müəllif nağıllar üzərində dayanaraq, onların məlumatı ötürmək baxımından lakonikliyi və müxtəsərliyini xüsusi qeyd edərək, nağıl qəhrəmanlarına görə sistemləşdirmiş və maraqlı müqayisələr aparmışdır. V.A.Moşkov topladığı folklor nümunələrini sonralar rus dilinə tərcümə edərək çap edir. Maraqlıdır ki, toplanmış nağılların sayı həddindən artıq çox idi və bununla bağlı Moşkov V.V.Podlova məktubunda yazırdı: "Nağıllar o qədər çox alınıb ki, çətin ki Akademiya onun hamısının kitaba daxil edilməsinə icazə verər. Hansının çap olunacağını sizin öz öhdənizə buraxıram, ancaq mənim fikrimcə, daha layiqli olanlarının altından qırmızı mürəkkəblə xətt çəkmişəm. Bunlarda etnoqrafik baxımdan zəngin material var". Alimin araşdırmaları və nəşrləri XX əsrin əvvəllərində elm aləminin qaqauzlara,

onların dilinə, folkloruna, etnoqrafiyasına olan marağını artırdı. Korş, Linin kimi şərqşünas alimlər türk xalq ədəbiyyatının quruluşu ilə bağlı tədqiqatları alimin əsərlərinə istinadən yazdılar.

II mərhələ - 1920-1940-cı illər. Bu mərhələdə qaqauz folkloru ilə bağlı elmi məqalələrin yazılması dövrüdür. 1920-ci ildə tanınmış qaqauz mütəfəkkiri M.M.Çakır rumın dilində qaqauz leqendalarına və bunlardakı toponimlərin şərhinə həsr edilmiş məqalələr çap etdirir. Moşkovun tədqiqatından sonra qaqauz türklərindən olan Mixayil Çakırın (1861-1938) tədqiqatları işıq üzü görür. Onun 1934-cü ildə işıq üzü görən "Bessarabiya qaqauzlarının tarixi" adlı kitabı qaqauzlar haqqında onların özləri tərəfindən yazılmış ilk əsərdir. 1938-ci ildə Bolqar qaqauzu A.İ.Manovun Bolqar qaqauzlarına həsr edilmiş kitabı çap olunur. Burada mənəvi-əxlaqi məzmunlu nağıllar, lətifələr və əfsanələr təqdim edilirdi. Kitab xarakterindən asılı olmayaraq, birinci çap olunmuş Moşkovun kitabı ilə müqayisə aparılmaq baxımından çox əhəmiyyətli idi. Kitabın mənfi cəhəti burada mənbələrin göstərilməməsi idi. Qaqauz dili və xalq ədəbiyyatı ilə bağlı tədqiqatlar Türkiyədə də 1930-cu illərdən başlamışdır.M.Türker Acaroğlunun Atanas Manofdan tərcümə etdiyi "Qaqauzlar (Xristian türklər) adlı kitabı Türkiyədə qaqauzlarla bağlı ilk tədqiqatlardandır. Bu mərhələni türk musiqişünası, milliyətcə moldova qaqauzlarından olan V.Arseven tamamlayır. O, musiqi ensiklopediyası üçün qaqauz xalq mahnıları ilə bağlı bir neçə məqalə hazırlayır [4]. 1928-ci ildən Əmin Abid tərəfindən Azərbaycan ədəbiyyatşünaslığında da Qaqauz folklorunun araşdırılmasının əsası ldu. Əmin Abid 1928-ci ilin oktyabrında tamamladığı "Türk xalq ədəbiyyatında mani nevi və Azərbaycan bayatılarının xüsusiyyəti" məqaləsində beş min bayatı-mani üzərində araşdırma aparmışdır. Məqalədə iki dəfə də qaqauzlardan bəhs edilmiş, "mani" sözünün anlamı açıqlanmışdır. Əmin Abidin bu məqaləsindən sonra Azərbaycanda qaqauzlarla bağlı elmi yazıya rast gəlinmir, qaqauzlar haqqında tədqiqatlar bir də 1960-cı illərdən sonra mətbuatda görünməyə başlayır. III mərhələ (1950-1980-ci illər). Üçüncü mərhələ XX əsrin ikinci yarısını əhatə edir və bu dövr qaqauz folklorunun intensiv akademik təhlili ilə seçilir. 1940-cı ilin sonu 1950-ci illərin əvvəlləri L.A.Pokrovskaya ilə qaqauz folklorunda yeni bir səhifə açılır. Onun Moldova və Ukrayna qaqauzlarının folklorunu toplaması və elmi təhlili 1953-cü ildə "Qaqauzların mahnı yaradıcılığı" adlı namizədlik dissertasiyasının yazılması ilə nəticələndi.

1957-1958-ci illərdə rus qrafikası əsasında qaqauz əlifbası tərtib edilib dövlət tərəfindən təsdiqləndikdən sonra qaqauz dilində yeni əlifba ilə ilk folklor jurnalı çap olunmağa başlayır. Jurnalın ilk nömrəsinin girişində D.N. Tanasoğlu qaqauz şifahi xalq ədəbiyyatının toplanması və çapı haqqında ətraflı məlumat verdikdən sonra qaqauz folklor nağıllarının

təsnifatını verir: 1) heyvanlar haqqında nağıllar; 2) sehrli nağıllar (bu nağılların qəhrəmanları - Mitiayı-oolu, Taş-Falayan, Gürgen-Kıran, Uzun sakallı dädu, Balaur və başqaları); 3) tarixi nağıllar (burada müəllif nağıl formasında qurulmuş qaqauz leqendalarını, əfsanə və rəvayətləri nəzərdə tuturdu); 4) məişət nağılları (qəhrəmanları - Balakir, Ganiş, Todur) . Jurnal çap olunduğu müddətdə həm qaqauzlar, həm də onunla qonşu olan uzaq-yaxın dövlətlər tərəfindən çox yüksək rəylə qarşılandı və qaqauz dilinin, şifahi və yazılı ədəbiyyatının öyrənilməsində çox böyük rolu olmuşdur.

Orta Asiya qaqauzlarının folklorunun elmi cəhətdən öyrənilməsində Daşkənd filoloqları R.İ.Biqaev, P.A.Danilov, M.U.Umarovun da rolu olmuşdur. 1955-1956-cı illərdə qaqauzların yaşadıqları ərazilərə (Semipalatinsk vilayəti) ekspedisiyaların təşkilindən sonra qazax alimi A.S.Amanjanov 30 nağıl, xalq mahnısı, tapmaca və atalar sözü toplayaraq çap etdirir. Polyak türkoloqu Vl. Zayonçkovski uzun müddət Bolqar qaqauzlarının dili və folklorunu araşdırır və topladığı nağıl və atalar sözlərini elmi şərhlərlə birlikdə çap etdirir. "Bolqarıstandakı Qaqauzların dili və folkloru" adlı əsərində I hissədə qaqauz dili, fonetikası, leksika və qrammatikası haqqında geniş məlumat verilir, II hissədə isə atalar sözləri, deyimlər, tapmacalar, maniləri, türküləri və "Arzu və Qəmbər" dastanı təqdim edilir. Tədqiqatın müsbət tərəflərindən biri mənbələrin dəqiqliklə göstərilməsi və nağıl mətnlərinin türk dilində tərcümələri ilə birlikdə verilmələridir. Bütün folklor nümunələri qaqauz dilində latın qrafikası ilə təqdim edilmişdir. Bu mərhələdə qaqauz folkloru toplanaraq elmi jurnallarda və dövri mətbuatda ardıcıl şəkildə çap olunurdu. Bu nəşrlər böyük elmi marağa səbəb olan yeni-yeni nağılların, manilərin və xalq mahnılarının üzə çıxarılmasına səbəb oldu. XX əsrin sonlarında qaqauz folklorunun öyrənilməsindən danışan zaman rumın türkoloqu M.P.Quboqlunun da adı xüsusi qeyd edilməlidir. Alimin qaqauzlarla bağlı bir-neçə məqaləsi vardır ki, onlardan birində o, canavar kultu vasitəsilə qaqauzların oğuz tayfaları ilə əlaqəsini açır (22, s.13). Qaqauz folklorunun toplanması və tədqiqi ilə rumın türkoloqu M.Ekrem də [6, s.76–78] məşğul olmuşdur. Bolqar türkologiyasında isə qaqauzlarla bağlı tədqiqatlar daha çox təqvim bayramlarını əhatə edirdi [6]. IV mərhələ (XX əsrin sonu – XXI əsrin əvvəlləri). Bu dövrdən qaqauz dilinin ana dil kimi məktəblərdə tədrisinə başlanması dərsliklərə qaqauz folklor nümunələrinin daxil edilməsinə səbəb oldu. Dövrü mətbuatda qaqauz folklor nümunələrinin çapı bərpa edildi. "Ana sözü", "Halk Birlii", "Gagauz sesi" qəzetlərində, "Kırlangaç", "Gagoğuz", "Sabaa yıldızı", "Güneşçik" jurnalları ana dilində çap olunduğundan bu işdə daha fəal idi. Bu mərhələdə "Дев адамын оолу" sehrli nağıllar toplusu kütləvi maraqla qarşılandı (1990), onun müəllifi S.S.Bulqar bir nağıl qəhrəmanı vasitəsilə bir neçə nağlı süjet baxımından əlaqələndirdi. Nağılların bir qismi müəllifin özü tərəfindən toplanmışdısa da,

bir qismi də V.A.Moşkovun adı çəkilən kitabından götürülmüşdür. Bu topluya V.İ.Sırf özünün "Mitologismul poveştii magice găgăuze" məqaləsində də yer ayırmışdır. Məqalədə qaqauz sehrli nağıllarında əsas mifoloji elementləri aşkarlanmışdır: a) nağıl qəhrəmanının sehrli gücü vasitəsilə, ya da sehrli əşyalaradan istifadə edərək möcüzələr yaratması; b) uydurma sehrli qüvvələr - rusali, cadugar Cadı-Babusu və Cadı-Kızı, doqquz başlı əjdaha (Ajder) və b.; c) qədim türklərin cəmiyyətin mifoloji formalarını təqdim edən motiv və süjetlərn(31). Bu mərhələdə qaqauz folklorunun araşdırılmasında folklorşünas M.A.Durbaylonun da fəaliyyəti xüsusi qeyd edilməlidir. O, bir sıra məqalələrini məhz qaqauz nağıllarında mifoloji təsvirlərin və anlayışların təhlilinə həsr etmiş, 1969-1980-ci illərdə Moldova və Ukraynanın qaqauz kəndlərindən xalq mahnılarını yığaraq akademik toplu halında çap etdirmişdir[24, s. 34]. Bu mərhələdə türk tədqiqatçıları qaqauz folklorunun araşdırılmasına diqqət ayırmağa başlayır və onlar daha çox öncə müxtəlif ölkələrdə çap olunmuş qaqauz folklor nümunələrinin təsviri idi. Əhəmiyyəti isə onada idi ki, burada bütün qaqauz folkloru bir yerə toplanaraq təhlil edilirdi. XX əsrin sonlarında qaqauz folklorunun öyrənilməsində əldə olunan uğurlardan biri müqayisəli və müqayisəli-tipoloji metodun tətbiq edilməsi idi. Bu planda tədqiqatları ilk tətbiq edən L.S.Çimpoeş oldu. O, müxtəlif dünya xalqların mifologiyasında Təpəgöz obrazlarını təhlil edərək, qaqauz nağıl və dastanlarındakı təpəgözlər arasında əlaqə yaradır. Lyubov Stepanovna Çimpoeşin qaqauz folkloru ilə bağlı ən böyük tədqiqat işlərindən biri "Qaqauzların dastan eposu" adlı monoqrafiyasıdır. 1997-ci ildə çap olunan bu monoqrafiyada təkcə qaqauzların dastan ənənəsi təhlil edilmir, həm də qaqauz dastan dilinin özəllikləri də açılırdı. XX əsrin sonlarında qaqauz mərasim nəğmələrinin sistemi və bədii-poetik təhlili S.S. Kuroqlo və L.P.Vorobyova tərəfindən verildi. Çimpoeş tərəfindən müqayisəli metodun tətbiqi qaqauz folklorunun digər nümumələrinə də bu metodun tətbiqi meylini artırdı və F.İ.Arnaut dissertasiyasında qaqauz manilərinin türk və Azərbaycan folklorundakı analoji formalı folklor nümunələri ilə müqayisə edir [9].Bu mərhələdə qaqauz nağıllarının həm poetik, həm də linqvistik planda təhlilinə xüsusi diqqət yetirən tədqiqatçılardan biri də V.İ.Sırf idi. O, dissertasiyasında qaqauz nağıllarının struktur-funksional təhlilini verərək, tipoloji oxşarlıq məsələsinə diqqət yetirmiş, milli özünəməxsusluğun nağıllardakı ifadə formalarını aşkarlamışdır. IV mərhələdə qaqauz folkoru dəfələrlə müxtəlif tədqiqatçılar tərəfindən istər tarixi-etnoqrafik, istərsə də etnolinqvistik baxımdan da araşdırılmışdır. Bu mərəhələdə Azərbaycanda qaqauz folklorunun araşdırılmasına maraq artır. Azərbaycanda qaqauzların tanıdılmasında Güllü Yoloğlunun xidməti böyükdür. 1980-ci ilin sonlarında "Azərbaycan - Moldova ədəbi əlaqələri" movzusunda namizədlik dissertasiyası yazmağa

başlayan gənc araşdırıcı qaqauzlar haqqında ardıcıl məqalələr yazmaqla yanaşı, radio-televiziyada, toplantılarda bu mövzuda olduqca diqqətçəkən cıxışlar da etmişdir. Tədqiqatcı 1992-ci ildə filologiya elmləri namizədi alimlik dərəcəsi aldıqdan sonra da qaqauzlar mövzusundan uzaqlaşmamışdır. Güllü Yoloğlunun təmənnasız şəkildə, özünə mənəvi borc bilərək girişdiyi mövzusu az zamanda onu yalnız Azərbaycanda deyil, bütün türk dünyasında qaqauzşünas kimi tanıtmışdır. O, Azərbaycanda, eləcə də kecmiş sovet respublikalarında, Türkiyədə, Rumıniyada, Moldovada, Quzey Kıbrısda keçirilən elmi simpoziumlarda qaqauzlarla bağlı dəyərli məruzələri ilə yadda qalmışdır. Güllü Yoloğlunun elm aləminə gəlişi ilə respublikamızda qaqauz ədəbiyyatının və mədəniyyətinin ardıcıl oyrənilməsinin yeni mərhələsi başlanır. Azərbaycan 1991-ci ildə dövlət mustəqilliyini elan etdikdən sonra Azərbaycan Dövlət Nəşriyyatı türk xalqlarını və toplumlarını tanıtmaq ücün dünya türkləri haqqında silsilə kitablar çap etdirməyi planlaşdırdı. Amma "Axısqa Türkləri", "Uyğurlar", "Qaqauzlar" adında broşürlar işıq üzü gordükdən sonra nəşriyyatın iqtisadi sıxıntısından bu iş dayandı. Həmin seriyadan olan "Qaqauzlar" kitabını Güllü Yoloğlu hazırlamışdı. Onun "Qaqauz folkloru (Seçmələr)"(1996) adlı kitabı 6 bölmədən ibarətdir ki, burada 24 nağıl təqdim edilmişdir.

Azərbaycanda qaqauz folklorunun öyrənilməsindən danışan zaman Nizami Tağısoyun (Məmmədov) adı xüsusi qeyd edilməlidir. Alimin elmi konfranslarda oxuduğu məruzələri, universitetdəki mühazirələri, qəzet-jurnallarda çap etdirdiyi "Qaqauzlar: keçmişdən bu günə", "Qaqauzların tarixindən səhifələr", "Qaqauzların toy-düyün mərasimləri", "Qaqauz ədəbiyyatı" məqalələri elmi səviyyəsinin yüksəkliyi ilə seçilir. O, həmin məqalə və məruzələrini 2010-cu ildə Bakıda "Mütərcim" nəşriyyatında çap etdirdiyi "Etnos və epos: keçmişdən bu günə" kitabına daxil etmişdir. Azərbaycanlı araşdırıcılardan Cəlil Nağıyevin (Qəriboğlu), Tamella Əliyevanın, Əli Şamilin, Qalibə Hacıyevanın və başqalarının da beynəlxalq simpoziumlardakı çıxışlarında və məqalələrində qaqauz xalq ədəbiyyatı və mədəniyyəti ilə bağlı maraqlı fikirləri vardır. 1990-cı ildə Sovetlər Birliyi dağıldıqdan sonra qaqauzlar, onların milli mədəniyyəti, folkloru, etnoqrafiyası ilə bağlı tədqiqatlar daha da artdı. Türker Acaroğlu isə "Dünya Atasözleri" adlı kitabında "Gagauz Atasözleri"nə [10, s.312-340], "Bulgaristan Türkleri Üzerine Araştırmalar" adlı kitabında isə "Gagauz Atasözleri ve Deyimleri", "Gagavuz Takma Adları Soyadları, Yer Adları" na yer vermişdir [11,s.252-282,s.479-501]. Metin Ergun isə "Türk Dünyası Efsanelerinde Değişme Motifi" adlı tədqiqatında Qaqauz əfsanələrini araşdırmış, bununla bağlı aparılan tədqiqatları təhlil etmiş və 8 qaqauz əfsanəsini təqdim etmişdir [8, s.147-149; s.781-793]. Doğan Kaya "Anonim Halk Şiiri" adlı kitabında qaqauz maniləri [8; s.112-114], qaqauz türküləri

[8; s.223-224], ağıları [8; s.328-329], laylaları [8; s.392], atalar sözləri [8; s.455] və yanıltmaclarına [8; s.636-638] yer vermişdir. Qaqauz nağılları təqdim edilən digər mənbə isə "Türk Dünyasından Masallar" adını daşıyır. Zeynalabidin Makas tərəfindən hazırlanan kitabda 3 qaqauz nağlı verilmiş və təhlil edilmişdir (2000). Fedora (Tudora) Arnaut isə 1999-cu ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda professor Qara Namazovun rəhbərliyi ilə "Qaqauz folklorunda mani nevi (Türkiyə və Azərbaycan mani-bayatı örnəklərilə qarşılaşdırma) mövzusunda elmi iş yazaraq filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Qaqauz folklorunun araşdırılması və xüsusən də nağıllarla bağlı aparılan araşdırmalardan danışan zaman "Uluslararası Gagauz Kültürü Sempozyumu"nun adı qeyd olunmalıdır. 5 Simpoziumun hər birində mütləq qaqauz folkloru və onun problemlərinə toxunulmuş, eyni zamanda nağılları da təhlil edilmişdir. XXI əsrin ən uğurlu tədqiqatlarından biri isə E.N.Kvilinkovanın 2011-ci ildə çap olunmuş "Qaqauz folklor mahnıları – həyat qrammatikası" adlı monoqrafiyasıdır. Giriş, 6 fəsil, nəticə və əlavədən ibarət olan bu kitab qaqauz folklor mahnılarının ənənəvi mədəniyyət prizmasından tarixi-etnoqrafik baxımdan təhlilinə həsr edilmişdir. Bu monoqrafiyada ilk dəfə olaraq Moldova, Bolqarıstan, Yunanıstan və Ukraynada yaşayan qaqauzların folklor mahnıları kompleks şəkildə tədqiqata cəlb edilərək sinxron və diaxron istiqamətdə ümumi və regional elementləri müəyyən edilir. Monoqrafiyanın maraqlı tərəflərindən biri isə burada ilk dəfə olaraq qaqauzların dini mahnıları "Allahın türküleri" adı ilə təqdim edilir. Qeyd edək ki, bu günə qədər digər türk xalqlarının heç birində bu səpkidə tədqiqat (yəni Tanrı və dinlə bağlı xalq mahnıları) aparılmamışdır.Bütün bu təhlillərdən gördüyümüz kimi, qaqauz folkloru, onların dili, semantikası, linqvistik xüsusiyyətləri, koqnitiv-konseptual, diskursiv təhlililə bağlı tədqiqatlar mövcud deyil. Mövcud tədqiqatların çoxu ədəbiyyatşünaslıq və əsasən də folklor mətnlərinin nəşri ilə bağlıdır. Qaqauz dili oğuz qrupu türk dillərindən biridir. Bu dilin daşıyıcısı olan qaqauzlar türkdilli xalqlardan biri olmalarına baxmayaraq, provaslav xristianlar sayılırlar. Onlar uzun müddət Balkan yarımadasında bu günkü Bolqarıstanın ərazisində bolqarlar, rumınlar, albanlar, və türklərlə birlikdə yaşamışlar. Xristian olmaları onların adət-ənələrində və xüsusilə də şəxs adlarında öz dərin izlərini buraxmışdır. Qaqauz folkloru isə bu xalqın adət-ənələrini, mənəvi və maddi dünyasını özündə qoruyub saxlamış ən səhih mənbələrdir.

Ədəbiyyat

1. Yaloğlu G. Qaqauz folkloru (Seçmələr). Bakı: Yazıçı, 1996, 200 səh.
2. Ahmet V. P. Türkî Durûb-ı Emsâl - Atalar Sözü, İstanbul 1871, 168 s.; 2. bs. Müntehabat-ı Durûb-ı Emsâl - Atalar Sözü. İstanbul: 1872, 303 s.
3. Ahmet M. Türk Durub-ı Emsali. İstanbul: 1871, 224 s.
4. Arseven V. Gagavuz Halk Türküleri // Musiki Ansiklopedisi. İstanbul: 1947. Sayı: 16, S. 13; 1947. Sayı: 18, s.14; 1947. Sayı: 19, s.19; 1947. Sayı: 20, s.15
5. Elçin Ş. Halk Edebiyyatına Giriş. Ankara: Akçağ Yayınları, 2000, s. 624-625
6. Eker G. Ö. "Fıkra". Türk Dünyası Ortak Edebiyatı Türk Dünyası Edebiyat Tarihi, III. Cilt, Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu, Ankara: Atatürk Kültür Merkezi Yayınları, 2003, s. 63-128
7. Mehmet K.Türkçe açıqlamalı türkmen atasözleri. Türkmen folkloru. Bursa: 1996, 155 s.
8. Metin E. Türk Dünyası Efsanelerinde Değişme Motifi. I. Cilt: İnceleme, II. Cilt:Metinler. Ankara: Türk Dil Kurumu Yayını, 1997, 919 s.
9. Sakaoğlu S. Türk Fıkraları Ve Nasreddin Hoca. Konya: Selçuk Üniversitesi Yayınları, 1992, 170 s.
10. Türker A. Dünya Atasözleri. İstanbul : Kaya Yayınları, [t.y.] 1989, 845 s.
11. Türker A. Bulgaristan Türkleri Üzerine Araştırmalar. Ankara: Kültür Bakanlığı, 1999, XVI, 655 s.
12. Zevrak P. Gagauz Bilmeceleri // Halkbilgisi Haberleri. İstanbul: 1939. Sayı: 3-4, s.89-90
13. Berkeliyev K. Türkmen Nakılları ve Atalar Sözi. Aşkabat: TSSR Ilımlar Akademiyası Neşiryatı, 1958
14. Berkeliyev K. Nakıllar ve Atalar Sözi. Asgabat: Turkmenistan Dȯvlet Neshiriaty, 1961.
15. Xalmuxammedov Ş. Turkmen xalk ertekilerinin cepercilik dəbi. Fil. Ilımldrının doktorı dien alımlık derejesini almak ycin yazilan dis. Avtoreferatı. Aşğabad 1993, 58 s.
16. Türkmen Halk Döredicilig Boyunca Oçerk, Asgabat: 1992, s.355
17. Türkmen halk nakyllary. Aşgabat: Türkmenistanyň milli medeniýet «Miras» merkezi, 2005, 648 s.
18. Агабеков С. Учебник тюркменского наречия с приложением сборника пословиц и поговорок тюркмен Закаспийской области. Асхабад: 1904, 257 стр.
19. Блох М.Я., Семенова Т.Н. Имена личные в парадигматике, синтагматике и прагматике. Москва: Готика, 2001, 193 стр.
20. Гайдаржи Г, Гагаузско-русско-молдавский словарь, Москва: Сов.

Энциклопедия, 1973, 665 стр.
21. Градешлиев И. Краят на един мит и началото на една легенда // Исторически преглед. София: 1991. № 1, стр. 80-89
22. Губогло М. Н. Культ волка у гагаузов. Этно- культурные параллели в тюркском мире // Русский язык в тюрко- славянских этнокультурных взаимодействиях (Этнологические очерки). Москва: 2005, с. 408-446
23. Даль В.И. Пословицы Русского Народа. 1 т. Москва: Худож. лит., 1984, 383 стр.
24. Дурбайло М. А. Поэтические особенности гагаузских традиционных куплетов-поздравлений // Ştiinţa. Chişinău: 1992. № 10, стр.12-20
25. Коларова Й. Из гагаузкия фолклор на с. Олпаша, Одринско (Материали) // Филология. София, 1982. № 10-11. стр. 108-114.
26. Корш Ф. Е. Древнейший народный стих турецких племен // Записки Восточного отделения Русского археологического общества. СПб, 1909. Т. XIX. Вып. 2–3, 63 стр.
27. Курогло С.С. Личные имена у гагаузов. Историческая ономастика, Москва: 1977, стр. 180-188
28. Курогло С.С., Воробьева Л.П. Детский песенно-обрядовый фольклор гагаузов // Culturologie. Chişinău, 2008. Vol. III. P. 135-142.
29. Мошков В. А. Гагаузские тексты // Изв. обще- ства археол., истории и этнографии при Имп. Казанском ун-те. Казан: 1895. Т. XIII. Вып. 2, стр. 70–83
30. Остроумов Н. Пословицы туземного населения Туркестанского края // Тр. Сыр-дарьинского областного статистического комитета. Ташкент, 1895. Т.6.
31. Сырф В.И. Видовой состав гагаузской несказочной прозы. Особенности содержания и формы // nr. 1 (32), martie 2014 - 139 Anuarul InstСырф В. И. Сказки о животных у гагаузов: Общая характеристика // Anuarul Institutului de Cercetări Interetnice / AŞM. Ch., 2004. Vol. V, p. 119-12;
32. Türk Dünyası Edebiyat Kavramları ve Terimleri Ansiklopedik Sözlüğü C. 1. 2001, 250 s.

Д.Т.Алиева

Исследование языковых и стилистических особенностей фольклорных текстов в тюркологии (библиографический анализ)

Резюме

Статья посвяшена изучению истории исследования языковых и стилистических особенностей образцов тюрко-язычного устного народного творчества. Здесь анализируются вопросы исследования

фольклора с литературной, языковой и стилистической точки зрения. Здесь исследовательские работы группируются по периодам, и анализируется их научная новизна.

Как видно из анализа, гагаузский фольклор, их язык, семантика, лингвистические особенности, не были исследованы в когнитивно-концептуальном и дискурсивном аспектах. Существующие исследования в основном связаны с литературоведением и фольклорными текстами. Гагаузский язык один из языков тюркской группы. Несмотря на то, что гагаузский язык принадлежит к тюркоязычным народам, они считаются православными христианами. Они долгое время жили на Балканском полуострове вместе с албанцами, турками и болгарами. Христианская религия оставила след в их ономастической системе. Гагаузский фольклор сохранил в себе традиции, моральные и материальные ценности своего народа.

D.T.Alieva

Study of linguistic and stylistic features of folklore texts in Turkology (bibliographic analysis)

Summary

The article is devoted to the study of the history of research of linguistic and stylistic features of the samples of the Turkic-speaking oral folk art. Here questions of research of folklore from a literary, language and stylistic point of view are analyzed. Here research works are grouped by periods, and their scientific novelty is analyzed.

As can be seen from the analysis, the Gagauz folklore, their language, semantics, linguistic features, were not studied in the cognitive-conceptual and discursive aspects. Existing studies are mainly related to literary criticism and folklore texts. The Gagauz language is one of the languages of the Turkic group. Despite the fact that the Gagauz language belongs to the Turkic-speaking peoples, they are considered Orthodox Christians. They lived for a long time in the Balkan Peninsula along with Albanians, Turks and Bulgarians. The Christian religion left a mark on their onomastic system. Gagauz folklore preserved the traditions, moral and material values of its people.

Rəyçi: **Şaban Hüseynov**
filologiya üzrə elmlər doktoru, professor

SEVƏR ORUCOVA
Filologiya üzrə fəlsəfə doktoru ,
ADİU "Xarici dillər" kafedrası
seva_o@ mail.ru

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ OXU MƏTNLƏRİ VƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR

Açar sözlər: dilin tədrisi, ingilis dili, məntiqi təfəkkür, akademik oxu, mühakimə, lüğət ehtiyatı, strategiya
Key words: language teaching, English, logical thinking, academic reading, judgment, vocabulary, strategy
Ключевые слова: преподавание языка, английский, логическое мышление, академическое чтение, суждение, лексика, стратегия

Hər bir xarici dilin, eləcə də ingilis dilinin tədrisi zamanı tələbələrdə oxu, dinləmə, yazı və danışıq dil qabiliyyətlərinin inkişafına xüsusi önəm verilir. ″Məlum olduğu kimi maraq şagirdi fəallaşdıran, onun dərs fəaliyyətinin müvəffəqiyyətlə nəticələnməsini təmin edən ən təsirli, ən qüvvətli vasitələrdən biridir.″ [1; s.6]. Xarici dilin öyrənilməsində, bu dildə danışıq bacarığının inkişafında tələbələrin dilə olan marağı son dərəcə böyük rol oynayır. Əlbəttə də ki, bu marağın oyanılması daha çox müəllimlərin payına düşür.

Hər bir xarici dil müəlliməsi dərs zamanı rəngarəng çalışma növlərindən istifadə etməyə daha çox səy göstərməlidirlər. Belə çalışmalar təlimi praktik istiqamətə yönəltməyə və həmçinin, dərs prosesində tələbələrin hamısını işə cəlb etməyə imkan yaradır.

Öyrəncilərdə xüsusi olaraq daha çox oxu bacarığının inkişafı müəyyən çətinlik törədir. Çünki verilmiş vaxt ərzində tələbə mətni oxuyaraq tam mənimsəyə bilmir, verilmiş sualları düzgün cavablandıra bilmir. Eləcə də belə sualları düzgün cavablandırmaq öyrəncidən daha çox iti məntiqi təfəkkür tələb edir.

Günümüzdə xarici dilin tədrisi zamanı bir sıra müxtəlif məzmunlu oxu mətnlərindən istifadə edilir. Bu mətnlər müxtəlif mövzuda (gündəlik həyat, mədəniyyət, iqtisadi, turizm, təbiət və s.) ola bilir.

" Akademik oxu sınağı sənin oxu qabiliyyətini sınaqdan keçirmək üçün 60 dəqiqəlik testdir. Oxu testində 3 bölüm vardır. Hər bir bölümdə oxu başlığı və 13 və ya 14 sual vardır. Ümumilikdə suallar 40-dır. Bütöv sınaq 1 saat davam edir və sizə ilk başlığa 18 dəqiqə, ikinciyə 20 dəqiqə, sonuncuya isə 22 dəqiqə vaxt sərf etməyi tələb edir " [2; s.3]. Bu sınaqlar günümüzdə

əsasən tələbələrin xaricdə təhsillərini davam etdirmək istədikləri zaman önəm verdikləri İELTs oxu sınaqlarına aiddir.

Əlbəttə ki, belə testlər digər, xarici dilin tədrisi zamanı istifadə edilən sadə oxu sınaqlarından fərqlənir. Belə ki, belə oxu mətnləri daha da mürəkkəb olur. Öncədən hər bir dil öyrəncisindən belə sınaqlar zəngin lüğət ehtiyatı və mətnlərin ən azı 80 faiz anlanmasını tələb edir. Maraqlısı odur ki, belə oxu sınaqları müxtəlif növ sualları özündə ehtiva edir. Bunlara aşağıdakılar daxildir:

1. Cümlənin tamamlanması
2. Qeyd, cədvəl və ya qrafiklərin tamamlanması
3. Sualların qısa cavablandırılması
4. Mühakimələrin **düzgün, səhv** və ya **verilməyib** kimi qiymətləndirilməsi
5. Uyğunlaşdırma
6. Məlumatın hansı paraqrafdan olduğunu tapmaq
7. Paraqraflar üçün düzgün başlıqların tapılması və s.

Əlbəttə sınaq zamanı bu növ çalışmaların edilməsi tələbələrdə müəyyən çətinlikər yaradır. Xarici dillərə əməli surətdə yiyələnmək prosesini mürəkkəbləşdirən bu ümumi çətinliklərdən əlavə, həmin dillərin spesifik xüsusiyyəti ilə əlaqədar olaraq bir sıra çətinliklər də meydana çıxır. Çünki qısa zaman ərzində kifayət qədər orta həcmli bir mətnin oxunub, təhlil edilməsi asan bir məsələ deyil.

Məsələn, belə mətnlərdən birinə müraciət edək. Xarici müəlliflər tərəfindən yazıya alınmış "Crack IELTS in a FLASH" (Mohammad Sadegh Bagher; Mohammad Javad Riasati) kitabında 236- cı səhifədə "Psychology and Personality Assessment″(Psixologiya və Şəxsiyyətin Qiymətləndirilməsi) mətninə müraciət edək. Mətn 7 paraqrafdan ibarətdir. Mətn üçün ilk verilən çalışma hər bir paraqraf üçün düzgün başlığın seçilməsidir. Qarşıya çıxan çətinlikdən biri başlıqların adlarının bir-birinə çox oxşamasıdır. Məsələn, əgər başlıqlardan biri *Different views on the importance of personality assessment (Şəxsiyyətin qiymətləndirilməsinin əhəmiyyəti ilə bağlı müxtəlif baxışlar)* adlanırsa, digəri isə *Acknowledgement of the need for improvement in personality assessment (Şəxsiyyətin qiymətləndirilməsinin təkmilləşdirilməsi ehtiyacının təsdiqi)* adlanır. Yalnız cüzi fərq bu başlıqları bir-birindən ayırmağa imkan verir. Sınağı keçən insan mətndə hər bir sözə, fikirə elə diqqətlə fikir verməlidir ki, paraqraf üçün düzgün başlığı seçə bilsin. Bəzən imtahandan keçən insanların çaş-baş qalmasına səbəb bəzi başlıqların eyni zamanda bir neçə paraqrafa uyğun gələ bilməsi olur.

Digər ikinci çalışma da maraqlı olduğu qədər, eyni zamanda bir o qədər də mürəkkəbdir. Belə ki, burada göstərilən 6 fikirdən hansı üçünün mətndə şəxsiyyətin qiymətləndirilməsinə cəlb edilmiş psixoloqlar haqqında

öz əksini tapması sual edilir. Bu zaman vaxtımızı daha çox aparacaq an, düzgün mühakimələrin tapılması üçün məcburən bəzən yenidən mətnə göz gəzdirməli olmağımızdır.

Yuxarıdakı misallar akademik oxuyla bağlı çalışmaları əhatə edir. Eləcə də belə çalışmalar öz quruluşuna görə daha qəliz və çoxxətli olurlar. Əlbəttə xarici dildə olan digər müxtəlif dərsliklərdə də belə mətnlərə rast gəlmək olar. Məsələn, belə dərsliklərin birinə günümüzdə öz aktuallığını qoruyub saxlayan "New English File" kitabını misal gətirə bilərik. Burada diqqəti çəkən məqam mətnlərin həcmcə daha kiçik olmasıdır. Eləcə də mətnlər daha çox mədəniyyət, psixoloji və sosial mövzuda olur. Bu dərsliyin 38- ci səhifəsində "Culture shock"(Mədəniyyət şoku) adlı mətn verilmişdir. Mətnə aid verilmiş ilk sual onunla bağlı olan cümlələrin qarşısında tələbələr tərəfindən **doğru** və ya **səhv** sözünün düzgün göstərilməsidir [3; s.38] . Daha sonra isə ikinci çalışmada tələbələr tərəfindən feili birləşmələrdə buraxılmış feillərin düzgün tapılması tələb olunur. Əlbəttə ki, belə məqamlar xarici dilin tədrisində çox böyük önəm daşıyır. Belə ki, öyrəncilər göz yaddaşından istifadə edərək bir daha həmin söz birləşmələri öz yaddaşlarına həkk edirlər. Həmin birləşmələrə aid bir neçə misal vermək olar:

To step on someone's foot or toe (by accident),
to make a noise, like a grunt
swallow food və s.

Digər, amma iqtisadi mövzuda olan və həmin istiqamətdə təhsil alan tələbələr üçün yazılan başqa bir mətnə müracitə edək. Misal verdiyimiz oxu mətni "Market leader" adlı dərsliyindəndir. Ümumiyyətlə, bu kitabda hər bir bölüm üzrə iki orta həcmli mətnlər verilir. Elə bu dərsliyin 69-cu səhifəsində olan mətnləri də orta həcmdə və iqtisadi məzmunda olmaqla, onlarda iqtisadi biliklərinin də inkşafına nail olur. Eyni zamanda bu mətnlər kifayət qədər iqtisadi terminlərlə də zəngindir [4; s.69].

Bu mətnlərdən öncə müəllif tərəfindən audotirayının tələbələrindən birinin ilk, digərindən isə ikinci mətnin oxunulması, daha sonradan isə verilmiş cədvəlin doldurulması tələb edilir. Digər ikinci çalışmada isə oxu mətnlərinin köməyi ilə tələbələrdə eləcə də yazı vərdişinin inkişafına şərait yaradılır. Bu dərslikdə bir sıra oxu sınağı üçün verilmiş mətnlərə rast gəlmək olar:

"Is John Lewis the best company in Britain to work for?"
"Women on top in new sales industry"
"Who needs translators?"
"Safer cycling"
"Going for gold"
"Over half of business owners feeling increasingly stressed" və s.

Artıq əvvəl də qeyd etdiyimiz kimi, belə sınaqların müvəffəqiyyətlə vermək tələbələrdən təkcə lügət ehtiyatlarının zəngin olmasını tələb etmir. Eyni zamanda tələbə çox gözəl dünyagörüşünə, sürət və strategiyalara malik olmalıdır. Niyə məhz dünya haqqında zəngin biliyə və dünyagörüşünə? Çünki belə akademik mətnlərdə müəyyən dünyəvi, coğrafi, ümumi dünya tarixinə, mədəniyyətə və s.ə aid elə mətnlər vardır ki, bu mövzuda qabaqcadan silahlanmağımız sınaq vaxtı karımıza gələ bilər. "Mətnləri anlamaq üçün qrammatik bilik də çox əhəmiyyətlidir. *However, while, but* kimi sözlər fikrin istiqamətini, *in the same vein, likewise* kimi ifadəlr isə fikrin paralel xətlərini göstərir " [s 2].

Maraqlı məqamlardan biri odur ki, əsasən akademik oxu üçün verilən mətnlər müasir mətbuatdan olan qəzet və ya jurnallardan götürülür. Ona görə də müntəzəm xarici mətbuatdan yararlanan insanlar digərlərindən fərqli olaraq oxu sınağını daha da müvəffəqiyyətlə verməyə nail olur.

Günümüzdə həm orta, həm də ali məktəblərdəki xarici dil kitablarında oxu vərdişimizi inkişaf etdirmək üçün verilən mətnlər, müəyyən qədər asan və orta həcmli olsalar da, akademik oxu sınağını keçmək üçün verilmiş mətnlər isə mürəkkəb, kifayət qədər bir sıra frazeoloji söz birləşmələri ilə zəngindir. Belə sınaqlardan keçmək üçün sadaladığımız kriteriyalardan əlavə, imtahan verən şəxslər öncədən öz oxu sürətlərini artırmalı, gözlərini məşq etdirməklə daha sürətli bir oxucuya çevrilməlidirlər. Buna sadəcə ilk olaraq mətnlərin yalnız ümumi mənasını və bəzi spesifik xüsusiyyətlərini əldə etmək üçün ilk olaraq qəzet və bədii əsərləri yüksək sürətlə oxumaqla başlamaq olar. Eləcə də, mətnləri oxuyub- anlama, tez oxuyub, gözucu nəzər yetirməklə mətn haqqında ümumi dünyagörüşü əldə etmək də çox vacibdir.

Ədəbiyyat

1. Seyidov F. Texniki vasitələrin köməyi ilə şifahi nitqin inkişafı yolları. Bakı: Maarif, 1969
2. Mohammad Sadegh Bagher; Mohammad Javad Riasati. Crack IELTS in a Flash, 2002
3. Clieve Oxeden; Christina Latham-Koenig. New English File,1997
4. David Cotton; David Falvey; Simon Kent. Market Leader, 2000

С.Оруджева

В обучении английского языка тексты для чтение и возникшие трудности

Резюме

В статье говориться о текстах для чтение в обучении английского языка. Иногда под такими текстами бывает различные типов вопрос. Прочитав эти разные тексты, студент должен ответить на разных типов вопрос. Иногда при проведении таких тестов возникают многие трудности. В основном такие трудности встречаются в академических тестах. Так что в течение короткого периода времени студенты должны сделать сложные тесты и ответит на сложные вопросы. Хотя тексты для развития наших привычек чтения в книгах по иностранному языку как в средних, так и в средних школах являются несколько более легкими и средними, тексты для академического теста чтения сложны, с достаточным количеством фразеологических словосочетаний. Чтобы пройти тест, экзаменаторы должны увеличить скорость чтения и тренировать свои глаза, чтобы стать более быстрыми читателями. И это потребует от них регулярного чтения ежедневной прессы и книг из-за рубежа.

S.Orujova

Reading texts in English teaching and the difficulties encountered

The article talks about texts for reading in teaching English. Sometimes under such texts there are different types of question. After reading these different texts, the student must answer different types of question. Sometimes, in carrying out such tests, many difficulties arise. Basically, such difficulties are encountered in academic tests. So for a short period of time students have to do complex tests and answer complex questions.

Although the texts for developing our reading habits in foreign language books in both middle and high schools are somewhat lighter and more average, the texts for an academic reading test are complex, with enough phraseological phrases. To pass the test, the examiners must increase the speed of reading and train their eyes to become faster readers. And this will require them to regularly read the daily press and books from abroad.

Rəyçi: Xavər Hacıyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

XƏYALƏ ƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
xxayala@mail.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SİNTAKTİK KONSTRUKSİYALARIN ÇOXMƏNALILIĞININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİNDƏ PRESUPPOZİSİYANIN ROLU

Açar sözlər: mətn, sintaktik konstruksiya, presuppozisiya, üst qat və alt qat
Ключевые слова: текст, синтактический конструкции, верхний слой и нижний слой
Key words: text, syntactic construction, pressuposition, surface structure and deep structure

Cümlənin aktual üzvlənməsindən asılı olaraq mənanın dəyişməsi faktı çoxdan bəllidir. Bu sahədə kifayət qədər tədqiqatlar aparılıb. K.Q.Kruşelnitskaya, K.M.Abdullayev, F.Y.Veysəllinin və başqalarının əsərlərini nümunə gətirə bilərik (1; 2; 9).

Ancaq burada biz aktual üzvlənmədən yox, transfomasiya üçün çox mühüm rol oynayan presuppozisiyadan bəhs edəcəyik.

Sintaktik konstruksiyaların alt qatdakı semantik təsəvvürlərini üst qatda birmənalı şəkildə açmaq üçün, sintaktik strukturun omonimliyini və çoxmənalılığını müəyyənləşdirmək üçün alimlər presuppozisiya anlayışından geniş istifadə edirlər. Elmi-nəzəri ədəbiyyatı nəzərdən keçirəndə bu məsələ ilə bağlı konkret fikirlərə Q.Filmorun, D.Klemanın, H.Busmanın, Q.Q.Poçepsovun, F.Y.Veysəllinin və s. əsərlərində rast gəlinir (3; 12).

Presuppozisiyadan danışarkən F.Y.Veysəlli qeyd edir ki, bu terminin Azərbaycan dilində birbaşa qarşılığı (ekvivalenti) yoxdur. Ancaq aşağıdakı şərhdən onun nə demək olduğu aydın olacaq. Deməli, propozisiyanı tutan söz və ya ifadə bütün cümləni təqdim edib, danışıq məqamında olan iştirakçının adını çəkməklə bütün niyyəti açmış olur.

Sintaksisdə son dövrlər geniş yayılmış presuppozisiya terminin Azərbaycan dilində birbaşa qarşılığı yoxdur. Bəzi alimlər bu termin altında cümlənin hər hansı bir kommunikativ funksiyada işlənməsinə başlanmazdan öncə yerinə yetirilməli olduğu şərtləri başa düşürlər. Bu da gerçəklikdə real olan məqamdan tutmuş (xahiş edirəm, lövhəni gətirin, professor mühazirəyə gedəndə asissentindən xahiş edir ki, lövhəni auditoriyaya qaldırsın), cümlənin məzmunu ilə bağlı olmayan bir sıra şərtlərin gözlənilməsinə qədər danışıq aktının baş tutmasında vacib olan amillərdir (həmsöhbətin ümumi

hazırlığı, verilən məlumatın qavranılıb dərk edilməsi, deyilən fikrin həmsöhbətin yaşına və cinsinə uyğunluğu və s.).

Azərbaycan dilçiliyində presuppozisiya probleminə ilk dəfə toxunan F.Y.Veysəlli onu belə səciyyələndirir: "Presuppozisiya həmişə danışanın, müəllifin cümlədə verilən məlumata münasibətidir" (3, s. 271).

Cümlənin kommunikativ strukturuna münasibət bildirən E.V.Paduçeva presuppozisiya barədə fikirlərini belə izah edir: "Adətən cümlənin (söyləmin) vahid kommunikativ struktura malik olmasından bəhs olunur, buna görə də müxtəlif təsvirlər eyni predmetin müxtəlif yanaşmalardır" (11, s.109). E.V.Paduçeva həmin əsərin 48-ci səhifəsində presuppozisiya anlayışını məntiqi referensiya nəzəriyyəsindən linqvistikaya daxil olduğunu və hazırki dilçiliyin möhkəmlənmiş anlayışlardan biri kimi dəyərləndirir (E.V.Paduçeva presuppoziya termini əvəzinə prezumpsiya terminini işlətməyə üstünlük verir).

Müəllif presuppozisiyanın əsas əlamətlərindən biri kimi onun "cümlənin kifayət qədər aşkar şəkildə ifadə olunmamış düşünülən (virtual) semantik komponent"-ində görür. Bu faktdan irəli gələn əsas məqam odur ki, presuppozisiyalar büsbütün rəngarəng semantik törəmələrin geniş spektrini əhatə edir, həqiqətən, istənilən mətndə eksplisit formada ifadə olunmuş informasiyalarla yanaşı, onda implisit, yəni aşkar tərzdə ifadə olunmamış məlumatlar da vardır, baxmayaraq ki, onlar kommunikantların, yəni danışan və dinləyənin nəzərində mövcuddurlar. E.V.Paduçeva buraya müxtəlif növ konnotasiyaları, implikasiyanı, implikaturların nətəcələrini, həqiqətə oxşar mühakimələri, konyekturları və s. daxil edir (11, s. 60-61).

F.Y.Veysəlli başqar bir əsərində presuppozisiyanı belə şərh edir: "Ünsiyyətdə bilavasitə adı çəkilməyən, ancaq deyilənin tərkib hissəsi kimi başa düşülən informasiya presuppozisiya kimi dəyərləndirilə bilər. Presuppozisiya danışanın öz fikrini ifadə etmək üçün əsaslandığı dilxarici faktordur. Bu fenomeni dərindən araşdırmadan praqmatika ilə semantika arasındakı mürəkkəb əlaqələri başa düşmək çətindir" (4, s. 206).

İ.P.Susov isə presuppozisyanı irəlidəki kimi şərh edir: "Bəzi semantik konfiqurasiyalar və yaxud onların ayrı-ayrı elementləri cümlənin sintaktik strukturunda öz uyğunluqlarını tapmaya bilərlər, yəni ifadə olunmamış, gizli və ya implisit şəkildə qala bilərlər. Lakin onlar heç də həmişə söyləmin məzmununun başa düşülməsinə əngəl törətmirlər. Məsələn, /Hətta o, bu mətni tərcümə edə bilmədi// söyləmində presuppozisiyanı asanlıqla bərpa edə bilərik (Mən bunu ondan gözləmirdim)" (14, s. 159).

Q.V.Kolşanski presuppozisiyanı kommunikasiyanın uğurunu təmin edən əsas amil kimi şərh edir (8). Bu amilin özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, kommunikasiya aktında danışan (müəllif) anlaşılması, öz

niyyətini uğurla reallaşdıra bilməsi üçün kommunikasiya aktında tərəf müqabilinin biliklərini mütləq dəyərləndirməlidir.

Aydındır ki, mətnaltı informasiya işarə-denotat uyğunluğunun pozulamsına səbəb olur. İşarə edənlə işarə olunan arasındakı asimmetriklik dil səviyyəsində normanın pozulmasına səbəb olur. Mətnaltı məna adresat tərəfindən linqvistik və ekstralinqvistik vasitələrlə, məsələn, kontekst, presuppozisiya, fon bilikləri, linqvistik qarşılaşma (oppozisiya) dekodlaşdırıla bilər. V.Q.Qaka görə isə söyləmin formalaşmasında əsas rolu presuppozisiya, yəni həmsöhbətin danışıq predmeti haqqındakı ilkin biliklərinin məcmusu oynayır... situasiyaya və presuppozisiyaya istiqamətli kompressiyaya müraciət etməyə və ya izafiliyi qorumağa kömək edir .

Mətnin mənasının düzgün dərk olunması təkcə dil vahidləri və onların birləşmələri ilə deyil, həm də lazımi biliklərin ümumi fondu, yəni kommunikativ fonla təmin edilir. Buna görə də mətnin başa düşülməsi presuppozisiya ilə birbaşa əlaqələndirilir. Presuppozisiya (latın dilindəki "prae" - "irəlidə" və "supposition" - "güman", "ehtimal") - linqvistik semantikaya dair termindir və cümlənin məna komponentini işarə edir. Presuppozisiya həqiqi (gerçək) olmalıdır ki, cümlə anomal və yaxud həmin kontekstdə yersiz kimi qəbul edilməsin.

Presuppozisiya söyləmin məna komponentidir və onun həqiqiliyi vacibdir ki, söyləm a) semantik baxımdan anomal olmasın; b) konkret kontekstdə yerində olsun (praqmatik presuppozisiya). Presuppozisiya koqnitiv baxımdan söyləmi qabaqlayır, bu dinləyicilərin bilikləri haqqında fərziyyədir (6, s. 87).

Presuppozisiya sinonimliyin müəyyənləşdirilməsində mühüm rol oynayır. Məsələn, Azərbaycan dilindəki /Mən mağazaya gedib çörək gətirdim// və /Mən mağazadan çörək aldım// cümlələri yerinə görə sinonim kimi götürülə bilər. /götürmək/ sözü /almaq/ sözünə sinonim ola bilər. Ancaq birinci söyləmdə "mağaza" mütləqdir, ikincidə isə o vacib deyildir (4, s. 100).

Cümlələrin mənasının əsas hissəsi tematik məna ilə bağlıdır. Aşağıdakı cümlələrin gerçəklik şərtləri və propozisional məzmunu eyni olsa da, tematik mənaları müxtəlifdir.

/Mən ‴bu kitabı oxumamışam// (başqasını yox)

/Bu kitabı ‴mən oxumuşam// (başqa birisi yox)

/Bu mənim ‴oxumadığım kitabdır// (oxuduqlarımdan deyil)

/Bu kitab mən‴im tərəfimdən oxunmayıb// (başqası tərəfindən yox).

Sadalanan cümlələrin hamısının kontekstual presuppozisiyası eyni olsa da, onların tematik məzmunu, onlardakı tema-rema münasibətləri fərqlidir. Onların hamısında presuppozisiya kitabın oxunmasından ibarətdir .

Söyləmin məzmunun başa düşülməsində presuppozisiyanın vacib və maraqlı məsələ olduğunu ifadə edən F.Veysəlli oxucunun diqqətini daha bir məqama – iki nəfərin arasında baş vermiş mükaliməyə cəlb edir.

-Nə? Elədi?
- Nə? Nə elədi?
-Özünü bilməməzliyə vurma.
-Guya bilmirsən, söhbət nədən gedir?
-Əlbət ki, bilmirəm. Sözünün canını de.

Müəllif tam haqlı olaraq bu mükalimədə tərəflərdən birincinin nə demək istədiyini başa düşmək o qədər də asan olmadığını qeyd edir. Gərək onların arasındakı münasibətdən xəbərdar olasan, danışanın nəyə işarə elədiyini, eyham vurduğunu biləsən. Bu mükalimədən qabaq hadisənin necə cərəyan etdiyini bilmədən, yəni propozisiya və presuppozisiyanın aydın olmaması deyilənin başa düşülməsini ciddi şəkildə əngəlləyir və ya tamam imkansız edir (4, s. 192).

Qeyd edək ki, presuppozisiya söyləm və cümlələrə deyil, danışanlara (kommunikasiya prosesinin iştirakçılarına) aiddir, lazımdır. İfadənin məğzi isə deyilən firkirdən alınan məntiqi nəticədir. Deməli, ünsiyyətdə danışanların deyil, ifadə və cümlələrin məğzi olur (4, s. 206).

Presuppozisiya söyləmdə implisit xarakter daşıyır. Kommunikasiya prosesində adresant implisit presuppozisional komponentə istinad erdərək suppozitiv eksplisit komponenti kodlaşdıra bilir, adresat isə müəyyən mədəniyyət və dil çərçivəsində adekvat şəkildə onun dekodlaşdırılmasına nail ola bilir. Mədəni presuppozisiya uğurlu kommunikativ fəaliyyətin əsas şərti kimi nəzərdən keçirilə bilər, müəyyən mədəni məqsədləri bilmədən uğurlu kommunikativ akt mümkün deyildir. Digər tərəfdən, mədəni presuppozisiyanı digər bir növ kimi fərqləndirilə bilər. Çünki o, öz xarakterinə görə qeyri-linqvistik xarakter daşıya bilər və fərdin yalnız dil fəaliyyətini determinasiya etmir, həm də onun qeyri-verbal davranışını, yəni özlüyündə sinkretik hadisəni təmsil edir.

Presuppozisiya P.Strosonun araşdırmalarında mərkəzi yer tutur. O, inandırıcı dəlillərlə sübut edə bildi ki, belə cümlələrin yalançı söyləmlər keyfiyyətində təhlili məntiq qanunlarının pozulmasına gətirib çıxarır. P.Stroson hesab edir ki, əgər söyləmin presuppozisiyası səhvdirsə, onda söyləm həqiqi mənaya malik deyildir, yəni o, nə gerçək, nə də yalan söyləmdir. P.Stroson presuppozisiyanı aşağıdakı kimi müəyyən edir: P cümləsi S cümləsinin olmasını şərtləndirir (S cümləsi P cümləsinin presuppozisiyası kimi çıxış edir), yəni S cümləsinin həqiqiliyi P cümləsinin həqiqi mənaya malik olmasının vacib şərtidir (16).

Propozisiya ilə presuppozisiyanın dialektik vəhdətinə toxunan R.S.Stolneyker yazır: “Propozisiya praqmatik mənada presuppozisiyadır, əgər danışan onu doğru hesab edirsə və digərlərinin də bu cür hesab etdiyindən çıxış edirsə... Görünür ki, presuppozisiyanı danışıqda təzahür edən mürəkkəb vəziyyət kimi baxmaq daha münasibdir. İnsanın presuppozisiyalar dəsti onun

çıxardığı təsdiqlər, verdiyi suallar, verdiyi əmrlər və s. əsnasında müəyyən edilir. Presuppozisiya informasiyanın ötürülməsinə başlamazdan əvvəl gizli, təxmin edilən propozisiyadan savayı bir şey deyildir .

Müəllifə görə, praqmatik presuppozisiya koqnitiv cəhətdən kommunikantlar tərəfindən mənimsənilmiş informasiyaya söykənir. R.S.Stolneykerin təbirincə, "presuppozisiya semantik münasibət deyil, propozisional təyinatdır. Belə anlamda presuppozisiya hər şeydən əvvəl insanlarda olur, nəinki propozisiyada və ya cümlələrdə. Ümumiyyətlə danışıq kontekstinin istənilən iştirakçısı (ayrı-ayrı fərdlər, şəxslər qrupu, təşkilat...) presuppozisiyanın subyekti ola bilər. Onun mənası keyfiyyətində istənilən propozisiya çıxış edə bilər". R.S.Stolneykerin yekun nəticədə presuppozisiyanı belə müəyyənləşdirir: "Presuppozisiya koqnitiv baxımdan söyləmi qabaqlayır. Beləliklə, baxmayaraq ki, presuppozisiya danışana aiddir, onun haqqında söyləm əsasında nətəcə çıxartmaq olar" (13, s. 427).

Presuppozisiyanın sərhədlərinin təyin edərkən V.A.Zvegintsev /!Qapını bağlayın!// cümləsində dörd presuppozisiya qeyd edir:

1) danışan və dinləyən elə bir münasibətdədirlər ki, bu münasibət onlara bir-birinə belə bir xahişlə müraciət etməyə imkan verir;

2) adresat bu xahişi yerinə yetirmək iqtidarına malikdir;

3) adresatın bildiyi belə bir qapının olması;

4) və, nəhayət, qapının açıq olması (7, s. 189).

V.A.Zvegintsev həmin əsərində danışığın yaranmasında və qavranılması proseslərində presuppozisiyanın rolu ilə bağlı fikirləri xüsusi əks olunmuşdur. Əsərin 207-ci səhifəsində presuppozisiyanın elmə gətirilməsində Q.Fregenin rolu xüsusi dəyərləndirilir. Əsərin 215-ci səhifəsində V.A.Zvegintsev presuppozisiyanın müasir dilçilikdə yerinin qeyri-müəyyən olduğunu qeyd edir: "Onun (presuppozisiya) dilçilikdə birmənalı şərhi hələ də mövcud deyildir". Daha sonra o, bəzi dilçilərin fikirlərinə müraciət edir. Məsələn, Ç.Filmorun fikirlərindən aşağıdakı sitatı gətirir: "...presuppozisiyanın təbiətinin öyrənilməsi şəraitin araşdırılması ilə bağlıdır ki, belə şəraitdə həmin dildə danışan linqvistik formaların işlədilməsinin yerinə düşdüyünü bilir". V.A.Zvegintsevə görə, "presuppozisiya mətnin qurulduğu məna karkasını əmələ gətirir. Burada mətnlə bərabər mətnaltının mövcudluğundan da bəhs olunur. İrəlidə deyilənlər mətnlə mətnaltının uzlaşmanın vavibliyinin təsdiqinə yönəlmişdir ki, yalnız o, yerinə düşmək effekti yarada bilər" (7, s.215- 217).

Beləliklə, presuppozisiya mətnaltıdır və rabitəli danışıqda görünən və eşidilən mətn onunla uzlaşdırılmalıdır. Müraciət olunan əsərin 277-ci səhifəsində presuppozisiyanın haradan qaynaqlandığı məsələsinə cavabında "bizim təcrübə və yaxud dildən kənar biliklər adlandırdığımız öz sərhədlərinə görə geniş sahədən götür"-düyümüzü yazır (7).

M.L.Makarovun qeyd etdiyi kimi, "presuppozisiya koqnitiv baxımdan söyləmi qabaqlayır, onun inferension təbiəti yalnız interpretasıya atributudur ki, onun gedişində presuppozisiya təhlil üçün mümkünə çevrilir" (10, s. 135).

M.L.Makarov diskurs təhlilində praqmatik presuppozisiyanın vacibliyini xüsusi qeyd edir və onun qənaətinə görə, praqmatik presuppozisiya söyləmin yerli/yersiz və uğurlu olub-olmamasını müəyyən edir. Belə ki, onun əsasında kommunikantların ümumi koqnitiv fondu (kontekstin ümumi propozisiyalar dəsti, ümumi presuppozisiya fondu) daxildir ki, onsuz kommunikativ şəraitin iştirakçılarının birgə fəaliyyəti çətinləşir və yaxud ümumiyyətlə mümkün deyildir .

Əslində, presuppozisiya anlayışı dilçiliyə riyazi məntiqdən keçib. Hər hansı hökmün həqiqi olması üçün onun müəyyən obyektiv gerçəklikdən doğan şərtlərə müvafiq olması lazımdır. Məsələn, A = B və B = C, deməli A = C həqiqətdir. Başqa bir misal. /Əhməd bilir ki, Cəmil xəstədir. Mən təsdiq edirəm ki, bu faktdır//, yəni Cəmil xəstədir. Əgər desək ki, /Əhməd bilmir ki, Cəmil xəstədir// bu presuppozisiya ola bilməz.

Burada cümlənin irəlidəkindən hasil olması və onun inkara aid edilməməsi mühüm vacib faktorlardır. Presuppozisiya həmişə danışanın, müəllifin cümlədə verilən məlumata münasibətini bildirir. Q.Q.Poçepsov yazır ki, presuppozisiya məzmunun gizliliyi, cümlədən məlum olması, inkara həssas olmaması və praqmatikliyi ilə səciyyələnir (13, s. 261).

Presuppozisiya cümlədə təkrar gedə bilməz. Məsələn, Azərbaycan dilində /Əhmədin qardaşı məktəbdə oxuyur//, /Əhmədin qardaşı var//. Kommunikasiya aktında bu ardıcıllıq normal sayıla bilməz. Ancaq əksi tamamilə doğrudur. Müq. et: /Əhmədin qardaşı var//, /Əhmədin qardaşı məktəbdə oxuyur//.

Tabeli budaq cümlə komponenti olan cümlələrdə əsas hökmlə bərabər ikinci dərəcəli hökm də ifadə oluna bilər. Məsələn, /Əhməd bilir ki, Cəmil xəstədir// (/Hans weiss, dass Karl krank ist// və /John knows that Bill is ill//. Birinci /Əhməd bilir/, ikinci /Cəmil xəstədir//. Deməli, burada presuppozisional məna ifadə olunub ki, bu da faktı təsdiqləyir.

Bir sıra feillər faktla birbaşa bağlıdır. Məsələn, /to admit – vorlassen/ (icazə vermək), /to discover-entdecken/ (kəşf etmək), /to realize-realisieren/ (reallaşdırmaq)/. Qeyri-faktlı feillərə misallar: /to assume.-annehmen/ (güman etmək), /to belive-glauben/ (inanmaq), /to seem-scheinen/ (görünmək), /to think-denken/ (düşünmək) və s. Amma /Əhməd bilir ki, Kiyev Azərbaycanın paytaxtıdır// yalan olduğundan faktlı deyil. Amma /Əhməd düşünür ki, Kiyev Azərbaycanın paytaxtıdır// fakta uyğun olmasa da,danışıqda işlənməsi mümkündür.

Faktiki presuppozisiyanı emotivlərlə də bildirmək olar. Məsələn, alman dilində /Ich kann seine Stellung gegenüber Dir nicht leiden// (Mən onun sənə qarşı mövqeyinə dözə bilmirəm). Emotivlik burada müəllifin subyektiv

emosional münasibətini bildirməyə xidmət edir ki, bu da danışanın ünsiyyətdə gözlədiyinə uyğun gəlib-gəlməməsini ifadə edir. Qeyri-emotiv feillər /to forget/ (unutmaq), /to know/ (bilmək)) və s. (very) well-lə (daha yaxşı) birləşik işlənirlər, emotiv feillər isə /to bother/ (yükləmək), /to regret/ (təəssüf etmək) və s.) (very) much (daha çox) elementlərilə əlaqəyə girə bilir.

/She managed to conceal her distress from her friend// (Sie verbarg ihre Schmerzen von ihrer Feundin) (O, ağrılarını rəfiqəsindən gizlədirdi) cümləsində əsas fikirlə bərabər deyilməmiş, gızlində nəsə qalır. Bu cümlə inkarda işləndikdə hərəkətin baş tutmadığını bildirir. Beləliklə, cümlənin əsas mənasından doğan, presuppozisiya tipli olmayan, dildə ifadəsi gizli qalan hökmə implikasiya deyilir.

Digər gizli hökm kimi presuppozisiya tipli olmayan, deyilməsi mümkün olan, ancaq vacib olmayan hökmə inferesiya deyilir. Məsələn, alman dilində /Er versuchte seine Schmerzen von seiner Freundin zu verbergen// (She tried to conceal istress from her friend// (Ağrılarını rəfiqəsindən gizlətməyə çalışırdı) və s. Bu cümlə inkarda işlənə bilir (2, 334-336).

Deməli, yuxarıdakı sitatdan məlum oldu ki, presuppozisiya son dövrlər sintaktik araşdırmaların mərkəzində duran anlayış və şərh üsuludur. Bu da cümlənin gerçəklik dərəcəsini, özündən əvvəlki fikrə uyğunluğunu, danışanın real fakta münasibətini açıb göstərməyə imkan verir. Ç.Fillmor öz tədqiqatlarında belə iddia edir ki, pressupozisiya cümlənin hər hansı bir kommunikativ funksiyada işlənməsindən əvvəl nəzərə alınmalı olan şərtlərdir (4, s. 260).

Bu da həddindən artıq geniş diapazonlu amillər ola bilər. /Xahiş edirik qapını örtün// : /Please close the door// Bu cümlədə söhbətin nədən getdiyi yalnız pressuppozisiyadan hasil ola bilər. Moskvada qış aylarında idarə və müəssisələrin qapıları üzərində belə bir müraciətə tez-tez rast gəlmək olur. Müraciətin isə əsas mənası ondan ibarətdir ki, otaqların qızdırıldığını nəzərə alaraq içəri girib çölə çıxan hər bir kəs qapını örtsün ki, istilik qorunsun, otaqların temperaturu azalmasın.

Ancaq Bakıda yay fəslində bu cür idarə və müəssisələrin qapıları üzərindən asılmış bu ifadə artıq başqa presuppozisiyadan xəbər verir. Burada nəzərdə tutulan odur ki, qapılar açıq qalsa otaqlarda işləyən hava soyuducularının fasiləsiz işləməyindən səmərə olmaz. Deməli, iki ünsiyyət məqamı eyni dil ifadəsində müxtəlif presuppozisiya kimi çıxış edə bilər. Özü də, göründüyü kimi, presuppozisiya özü dilxarici faktordur, ancaq o, dildəki ifadələrə öz təsirini göstərir.

Əslində, irəlidə qeyd etdiyimiz kimi, presuppozisiya riyazi məntiqdən gəlib. Bununla işimiz yoxdur. sadəcə olaraq cümlənin gerçək olub-olmaması presuppozisiyadan asılıdır. Məsələn, biz deyəndə ki, /Əhmədinicad İranın prezidentidir// /Ahmadnijad is a president of Republic Iran// bu cümlədəki

presuppozisiya odur ki, İran prezident üsul-idarəsinə malik respublikadır, yəni parlamentar deyildir və buna görə də Əhmədinicadın prezident olması bizdə heç bir şübhə doğurmur. Ancaq /Əhmədnicad İranın, həm də Əfqanıstanın baş naziridir// desək, cümlə qrammatik cəhətdən doğru olsa da, presuppozisiya şərtlərinə əməl olunmadığı üçün mənasız görünür, çünki hazırkı siyasi idarəetmə sistemində bir ölkənin prezidenti həm də başqa bir ölkənin baş naziri ola bilməz.

Q.Q.Poçepsov presuppozisiyanın məna olmadığını xüsusi vurğulayır. Deməli, hər bir cümlənin mənası ilə yanaşı presuppozisiyası da olmalıdır. Presuppozisiya bir növ deyilən cümlədən əvvəlki gizlində qalan, eksplisit deyilməmiş cümlə kimi dəyərləndir. dirilə bilər.

Təsəvvür edək ki, evdə ailədə səhər yeməyi vaxtı söhbət edirik, günün planlarını müzakirə edirik. Birdən ailənin başçısı atam qışqıraraq deyir: /Bağladılar//. Hamı mat-məətəl ona baxır, heç kəs təəccübünü gizlədə bilmir. Hamı əlində cəngəl-bıçaq çığırtma yediyi, otaqda televizor, radio işləmədiyi vaxtda onun qışqıraraq belə deməsi iki cür qarşılana bilər: Ya dəli olub, nitqini idarə eləyə bilmir, ya da bizi ələ salır, diqqətimizi yayındırır, nimçəmizdəki yeməyi çırpışdırmaq istəyir. Bir də var ki, şəhərdə bizim küçədəki barın bağlanması ilə bağlı çoxdan söz-söhbət gedirdi. Bir gün atam işdən gələndə qapını açıb içəri girən kimi sevinclə deyir ki, /bağladılar//, onda presuppozisiya məlum olduğundan deyilən cümlə də normal qarşılanır və dinləyicilər tərəfindən aydın başa düşülür.

Qeyd etdiyimiz kimi, presuppozisiyanın təzahürü kontekstlə sıx əlaqəlidir. Məhz kontekstlə əlaqə əsasında presuppozisiyanın əsas təyinatı - söyləmin mənasının açılması həyata keçirilir. Kontekst söyləmin mümkün presuppozisiyalarından hansının onun işlənməsində reallaşdığını göstərir. Əlavə etmək istərdik ki, söyləm presuppozisiyasının reallaşması pilləli səciyyə daşıyır, yəni bu və ya digər presuppozisiya söyləmdə bir neçə dəfə təkrarlanır və onun növbəti reallaşması əvvəlkindən xeyli fərqlənir

Beləliklə, presuppozisiyanın aşağıdakı əlamətləri müəyyənləşdirilir: əvvəlki gizli qalan fikir, ondan irəli gələn nəticə, inkarlığa meyli olmayan və məzmunun praqmatikliyi (4, s. 261).

Əslində, /bağladılar// fikrini /bağlamadılar// kimi də demək olar. Məsələn, hamı gözləyirdi ki, məhkəmə qəzetin bağlanması ilə bağlı qərar verəcəkdi. Ancaq xoşbəxtlikdən bu baş vermir və bu faktı təsdiqləmək üçün cümlə inkar formasında işlənir.

Bəzən presuppozisiyanın təkrar cümlədə verilməsini iddia edənlər olur. Əgər biz desək ki, /Əhmədin qardaşı bu il məktəbi qurtardı// və əlavə etsək ki, /Əhmədin qardaşı vardır// bu heç cür sağlam məntiqə sığmır və belə halı tavtalogiya adlandırmaq olardı. Elə birinci cümlənin özündən məlum olur ki, Əhmədin qardaşı var və o da bu il məktəbi bitirib. Bunun əvəzinə biz deyə

bilərik /Əhmədin qardaşı var və o bu il məktəbi bitirdi// - /Ahmads brother educated in this year from school//

(Əhmədin qardaşı bu il məktəbi qurtardı) və bunun ardanca /Ahmad has a brother// (Əhmədin qardaşı var).

Bu halda birinci cümləyə sual vermək olardı:

¿Əhmədin qardaşı var? - /Mən bilmirdim//

¿Has Ahmad a brother? - /I didnt know//

Eyni məna daşıyan iki cümlənin birgə gəlməsi də mümkün ola bilməz. Məsələn, /Dünən qəzaya düşüb ölən kişi bu gün öldü// - /The man who had an accident yesterday, died// və s.

Tez-tez reklamlarda pressuppozisiya fakt kimi potensial alıcıların şüuruna yeridilir, bununla da müştərilərin cəlb olunmasına xidmət etmiş olurlar: /Filan nömrəni yığmaqla sizə lazım olan hər bir ərzağı, o cümlədən, süd məhsullarını da ucuz qiymətə sifariş verə bilərsiniz//.

Beləliklə, ərzağın alınması yolu, təkcə hər cür yeyinti məhsulları deyil, həmçinin süd məhsullarını da sifariş vermək olar. Bunun presuppozisiyası budur ki, şəhərdə belə bir mağaza var, telefon nömrəsi filandır, bu mağazada ət, un, tərəvəz və s. məhsullar ilə yanaşı süd məhsullarını da sifariş vermək olar. Yeyinti məhsulları ümumi göstəricidir, ona görə də alıcı nigaran qalır və həmin nömrəyə zəng edib öyrənməli olur. Deməli, gizlində qalan informasiya dinləyicidə daha çox maraq kəsb edir.

Beləliklə, hər bir cümlənin alt qatında gizlənmiş mənanın açılmasında presuppozisiyanın rolu böyükdür.

Ədəbiyyat

1. Abdullayev K.M., Azərbaycan dili sintaksisinin nəzəri problenləri. Bakı: Maarif, 1998, 284s.
2. Veysəlli F.Y. German dilçiliyinə giriş. Bakı: Təhsil:NPM, 2003, 408 s.
3. Veysəlli F.Y. Dil. Bakı: Təhsil NPM, 2007, 298 s.
4. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. Studia Philologica III, Bakı, 2009, 272 s.
5. Veysəlli F.Y., Dilçilik ensiklopediyası. Bakı: Mütərcim, 2006, 514 s.
6. Гак В.Г. Высказывание и ситуация /В кн.: Проблемы структурной лингвистики. В 3-х т. - М.: Художественная литература, 1972. -М.: 1973, с. 349-372.
7. Звегинцев В.А. Предложение и его отношение к языку и речи. -М.: Изд-во МГУ, 1976, 307 с.
8. Колшанский Г.В. О языковом механизме порождения текста. Вопросы языкознания. 1983, № 3 с. 47-49.

9. Крушельницкая К.Г. К вопросу о смысловом членении предложения. В жур. “Вопросы языкознания”, М., 1956, №5, с.55-67.
10. Макаров В.В. Основы теории дискурса. –М.: ИТДГК «Гнозис», 2003, 280 с.
11. Падучева Е.В. Высказывание и его соотнесенность с действительностью (референциальные аспекты семантики местоимений). -М.: Наука, 1985, 271с.
12. . Почепцов Г.Г. Предложение //В кн.: И.П.Иванова, В.В Бурлакова, Г.Г.Почепцов. Теоретическая грамматика современного английского языка. -М.: Просвещение, 1982, с.164-282.
13. Столнейкер Р. С. Прагматика //Новое в зарубежной лингвистике: Вып. 16. Лингвистическая прагматика. М.: Прогресс, 1985, 504 с.
14. Сусов И.П. Введение в языкознание. Учебник для студентов лингвистических и филологических специальностей. –М.: АСТ: Восток–Запад, 2007, 379с.
15. Strawson P. On referring In Caton E.(ed.) “Philosophy and ordinary language”. Urbana, Vol 59, №235, 1963, p. 320-344
16. Kadmon, Nirit. Formal pragmatics; semantics, pragmatics, presupposiyion and focus. Great Britain; Wiley- Blackwell, 2001.

Х.Алиева

Роль пресуппозиции в определении многозначительных синтаксических конструкций в английском и азербайджанских языках

Резюме

В данной статье рассматривается роль пресуппозиция при определении многозначности синтаксических конструкций. В ней говорится, что пресуппозиция играет очень важную роль, в то время как синтаксические конструкции выражают объективную реальность.

Выделяют два вида пресуппозиции: семантическая (логическое следствие) и прагматическая - отношение между говорящим и уместностъю высказывания в контексте

Пример пресуппозиция:

Джамила больше не пишет фантастику.

Пресуппозиция: Джамила однажды написал фантастику.

Пресуппозиция можно паниматъ как компонент смысла текста, являющийся предварителъным знанием, необязателно выраженным словесно, без которого невозможно адекватно воспринятъ текст.

В статье также содержится информация о том факте, что пресуппозиция означает разделение одинаковый знаний говорящих в

процессе коммуникации. Таким образом, пресуппозиция должна использоваться для глубокого понимания синтаксических конструкций.

Kh. Aliyeva

The role of presupposition to determine syntactic constructions in english and azerbaijan languages

Summary

The article deals with the role of presupposition in defining the polysemy of syntactic constructions. A presupposition is an implicit assumption about the world or background belief relating to an utterance whose truth is taken for granted in discourse.

There are two types of presupposition : the semantic(or the logical), and the pragmatic.

Example of presuppositions include:

Jamila no longer writes fiction.

Presupposition: Jamila once wrote fiction.

It states that the presupposition plays an important role while syntactic constructions express objective reality. The article also gives information about the fact that presupposition means to share the same knowledge of the speakers in the communication process. A presupposition must be mutally known or assumed by the speaker and addressee for the utterance to be considered appropriate in context. Thus, presupposition should be used for thorough understanding of syntactic constructions.

Rəyçi: Fəxrəddin Veysəlli

Filologiya üzrə elmlər doktoru, professor

NİGAR SEYİDOVA
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti
nigar-seidova@mail.ru

FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TƏRCÜMƏSI ZAMANI YARANAN ÇƏTİNLİKLƏR

Açar sözlər: frazeoloji birləşmələr, tərcümə problemləri, ekvivalentlik, ekstralinqvistik amillər, tərcüməçi.
Ключевые слова: фразеологические единицы, проблемы перевода, эквивалентность, экстралингвистические факторы, переводчик.
Key words: phraseological units, translation problems, equivalence, extra-linguistic factors, translator.

Frazeoloji birləşmələrin şərhini və tərcüməsini çətinləşdirən bir sıra faktlar mövcuddur: 1) frazeoloji birləşmələri sərbəst söz birləşmələri ilə qarışdırmaq olmaz; 2) frazeoloj birləşmələr mənbə dildə formasına görə tərcümə olunan dildəki birləşməyə oxşayır, lakin başqa məna bildirir. Məsələn: *according to Cocker//according to Hoyle* (doğrudur, tamamilə düzdür) frazeoloji birləşmələri ingilis dilinə xas olan birləşmə olmasına baxmayaraq Azərbaycan dilində də buna uyğun variantlar mövcuddur (filankəsin canı üçün). Birinci frazeoloji birləşmə (according to Cocker) ikinci frazeoloji birləşmə olan according to Hoyle birləşməsinə nisbətən daha güclüdür. Belə ki, ingilis qravüra ustası olan Edvard Kokker (1631-1675) öz dövründə kifayət qədər məşhur olmuş cəbr dərsliklərinin müəllifi idi. Ona görə də, hərfi tərcüməsi "Kokkerə uyğun", "Kokkerə müvafiq" anlamını ifadə edən frazeoloji birləşmə həmin cəbr kitablarının dəqiqliyi ilə bağlı təsəvvürlərə istinad edir: *It is to the presumed accuracy of Cocker in resolving commercial mathematical questions that the phrase "according to Cocker" arose as a byword for "absolutely correct"* – Reklam səciyyəli riyazi sualların həllində Kokkerin dəqiqliyinə güvənmək olar ki, “Kokkerə görə, onun fikrincə” ifadəsi “lap düzgün” vicdan haqqı kimi səslənir.

İngilis və Azərbaycan dillərinin frazeoloji birləşmələrinin tərcüməsində baş verən çətinliklərin bir neçə səbəbi vardır. Onlardan biri də odur ki, heç bir lüğət frazeoloji vahidlərin konkret mətndəki mənasını dəqiqliklə əhatə edə bilmir. Ona görə də tərcümə prosesində frazeoloji vahidlərin ekvivalentliyi ön plana çəkilir. Lüğətlərdə frazeologizmlərin tam ekvivalentləri ilə yanaşı, onların mənasının açılması da vacib məsələlərdəndir. Belə bir şərh frazeologizmin mətni mənasının tapılması və onun adekvat tərcüməsi üçün yardımçı ola bilməsidir.

Məlumdur ki, bir dilə xas olan bir çox frazeoloji vahidləri başqa dilə eynilə tərcümə etmək çox çətindir. Bu çətinliyin öhdəsindən gələn leksikoqraf M.M.Paşayeva rus dili frazeoloji vahidlərinin Azərbaycan dilinə tərcümə prinsiplərini nəzəri və təcrübi cəhətdən əsaslandırmışdır.

Frazeoloji birləşmələrin tərcüməsində çətinliklərdən biri də odur ki, bu və ya başqa sabit birləşmənin leksik mənası heç də həmişə onu təşkil edən komponentlərin fərdi semantikasından irəli gəlmir. Bu baxımdan tərcüməçilər arasında daim fikir ayrılıqları yaranır. Onların bir qismi frazeoloji birləşmələri təşkil edən komponentlərin kalka yolu ilə tərcüməsini bəyənmir, bəziləri isə əksinə bu cür tərcümənin düzgün olduğunu qəbul edirlər.

Linqvistik və ekstralinqvistik faktorların tərcüməsində yaranan çətinliklər də frazeoloji birləşmələrdə bir sıra problemlər yaradır. Tərcümə sahəsində tədqiqat aparan dilçilər dildaxili (linqvistik) və dilxarici (ekstralinqvistik) faktorların təhlilinə də diqqət yetirmişlər. Burada linqvistik formalar, məna tipləri nəzərə alınmışdır.

Frazeologizmlərin kommunikativ, praqmatik, koqnitiv istiqamətlərdən tədqiqi prosesindən aydın olur ki, hər bir xalqın mədəniyyəti, ədəbiyyatı, məişəti və tarixinə dair linqvokulturoloji səciyyə daşıyan frazeologizmlər spesifik xüsusiyyətlərə malikdir. Onların bir dildən digərinə tərcüməsində müəyyən çətinliklər meydana çıxır. Bu da etnokulturoloji amillərlə səciyyələnən frazeologizmlərin başqa dillərdə ekvivalentlərinin olmamasından irəli gəlir. Ona görə də belə vahidlər çox zaman izah olunur.

Frazeoloji birləşmələrdə yeni mənaların yaranma səbəbi, əsasən, ekstralinqvistik faktorlarla bağlıdır. Yeni yaranan mənaların hansı üsullarla meydana gəlməsi dilin daxili qanunları ilə əlaqədardır. Belə ki, ekstralinqvistik amillər hər bir dilin tarixi inkişafı zamanı yaranır və frazeoloji birləşmələrin yeni mənada işlənməsinə səbəb olur. Ekstralinqvistik amillərin əhatə dairəsi olduqca genişdir. Bu amillərin ünsiyyətin baş verdiyi qeyri-dil mühiti ilə əlaqəlidir. Dildən istifadə edən fərdin dil mühitindən kənarda əldə etdiyi bütün bilik və bacarıqlar, vərdişlər, adət və ənənələr, məlumatlar və s. ekstralinqvistik amillər toplusuna daxil olur. Ekstralinqvistik amillər sosial amillərdir. Dildə danışanların sayı, onların məskunlaşma xüsusiyyətləri, yaş differensiyası, cəmiyyətin sosial quruluşu, dil və mədəniyyət xüsusiyyətləri, dil əlaqələri dilin ekstralinqvistik amillərini formalaşdırır. Ekstralinqvistik amillər intralinqvistik amillərlə qarşılıqlı təsir prosesində inkişaf edir. Nəticədə, dil vasitələrinə ekstralinqvistik amillər nüfuz edir. Onların müəyyənləşdirilməsi mövcud vahidlərin müxtəlif plandan təhlil olunmasını tələb edir. Semantik derivasiya adlanan belə üsul mövcud olan əşya və hadisələrin müəyyən situasiya ilə birləşməsi nəticəsində yaranır. Məsələn, to *black out* - müvəqqəti huşunu itirmək. Bu ifadə eyni zamanda "şəhərin işıqlarının sönməsi nəticəsində zülmətə qərq olmaq" anlayışını da verir. Belə

ki, "gözləri qaralmaq", "huşunu itirmək" mənalarında olan to *black out* ifadəsi müasirləşərək yeni məna almış və "zülmətə qərq olmaq" kimi də iş-lədilir. Halbuki, *blackout* isimdir, mürəkkəb isimdir, bir sözdür və "zülmət" anlamındadır. Məsələn,

After my operation the doctor told me not to drive for a few months, because I might black out and have an accident – Əməliyyatdan sonra həkim mənə dedi ki, bir neçə ay maşın sürmək olmaz, çünki huşumu itirərəm və qəza baş verər. Buradakı to *black out* huşunu itirmək kimi tərcümə olunur. Yaxud da, *Tom was walking down the street in the hot sun. He became dizzy and then blacked out* -–Tom isti havada küçədə gəzdiyindən gözləri qaraldı və huşunu itirdi. Bu kimi frazeoloji birləşmələr semantik derivasiyalar adlanır.

Beləliklə, demək olar ki, frazeoloji birləşmələrin mənaları həm psixoloji cəhətdən, həm də məntiqi cəhətdən mənanın genişlənməsinə səbəb olur və ümumxalq danışıq dilində ümumi ədəbi dilə məxsus məna kəsb edir. Mənanın tarixən genişlənməsi və onun məcazilik kəsb etməsi arasında müəyyən fərq vardır. Məna genişlənməsi tarixən baş verərsə, bu, müvafiq anlayışlar haqqında insanların biliyinin çoxalması deməkdir. Məsələn: *black market, by the book, in the seventh heaven* və s. birləşmələri müasir dövrə aid olub mənaca genişlənmişdir, insan biliyinin inkişafı ilə bağlıdır. *Black market (*qara bazar) birləşməsi qeyri-qanuni yolla malların alış-veriş edilən yer mənasında işlədilir. Məsələn:

During the war each household was allowed a small amount of sugar and butter each month. If you wanted more you had to buy it on the black market - Müharibə zamanı hər ailə başçısına hər ay bir az qənd və yağ verilərdi. Artıq istəyən kəs onu qara bazardan almalı olurdu. Yaxud da *by the book* – qaydaya görə, kitabda yazılana görə frazeoloji birləşməsi də sonradan bu mənanı qazanmışdır.

Tərcümə dilində hazır müvafiqliklərin olması orijinalın dilindəki frazeologizmlərin tərcümə edilməsini asanlaşdırır. Belə ki, tərcüməçinin vəzifəsi mövcud uyğunluqları tapmaq və onların arasından verilmiş kontekstə ən çox uyğun gələnini seçməkdir. Əlbəttə, bu zaman şifahi və yazılı tərcümənin də yaxınlığı əsas şərtdir.

Şifahi tərcümədə çətinliyin əsas səbəbi iş şəraiti, avadanlığın nasazlığı, keçirilən tədbirə hazırlıq üçün vaxtın məhdudluğu və ya yoxluğu, mövzu ilə tanışlığın azlığı, bəhs olunan sahənin mürəkkəbliyi, bu sahədəki mürəkkəb anlayışlar ola bilər. Tərcüməçinin tərcümə zamanı rast gəldiyi bəzi ifadələrin bir neçə məna daşıması da, termin zənginliyi və tərcüməçinin psixoloji gərginliyi də tərcümə prosesində çətinliyin yaranmasına səbəb ola bilər.

Tərcümə zamanı tərcüməçini daha çox narahat edən mənbə dildə hər hansı bir sözü, frazeoloji birləşməni anlaya bilməməsindən irəli gəlir.

Tərcümə prosesindəki səhvləri bir neçə variantda qruplaşdırmaq olar: 1) termin seçimində, 2) sintaktik quruluşda, 3) məxəz mətni düzgün anlamamaqda, 4) cümlənin uzlaşmamasında, 5) durğu işarəsində.

Bu kimi qruplaşmalar, əsasən, yazılı tərcümədə istifadə olunur və qüsurlar aradan qaldırılır. Çünki yazılı tərcümədə buraxılmış səhvlər göz qabağında olur və orada düzəliş etmək çox asandır. Şifahi tərcümədə isə bir qədər qarışıqlıq yaranır və çox zaman bu qarışıqlığı aradan qaldırmaq üçün ani zaman tələb olunur.

Tərcümənin əsas prinsiplərindən biri onun ayrı-ayrı hissələrinin dəqiqliyini yox, fikir bütövlüyünü təmin etməkdir.

Yazılı tərcümədə bəzən elə olur ki, məxəz dildə işlənən termin hədəf dildə olmur. Bu zaman tərcüməçi yeni termin yaratmaq məcburiyyətində olur. Lakin bu, əsil leksik çətinliklərdir və ancaq terminlər yox, həm də dialekt, sləng, vulqarizmlər də çətinliklərin yaranmasına səbəb olan amillər-dir. Belə çətinlik yarananda tərcüməçi lüğətlərə və ya internetə əsaslan-malıdır, orada da istədiyini tapmayanda dilin daşıyıcısına müraciət edə bilər. Bütün bunlarla yanaşı, orijinal mətnin ifadə tərzi, oradakı məntiqsizlik də tərcüməçini çıxılmaz vəziyyətə sala bilər. Əlbəttə, bu zaman tərcüməçi müəlliflə əlaqə yaratmalı, yaxud da fikri orijinala yaxın ifadə etmək və orta mötərizədə tərcüməçinin qeydi kimi verməlidir.

Məlumdur ki, dil sisteminin heç bir işarəsi bir-birindən təcrid olunmuş şəkildə mövcud deyil, onların hər biri müəyyən işarələr sisteminin ayrılmaz komponenti kimi funksionallaşır. Hər bir işarə dil sisteminin başqa işarələri ilə sıx əlaqədardır. Məsələn, qohumluq əlaqəsi olan bir sıra sözlər var ki, onları vahid dil sistemində dildaxili-linqvistik münasibətlər adlandırırlar. Məsələn: *dog* – ümumiləşmiş heyvan adıdır, onun başqa növləri isə (hound, colly, borza) dog sözü ilə qohumluq münasibətindədir (mebel - masa, kətil, qoltuqlu kreslo, paltar rəfi və s.)

Linqvistik qabiliyyət ünsiyyətdə iştirak edənlərin nitq tərkiblərini və dilin özünü nə dərəcədə bilmələrini müəyyənləşdirir. Bəzən elə hallara təsadüf olunur ki, mənbə dildə və tərcümə prosesində danışan ünsiyyət iştirakçılarının ekstralinqvistik informasiyası bir-birinə uyğun gəlmir, çünki hər iki dil daşıyıcılarının bilik səviyyələri eyni deyildir. Belə ki, mənbə dilin daşıyıcısına yaxşı aydın olan bir sıra anlayış və informasiyalar obyekt dilin nümayəndəsinə qaranlıq ola bilər.

Tərcüməçi bu faktı nəzərə almasa, hətta ən dəqiq tərcümə istənilən nəticəni verməz, çünki bu cür tərcümə adresant üçün anlaşıqlı olmayacaq.

Bununla yanaşı, dilin semantik strukturu da tərcümədə əhəmiyyətli mövqe tutur. Belə ki, ekvivalentlik ayrılıqda götürülmüş bir sözün semantik strukturundan çox asılıdır. Əsas problem ondadır ki, bəzən müvafiq bir birləşmənin tərcüməsini lüğətlərdə tapmaq mümkün olmur, təbii ki, bu

zaman bir sıra çətinliklərlə qarşılaşmaq olur.

N.L.Şadrin öz tədqiqatlarında tərcümə zamanı frazeoloji vahidlərin komponentlərinin semantikləşməsinin vacibliyinin əhəmiyyətini xüsusi qeyd etmişdir. Müəllif belə nəticəyə gəlir ki, komponentlərin mətnlə əlaqədar leksik mənalı frazeoloji birləşmələrin tərcüməsinin əsas qanunauyğunluqları ekvivalent və ya analoqların köməyi ilə verilir.

Semantikləşmə üsulunun köməyilə edilən tərcümə, əsasən, üslubi məqsəd daşıyır və frazeologizmlərin məzmununda elə bir ciddi dəyişiklik yaratmır. Ona görə də belə tərcümənin üslubi funksiyasını bərpa edən tərcüməni mükəmməl tərcümə hesab etmək olar.

Ədəbiyyat

1. Ağayeva R.R. Frazeologizmlərin formalaşmasında ekstralinqvistik amillərin rolu, Namizədlik dissertasiyasının avtoreferatı, Bakı, 2016, 24 s.
2. Rzayeva S.R. Frazeoloji birləşmələr və onların tərcümə üsulları, f.ü.f.d.dis., Bakı, 2007, 137 s.
3. Гусейнов Б.Г. Лексико-фразеологические вопросы перевода с английского на азербайджанский язык, АКД: Баку,1967, 16 с.
4. Пашаева М.М. Принципы отбора и перевода русских фразеологических единиц в русско-азербайджанских словарях, АКД, Баку, 1964, 22 с.
5. Шадрин Н.Л. Семантизация компонентов ФЕ как проблема перевода. - Сб. Фразеологическая система английского языка, Межвуз. сб.науч.трудов. Челябинск: ЧГПИ, 1985, с. 64-73
6. Gowers E. The Complete Plain Words, 2nd edition London: Her Majesty's Stationery Office, 1973, 189 p.
7. Shelley V.L., Something to Grow About, A Concise Collection of American English Idioms for Everyday Use, 1993, 95 p

Н.Сеидова

Проблемы, появляющиеся при переводе фразеологических сочетаний

Резюме

Проблемы перевода фразеологических единиц нашли свой анализ в отдельных исследовательских работах. В этой статье мы разбирали ряд трудностей и пути их решения, встречающиеся при переводе фразеологических единиц с английского на азербайджанский. Обратим

внимание на конкретные факты, создающие эти трудности: 1) Нельзя путать фразеологические соединения со свободными словосочетаниями; 2) Фразеологические соединения в языке источнике по форме похожи на соединения переводимого языка, но показывает другое значение. В связи с этим вопросом просмотрены мнения многих языковедов и показаны отношения к нему. Вопрос эквивалентности во время перевода всегда был очень важным вопросом. Исследователи, занятые этой отраслью, подходили к ней с разных аспектов. Адекватность, эквивалентность, соотносительность играют большую роль в вопросе перевода. Здесь затронуты как проблемы письменного, так и устного перевода. Здесь мы сгруппировали в нескольких вариантах ошибки, встречающиеся в процессе перевода. Эти трудности ясно показаны на наглядных примерах.

N.Seyidova

The translation problems of phraseological units

Summary

The translation problems of phraseological units of the English language was analyzed in different research works. In this study we investigate the translation problems of phraseological units and the ways of solutions when we translate them from English into Azerbaijani. Let's look through he factors which cause these problems. 1) One shuldn't take phraseological units for free word combinations; 2) according to the form phraseological units in the source language look like combinations in the language into which it is translated but it has quite different meaning. According to this problem the concepts of some linguists are studied and we expressed our attitude towards it in this article. The problem of equivalence in translation has always been one of the most important issues. Researchers who always dealt with this field approached the problem from different angles. Adequacy, equivalence and relevance play a great role in translation. We touched the written and oral translation problems in this article. We grouped mistakes in the process of translation in this article as well.

Rəyçi: Abbas Abbasov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÜLBƏNİZ MEHDİYEVA
Bakı Slavyan Universiteti
gulbeniz57@mail.ru

ERKƏN ORTA ƏSR TARİXÇİSİ MUSA KALANKATUKLUNUN "ALBAN TARİXİ" ƏSƏRİNDƏ ORONİM VƏ HİDRONİMLƏR

Açar sözlər: "Alban tarixi", oronimlər hidronimlər, etimologiya, mənşə.
Ключевые слова: «История Албан», оронимы, гидронимы этимология, происхождение.
Keywords: "History of Albanians" Oronyms, hydronyms, etymological, source.

Əsrlər boyunca Azərbaycan xalqını yaşadan onun mənəvi varlığını, mövcudluğunu, milli düşüncəsini, milli ənənələrini, milli genetik yaddaşını qoruyub saxlayan, zəngin fonetik ahəngə, özünə məxsus qrammatik quruluşa malik doğma qədim türk dilimiz, (yəni buna çəkinmədən ulu alban yaxud qədim türk dili də deyə bilərik) vardır. Doğma dilimiz millətimizin varlığını əks etdirən bir sütundur. Tarixi mənbələrin əhəmiyyətli cəhəti əsrlər boyu uzaq keçmişlərdən qoruyub saxladığı adlarımızı bizə gətirib çatdırmasıdır. Yalnız tarixi mənbələrin köməyi ilə biz tarixi, coğrafi adlarımızın və etnik tərkibimizin inkişaf prosesini sistematik şəkildə öyrənir, zaman keçdikcə baş vermiş dəyişiklikləri görür və bundan müəyyən nəticə çıxarırıq.

M.Kalankatuklu Alban tarixi əsərinin dördüncü fəslini belə başlayır: "Uca Böyük və Kiçik **Qafqaz dağlarının** qoynunda yerləşən Alban ölkəsi öz saysız-hesabsız təbii sərvətləriylə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir" [9,s.16]. Əsər boyu Qafqaz dağlarının adı bir neçə dəfə çəkilir. Strabon (I əsr) qeyd edir ki, Qafqaz dağları cənubdan Albaniya və İberiyanı, şimaldan isə sarmat düzənliyini ayırırdı. Albaniya üzərində olan dağların sakinləri isə Amazonkalar olmuşlar. [16,XI, s.215]. Q.Qeybullayevin mülahizələrindən belə məlum olur ki, Qafqaz dağının adı müxtəlif dillərdə fonetik quruluşca bir-biri ilə uyğunlaşır: orta fars dilində (III əsr e.ə) - Kapkox, yunan versiyasında (III əsr) Qaz orous (bax "Kitabi-Dədə Qorqud" oronim – "Qazlıq"), qədim erməni və gürcü dillərində Kapkox, Moisey Kalankatukluda (II kitab, II fəsil) Qafqaz və Qavqas [12,s.159]. Z.Bünyadov (IX-XIII əsr) ərəb müəllifi olan Əi –İdrisnin "Nəzihət ul-maştaq fi ixtiraq əl afaq" əsərində belə bir maraqlı təhlilə rast gəlib: Qaf morfemi Qabk kimi qəbul edilir. Orta əsr şərq ədəbiyyatında dağın adı Qaf formasındadır. Bu oronim başqırd nağıllarında ("Altunduki batır") Kaf tau, özbək variantında ("Koroğlu" eposunda) – "Kuy Qaf", Türkmən nağıllarında - Qay Qap və s. kimi işlənir. [6,s.300]. Belə hesab edirik ki, sözün tərkibində

I komponent türk sözü olan kapu (q) "qapı" sözüdür. Sözün ikinci hecası olan qas komponentini isə etnonimlə bağlamaq olar. Qeyd edək ki, Qafqaz dağları ilə tarixdə həm Qaf dağı kimi, həm də Qazlıq dağı (-lıq mənsubiyyət şəkilçisidir) kimi tanınmışdır. Əsrlər keçdikcə *qaf* komponenti ilə *qaz* komponentinin birləşməsi nəticəsində Qafqaz sözü meydana çıxmışdır.

Avşakan - Mənbənin 27-ci səhifəsində dağlıq yer ifadəsinə rast gəlirik. Məsələn, "...Sanatrukun nəhəng sərkərdələrindən biri Avşakan adlı dağlıq yerdə düşmən üzərinə qəhrəmancasına hücum edir" [9,s.27]. *Avşakan* sözünün birinci hecası olan av morfemini T.Hacıyev oğuz və qıpçaq dil xüsusiyyətlərinin bir-birinin üstünə düşməsi ilə izah edir. Məsələn, söz sonundq qoşa dodaq *v* əvəzinə diş-dodaq *v* səsinin işlənməsi [8,s.36]. Lakin sözün mənası izah edilməmişdir. Sözün ikinci hecası olan şakan morfeminə gəldikdə isə Q.Qeybullayev onu toponimlə bağlayır. "Salman ibn Rabiya Kürü keçmiş (sağ sahilindən sol sahilinə - Q.Q) və Qəbələni zəbt etmişdir. Şakan və Kambizanın hökmdarı ilə sülh bağlamışdır" [10, s.98]. Deməli, burada Şakan sözü toponim kimi verilmişdir. Saka-şaka etnonimi konkret tayfa adı olduğundan irandilli xalqların arasında, yaxud xarici dilə mənsub olan etnik qrupların içində məlum deyil.

Ulduzlu təpə - "Hun döyüşçüləri həmin gün bütün vilayətdə qarət etdikləri qəniməti və tutduğu əsirləri həmin Ulduzlu təpəyə gətirdilər"[9,s.35]. "Pasxa bayramının yeddinci həftəsində müqəddəs qırx günlük pəhrizdə Arsax vilayətinin meşələri qalın və dərələri dərin Böyük Qouyan dairəsinə gəldilər. Yol ayırıcında iki meşəli dəstəyə bölündülər. Dəstənin birisi şimal tərəfdən Ulduzlu təpə deyilən yerdə qaldı, ikincisi isə cənub tərəfə gedən Tərtər çayı keçib Çala adlı meşəli dərədə dayanıb burada Pasxa bayramını keçirdilər" [9, s.34].

Deməli, Ulduzlu təpə, Böyük Qouyan dairəsi və Çala adlı dərə Arsaxda yerləşir. Azərbaycan dilində *tap* – "su çıxmayan hamar yer", "yüksəklikdə hamar yer" deməkdir [13, s.88].

Bərde Qruark dağı – "Bundan sonra İsrail yavaş-yavaş addımları ilə Bərde Quark adlanan dağa qalxdı" [9, s.155].

Q.Qeybullayevə müraciət edək: "Hazırda İran Azərbaycanında Bərde-Qure, Bərde Kış, Bərde- Miç, Bərde-Naqmine və Azərbaycan ərazisində olmayan Bərdə vardır[2,IV,s.86- IX,s.103] "Albaniya tarixi" əsərində "Bərde-Quark" kimi gedən dağ adını Q.Qeybullayev "Bərde-Quark", "Bərde-Qure" kimi göstərmişdir. Lakin burada oronim deyil, toponim kimi verilmişdir. Bərde sözündə Bərdə sözü aydın görünür. Qruak sözünə gəldikdə isə sözün birinci hecası diqqəti xüsusilə cəlb edir. Fərz etmək olar ki, burada səs düşümü baş vermişdir və quru-qru dəyişikliyi olmuşdur. Q.Qeybullayevin də maraqlı mülahizəsinə görə, dağ və dərə adlarında "*quru*" sözü həm də türk dillərində *kora* (Azərbaycanca qura) - qışlaqda

gecələr mal-qaranın salmaq üçün tövlə sözünün danışıqda dəyişilmiş forması da ola bilər. Məsələn, Azərbaycanda Qurudaq (Şəmkir r-nu, hünd. 1469 m) oronimində *quru* sözü *qura* sözündən ibarətdir" [1,s. 223].

Tavr dağları –"Mxitar bu sərvəti götürüb, düşmənlərdən qorxa-qorxa Bizansa getdi və Tavr dağlarında yerləşən müqəddəs Andrey vənginə çatdı"[9,s.188]. Q.Qeybullayevin maraqlı mülahizəsi diqqəti cəlb edir: "Tavarataq-İrəvan quberniyasının Şərur-Dərəlyaz qəzasında təpə adı" [11,s.85]. Tavar sözündə Tavr morfemi aşkardır və burada səsdüşümü hadisəsi baş vermişdir. Bir daha Q.Qeybullayevə müraciət edək: "...Türk dillərində tavur (qədim forması tabur) "arabalardan düzəldilmiş düşərgə, möhkəmləndirilmiş yer "deməkdir. Yenə orada: "Alban tarixçisi Musa Kalankatuklu Tverek/Tavurak etnonimini ermənicə yazılışı və Tavuraq tayfasını, IX əsr ərəb coğrafiyacısı Bəlazuri isə Arranda Tabar toponimini qeyd edir [11,s.15]. Bir başqa mənbədə isə Herodota istinad edərək verilmişdir: "Qara dənizin şimal çöllərində yaşayan skiflərin Tavr adlı tayfası olmuşdur [2,IV, s.90]. Şimali Qafqazda xəzərlərdə bir şəhər Tavris adlanırdı [13,s. 38] Rusiyada Tavriya adında şəhər də vardır.*Tavr* morfemi bir çox onomastik vahidlərin tərkibində aşkar görünür. Qədim dövrlərin yazılı abidələrində adları çəkilmiş onomastik vahidlərin əksəriyyətinin bu gün xalqımızın keçmişini, dilini, yaşayış tərzini, etnogenezini, etnoqrafiyasını öyrənmək baxımından qiymətli mənbələrdir. Bu hidronimlər bir tərəfdən tarixi gerçəkliklərin dəqiqləşdirilməsi, qaranlıq mətləblərin işıqlandırılması baxımından əhəmiyyət kəsb edirsə, digər tərəfdən onların öyrənilməsi müasir dövrdə siyasi baxımdan önəmlidir. Mənfur qonşularımızın torpaqlarımıza göz dikdiyi və tarixi təhriflərə yol verdikləri bir vaxtda bu hidronimlərin öyrənilməsi əsassız uydurmalara verilən tutarlı cavab ola bilər.

Tədqiqata cəlb olunmuş abidədə Azərbaycan ərazisi ilə bağlı saysız-hesabsız su obyektlərinin adları çəkilir. Onlar həm də dilimizin leksik-semantik inkişafını öyrənmək baxımdan çox qiymətlidir. Təbii ki, M.Kalankatuklu bu ərazidə olan hidronimlərin mənşəyi, semantikası haqqında məlumat verməyi qarşısında məqsəd qoymamışdır. Müəllif bu coğrafi adları başqa məqsədlə-ticarət əlaqələrini, tarixi münasibət və müharibələri təsvir etmək üçün istifadə etmiş və bu zaman onlar haqqında maraqlı fikirlər irəli sürmüşdür. Qeyd edək ki, bu hidronimlərin hər biri haqqında ta qədim dövrlərdən başlayaraq bu günümüzə qədər yazılmış elmi və tarixi mənbələrdə məlumat və izahlara rast gəlirik və onların hər birinin nüvəsi Azərbaycan türk mənşəlidir.

Mənbədə Azərbaycan ərazisi ilə bilavasitə bağlı olan hidronimlərdən biri **Xəzər** dənizidir. Mənbədən: "O, şəhərdə ətraf vilayətlərin əhalisinin çoxunu saxlayaraq Xəzərlərə müqavimət göstərmək qərarına gəldi və ölkənin əyanları şəhər əhliylə müqavilə bağlayaraq öz mövqeyini möhkəmlətməyə

çalışdı" [9,s. 92]. İ.İ.Şopen belə hesab edirdi ki, xəzərlər - möcüzəli Atlantidanın sakinləridirlər [17,s.100]. Əvvəlcə o, "Kaspi" sözünü Qa-asp, yəni farsca "atların yeri" mənasını verən birləşmə kimi qəbul etmiş, sonra onu türkmən dilinə tərcümə etmiş "At-ili" mənasını almışdır. Bu isə artıq "Atlantida" sözünə yaxın bir sözdür. Fikrinə sübut olaraq İ.İ.Şopen Xəzər dənizində batmış şəhərləri misal gətirir. Mənbədə Xəzər dənizinin adına 16-cı, 92-ci və 196-cı səhifədə rast gəlirik. "Sam dünyasının şərq hissəsini, Ham cənub hissəsini, Yasəf isə qərbi albanlar yaşayan hissəsini və Xəzər dənizi yerləşən şimal hissəsini almışlar" [9,s.16]. Sonra 92-ci səhifədə belə bir maraqlı fakta rast gəlirik: "Bu möhtəşəm tikinti üçün onlar inşaatçıları səfərbərliyə alıb çoxlu müxtəlif tikinti vəsaiti daşıtdırdılar və bunun vasitəsilə onlar Qafqaz dağları ilə Şərq (Xəzər) dənizi arasındakı keçidləri bağladılar" [9,s.92]. Musa Kalankatuklu Xəzər dənizini Şərq dənizi də adlandırmışdır.

Xəzər dənizinin geoloji quruluşunu öyrənənlərin fikrincə, təxminən 70 milyon il bundan əvvəl indiki Xəzər dənizi, Qara dəniz və Aral dənizi arasındakı sahədə böyük su hövzəsi varmış. Bu su hövzəsi eyni zamanda Atlantik, Hind və Şimal Buzlu okeanları ilə əlaqədar imiş. Sonralar yer səthinin qabarması nəticəsində Alp, Karpat, Balkan, Qafqaz və Kiçik Asiya dağları əmələ gəlmiş, bu hövzənin sahəsi get-gedə azalmışdır. Deməli, belə qənaətə gəlmək olar ki, tarixən bu dəniz okeanlarla əlaqədar olmuş, sonralar müəyyən səbəblər nəticəsində ayrılmışdır.

Xəzər dənizi haqqında yazılmış kitab və məqalələrdən onun müxtəlif adlarla adlanması göstərilir. Bəzən 60, bəzən isə 70-ə yaxın adı qeydə alınmışdır. Bunlardan biri də M.Kalankatuklunun söylədiyi Şərq dənizidir. - Mənbələrdən məlum olur ki, eradan əvvəl V əsrdə Xəzər adı "Kaspi" kimi çəkilir. Bəs bunun səbəbi nədir? Yenə də mənbələrdən məlum olur ki, kaspilər Azərbaycan ərazisində məskən salmış qədim və böyük tayfalardan biridir" [4,s.50].

Azərbaycan, eləcə də şərq ölkələrinin bir neçəsi istisna olmaqla Xəzər dənizini avropalılar Kaspi kimi tanıyırlar. Ə.Dəmirçizadəyə görə, "....Əslində baxılsa, VII əsrin sonlarında məlum olan Xəzər adı ilə Qaspi adı arasında məzmun etibarilə və dil vahidlərinin nisbət dəyərinə görə heç bir fərq yoxdur; çünki hər iki sözün birinci hissəsi qas/xaz şəklində ad bildirildiyi kimi, hər iki sözün ikinci hissəsi də cəm mənası bildirən piar şəkilçilərindən ibarətdir. Bu adların hər ikisini də eyni əsldə və eyni məzmunlu olduğunu, eyni dənizin həm /Kaspi/, həm də /Xəzər/ adlanması ilə də izah etmək olar" [7, s.30]. Q.Qeybullayev isə bu sözün izahını belə vermişdir: "...Xəzər sözü qədim türk dilində kas etnonimindən və "ər", "igid", "kişi" mənasını verən qədim türk şəkilçilərindən ibarətdir [11,s.138]. Deməli, bu günə qədər bütün

tədqiqatçıların son nəticəsi budur ki, "Xəzər" hidronimi tayfa adı ilə bağlıdır. Kas/xəz tayfanın adı, ar/ər isə "igid", yəni "igid kaslar" deməkdir. Mənbədə rast gəldiyimiz digər hidronim **Kür** çayıdır. Əsər boyu Kür çayının adına dəfələrlə rast gəlirik. Məsələn, əsərin 16-cı səhifəsində belə verilmişdir: "Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır, iri və xırda balıq gətirib, sularını Xəzər dənizinə tökür" [9, s.16].

Antik yunan tarixçilərindən olan Strabon qədim Albaniya haqqında məlumat verərkən XI kitabın III bölməsində Kir (Kür) çayından bəhs edib və onun əvvəllər Kor adlandığını yazmışdır. Lakin həmin sözün mənası haqqında heç bir məlumat verməmişdir. Eyni zamanda Ptolomeyin "coğrafiya" kitabında rast gəlirik. Q.Qeybullayev isə bu sözün izahını belə vermişdir: "Orta qədim türk dilində "kür" sözü "igid" deməkdir" [12,s.136]. Digər əsərində isə Q.Qeybullayev Kür hidronimi haqqında antik dövrün müəlliflərindən misal gətirərək çox maraqlı mülahizələr irəli sürür: "...eramızdan əvvəl VIII əsrə aid Urartu mənbələrində Kuriaini adlı ölkə adı çəkilir. Tədqiqatçılar bu ölkəni Türkiyə ərazisində Çaldıran gölünün hövzəsində, Kür çayının yuxarı axınında lokalizə edir və onun Kür çayının adını əks etdirdiyini yazırlar [5,s.434]. Əgər bu fikir həqiqəti əks etdirirsə, onda belə qənaətə gəlmək olar ki, Kür etnonimi VIII əsrdə vardı. Azərbaycanda bu adın mənası haqqında iki fikir söylənmişdir. 1)A.Axundov Kür sözünün etimologiyasını udin dilində "kur", "çökəklik", "su anbarı", "quyu" sözü ilə izah etmişdi [3,s.125]. Bir sıra tədqiqatçılar Kür məfhumunu şıltaq, nadinc və s. kimi izah edirlər. Xalq arasında *kür* müəyyən ölçüdən çox olan suya da deyilir. Misal üçün, deyirlər ki, bu su kürdür. Onda çimmək və ondan istifadə etmək olar [7, s.23].

E.Sevortyan türk dillərinin materialları əsasında kür sözünü "bol" (sulu) "qüvvətli", "sürətli", "sarsılmaz", "məğrur" mənasında olduğunu göstərmişdir [15,s.188]. Həqiqətdə də Kür Cənubi Qafqazda ən böyük və bol sulu çaydır. Bəzi İran mənbələrində Kür çayının adı "Kürüş" kimi qeyd olunmuşdur. "İrane-Bastane"nin müəllifi *Kür* sözünü *Kürüşün* sözü ilə bağlayır. E.ə.580-550-ci illərdə hakimiyyətdə olan yunanların *Kiroş* adlandırdığım *Kürüş-Bozork* qədim İranın görkəmli padşahlarından biri olmuşdur [3, s.18]. Göründüyü kimi, Kür çayının adı mənbələrdə müxtəlif cür qeydə alınmışdır. Bu ad bəzi yunan müəllifləri Kir, bəziləri Kor, İran mənbələrində Kiroş, erməni mənbələrində Kur, ərəb mənbələrində isə əl-Kürr kimi çəkilmişdir. Bunun səbəbi həmin dillərin özünəməxsus tələffüzü ilə bağlıdır.

Tədqiqatçının Kür sözü ilə bağlı iki qənaəti var: 1.Ptolomey və Strabonun Kür çayına verdikləri Kor və Kir adları yunan sözləridir.2. Müasir Azərbaycan dilində Kür çayının adı olan "kür" sözü isə Alban dilindəki "Kür" sözüdür. Bu söz Azərbaycan dilinə öz qədim əcdadları olan albanların dilindən keçmişdir" [3,s.79]. Kür çayının etimologiyası barədə ən geniş izah

A.Axundova məxsusdur "Qədim türk lüğəti"ndə isə "Kür" sözü "cəsur", "qorxmaz" mənalarında verilir [14, s.328].

Göyçə gölü – "Orada Alban ordularını yanına dəvət edib onlarla Göycə (Sevan) gölünün sahilinə gəlir" [9,s. 20]. Tarixşünaslıqda belə fikirlər var ki, gölün Göycə adlanması XII-XIII əsrlər aid edilə bilər. Əgər mənbənin yazılma tarixini nəzərə alsaq, deməli, əsər yazılan vaxt artıq göl bu adla tanınırmış. Elə bu faktın özü türklərin və azərbaycanlıların tarixini öyrənmək üçün əsərin təqdiminə nə qədər vacib olduğunu bir daha sübut edir. Məsələn, Q.Qeybullayev bu sözün izahını "Kitabi-Dədə Qorqud" eposuna istinad edərək "Gökcə tenqiz" kimi verir [11,s.110].

Urdun – "Oradan Urdun çayı, Hor və bir çox vilayət görünür" [9,s.173] Yaxud belə bir misal: "Urdun çayı ki, onun sularına xilaskarımızın xaçı salınıb, Qüds Şəhərindən şərqdə olub, ondan beş fərsəng aralıdır" [9,s.173]. Q.Qeybullayev Urdu toponiminin izahını belə vermişdir: " U r d u (Arsakda məntəqə adı) Türkcə *ordu* —xan yurdu, —xan düşərgəsi sözündəndir [12,s.144]. Deməli, belə məlum olur ki, Urdun çayı Albaniya torpağından xaricdə yerləşirmiş.1986- cı ildə çap olunan və 772 səhifədən ibarət olan Qısa Yəhudi Ensklopediyasının III tomunun 769 -cu səhifəsində Urdun haqqında belə məlumat verilmişdir: "*Urdun/Əl Urdun İordan* sözünün ərəb variantıdır. İordan / Əl Urdun çayı bulanıq sulu kiçik çaydır. Əl Urdun çayı İordaniyanı Qüdsdən ayırır və Ölü dənizə tökülür. Vatikan XXI əsrdə rəsmi olaraq bu yeri İsanın xaç suyuna çəkildiyi yer kimi qiymətləndirir. Rəvayətə görə bu çaya baş vuran kəs bir çox xəstəliklərdən qurtula bilər". Yekun olaraq deyə bilərik ki, müraciət etdiyimiz mənbədəki qədim Qafqaz Albaniyası ərazisinə daxil olan hidronimlərin bəzilərinin izahı inandırıcı olmasına baxmayaraq, bir çox qədim hidronimlərin dəqiq izahının verilməsi hələ də mübahisəli olaraq qalır. Məsələn, XV əsrin əvvəlində yazılmış "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri"adlı əsər, bakılı müəllif olan Əbdürrəşid əl-Bakuvinin yeganə məşhur əsəridir.Əsərin 35-ci səhifəsində vilayət kimi qeyd edilir:" *Urdun* – Ğutadan qərbdə yerləşən Şamın bir vilayətidir. Mərkəzi - Təbəriyədir. Onunla Beyt əl-Müqəddəsin arasında üç mil var. Orada Təbəriyə adlı üfunətli bir göl var. Çevrəsi üç günlük yoldur. Onu dağlar əhatə edir, suyunda da heyvan yaşamır. Buradan ismətli havarilər çıxıb. Bura, Yaqub Əleyhi Salamın, məskənidir. Yusif Sadiqin, - ona salamlar olsun! - quyusu buradadır" [18, s.35]

Ədəbiyyat siyahısı

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964, 568s.
2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, 328.
3. Axundov A. Torpağın köksündə tarixin izləri. Bakı: Gənclik,1983,

4. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Azərbaycan SSR EA, 2000, 255 .

5. Budaqov B.Ə. Qeubullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 452 s.
6. Bünyadov Z. Azərbaycan tarixi VII-IX əsrlərdə. Bakı, Azərnəşr, 1989, 336 s.
7. Dəmirçizadə Ə. 50 söz, Bakı: Gənclik, 1986. 102s.
8. Hacıyev T. Azərbaycan dilində qeyri-oğuz elementləri // türk dilinin quruluşu və tarixi, Bakı: ADU, 1983, 188 s.
9. Kalankatuklu M. Albaniya tarixi. Bakı: Elm, 1993, 269 s.
10. Qeybullayev Q. Qədim türklər və Ermənistan, Bakı: Azərnəşr, 1992, 140 s.
11. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı:1994, 248s
12. Qeybullayev Q. Qarabağ etnik və siyasi tarixinə dair. Bakı: Elm, 1990, 248s.
13. Гейбуллаев Г. Топонимия Азербайджана (Историко-этнографические исследования). Баку: Элм, 1986, с.198с.
14. Древнетюркский словарь. Л.: Наука, 1969, 677 с.
15. Севортян Э.В. Этимологический словаръ тюркских языков.
16. Страбон. География в 17-ти книгах. Перевод статья и комментарий А.Стратановского. М.: Наука, 1964, 941 стр.
17. Шопен И.И. Новые заметки на древней истории Кавказа и его обитателей. СПб:1866, 505 стр.
18. Йакут ал-Хамави. Му'джам ал-булдан (Сведения об Азербайджане) / пер. с араб. З.М. Буниятова и П.К. Жузе. – Баку, 1983.

Г.Мехтиева

«Оронимы и гидронимы в произведение историка ранних средних веков Мусы Каланкатуклу «История Албан»

Резюме

Статья называется «Оронимы и гидронимы в произведение историка ранних средних веков Мусы Каланкатуклу «История Албан» В истории тюркских народов произведение Мусы Каланкатуклу «История Албан» занимает особое место. В книге есть много оронимов и гидронимов. В статье исследуются оронимы и гидронимы тюркского происхождения, использованные на языке первоисточника. В данной статье дается подробная информация о переводе, издании и истории

исследования произведения «История Албан». В статье исследуются ономастические единицы- оронимы Кавказ, Авшакан, Улдузлу тепе, а также гидронимы Кура, Каспи (Хазар) Урдун. В Статье обосновывается актуальность темы, ставятся цели и решаются задачи. А также отмечается ее научная новизна, теоретическая и практическая значимость. Главная цель нашей статьи – сделать этимологически-лингвистический анализ оронимов и гидронимов. В статье исследуются пять оронимов и четыре гидронима. В заключении статьи обобщаются полученные научные выводы.

G.Mehdiyeva

"Oronyms and hydronyms in the work of the historian of the early Middle Ages Moses Kalankatuklu "History of Albanians".

Summary

The article is named "Oronyms and hydronyms in the work of the historian of the early Middle Ages Moses Kalankatuklu "History of Albanians". In the history of the Turkic peoples, the work "History of Albanians" by Moses Kalankatuklu occupies a special place. There are a lot of oronyms and hydronyms in this book. The author studies the oronyms and hydronyms of Turkic origin, used in the language of the original source. This article provides detailed information about the translation, publication and research history of the work "History of Albanians". In the article, there are investigated onomastic units, i.e. oronyms Kavkaz, Avshakan, Ulduzlu tepe, and hydronyms Kura, Caspi (Khazar), Urdun. The article proves the relevance of the topic, sets goals and fulfils the given tasks. The author also notes its scientific novelty, theoretical and practical significance. The main goal of our article is to make an etymological and linguistic analysis of oronyms and hydronyms. The article explores five oronyms and four hydronyms. The conclusion of the article summarizes the results of the scientific research.

Rəyçi: Dürdanə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ÇINARƏ QULIYEVA,
İRADƏ MƏMMƏDOVA
Bakı Mühəndislik Universiteti,
chquliyeva.beu@edu.az, imemmedova@beu.edu.az

THE WAY EDUCATIONAL TECHNOLOGY AFFECTS TEACHING AND LEARNING

Key words: technology, teachers, English, language, learning
Açar sözlər: texnologiya, müəllimlər, ingilis dili, öyrənmə
Ключевые слова: технология, учителя, английский, язык, обучение

Teaching the same or similar lesson plans for many years can be challenging to involve students with enthusiasm into learning process during lessons. Applying interactive presentation tools, video clips, graphics and other audio visual elements can easily keep students actively engaged in lessons, as well as a means to maintain freshness in lessons. Using iPads during class, integrating tweets during presentations, and teaching students using smart TVs can yield outstanding results. Tablets, apps, video and interactive whiteboards can not only are learning tools for students, but they can also be additional teaching tools for educators. The research shows that many students are more stimulated and are apt to learn when they can interact with hands-on learning tools, which various forms of educational technology provide [2, p. 125]. There are many ways that integrating technology into the classroom can help students learn at a rate that is comfortable to them, and that allows them to retain information. For example, in-classroom lessons or activities on laptops or tablets allow students to read directions, process information and complete work at their own pace. This also helps free up the teacher's time so they can give students who may need extra guidance or assistance the attention they require. Teachers can also create class blogs where they post assignments. Projectors are a basic way to introduce technology to students in the classroom. This enables students to see a larger version of what is on the laptop screen. A SMART board is an interactive white board that allows the teacher to project an image from a laptop to the front of the room. SMART boards can store lessons and digitally enhance plain templates into customized learning tools. SMART Table represents a relatively new technology in the form of a multi-touch interactive learning centre that is designed for effective and efficient use for primary pupils. Some educators are lucky enough to have individual PCs for every student in the class. When every student has his or her own

laptop, learning takes on a whole different dynamic. For example, a teacher can allow students to follow along during a writing lesson on Word programs. In addition, students can research and explore on their own. PCs can store a student's work more efficiently than folders. Bulky encyclopedias and dictionaries are unnecessary if every student can access the Internet on his or her own time using a personal computer. A paperless world in the classroom can be organized as well as environmentally friendly [3, p.355].

Technology has been exponentially beneficial for language learning and development as well. Thanks to technology it is now possible to make language courses available to the whole world bridging the gap in student-teacher language communication, which provides the innovative developments that led to a better learning process for all.

The systematic application of computers in the teaching and learning of foreign languages (FL T/FLL) has started since the 1960s, but it was the introduction of the personal computer (PC) in the late 1970s that made computers accessible to a wider audience. [1, p.210] By the mid-1980s computers were in widespread use in American and European schools and the acronym CALL had been coined. Today, experts in the field prefer to talk about information and communication technology (ICT) and FLT/FLL rather than CALL, emphasizing the important role that computers play in enabling teachers and students of languages to engage in world-wide exchanges and communication. ICT stands for Information Communication Technology. ICT refers to the technology that access to information. The computing industry includes Internet, computer hardware and software. ICT is not only has great impact on education but also provided some bad impact to the educators.

The advantages of using new technology in language classrooms can be interpreted in light of the changing goals of language education and the shifting conditions in our postindustrial society. New technology was part of the social fabric at the turn of the century. So while we taught foreign language students to write essays and read magazines a generation ago, we must now teach them to write e-mail and conduct online research. Hence, integrating technology into language classrooms is inevitable.

Educational apps, search engines, videos, portable technologies and interactive activities provide students with a nearly endless supply of information and resources for language learning. Technology in language classroom as a tool establishes meaningful projects to engage students in critical thinking and problem solving as well.

Educational technology does not pose any of the barriers of traditional teaching methods, such as lecturing, which is typically structured toward a specific learning style. Put simply, while one student may extract

understanding from a well-written article online, another may get the same information from a YouTube video. Furthermore, instead of buying the books for exercise, students can get the question from the Internet. As not every school has the resources and budget to send its students on field trips related to the course of study, the students' education can suffer in this case. However, technology makes it possible for students to use the Internet to virtually attend Web seminars put on by museums and other educational institutions. NASA, for example, offers a program that allows students to talk to astronauts in space.

Чарльз Пирс для раскрытия сущности знака в качестве основного элемента видел его прагматичную основу. То есть по мнению философа, какой-либо знак должен различаться не по своим физическим свойствам, а по функции и применению в обществе. И поэтому, по мнению Пирса, и синтаксис, и семантика в конечном итоге служат выполнению основной функции знака. Иными словами, *синтаксис*, служащий построению определенных конструкций из знаков, или же высказывающая отношение знака к объекту *семантика* обеспечивают функционирование функции коммуникации между людьми. Ученый-философ пойдя в этих своих взглядах еще дальше, полагает, что само осознание представляет собой процесс последовательного выстраивания знаками реальности. А эта

последовательность объясняется отсутствием изоляции субъекта, участвующего в процессе осознания и осуществлением данных процессов между теми или иными членами общества. А сам процесс осознания выстраивается на интерпретации знаков.

Однако необходимо отметить и то, что процесс привнесения прагматики в лингвистику был связан с продвижением в исследованиях речевых актов. Так, в указанный период логические и философские подходы к процессу речи, работы Дж.Остина, З.Вендлера, П.Грайса и других ученых сыграли важную роль и в формировании прагматического направления и в лингвистике.

В лингвистике возникли такие термины как лингвистическая прагматика или же *прагмалингвистика.* Отметим и то, что точно вычерченных границ лингвистической прагматики не существует, лингвистическая прагматика просто охватывает отношения между субъектом (говорящим), адресатом (лицом, которому адресована речь говорящего) и условий коммуникации, между говорящим и слущающим.

В русской лингвистике прагматика принимается в качестве отдельной дисциплины и ей дается следующее объяснение: «Прагматика в лингвистике - это одна из дисциплин лингвистики, которая изучает применение и работу знаков языка в соответствии с отношениями между пользователем этих знаков и самим знаком» (4, стр.217). Прагматика в лингвистике превратила в свой объект исследования также возникновение лингвистических знаков, зависимость каждого субъекта, участвующего в речевом акте и пр. А основной задачей, стоящей перед данной дисциплиной, является выявление лексического значения различных языковых компонентов в различных языковых средах. Иными словами, изучает применение этих лингвистических единиц или же компонентов в процессе речи в различных условиях.

Рассмотрим также данное в азербайджанской лингвистической литературе прагматике определение. В изданном под авторством Адилова М.И., Вердиевой З.Н., Агаевой Ф.М. словаре «Толковый словарь лингвистических терминов» авторы прагматику объясняют следующим образом: «Прагматика – это лингвистическое исследование, заключающееся в изучении связей между знаками (единицами) языка и пользователями этих знаков» (1, стр.219).

В азербайджанской лингвистике прагматика была изучена профессором Ф.Вейселли. Профессор, анализируя научное наследие и взгляды о семиотике вышеупомянутого амеркианского философа Чарльза Морриса и Ф.Барта, представил их научные соображения о прагматике. Кроме того, Ф.Вейселли в книге «Семиотика» по мере необходимости коснулся и проблемы прагматики в лингвистике и

выдвинул свои соображения. Говоря об аспектах знаков, профессор подчеркивает, что «третья связь – это отношение знака к использующему его человеку, обществу, коллективу и пр., то есть того, к кому и чему направлено слово, предложение, выражение. Например, выступающий перед хлопкоробом оратор должен принимать во внимание, что выступает не перед производителями электронных калькуляторов, если он скажет «каждый из хлопковых кустов несет два бита информации», конечно же, хлопкоробы его не поймут. Данный аспект называют **прагматикой**» (2, стр.316).

В указанной книге Ф.Вейселли, касаясь объекта исследования прагматики, пишет: «Связи между объектами и предметами, отображенными знаками, изучает сигматика, связи между знаками и их пользователями – прагматика» (2, стр.318).

В некоторой литературе *прагмалингвистика* делится на две основные части: функциональная прагмалингвистика и скрытая прагмалингвистика. Функциональная прагмалингвистика изучает речь с позиций её создателя. При этом принимается в расчет также и то, произносящий указанную речь осознанно и целенаправленно пользуется лингвистическими средствами.

Скрытая прагмалингвстика же изучает автоматический выбор грамматических и речевых знаков произносящим речь субъектом. При этом неоднократное повторение речевых сигналов носит уже механический характер и происходит неосознанно. Известно, что человеческая речь строится из бесконечных речевых действий. Во время реализации акта речи происходит передача отправляющей стороной информации принимающей стороне. Сущность всего речевого акта заключается в этом – обмен данных, обмен информации и т.д. И они, в свою очередь, делают возможным коммуникативную деятельность.

В объект исследования лингвистической прагматики входят ряд вопросов, которые можно сгруппировать, преимущественно, следующим образом: изучение функций выполняющего акт речи; изучение функций стороны, которому адресован речевой акт; изучение их взаимосвязи; изучение их связи в процессе общения; а также изучение самого процесса общения и т.д.

Рассмотрим каждую из этих задач по отдельности:

В лингвистической прагматике субъект речи изучается преимущественно со следующих аспектов:

1. Явные и скрытые цели речи. Это в лингвистической прагматике называют «иллокутивные силы»... Сюда включаются передача определенной информации, высказывание мысли, задавание

вопроса, дача приказа, выражение желания, просьбы, дача совета, обещания, извинение, жалоба и прочие подобные поведения.

2. Речевой опыт и виды речевого поведения;

3. Правила общения. Эти правила опираются, в основном, на принцип сотрудничества. А эти принципы, в свою очередь, направляют речевое общение сообразно направлению беседы и предполагаемой цели. Эти правила регулируют также и следующее:

- *Нормирование передаваемой информации (определение количества);*
- *Уверенность в точности передаваемой информации (обеспечение качества);*
- *Релевантность (соответствие) передаваемой информации теме беседы (обеспечение отношения);*
- *Ясное, четкое и последовательное выстраивание передаваемой информации (обеспечение речевого поведения);*

4. Умение передающего информацию или говорящего строить речь и беседу. Сюда включается и прагматическое значение высказанной мысли: двусмысленные слова, намеки, реплики, обвинения и пр.

5. Референция передающего информацию. Соответствие лингвистических единиц предметам реальности.

6. Прагматические пресуппозиции. При этом происходит оценка передающим информацию предполагаемого адресата информации. То есть определяет его общий фонд знаний, информированность, интересы, взгляды, психологическое состояние и, самое главное, способность понимать.

7. Отношение передающего информацию к передаваемой информации. Сюда входят:

- *Оценка содержания информации. При этом передающий информацию должен определить истинность или ложность, многозначность, несерьезность и т. п. данной информации.*
- *Эмпатия – сопереживание горю и прочувствование состояния субъекта, о котором говорится.*
- *Выведение на передний план наиболее значимого среди передаваемой информации и пр.*

В лингвистической прагматике *субъект, которому адресована речь,* изучается преимущественно с этих аспектов:

1. Интерпретация речи. Выявление из непосредственного значения слова скрытого и иносказательного значений. При этом должны приниматься во внимание и контекст, прагматичное состояние и пресуппозиции. Цель передающего информацию также должна быть все время в центре внимания. Так как передающий информацию порой

может выйти за рамки этих целей. Например, может не следовать релевантности, или же может передать ненужную или уже известную информацию и т.д.

2. Воздействие передаваемой информации на адресата. В прагматике это называют также **перлокутивным эффектом**. Сюда входят:

- *Повышение информированности адресата;*
- *Изменение эмоционального состояния, взглядов и оценочной способности адресата;*
- *Воздействие на его действия;*
- *Эстетическое воздействие и т.д.*

3. Речевые реакции на получаемую информацию. При этом эти реакции могут как непосредственными, так и косвенными. Избегание от ответа на заданный вопрос также относится к подобным реакциям.

В лингвистической прагматике *отношение между участниками коммуникации* изучается премущественно в следующем аспекте:

1. Формы речевого общения. Сюда включаются диалог, обоюдный разговор, полемика, даже словесная перепалка и пр.

2. Соответствие речи правилам общественного этикета. Сюда включаются формы обращения, манера и форма общения.

3. Отношения или же связи между участниками коммуникации в тех или иных речевых ситуациях. Сюда включаются просьба, требование, приказ и др. формы

Наконец, в лингвистической прагматике *формы общения* изучаются в следующих аспектах:

1. Интерпретация дейктических знаков. Сюда включается и интерпретация индексального компонента значений слова. Автор монументальных работ о семиотике в азербайджанской лингвистике Ф.Вейселли так объясняет дейктические знаки: «Ко второму виду мотивационных знаков относятся указательные (лат. остенсив) или же дейктические знаки. В этих знаках процесс опирается не в той или иной степени ясному сходству между сигнификантом и сигнификантом, а фиизической близости. Эта связь основывается на след или же отображение указываемого предмета и явления, рождается из связанного с этим предметом и событием понятия. В качестве примера можно указать подпись, отпечаток пальца людей, местоимения /я/ и /ты/ в диалоге, флаг, указывающий направление ветра. Предмет, который запечатлен в фильме или же на фото, отражает близость к стоящему перед камерой объекту. Направление и удаленность указываемых пальцем объектов и предметов определяется внутренним

согласием и зависит от движения пальца. Такие слова, как /сюда/, /туда/, /я/, /ты/ и пр. выполняют функцию указания» (2, стр.318)

2. Воздействие на тематику и форму коммуникации речевой ситуации. Для большей наглядности можно показать формы общения на банкетах, официальных встречах, государственных предприятиях, а также медицинских или же адвокатских заведениях.

Заключение

В статье исследуется термин прагматика, место прагматики в таких науках как семиотика и языкознание. В первую очередь направляется внимание на историю создания этого термина и раскрывает его место и значение в языкознании. В следствии исследования проясняется что, «прагматика» и в лингвистике, и в семиотике используется как равноправный термин. В семиотике прагматика считается разделом этой науки и изучает отношение к субъектам знаков, которые образуются и интерпретируются в свою очередь субъектами. Если в семиотике изучаются знаки в целом, а в лингвистике – конкретно лингвистические знаки.

Литература

1. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri lüğəti. Bakı: Maarif, 1989, 358
2. Veysəlli F. Semiotika. Studia philologica. IV. Bakı: Mütərcim, 2010, 336 s.
3. Энциклопедия эпистемологии и философии науки. М.: «Канон+», РО ОИ «Реабилитация». И.Т. Касавин. 2009, 1248с.
4. Ярцева В. Н. Лингвистический энциклопедический словарь, Ин-т языкознания АН СССР. — М.: Сов. энцикл., 1990. — 682 с.

S.Rəhimova

Praqmalinqvistika: yaranmasi və mahiyyətinə dair

Xülasə

Məqalədə praqmatika termini və onun daşıdığı məna yükü tədqiq olunur. Bəllidir ki, semiotikadan başqa, praqmatika termini həm də dilçiliyin tədqiqat obyektinə daxil olur. Praqmatikanın hər iki elm sahəsində aktivliyi onunla izah oluna bilər ki, istər dilçilik – linqvistika, istər də semiotika

işarələri öyrənməyə yönəlmiş elm sahələridir, hər ikisinin əsas tədqiqat obyekti işarələr sistemi hesab edilir. Semiotikada ümumiyyətlə işarələr, dilçilikdə isə konkret olaraq dil işarələri tədqiq olunur.

Məqalədə görsədilir ki praqmatika anlayışı elmə ilk dəfə məhz semiotikanın termini kimi gətirilib. Praqmatika termininin tarixi acıqlaması verilir, geyd edilir ki ötən əsrin 30-cu illərinin sonunda amerikan filosofu, semiotika elminin banilərindən biri sayılan Çarlz Vilyam Morris (1901-1979) semiotikanın bir sahəsi kimi "praqmatika" terminini elmə gətirmişdir. Dilçiliyə isə praqmatika termini Çarlz Sanders Pirs (1839-1914) tərəfindən gətirilmişdir. Amma onu da qeyd etmək lazımdır ki, praqmatikanın dilçiliyə gətirilməsi prosesi nitq aktlarının tədqiqatlarındakı irəliləyişlə bağlı olmuşdur. Azərbaycan dilçilik ədəbiyyatında praqmatikaya verilən tərifə nəzər yetirilmişdi. Azərbaycan dilçiliyində praqmatika professor F.Veysəlli tərəfindən tədqiq edilməsi vurğulanmışdı.

S.Ragimova

About the pragmatics in linguistics

Summary

The article explores the term pragmatics, the place of pragmatics in such sciences as semiotics and linguistics. The author first of all directs attention to the history of the creation of this term and reveals its place and significance in linguistics. The author makes it clear that "pragmatics" is used in both linguistics and semiotics as an equal term. In semiotics, pragmatics is considered a division of this science and studies the relation to the subjects of signs that are formed and interpreted in turn by subjects. If semiotics studies signs in general, in linguistics - specifically linguistic signs.

In the article, the term is studied pragmatically, pragmatics in the same sciences as semiotics and linguistics. In the first part, it focuses on the termination of the term, and explains its place and significance in language. The research is described in "pragmatics" and in linguistics, and in semiotics it is used as a term. In the semiotics of pragmatics, this chapter is counted as the science of science and it deals with the subject of the subject, which are formed and interpreted into their own subject. If in semiiotics they are traced to the tongue, and in linguistics - specifically linguistic labels.

Rəyçi: Sevda Rzayeva
Fiologiya üzrə fəlsəfə doktoru, dosent

SƏBİNƏ İSMAYILOVA
Bakı Dövlət Universiteti
sabina.ismayilova.88@gmail.com

"-MAN" VƏ "-WOMAN" SÖZLƏRİ İLƏ DÜZƏLƏN İXTİSAS ADLARI

Açar sözlər: dil, ixtisas, terminologiya, sözdüzəldici, yarımşəkilçi
Key words: language, profession, terminology, word-building, semi-suffix
Ключевые слова: язык, профессия, терминология, словообразование, полу-суффикс

Müxtəlifsistemli dillər olan ingilis və Azərbaycan dillərində müəyyən mənalı ixtisas adlarını ifadə etmək üçün söz köklərinə qoşulan "-man" və "-woman" sözdüzəldici elementlərinə də təsadüf edirik. Təhlil etdiyimiz ixtisas adlarının bu şəkilçilərlə düzəldilməsi çox maraqlıdır. Belə ki, ingilis dilində olan bu yarımşəkilçilər müxtəlif söz köklərinə qoşularaq müəyyən peşə sahəsində çalışan adamları bildirir.

İxtisas adlarının bir qrupu ingilis dilinə məxsus olan "-man" və "-woman" yarımşəkilçiləri (ingilis dilində "semi-suffix" adlanır) vasitəsilə yaranan və beynəlxalq mövqedə işlənən ixtisas adlarıdır. "-Man" və "-woman" yarımşəkilçiləri ingilis dilinin leksik tərkibinin ixtisas adları ilə zənginləşməsində xüsusi rol oynayır. Məsələn, *airman, horseman, postman, postwoman, policeman, policewoman, liftman, wireman, woodman, yachtsman, weatherman* və s. Azərbaycan dilində də belə beynəlmiləl səciyyəli ixtisas adları istifadə edilir. Məsələn, *teleman, şoumen, biznesmen, sportsmen, supermen, polismən, cazmen, barmen, kameraman* və bir çox ingilis dilinə məxsus ixtisas adları Azərbaycan dilində də istifadə edilir. Məsələn: *Space kanalı 20-30 yaş arası təcrübəli kameraman axtardığını elan etdi. Bir sıra festivalların iştirakçısı olmuş cazmen Emil İbrahim caz, klassik, latın və xalq musiqisinin sintezini bacaran sənətçi kimi tanınırdı. Tanınmış azərbaycanlı şoumen Murad Arif Stokholmda nişanladı.* və s.

A.İ.Smirnitski «İngilis dilinin leksikologiyası» adlı əsərində "-man" və "-woman" sözləri ilə düzələn ixtisas adlarının adını çəkir və bəzi misallar da verir: *sportsman (idmançı), shopman (satıcı), tradesman (tacir)* və s. (3, 57).

İ.V.Arnold «The English Word» əsərində "-man" və "-woman" tipli ixtisas adlarından ayrıca danışmır. O, mürəkkəb sözlərdən danışanda ixtisas adlarına da toxunur və onlara aid misallar da verir (5, 110).

R.Z.Qinzburq da «A Course in Modern English Lexicology» adlı kitabında İ.V.Arnold kimi ixtisas adları haqqında ətraflı danışmır. O da mürəkkəb sözlərin yaranmasından bəhs edərkən onun bir neçə yaranma

yollarını göstərir, o cümlədən, peşə adlarının düzəlməsinə kömək edən amilləri də qeyd edir: *shoemaker (çəkməçi), watchman (gözətçi), watchmaker (saatsaz)* və s. (6, 152).

H.Marçand da eyni ilə yuxarıda adı çəkilən leksikoloqların fikirləri ilə şərikdir. O, sözləri quruluşuna görə təhlil edərkən, bir sıra ixtisas adlarını sadə sözlər qrupunda (*nurse (dayə), sergeant (zabit), soldier (əsgər), cook (aşbaz*) və s.), bəzilərini isə düzəltmə sözlər qrupunda verir ki, onlar da morfoloji yolla sözyaratma üsuluna aiddir: *-er//-or, -ist, -ion* və s. Məsələn, *fighter (güləşçi), coaler (şaxtaçı), novelist (roman yazan), harpist (arfaçı), musician (musiqiçi), doctor (həkim) və s.* O, bəzi ixtisas adlarını isə mürəkkəb sözlərə daxil edir. Onların əksəriyyəti "-man" və "-woman" sözləri ilə birləşir. Məsələn, *airman (təyyarəçi), cameraman (kinooperator), draftsman (çertyocçu), pressman (jurnalist), airwoman (təyyarəçi qadın), forewoman (briqadir) və s.* bu qəbildəndir (8,11).

Şəkilçiləri mənşəyinə görə klassifikasiya edən linqvist H.Hulban "-man" şəkilçisini german mənşəli şəkilçilər sırasında qeyd edir (7).

Azərbaycan dilində bunların ekvivalenti olan bir sıra sözdüzəldici şəkilçilər vardır ki, onlar da -çı, -çi, -çu, -çü sözdüzəldici şəkilçilərinə uyğun gəlir. Məsələn, *airman* – təyyarəçi*, boatman* – qayıqçı, *ferryman* – bərəçi*, tankman* – tankçı*, saleswoman* – satıcı qadın*, scrubwoman* – xidmətçi qadın *və s. "The airman* was terrified as soon as he notices that the plane was technically not all right."– /*Təyyarəçi* təyyarənin texniki cəhətdən nasaz olduğunu bilən kimi dəhşətə gəldi./

Bu elementlər Azərbaycan dilinə -ist sözdüzəldici şəkilçi vasitəsilə də tərcümə olunur. Bu, təbii ki, alınma sözlərdə təsadüf olunur. Məsələn, *cliffsman – cragsman* = alpinist*, keyman* = telegrafist*, pressman* = jurnalist*, radioman* = radist və s.

Bəzən ingilis dilindəki bu yarımşəkilçilərlə düzələn ixtisas adları Azərbaycan dilinə heç bir sözdüzəldici şəkilçi əlavə etmədən tərcümə olunur. Məsələn, *postman (*poçtalyon*), hangman (*cəllad*), herdsman* (çoban*), stableman* (mehtər)*, chairman (*sədr*), chairwoman (* qadın sədr*) v*ə s. "This *postman* used to bring bad news during the war."– /Bu *poçtalyon* müharibə illərində bəd xəbərlər gətirərdi./

Müasir ingilis dilinin ədəbi dili lüğət tərkibinin zənginləşməsində "*-man" və "-woman"* yarımşəkilçilərin ixtisas adlarına birləşərək semantik dəyişmələrə uğramasının, yeni məna kəsb etməsinin mühüm rolu vardır. Bunlar ingilis dilinin əsas lüğət fondunda işlənmə intensivliyini xeyli artırmışdır. Bu yarımşəkilçilərin ixtisas adlarına birləşərək yeni məna yaratması cəmiyyətdə baş verən sosial, iqtisadi, mədəni inkişafla, habelə elmi-texniki tərəqqi ilə bağlıdır. Belə ixtisas adları, yuxarıda dediyimiz kimi,

beynəlmiləl səciyyəlidir. Məsələn, *barman* – barmen, *businessman* – biznesmen və s.

İngilis dilində "-man" və "-woman" yarımşəkilçiləri ilə düzələn ixtisas adları Azərbaycan dilinə *-an, -ən, -yan,-yən* şəkilçiləri ilə də tərcümə olunur. Məsələn, *bowman* – oxatan, *humberman* – ağackəsən, *dragsman* – kömürdaşıyan, *washerwoman* – paltaryuyan, *fireman* – yanğınsöndürən və s. "*The congressman* did not know how to start the congress." – */Konqresmən* bilmirdi ki, konqresi necə başlasın/. "If the *fireman* came a minute later, there would surely not be left anything of the house." – /Əgər *yanğınsöndürən* bir dəqiqə də gec gəlsə idi, evdən şübhəsiz ki, əsər-əlamət qalmazdı/.

Müasir ingilis dilində «man» və «woman» tipli elementlərlə düzələn ixtisas adlarının sinonimliyini başqa vasitələrlə də vermək olar. Məsələn, onlara – sinonim olan həmin vasitələrə bəzi sözdüzəldici şəkilçilər və ayrı-ayrı sözlər daxildir. «Man» və «woman» yarımşəkilçiləri kimi *–er* şəkilçisi də çox vaxt söz kökündə göstərilən fəaliyyət növü ilə məşğul olan adamı bildirir. Məsələn*, oilman – oiler* = neftçi, *hammerman – hammer* = çəkic vuran fəhlə*, signalman – signaller* = siqnalçı, işarə verən*, workman – worker* = fəhlə*, huntsman – hunter* = ovçu*, tollman – toller* = gömrükçü, rüsum yığan və s. Müasir ingilis dilində *–ee, -ist* kimi şəkilçilər də bəzi hallarda «man» və «woman» elementli ixtisas adlarına sinonim olur. Məsələn*, bargee – bargeman* = qayıqçı*, motorist – motorman* = sürücü *və s.*

"-Man" və "-woman" elementli ixtisas adlarına nəinki şəkilçilər, həm də leksik mənalı sözlər də sinonim ola bilir. Məsələn, «person - şəxs» sözünü götürək. İ.V.Arnold qeyd edir ki, ümumiləşmə və abstraktlaşma prosesi nəticəsində 70-ci illərdə «person» sözü –man yarımşəkilçisi ilə düzələn ixtisas adlarına sinonim olmuşdu. Daha doğrusu, əsasən –man yarımşəkilçisi əvəzinə «person» sözü də işlədilirdi. Məsələn, *chairperson – chairman* (sədr), *police person – policeman* (polis), *salesperson – salesman* (satıcı) və s. (5, 63) Bunun bir səbəbi də aydındır: cins kateqoriyası. «Person» sözü həm kişi, həm də qadın cinsi üçün eynilik təşkil edir. Məsələn, «chairperson» həm «chairman», həm də «chairwoman» ixtisas adları üçün asanlıqla işlənə bilərdi, amma bu məfhum özünü doğrultmadığından çox tezliklə dildən çıxdı.

Başqa bir sinonim söz «maid» - qız, qadın və qızlar ilə bağlı ixtisas adlarına qoşulurdu. Bu söz bir sıra isimlərə qoşularaq «woman» elementli ixtisas adları ilə sinonim təşkil edir. Məsələn, *milkmaid - milkwoman (*sağıcı), *barmaid – barwoman* (bufetçi), *dairymaid – dairywoman* (fermada işləyən qadın) və s. Lakin qeyd etməliyik ki, birləşmələrdə üstünlük «woman» elementli ixtisas adlarına verilir, çünki «maid» sözü əsasən, cavan qadın, qızlar üçün nəzərdə tutulur.

"-Man" və "-woman" elementləri aşağıdakı nitq hissələrinə birləşirlər:

1) ismə birləşənlər: *waterman* (avarçəkən), *bagman* (tacir), *fireman* (ocaqçı), *coachman* (faytonçu), *toyman* (oyuncaq düzəldən usta), *oilman* (neftçi), *nightman* (gecə gözətçisi) və s. Məsələn: He gave you some hot idea of *a coachman* dressed up for the occasion (S.Maugham, The Moon And Sixpence, səh.38) – O, bu vəziyyət üçün xüsusilə geyinmiş faytonçunu sənin yadına saldı. He looked more than ever like a prosperous *bagman (*S.Maugham, The Moon And Sixpence, səh.120) – O, hər şeydən əvvəl varlı bir *tacirə* oxşayırdı.

2) fellə birləşənlər: *watchman* (gözətçi), *hangman* (cəllad), *hold up man* (soyğunçu), *stitchman* (oxatan), *scrubman* (xidmətçi qadın), *tire woman* (qarderobçu), *washwoman* (paltaryuyan qadın) və s.

"-Man" və "-woman" elementləri daha çox isimlərə qoşulur və bu zaman sözün əsasında ifadə olunmuş əşya, predmet, alət və s. ilə bağlı şəkilçini bildirir. Bunu misallardan da görmək olar: *woodman* (meşəbəyi), *stableman* (mehtər), *roadman* (yol işçisi), *taximan* (taksi sürücüsü), *airwoman* (təyyarəçi qadın) və s.

Fellərlə işlənən "-man" və "-woman" elementli birləşmələr isə sözün əsasında ifadə olunmuş hərəkətlə bağlı, həmin işi görən adama işarə edir. Məsələn, *washwoman* ixtisas adı *wash* (yumaq) felindən və *woman (washwoman)* elementindən yaranaraq ingilis dilində «paltaryuyan» kimi tərcümə edilir.

"-Man" və "-woman" yarımşəkilçilərinin öyrənilməsinin elmi və praktiki əhəmiyyəti vardır. Belə ki, yeni-yeni fəaliyyət növlərinin meydana gəlməsi, texnikanın inkişafı və bir sıra başqa yeniliklər ilə əlaqədar olaraq, həmin sahələrdə çalışan peşə adamlarını adlandırmaq lazım gəlir. Belə ixtisas adlarının əksəriyyəti də məhz bu məqsədlə yaranır və ümumişlək sözlər kimi dilin lüğət tərkibinə daxil olurlar. Məsələn, *airman – təyyarəçi, cameraman – kinooperator, craftsman – usta, oilman – neftçi, pressman – jurnalist v*ə s. bu kimi sözlər bu qəbildəndir.

Ədəbiyyat:

1. Hacıyeva Ə.H. English Azerbaijan phraseological dictionary, Bakı, 2006
2. Виноградов В.В. Основные типы лексических значений слова // Виноградов В.В. Лексикология и лексикография, Избранные труды, М., 1977.
3. Смирнитский А.И. Лексикология английского языка, М., 1956
4. Adams, Valerie, Introduction to Modern English Word-Formation (English Language Series 7), London: Longman, 1973

5.Arnold I.V. The English Word, M., 1986
6.Ginsburg R. A Course in Modern English Lexicology, M., 1979
7.Hulban, H., Syntheses in English Morphology, ed. Spanda, Iaşi, 2001.
8.Marchand H. Studies in Syntax and Word –Formation, Munich, 1974
9.http://speakspeak.com/resources/vocabulary-elementary-pre-intermediate/list-of-male-and-female-jobs-positions
10. http://www.vocabulary.cl/Basic/Professions.htm
11. https://7esl.com/jobs-and-occupations-vocabulary/
12. https://www.niftyword.com/prefix-suffix-derived/woman/

С.Исмаилова

Названия профессий, образующиеся с помощью слов «woman» и «man».

Резюме

Данная статья посвящена изучению названий профессий, образующихся с помощью слов «woman» и «man» в современном английском языке. Здесь анализируются научно-исследовательские статьи как отечественных, так и зарубежных учёных, представляющие разные грамматические школы. Некоторые группы наименований специальностей образуются с помощью морфем «-man» и «-woman», так называемый «полу-суффикс» на английском языке. В обогащении лексического состава названий специальностей английского языка особую роль играют морфемы «-man» и «-woman». В азербайджанском языке тоже употребляются такие международные наименования специальностей. Создание новых слов с помощью этих морфем связано с социально-экономическим, культурным развитием, а также с научно-техническим прогрессом. Изучение этих названий профессий, образующихся с помощью слов «woman» и «man» имеет научно-практическое значение. В связи с развитием техники и некоторых новых сфер промышленности и экономики образуются новые виды деятельности, где необходимо как-то называть работающих в этих сферах людей. Большинство таких названий образуются именно для этих целей, и они входят в словарный состав языка как обще-употребительные слова.

Представленное исследование и полученные результаты могут быть полезны студентам для углублённого типологического изучения наименований профессий в современном азербайджанском и английском языках.

S. Ismayilova

The names of professions formed with the words "woman" and "man".

Summary

This article is devoted to the historical investigation of the names of professions in modern English and Azerbaijani languages. Here are investigated scientific-research articles as our, so foreign scientists, who represented various grammar schools. Some groups of the words of professions are formed with the help of the morphemes "-man" and "-woman", the so-called "semi-suffix" in English. The morphemes "-man" and "-woman" play a special role in the enrichment of the lexical system of the English language with the words of professions. Such international names of professions are also used in the Azerbaijani language. The formation of new words with the help of these semi-suffixes is closely related to social, economic, cultural development, as well as scientific and technological progress in society. The study of these names of professions formed with the words "woman" and "man" has a scientific and practical significance. It is worth mentioning that in connection with the development of technology and some areas, new types of activities are emerging in which it is necessary to name working people in these fields. Most of these names are formed precisely for these purposes and enter the vocabulary of the language as commonly-used words.

Represented investigation and observed results would be useful for the students to deal with the names of jobs and professions.

Rəyçi: Abbas Abbasov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NOBAHAR ƏZİZOVA
ADU
bahar3628@gmail.com

TƏLİMDƏ MOTİVASIYANIN YARADILMASI YOLLARI

Açar sözlər: motivasiya, daxili, xarici, intensiv, faktor, komponent.
Key words: motivation, internal, external, intensive, factor, component.
Ключевые слова: мотивация, внутренный, внещный, интенсивный, фактор, компонент.

Motivasiya öyrənənləri fəallığa sövq edən və onun istiqamətini müəyyən edən amillər sistemidir. Təlim motivasiyası öyrənənlərin bəzi ehtiyaclarını qarşılamaq üçün mövcud olan daxili və xarici səbəblərin toplusudur.Təlim motivasiyası təlimin səmərəliliyinə təsir göstərən amildir. Təlimdə motivasiya prosesi bir sıra alimlər tərəfindən müxtəlif dövrlərdə tədqiq edilmişdir. Müxtəlif alimlərin apardıqları tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, öyrənənlərin nəaliyyət qazanmalarında motivasiyanın böyük rolu vardır. Motivasiya müəyyən məqsədə nail olmaq üçün özünü və başqalarını fəaliyyətin icrasına vadar etmə, sövqetmə prosesaidir[3]. Motivasiyanı fəaliyyəti tənzim edən psixi proses kimi qəbul edənlər də vardır və onlardan biri A.B.Orlovdur [4]. Markovun fikrincə, təlim motivasiyası təlim fəaliyyətinin, ayrı- ayrı tələblərinə doğru öyrənənlərin aldığı istiqamətdir və bu öyrənənlərin həmin fəaliyyətə olan daxili münasibəti ilə birbaşa bağlıdır [5].

Dünyada baş verən dəyişikliklər təhsilin də qarşısında bir sira tələblər qoyur. Belə ki, təhsilin məzmunu, istifadə olunan üsullar dəyişməli, müasir tələblərə cavab verməlidir. Öyrənənlər təlimdə passiv iştirak etməyə qane olmur, araşdırmaq, yaratmaq istəyirlər. Müəllim şagirdin maraq və tələbatını ön plana çəkməli, bilik və bacarıqlarını nəzərə almalı, motivasiyaya şərait yaratmalıdır. Pedaqoq elə bir təlim növü seçməlidir ki, şagirdlərə biliklər hazır ötürülməsin, onlar qarşıya çıxan problemləri müstəqil həll edə bilsinlər. Bütün bunlara nail olmaq üçün müəllim fəal təlim üsullarından yararlanmalıdır. Müasir təhsil daha çox assosiasiyalı, metaidraki və tənqidi düşünmə kimi yeni təlim texnikalarına üstünlük verir. Təcrübə göstərir ki, fəal təlim üsulları şagirdlərdə maraq oyadır, onlarda motivasiya yaradır. Hazırda təlimdə əsas məqsəd hafizə deyil, təfəkkürün inkişafıdır. Bildiyimiz kimi, fəal dərsin bir neçə mərhələsi vardır. Motivasiya, problemin qoyulması, tədqiqatın aparılması, məlumat mübadiləsi, müzakirə, nəticə, tətbiqetmə, qiymətləndirmə. Burada biz fəal dərsin əsas mərhələlərindən biri

olan motivasiyanın yaradılmasından və ona təsir göstərən amillərdən bəhs edəcəyik. Fəal dərsdə motivasiya dərsin əsas komponentidir, təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idraki fəallığına təkan verən prosesdir. Motivasiya mərhələsi özü də bir neçə mərhələdən ibarətdir. Problemi qoymaq üçün sual və tapşırıq verilir, yönəldici suallar təklif olunur, tədqiqat sualı çıxarılır, fərziyyələr irəli sürülür. Motivasiya dərs ərzində şagirdlərin idraki fəallığına təsir edən bir prosesdir və dərsin vacib mərhələsidir, onun həyata keçirilməsi asan deyildir. Dərsin nəticəsi onun müvəffəqiyyətlə həyata keçirilməsindən asılıdır.

Motivasiya 2 əsas prinsip əsasında qurulur: 1) problemlilik, 2) məqsədyönlülük. Motivasiya təlim nəticələri ilə uzlaşmalı, motivasiyanı qurmamışdan əvvəl dərsin "alt standartları" və təlim nəticələri müəyyənləşdirilməlidir. Motivasiyanı yaradan üç əsas amil vardır və onlar şagirdlərin davranışını aydın şəkildə anlamağa kömək edir.

1) istiqamətləndirmə (öyrənənlərin hansı fəaliyyətdən başlaması); 2) Davamlılıq (hansı fəaliyyət növü ilə davam edirlər); 3) İntensivlik dərəcəsi (öyrənənlərin göstərdiyi səy) [1].

Motivasiyanın yaradılmasında daxili və xarici faktorlar da böyük rol oynayır. Bildiyimiz kimi, motivasiyanın 2 növü vardır. Daxili və xarici motivasiya. Daxili motivasiyaya fəaliyyətə qatılmaq, məmnuniyyət hissi, çətin tapşırığı yetinə yetirmək istəyi; xarici motivasiyaya isə qiymət almaq, müəllimdən tərif eşitmək və s daxildir. Aparılan tədqiqatlar göstərir ki, daxili motiyasiyaya malik olanların fəaliyyəti davam etdirmək, uğur qazanmaq ehtimalı xarici motivasiyaya malik olanlara nisbəbən daha yüksəkdir. Şagirdin öyrənməyə olan marağı yüksək nəticələr qazanmağa zəmin yaradır. Daxili motivasiya fənni daha yaxşı mənimsəməyə kömək edir. Bəzən xarici motivasiyalı şagird də yaxşı müəllimə görə uğur qazana bilər. Öyrənmə prosesində daxili motiyasiya daha böyük rol oynayır. Şagirdlərin daxili motivasiyası olduqda müəllimin fəaliyyətini asanlaşdırır. Onlarda oxumağa həvəs yaratmaq üçün zəhmətlərinə rəy bildirilməli, tərif və şərhlər verilməlidir. Bəzən öyrənənlər motivasiya mənbəyini tapmağa müvəffəq olmurlar. Müəllim şagirdin təlimə həvəsli və həvəssiz olduğunu anlamalıdır. Motivasiyaedici amillərin olması mütləqdir və onlar aşağıdakı kateqoriyalara bölünür: Nailiyyət, məmnunluq hissi, məmnuniyyət, ugur və s. [1].

Müəllim tədricən təlimdə şagirdləri həvəsləndirmə yollarını müəyyən etməli və özü də yeni üsullar yaratmalıdır. O, öyrənənlərin motivasiyasını təmin edə bilməzsə, onlarda motivasiya aşağı düşə bilər və davranışlarında problemlər yaranar. Öyrənənləri motivasiya etmək müəllimin işinin vacib hissəsidir. Müəllimin vəzifəsi şagirdləri öyrənməyə həvəsləndirən mühit yaratmaqdır. Bunun üçün müəllim təlimə maraqla yanaşmalı, şagirdlərə

şəxsiyyət kimi yanaşmalı, fəaliyyətini qiymətləndirməli, əks əlaqə qurmalıdır.

Öyrənənləri həvəsləndirmək üçün mühit yaradılmalıdır. Hər bir şagirdin öz arzu, istəyinə və gücünə uyğun nailiyyət standartı müəyyənləşdirilməlidir. Öyrənənlərin istəklərinə dəyər vermək lazımdır. İstənilən fəaliyyətə həvəsi olan motivasiyalı şagirdlər daha çox uğur qazanırlar. Daha çox düşündürücü, çətin, lakin həlli mümkün olan və onların yaşına uyğun fərdi çalışmalar hazırlanmalıdır, bu da onlarda nailiyyətlərinin yüksəlməsinə səbəb olur. Yerinə yetirilən tapşırıqlar daha çox motivasiya yaradır. Bəzən şagirdlər tapşırıqların həllində uğursuzluq da yaşaya bilərlər, belə halda müəllim onların həvəsdən düşməsinə yol verməməlidir, tədbir görməli, işlərinə rəy bildirməli, tərifləməli və s.

Titçmarş motiyasiyanın yaranmasına təsir göstərən amillər sistemini işləyib hazırlamışdır[2].

Müəllim dərsə həvəslə yanaşırsa, bu şagirdlərdə də stimul yaradır,

Pedaqoq emosiyalarını tənzimləməyi bacarmalıdır, müəllimin pis əhval ruhiyyəsi şagirdlərə də təsir edir,

Dərs prosesi maraqlıdırsa, motivasiya artacaq, darıxdırıcıdırsa, motivasiya minimuma düşəcək,

Şagirdlər müstəqil işləmək bacarığına malik olmalı, tapşırıqları sərbəst yerinə yetirməlidirlər,

Kitabdan köçürmə tövsiyyə olunmur, çünki bu zaman şagirdlərdə fəallıq azalır.

Fənn və mövzudan asılı olaraq dərslər sinifdən kənarda da keçirilə bilər, bu da onlarda motivasiyanı artıracaq. Dərs çox asan olarsa sagirdlər həvəsdən düşər, və ya çox çətin olarsa bu zaman onlarda fəallıq azalar, motivasiya olmaz. Müəllim dərsi planlaşdırarkən bütün bunları nəzərə almalı, sinifin səviyyəsinə uyğun gündəlik plan tərtib etməlidir.

Yuxarıda sadalananlardan başqa bir çox amillər də vardır ki, onlar da sagirdlərdə motivasiyanın yaranmasına şərait yaradır. Öyrənənləri həvəsləndirmək üçün əlavə motivasiyaedici mükafatlara da ehtiyac vardır. Məsələn: mükafatlandırma, rəğbətləndirmə, rəy, həvəsləndirmə və s. Bəzən şagirdlər qısa müddət ərzində uğur qazanmaya bilərlər, onları həvəsləndirmək üçün motivasiyaedici mükafatlara ehtiyac vardır, məsələn, tərifləmə, təşəkkür etmə, bal və ya sertifikatların verilməsi, sevimli qida və oyuncaqların verilməsi və s.

Şagirdlər müsbət rəylərə tənqidə nisbətən daha çox yaxşı reaksiya verirlər, bu da motivasiya mühitinin yaranmasına səbəb olur. Rəğbətləndirmək üçün əksər müəllimlər sözlərdən istifadə edirlər. Məsələn: yaxşı, afərin və s. Müəllimin rəyi öyrənmə prosesinin səmərəliliyini artırır, hər bir

tapşırıq haqqında fikir bildirmək, rəy bildirmək ən optimal variantdır. Bu da onları cəhd etməyə və təlimə həvəsləndirir.

Bir qrup alimlər təlim motivasiyası anlayışında şagirdin mövqeyini deyil, müəllimin mövqeyini əsas tutaraq yazır: Təlim motivasiyası öyrənənlərin idraki fəaliyyətə və tədris materiallarının fəal şəkildə mənimsənilməsinə təhrik edən metod və vasitələrin məcmusudur. Ona görə də motivasiyanın yaradılması yollarının axtarışında şagird müəllimə xas olan xüsusiyyətlərin sistemləşdirilməsi çox vacibdir.[5].

A.K. Markova, L.K.Zolotıx, T.A.Platonov təlim motivasiyasının komponentlərini aşağıdakı kimi müəyyənləşdirmişdir [5; 6;7].

1) təlimə olan tələbat; 2) təlimin əhəmiyyəti; 3) təlim motivləri; 4) təlimə olan münasibət; 5) emosiyalar, maraqlar, məqsədlər, üstünlüklər və s.

R.S.Gardner təlim motivasiyasının daxili komponentlərini ümümiləşdirərək model halına salmış və bu modelə 4 kateqoriyanı daxil etmişdir [8].

1) Öyrənənin xarici dilin daşıyıcılarına qarşı olan münasibət; 2) xarici dilin öyrənilmə prosesinə münasibəti; 3) motivasiya indeksləri; 4) ümumiləşdirilmiş münasibətlər.

1-ci komponent xarici dildə danışan insanların və onların aid olduqları cəmiyyətə olan münasibəti əhatə edir. 2-ci komponent birbaşa tədris prosesi ilə bağlıdır. Buna əsasən şagirdin tədris prosesinin təşkilinə, müəllimə və onun metodlarına, tədris vasitələrinə olan münasibəti daxildir. 3-cü komponentə şagirdin dil öyrənmə motivləri, məqsədləri, cəhdləri aid edilir. 4-cü komponentə isə xarici dilə olan ümumi maraqlar, uğura, müvəffəqiyyətə olan tələbat və s.daxildir.

Şagirdlərin motivasiya səviyyəsinin yoxlanılması və dəyərləndirilməsi üçün aşağıdakı göstəricilər təyin edilir. 1) münasibət; 2) fəallıq; 3) müstəqillik.

Şagirdlərdə motivasiyanın müəyyənləşdirilməsi işini bir neçə istiqamətdə aparmaq olar. 1) Sorğu keçirməklə onların motivasiyasını öyrənilməsi; 2) Həmin motivlərin təsir gücünün təhlil olunmas, aparıcı və ikinci dərəcəli motivlərin fərqləndirilməsi; 3) təlim motivasiyasının azaldılması, stabilliyi və yüksəlməsi daxildir.

Deyilənləri yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, fəal dərsin əsas mərhələsi olan motivasiya dərsin əsas komponentidir, şagirdin uğur qazanmasında motivasiyanın rolu çoxdur, dərsin nəticəsi motivasiya ilə birbaşa əlaqədardır, motivasiya güclü qiymətləndirmə metodları ilə dəstəklənməlidir, düzgün qurulmuş motivasiya dərsdə qazanılan uğurun yarısıdır.

Ədəbiyyat

1. Zeynalova N.E, Bayramova A.M. Ümumi təhsilin kurikulumun əsasları.Bakı:
Elm və təhsil, 2017.
2. Titchmarsh A. Personal communication. London, 2012.
3. Маркова А.К., Орлов А.Б., Фридман Л.М. Мотивация учения и ее воспитание у школьника.М:Педагогика,1983.
4. Орлов А.Б. Развитие теоретических схем у понятийных систем в психологии мотивации //Вопросы психологии.1989,№5,с.27-34.
5. Маркова А.К., Матис Т.А., Орлов А.Б.Формирование мотивация учения книга для учителя.М:Просвешение,1990.
6. Золотых Л.К. Особенности формирования учебно-познавательного мотива как одного новообразований учебной деятельности: М: Просвешение,1979.
7. Платонова Т.А. Экспериментальное исследование процесса порождения познавательной мотивации.М: Педагогика,1980.
8. Gardner R.S.Social psychology and second language learning: the role of attitudes and motivation.London:Edward Arnold Publishers,1985.

N.Azizova

.The factors influencing in creating motivation

Summary

The article deals with the motivation influencing on the learning process. The article is devoted to the importance of motivation. Motivation is very strongly related to achievement in learning process. In this article are touched upon different types of motivation. Motivation has great educational importance.

The aim of motivation is to encourage pupils to learn. The importance of teacher's role is given in this article . Components of motivation are great of importance.

Various opinions by different researchers are given. Motivation widens pupil`s interest, desire in teaching learning process. Motivation leads to success. It has great role in pupil`s achievement.

Students respond better to criticism than positive, which causes a motivation environment.

Н.Азизова

Факторы влияющие на креативную мотивацию

Резюме

Статья посвящена мотивации, которая влияет на учебной просесс. В ней говорятся о важности мотивации. Мотивация связано изучаюшимся в успехе при просессе изучении.

Это статья посвящена разным видам мотивации. Мотивация имеет большую важность в образовании. Цель мотивации воодушевлять учеников к обучению. Здесь преподносится важность роли учителя.

В работе подчеркиваются компоненты мотивации подчеркивается работе.

Студенты лучше реагируют на критику, чем положительные, что создает мотивационную среду.

Предлагается мнение разных ученых в работе. Мотивация также помогает достижению цели успеха в просессе обучения иностранному языку. Мотивация помогает к успеху. При успехе учеников мотивация играет огромную роль.

Rəyçi: Gülbəniz Camalova
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

YEGANƏ QƏHRƏMANOVA
ADPU, filologiya üzrə fəlsəfə doktoru, dosent
yegane.qehremanova.1976@mail.ru

AZƏRBAYCAN DİLİNDƏ HAL VƏ ŞƏXS-XƏBƏRLİK KATEQORIYASININ QARŞILIQLI ƏLAQƏSİ

Açar sözlər: hal, şəxs, xəbərlik, Azərbaycan dili, kateqoriya
Keywords: case, subject, predicate, Azerbaijani language, category
Ключевые слова: падеж, субъект, предикат, Азербайджанский язык, категория.

Azərbaycan dili türk dil ailəsinə məxsus dillərdən biri kimi aqlütinativ quruluşa malik olan və bu quruluşda özünəməxsus zəngin kateqoriyalar formalaşdıran dillər sırasındadır. Dilimizin uzun əsrlərdən bərisabitləşmiş qrammatik quruluşunda bir sıra morfoloji kateqoriyalarla yanaşı, hal və şəxs-xəbərlik kateqoriyalarının da xüsusi rolu vardır. Dilçilik ədəbiyyatımızda ismə məxsus olan hal, mənsubiyyət, kəmiyyət və şəxs-xəbərlik kateqoriyalarının ümumi qrammatik kateqoriya olması haqqında çoxsaylı mülahizələr olsa da, bu kateqoriyalardan hal və mənsubiyyət kateqoriyasınınn xüsusi, kəmiyyət və şəxs-xəbərliyin isə ümumi qrammatik kateqoriya olması haqqında fikirlər daha çox sabitləşmişdir. Bu mənada şəxs-xəbərlik kateqoriyasının sifət, say, zərf və digər söz qruplarına isimləşmədn artırıla bilməsi onun ümumi qrammatik kateqoriya hesab olunmasına əsas versə də, hal kateqoriyası haqqında eyni fikri söyləmək mümkün deyil. Çünki isimdən başqa bütün söz qrupları yalnız isimləşdikdən sonra hal şəkilçilərini qəbul edib dəyişə bilir. Deməli, hallanmanı Y.Seyidov, Q.Kazımov, Ə.Tanrıverdi və digər tədqiqatçıların haqlı olaraq söylədiyi kimi xüsusi qrammatik kateqoriya hesab etmək daha məqsədəuyğundur.

Dilçilik ədəbiyyatında şəxs, xəbərlik, xəbər və diğər adlarla adlandırılan şəxs-xəbərlik kateqoriyası haqqında fikir müxtəlifliyi vardır. B.Xəlilov bu kateqoriya ilə bağlı mövcud olan fikirləri iki qrupa ayırmışdır: ”Birinci fikir tərəfdarları N.K.Dmitriyev, M.Hüseynzadə, H.Mirzəzadə və başqaları şəxs şəkilçisini xəbər şəkilçisi, kateqoriyanı isə xəbərlik kateqoriyası adlandırmışlar. İkinci fikir tərəfdarları B.Serebrennikov, N.Hacıyeva, İ.Z.Hacıyev və digərləri bu kateqoriyanı şəxs kateqoriyası kimi tədqiq etmişlər.” (4. səh.220) M.Hüseynzadə cümlə daxilində mübtədaya aid hökmün, hal-vəziyyətin xəbər vasitəsilə meydana çıxmasında bu şəkilçilərin tək amil olduğunu göstərərək yazır ki, “ Bunlar olmasa, cümlə bitməz və heç bir hökm ifadə oluna bilməz. Ona görə də bunlara xəbərlik kateqoriyası şəkilçisi adı verilmişdir.” (M.H. səh.66) Q.Kazımov xəbərlik şəkilçilərinin yaratdığı xəbərlik kateqoriyasını geniş

mənada şəxs kateqoriyası adlandıraraq onun sintaktik kateqoriya olduğunu bildirir, onun morfologiyada öyrənilməsinin səbəbini aşağıdakı kimi izah edir: Azərbaycan dilində ayrı-ayrı nitq hissələrinə daxil olan sözlər xəbərlik şəkilçiləri adlanan şəkilçilər qəbul edərək xəbərlik kateqoriyasının yaranmasına səbəb olur. Geniş mənada şəxs kateqoriyası adlandırıla bilən bu kateqoriyanın vasitəsilə nitq proesində iş, hal, hərəkət, hadisə, hökm bildirilir, subyektin əməli fəaliyyəti ifadə olunur. Adından göründüyü kimi, "xəbərlik" morfoloji deyil, sintaktik kateqoriyadır. Ona görə də bu kateqoriyadan morfologiyada deyil, sintaksisdə bəhs etmək lazım gələrdi. Lakin məsələ burasındadır ki, bir çox dillərdən fərqli olaraq bu kateqoriya dilimizdə morfoloji yolla, yəni xüsusi şəkilçilər vasitəsilə formalaşır. " (5. səh. 92)

H.Mirzəzadə, C.Cəfərov, N.Abdullayev bu kateqoriyanı xəbərlik, F.Cəlilov və B.Xəlilov isə şəxs, M.Hüseynzadə və Ə.Tanrıverdi isə isimlərdə xəbərlik, feillərdə şəxs kateqoriyası və şəkilçiləri adı altında tədqiq etmişlər. B.Xəlilov bu kateqoriyanın həm feil və adlarda fərqli kateqoriya olmasını, həm də xəbərlik adlandırılmasını məqbul hesab etməyərək yazır ki, "Göründüyü kimi, şəxs şəkilçilərinə mübtəda ilə xəbər arasında əlaqə yaradan şəkilçi kimi yanaşılmışdır. Bu da istər-istəməz sintaksisdə öyrənilən xəbərin rolunu şişirtmişdir. Nəticədə xəbərlik şəkilçisi və xəbərlik kateqoriyası terminləri ortaya çıxmışdır. Bu cür terminlər isə heç şür morfologiyada öyrənilən, onun tədqiq obyektinə daxil olan şəxs şəkilçiləri və şəxs kateqoriyası anlayışlarını əvəz edə bilməz." (1. səh.217) Müəllif fikrini davam etdirərək yazır ki, "Morfologiyada şəxs şəkilçisi və şəxs kateqoriyası ifadələri daha düzgün anlaşılır. Şəxs şəkilçiləri şəxs əvəzlikləri ilə bağlıdır. Şəxs əvəzlikləri isə morfologiyada öyrənilir.Bu mənada şəxs şəkilçiləri də, onların yaratdıqları şəxs kateqoriyası da birbaşa morfologiya ilə bağlı qrammatik-morfoloji anlayışlardır."(4.səh. 217) Hər hansı morfoloji kateqoriyanın adlandırılmasında sintaktik göstəricilərin əsas ola bilməyəcəyini vurğulayan Z.Budaqovaya görə, "Şəxs şəkilçisi xəbərə aid əlamət olmayıb, şəxs kateqoriyasının ifadə vasitəsidir. Şəxs kateqoriyasının bu əlaməti eyni zamanda xəbərliyin ifadəsinə xidmət edir. Şəxs şəkilçilərini "xəbərlik", yaxud "xəbər" şəkilçisi adlandırsaq, onda gərək ismin təsirlik hal şəkilçisini də "tamamlıq şəkilçisi" adlandıraq, çünki bu şəkilçiyə malik söz həmişə tamamlıq vəzifəsində çıxış edir." (1. səh 120-121)

Y.Seyidov göstərilən kateqoriyanı şəxs-xəbərlik adı altında təqdim edərək yazır ki, "Fikrimizcə, xəbərlik kateqoriyası və şəxs kateqoriyası adları ilə fərqləndirilən dil faktları əsasında iki kateqoriyanın qeyd edilməsi elmi cəhətdən düzgün deyil... Kateqoriyanı hansı adla adlandırmaq məsələsinə gəlincə, onu xəbərlik kateqoriyası da, şəxs kateqoriyası da, şəxs-xəbərlik kateqoriyası da adlandırmaq mümkündür... Ancaq nəzərə alınmalıdır ki, Azərbaycan dilçiliyində "şəxs kateqoriyası" istilahı bizim

nəzərdə tutduğumuz kateqoriyanın bir hissəsinin adı kimi işlədilib və bu, ənənəyə çevrilibdir. Bu, anlaşılmazlığa səbəb ola bilər. Ona görə də kateqoriyanı "şəxs-xəbərlik" kateqoriya kimi adlandərmaq daha anlaşıqlı olar.

Bu birləşmiş ad ilk dəfə H.Mirzəyev tərəfindən irəli sürülmüşdür". (6,.səh.156) Fikrimizcə, "şəxs-xəbərlik kateqoriyası" termini daha çox yerinə düşür. Çünki bu kateqoriya morfoloji-sintaktik xarakter daşıdığından "şəxs-xəbərlik kateqoriyası" termini altında ayrı- ayrılıqda hər iki termini elmi cəhətdən əsaslandırmağa çalışan dilçilərin fikri də ifadə olunmuş olur.

F.Cəlilov predikativliyin ifadə formalarından danışarkən modallıq, zaman və şəxs kateqoriyalarının qovuşuq şəkildə ifadə olunduğunu göstərərk yazır ki, "Bu üç morfoloji morfoloji kateqoriyanın bir yerdə nəzərdən keçirilməsi onların funksiyası ilə bağlıdır. Belə ki, predikativliyin ifadə forması olan bu kateqoriyalar ayrı-ayrılıqda deyil, qovuşuq şəkildə işlənir."(2. səh.250)

Məlumdur ki, cümlə daxilində subyekt-predikat, obyekt-predikat anlayışlarının ifadəsində hal kateqoriyası ilə şəxs-xəbərlik kateqoriyası da bir-biri ilə sıx şəkildə əlaqələnir, sintaktik bağlılığın əsasını yaradır. Bu baxımdan hal və şəxs-xəbərlik kateqoriyaları bir-biri ilə qarşılıqlı münasibətdədir. Belə ki, cümlədə mübtəda və xəbər arasında sintaktik bağlılığın ifadə forması olan uzlaşma əlaqəsi, əsasən, şəxs-xəbərlik şəkilçiləri vasitəsilə meydana çıxır. Mübtəda adlıq halda olan söz və söz birləşmələri ilə ifadə olunmaqla hansı şəxsi bildirirsə, xəbər də həmin şəxsin şəxs-xəbərlik şəkilçisini qəbul etmiş olur. Məs:

Gözlərünün oxuna **bən**, şaha, nişanə gəlmişə**m**,
Müşkilə düşdügüm bu ki, zülfünə şanə gəlmişəm.
Q.Bürhanəddin

Yarın cifayi-ğəmzəsi canımda yarə**dir**,
Ahu fəraq əlində cigər parə-parədir.
C.Həqiqi

Tuta**m** ömrüm kimi zülfün ucun **mən**,
Nigara, vəslinə dərman olursa.
Həbibi

Xəlq içində **bu** məsəl**dürür** faş:
Min qarğaya bəs atanda bir da.
Məsihi."Vərqa və Gülşa"

Göründüyü kimi, yuxarıdakı nümunələrin birinci və üçüncüsündə birinci, iki və dördüncüsündə üçüncü şəxsin şəxs-xəbərlik kateqoriyasının şəkilçiləri vasitəsilə mübtəda və xəbər arasında uzlaşma yaranmışdır. Son

nümunədə -dır şəkilçisinin qədim variantı olan –dürür şəkilçisi ilə qarşılaşırıq.

Cümlə daxilində xəbərin tamamlıq və zərfliklə idarə əlaqəsi ilə bağlanmasında hal şəkilçiləri əsas rol oynayır. Bu prosesdə ismin yönlük, təsirlik, yerlik və çıxışlıq hallarının şəkilçiləri fəal iştirak edir. Həm tarixi, həm də müasir dilimizdə yönlük hallı sözlər ya məkan və ya səbəb-məqsəd məzmunlu zərfliklərin, ya da əşya və ya şəxs məzmunlu tamamlıqların xəbərlə idarə əlaqəsinə daxil olmasını təmin edir. Məs:

Verdi**lər ona** xəbər ki, ey şah,
Düşmən bizə yetdi, olgil agah.

Çağırdı ki, ey rəisi-əhya,
Bu ləşkərə qıl**gilən** təmaşa.
Məsihi.”Vərqa və Gülşa”
Qəm çəkməyə layiq deyil**əm**, şad elə onda,
Viranə əgər etməsən, abad elə onda
Saib Təbrizi
Lal olmuş bülbülə döndü**m**,
Pərvanədək yandım, söndüm.
M.Əmani

Təsirlik hallı sözlər yalnız təsirli feili xəbərlə əlaqələnir, obyekt, məkan, zaman kimi müxtəlif məzmunlu sözləri idarə əlaqəsi ilə xəbərlə bağlayır. Məsələn:

Əldən qoymaz səni bu düşmən,
Durgil öz-özünə eylə şivən.
Məsihi.”Vərqa və Gülşa”
Hərçənd ki yar bizni yad eyləmədi,
Qəmdən edibən xilas şad eyləmədi.
M.Əmani
Canumu eşqinə satdum, daxı bəha nə gərək?
Bana xu yoluna can verməgə bəhanə gərək?
Q.Bürhanəddin

Yerlik və çıxışlıq hallarda olan sözlər də idarə əlaqəsində fəal iştirak edir:.

Bənini gördümü dedüm: bu hindu bunda nədür?
Dedi ki, cənnət isə, nola bir əzab gərək
Q.Bürhanəddin
Taki sən getdin yanımdan ey dilaramım mənim,
Haləti-vəslin könüldə pasiban qaldı mana.
Ş.İ.Xətai

Azərbaycan dilində təsirlik haldan başqa ismin bütün hallarında olan sözlər həm müasir dilimizdə, həm də tarixən şəxs-xəbərlik şəkilçilərini qəbul edib xəbər vəzifəsində işlənə bilir.

Adlıq hal: Dərdi-hicrindən sənin hərgiz şikayət qılmazam,
Heç əlac etmən tələb, neyçün ki, dərmandır mana.
Ş.İ.Xətai

Yiyəlik hal: Nə deyəyim, ata, fərman sənindir,
Əgər dərdli isəm, dərman sənindir.
"Dastani-Əhməd Hərami"

Yönlük hal: Hekayət etmə manahuri-eyni, ey Vaiz
Ki, dust təşnəsiyəm rəğbətim anadır ana.
Bəsiri

Yerlik hal: Zinhar, dünya xoşluğuna inanman ki, hər nəfəs,
Anı ki, gösdərür yenə təğyir içindədür.
Q.Bürhanəddin

Çıxışlıq hal: Ey Qasimi, nöqsanın bil hökmi xudidəndir,
O bildi əzəl gündən gəldin necə dövranə.
Qasimi

Göründüyü kimi, Azərbaycan dilində həm hal, həm də şəxs-xəbərlik kateqo-riyalarının cümlənin qurulmasında xüsusi rolu olmaqla bərabər bu iki kateqoriya bir-bir qarşılıqlı vəhdətdədir. Həm müasir ədəbi bilimizdə, həm də tarixən hal və şəxs-xəbərlik kateqoriyalarının əlaqələnməsində xüsusi fərqlər müşahidə olunmasa da, qədim və orta əsrlər Azərbaycan dilində şəxs şəkilçilərinin müasir dilimizdən fərqli variantları mövcud olmuşdur. Lakin bu variantlılıq hal və şəxs-xəbərlik kateqoriyalarının əlaqələnməsində heç bir fərqli xüsusiyyət aşkara çıxarmamışdır.

İstifadə olunmuş ədəbiyyat:

1.Budaqova Z. Müasir Azərbaycan dilində xəbərlik kateqoriyası."Ədəbiyyat və dilçilik" məcmuəsi. Bakı, 1960.
2.Cəlilov F. Azərbaycan dilinin morfonologiyası. Bakı. "Maarif", 1988
3.Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, 1983
4. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə. Bakı,"Elm", 2000
5.Kazımov Q. Müasir Azərbaycan dili. Bakı, "Elm və təhsil", 2010
6.Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2011

Y.Gahramanova

Case and person-news in Azerbaijani language mutual relationship of category

Summary

Case category and subject-predicative category play a special role in the grammatical structure of the Azerbaijani language. Both categories participate in connection of the words within the sentence. A number of researchers consider case category and subject-predicative category as a common grammatical category.

However, although subject-predicative category is a common grammar category, the category of cases is a special category of nouns. Except dative case of noun, all cases of nouns can be predicative in the sentence accepting predicate suffixes. In this sense, subject-predicative category also draws attention as one of the main tools of predictability. In the formation of the sentence in the Azerbaijani language, the combination of these two categories draws attention.

Е.Кахраманова

.Дело и личные новости на азербайджанском языке взаимное отношение категории

Резюме

Категория падежа и субъектно-предикативная категория играют особую роль в грамматической структуре азербайджанского языка. Обе категории участвуют в соединении слов в предложении. Ряд исследователей рассматривают категория падежа и субъектно-предикативную категорию как общую грамматическую категорию. Однако, хотя субъектно-предикативная категория является общей грамматической категорией, но категория падежа является специальной категорией существительных. За исключением дательного падежа существительного, все падежи существительных могут быть предикативными в предложении, принимающем предикатные суффиксы. В этом смысле субъективно-предикативная категория также привлекает внимание как один из основных инструментов предсказуемости. При формировании предложения на азербайджанском языке внимание привлекает сочетание этих двух категорий.

Rəyçi: **Vilayət Əliyev**
Filologiya üzrə elmlər doktoru, professor

YUSIFOVA PÜSTƏXANIM
ADU-nun doktorantı
pustakhanim@gmail.com

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İMPLİSİT İNKARLIĞIN QRAMMATİK VASİTƏLƏRLƏ İFADƏSİ

Açar sözlər: implisit, eksplisit, inkarlıq, qrammatik, məna
Ключевые слова: имплицитный, эксплицитный, отрицание, грамматическое, значение
Key words: implicit, explicit, negation, grammatical, meaning

Fəlsəfədə inkarlıq - inkişafda olan obyektin nəticə etibarı ilə bağlı olan iki mərhələsi və vəziyyəti arasındakı əlaqəni bildirir. Bu termin fəlsəfəyə XVIII əsrdə Corc Vilhelm Fredrix Hegel tərəfindən gətirilmişdir. Hegel inkarlığın təbiətini əsasən ideya və ya fikrin inkişafında olduğunu hesab etmişdir. XIX əsrdə isə Karl Marks və Fredrix Engels kimi materialistlər təklif edirdilər ki, inkarılq material reallığın ayrımaz bir hissəsidir. Yəni, köhnə yeni ilə, ölüm doğum ilə əvəzlənir. Belə ki, bunu dialektik inkarlıq adlandırmışlar (17, 471).

Dilçilikdə inkarlığın linqvistik vasitə kimi tədqiqi O. Yespersenin adı ilə bağlıdır. İnkarlıq kateqoriyasına linqvistik aspektdən yanaşdıqda görmək olar ki, hər bir dilin özünəməxsus inkarlığı ifadə etmək üçün vasitələri vardır. Bu istər leksik, istərsə də qrammatik vasitələrlə reallaşa bilər. Həm ingilis, həm də Azərbaycan dillərində inkarlığın həm eksplisit, həm də implisit şəkildə ifadəsi mümkündür. Eksplisit dedikdə açıq, hamı üçün məlum olan, birbaşa ifadə olunan, implisit dedikdə isə, örtülü, gizli, dildə bilavasitə ifadə olunmayan nəzərdə tutulur (8, 282). İmplisit inkarlığın dildə açıq ifadə vasitəsi yoxdur, lakin bu o demək deyildir ki, implisit inkarlıq leksik və qrammatik formalarla ifadə olnmur. Bu zaman, sadəcə olaraq inkarlıq bir növ təsdiq baxımından ifadə edilir. D.J. Fodor, A.J. Fodor və M.F. Garrett inkarlığın dörd fərqli ifadə formasını təqdim etmişdirlər (11, 242):

1. İnkarlıq ingilis dilində *not, no* və *never* ədatları ilə ifadə olunur ki, bu eksplisit, yəni açıq ifadə formasıdır. Azərbaycan dilində isə, müvafiq olaraq *deyil* sözü və *yox, xeyr, heç, heç də* kimi inkar ədatları ilə ifadə edilir. Məsələn: *I never cared for you (14, 72). But she did not seem to be so enthusiastic over it. (13, 183). No artist desires to prove anything (16, 3). Bəli, təbiət gərdişi-insaniyyətlə elə bir düşmən deyil ki, fəlakət günündə onlara bir çarə arasın. (2, 201). Səkinə xanım: Xeyir, heç payı yoxdur. O, qardaşıma kəbinli arvad deyil ki, irs apara (1, 159).*

2. İnkarlıq ingilis dilində asılı morfemlər *-un, -im, -dis,* və s. vasitəsi ilə eksplisit şəkildə ifadə edilir. Müəlliflər bunu morfoloji inkar adlandırırlar. Azərbaycan dilində isə *-a, -bi, -na* kimi alınma; *-sız*[4], *-ma*[2] kimi milli morfemlərlə ifadə edilir. Məsələn: *"I think it is most unkind of her, my dear," she whispered. (14, 139). He was dissatisfied with Mr. Butler's career (13, 125). Bütün günü küçələri gəzdi ki, özünə bir iş tapsın, mümkün olmadı (2, 200). Bu bihəya qardaşımın arvadı mənə müddəi çıxıb, pulun yetişməyini təxirə saldı (1, 159).*

Bu qrupa biz həm də iki müstəqil morfemin birləşməsi nəticəsində yaranan sözləri də aid edə bilərik. İngilis dilində *no one, nobody, nothing, neither…nor;* Azərbaycan dilində *heç kim, heç nə, heç bir şey, nə…nə də* və s. misal göstərmək olar. Məsələn: *There was nobody to tell him, to hint him, to give him the least word of advice (13, 196). You know neither them nor their doctrines (13, 424). Nə bir işıq görünür, nə də bir zihəyat səsi eşidilirdi. (2, 199). Mühəndis olan kimi qardaşımın başının altına bir qu balış qoyub, heç bir işə onu əl vurmağa qoymayacağam (2, 204). O gündən etibarən Zeynal ağanın nə bacarığa ehtiyacı var idi, nə də ağıllı olmağa (7, 27).*

3. İnkarlıq implisit şəkildə *to fail, to doubt, to deny* kimi özündə heç bir inkarlıq əlaməti olmayan morfemlər vasitəsi ilə də ifadə oluna bilər. Məsələn, *to fail = not to succeed, to doubt = not to be sure, to deny = not to ascertain.* Bu morfemlərin Azərbaycan dilində ekvivalentləri isə heç də həmişə implisit xarakter daşımır. *Uğursuz olmaq* feili özündə inkarlıq morfemi ehtiva edir. *Şübhə etmək* feili isə ingilis dilində *to doubt* morfemi kimi implisit xarakter daşıyır. Müəlliflər haqlı olaraq qeyd edir ki, bəzən morfoloji və implisit inkarlığı fərqləndirmək heç də asan deyil. Məsələn, *neither* ingilis dilində morfoloji inkarlıq olaraq *either* + *not* morfemlərinin birləşməsi nəticəsində yaranmışdır; sadə morfem olaraq isə, implisit inkarlıq hesab etmək olar. Eləcə də, Azərbaycan dilində *inkar etmək* feilinin inkarlıq ifadə edən eksplisit markeri olmasa da, *etmək* feili ilə birgə morfoloji inkarlıq, təkbaşına isə implisit hesab etmək olar. Çünki, *inkar* sözü özlüyündə inkarlıq kateqoriyasını əks etdirir. Məsələn: *If he accused her she would deny… (14, 14). The masquerade would fail, and besides, masquerade was foreign to his nature (13, 34). He began to doubt that editors were real man (13, 196).*

4. Dördüncü qrup inkarlıq zamanı sözlər semantik baxımdan inkarlıq qütbü yarada biləcək sintaktik mühit əmələ gətirə bilmir və heç bir inkarlıq bildirən morfemlərə qoşulmur. Bu zaman, sözlərin izahı ilə onlarda inkarlığın əks olunduğu ortaya çıxır. Məsələn: *mute – unable to speak, making no sound (12, 818); to kill – to cause not to be alive (12, 686)*; *to lie – make a statement one knows to be untrue (12, 719); lal – danışa bilməyən (5, 239); öldürmək – həyatdan məhrum etmək, yaşamamasına səbəb olmaq*

(5, 547); yalan danışmaq – doğru deməmək (6, 513) və s. Bu cür inkarlıq *pure definitional negations (tərifi inkarlıq)* adlandırılır.

Qeyd etmək lazımdır ki, təsdiqdə olan sözlər kontekst daxilində implisit şəkildə inkarlıq ifadə edə bildiyi kimi, inkarda olan söz və cümlələr də kontekst daxilində eksplisit təsdiqlik ifadə edə bilər. Məsələn: *"Of course he likes it," said Lord Henry. "Who wouldn't like it? (16, 24)= everybody would. Kim sevməzdi ki? (= hamı sevərdi).*

İnkarlığın implisit ifadəsi əvəzlik və zərflərlə də mümkündür. Məsələn, ingilis dilində *few* və *little* qeyri-müəyyən əvəzlikləri Azərbaycan dilindəki *bir az, bir qədər*, *azca, az* qeyri-müyyən saylarına uyğun gəlir. *Few* sayıla bilən isimlər, *little* isə sayıla bilməyən isimlər ilə işlənir və semantik aspektdən *not much (çox olmayan)* uyğun gəlir. Məsələn: *It appeared to Dorian to have but little (=not much) changed (16, 98). Atam lap az danışırdı, mən də susub oturmuşdum (7, 15).*

Nümunələrdən də aydın olduğu kimi həm ingilis dilində *few, little* əvəzlikləri, isə Azərbaycan dilində *bir az, bir qədər, azca, az* sayları heç bir inkarlıq əlamətinə malik olmasalar belə, implisit olaraq inkar mənası daşıyırlar.

İngilis dilində *seldom* (nadir hallarda) zərfi mənaca *not often* (tez-tez baş verməyən) mənasını implisit şəkildə ifdə edir. Azərbaycan dilində isə, *nadir hallarda, gec-gec* zərfləri ilə reallaşır. Məsələn: *He did now what he did seldom (=not often); he looked her full in face…(14, 188). And yet I see you very seldom (=not often), and you never come down to the studio now… (16, 119). Amma çox nadir hallarda kimsə rus hakiminin yanına gedərdi (7, 18).*

Nümunələrdən göründüyü kimi cümlədə inkarlığı göstərən heç bir eksplisit vasitə yoxdur, lakin məna baxımından implisit inkarlıq sezilir.

Digər tərəfdən, əgər *seldom* zərfi, *few* və *little* əvəzlikləri inkarlığın eksplisit göstəricisi olan *not* ədatı ilə işlənərsə, onda inkarlıq deyil, təsdiqlik bildirəcəkdir. Məsələn: *For, while he fascinated many, there were not a few who distrusted him (16, 112).*

Eləcə də, ingilis dilində *though, although, notwithstanding, yet, but bağlayıcıları, however, nevertheless, nonetheless* zərfləri; Azərbaycan dilində isə *amma, ancaq, lakin, fəqət, yaxud, ya…ya da* bağlayıcıları həm eksplisit, həm də implist inkarlıq kəsb edə bilir. Məsələn: *"Now there she is – do with me what you are a mind to; though as heaven is my judge, I am an innocent man and no deserving of the full penalties of the law and leaving behind me a family that must starve and hadn't had a thing to do with it…" (15, 7). She knew him very little then, and now, though they had been married for two years, she knew him but little more (14, 41). When he grew excited and enthusiastic, however, he dropped back into the old slurring and the dropping of final consonants (13, 137). Bəli, təbiət həmişə Aslan kimi yüksək ruhlu, pak və safürəkli mücahidlər yetirir. Amma biz onun mürur ilə*

elədikləri fədakarlığı ancaq ölən vaxt düşünər və bir azdan sonra onu unudarıq (2, 210). Bundan sərfi-nəzər edən Əsgər başqa yerdə pul uduzar, lakin acığını Züleyxadan alardı (2, 213).

Verilmiş cümlələrdə qeyd edilmiş bağlayıcı və zərflər mürəkkəb cümlə daxilində eksplisit şəkildə deyil, implisit şəkildə inkarlıq ifadə etmişlər. Bu zaman mürəkkəb cümləni təşkil edən cümlələr bir-birinə əks mənalar ifadə etmiş, yəni baş cümlədə verilən fikir budaq cümlədəki fikri inkar etmişdir və ya əksinə.

Bu bağlayıcı və zərflər, həmçinin, mürəkkəb cümlə daxilində ingilis dilində özündən əvvəl və ya sonra eksplisit şəkildə *not, never* ədatı və ya *no, no one, nothing, nobody* inkar əvəzlikləri; Azərbaycan dilində isə *heç kim, heç nə, heç bir şey* və ya inkarlıq şəkilçisi *–ma*[2] qoşulmuş sözlər işlənə bilər. Məsələn: *Tom's old ornery corn-cob pipe had got so old and swelled and wrapped that she couldn't hold any loner, notwithstanding the strings and bandages, but caved in and went to pieces (15, 162). Although there was no reason for it, they spoke in whispers (14, 218). Martin was not deeply affected by his failure, though he was surprised at Ruth's shocked expression when he told her Professor Hilton's advice (13, 147). She knew nothing, but she had everything that he had lost (16, 174). Martin decided that the great poem should see print. He didn't intend, however, to publish it without the other's intention (13, 526)* və s. Azərbaycan dilində: *Yalnız əmim söhbət edirdi və hər dəfə Bakıya gələndə etdiyi kimi, sarayında çox mühüm, amma mənim üçün hələ də tam aydın olmayan bir rol oynadığı böyük Nəsrəddin şahın zamanəsindən bəhs edirdi (7, 15). Bir dəfə o, Vyanada qeysər ilə bu barədə danışdı, amma o da bu təzadı ona izah edə bilmədi (7, 16). Fərhad arabir küçədə görünürdüsə də, amma Gülzarın harada olduğunu heç kəs bilmirdi (2, 217).*

İngilis dilində *used to* modallıq bildirən ifadə mövcuddur ki, bu da inkarlığın implisit ifadə vasitələrindən biri hesab etmək mümkündür. *Used to* ifadəsini, həmçinin, *keçmiş qeyri-müəyyən zaman (The Past Indefinite/Simple)* və *would* modal feili ilə də əvəz etmək mümkündür. Azərbaycan dilində isə buna müvafiq olaraq feilin qeyri-qəti gələcək zamanı *(-ar, -ər şəkilçisi) + idi, imiş* misal göstərmək olar (3, 244). Məsələn: *Yet the beer seemed not so good as of yore. It didn't taste as it used to (13, 592). And then Mother Superior would collect her daughters round and they would kneel and pray… (14, 169). I would keep a pack of foxhounds, and drink a bottle of wine every day" (9, 17). Qan davası bir evdən birisin keçərdi. Amma çox nadir hallarda kimsə rus hakiminin yanına gedərdi. Gedən də olsaydı, müdriklərin hörmətindən düşərdi. Küçədə də uşaqlar ona dilini çıxarardılar (7, 18).*

Nümunələrdən aydın olur ki, bu tilpli cümlələrdə müəyyən bir hərəkət keçmişdə icra olunsa da, hal hazırda icra edilmir və bir növ verilmiş vasitələrlə hərəkətin hazırda icrası inkar olunur.

İngilis dilində modal feillər də implisit inkarlıq ifadə etməyə qadirdirlər. Bu zaman, bir çox modal feillərin keçmiş zaman formaları – *could, might, should, ought to* və *perfekt infinitive* işlənir. Modallar feillər implisit yolla hərəkətin baş vermədiyini bildirir və buna görə də danlaq, məzəmmət, tənqid kimi başa düşülür. Məsələn: *Yes, Basil could have saved him. But it was too late now (16, 96). Certainly, no one looking at Dorian Gray that night could have believed that he had passed through a tragedy as horrible as any tragedy of our age (16, 139). If he'd wanted to make a row he would have insisted on coming into your room (14, 58). "On the evening before my going to London," said he "I made a confession to him, which I believe I ought to have made long ago..." (9, 250).*

Azərbaycan dilində belə hallar *–malı*[2] şəkilçisi (feilin vacib şəkli), *gərək* ədatı, *bilmək, bacarmaq* feilləri və *idi* ədatı vasitəsi ilə reallaşır. Bu zaman, hərəkətin implisit şəkildə icra edilməməsi keçmiş zamanda baş verir. Məsələn: *Hər halda mən də gərək çadra geyəydim (=geyməmişəm) (7, 27).*

İngilis dilində feilin şəkilləri də mənaca impisit inkarlıq ifadə imkanına malikdirlər. Feilin müxtəlif şəkillərində forma və mənaca əkslik görmək mümkündür ki, bu daha çox özünü feilin Sabcanktiv II formasına göstərir. Feilin Sabcanktiv II forması həyat həqiqətlərinə zidd olan hərəkətləri ifadə etmək üçün işlədilir. Belə hərəkətlərin icrası adətən, danışanın arzusundan, diləyindən, istəyindən, şərtindən və s. asılı olur (6, 220). Demək mümkündür ki, feilin Sabcanktiv şəkli münasibət bildirir, buna görə də dilçilər feilin Sabcanktiv şəklini"spektiv" adlandırırlar ki, bu da latınca münasibət sözündən yaranmışdır (10, 188). Feilin sabcanktiv forması müxtəlif cümlələrdə işlənə bilər. Məsələn, şərt budaq cümlələrində: *If it were only the other way! (= It is not the other way). If it were I who have to be always young, and the picture that was to grow old! (= It is not I who have to be young) (16, 24). If he had received one line, one personal line, along with one rejection of all his rejections, he would have been cheered (= he had not received) (13, 197).*

Baş cümləsində *I (he, she, we, you, they) wish* işlənmiş tamamlıq budaq cümlələrində: *Sometimes I wish I was a hobo (= I am not a hobo) (13, 251). I wish you would tell me your secret (= you have not told me) (16, 171).*

Lest bağlayıcısı işlənmiş məqsəd budaq cümlələrində: *"I did not know that you intended to walk," said Miss Bingley, in some confusion, "lest they had been overheard" (= in order not to be overheard) (9, 36). The fist half hour was spent in piling up the fire, lest she should suffer from the*

change of room (= in order not to suffer) (9, 37). Qeyd etmək lazımdır ki, bu zaman təkcə feilin Sabcanktive şəkli deyil, Sapozişinal şəkli də işlənə bilər ki, ikinci nümunə buna misaldır.

Feilin Sabjanktiv və Kandişinal şəkli inkarda işləndiyi halda isə əksinə implisit təsdiq bildirir: *"I wish you wouldn't smoke any more," she whispered (= he smoked) (13, 370). "I wish now I had not told you about Sibyl Vane" (= I had told) (16, 43). I wish I had never laid eyes upon you! (= I had laid eyes) (16, 71). I think I should never have known if you had not kissed me (= you had kissed) (16, 71).*

But for ilə başlayan və feilin Kandişinal şəklini tələb edən mürəkkəb cümlələrdə: *But for those two things (= without those two things), his life might have been free from stain (= his life has not been free from stain) (16, 74).Unless* bağlayıcısı işlənmiş və feilin Sabcanktiv şəklini tələb edən qeyri-şərtli cümlələrdə: *I know that you could neither be happy nor respectable, unless you truly esteemed your husband (=if you didn't esteem); unless you looked up to him as a superior (=if you didn't look up) (9, 254).*

Azərbaycan dilində isə bu feilin arzu, vacib, lazım, bacarıq və şərt şəkilləri vasitəsi ilə reallaşa bilər. Feilin əmr şəkli *(feil kökü və ya əsası + şəxs şəkilçiləri),* arzu şəkili *–a, -ə* şəkilçiləri (keçmiş zamana aid olarsa, *–a, -ə + idi, imiş*), vacib şəkli *–malı, -məli* (keçmiş zamana aid olarsa, *–malı, -məli + idi, imiş*), lazım şəkli *-ası, əsi* (keçmiş zamana aid olarsa, *–ası, -əsi + idi, imiş*), vacib şəkli *– feil + a + bilmək* (keçmiş zamana aid olarsa, *feil + a + bilmək + idi, imiş*), şərt şəkli isə, *-sa, -sə* (keçmiş zamana aid olarsa, *-sa, -sə + idi, imiş*) vasitəsilə əmələ gəlir (3). Qeyd etmək lazımdır ki, ingilis dilindən fərqli olaraq Azərbaycan dilidə feilin bu şəkilləri kontekstdən asılı olaraq həm implisit inkarlıq ifadə edə, həm də ifadə etməyə bilər, yəni feilin qeyd edilən şəkilləri təsdiqdə işlənərsə, mənaca implisit inkarlıq; inkarda işləndikdə isə implisit təsdiq bidirir.

Məsələn: *Əlbəttə, hələ iki il bundan irəli gərək sənə toy olaydı (=toy olmamışdı), əgər Şərəfnisə çox uşaq olmasaydı (1, 48). Ata gərək həyatın astanasında duran oğluna həyatın bütün müdriklikərini təfərrüatı ilə açmalı idi (=açmayıb) (7, 23). Vəzir belə bilir ki, əgər sənin əlinə elə bir ixtiyar düşsə (=düşməyib), Mirzə Səlim bişək qabağa çıxacaq, atasın yerin tutacaq, indi bu fikirdədir ki, xana desin (=deməyib), onu bu vilayətdən qovdursun (=qovdurmayıb) (1, 105). A qadan alım, oturmaq vaxtı deyil, genə əlimdən çıxıb gedərsən. Sözümə qulaq as (=qulaq asmır) (1, 118). Nisə xanım, badyanı qoy başına (=qoymayıb) (1, 118).*

İnkarda işləndikdə: *Əgər mən Qarabağa gəlməsəydim, kim biləcək idi ki, Qarabağın yaylaqlarında bu otlar mövcuddur? (=qarabağa gəlmişəm) (1,52). Mən onu gözümdən qoymalı deyildim (=gözümdən qoymuşam) (7, 154).* Lakin, bu nümunəni *mən onu gözümdən qoymamalıyam*

kimi işlətsək, implisit təsdiq ifadə etməyəcəkdir. Sadəcə olaraq, feilin vacib şəklinin eksplisit inkar formasını ifadə edəcəkdir.

Nəticə etibarı ilə, inkarlıq bütün dillərə məxsus dil universalisidir. Lakin, müxtəlif dillərdə inkarlıq müxtəlif tərzdə - eksplisit və ya implisit şəkildə ifadə edilə bilər.

Həm ingilis, həm də Azərbaycan dili inkarlığın istər leksik, istərsə də qrammatik cəhətdən zəngin ifadə vasitələrinə malikdir. İmplisit ifadə vasitələri emosional (üslubi) məqsədlərlə istifadə olunur ki, bu da dildə inkarlığın ifadə vasitələrinin variativliyindən xəbər verir.

Ədəbiyyat

1. Axundzadə M.F. Əsərləri I cild. Bakı: Şərq-Qərb, 2005.
2. Cabbarlı C. Əsərləri I cild. Bakı: Şərq-Qərb, 2005.
3. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Elm və Təhsil, 2010.
4. Musayev (Türksevər) O. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007.
5. Orucov Ə., Abdullayev B., Rəhimzadə N. Azərbaycan dilinin izahlı lüğəti, III c. Bakı: Şərq-Qərb, 2006.
6. Orucov Ə., Abdullayev B., Rəhimzadə N. Azərbaycan dilinin izahlı lüğəti, IV c. Bakı: Şərq-Qərb, 2006.
7. Səid Q. Əli və Nino. Bakı: Şərq-Qərb, 2006.
8. Veysəlli F. Dilçilik Ensiklopediyası. I c. Bakı: Mürtəcim, 2006.
9. Austen J. Pride and Prejudice. Norton critical Edition, 1992.
10. Blokh M. Y. A Course in Theoretical English Grammar. Moscow, 1983.
11. Fodor D.J, Fodor A.J, Garrett M.F The Psychological Unreality of Semantic Representation. Linguistic Inquiry Vol. 6, No. 4 (Autumn, 1975), pp. 515-531 / https://www.jstor.org/stable/4177898
12. Hornby A.S. Oxford advanced learner's dictionary. IV ed. Oxford University Press, 1989.
13. London J. Martin Eden. The Floating Press, 2008
14. Maugham W.S. The Painted Veil. W. Heinemann LTD, 1934.
15. Twain M. Tom Sawyer Abroad. The Floating Press, 2008.
16. Wilde O. The Picture of Dorian Gray. Wordsworth Classics, 2001.
17. Ильичева Л.Ф., Федосеева П.Н. Философский энциклопедический словарь. Москва, 1983.

П.Юсифова

Выражение имплицитного отрицания грамматическими средствами на английском и азербайджанском языках

Резюме

Отрицание - это универсальная категория на всех мировых языках. Каждый язык обладает эксплицитным и имплицитным отрицанием. Оно занимает особое место в традиционных и современных лингвистических исследованиях. Имплицитность можно найти в устной и письменной речи по общему контексту, ситуации и базовых знаний участников коммуникации. Вербальная коммуникация полна имплицитного отрицания. Семантически, отрицание может быть более сложным, чем можно себе представить.

В этой статье рассматривается главным образом грамматическое представление имплицитного отрицания на английском и азербайджанском языках. В статье описаны и проанализированы наиболее распространенные способы выражения неявного отрицания. Здесь исследован способ выражения имплицитного отрицания различными частями речи, модальными глаголами и сослагательным наклонением. Примеры, приведенные в статье, взяты из художественной литературы на материале обоих языков.

P.Yusifova

Expression of implicit negation by grammatical means in the English and Azerbaijani languages

Summary

Negation is the universal category in all the world languages. Every language possesses both explicit and implicit negation. It occupies a special place in traditional and modern linguistic investigations. Implicitness can be found in oral and written speech due to shared context, situation, and background knowledge of the communicants. Verbal communication is full of implicit negation. Semantically, negation can be more complex than one can imagine. This article deals with mainly grammatical representation of implicit negation in the English and Azerbaijani languages.

The most common ways of expressing implicit negation has been described and analysed in the article. Here, the way of expressing implicit negation by different parts of speech, modal verbs and oblique moods has been investigated. Examples given in the article have been taken from fiction in both languages.

Rəyçi: Leyla Cəfərova
Filologiya elmləri doktoru, dosent

GÜNAY MƏMMƏDOVA
Azərbaycan Dillər Universiteti
Gunaymemmed24@gmail.com

İNGİLİS DİLİNİN VARİANTLARININ YARANDIĞI GƏMİ, "SHIP ENGLISH"

Açar sözlər: Ship English, koloniyalaşdırma, ingilis dilinin variantları, dənizçilik sosiolekti
Key words: Ship english, colonization, varieties of the english language, nautical sociolect
Ключевые слова: ship English, колонизация, разновидности английского языка, морской социалект,

İngilis dilinin variantlarının yaranmasında Britaniyanın son iki əsrdə Şimali Amerika, Okeaniya, Qərbi Afrika, Cənubi Asiya və Cənubi Amerikada apardığı işğalçılıq siyasəti əsas rol oynayır. Bu barədə bizə dəqiq və əfsəl məlumatı Raymond Hickey "Legacies of Colonal English: Studies in Transported Dialects" kitabında verir: "Dolayı yolla imperiyanın möhkəmlənməsinə xidmət etmək məqsədilə idari və hərbi heyyətdən ibarət sakinlərin koloniyalara yollanması ilə variantlar tarixi artıq başlamışdı". (4, səh 34) Koloniyalaşma siyasəti bir çox dilin süqutuna səbəb olmaqla İngilis dilinin yer kürəsinin hər küncünə və hər bucağına yayılmasına səbəb oldu. İngiltərədən Yeni Dünyaya İngilis dilinin imperializminin 15-ci əsrin sonunda yayılmasına baxmayaraq İngiltərə genişlənmə siyasətinə çox sonralar, Con Kobotun 1497- ci ildə Newfoundlanda səyahətini saymasaq, 1 əsr sonra başlamağa qərar verdi. Yeni Dünyada İngilis koloniyalaşmasının ilkin siqnalı indiki Birləşmiş Ştatların şərq sahilində məskunlaşmadır. İngilis dilinin müasir dövrdəki imperializmi Britaniyanın 5 əsr öncəki, Amerika Birləşmiş Ştatlarının müasir dövrdəki siyasətənin nəticəsidir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, müşahidələrimizə əsasən tam əminliklə deyə bilərik ki, ingilis dilinin həyatımızın hər sahəsinə nüfuz etməsi ana dilimizə biganə yanaşmağımıza gətirib çıxarıb. Xüsusilə də yeni nəsil daha cəlbedici səslənmək naminə ünsiyyət qurarkən ingilis mənşəlli sözlər istifadə etməklə ana dilimizin saflığın pozurlar. Fikrimizcə, ana dilimizi xarici dilin təsirlərindən qorumaq üçün bu istiqamətdə müəyyən təbliğat və təşviqat işləri aparılmalı və gəncləri də bu istiqamətdə məlumatlandırmalıyıq. Çox təəssüf ki, ingilis dilinin qloballığı fərdi dillərin saflığının pozulmasında öndə gedən amildir. Hamıya məlumdur ki, əslində bu problemin qaynağı Azərbaycan dilinin ədədbi normaların mükəmməl şəkildə bilməyən televiziya və radio proqramlarının aparıcılarıdır. Bu isə öz növbəsində

cəmiyyətin digər fərdlərinin dil repertuarına təsir edərək dilin saflığına zərər yetirir. Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində yazır: "Azərbaycan dilinin saflığının qorunması dilçilik elmi nəzəriyyəsi və praktikasının inkişafı üçün müvafiq şəraitin yaradılması və tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının əsas vəzifələrindən biridir" və eləcə də "Mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində təsis edilən və fəaliyyət göstərən, dövlət dilində yayımlanan bütün televiziya və radio kanallarının aparıcıları dövlət dilini mükəmməl bilməli və səlis danışıq qabiliyyətinə malik olmalıdırlar.(1,səh9) Televiziya və radio kanallarında dublyaj olunan filmlər və verilişlər dövlətin müəyyən etdiyi dil normalarına uyğun olmalıdır" Dil haqqında qanunun yekun müddəalarına özündə cəm edən 19-cu maddəyə əsasən dil haqqında qanunu pozan hüquqi, fiziki və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərədə tutulmuş qaydada məsuliyyət daşıyır. Dil normalarını pozan şəxslər konstitusiyada nəzərdə tutulan məsuliyyətə cəlb olunsa,bizcə, dilin saflığının pozulması halları nisbətən də olsa azalar. Çox inanırıq ki, dilin saflığının qlobal dilin təsirlərindən qorunması problemi dövlət səviyyəsinə qalxmadan öncə ailədə həllini tapmalıdır. Hər bir valideynin öhdəsinə düşən vəzifə övladlarının ünsiyyət qurarkən istifadə etdiyi xarici mənşəlli (rus və ingilis) kənar sözlərə qadağa qoyaraq övladlarının dil repertuarını düzgün formalaşdırmaqdır. Bu dil vərdişlərini də uşaqlarda formalaşdırmaq üçün ilk öncə valideynlər ana dilin gözəl bilməlidir. Britaniya və Amerika siyasi gücünün və mədəniyyətinin hər ölkəyə yayılmağa başladığı andan bugünə kimi bunu etmək çətindir.

Günəş batmayan imperiyada İngilis dilini yaymaq və təbliğ etmək üçün üçün böyük senarilər və məşəqqətli səyahətlər lazim idi. İngiltərədən yeni üfüqlərə səyahətlər adətən gəmi ilə həftələrlə çəkirdi. Həmin əsrdə yeni texnologiyalı gəmilərin yaranmasına baxmayaraq bu səyahətlərin ən qısası Nyufoundlənd və Şərqi Kanadaya, ən uzunu isə Avstraliya və Yeni Zelandiyaya olmuşdur. Bu fakt dilçiləri hər zaman bu "səyahət gəmilərində danışılan İngiliscə" haqda düşünməyə vadar etmişdir. Alimlərin gəldiyi qənaət bundan ibarət olmuşdur ki, çox sonralar koloniyalarda yaranan İngilis dili variantları bu gəmilərdə köç edən sakinlərin İngiliscəsindən törəmişdir.Sosilinqvistika tarixində "Ship English" (Gəmi İngiliscəsi) adı ilə məşhur olan bu araşdırma tarixə William Matthew "Sailors Pronunciation in the Second Half of the Seventeenth Century" yazısı ilə keçmişdir.(6). Müəllif iddia edir ki, dənizçiliklə məşğul olan və miqrasiya edən cəmiyyətin Cənubi İngiltərə bölgəsinin dialekti əsasında formalaşan özünəməxsus dili olmuşdur. O bu qənaətə dənizçilərin gündəliklərində yazılanları araşdırdıqdan sonra gəlmişdir. Matthew yarısavadlı dəniçilərin gündəliklərində yazdıqları sözü tələffüz etdikləri kimi qeyd etdiklərinin şahidi olmuşdur. Araşdırma sonunda

o belə bir nəticəyə gəlmişdir ki, Ship English də danışanların nitqi Müasir İngilis dilindən 67 fərqli xüsusiyyətinə görə fərqlənirdi və Southeren və East Midland dialekti gəmi heyəti və miqrantlar arasında ən çox danışılan dil olmuşdur və güman edilir ki, variantlar da mənbəyini bu dialektlərdən götürmüşdür.

Matthewin gəmi heyətinin qeydiyyat gündəliklərindən yazdıqlarından gəldiyi qənaətə əsasən əsas dəyişikliklər dilin fonologiyasında baş vermişdir. Belə ki, qeydlərdə /ʊ, ʌ/ saitləri / ɪ/ əvəzinə (bushop – bishop, drusselling-drizzling) , burun səslərindən qabaq / ɪ / saiti /ɛ/ əvəzinə (inemy, wint, frinds), /æ/ saitinin /ɔ/ saitinə doğru geri çəkilməsi (tollow-tallow, for-far," d" hərfinin yerinə "th" yazılmasına (ruther- rudder, order-orther) rast gəlin-mişdir.

İngilis dilinin variantların əlahiddə araşdırmadan öncə "Ship English" tarixi hadisəsin nəzərdən keçirmək ən azından ona görə labüddür ki, bir çox dilçi və tarixçilərin ortaq fikrinə görə variantların dil talehini gəmilərdəki miqrantların dil fondu həll edib. Colcord, Muller Schotte, Raymond Hickey və İan Hancock kimi alimlər tərəfindən geniş araşdırılan Ship English fenomeni dünya üzrə qəbul olunmuş gerçəkləri özündə ehtiva edir. "Ship English" dilinin əsl daşıyıclar əsrlərdir ölü sayılsalar da onların dilinin izləri İngilis dilinin ədəbiyyatı səhifələrində qarşımıza çıxır. Conatan Svift "Qulliverin Səyahətləri" əsərində belə yazır (3,səh77) :" Bəzi dənizçi yekəpərlər mənim dəniz dilimdə qüsurlar tapırlar. Cavanlıq vaxtımda ilkin səfərlərimdə mən qocaman dənizçilərdən onlar kimi danşmaq üçün nitqim ilə bağlı dərslər alırdım.": "Bəzi dənizçi yekəpərlər mənim dəniz dilimdə qüsurlar tapırlar. Cavanlıq vaxtımda ilkin səfərlərimdə mən qocaman dənizçilərdən onlar kimi danşmaq üçün nitqim ilə bağlı dərslər alırdım". Yazıçı Daniel Defo isə belə təsvir edir: "Dəniz həyatı keçirənlər quruda yaşayan sakinlərdən xeyli dərəcədə fərqlənirdilər. 16-cı əsr dəniz adamı qırmızı papağı ilə, 18-ci əsr dənizçisi isə qəribə formalı şalvarı ilə seçilirdi. Nəzərə çarpan ən önəmli xüsusiyyət isə onların özünəməxsus şəxsi dillərinin olması idi. (2,səh 75)

Gördüyümüz kimi, Daniel Defo, Conatan Svift kimi yazıçılar da dənizçilərin özünəməxsus dilinin olduğunu təsdiqləməklə qalmır, hətta, özlərinin dilinin başqalarına öyrətdiklərini və yaydıqlarını obrazların dilində çox məharətlə oxucuya bədii don geydirilmiş tarixi fakt olaraq çatdırır. Yuxarıda adları çəkilən alimlərin araşdırmalarının izində olarkən belə bir nəticəyə gəldik ki, Böyük Britanıyanın genişlənməsi nəticəsində dilin olduğu kimi saf şəkildə koloniyalara ötürülməsi qeyri-mümkün hal idi. Qənaitimizə görə, yeni torpaqlara köçürülənlər də "cəmiyyətin qaymaqları" olmamışdır. Gəmilərdə okeanları keçənlər öz ölkəsində nəyəsə nail olmağı bacarmayan, ümidlərini yeni torpaqlara bəsləyən bisavad və ya yarısavadlı əhali

olmuşdur. Onların savad və dünyagörüşü dil repertuarına təsir etdiyindən dolayı məskunlaşdıqları yerlərdə də dili o formada çatdırmışlar. Bu da öz növbəsində İngilis dilinin Yeni Zelandiya, Avstraliya, Amerika və Kanada kimi variantlarının formalaşmasına gətirib çıxarıb. Təbii ki, hər bir elmi fərziyyə kimi bu hipotezin də çatışmayan cəhətləri mövcuddur ki, Mattheü bəzi məqamlarda tam dəqiqliklə çıxış edə bilməmişdir. Dəqiq əldə edilən nəticə ondan ibarətdir ki, 16-17-ci əslərdə İngilisdilli dənizçilər xüsusi sosiolekt yaratmışlar və dənizçilərin dili Britaniya adalarının Şərqi Midlənd və Cənubi bölgəsində danışılan dialektlə örtüşdüyü ortaya çıxmışdır. Buna səbəb isə həmin dənizçilərin dilindən bizə gəlib çatan materiallar məntiqli nəticə çıxarmaq üçün kafi sayda deyildir. Əlimizdə kifayət qədər materialın olmamasına rəğmən nəticə etibarilə deyə bilərik ki, Ship English fenomeninin araşdırılması İngilis dilinin variantlarının tədqiqində ən azından ona görə vacibdir ki, variantların yaranmas barədə qeyri-dəqiq olsa da bir tədqiqatçının linqvistik dünyagörüşündə fikir formalaşdıra bilir və dənizçilik sahəsində yaranan sosiolektin varinatlarda qoyduğu izləri məhz Ship English ilə izahın vermək mümkündür.

Ədəbiyyat siyahısı:

1.Azərbaycan Respublikası Konstitusiyası, Qanun, 2005
2. Burke, P.”Popular Culture in Early Modern Europe”, 1996
3. Jonathan Swift, Jones & Company, 1826
4. Raymond Hickey “Legacies of Colonal English: Studies in Transported Dialects”, Cambridge University,2004
5. Raymond Hickey “Legacies of Colonal English: Studies in Transported Dialects”, Cambridge University,2004
6. William Matthew, “Sailors Pronunciation in the Second Half of the Seventeenth Century, 1935

G ,Məmmədova

The ship where variants of English begin; Ship English
Summary

In the thesis the author aims to analyze the scientific importance of a well-recognized historical study of English varieties called Ship English, since it arouses an interest in every sociolinguistic researcher. The case study is of importance for researching formation of variants of the English language on five continents as a result of colonization. By so many sociolinguistics it is acknowledged that, sailors having limited knowledge of

writing rules sealed the fate of future varieties of English. In this paper the author worked with the data presented by Matthew to prove the existence of Ship English. Idea of a nautical sociolect was firstly proposed by William Matthews (1935) in his “Sailors' Pronunciation in the Second Half of the Seventeenth Century”. Accroding to Matthew’s findings’ outcomes we can surely say that Ship English was phonologically different from current standard English. The thesis also includes facts about Matthews claims to be unsatisfactory. The author gives concluded points about what happened to the English in that ship and how those changes were transported to the colonies.

Г.Маммедова

Корабль, где начинаются варианты английского языка; Ship English

Резюме

Автор диссертации стремится проанализировать научную значимость хорошо известного исторического изучения английских сортов под названием Ship English, поскольку он вызывает интерес у каждого социолингвистического исследователя. Тематическое исследование имеет важное значение для исследования формирования вариантов английского языка на пяти континентах в результате колонизации. По многим социолингвистикам признается, что матросы, имеющие ограниченное знание правил написания, запечатали судьбу будущих разновидностей английского языка. В этой статье автор работал с данными, представленными Матфеем, чтобы доказать существование ship english. Идея морского социалекта была впервые предложена Уильямом Мэтьюсом (Уильям Мэттьюс) (1935) в его «Морякском произношении во второй половине семнадцатого века». Подводя итог выводам Мэтью, мы можем с уверенностью сказать, что Корабль Английский был фонологически отличным от стандартного английского. Тезис также включает факты о том, что претензии Мэтьюза неудовлетворительны. Автор дает выводы о том, что случилось с английским языком на этом корабле и как эти изменения были перенесены в колонии.

Rəyçi: Leyla Cəfərova
Filologiya üzrə elmlər doktoru

YETƏR ƏHMƏDOVA
Azərbaycan Dillər Universiteti
eteri_g@mail.ru

О НЕКОТОРЫХ АСПЕКТАХ ПРОСОДИЧЕСКОЙ ОРГАНИЗАЦИИ ВЫСКАЗЫВАНИЙ В НЕРОДСТВЕННЫХ ЯЗЫКАХ

Açar sözlər: dillərin müqayisəsi , intonasiya, prosodika, emosional ifadələr.
Ключевые слова: сопоставление языков, интонация, эмоциональные высказывания, просодика.
Key words: urelated languages, intonation, emotional utterances, prosody.

Сравнение всегда неизбежно входит в процесс познания изучаемого объекта. Поэтому не случаен возросший интерес к исследованиям сопоставительного характера. По существу, сравнение в том или ином терминологическом отличье проходит через всю историю лингвистики, образуя ее гносеологическую предпосылку. (1)

Сопоставительное изучение языков, в том числе и неродственных, представляет значительный интерес, как в практическом, так и в теоретическом отношении. Теоретическое значение сопоставительного исследования заключается в том, что оно позволяет изучить сходства и различия в способах выражения одних и тех же содержательных категорий, определить, как в разных языках удовлетворяется сходные функциональные потребности, глубже вскрыть функциональную эквивалентность языков на различных языковых уровнях при сопоставлении как системном, так и функциональном.

Сопоставление помогает с большей полнотой выявить функциональный потенциал и границы функционирования изучаемых категорий, определить речевые условия их употребления, установить различие функций при сходстве системных отношений и сходство функций при материальных различиях.

Практическое же значение сопоставительных исследований общеизвестно; сравнение языковых систем является основной методико - дидактических и учебных пособий. Без значения сходств и различий между языками нельзя построить эффективную методику преподавания вторых языка как неродного.

Наконец, сопоставление с системами других языков позволяет глубже осознать особенности системно-структурной организации и функционирования родного языка.

Сопоставительный анализ представляется еще весьма необходимым как с точки зрения решения целого ряда проблем языковой вариативности, так и в плане познания процессов эволюции языка.

Даже поверхностный анализ ряда языков позволяет сделать предложение, что "на том же этапе, когда человек изобретал и развивал языки, возникли их инвариантные свойства, которые опять-таки не точно, но до некоторой статистически полезной степени, присущи всем языкам."(2)

Историческое языкознание показывает, что в самых различных языках, даже между собой представленных, имеются некоторые общие типы изменений звуков, грамматических форм и синтаксических конструкций, которые можно определенным образом классифицировать.

Все это свидетельствует о том, что в самых различных языках мира действуют какие-то факторы, способствующие образованию общих черт и особенностей.

Общие черты языков мира можно объяснить физиологической общностью устройства мозга и органов восприятия, что является условием одинакового отражения окружающего мира, а следовательно, и общности логического мышления. Сходства в области звука-производства объясняются сходством в устройстве произносительных органов. Как бы разнообразны ни были языки мира, они имеют один и тот же субстрат -окружающую человека действительность и одинаковую целевую или практическую направленность быть средством общения. Существуют, кроме того, общие законы конструирования и функционирования человеческой речи.

Однако следует отметить, что, несмотря на наличие элементов сходства, между языками мира имеются и существенные различия.

Сопоставление фразовой интонации можно провести на различных уровнях типологического анализа.

Первым типологическим уровнем будем считать языковое различие по месту интонации в различении функциональных типов предложения. Это различие связано со строевой структурой предложения в данном языке.

Второй уровень сопоставление интонационных систем, рассматриваемых на содержательном уровне. Выявление содержательных категорий в их разрывной связи с выражающими их формальными единицами есть основная и конечная задача описание интонационной системы каждого языка.

Однако реально это система пока не описана ни для одного языка.

К содержательной стороне сопоставление интонационных уровней относятся различение систем интонации и различение степени ее

функциональной нагрузки. Для сопоставления существенны также и формальные средства. Так, Ф. Данеш подчеркивает, что при исследовании интонации одного языка центр внимания интонолога обычно направлен на функциональные отличия, при типологическом же исследовании, прежде всего существенно сопоставление формальных средств.(3)

На следующем этапе сопоставления целесообразно сравнивать языковые интонационные системы по тому, какие именно интонационные фигуры соответствуют каким именно единицам плана содержания.

При совпадении и набора форм интонации, и их соответствия смысловым категориям может возникнуть еще одна проблема типологического описания вопрос о соотношении нормы и не нормы в разных языках. А именно - в рамках общего упорядоченного множества форм - смыслов могут различаться дополнительные системы: литературный разговорный язык, и эти подсистемы могут по-разному распределять в разных языках свои единицы, совпадающие в целом.

Возможна и такая ситуация, когда в сопоставительных языках для одной и той же единицы плана содержания представлен один и тот же набор синонимических формальных единиц, причем этот набор для каждой смысловой категории по языкам совпадает и все синонимы при этом нормативны. Тогда следующим уровнем сопоставления будет уровень употребления, а именно определение того, какой из нормативных вариантов в том или ином языке более употребителен; этот уровень считается последним уровнем сопоставления интонационных систем.

Однако описывать и сопоставлять интонационные системы невозможно, игнорируя эмоциональную сферу, которая выражается просодическими средствами двойственным образом. Во-первых, часть эмоции передается таким способом, что их трактовка универсальна для носителей любого языка, чаще всего это тембральные средства, определенные типы модуляций и т.д. Горе, радость, человеческая симпатия не требуют знания чужого языка, они неконвенциональны.

Во-вторых, существуют эмоции, которые могут быть правильно поняты носителями одного языка и превратно истолкованы носителями другого языка. По-видимому, конвенциональная сторона выражения эмоции гораздо шире она охватывает и другие языковые сферы: сегментную фонетику, словообразование, порядок слов в предложении и словосочетании и т.д.

Для описания иностранных систем разных языков существенно и то, что эмоциональные варианты одного языка, воспроизведенные в другом языке, оказываются нейтральными. Поэтому для выявления систем "смыслы - формы" в разных языках необходимо уточнить их

экспрессивную однородность (особенно это существенно для тех описаний, которые ориентированы на преподавание интонации).(4)

Эмоциональные варианты, так же как нелитературные или диалектные, могут быть ценным материалом для сравнительно исторического изучения фразовой интонации, для выявления генезиса ее форм.

Говоря об эмоциональных вариантах, имеют в виду не эмоциональную деформацию фразы, появляющуюся под влиянием эмфазы или усиленного ударенияречь идет только о типах мелодических фигур, которые, в зависимости от языка, могут быть эмоциональными или нейтральными. Экспрессивные элементы используют те форменные возможности, которые не реализуются системой грамматических элементов. Поэтому разные языки используют различные способы реализации эмфазы. В результате мелодические фигуры, воспринимаемые в данном языке как эмоциональные, в другом будут представлять нейтральные варианты, для какого-то третьего языка они будут звучать аномально.

Интонация, как никакой другой языковый слой, близок в своих категориях в универсальности. Объективные трудности при описании интонации порождаются ее сложностью специфичностью. Интонационные описания не достигнут требуемого единообразия до тех пор, пока исследователи не смогут аргументированно ответить, почему в данном языке выделяется такое, а не другое число интонационных единиц.

Специфичность интонации заключается еще и в том, что она, хотя бы на первичном уровне исследования, должна изучаться на базе сегментного языкового материала.

Одним из самых распространенных и неизбежных недостатков интонационных описаний является смешение универсальных и специфически языковых показателей.

Оказывается, что найти специфику одного языка можно лишь в том случае, если известны данные остальных языков.

Смешение универсального и специфического в описании интонации не есть результат одной недостаточности лингвистической теории; это смешение проистекает из самой специфики материала, т.е. из суперсегментных свойств звучащего потока.

Во всех языках фразовая интонация, помимо знаково- интонемного содержания, предает еще и эмоционально-оценочное значение, при этом эмоциональная сторона речи развивается - одни эмоции передаются одинаковыми для всех языков средствами, другие специфически языковыми, находящимися в компенсаторных отношениях с интонемными показателями.

В области фразовой интонации исследователей поражало чисто фонетическое сходство субстанционной категоризации, которое не могло быть объяснено через смысловую структуру. Это сходство давало основания для объяснения всего интонационного уровня явлениям универсальным, покоящимся на общефизилогической речевой основе.

На основании различий в социально-функциональной сфере использования интонации и отдельных ее компонентов представляется целесообразным выделить четыре аспекта характеристики каждого из основных компонентов интонации.

Первой аспект составляют универсальные особенности интонации, присущие разным языкам мира (по крайней мере, всем индоевропейским) : они служат для указания на завершенность / незавершенность высказывания, для выражения волеизъявления, эмоций, различения аффективных и не аффективных структур, а также для членения потока речи на значимые единицы.

Понижающийся мелодический контур (как сигнал завершенности высказывания, обусловленный, в конечном счете, физиологически) и восходящий тон (как сигнал незавершенности) характерны для различных языков. Сходны по мелодике и вопросительные предложения в большинстве языков, хотя реализуется понижение тона по-разному.

Универсальной является методика, предающая общее настроение говорящего, его эмоции (радость, горе, иронию, страх и т.п) или волю (приказ, просьбу, призыв и т.п.); эмоциональный тон и тембр делают понятными чувства и волеизъявления человека, говорящего на не известном нам языке.

В интонировании речи можно различать эмоционально-интеллектуальную сторону (когда эмоциональная интонационная окраска "сопровождает" высказывание) и чисто эмоциональную (когда настроение предается интонационно). В первом случае эмоция выражена лексическим значением слова (или ряда слов) и интонацией: эмоциональная интонация, главным образом мелодика и тембр, подчеркивает эмоциональную сторону высказывания.

Речевая мелодика не является основным средством выражения эмоциональности, она лишь усиливает эмоцию, четко обозначенную словом. Роль мелодики в выражении эмоции значительно возрастает, если интонационная оценка противоречит лексическому значению слова или передаются настроения, которые не имеют, а иногда и не могут иметь - в силу сопряжения нескольких эмоциональных планов-особого адекватного и полнозначного словесного выражения. В последнем случае налицо чисто эмоциональная сторона речи, передаваемая междометиями и интонационно либо только

интонационно. При этом речевая мелодика становится максимально выразительной и эмоционально впечатляющей.

Эмоциональная мелодика всегда связана со смыслом. Вполне вероятно, что каждому типу эмоции (или может быть, некоему набору типов) соответствует тип эмоциональной интонации, в частности мелодики, и если эмоции вызваны психическим состоянием говорящего, то и эмоциональная мелодика определяются этим состоянием не зависит непосредственно от языковой структуры. Отсюда -сходство или общность типов эмоциональных интонаций в различных языках. Следовательно, эмоциональная мелодика общая для разных языков, определяется факторами экстралингвистическими.

Универсальными являются и эмоционально обусловленные особенности темпа. Так всем индоевропейским языкам известна "быстро--энергичная гневная речь" и "торопливая радостная; при решительных требованиях или выговорах речь может принимать медленно-размеренный характер."(5)

Универсальный аспект характеристики смысловых ударений проявляется в интонационном разграничении аффективных (эмфатических) и не аффективных (обычных) динамических структур. Два основных типа расположения в высказывании компонентов актуального членение (от темы к реме и от ремы к теме), присущие большинству языков, пусть с различными способами грамматической реализации, обусловливаются коммуникативным заданием сообщения и психическим состоянием говорящего, т.е. тоже факторами экстралингвистическими.

Таким образом, особенности интонации, присущие разным языкам мира, определяются экстралингвистическими факторами.

Второй аспект характеристики компонентов интонации составляют особенности, свойственные определенным стилям речи и служащие для их дифференциации в различных языках мира.

Третий аспект составляют особенности, специфические для каждого национального языка и связанные с ритмическим строем речи, с ее конструктивно - синтаксической и коммуникативно - синтаксической структурой, с членением речевого потока на предложения и синтагмы, с различием коммуникативной значимости элементов высказывания, а следовательно, с его содержанием.

Национальная специфика этих особенностей интонации определяется тем, что общей ритмической структуры и общих закономерностей синтагматического членения не существует, поскольку входящие в понятие ритмической организации приемы зависят во многом от фонетической структуры слова, от природы словесного

ударения, от грамматических способов выражения членов предложения - безусловно, национально своеобразных. Правда, национально специфичны также иные, не зависящие от синтаксической структуры особенности интонации. Лишенные фонологической функции, эти особенности не представляют первостепенного лингвистического интереса, но важны для практики обучения.

Четвертый аспект составляют индивидуальные особенности интонации, позволяющие опознать голос каждого отдельного человека, обеспечивающие взаимное узнавание при "чисто звуковом" общении, когда отсутствуют иные формы контакта собеседников.(6)

Индивидуальная интонация "наслаивается" на универсальную и национально - специфическую, для ее характеристики нужны дополнительные показатели. Исследование признаков индивидуального голоса, чрезвычайно важных для разборчивости речи, интересует кибернетиков, специалистов по инженерной лингвистике.

В собственно лингвистическом плане индивидуальные особенности интонации несущественны.

Выделение аспектов не означает абстрактного их противопоставления. Интонация выражена одной звуковой волной, и ее аспекты взаимодействуют в речи; особенности их взаимодействия заслуживают специального рассмотрения.

Обнаружение фонологической функции интонации естественно внесет за собою признание возможности и целесообразности рассмотрения интонации в плане языка.

Для интонации важны относительные величины, значимые типовые соотношения, которые являются фактами языка и потому существенны для выявления его национальной специфики.

Каждый национальный язык располагает не только ограниченным наборам фонем, но и набором интонационных моделей- типовых интонационных структур. Не случайно интонологи говорят об ограниченном количестве "интонации интеллектуального типа, создающих те или иные различия в значении." При всей индивидуальности интонации каждого отдельного высказывания в речевой интонации имеются и общие черты, реализующие устойчивые, типичные интонационных ходы. Представляется, что существует и интонационно-мелодический словарь в национальном языке.(7)

Положение об универсальных свойствах каждого конкретного языка неизбежно приводит к заключению о том, что в ***принципе существуют один человеческий язык, фундаментальные характеристики которого распространяется на любой конкретный язык,*** и, более того,

существование каждого национального языка предопределено в его языковой природе единым устройством человеческого языка вообще.

Изучения способов выражения эмоций не может быть плодотворный, если строить исследование лишь на каком-либо одном языке (или группе близкородственных языков), не учитывая данных различных ***неродственных языков.***

История изучения фразовой интонации разных языков говорит о том, что многие факты, познанные и сопоставленные, увеличивают сверху "универсального", все большее число интонационных фактов переходит из частноязыкового в общеязыковое. Можно предполагать, что факты, воспринимаемые пока как специфические, будучи организованными в систему, утратят свою специфичность.

Литература:

- Баранникова Л.И. Проблема интерференции и вопросы взаимодействия языков. Саратов, 1966.
- 1. Баранникова Л. И. Проблемы двуязычия и многоязычия. Наука,1972.
- Danes F. Cognition and emotion in discourse interaction. Berlin ,1987.
- Аракин В. Д. Сравнительная типология английского и русского языков. –Москва, Просвещение ,1989.
- Kingdom L. The Groundwork of English Intonation. London. 1958
- Антипова А. М. Ритмическая система английской речи. М. Высшая школа, 1984.
- Вишневская Г. М. Английская интонация: Учеб. Пос. Иваново ,1985.

Y.Ahmedova

Some aspects of prosodic organization of utterances in unrelated languages

Summary

The article deals with the comparative study in unrelated languages. This paper is mainly based on the importance of the research of emotional speech.

Comparative study od languages, including unrelated ones, is of considerable interest , both in practical and theoretical terms. The theoretical

significance of the comparative study is that it allows us to study the similarities and differences of languages at different language level in the comparison of both systemic and functional. The practical significance of the comparative study it is generally known; comparion of language system is the basis of methodological, didactic and teaching aids.

The article also explores the universality and specificity in prosodic organization of emotional utterances. The paper highlights four aspects of the main components of intonation.

The first aspect is the universal features of intonation inherent in different languages of the world. The second aspect is the peculiarities of certain styles of speech and serving to differentiate them in different languages of the world.

The third aspect is the features specific to each national language and associated with rhythmic structure of speech, division of sentences into syntagmas and so on. The provision on the universal properties of each particular language inevitably leads to the conclusion that,in principle, there is one human language whose fundamental characteristics extend to any particular language.

Y.Əhmədova

Qohum olmayan dillərdə emosional ifadələrin prosodik təşkilində müəyyən aspektlər

Xülasə

Məqələdə qohum olmayan dillərdə emosional ifadələrin prosodik təşkilində universalliq və spesifiklik araşdırılır.Muqayisə,dillərin öyrənilməsində və o cümlədən qohum olmayan dillərdə, həm praktik, həm də nəzəri cəhətdən, böyük maraq yaradır.

Nəzəri əhəmiyyəti müqayisəli tədqiqatin ondan ibarətdir ki, o dilin oxşarliqlarını və fərqlərini müayyən edir.

Həmcinin dillərin funksional ekvivalentliyini müxtəlif səviyyələrdə daha dərin araşdırılmasına imkan yaradır. Praktik əhəmiyyəti müqayisəli tətqiqatın məlumdur; müqayisəli dil sistemlərinin əsasını, metodik- didaktik və dərs vəsaitləri təşkil edir.

Məqalədə həmcinin gohum olmayan dillərdə emosional ifadələrin prosodik təşkilində universalliğı və spesifikliyi araşdırılır. Belə ki, intonasiyanin fərqli sosial-funksional istifadəsi sahəsində və intonasiyanin ayri ayri komponetlərini dörd aspektə ayirmağı məqsədə uyğun hesab edilir.

Birinci aspekt intonasiyanın universal xüsusiyyətləri təşkil edir və bu müxtəlif dünya dillərinə xas olan xüsusiyyətdi.

İkinci aspekt intonasiyanin komponentlərinə xas olan müəyyən nitq üslublari təşkil edir, hansı ki müxtəlif dünya dillərində onların fərqlənməsi ücün qulluq edir.

Ücüncü aspekt hər bir milli dilə xas olan onun xüsusiyyətləri və spesiflikliyi daxildir. Bura nitqin ritmik quruluşu, cümlələrin sintagmalara bölgüsü və sair daxildir. Dördüncü aspekt intonasiyanın individual xüsusiyyətləri təşkil edir.

Hər bir konkret dilin universal xüsusiyyətləri gaçinilmaz bir nəticəyə cixarır ki, dünyada bir insan dili mövcütdü və onun fundamental xüsusiyyətləri hər hansı bir konkret dilə şamil olunur.

Rəyçi: Kifayət Əlirzayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

MÜNƏVVƏR ƏSGƏROVA
Gəncə Dövlət Universiteti
haciyeva87@mail.ru

TÜRKOLOGİYADA VƏ AZƏRBAYCAN DİLÇİLİYİNDƏ NOMİNATİVLİYİN TƏDQİQİ

Açar sözlər: türk onomastik vahidləri, türk mənşəli adlar, dil vahidi, coğrafi adlar, etnonim tarixi
Ключевые слова: тюркские ономастические единицы, имена тюркского происхождения, языковая единица, географические имена, история этнонима
Key words: Turkic onomastic units, names of Turkic origin, language unit, geographical names, history of ethnonyms

Nominativlik problemi Türkologiyada və Azərbaycan dilçiliyində araşdırılan maraqlı mövzulardan biridir. Bu barədə Ə.Rəcəbli yazır: "Q.Şuxardtın əsərləri dilçilikdə adlar haqqında elmin yaranmasına səbəb oldu. Əşya və məfhumların prinsip və qanunauyğunluqlarını öyrənən bu dilçilik sahəsində sözün ad kimi fəaliyyət göstərməsi ön plana çəkilir. Q.Şuxardta görə, sözün dəyişməsi əşya və məfhumların adının dəyişməsinə səbəb olur".

Şuxardtın əsərləri əşya qruplarının adları üzrə tərtib edilən lüğətlərin metodlarının öyrənilməsini müəyyənləşdirir. Lakin bu heç də o demək deyildir ki, Q.Şuxardın yaşadığı dövrə (XIX əsrə qədər) nominativlik sahəsində tədqiqatlar olmamışdır. Bizim eranın 732-ci ilində Bilgə Xaqan Kül Tiqin abidəsində babası Bumin xaqanın dəfninə gələnləri sadalayaraq çoxlu sayda ad çəkir: "Dəfn edənlər, ağı deyənlər şərqdə gün doğandan Böklü çöllük elindən, Tabğaç, Tibet, avar, Ara Urum, qırğız, üç kurikan, oğuz, tatar, kitay, tatabi – bunca xalq gəlib sitqimiş, dəfn etmiş".

Orxon-Yenisey abidələrindən olan Kül tiqin və Bilgə xaqan kitabələrində onlarla xalqın adı sadalanır. XI əsrdə Mahmud Qaşqarlı "Divanü lüğət-it türk" sözlüyündə şəxs adları və yer adlarını, etnonimləri qeyd etmişdi. "Düvanü lüğət-it türk"də Mahmud Qaşqarlı yazır: "Mən onları istər müsəlman, istərsə də bütpərəst olsun, sıra ilə Rum, Beçənək, Qıpçaq, oğuz, Yəmən, Vasqurt, Basmil, Qay, Yabağu, Tatar, Qırğız, Çigil, Toxsi, Yağma, İğraq, Caruq, Cumul, Uyğur, Tanqut, Xitay, Tabğıc, sadalamışam. Bu qəbilələr Şimal və Cənub arasında sakindirlər.

Türk onomastik vahidlərini araşdırmaq sahəsində məşhur türkoloq V.V.Radlovun əməyi xüsusilə qeyd edilməlidir. O, Altay və Sibirin çoxlu toponimi toplamış və onlara etimoloji şərh vermişdir. Bu hidronimlərin

arasında "baş" komponentli leksemlər xüsusi maraq doğurur. V.V.Radlovun "Uyğur xalqlarının ad və titulları" və "Türk tayfalarının el ədəbiyyatı nümunələrində rast gəlinən xüsusi adların əlifba göstəricisi" adlı əsərləri nominativliyin tədqiqat tarixi üçün xüsusi əhəmiyyətə malikdir.

V.V.Radlovun dörd cild (səkkiz kitabı əhatə edən "Опыт словаря тюркских наречии" ("Türk ləhcələrinin lüğət təcrübəsi") adlı əsəri nominativliyin tədqiqat tarixində özünəməxsus yer tutur. Türkoloji dilçilikdə nominativlik probleminə tarixi baxımdan aşağıda adı çəkilən əsərlərdə qismən toxunulmuşdur. Bu əsərlərdə sözün əsas nominativ mənası haqqında maraqlı fikirlər söylənilmişdir: Arakin B.D. "Тюркские лексические элементы в русских повестях и сказаниях XIII-XV вв." ("Rus povestlərində və nağıllarında türk leksik elementləri. XIII-XV əsrlər"); Ахметзанов М. "Древнетатарские личные имена в родословных записях" ("Nəsil şəcərəsi qeydlərində qədim tatar şəxs adları"); Айдаров Г. "Язык орхонского памятника Билге-кагана" ("Orxon abidəsi Bilge Xaqanının dili"); Антонов Н.К. "Материалы по исторической лексике якутского языка" ("Yakut dilinin tarixi leksikasının materialları"); Баскаков Н.А. "Состав лексики каракалпакского языка и структура слова" ("Qaraqalpak dilinin leksik tərkibi və sözün strukturu"); Баскаков Н.А. "Географическая номенклатура в топонимии Горного Алтая" ("Dağlıq Altayın toponimiyasının coğrafi nomenklaturası"); Баскаков Т.А. "Элемент "gül" (роза, цветок) в составе каракалпакских женских имен" ("Qaraqalpak qadın adlarının tərkibində "gül" elementi"); Баскаков Н.А. "К этимологии собственных тюркских имен в русских летописях. Антропонимы узов (огузов)" ("Rus salnamələrində Türk adlarının etimologiyası. Uz (oğuz) antroponimləri"); Баскаков Н.А. "Тюркская лексика в "Слово о полку Игореве" ("İqor polku haqqında dastan"ın türk leksikası"); Боровков А.К. "Бадаи ал-лугат. Словарь Тали Имани Гератского" ("Bədai əl-lüğət. Tali İmani Heratinin lüğəti"); Боровков А.К. "Лексика среднеазиатского тефсира XII-XIII вв."; ("XII-XIII əsrlər orta Asiya təfsirinin leksikası"); Закиев М.З. "Об изучении древних тюрков и их языков" ("Qədim türklərin və onların dilinin araşdırılması haqında"); Гузев В.Г. "Староосманский язык" ("Qədim osmanlı dili"); Закиев М.З. "Проблемы языка и происхождения волжских татар" ("Volqa tatarlarının mənşə və dil problemi"); Ишаннулов Ю. "К истории названий плодов в узбекском языке" ("Özbək dilində meyvə adlarının tarixindən"); Кушева К. "Древнетюркский лексический пласт Кубинско-Дербентского диалекта азербайджанского языка" ("Azərbaycan dilinin Quba-Dərbənd dialektinin qədim türk leksik qatı"); Махмутова Л.Г. "Татарский язык в его отношении к древнеписьменному памятнику Codeks Cumanikus" ("Tatar dili və onun qədim yazılı abidə – Codeks Cumanikusla

əlaqəsi”);Мухамедова З.Б. “Исследования по истории туркменского языка XI-XIV вв.” (XI-XIV əsrlər türkmən dilinin tarixi barədə araşdırmalar); Наджир Э.Н. “Историко-сравнительной словарь тюркских языков XIV века” (“XIV əsr türk dillərinin tarixi-müqayisəli lüğəti”); Наджир Э.Н. “Исследования по истории тюркских языков XI-XIV вв.” (“XI-XIV əsrlər türk dillərinin tarixi barədə araşdırmalar”); Орузбаева В.А. “Словарь Махмуда Кашгарского как источник для изучения лексики” (“Mahmud Qaşqarlının lüğəti leksikanın araşdırılma mənbəyi kimi”); Стеблева И.В. “Поэзия тюрков VI-VIII веков” (“VI-VIII əsrlər türk poeziyası”); Фазилов Э.И. “Староузбекский язык. Хорезмийские памятники XIV века” (“Qədim özbək dili. XIV əsr Xarəzm yazılı abidələri”); Хорезми. “Мухаббат-наме” (Xorezmi. “Məhəbbət-namə”); Щербак А.М. “Грамматический очерк языка тюркских текстов X-XIII в. из Восточного Туркестана” (“Şərqi Türküstanın X-XIII əsrlərə aid türk mətnlərinin dilinin qrammatik oçerki”); Щербак А.М. “Грамматика староузбекского языка” (“Qədim özbək dilinin qrammatikası”); Ямпольский З. “Древнейшие сведения о тюрках в зоне Азербайджана” (“Azərbaycan ərazisində yaşayan türklər barədə ən qədim məlumatlar”) və s.

Yuxarıda sadalanan türkoloji ədəbiyyatda nominativlik problemi tarixi aspektdən araşdırılmışdır. Bu əsərlər rus salnamələrində və qədim türk yazılı abidələrində qorunub saxlanan nominativ leksika barədə maraqlı məlumatlar verir. Bundan əlavə bu tədqiqatlarda şərq ölkələrinin və Avroasiyanın türk leksikası barədə geniş araşdırmalar aparılır. Eyni zamanda qədim türk lüğətlərinin tərkibindəki nominativ leksika semasioloji və etimoloji baxımdan cəlb edilir.

Dialektlərdə, lüğətlərdə, salnamələrdə öz əksini tapan türk leksikası nominativ-semasioloji baxımdan araşdırılır. V.V.Bartoldun əsərlərində də türk, o cümlədən Azərbaycan nominativ leksikası haqqında qiymətli fikirlərə rast gəlmək olar. Bu əsərlərdə türk xalqlarının tarixi ən qədim dövrlərdən müasiri olduğu dövrədək araşdırılmış, türk xalqlarının etnogenezi haqqında maraqlı fikirlər irəli sürülmüş, çoxlu onomastik vahid təhlil edilmişdir.

Görkəmli rus şərqşünası V.A.Qordlevski türk xalqlarının dili, tarixi, ədəbiyyatı haqqında qiymətli əsərlərin müəllifidir. Onun zəngin elmi irsində türk leksikası, o cümlədən türk onomastikası haqqında qiymətli araşdırmalar vardır. V.A.Qordlevskinin “Osmanlıların şəxsi onomastikasına dair” məqaləsində türk xalqlarında adqoyma mərasimi tədqiq edilir, adların mənşəyi, ləqəblər və s. məsələlərə toxunulur. V.A.Qordlevskinin üç cildlik seçilmiş əsərlərində verilən şəxs, yer, əşya adları və ləqəblər içərisində çoxsaylı Azərbaycan nominativ vahidlərinə rast gəlmək olar. Qordlevski hətta şəxs adlarının qoyulma səbəblərini də izah etməyə çalışır.

A.N.Samoyleviçin əsərlərində də türk onomastikasının araşdırılmasına rast gəlmək olar. Məşhur türkoloq A.N.Kononov türk dillərində nominativ leksikanın tədqiqi ilə məşğul olmuş və bu problem barədə dəyərli fikirlər söyləmişdir. A.N.Kononov türk dillərində nominativliyin semantikasındakı qanunauyğunluqları izah etmiş "ağ" və "qara" komponentli nominativ vahidlərin geniş arealda işlənməsi barədə maraqlı məlumatlar verilmişdir.

Türk dillərində nominativliyin ən görkəmli tədqiqatçısı N.A.Baskakovdur. N.A.Baskakovun bu məqalədə adını çəkdiyimiz əsərlərində, xüsusən 1979-cu ildə nəşr edilən "Türk mənşəli rus familiyaları" adlı monoqrafiyasında dərin tədqiqat aparmış, bir çox rus soyadlarının türk mənşəli olduğunu aşkara çıxarmışdır. Alim rus soyadlarını dörd qrupa bölür: anadan olduğu və ya yaşadığı yerlə bağlı familiyalar; Titulla bağlı familiyalar; xüsusi şəxs adı ilə bağlı familiyalar; ləqəblərlə bağlı yaranan familiyalar. N.A.Baskakov türk mənşəli rus soyadlarını quruluşuna görə növlərə ayırır, onları qrammatik baxımdan təhlil edir.

Şərqdə, xüsusən Azərbaycan dilçiliyində söz və onun qüdrəti, sözün fəlsəfi mənası və dərin fəlsəfəsi haqqında fikirlər söylənmişdir. Bu əsərlərdə nominativ semasiologiyanın ilkin rüşeymlərini görmək mümkündür. XI-XII əsrlərdə yazıb-yaradan görkəmli Azərbaycan şairləri Xətib Təbrizi, Qətran Təbrizi, Əbül-Üla Gəncəvi, Qivami Mütərrizi, Mücirəddin Beyləqani, Nizami Gəncəvi, Eyn əl-Qüzat, Xaqani Şirvani dil və sözün qüdrəti haqqında çox qiymətli fikirlər söyləmişlər.

N.Gəncəvinin əsərlərində dil və söz məsələlərinə ayrıca bəhslər həsr edilir. Bu problemlərdən biri də hələ antik yunan fəlsəfəsində müzakirə edilən söz və əşya, əşya və onun adı arasındakı münasibətdir. Yunan filosoflarının bir qrupu bu fikirdə idilər ki, əşyanın adı onun təbiətindədir və həmin əşya başqa sözlə deyil, məhz bu sözlə adlandırılmalıdır.

Yunan filosoflarının digər qrupu isə tamamilə əks mövqe tuturdular: onların fikrincə, ad və əşyanın xüsusiyyətləri arasında heç bir əlaqə yoxdur, əşya tamamilə, şərti, təsadüfi və ixtiyari olaraq bu sözlə adlandırılır. Nizami bu mübahisəyə iki misra ilə son qoyur: "Dilinə od sözü gətirən insan; Bu sözlə ağzını yandırmaz inan". Şair dili yalnız fikrin ifadə vasitəsi hesab edir.

Nizami Avropa alimi V.fon Humboldtdan altı yüz il əvvəl dili xalqın ruhu hesab etmiş, sözü ruhun ifadəsi adlandırmışdır. "Söz ruhdur, can üçün ruh dərmandır; Can tək əzizliyi bəlkə bundandır".

XIII əsrdə Azərbaycanda türkdilli şeir yaranır. XIV əsr isə bu şeirin zirvəsi sayılır. Bu dövrdə Həsənoğlu, Qazi Bürhanəddin Şeyx Qasım Ənvar, Həqiqi, Şəms, Əssar Təbrizi, Kişvəri, Marağalı Əhvədi, Arif Ərdəbilinin əsərlərində sözün, onun nominativ funksiyalarının tərifinə geniş yer verilir. Bu dövrdə dilə, sözə və onun məna spektrinə, denotativ, nominativ və konnotativ mənalarına elmi baxış yaranmağa başlayır.

XIV əsrin sonunda İbn Mühənnanın və Hinduşah Naxçıvaninin lüğətləri yaranır. Artıq sözün semantik spektri diqqət mərkəzində dayanır, nominativ funksiyalar elmi cəhətdən tədqiq olunur.

Şair və filosof Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-Raz" poeması yaranır. Burada nitq və söz insanı bioloji varlıqdan sosial varlığa çevirən vasitə hesab edilir. Şeyx Mahud Şəbüstərinin nitq, təfəkkür, söz və onun semantik spektri, məna özəllikləri beş əsr sonra V.fon Humboldtun oxşar fikirləri ilə eynidir. Deməli, Şərq, xüsusən Azərbaycan dilçiliyi, söz və onun nominativ özəllikləri problemində də Avropanı əsrlərlə qabaqlayır.

XIV-XV əsrlərdə görkəmli Azərbaycan şairləri Marağalı Əhvədi, Arif Ərdəbili, İmadəddin Nəsiminin şeirlərində sözün hikmətinə, onun nominativlik (adlandırma) xüsusiyyətlərinə böyük əhəmiyyət verilir. Bu şairlər sözü insan ruhunun əbədi ifadəsi hesab edir, söz demək və mənalandırmaq qabiliyyətini insanın insan kimi varlığı üçün birinci amil hesab edirlər. Nəsimi deyir: "Söz vardır, kəsdirər başı; Söz vardır, kəsər savaşı; Söz vardır, ağulu-aşı; Bal ilən edər yağ bir söz".

Azərbaycan poeziyasının parlaq günəşi Məhəmməd Füzuli sözə, onun mənalarına çox böyük qiymət vermişdir. Füzuli "söz" qəzəli ilə sözü əbədiləşdirmişdir, çox yüksəklərə qaldırmışdır. Şairin fikrincə, söz müqəddəsdir, ilahinin insana bəxş etdiyi ən böyük qismətdir. Söz qəzəlində şair şeirin qüdrəti ilə sözü, onun bütün məna çalarlarını, o cümlədən nominativ funksiyalarını çox böyük, sirli bir xəzinəyə bənzədir.

"Xazini-gənciniyi-əsrardır hərdəm çəkər; Risteyi-izharə min-min gövhəri-əsrar söz". Füzuli farsca divanın dibaçəsində yazır: Allah, Allah! Mənalar necə bir xəzinədir ki, xilqətin əvvəlindən bəri istər şəriətə tabe olanlar, istər həvavühəvəs sahibləri bir-birinə əks olan məzhəb və görüşlərin doğru və yanlış hökmlərini ifadə etmək üçün onları sərf edirlər, yenə də qətiyyən pozulub əskilmir. Söz necə bir nazik sapdır ki, xəzinənin dürləri dənə-dənə bu sapa elə bir nizamla düzülmüşdür ki, heç bir məna onsuz surət ala bilmir. "Söz mənadan asılıdır, məna sözdən hər zaman; Bir-birindən asılıdır, necə ki, cism ilə can".

XVII-XVIII əsrlərdə görkəmli şairlər Fədai, Məsihi ("Vərqa və Gülsa"); Əmani, M.V.Vidadi, M.P.Vaqif, Q.Təbrizi, S.Təbrizi söz haqqında, onun məna xəzinəsi, adlandırma funksiyaları barədə dərin fikirlər söyləmişlər. Bu şairlər öz gözəl əsərləri ilə sübut etmişlər ki, sözlə onun mənasını qılıncla da bir-birindən ayırmaq olmaz. Söz öz forması ilə ifadə olunursa, məna ilə gözəl və qüdrətli olur. Söz öz təsirini fikir dəryasından alır. Adı çəkilən şairlər qeyd edirdilər ki, hər bir dilin öz xüsusiyyətləri vardır. Dil yalnız deyilmək və eşidilmək üçün deyil, həm də başa düşülmək üçün mövcuddur.

XVII-XVIII əsr şairləri sözü yalnız dil vahidi deyil, həm də müəyyən adın (nominativliyin) ifadəsi kimi görür və eyni zamanda poetik ifadə hesab edirdilər. Poeziya, obrazlı mənalar sözün semantik strukturunun bir hissəsidir. Nominativ məna ilə birlikdə metaforikləşmiş ifadələr də sözə, seirə gözəllik verir. Poeziya öz qidasını, gözəlliyini şeirdən alır, şeir sözlə ucalır.

XIX əsrdə Abbasqulu ağa Bakıxanov, Hacı Əbdülkərim İravani, Əbdüssəlam Axundzadə, Səfərəlibəy Vəlibəyov, M.S.Topçubaşov, Mirzə Əbu Talib Vəzirov, M.A.Qafarov, Mirzə Kazım Qafarov, M.Adilov, M.Rzayev və b. kimi dilçi-alimlər yaşayıb-yaratmışlar.

Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində bir sıra tayfa və yer adlarının mənşəyi haqqında maraqlı fikirlər söylənilir. Lakin bu alimlərin əsərləri əsasən fars dilinin qrammatikasına və tədris metodikasına həsr edilmişdir.

XIX əsrin çox görkəmli azərbaycanlı dilçi alimi, rus şərqşünaslığının patriarxı Mirzə Kazım bəydir. Mirzə Kazım bəyin 1846-cı ildə "Общая грамматика турецко-татарского языка" ("Türk-tatar dilinin ümumi qrammatikası") adlı əsər yazır. Əsər haqqında akademik A.Axundov yazır: "Mirzə Kazımbəyin bu əsəri yalnız Azərbaycan dilçiliyində deyil, bütün türkologiyada böyük və yeni hadisə idi. Bu əsərdə Azərbaycan dili ilk dəfə Avropa qrammatikaları dəbində tədqiq edilmişdir". Əsərdə semasiologiya, söz, məna, nominativlik problemlərinə də müəyyən yer verilmişdir.

2017-ci ildə professor İ.Abbasov Mirzə Kazım bəyin ("Общая грамматика турецко-татарского языка") "Türk-tatar dilinin ümumi qrammatikası"nı çox gözəl şərhlər və izahlarla Azərbaycan dilinə tərcümə edib, nəfis şəkildə çap etdirdi. Bu Azərbaycan dilçilik tarixinə Mirzə Kazım bəyin xatirəsinə alimin gözəl töhfəsi idi.

Görkəmli Azərbaycan alimi A.Bakıxanov Azərbaycan dilçiliyində nominativlik prinsipinin öyrənilməsinə böyük əhəmiyyət verirdi. O yazırdı: "Əgər ölkənin qəbilələri, kəndləri, binaları və qədim adları geniş surətdə tədqiq edilsə, əhalinin mənşəyini təyin etmək mümkün olacaqdır. A.Bakıxanov "Gülüstüni-İrəm" adlı əsərində bir sıra tayfa və yer adlarının mənşəyi haqqında maraqlı mülahizələr söyləyir.

K.F.Qan Qafqazın, o cümlədən Azərbaycanın coğrafi adları haqqında xüsusi əsər yazmış və bu əsəri ilə onomastik vahidlərin elmi əsas üzərində öyrənilməsinin əsasını qoymuşdur. Məmmədhəsən Baharlı öz əsərlərində Azərbaycanın tarixi etnoqrafiyası və onomastikası sahəsində maraqlı əsərlər yazmışdır.

Azərbaycan alimlərindən M.Vəliyev, Ə.Dəmirçizadə, Z.Bünyadov, M.Seyidov, Y.Yusifov, Q.Qeybullayev, Ə.Hüseynzadə, Ə.Əliyev və başqalarının əsərlərində nominativlik problemlərinə qismən toxunulmuşdur.

Z.Lampolskinin "Древнеазербайджанский этноним гелы и этнические закономерности", M.Hacıyev və T.Əhmədovun "Об этнониме тат"; Mirəli Seyidovun "Ağqoyunlu və Qaraqoyunlu etnonimlərinin mənşəyi haqqında bəzi qeydlər", T.Hacıyevin "Azərbaycanın qədim onomastikasına dair (gümanlar, fərziyyələr); Ə.Hüseynzadənin "Ойконимы Закавказья, включающие этнонимы "Биченек"", V.İ.Savianın "Этнонимы и топонимы Ирана", Q.Qeybullayevin "Azərbaycanda qıpçaq mənşəli etnonimlər haqqında", Voroşilin "Azərbaycan filologiyası məsələlərindəki" məqalələrində "kəngər", "sabir", "ağxəzər", "onoqur", "Dishun", "Ağhun" və digər qədim Azərbaycan etnonimlərinin tarixi və mənşəyi şərh edilmişdir.

Azərbaycan antroponimikası sahəsində fəaliyyət göstərən alimlərdən A.Qurbanov, M.Adilov, T.Hacıyev, H.Həsənov, A.Paşayev, Z.Sadıxov, H.Əliyev, Q.Məşəldiyev, Ə.Tanrıverdiyev, E.Həmzəyeva, Q.Dadaşova, A.Salehova, S.Sədiyev, M.Çobanov və başqalarının adlarını çəkmək olar.

S.Sədiyevin "Adlar necə yaranır" adlı əsərində insan adlarının yaranma tarixi cəmiyyətdəki rolu və s. problemlər işıqlandırılır. M.Çobanovun "Azərbaycan antroponimiyasının əsasları" adlı kitabında adların leksik-semantik qrupları, müştərək adlar, adların mənşəyi, soyadı, təxəllüs, ləqəb, adqoyma ənənələri və s. məsələlərdən bəhs edilir. H.Həsənovun "Söz və ad" adlı monoqrafiyasında adların yaranması, taleyi, təsnifi, yazılışı və bədii ədəbiyyatda işlənməsi məsələləri araşdırılır. Müəllif söz və adın sərhəddini müəyyənləşdirir, söz və əşya, söz və məfhum, əşya və ad münasibətləri araşdırılır.

H.Əliyevin "Ümumi antroponimika problemləri" əsərində antroponimika-nın müxtəlif sahələrindən bəhs edilir. B.Abdullayevin "Azərbaycan şəxs adlarının izahlı lüğətində O.Mirzəyevin "Adlarımız" adlı monoqrafiyasında adqoyma ənənələri, "Kitabi-Dədə Qorqud"da işlənən şəxs adları barədə söhbət açılır.

Azərbaycan toponimlərinin araşdırılmasına 300-dən çox məqalə və kitab həsr edilmişdir. Azərbaycan toponimlərinin araşdırılmasına üç doktorluq və 6 namizədlik dissertasiyası həsr edilmişdir: S.Mollazadənin "Azərbaycanın şimal rayonlarının toponimiyası", M.A.Məmmədovun "Azərbaycan coğrafi adlarının linqvistik təhlili", T.M.Əhmədovun "Azərbaycan toponimiyasının sistemi" və s.

Azərbaycanın tarixçi və coğrafiyaşünas alimlərinin adların tədqiqində böyük xidmətləri vardır: Z.Uampolski, S.Aşurbəyli, Q.Qeybullayev, Ə.Hüseynzadə, B.Budaqov, Y.Yusifov, S.Kərimov və b. adların tədqiqində böyük rolu olmuşdur. Azərbaycanda adların tədqiqində hidronimlərin, kosmonimlərin, zoonimlərin, krematonimlərin tədqiqinə xüsusi diqqət yetirilməlidir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1.Abdullayev Ə. Azərbaycan dili məsələləri. Bakı, 1992.
2.Axundov A. Ümumi dilçilik. Bakı, 1988.
3.Babayev A. Azərbaycan dilçiliyinin tarixi. Bakı, 1996.
4.Qurbanov A. Dilçiliyin tarixi.
5.Qurbanov A., İbrahimov B. Azərbaycan dilçiləri. Bakı, 1970.
6.Məmmədov N. Moskva Şərq Dilləri İnstitutunun azərbaycanlı alimləri. Bakı, 1993.

Аскерова Мунаввар

История исследования проблемы номинации в тюркском и азербайджанском языкознании

Резюме

Статья посвящена одной из актуальных тем: историю исследования проблемы номинации в тюркском и азербайджанском языкознании.

В статье содержится образ высказываний различных исследователей проблемы номинации в Азербайджанском и других тюркских языках, излагается суть процесса семантического развития номинативных единиц. В статье также исследуется совокупность проблем, охватывающих изучение динамического процесса актов наименования, суммарное обозначение лингвистических проблем, связанных с именованием.

Предметом теории номинации как особой лингвистической дисциплины является изучение общих закономерностей языковых единиц, взаимодействия мышления, языка и действительности. В этих процессах важна роль человеческого фактора в выборе признаков, лежащих в основе номинации.

Asgerova Munavvar

The research history of the nomination problem of the Turkic and Azerbaijani linguistics

Summary

The article is devoted to one of the actual topics: the research history of nomination problem in the Turkic and Azerbaijani linguistics. The article contains the statements of various researchers on the nomination problem in the Azerbaijani and other Turkic languages, the essence of the process of semantic development of nominative units is stated here. A set of problems that cover the study of the dynamic process of naming acts, the total designation of linguistic problems associated with naming is researched in the article.

The subject of the nomination theory as a special linguistic discipline is the study of the general laws of linguistic units, the interaction of thinking, language and reality. In these processes, the role of the human factor is huge in the selection of the features underlying the nomination.

Rəyçi: Aidə Həsənova
Filologiya üzrə fəlsəfə doktor

AYGÜN RƏHİMOVA
ADU
r.aygun@yahoo.com

PRESUPOZİSİYA VƏ ONUN LİNQİVİSTİK KONTEKSTDƏ TƏHLILI

Açar sözlər: dil, praqmatika, presuppozisiya, söyləm, kontekst, ünsiyyət
Key words: language, pragmatics, presupposition, utterance, context, communication
Ключевые слова: язык, прагматика, пресуппозиция, контекст, общение

Dil ünsiyyəti insan fəaliyyətinin əsas formalarından biri hesab olunur. Danışıq ünsiyyəti dil ünsiyyətinin mühüm növü olmaqla kommunikativ aspektdə əsasən 2 subyektlə əlaqəlidir: danışan və dinləyən. Məlumatın daşıyıcısı danışan olduğundan aparıcı ünsiyyət rolu danışana məxsusdur və kommunikativ iyerarxiyada danışan ön pillədə, dinləyən isə aşağı pillədə durur. Ünsiyyət prosesində danışanın yaratdığı məhsul isə söyləm (*utterance*) adlanr. "Söyləm müəyyən danışıq şəraitində dinləyici tərəfindən dərk edilə bilən və məna bütövlüyünə malik ünsiyyət vahididir" [4, 141]. Söyləm həmçinin ünsiyyət prosesində digər subyektiv mənalarla ifadə olunur və leksik-qrammatik deyil praqmatik hadisə hesab olunur. Ünsiyyət prosesində dinləyən danışanın niyyətini söyləm vasitəsilə qəbul edir və kommunkativ-praqmatik mühitdə danışan nəyi isə (*referensi*) linqivistik formalarla (*referensin ifadələrini*) dinləyənə çatdırır. Referenslərin uğurlu olması üçün isə dinləyən söyləmi düzgün başa düşməlidir. Söyləm düzgün başa düşüldükdə dinləyən müəyyən əqli nəticəyə gəlir və dinləyənin bu əqli nəticəsi isə inferens adlanır. Inferens düzgün və ya yanlış olsa da, dinləyən subyekt haqqında olan informasiyaya təsir göstərir və presuppozisiyaya əsaslanır. Inferens və ya referensin uğurlu olması isə ünsiyyət iştirakçılarının fon biliklərindən və eyni dil daşıyıcıları olmasından asılıdır. Bundan başqa, danışıq aktı zamanı dinləyən müəyyən ehtimallar edir ki, bu termin linqvistikada presuppozisiya adlanır. Presuppozisiya mürəkkəb koqnitiv prosesləri özündə ehtiva etməsə də linqivistik kommunikasiyada mühüm rol oynayır. Bir çox tədqiqatçılar presupozisiyanın müəyyənləşdirilməsi, presupozisiya-layihələşmə problemi və presupozisiyanı aktivləşdirən söyləmlərin rolunu daim araşdırmışlar. "Ünsiyyətdə bilavasitə adı çəkilməyən lakin dinləyənin tərkib hissəsi kimi başa düşülən informasiya presuppozisiya (*presupposition*) adlanır" [1, 69]. Pressupozisiya ünsiyyət

prosesinin iştirakçılarına aiddir və danışanın öz fikrini ifadə etmək üçün əsaslandığı dilxarici amil hesab olunur. Bir sıra təqdiqatçılar presuppozisiyanı doğruluq dərəcəsi yanaşması ilə bağlı olan semantik presuppozisiya və ünsiyyət prosesinə əsaslanan praqmatik presuppozisiya baxımından təhlil etmişlər.

R.Stalkaner iddia edir ki, presuppozisiya praqmatik fenomendir və cümlənin mənası ünsiyyət prosesində ehtimal olunur və yeni cümlələr səsləndikdə ehtimallar da dəyişməyə başlayır. Danışanın növbəti cümləsi birinci səslənən cümləyə əsasən qurulur və praqmatik nöqteyi-nəzərindən uyğun olmayan digər cümlə qurulduqda isə məna həmin kontekstdə anlaşılmır. Presuppozisiyanın praqmatik cəhətdən araşdıran alimlərin sırasına D.Sperber və D.Vilson da daxildir. Hər iki təqdiqatçı iddia edir ki, presuppozisiya müstəqil bir fenomen deyil və danışan sintaktik strukur və intonasiyadan istifadə edərək cari cümlənin əvvəlki cümlə və ya fikir ilə əlaqəsini dinləyənə nümayiş etdirir [3, 104]. Məsələn:

Tom managed to get his company license 'Con, öz şirkətinin lisenziyasını almağa nail oldu'.

Söyləmi təhlil edən zaman danışan güman edir ki, lisenziyanı almaq çətin idi və kontekstə əsasən inferens və referens tam anlaşıldığından söyləmi praqmatik presuppozisiya adlandırmaq mümkündür. Lakin cümlədə şəxsin adının (*referensin*) verilməsi və "nail oldu*"* felinin işlənməsi semantik propozisiyanın göstəricisidir. Ümumiyyətlə, semantik presuppozisiya anlayışı linqivistikaya filosof və məntiqçi G.Frege daxil etmişdir. O, söyləmin başa düşülməsi üçün cümlənin mənasından daha vacib olan məntiqi nəticə ilə bağlı bir çox araşdırmalar aparıb və hesab edir ki, məntiqi nəticə cümlədəki digər linqvistik amillərdən hər zaman güclü olur [2, 169]. Presuppozisiya və məntiqi nəticə informasiyanı iki fərqli aspektdə vermək üçün işlədilir. Ünsiyyət zamanı məntiqi nəticə danışanlardan deyil, ifadə və cümlələrdən hasil olur [5, 25]. Danışanlar presuppozisiyalara, cümlələr isə məntiqi nəticə və ya doğruluq dərəcəsinə malikdir. Məsələn:

Tom's brother has bought a car 'Tomun qardaşı maşın alıb'.

Nümunədəki cümləyə əsasən danışanın ehtimal edir ki, Tom adlı bir şəxs və onun qardaşı vardır. Həmçinin danışan yalnış da olsa güman edə bilər ki, onun zəngin və yalnız bir qardaşı var. Cümlənin məntiqi nəticəsi isə ondan ibarətdir ki, Tomun qardaşı var və o, nə isə almışdır. Nəticə etibarilə, danışanın ehtimallarının doğru olub olmamasından asılı olmayaraq söyləmə əsasən belə bir məntiqi nəticəni çıxarmaq olar.

C.Yule presuppozisiya və məntiqi nəticəni təhlil edərkən belə bir qənaətə gəlmişdir ki, məntiqi nəticə presuppozisiyadan güclüdür. Məsələn:

The King of England visited us 'İngiltərənin kralı bizə səfər etdi'.

İngiltərədə kralın olmaması deyilən söyləmin məntiqi nəticəsidir və ünsiyyət iştirakçılarının kontekstual və fon bilikləri məntiqi nəticənin doğruluğunu müəyyən edir [5, 32]. Həmçinin ünsiyyət zamanı vurğu və söz sırasını dəyişməklə məntiqi nəticəni ön plana çəkmək olar. Məsələn:

MARY has written ten articles in a month 'MERİ bir ayda on məqalə yazıb'.

Mary has written TEN artucles in a month 'Mary bir ayda ON məqalə yazıb'.

Danışan əsas fikrini çatdırmaq və dinləyəni söhbətə cəlb etmək üçün vurğudan istifadə edir və bununla da məntiqi nəticəni ön plana (*foreground entailment*) çəkmiş olur.

Ümumiyyətlə, presuppozisiya iki propozisiya arasında olan əlaqə kimi başa düşülür. Məsələn,

Tom's house is nice 'Tomun evi gözəldir. (=p)

Tom has a house 'Tomun evi var'. (=q)

p >> q

Beləliklə də, birinci cümlə ***p*** propozisiyasına, ikinci cümlə də *q* propozisiyasına malikdir və >> "ehtimal edir" simvolundan istifadə etsək cümlələr arasındakı əlaqəni p >>q kimi göstərə bilərik.

Eyni cümləni inkarda versək, bu zaman (NOT p= p deyil) və q (evi var) presuppozisiyası dəyişməz qalacaqdır.

Tom's house is not nice 'Tomun evi gözəl deyil'. *(=NOT p)* '(=p deyil)

Tom has a house 'Tomun evi var'. (=q)

NOT p >> q p >> q deyil.

Presuppozisiyanın inkar cümlədə qorunması xüsusiyyəti inkarlıqda dəyişməzlik (*constancy under negation*) adlanır. Təsdiqdə olan hər hansı bir cümlə inkarda olarsa bu zaman onun presuppozisiyası dəyişməz qalır. Hətta ünsiyyət iştirakçıları bir-biri ilə razılaşmadıqda belə inkarlıqda dəyişməzlik davam edir. Məsələn:

His parents know that he failed the exam 'Onun valideynləri bilir ki, o, imtahandan kəsilib'.

His parents do not know that he failed the exam 'Onun valideynləri bilmir ki, o, imtahandan kəsilib'.

Nəticədə, danışanlar bir-biri ilə razılaşmasalar belə onun imtahandandan kəsilməsi cümlənin presuppozisiyadır və bu da inkarlıqda dəyişməzlik hesab olunur.

Beləliklə də belə bir nəticəyə gələ bilərik ki, presuppozisiya bilavasitə kontekstdən asılı olur. Fon bilikləri, söyləmə və sintaktik struktura əsaslanan linqivistik kontekts birbaşa presuppozisiyaya təsir edir. Məlumdur ki, dilin istifadəsi zamanı müxtəlif növ kontektlərə rast gəlmək mümkündür və dildən

istifadə zamanı praqmatik mənanın başa düşülməsi üçün söz və ifadələrin müvafiq kontekstdə istifadə olunması vacib amillərdəndir. Ünsiyyət iştirakçıları söyləmə əsasən müəyyən ehtimallar edir və bu ehtimalların anlaşılması üçün ünsiyyət iştirakçıları eyni dil daşıyıcısı olmaqla yanaşı müəyyən fon biliklərinə malik olmalıdırlar. Qeyd olunan bu aspektlər presuppozisiyanın praqmatika ilə bağlı olduğunun göstəricisidir. Söyləmin başa düşülməsi üçün cümlənin düzgün sintaktik strukturu presuppozisiyanı semantik nöqteyi nəzərindən təhlil etməyə əsas verir. Çünki qrammatik cəhətdən yanlış və ya doğruluq dərəcəsi olmayan cümlə kontekstdə anlaşılmayacaqdır. Cümlələrin doğruluq dərəcəsi isə məntiqi nəticəyə əsasən müəyyənləşdirilir və məntiqi nəticə fon biliklərinə əsaslandığından presuppozisiyadan güclü olur.

İstifadə olunmuş ədəbiyyat

1. Əbdülrəhimov E. Linqvistik praqmatika. Bakı, 2014.
2. Levinson, S.C. Pragmatics. New York, Cambridge University Press, 1983
3. Saeed J.I. Semantics, London, 2016.
4. Veysəlli F.Y. Dilçilik Ensiklopediyası, I, II cildlər, Bakı, Mütərcim, 2010.
5. Yule G. Pragmatics. London, Oxford University Press, 2000.
6. http://www.jstor.org/stable/413205

Aygun Rahimova

Presupposition and its linguistic analysis

Summary

The article illusrates the crucial interplay between the language and communication trends and emphasizes the role of the presupposition in the communciation process. A brief summary of several studies and analyses of pragmatics are provided in different contexts so as to identify implicit meaning uttered by speakers and introduce different views on a prosupposition theory. The role of references and inferences are also illustrated to show their importance to understand utterances in the process of communication. Furtherrmore, truth-condition of sentences, based on presupposing and negated utterances, are reviewed in terms of identifying a necessary consequence what is said and the role of entailment. Presupposition is also analysed as a relation between propositions. Although many linguists prefer to see presupposition as strictly pragmatic and a relation between a speaker and a proposition, the importance of semantics in

the communication process is also shown in the aritcle. Another property of presupposition described in the article is constancy under negation. When the opposite of the sentence is produced by negating it, in this case, the relationship of presuppositions does not change. Logical entailment is also reviewed to be more powerful than the presupposition, based on the backgorund information, in the process of communication. Another crucial point made in the article is that, in pragmatics entailment is the relationship between two sentences where the truth of one requires the truth of the other .

Айгюн Рагимова

Пресуппозиция и ее лингвистический анализ

Резюме

Статья описывает ключевое взаимодействие между языковыми коммуникационными тенденциями и подчеркивает роль пресуппозиции в процессе общения. Краткий обзор нескольких исследований и предположений об анализе представлен в разных контекстах с целью выявления неявного смысла произносимых слов и представления разных взглядов на теорию пресуппозиции. Также описывается роль ссылок и выводов, чтобы показать их важность для понимания высказываний в процессе общения. Кроме того, рассматриваются условия истинности предложений, основанных на пресуппозициях и отрицаниях высказываний с точки зрения определения необходимого последствия сказанного и роли подразумеваемого. Пресуппозиция также анализируется как связь между предложениями. Хотя многие лингвисты предпочитают рассматривать пресуппозицию как строго прагматичное, а также как отношение между говорящим и предложением, важность семантики в процессе общения также описана в статье.Еще одно свойство пресуппозиции, описанное в статье, - постоянство при отрицании. Когда противоположность предложения выражается путем его отрицания, в этом случае взаимосвязь пресуппозиций не меняется. Логическое подразумеваемое также рассматривается как более мощное, чем пресуппозиция, основываясь на справочную информацию, в процессе общения. Еще один важный момент, который был отмечен в этой статье, заключается в том, что в прагматике подразумеваемое – это взаимосвязь между двумя предложениями, при которой истиность одного требует истинности другого.

Rəyçilər: Leyla Cəfərova
Filologioya üzrə elmlər doktoru, professor

SEVDA RZAYEVA
BDU
sevda@mail.ru

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ MÜASİR TƏLİM METODLARINDAN İSTİFADƏ

Açar sözlər: *Azərbaycan dili, təlim metodlar, müasir üsullar, kurikulum, interaktiv metodlar.*
Ключевые слова: *азербайджанский язык, методы обучения, современные типы, куррикулум.*
Keywords: *Azerbaijan language, training methods, modern types, kurrikulum.*

Təlim prosesi mürəkkəb prosesdir. Onun məqsədəuyğun şəkildə təşkili vacibdir. Təlimin məqsədəuyğun təşkilində prinsiplər mühüm rol oynayır. Didaktika təlim nəzəriyyəsi olmaqla təlimin obyektiv qanunlarını, qanunauyğunluqlarını aşkara çıxarır, onlardan istifadə yollarını müəyyənləşdirir. Təlim prinsipləri təlim qanunlarından irəli gəlir.

Prinsip didaktikanın qanunlarına uyğun təlim fəaliyyətini təşkil etmək üçün qəbul edilmiş ideyalar toplusudur. Prinsip dedikdə həmçinin didaktikada mövcud olan qanunlardan istifadə etmək, fəaliyyəti həmin qanunların tələblərinə uyğun şəkildə təşkil etməkdir. Təlim prinsipləri didaktikanın mühüm vəzifələrinin həyata keçirilməsinə xidmət edir. Prinsiplər müəllimin qarşısına elə vəzifələr qoyur ki, o bunlara əməl etməklə şagirdlərin yüksək tədris uğuruna nail olur. Təlim zamanı müəllimin fəaliyyətinin ümumi istiqamətini müəyyən edən prinsiplər pedaqoji ədəbiyyatda müxtəlif cür təsnif edilir.

V.A.Slasteninin digər müəlliflərlə birgə yazdığı "Pedaqogika" dərsliyində təlim prinsiplərinin aşağıdakı kimi təsnifi verilmişdir: elmilik; tərbiyəedici təlim; təlimin tətbiqi; təlimin ardıcıllığı və sistemliyi; təlimdə fərdi yanaşma; təlimdə yaşauyğunluq; təlimdə yaradıcı inkişafın təmin edilməsi; təlimin çətinlik dərəcəsinin nəzərə alın-ması; əyanilik; mürəkkəblik dərəcəsindən asılı olaraq mövzunun imkana uyğunlaşdırılması (12, s. 76) .

Y.K.Babanski təlim prinsiplərinin aşağıdakı kimi təsnifini vermişdir: elmilik; təlimin həyatla əlaqələndirilməsi; sistematiklik və ardıcıllıq; əyanilik; təlim prosesində müxtəlif metodlardan istifadə etmə, təlimin asan (anlaşılıqlı) mənimsədilməsi prinsipi (8, s. 34).

B.Əhmədova görə, təlimin aşağıdakı prinsipləri vardır: təlim materialının onun məqsədi zəminində seçilməsi; təlim vasitələrinin onun məzmunu zəminində seçilməsi; təlim metodlarının onun vasitələri zəminində seçilməsi; təlimdə şagirdin imkanının nəzərə alınması; elmilik; şüurluluq; fəallıq və

müstəqillik; sistematiklik və ardıcıllıq; fənnin daxili məntiqinin gözlənilməsi; biliyin möhkəm mənimsədilməsi; reproduktiv və produktiv təfəkkürün vəhdəti; biliklə fəaliyyətin birliyi və s.

Fəal təlim metodu elə təlim metodudur ki, dərs prosesində müəllimlə şagird arasında qarşılıqlı əlaqə, münasibət, ünsiyyət, müəllim-şagird əməkdaşlığı vardır. Şagirdlər passiv dinləyici deyillər. Onlar dərsin fəal iştirakçılarıdır, müəllimin yaxın köməkçisidirlər. Əgər passiv təlim metodunda müəllim əsas fiqur, əsas sima idisə, indi müəllim və şagird birlikdə dərsin əsas qurucusu, təşkilatçılarıdır. Fəal təlimdə müəllim və şagird eyni səviyyədə, eyni dərəcədədirlər. Əgər passiv dərs avtoritar, avtokratik üsulda qurulursa, fəal dərs tipində əməkdaşlıq, işgüzarlıq, demokratik prinsiplər öz əksini tapır. Fəal təlimdə müəllim şagirdə təsir göstərdiyi kimi, şagird də müəllimə təsir göstərir. Fəal təlimdə müəllim şagirdə öyrətdiyi kimi, müəllim özü də şagirddən öyrənir. Fəal təlimdə qarşılıqlı dialoq, əməkdaşlıq hökm sürür. Fəal təlimi sxem şəklində aşağıdakı kimi göstərə bilərik.

Fəal təlimin prinsiplrini aşağıdakı kimi qruplaşdırmaq olar: 1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi 2. Fəal idraki prinsip 3. İnkişafetdirici təlim prinsipi 4. "Qabaqlayıcı təlim" prinsipi 5. Təlim-tərbiyənin çevikliyi prinsipi 6. Əməkdaşlıq prinsipi 7. Dioloji təlim prinsipi Fəal və interaktiv təlim anlayişlarının bir çox cəhətləri bir-birilə çox yaxın və ümumidir. Belə ki, hər iki metodla keçilən dərs şagirdləri fəallışdırmağa yönəldilmiş, hər ikisində şagirdlərə hazır biliklər verilmir, onlar axtarıcılığa, tədqiqatçılağa sövq edilir, hər ikisində müəllim şagird münasibətləri, ünsiyyət və dialoqlar hökm sürür.

İnteraktiv təlim zamanı isə müəllimin başlıca vəzifəsi şagirdlərə yardımçı olmaqdan, təlim prosesində şagirdlərin fəaliyyətini əlaqələndirib onlara yaradıcı axtarışa həvəs yaratmaqdan, axtarıb araşdırmağı, nəyi harada öyrənməyi öyrətməkdən ibarətdir. İnteraktiv təlim metodları özü də fəal təlim prosesinə daxil olan metodlardandır. Burada biliyin əasas qrup və cütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması ön plana çəkilir. Bu cür təlim texnologiyası ilə təşkil olunan dərslərdə əvvəlcə problemə istiqamət verəcək motivasiya yaradılır. Motivasiya problemə çıxaracaq məsələnin qoyulmasıdır. Onun nəticəsi tədqiqat sualı olur. Həmin tədqiqat sualı problemin həlli yollarına dair ilkin fərziyyələrin irəli sürülməsinə şərait yaradır. Sonra həmin problemin araşdırılması üçün qruplarda işlər təşkil olunur. Hər qrup irəli sürülmüş fərziyyələrin doğruluğunu isbat etmək üçün mətn üzərində, bilik mənbələrinə nəzər salmaqla tədqiqat işlərinə cəlb olunurlar. Alınan nəticələr işçi vərəqlərində qeyd olunur. İşçi vərəqlərində işlər tamamlandıqdan sonra təqdimat mərhələsi gəlir. Hər qrup öz tədqiqatlarının yekunları ilə auditoriyanı tanış edirlər. Sonra təqdim olunan bütün işlər arasında rabitə, əlaqələr yaradılır. Məlumatlar sistemə salınaraq ümumiləşdirilir. Həmin ümumiləşmələr ilkin

fərziyyələrlə müqayisə olunur və nəticələr çıxarılır. Bundan sonra biliyn tətbiqi mərhələsi gəlir. İşin gedişindən aydın olduğu kimi, fəal-interaktiv təlimdə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı qayğısına qalınır, təlim prosesinə tədqiqat xarakteri verilir. Təlim prosesində işgüzar iş mühiti, əməkdaşlıq şəraiti yaradıldığından iştirakçıların yüksək fəallığı təmin olunur.

Məlum olduğu kimi interaktiv təlim metodları ən yeni texnologiyalardan biri sayılır.

Təlim texnologiyası deyəndə pedaqoji prosesdə təlimin ən yeni və ən səmərəli metodlarından, priyom, tərz və vasitələrindən istifadə etməklə yüksək elmi – intellektual səviyyəyə və nümunəvi mənəvi - əxlaqi normalara malik olan şəxsiyyətin yetişdirilməsi nəzərdə tutulur.

"İnteraktiv" latın sözü olub, iki mənada təqdim olunur. Birincisi "intero" şəklində, yəni "daxili", "içəri" mənasında, ikincisi isə "internaşin" şəklində yəni "ara", "qarşılıqlı əlaqə", "dialoq" "beynəlxalq" mənasında işlədilir. "Aktiv" və ya "akt" sözü isə beynəlxalq status almış "aktivişhin" sözündən olub, "fəaliyyət", "fəal", "fəallıq", "fəallaşmaq" mənasında işlədilir. Demək, "İnteraktiv" "qarşılıqlı əlaqə", "anlaşma", "əməkdaşlıq", "dialoq" deməkdir (15, s. 24). Bu prosesdə hər iki tərəfin fəallığı mühüm yer tutur. Bu fəallaşma adi və normal fəallaşma kimi deyil, çevik və dinamik fəallaşma kimi başa düşülür. Deməli, "interaktiv" sözü pedaqoji prosesin son dərəcə dinamik fəallaş-dırılması kimi başa düşülməlidir. Bu prosesdə hər bir şagirdin öz müstəqil fikri, düşüncəsi və ideyası olur və hər bir zəif şagird də fəallaşır. Bütün bunlar da, heç şübhəsiz, təlim keyfiyyətinin yüksəlməsinə, təkmilləşməsinə bilavasitə təsir göstərir, şagirdlərin mənimsəmə keyfiyyətini artırır.

İnteraktiv təlimə tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusu kimi baxmaq olar. İnteraktiv təlim üçün aşağıdakı cəhətlər səciyyəvi ola bilər:

- müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması;
- problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;
- şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabi-liyyətlərin qazanılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa

düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər (3, s. 17).

İnteraktiv təlim prosesində şagirdin mövqeyi – "kəşf edən", "tədqiqatçı", araşdırıcı" mövqeyidir; o, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən, biz subyekt, təlim prosesinin tamhüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər.

Müəllimin mövqeyi – fasilitator ("bələdçi", "aparıcı") daha çox istiqamət-verici mövqeyindədir. O, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, şagirdlər qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodiki kömək göstərir (13, s. 39).

İnteraktiv metodlarla qurulan dərs ənənəvi dərsdən onunla fərqlənir ki, burada uşaqlar özləri biliyi əldə edir, müstəil çalışaraq, axtararaq bilik qazanır. Şagirdlər təlim prosesinə fəal cəlb olunurlar. Müəllim isə daha çox istiqamət, məsləhət verir, o bələdçi rolunu oynayır. Sinifdəki iqlim uşaqların sərbəstləşməsinə, müstəqilliyinə, fəallığına səbəb olur, uşaqlar öz fikirlərini sərbəst söyləyə bilirlər. İnteraktiv dərsin dəqiq strukturu var və qarşıya qoyulan məsələləri həll etməyə imkan verir, uşaqlar biliklərə yiyələnir, tədris proqramı zərər çəkmir.

İnteraktiv təlimin əsas üstünlüyü - real idrak motivasiyasının (biliklərə yiyələnmək həvəsinin) yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyatların səfərbərliyini təmin edir, idrak fəaliyyətini şövqləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Bilgilər "hazır" şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində mənimsənilir, yəni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır.

İnteraktiv təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Təlimin səmərəliliyi (daha qısa müddətdə daha çox informasiyanı mənimsəmək imkanı) xeyli artır. Bunun aşağıdakı səbəblərini göstərmək olar:

- şagirdlərin idrak fəaliyyəti və təlim motivasiyası hesabına;
- təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar və yaradıcı şəkildə əldə edilməsi və mənimsənilməsi say əsində (2, s. 18).

Dünya təcrübəsi göstərir ki, interaktiv təlim metodu müəllim üçün dərsin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. Bu metod şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. Fəal interaktiv təlim həm təlimin məzmununun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Şagirdlərin öyrənməyə həvəsi və nailiy-yətləri artdıqca, müəllimin də fəaliyyəti yüngülləşir. Lakin bu o demək deyil ki, mü-əllimin zəhməti azalır. İnteraktiv təlim əslində dərsin hazırlanması və idarə edilməsi üçün müəllimdən böyük zəhmət, işgüzarlıq və yaradıcılıq tələb edir.

Bunu da qeyd edək ki, interaktiv təlim metodlarından hər bir mövzunun tədrisində istifadə etmək məsləhət görülmür. Dərsdə qarşıya qoyulmuş məqsəd, şagirdlərə veriləcək bilik, bacarıq və vərdişlərin məzmunu, xarakteri, inteqrasiya imkanları, şagirdlərin hazırlığı, yerli şərait, məktəbin maddi bazası və s. nəzərə alınmaqla interaktiv priyomlara müraciət edilməlidir.

Deyilənlərdən məlum olur ki, interaktiv metodlar təlimin keyfiyyətini xeyli dərəcədə yüksəldir, şagirdlərdə yeni idraki və əxlaqi keyfiyyətlər formalaşdırır: müsahibini, hər hansı danışanı (danışığını), maqnitafon, radio, televiziya verilişlərini dinləməyi, söylənilən fikirlərə hörmət etməyi, yeri gəldikdə münasibət bildirməyi, müstəqil, tənqidi və yaradıcı düşünməyi, sərbəst fikir söyləməyi, irəli sürdüyü fikri müdafiə etməyi, sübuta yetirməyi, məntiqi təfəkkürünü inkişaf etdirməyi, təcrübəsini və ümumi hazırlığını təhlil etməyi, özünü obyektiv qiymətləndirməyi, kollektivdə öz yerini görməyi, əqli və fiziki əmək prosesində kollektivin üzvləri ilə əməkdaşlıq etməyi, birgə işləməyi, ümumi əməyin payına düşən hissəni ləyaqətlə yerinə yetirməyi, kollektivin fikrinin formalaşmasında fəallıq, işgüzarlıq göstərməyi, qrupun üzvləri, sinif kollektivi ilə birgə qərar verməyi, qarşıdurma yarandıqda müdafiə olunmağı, münaqişəni səbrlə, sülh yolu ilə həll etməyi, tolerant olmağı, risqə getməyi, emosional situasiyada özünü ələ almağı, özünü idarə etməyi, şəxsi sağlamlığına görə məsuliyyət daşımağı, insana, onun hüquqlarına hörmətlə, ədalətlə yanaşmağı bacarmaq və s.

İnteraktiv metodlarla keçilən dərslərdə şagirdlərdə hər şeyi bilmək həvəsi, təşəbbüskarlıq yüksəlir, onların öyrənmə fəallığı, təlimin keyfiyyəti və səmərəliliyi artır, nəticədə mexaniki yaddaş deyil, yaradıcı təfəkkür inkişaf edir.

Ümumtəhsil məktəblərində təhsil-tərbiyənin sinif-dərs sistemində həyata keçirilməsi layihələri sırasında”Fəal(interaktiv) təlim”in bizə məlum olan proqram,model və layihələrlə müqayisədə daha böyük üstünlükləri vardır. Bu sistem bütün şagirdlərə öz imkanlarını reallaşdırmaq nöqteyi-nəzərdən bərabər şərait yaradır.Fəal(interaktiv) yanaşmada geridəqalmaın qaçılmazlığı ilə bağlı mülahizələrin yanlışlığı təsdiqlənir, istedadlılaın

inkişafına meydan verilmiş olur.Bu sistemin tətbiqində bir sıra prinsip və mexanizmlər diqqət mərkəzinə çəkilir.Sözügedən prinsiplər barədə bu fəslin əvvəlki 15.2. yarımbaşlığıda bəhs etmişik.

Bu sistemin tətbiqi mexanizmlərinə aşağıdakılar aid edilir: Mexanizm №1. Problem situasiyanın yaradılması. Şagirdin qarşısına problem qoyulur və onun problemi həll etməyə yönəldilməsi nəticəsində idrak fəallığı yaranır. Mexanizm №2. Şagird-tədqiqatçı, müəllim faslitator. Fəal(interaktiv) təlim zamanı şagird subyekt mövqeyini tutmalı, bu prosesin bərabər iştirakçısı olmalıdır. Şagird tədqiqatçı, müəllim isə bələdçi funksiyasını həyata keçirməlidir. Şagirdlər bilikləri müstəqil şəkildə tədqiqat zamanı əldə etməlidirlər. Mexanizm №3. Dialoqun və əməkdaşlığın zəruriliyi. Fəal(interaktiv) təlim dialoji şəkildə əməkdaşlıq şəraitində keçirilir. Mexanizm №.Psixoloji dəstək: hörmət və etibar

Vurğulamaq yerinə düşər ki, təhsil proqramlarının , koseptual modellərin, layihələrin uğuru onu tətbiq edən müəllimin, tərbiyəçinin pedaqoji qabiliyyətləri ilə şərtlənir. Müəllimlərdə pedaqoji qabiliyyətlərin formalaşması bu gün aktual məsələ kimi meydana çıxır. Ənənəvi didaktik sistemdə müəllimin didaktik və təşkilatçılıq qabiliyyətlərinə daha çox diqqət yetirilib.

Təhsildə innovasiya onun məzmununa təsir göstərən sosial mədəni və sivilizasiya şəraiti ilə ölçülür. Şəxsiyyətyönümlü təhsilə keçid, təhsilin cəmiyyətə inteqrasiyası, humanistləşmə və universallaşma, təhsilin fundamentallaşması, onun kommunikasiya texnologiyalarının mənimənilməsinə keçidi, təhsilin məzmununun standartlaşdırılması və s. bu sistemdə başlıca yer tutur. İnnovasiyalı keçidin təlim vasitələri, məzmun standartları, təhsil texnologiyaları, qiymətləndirmə mexanizmlərində təsbiq olunan mahiyyəti təhsilin üstün inkişaf etdirilən sahəyə çevrilməsini şərtləndirməkdədir. Yeni interaktiv metodlar bu sistemdə produktiv, yaradıcı düşüncə qabiliyyətinin fəallaşdırılması, yeni biliklərə sərbəst yiyələnmə xüsusiyyəti ilə seçilməkdədir. Fəal interaktiv təlimin metod və texnikaları öz növbəsində təhsildə innovasiyanın əsas, mühüm bir mərhələsini əks etdirir.

Müasir dövrdə ümumtəhsilin keyfiyyəti və real tələbatlara uyğunluğunun başlıca motivini kurrikulum islahatları təşkil edir. Mütərəqqi təhsil təcrübəsinin göstəricisi olan kurrikulumun mahiyyəti təhsil sahəsində olan fəaliyyətlərlə, konseptuallıqla bağlıdır. Milli kurrikulumların funksiyaları burada təhsil pillələrində tədris olunan fənlər arasında əlaqələrin, ardıcıllığın tam təmin olunması, fənlərin məzmununun cəmiyyətin tələbatına uyğun təkmilləşdirilməsi, təlimin inkişafetdirici, qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunması və s.

əhatə edir. Fənyönümlü və şəxsiyyətyönümlü kurrikulumların ümumi prinsipləri inteqrativ məzmunu ilə səciyyəvidir.

Müasir təhsil konsepsiyası didaktik və təşkilatçılıq qabiliyyətlərinin əhəmiyyətini qətiyyən azaltmadan bu gün, təhsilin humanistləşdirilməsi şəraitində kommunikativ və perseptiv, ekspressiv və konstruktiv qabiliyyətlərin əhəmiyyətini xüsusi vurğu ilə dəyərləndirir. Müəllimlərin pedaqoji ustalığının artırılmasının başlıca yolu məktəb şəraitində pedaqoji qabiliyyətlərin psixoloji ölçülərlə inkişaf etdirilməsindən ibarətdir. Bundan başqa, pedaqoji universitet və institutlarda tələbələrdə, gələcək müəllimlərdə bu qabiliyyətlər xüsusi metodika ilə inkişaf və tərbiyə olunmalıdır.- Təkmilləşdirmə kurslarında müəllimlərlə elmi-metodik iş məhz pedaqoji qabiliyyətlərin inkişaf etdirilməsi yönümündə aparılmalıdır. Sosial-psixoloji treninq üsullarından sistemli istifadə olunmalıdır.Müəllimlərə autotreninqin sirlərini öyrətmək lazımdır. Professor Ə.Əlizadənin vurğuladığı kimi müəllimlərin pedaqoji ustalığının artırılmasına respublikanın görkəmli rejissorlarının və aktyorlarının yaxından köməyi ilə müasir teatr pedaqogikasının uğurlarından da faydalanmanın vaxtı artıq çatmışdır.

Ədəbiyyat

1. Abdullayev A. Orta məktəb Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978, 279 s.
2. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi süsusiyyətləri / “Kurikulum”, 2008, № 1.
3. Azərbaycan Respublikası ümumtəhsilin konsepsiyası / “Kurikulum”, Bakı, 2008, № 1.
4. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (Təlimi Azərbaycan dilində olan məktəblər üçün / “Fənn Kurikulumu”, (IV-XI siniflər) Bakı, 2011.
5. Azərbaycan Respublikası məktəblərinin təhsil standartları, Bakı, 2008.
6. Azərbaycanın dövlət dili haqqında qərarlar, fərmanlar və qanunlar // https://az.wikisource.org
7. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2003, 282 s.
8. Əhmədov B. Təlimdə tədqiqat metodlarından istifadə / “Azərbaycan məktəbi” jurnalı. Bakı, 1981, № 4
9. Əhmədov B. Üç məsələ haqqında / “Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası” . Bakı, 1970, № 1
10. Əhmədov B. Problem situasiyası və Azərbaycan dilində onun yeri / “Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası” . Bakı, 1970, № 2

11. Əhmədov B. Təlim metodlarının təkmilləşdirilməsinə dair / "Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası" . Bakı, 1981, № 4
12. Qasımova L. Mahmudova R. Pedaqogika. Bakı: BDU, 2003, 535 s.
13. Rüstəmov F. Ümumi təhsil kurikulumu və onun hazırlanması prinsipləri, "Kurikulum", 2008, №1.
14. Rəsulzadə M.Ə. Əsərləri. II cild. Bakı: Şirvan, 2001, 528
15. Veysova Z. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı, 2007. 190 s.

С.Рзаева

Использование современных методов обучения на уроках азербайджанского языка

Резюме

В статье говорится о современных методах обучения, используемых на уроках азербайджанского языка. Указывается, что принципы играют важную роль в целесообразной организации обучения. Дидактика будучи теорией обучения выявляет объективные законы и закономерности, определяет пути их использования. Принципы обучения исходят из правил обучения. Активный метод обучения - это тот метод, при котором во время урока между преподавателем и учеником устанавливается взаимосвязь, взаимоотношение между преподавателем и учеником. Учащиеся не являются пассивными слушателями.

Они являются активными участниками урока, близкими помощниками преподавателя. Если при пассивном методе обучения преподаватель является основной фигурой, то здесь преподаватель и учащиеся являются совместными организаторами урока.

При активном обучении все находятся на одном уровне. В настоящее время основным мотивом качества всеобщего образования и соответствия современным требованиям являются реформы куррикулума. Суть куррикулума, являющегося показателем прогрессивного опыта образования, связана с активностью и концептуальностью в сфере образования.

Sevda Rzayeva

Use of modern methods of training at azerbaijan language `lessons

Summary

In article have been told about the modern methods of training used at Azerbaijan language` lessons. It is specified that the principles play an important role in the expedient organization of training. Being the theory of training the didactics reveals objective laws and regularities, defines ways of their use. The principles of training proceed from laws of training.

The active method of training this at which during a lesson between the teacher and the pupil is established interrelation, relationship and cooperation between the teacher and the pupil. Pupils aren't passive listeners. They are active participants of a lesson and close assistants to the teacher. If at a passive method of training the teacher is the main figure, then here the teacher and pupils are joint organizers of a lesson.

At active training they are at one level. At the present the main motive of quality of general education and compliance to real requirements are reforms of a kurrikulum. The essence of the kurrikulum which is an indicator of progressive experience of education is connected with activity and conceptuality in education.

Rəyçi: **Rəhilə Quliyeva**
Filologiya üzrə fəlsəfə dosktoru, dosent

ƏDƏBİYYATŞÜNASLIQ

SƏİDƏ ABBASOVA
filologiya üzrə fəlsəfə dosktoru, dosent
BDU
saida200@mail.ru

MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN ROMANLARININ BƏDİİ-SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Müstəqillik dövrü, Azərbaycan romanları, bədii təfəkkür, süjet xətti, tarix, bədii, yazıçı, mövzu.
Ключевые слова: период независимости, азербайджанские романы, художественное мышление, сюжетная линия, история, артист, писатель, субъект.
Key words: The period of independence, Azerbaijani novels, artistic thinking, plot line, history, artistic, writer, subject

Müstəqillik dövrü Azərbaycan romanlarının bədii-estetik keyfiyyətlərinin üzə çıxarılması, mövcud bədii örnəklərin bu aspektdə təhlilə çəkilməsi, ayrı-ayrı müəlliflərin fərdi yaradıcılıq özünəməxsusluqlarının aşkarlanması olduqca zəruri məsələlərdəndir. Çünki nəsrin mühüm janrlarından biri olan, "özündə bütün digər janrların daxili təcrübəsini əridərək ümumiləşdirən" (2, s.100) romanın bədii potensialını duymaq, anlamaq üçün ilk növbədə yaranan əsərlərin bədii – estetik məqamlarına diqqət yetirilməlidir. Xatırladaq ki, müstəqillik dövrü Azərbaycan romanlarına həsr olunmuş ayrı-ayrı məqalələrdə və müxtəlif səpkili tədqiqatlarda həmin əsərlərin bədii-estetik yönü bu və ya digər formada təhlil obyektinə çevrilmişdir. Lakin bunlar yarımçıq və pərakəndə səciyyə daşıdığından mövcud romanların bədii imkanları və poetikası haqqında canlı təsəvvür yaradılmamışdır. Bu məqaləmizdə çağdaş Azərbaycan romanlarının bədii-estetik keyfiyyətlərinin, özünəməxsusluqlarının müstəqil şəkildə araşdırılması məhz bu məqamdan irəli gəlir.

Müstəqillik dövrü Azərbaycan romanlarını əvvəlki dövrlərdən fərqləndirən bir sıra mühüm bədii-estetik məqamlar mövcuddur ki, onları səciyyələndirmədən janrın yaradıcılıq təkamülünü izləmək mümkün deyildir. Bu ilk növbədə yazıçıların dövrün şərtlərinə uyğun mövzu seçimi, ideya axtarışları və qaldırılan problemin bədii həlli yolları, dil-üslub fəaliyyəti, obraz və xarakter yaradılışı məsələsində bədii məharət nümayiş etdirməsi və s. məsələlərlə

gerçəkləşməkdədir. Məhz bu baxımdan sadalanan məsələlərin müstəqillik dövrü Azərbaycan romanları timsalında nəzərdən keçirilməsi janrın bədii-estetik çalar və ünsürlərini aşkarlamağa imkan vermiş olardı.

Bizcə, müstəqillik dövrü Azərbaycan romanlarının bu istiqamətlər işığında izlənilməsi onların bədii sənətkarlıq özəlliklərinin üzə çıxarılmasına imkan verir. Lakin bir məsələyə diqqət yetirilməlidir ki, təhlil olunan romanlar kontekstində müstəqillik illərində yaranan mövcud bədii örnəklərin bədii-estetik xüsusiyyətləri haqqında ümumi mülahizələr söylənilməsi sırf şərti səciyyə daşıyır. Çünki burada hər bir yazıçının fərdi yaradıcılıq üslubundan doğan özəlliklərə deyil, daha çox ortaq cəhətlərə diqqət yetirilmişdir.

Bədii olduğu kimi, hər bir ədəbi dövrün sənətkarlıq səviyyəsini səciyyələndirərkən ilk növbədə müraciət olunan mövzulardan başlamağa ehtiyac duyulmaqdadır. Bu ondan irəli gəlir ki, mövzu seçimi yaradıcılıq müşahidəsi ilə bağlıdır ki, bu da sənətkarlığın ciddi məsələlərindən hesab olunmaqdadır. Müstəqillik dövrü Azərbaycan romanları mövzu yeniliyi, məzmun rəngarəngliyi və qaldırılan problemlərin müxtəlifliyi ilə diqqəti cəlb edir.

Ümumilikdə bəhs olunan dövrdə qələm ə alınan romanlar həm tarixi, həm də müasir mövzularda yazılmış bədii örnəklərdir. Lakin bu dövrün nəsrində müasir mövzulu əsərlər tarixi mövzulu bədii örnəklərdən daha çox yer tutur. Bədii nəsr üslub etibarı ilə daha çox müasir mövzulara meyllidir və əsərlərin böyük əksəriyyəti məhz müasir mövzuda qələmə alınmışdır.

Bununla yanaşı, Azərbaycan nəsrində istər tarixi, istərsə də müasir mövzularda yazılmış romanlarda zamanın ritmini, ahəngini tutmağa çalışılmış, cəmiyyəti narahat edən məsələlərə diqqət yetirilmiş, müasirlik mövqeyindən çıxış edilmişdir. Tənqidçi-ədəbiyyatşünas Yaşar Qarayevin "Səhnəmiz və müasirlərimiz" kitabında doğru qeyd elədiyi kimi, "Müasirlik müasir epoxanın inkişaf qanunauyğunluğunu açmağa kömək edən hər şey deməkdir. Zəmanənin, dövrün böyük problemlərinə və böyük mübarizələrinə nüfuz etmədən müasirliyə yüksək səviyyədə xidmət etmək çətindir" (2, s. 151).

Müstəqillik dövrü Azərbaycan romanlarını mövzu-məzmun kontekstində dəyərləndirərkən müasirlik probleminin aparıcı mövqeyinə diqqətin yetirilməsi də zəruri məsələlərdəndir. Əlbəttə, bədii nəsrin, o cümlədən roman janrının müasirliyi ilk növbədə dövrü, mühiti qavramaqda, həyatın nəbzini tutmaqda, tarixi dövrün problemlərini dərk etmək imkanları ilə səciyyələnir. Bütövlükdə müstəqillik dövrü Azərbaycan nəsri müasirliyə xidmət məramına söykənməkdədir. Yazıçılar hansı mövzuya (tarixi və ya müasir) müraciət edir-etsin, yazılan və nəşr olunan romanlar hər şeydən əvvəl müasirlik ruhu ilə fərqlənməkdədir.

Bəlli olduğu kimi, sovet hakimiyyəti illərində müasirlik anlayışı və müasirlik istilahının ehtiva hüdudları bir çox hallarda birtərəfli, yanlış şəkildə dəyərləndirilmişdir. Şübhəsiz ki, bu cəhət sovet ideoloji sisteminin bədii-estetik məsələləri son dərəcə siyasiləşdirməsindən qaynaqlanır. Müstəqillik dövrü Azərbaycan romanlarının, xüsusilə tarixi mövzuda qələmə alınmış mövcud janr örnəklərinin özünəməxsus cəhətlərindən biri məhz burada müasirlik ruhunun qabarıq təsviri ilə bağlıdır. Yaranan romanlar içərisində elə bir nümunə yoxdur ki, orada müasirlik məsələsi diqqət mərkəzində olmasın, müasirliyə xidmət edən amillərə aparıcı yer verilməsin. Bu mənada 1991-2005-ci illər romanlarının müasirliyinin başqa mühüm cəhətlərindən biri dövrü, mühiti qavramasında, həyatın nəbzini tutmaq məharətindədir.

"Hər hansı bir yazıçının yaradıcılığından danışarkən, adətən, onun müasir həyatı necə tədqiq etdiyini, bir sənətkar kimi onunla hansı tellərlə bağlı olduğunu aydınlaşdırmaq zərurəti meydana çıxır. Bəzən yazıçı özü də bu əlaqələrin bütün mürəkkəbliyini və rəngarəngliyini tam genişliyi ilə təsəvvürünə gətirmir" (8, s. 46).

Bu mülahizələrinə onu da əlavə etmək lazımdır ki, müasirlik – müasir mövzuda qələmə alınmış əsərlərdən daha çox tarixi hadisələrdən bəhs edən bədii örnəklərdə zəruri amillərdən biri kimi çıxış etməlidir. Ona görə ki, tarixi mövzulu əsərlərdə vacib olan cəhətlərdən ən mühümü daha çox müasirliklə bağlıdır. Müstəqillik dövrü Azərbaycan romanlarında əksər hallarda yazıçılar qaldırmış olduğu problemin dövrlə, mühitlə bağlılığına, aktuallığına diqqət yetirməyə çalışmışlar.

Müstəqillik dövrü Azərbaycan romanlarında müasirliklə yanaşı, diqqəti çəkən mühüm məsələlərdən biri tarixilik problemidir. Araşdırmaya cəlb olunan dövrdə əsərlərin bir qismi tarixi mövzuda qələmə alındığı üçün yazıçıların yaradıcılığının bu aspektinə toxunulmasına ciddi ehtiyac duyulur. Bəllidir ki, ədəbi-estetik fikirdə tarixilik problemi ciddi mübahisə və müzakirələrə səbəb olan zəruri komponentlərdən biridir. Tarixi mövzuda yazmaq – tarixin hər hansı qaranlıq dövrünün, yaxud şəxsiyyətinin canlandırılması, xalqın etnoqrafik yaddaşının bərpa edilməsi, bu günün problemlərinin keçmişin işığında əks etdirilməsi məramına söykənir. Müstəqillik dövrü Azərbaycan tarixi romanlarında bu amillər aşkar şəkildə özünü büruzə verməkdədir. Ona görə də mövcud romanlar tarixilik baxımından araşdırılarkən bu cəhət nəzərdən qaçırılmamalıdır.

Lakin tarixi mövzuda yazılan romanlarda da müasirlik amili qabarıq şəkildə bədii ifadəsini tapmalıdır. Bu baxımdan Əzizə Cəfərzadənin yaradıcılığını təhlil obyektinə çevirən filologiya elmləri doktoru, professor İfrat Əliyevanın mülahizələri maraq doğurmaqdadır: "Əzizə Cəfərzadənin bir yazıçı kimi tarixə bu günün mövqeyindən yanaşmasının nəticəsidir ki,

fantastik filmlərdə olduğu kimi, tarix doğrudan da bu günə çevrilir və bu günün problemlərinə xidmət etməyə başlayır" (4, s. 54).

Azərbaycan ədəbiyyatşünaslığında tarixi mövzuların işlənməsi ilə bağlı başqa mülahizələr də mövcuddur. Məsələn, gənc tədqiqatçı Cəmilə Abbasovanın "Zamanla üz-üzə" adlı məqaləsində bununla bağlı oxuyuruq: "Bir çox tanınmış yazıçılar üçün tarixə, fakt və hadisələrə müraciət keçmişin öyrənilməmiş, tədqiq edilməmiş səhifələrinin və şəxsiyyətlərinin canlandırılmasına xidmət edirsə" bir çox hallarda "bu cəhət aparıcı keyfiyyət kimi özünü göstərmir". Çünki yazıçıların böyük əksəriyyətini "tarixin qaranlıq, öyrənilməmiş, yaxud yanlış təqdim olunmuş səhifələrinin və şəxsiyyətlərinin canlandırılması ilə yanaşı, həm də yaşadığı epoxanın ruhunu əks etdirmək missiyası və müasirlik məsələsi düşündürür". Başqa sözlə, ...tarix-ilik müasirliyə xidmət edən faktor kimi özünü büruzə verir" (2, s.186-187).

Göründüyü kimi, müstəqillik dövrü Azərbaycan romanlarında tarixilik və müasirlik problemi bir-biri ilə əlaqəli qarşılıqlı vəhdətdədir. Bu da yaranan romanların janr özünəməxsusluğunu, bədii özəlliyini, mükəmməlliyini şərtləndirən cəhətlərdəndir.

Müstəqillik dövrü Azərbaycan romanlarında tarixi mövzunun işlənməsi problemindən bəhs olunarkən yazıçıların tarixi fakt və hadisələrə münasibəti, ondan nə şəkildə bəhrələnməsi məsələsinə də toxunulmasına ehtiyac vardır. Məlum olduğu kimi, tarixi roman müəlllifi dərin mütaliəyə malik olmalı, hansı mövzuda yazırsa-yazsın, həmin mövzunu elmi şəkildə araşdırmalıdır. Məsələn, bəhs olunan dövrdə daha çox tarixi roman nəşr etdirmiş yazıçı Əzizə Cəfərzadənin romanlarında qaldırmış olduğu problem və hadisələrin elmi variantı da mövcuddur. Bu o deməkdir ki, yazıçı yalnız elmi şəkildə araşdırdığı və dərindən bələd olduğu mövzularda yazır. Tarixi hadisələrə dərindən bələd olduğu üçün Əzizə Cəfərzadənin romanları canlı və real təsir bağışlayır. Bu da bütün məqamlarda yazıçının əsərlərinin bədii keyfiyyətini şərtləndirmiş olur.

Filologiya elmləri doktoru, professor Vilayət Quliyev yazır: "Bizə belə gəlir ki, bədii əsərdə tarixi tematikanı müəyyənləşdirən əsas amil sənədlilikdir. Süjet xəttinin əsasında konkret tarixi hadisələr və real tarixi şəxsiyyətlər dayanan, təsvir və təhlillərdə artıq elm tərəfindən təsbit edilmiş fakt və məlumatlara istinad edən roman və povestlər tarixi əsər anlayışının tələblərinə daha çox cavab verir. Aydın məsələdir ki, biz sənədliliyi tarixi janrın başlıca tələbi kimi irəli sürərkən yazıçını tarixi vəsiqələrin ehtirassız qeydiyyatçısı, tarixi mənbələrin səlahiyyətsiz təsvirçisi simasında görmürük. Sadəcə olaraq romanın, yaxud povestin ümumi konfiqurasiyasını, karkasını sənədlər, real tarixi faktlar təşkil etməlidir, bütün qalan "tamamlama" işlərində yazıçı tam sərbəstdir və yaradıcılıq fantaziyasını istənilən istiqamətdə inkişaf elətdirə bilər" (6, s.164-165).

Anlaşıldığı kimi, ədəbiyyatşünas Vilayət Quliyevin fikrincə, tarixi roman müəllifi hadisə və əhvalatların təsvirində müəyyən sərbəstliyə malik olmalıdır. Alimin qənaətincə, tarixilik bədii əsərin yalnız strukturunu formalaşdırmalı, başqa sözlə, zahiri əlamətini daşımalıdır. Zənnimizcə, araşdırılan dövrdə Əzizə Cəfərzadənin tarixi romanları bu kontekstdə maraq doğurmaqdadır. Çünki o, bütün məqamlarda tarixdən bədii strukturu formalaşdıran vasitə kimi istifadə etmiş, quru cansız faktlar arxasınca qaçmamış, bədii təxəyyülü ilə tarixin qaranlıq səhifələrini işıqlandırmağa çalışmışdır.

Ədəbiyyatşünas Yavuz Axundov bədii nəsrdə tarixilik və bədiilik məsələsinin əlaqə və vəhdətinə yönəldərək yazır: "Tarixi dövrün düzgün verilməsi üçün tarixi sənədlərdən, faktlardan istifadə etmək zəruridir. Lakin bununla bərabər, yazıçı uydurmasının, yazıçı təxəyyülünün əhəmiyyətini inkar mütləq səhv nəticələrə aparır, sənətkarı tarixi hadisələrin təsvirçisinə çevirə bilər (1, s.17).

Ədəbiyyatşünas fikirlərini davam etdirərək yazır: "Yazıçı keçmişi daha dolğun, hərtərəfli təsvir etmək, tarixi koloriti və ruhu düzgün vermək üçün müəyyən hadisələr, epizodlar düşünür, tarixdən bizə məlum olmayan insan surətləri tapır ki, buna bədii uydurma deyilir. Başqa ədəbi janrlar kimi tarixi roman da bədii uydurmasız keçinə bilməz. Uydurma təkcə həqiqəti açmır, həm də onu dərinləşdirib tamamlayır. Bədii uydurma başqa bədii vasitələrlə yanaşı, tarixi həqiqəti bütün mürəkkəbliyi, konkretliyi, dəqiqliyi ilə verməyə kömək edir" (1, s.19).

Zənnimizcə, ədəbiyyatşünas Yavuz Axundovun əsasən doğru olan mülahizələri ilə razılaşmamaq mümkün deyildir. Çünki tarixilik dedikdə yalnız tarixi faktların bədii təcəssümü nəzərdə tutulmamalıdır. Roman müəllifi tarixi sənədlərlə yanaşı, bədii fantaziyaya da müəyyən yer verməli, müraciət etdiyi tarixi epoxanın mənzərəsini inandırıcı şəkildə canlandırmaq üçün onun imkanlarından bəhrələnməlidir. Son illərdə yazıçı Elçin Hüseynbəylinin tarixi mövzuda qələmə aldığı romanlarda diqqəti cəhətlərdən biri orasındadır ki, burada tarixi hadisələrlə bədii təxəyyül bir-birilə qovuşmuş və bir vəhdət halında təzahür etmişdir. Yazıçının "On üçüncü həvari – 141-ci Don Juan" romanında tarixi faktlarla bədii təxəyyül məharətlə əlaqələndirilmişdir. Xüsusilə dövrün təsvir və təqdimində bu cəhət özünü qabarıq şəkildə büruzə verir.

Romandan bir parçaya nəzər salaq: "Qacar sülaləsindən olan Sultanəli bəy bayat ailəsinin tanınan nümayəndəsi idi. Şah qvardiyasında (qorçular) dəstə başçısı idi, anası kürd qızı Zərnişə xanım çəkəni tayfasından idi, Dönməz Soltanın qohumu idi.

Osmanlı Türkiyəsi ilə 11 il idi ki, barış hökm sürürdü və Sultanəli bəy bu fasilədən istifadə edib, uzun-uzadı döyüşlərin ağrısını canından çıxarırdı.

O, xəstə yatan I Şah Təhmasibə baş çəkməyə hazırlaşırdı, amma şah sarayına getməzdən əvvəl kəniz bazarına çıxmaq qərarına gəldi. Ona görə yox ki, baxıcıya və mövhumatçı bacılarının sözünə inanırdı, sadəcə qəlb rahatlığı tapmaq istəyirdi. Sultanəli bəy bazarı bir qədər gəzdikdən sonra daş-qaş dükanının yanında köhnə yəhudi tanışını gördü. O yəhudi ki, Himenanı təzəcə bazara gətirmiş və elə həmin daş-qaş dükanında da geyindirib-bəzəndirmişdi. Bir neçə il bundan əvvəl o həmin yəhudidən iki kəniz alıb, birinci Şah Təhmasibə göndərmişdi" (5, s.18).

Filologiya elmləri doktoru professor Qəzənfər Kazımov "Sənət düşüncələri" adlı kitabında yazır: "Tarixi hadisələri obyektiv əks etdirmək, xalqı onun keçmişi ilə düzgün tanış etmək yazıçının əsas vəzifəsidir. Süni, saxta, uydurma, qeyri-tarixi hadisələrin qələmə alınması oxucunu çaşdırır, keçmişə münasibəti korlayır, tarixi duyumla yaranmış təsəvvürləri heç edir. Ədəbiyyat da tarix kimi, tarixi düzgün əks etdirməlidir. Bədii ədəbiyyat tarixdən çox oxunur, buna görə də onun düzgün və obyektiv mövqeyi daha vacibdir. Bu tələblərə cavab verməyən əsərlər sadəcə olaraq mövzulu korlamaqla qalmır, dövrə yanlış münasibət yaratmaqla zərərli bir şey kimi ortaya çıxır" (7, s. 68).

Tədqiqatçının qənaətlərilə razılaşmamaq mümkün deyildir. Çünki bir çox tarixi mövzulu əsərlərdə tarix təhrif olunduğu üçün həmin epoxaya, yaxud şəxsiyyətə münasibətdə yanlış qənaətlərin və baxışların formalaşdığı sirr deyildir. Müstəqillik dövrü Azərbaycan romanlarında da tarixin təhrif olunması faktlarına təsadüf olunmaqdadır. Bəzi romanlarda tarixi fakt və hadisələr həqiqətə uyğun təsvir edilmədiyi üçün sözün həqiqi mənasında bəhs olunan dövr haqqında təsəvvürlərin canlanmasına və dolğunlaşmasına imkan verməmişdir. Bu mənada yazıçı Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı daha çox material verir ki, tədqiqatın əvvəlki bölmələrində bu barədə danışılmışdır.

Müstəqillik dövrü Azərbaycan romanlarının sənətkarlıq xüsusiyyətlərindən bəhs olunarkən müraciət olunan mövzuların səciyyələndirilməsinə də ehtiyac duyulmaqdadır. Bu mənada yaranan romanlar mövzu rəngarəngliyi, məzmun yeniliyi və qaldırılan problemlərin çoxşaxəliliyi ilə diqqəti çəkir. İstər tarixi, istərsə də müasir mövzulu romanlarda xalq ədəbiyyatının və yazılı söz sənətinin zəngin xəzinəsindən bəhrələnmə, ənənələri yaşatma və inkişaf etdirmə meylləri özünü göstərməkdədir. Roman müəllifləri çox zaman orijinal, bənzərsiz mövzularda əsər yazmağa üstünlük verdiyindən yaranan əsərlərdə qaldırılan problemlər yeniliyi, novatorluğu ilə seçilir. Yazıçıların yeni mövzularda yazmağa üstünlük verməsi onların əsərlərinə yeni məzmun aşılamış, bu isə təbii ki, yazılarının məzmun orijinallığını şərtləndirmişdir. O da qeyd olunmalıdır ki, müstəqillik dövrü Azərbaycan romanlarında mövzu və məzmun orijinallığı şərtləndirmişdir. O da qeyd olunmalıdır ki,

müstəqillik dövrü Azərbaycan romanlarında mövzu və məzmun orijinallığı ideya yeniliyi ilə müşayiət olunduğundan nasirlər əksər hallarda qələmə aldıqları romanların mövzu-məzmun və ideya vəhdətini qoruyub saxlaya bilmiş, bunları bədii sənətkarlıq müstəvisində məharətlə əlaqələndirmişdir.

Azərbaycanın xalq yazıçısı Mirzə İbrahimov "Keçmişin canlı səhifələri" məqaləsində yazır: "Həyat müşahidəsinin verdiyi materialı, bədii cəhətdən təşkil etmək böyük şərtdir, sənətkarlığın çox mühüm tələbidir. Romançının əməyi gözəl və işıqlı saray tikən memarın əməyinə çox bənzəyir. Belə sarayın hər divarı, hər küncü, hər pəncərəsi, hər naxışı vahid yaradıcı fikrə, ahəngdar bir üsluba malik olmalıdır. Həssas memar belə saraylarda hətta divarın harasına qoyulacaq hansı daşın nə rəngdə, nə şəkildə, nə ölçüdə olacağını da əvvəlcədən müəyyən edir. Sonra da bu daşın özünü seçir, yonur, təmizləyir, küncünə - bucağına diqqət edir ki, zədəli olmasın" (7, s.223).

İsa Hüseynov (Muğanna), İsmayıl Şıxlı, Əzizə Cəfərzadə, Sabir Əhmədli və digər yazıçıların romanlarını oxuduqca yazıçı Mirzə İbrahimovun öz mülahizələrində haqlı olduğunu anlamaq çətin deyildir. Çünki adı çəkilən yazıçılar öz əsərləri üzərində ciddi şəkildə işləməyi sevən, heç zaman yazdıqlarını tamamlanmış hesab etməyən, daim onları təkmilləşdirməyə çalışan qələm sahiblərindəndir.

Adı çəkilən yazıçılardan İsa Hüseynovun (Muğanna) romanlarının müxtəlif variantlı olması ilə bağlı məsələyə də diqqət yetirilməlidir. Çünki o, bir yazıçı kimi öz əsərlərini xeyli dərəcədə təkmilləşdirmiş, yenidən işləmiş, süjet xəttini zənginləşdirmiş, dil və üslubunu cilalamağa çalışmışdır. Məsələn, yazıçının "İsahəq, Musahəq" romanının ilk variantı "Doğma və yad adamlar" adlandırılmışdır. Lakin İsa Hüseynov (Muğanna) roman üzərində işini dayandırmamışdır. Belə ki, "Doğma və yad adamlar" romanında qaldırılan problemin ciddiliyi yazıçını yenidən bu əsərə dönməyə məcbur etmişdir. Roman üzərində iş prosesində yazıçı Azərbaycan xalqının tarixi və taleyi ilə bağlı bir sıra aktual məsələlərə diqqət yetirmiş, əsəri milli-mənəvi yaddaşı oyadan elementlərlə zənginləşdirmişdir. İsa Hüseynovun (Muğanna) digər romanları da bu şəkildə köklü dəyişikliklərlə oxuculara təqdim olunmuşdur.

Müstəqillik dövrü Azərbaycan romanlarında müşahidə olunan digər mühüm məsələ yazıçı mütaliəsi ilə bağlıdır. Bəlli olduğu kimi, mütaliə yaradıcı şəxsiyyətlərin fəaliyyətində mühüm yerlərdən birini tutmaqdadır. Xüsusilə tarixi roman janrında yazıb-yaradan yazıçı üçün bu aspekt daha səciyyəvidir. Araşdırılan dövrdə Əzizə Cəfərzadənin ciddi, sistemli mütaliəyə geniş yer verməsi, onun əsərlərinin orijinallığını şərtləndirən bədii keyfiyyət kimi özünü büruzə verir.

Görkəmli yazıçı-tənqidçi Mehdi Hüseyn yazırdı: "Məlumdur ki, öz-özlüyündə forma yoxdur, bədii əsərdə hadisələrin təbii cərəyanı, daxili bir məntiq üzrə hərəkəti, həm süjet xəttini, həm fəsillər arasındakı əlaqəni, həm də ayrı-ayrı epizodların bir-birinə üzvi surətdə bağlanmasını şərtləndirir. Burada müəllif iradəsinin ən yaxşı təzahürü ondan ibarət olmalıdır ki, məhz hadisələrin təbii axını pozulmasın, insanların mənəvi inkişafı əyani olaraq görülsün... Deməli, əgər forma gözəlliyindən və yüksək bədii keyfiyyətdən danışmaq lazım gəlsə, birinci növbədə məzmun gözəlliyindən, doğru inkişaf etdirilmiş insan xarakterindən, dürüst əks olunmuş insan münasibətlərindən, bir-birini tamamlayan hadisələr silsiləsindən danışmaq daha doğru olardı" (6, s.37-38).

Bu baxımdan, Azərbaycan nasirlərinin romanlarında forma məzmunun açılışına xidmət edir, onunla qarşılıqlı vəhdətdə gerçəkləşir. Yaranan əsərlərin bədii kamilliyi də məhz bununla bağlıdır.

Müstəqillik dövrü Azərbaycan romanlarının bir çoxu (İsmayıl Şıxlı, Sabir Əhmədli, Əzizə Cəfərzadə, Anar və başqalarının yaradıcılığı fonunda) "qəhrəmanların hərəkəti, fəaliyyət meydanı" (9, s. 179) kimi şərtlənən süjet xəttinin özünəməxsusluğu ilə seçilir. Təsvir olunan hadisə və əhvalatların bədii süjet ardıcıllığının qorunması, yanaşı süjet xətlərinin təsviri, süjetin xronoloji təkamülə deyil, yazıçı məramına tərk etdirilməsi bu baxımdan diqqəti çəkir.

Filologiya elmləri doktoru, professor Qulu Xəlilov "Azərbaycan romanının inkişaf tarixindən" adlı monumental tədqiqatında diqqəti bədii əsərlərdə süjetin funksiyaları ilə bağlı məqama yönəldərək yazır: Hər dövrün, zamanın özünə, mühitinə və xarakterinə uyğun fərqləndirici süjet xətləri olmuşdur. Çünki süjet fakt və hadisələri deyil, müxtəlif hadisə, əhvalat, xarakter, ziddiyyət, tale və s. süjeti doğurur, nizama salır" (6, s. 159).

Tənqidçi-ədəbiyyatşünas Qulu Xəlilovun ədəbi əsərlərdə süjet xəttini hadisə, əhvalat, insan xarakterləri, konflikt və onun bədii həlli yolları doğurması ilə bağlı mülahizələri ilə razılaşmamaq mümkün deyildir. Müstəqillik dövründə qələmə alınmış romanlar da bu baxımdan istisna təşkil etmir. Xüsusilə, Sabir Əhmədli, Afaq Məsud, Vaqif Sultanlı, Elçin Hüseynbəyli və başqa yazıçıların daxili monoloq üzərində qurulan romanlarında zahirən süjet xəttinin olduğu nəzərə çarpmır. Başqa sözlə, adı çəkilən müəlliflərin əsərlərində epik təsvir, bədii lğvhə və epizod əvəzinə hadisələr qəhrəmanın düşüncələrində, daxili dünyasında cərəyan edir.

Professor Qulu Xəlilovun roman janrında süjetlə bağlı digər bir qənaəti də maraq doğurur: "Həqiqi romançı üçün əsas obyekt həyatdır, canlı insanlardır, dövrün əhvali-ruhiyyəsidir. Dövrün tipik hadisələrini seçmək, ümumiləşdirmək, qruplaşdırmaq və bütün bunları insanların "mənəvi-əxlaqi

dünyasından" keçirmək, maraqlı süjet ətrafında təsvir etmək sənətkarlığın mühüm şərtlərindəndir. Süjetsiz roman yazmağa cəhd edənlər ədəbiyyat tarixində müvəffəqiyyətsizliyə uğramışlar. Çünki belə səylər roman kimi məsuliyyətli janrın parçalanmasına, dağılmasına...doğru aparır" (3, s.155).

Araşdırmaya cəlb edilən dövrdə Seyran Səxavət, Afaq Məsud və Elçin Hüseynbəylinin romanları vahid süjet xəttinə malik olmayan, daha çox süjetsiz bədii örnəklər kimi diqqəti çəkir.

Müstəqillik dövrü Azərbaycan romanlarında ayrı-ayrı yazıçıların timsalında süjet xəttinin fərqli şəkildə qurulduğunu müşahidə etmək mümkündür. Məsələn, yazıçı Əzizə Cəfərzadənin romanları bir çox hallarda vahid süjet xətti ətrafında qurulmur. Belə ki, müəllif "oxucunu maraq içində saxlaya bilmək, obrazların mürəkkəb inkişafında bəzən ötəri görünə bilən hərəkət və əlaqələrinə əsərin ana ideya-bədii xətti axarında yön verə bilmək" məqsədilə müxtəlif süjet xətlərini qovuşdurur (3, s.50). Məsələn, "Gülüstandan öncə" romanında hadisələr müəyyən bir zaman kəsimini, "Bir səsin faciəsi"ndə ayrı-ayrı epizodlar fonunda qəhrəmanın həyat yolunun ümumi istiqamətlərini, Tahirə Qürrətüleynin həyatından bəhs edən "Zərrintac-Tahirə" romanında isə qəhrəmanın bütün ömür yolunu əhatə edir. Yazıçının son əsəri olan "Eşq sultanı" romanında isə Məhəmməd Füzulinin həyatının ən mühüm dövrləri qələmə alınmışdır. Adı çəkilən romanların hər birində süjet xətti təsvir olunan əhvalatlara uyğun şəkildə qurulmuşdur. Yazıçı yığcam süjet daxilində qəhrəmanlarının mənəvi aləminə işıq tutmuş, onları özünəməxsus keyfiyyət cizgiləri ilə təqdim etmişdir.

Əzizə Cəfərzadənin romanlarında süjet xətti hadisə və əhvalatların axarına buraxılmamış, əsas etibarı ilə müəllif qayəsinə tabe etdirilmişdir. Müəllif süjet xəttini təsvir olunan mühitə və zamana uyğun olan hadisələr, obrazlar ətrafında qurmağa üstünlük verir.

İsmayıl Şıxlının "Ölən dünyam" romanında isə süjet xətti müəyyən zaman keçidləri ilə müşayiət olunmaqdadır. Yazıçının məqsədli şəkildə reallaşdırdığı bu zaman keçidləri əsərin oxunaqlığını təmin etməklə yanaşı, təsvir olunan əhvalatların dramatizmini şərtləndirir. Romanda hadisələrin inkişafında bəzən ardıcıllığın pozulması, qəhrəmanların həyat yolunun müəyyən fasilələrlə təsvir olunması süjet dağınıqlığına gətirib çıxarmır. Bu isə oradan irəli gəlir ki, İsmayıl Şıxlı romanın süjetini dövrün tarixi hadisələrinin xronologiyasına uyğun şəkildə qurmağı bacarmış, ona görə də təsvir olunan tarixi zaman kəsiyində baş vermiş bütün əhvalatları süjetin ümumi həlqəsinə daxil etməyə nail olmuşdur. Zənnimizcə, bu "Ölən dünyam" romanının yüksək bədii sənətkarlıq özəlliyi kimi dəyərləndirilməlidir.

Müstəqillik dövrü Azərbaycan romanlarını səciyyələndirən ən mühüm cəhətlərdən biri tipiklikdir. Dövrün ədəbi prosesinin təhlili göstərir ki, yazıçılar məqsədsiz, məramsız, ideyasız, sadəcə əsər yazmaq xatirinə nə isə qələmə

almamış, tipik hesab etdikləri hadisə və əhvalatları canlandırmış, oxucularını dövr və zaman üçün ciddi, əhəmiyyətli, mühüm hesab ediləcək sosial-siyasi və mənəvi-əxlaqi problemlər fonunda düşüncələrə çəkməyə çalışmışlar.

Filologiya elmləri doktoru, professor Əziz Mirəhmədov "Nəsrin şeiriyyəti" adlı məqaləsində yazır: "Ədəbi əsərlərin dəyəri heç bir zaman onun yalnız mövzusu, təsvir obyekti ilə, yaxud surətlərin peşəsi, mənəvi-əxlaqi səviyyəsi, təhsili, cəmiyyətdə tutduğu mövqeyi ilə müəyyənləşmir. Əsl məsələ seçilən mövzunun, təsvir obyektinin hansı bədii qayəyə xidmət eləməsində, əsərin ideya-estetik pafosunda, onun oxucuya aşıladığı fikir və hissin nə dərəcədə müasir, faydalı, əhəmiyyətli, nə dərəcədə səmimi, inandırıcı, təsirli olmasındadır. Əsərin pafosunu, ideya-estetik dəyərini isə yazıçı mövqeyi, yazıçının həyata baxışının, bədii konsepsiyasının mahiyyəti təyin edir. Müəllifin nə dərəcədə mütərəqqi, insani, nəcib məqsədlər izlədiyi, məqsədinə nə dərəcədə çatdığı burada əsas meyardır" (4, s.190).

Məhz bu baxımdan yanaşdıqda müstəqillik dövrü Azərbaycan romanları vətəndaşlıq mövqeyinin qabarıqlığı ilə maraq doğurur. Xüsusilə tarixi mövzuda qələmə alınmış roman örnəkləri ciddi tərbiyə vasitəsi kimi diqqəti çəkir. Tənqidçi-ədəbiyyatşünas Yavuz Axundovun doğru müşahidə etdiyi kimi: "Tarixi roman mühüm tərbiyə vasitəsidir. Gənc nəsil belə əsərlər vasitəsi ilə öz xalqının keçmişi, mübarizəsi, görkəmli şəxsiyyətlərinin həyatı ilə yaxından tanış olur, onlarda vətənpərvərlik və milli iftixar hissləri güclənir. Buna görə də tarixi mövzuya müraciət edən hər bir müəllif bu işin məsuliyyətli və şərəfli olduğunu nəzərdən qaçırmamalıdır" (6, s.71). Müasir Azərbaycan yazıçıları bu qayə ilə tarixi mövzulara müraciət etdikləri üçün onların romanları həmçinin ideya-məzmun çalarları ilə maraq doğurur. Müstəqillik dövrü Azərbaycan romanları göstərir ki, yazıçılar bədii sözə dərindən bələddir, ondan məharətlə istifadə etməyi bacarırlar. Bəhs olunan dövrdə bəzi istisnalar nəzərə alınmazsa roman janrında qələmə alınan heç bir əsər həcm xatirinə böyüməmiş, artıq epizod, süjet və hadisələrlə yüklənməmişdir. Yazıçılar az sözlə dərin məzmun ifadə etməyə üstünlük verdikləri üçün əsərləri sözün imkanlarından sərrast və məharətlə istifadə etmənin orijinal nümunələridir. Müstəqillik dövrü Azərbaycan romanları bədii konfliktin yeniliyi, özünəməxsusluğu, bənzərsizliyi ilə seçilir. Sovet siyasi rejimi dönəmində qələmə alınan bir çox romanlardan fərqli olaraq bəhs olunan illərin mövcud janrlarında yaradılan konfliktlər obrazların daxili-mənəvi dünyasının fərqli cizgiləri ilə diqqəti cəlb edirlər. İsmayıl Şıxlının "Ölən dünyam", Anarın "Ağ qoç, qara qoç", Əzizə Cəfərzadənin "Zərrintac-Tahirə", "Eşq sultanı", Seyran Səxavətin "Nekroloq" romanlarında yaradılan konfliktlər orijinallığı, ictimai mühitin reallıqları ilə diqqəti çəkir.

Ədəbiyyat

1. Abdulla Kamal. “Yarımçıq əlyazma”. Bakı. "XXI-YNE" nəşriyyatı. 204. 288 səh.
2. Axundlu Yavuz. “Tarixi roman və müasirlik”. Bakı. Elm. 1975. 40 səh.
3. Abdullayev Cəlal. “Müstəqillik dövrü bədii nəsrinin problemləri”. Bakı Universiteti xəbərləri, Humanitar elmlər seriyası, 2004. N4. səh 87-94.
4. Cəfərzadə Əzizə. “Bir səsin faciəsi”. Bakı. Az KC mətbəəsi. 1997.144 səh.
5. Cəfərzadə Əzizə. “Eşq sultanı”. Bakı. Şirvannəşr. 2005. 204 səh.
6. Cəfərzadə Əzizə. “Zərrintac-Tahirə”. Bakı. Göytürk. 1996. 208 səh.
7. Əhmədli Sabir. “Axirət sevdası”. Bakı. Ozan nəşriyyatı. 2003. 312 səh.
8. Əliyeva İfrat. “El anası- Əzizə Cəfərzadə”. Bakı. Elm. 2001. 64 səh.
9. Ənvəroğlu Himalay. “Azərbaycan romanın inkişaf problemləri”. Bakı. Nurlan. 2008. 335 səh.
10. Hüseynbəyli Elçin. “Yovşan qayalar”. Bakı. Adiloğlu. 2005. 344 səh.
11. Xəlilov Qulu. “Azərbaycan romanının inkişaf tarixindən”. Bakı. 1973. 352 səh.
12. Kazımov Qəzənfər. “Sənət düşüncələri”. Bakı Azərbaycan Dövlət Kitab Palatası. 1997. 576 səh.
13. Qarayev Yaşar. “Tarix yaxından və uzaqdan”. Bakı. Sabah nəşr. 1995. 700 səh.
14. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə I-II cildlər. Bakı. BDU nəşriyyatı. 2007.

С.Аббасова

Художественно-изобразительные особенности азербайджанских романов периода независимости

Резюме

Статья посвящена художественно-изобразительным особенностям азербайджанских романов периода независимости. Проблемы историзма и современности в азербайджанских романах периода независимости связаны друг с другом во взаимосвязи. Это условные особенности жанровой специфики, художественных характеристик и совершенства созданных романов. Азербайджанские романы периода независимости также интересны для распространения положения о гражданстве, особенно романы, написанные на историческую тему, привлекают наше внимание как средство серьезного воспитания. Писатели использовали большое количество эпизодов, сюжетов и

событий; потому что авторы предпочитают выражать глубокое содержание.Азербайджанские романы периода независимости отличаются оригинальностью, спецификой и новаторством их художественного конфликта.В этой статье изучаются романы Исы Гусейнова (Муганна), Исмаила Шихли, Азизы Джафарзаде, Анара, Эльчина Гусейнбейли, Кямала Абдуллы и Сабира Ахмедлы. Здесь также даются ценные идеи видных ученых, таких как Мехди Хусейн, Гулу Халилов, Азиз Мирахмедов, Газанфар Казимов, Яшар Гараев, Явуз Ахундов и Вилаят Гулиев.

S.Abbasova

The artistic-mastery features of the Independence period Azerbaijan novels

Summary

The article was dedicated to the artistic-mastery features of the Independence period Azerbaijan novels. The problems of historism and modernity in the Independence period Azerbaijan novels related to each – other in the mutual union. This is the conditional features of the genre peculiarity, artistic characteristics and the perfection of the created novels, too.The Independence period Azerbaijan novels is also interesting for its propagation of the citizenship position. Especially novels written on the historical theme attracts our attention as a means of the serious upbringing. No work grew up for the sake of volume, and no work loaded with much more episode, plot and events; because writers prefer to express the deep content with much more little words.The Independence period Azerbaijan novels are distinguished by its originality, specifity and innovation of their artistic conflict.Isa Huseynov’s (Mughanna), Ismail Shikhli’s, Aziza Jafarzadeh’s, Anar’s, Elchin Huseynbeyli’s, Kemal Abdulla’s and Sabir Akhmedli's novels are studied in this article. Here is also given the valuable ideas of the prominent scientists as Mehdi Hussein, Gulu Khalilov, Aziz Mirahmedov, Gazanfar Kazimov, Yaşar Garayev, Yavuz Akhundov and Vilayat Guliyev on the subject.

Rəyçi: Sultan Seyidova
Filologiya üzrə fəlsəfə dosktoru, dosent

ŞAKİR CƏFƏROV,
filologiya üzrə fəlsəfə doktoru
ceferov.shakir@yandex.ru

MİR CƏLALIN YARADICILIĞINDA ANA MƏHƏBBƏTİ İLƏ VƏTƏN SEVGİSİ BİR-BİRİNDƏN AYRILMAZDIR

Açar sözlər: Ana məhəbbəti, Vətən sevgisi, romantik sənətkar, xalqına bağlılıq, milli sərvətimiz
Keywords: Maternal love, love of the motherland, romantic master, commitment to the people, national wealth
Ключевые слова: Материнская любовь, любовь к родине, романтический мастер, приверженность к народу, национальное богатство

Həyatımızın və məişətimizin müxtəlif sahələrini özünəməxsus məharətlə təsvir edən Mir Cəlalın əsərlərində vətənpərvərlik, beynəlmiləlçilik motivləri başlıca rol oynamışdır. Mir Cəlal "Dirilən adam","Təzə şəhər", "Yolumuz hayanadır", "Bir gəncin manifesti", "Açıq kitab"və s. irihəcmli roman və povestlər, vətənpərvərlik ruhunda günümüzlə səsləşən maraqlı hekayələr yazmışdır.

Ədəbiyyatşünas alim Məmməd Arif qeyd edirdi ki, onun (Mir Cəlal Paşayev nəzərdə tutulur) satirik qələmində bəzən Cəlil Məmmədquluzadənin, bəzən də Əbdürrəhman bəy Haqverdiyevin cizgilərinə rast gəlirik. Lakin Mir Cəlalın yumor və satirası özünəməxsusdur. "Bostan oğrusu", "Möhür", "Qoltuq radiosu","Mərd və namərd"və s.bu səpkidə qələmə alınmış hekayələrdəndir. Mir Cəlal yaradıcılığında "Ötən günlər dəftərindən" adlandırdığı yumoristik hekayələri də həmişə oxucuların diqqət mərkəzində olmuş, müəllifinə rəğbət qazandırmışdır. Onun "Göz", "Peşmançılıq","Kərpic məsələsi","Gözün aydın","Badamın ləzzəti", "Anket Anketov", "Əməli saleh","Vətən oğlu" kimi hekayələri bu gün də sevilə-sevilə oxunur. "Vətən oğlu" hekayəsində əsl vətənpərvərlik ideyası böyük ilhamla qələmə alınmışdır. Əsərlərində yaxın və uzaq ellərdə vuruşan hər bir azərbaycanlının obrazını canlı yaratmışdır. Vətənə, anaya əvəzolunmaz sevgi onun yaradıcılığında xüsusilə qabarıq şəkildə diqqət çəkəndir. Məsələn, "Vətən yaraları" hekayəsində ədib qeyd edir ki, bəşəriyyət hamısı analar qəlbi ilə yaşasaydı, dünya başdan-başa bir cənnət olardı **(Mir Cəlal. "Vətən yaraları". Bakı, "Azərnəşr", 1943, 12 s.)**

Mir Cəlal müəllimin yaradıcılığında Vətən sevgisi və xalqına bağlılıq kimi bəşəri duyğular dərin təsir qüvvəsinə malik real həyat həqiqətləri ilə təsvir edilmişdir. Doğma Vətənimizə yadellilərin müdaxiləsi, görkəmli ədibi daima hiddətləndirmiş, bir an belə rahat buraxmamışdır. Onu düşündürən Azərbaycanın müstəqilliyi və bütövlüyü olmuşdur. Bu nisgillə yaşayan ədib

qeyrət qalasına bənzəyən təkrarolunmaz - "Bir gəncin manifesti" əsərini araya-ərsəyə gətirmişdir.

Mir Cəlalın ən məşhur əsəri "Bir gəncin manifesti" romanıdır desək, yəqin ki, səhv etmərik. Sovet dövründə bu əsər təkcə, tənqid və ədəbiyyatşünaslığın təqdir etdiyi roman yox, həm də sözün həqiqi mənasında oxucuların stolüstü kitabı olmuşdur. Romana bu sevginin həqiqi və əsas səbəbi nədir? Fikrimizcə, bu səbəbi görkəmli tənqidçi M.Arif çox dürüst müəyyənləşdirmişdir. 1957-ci ildə qələmə aldığı "Azərbaycan sovet romanı" məqaləsində tənqidçi yazırdı: "Bir gəncin manifesti" vətənpərvərlik ehtirası ilə yazılmışdır" M.Arifin fikrincə, bu vətənpərvərlik ehtirası romanda dolğun əks olunmuşdur. Bu "dolğun"luğun birinci və əsas şərtini tənqidçi romanın "eposa meyllilik"ində görmüşdür. Onun "Bir gəncin manifesti"ni S.Rəhimovun "Şamo"su ilə müqayisə etməsi çox ciddi mətləblərdən xəbər verir. M.Arif müqayisəni yalnız ona görə aparmır ki, "Şamo" romanının mövzusu "Bir gəncin manifesti" romanının mövzusundan çox da fərqli deyildir **(Təyyar Salamoğlu. " Mir Cəlal nəsri və müasirlik". Bakı, " Orxan" NPM, 2018, 136s.).**

Ədib əsərində dünyanı bir yumru top gözündə görən ingilislərin azğın niyyətlərini böyük ustalıqla təsvir etmişdir. Əsərdə maddi zənginliyi hər şeydən uca tutan, özümüzə qənim kəsilən tacir obrazını müəllif məharətlə yaratmış, xalqımızı milli birliyə çağırmışdır. Xalqının ağır güzəranını, haqsızlığı, rüşvətxorluğu, özbaşınalığı, ümumiyyətlə, bu məşəqqətli qəm bazarında bütün insanların həyat tərzi məharətlə oxucusuna çatdırılmışdır.

Milli sərvətimiz olan "Yusif-Züleyxa" xalçasını bazara satmağa aparan Sona obrazı əsl vətənpərvərlik nümunəsidir. Oğlu Mərdanı həbsdən qurtarmaq naminə iyirmi ildən artıq evində saxladığı "Yusif-Züleyxa"sını satmağa gətirən Sonanın ingilisi görəndə ürəyində bir ikrah hissi baş qaldırır. Tacir nə qədər çalışırsa, Sona böyük qürur hissi ilə:

-İtə ataram, yada satmaram! - deyir.

Bu qəti rədd cavabı Sona obrazında milli oyanış idi. Namuslu, qeyrətli ananın qətiyyəti yüzlərlə vətəndaşın sevinci, Azərbaycan xalqının yadellilər üzərində qələbə təntənəsi idi. Müəllif bu əsəri ilə ədəbiyyatımızda milli birlik ideyası ilə səsləşən, təməli milli mentalitetimizdən yoğrulmuş möhtəşəm bir ana abidəsi ucaltmışdır.

Mir Cəlal yaradıcılığında Vətən sevgisi möhkəm təməli olan sütunlar üzərində dayanmışdır. Humanizm və vətənpərvərlik, azadlıq, bərabərlik və millətlərin qardaşlığı ideyaları Mir Cəlal yaradıcılığında mühüm yer tutur. Vətənə məhəbbət ideyası romantik əsərin ruhunu, canını təşkil edir. Doğma Vətəni sevməyi, ona əsl övlad məhəbbəti ilə xidmət etməyi romantik əsərin lirik qəhrəmanı özünün yüksək idealı, müqəddəs borcu hesab edir. Vətənin tarixi keçmişi, müstəmləkə şəraitindəki ağır, dözülməz vəziyyəti, onun işıqlı

sabahına inam, vətən övladının ətalət və cəhaləti lirik qəhrəmanın zehnini məşğul edən problemlərdir.

Vətən sevgisi romantik sənətkar olan Mir Cəlal müəllimin ərsəyə gətirdiyi "Bir gəncin manifesti" romanında və müharibə mövzusu ilə bağlı olan hekayələrində özünəməxsus səciyyəvi, təbii və rəngarəng boyalarla vəsf edildiyindən, onun bədii təsvir və tərənnüm üsulları da birbirindən seçilir. Vətən məhəbbəti ideyasının onun hekayələrindəki ifadə şəkillərinin timsalında bu əlvanlığı, rəngarəngliyi aydın görmək olur. İncəlik, gözəllik, zəriflik vurğunu olan Mir Cəlal ana yurdun zəngin təbiətini, gözəl adət-ənənələrini, əxlaq nümunələrini vəsf edəndə, oxucunun nəzərində doğma diyarı odlu məhəbbətlə sevən, xalqın mənəviyyatına səcdə edən, əxlaq davranışına və insanlardakı estetik gözəlliyə heyran olan, saf, səmimi, Vətən məhəbbətini tərənnüm edən əməlpərvər, sülhpərvər, vətənpərvər nasir kimi canlanır.

Romantik əsərin lirik qəhrəmanın nəzərində Vətən ən müqəddəs anlayışdır - anadır. Ana məhəbbəti ilə Vətən sevgisi bir-birindən ayrılmazdır. Mir Cəlal söz sənətkarı kimi bütün bu gözəllikləri qəhrəmanlarının vasitəsilə öz əsərlərində tərənnüm etmiş və oxucuda elə təəssürat yaranır ki, Azərbaycan təbiətinə görə dünyanın ən məftunedici guşələri sırasındadır. Romantik sənətkar doğma yurdun zəngin təbii sərvətlərini, insanı riqqətə gətirən sıldırım qayalarını, keçilməz meşələrini, heyranedici düzənliklərini, gen tarlalarını, şəfaverici sərin bulaqlarını, bağlı-bəhərli məskənlərini coşqun ilhamla təsvir və tərənnüm etmişdir.

Mir Cəlalın yaratdığı müxtəlif əsərlərdəki romantik qəhrəman Vətənin müqəddəsliyini uca tutan, ədalət və şəxsi azadlığı uğrunda mübariz, bərabərliyə və sosial tarazlığa üstünlük verən, Vətən yolunda, xalq yolunda canından keçməyə hazır olan fəal ziyalı, vətəndaşdır, öz məsləkində, yolunda möhkəm və mətanətlidir (Ramiz Dəniz."Qəblərdə yaşayan Mir Cəlal". Bakı, "Yurd" NPB, 2008,160 s.).

Ədəbiyyat

1. Mir Cəlal. "Vətən yaraları". Bakı, Azərnəşr, 1943,12 s.
2.Himalay Ənvəroğlu (Qasımov). "Sənət və sənətkarlıq məsələləri yeni düşüncə müstəvisində". Bakı, "Elm və təhsil," 2011, 366 s.
3.Təyyar Salamoğlu. "Mir Cəlal nəsri və müasirlik", Bakı."Orxan" NPM, 2018,136s.
4.Ramiz Dəniz."Qəblərdə yaşayan Mir Cəlal." Bakı, "Yurd" NPB, 2008,160 s.

Ш.Джафаров

В творчестве Мир Джалала любовь к Родине неразрывно связана с любовью матери

Rezюme

Мотивы патриотизма, интернационализма сыграли важную роль в произведениях Мир Джалала, который описывал различные аспекты нашей жизни уникальным образом. Идея подлинного патриотизма вдохновила историю «Сын Родины». В своих произведениях он создал живое изображение каждого азербайджанца, который сражался в близких и далеких странах.

Непревзойденная любовь к родине и к матери, особенно поражает ее творчество. Например, в рассказе «Родимые раны» писатель отмечает, что если человечество будет жить материнскими сердцами, мир станет раем.

В творчестве Мир Джалала человеческие эмоции, такие как любовь к Родине и приверженность к народу, описываются реальными истинами, которые имеют глубокое влияние.

Вмешательство иностранцев на родину всегда вызывало возмущение у выдающегося писателя и не оставило его спокойным на мгновение. Его забота была независимость и целостность страны. В глазах лирического героя романтического произведения, Родина самое священное понятие, Родина - мать. Любовь к Родине неотделима с материнской любовью.

Jafarov Shakir

In the Mir Jalal’s creativity, love for the Motherland is inextricably linked with the mother's love

Summary

The motives of patriotism, internationalism played an important role in the Mir Jalal’s works, who described various aspects of our life in a unique way. The idea of genuine patriotism inspired the story "Son of the Motherland". In his works he created a live image of every Azerbaijani who fought in close and distant countries. Unsurpassed love for the motherland and for the mother, especially striking her creativity.

For example, in the story "The homeland wounds", the writer points out that if the world lives with maternal hearts, the world will become a paradise. In the Mir Jalal's creativity, human emotions, such as love of the Motherland and adherence to the people, are described by real truths that have a profound influence.

The intervention of foreigners to our country always aroused indignation among the outstanding writer and did not leave him calm for a moment.

His concern was the independence and integrity of the country. In the mind of the lyrical hero of the romantic work, the Motherland is the most sacred concept, the Motherland is the mother. Love for the Motherland is inseparable from maternal love.

Rəyçi: Təyyar Cavadov
Filologiya üzrə elmlər doktoru, profeesor

MƏTANƏT ABBASOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
abbasova-metanet@list.ru

TƏBRİZDƏ QƏDİM TOY NƏĞMƏLƏRİ VƏ MƏRASİM RİTUALLARI

Açar sözlər: Təbriz, ritual, toy, mərasim, sınama
Ключевые слова: Тебриз, ритуал, свадьба, церемония, опробование
Key words: Tabriz, ritual, wedding, ceremony, test

Təbrizdə qədim toy adət-ənənləri və mərasim ritualalrı tarixiliyi etibarilə xalqın əski təsəvvür, düşüncəsi, inam və etiqadlarını özündə ehtiva etməkdədir. Məqalədə Təbrizdə bu mərasaimlərin təşkili, sınama təcrüəbələrin qaynağında uyğun ritualların həyata keçirilməsi nəğmə mətnlərinin motivləşməsi və s. araşdırılmışdır. Toy mərasimlərinin mənşəyi, təşəkkül prosesi ümumtürk məişət törənlərinin məzmununa bağlı Təbrizdə də tarixən bu ənənəyə uyğun mərhələli şəkildə keçirilmişdir. Dini ritualların toy törənlərində yerinə yetirilməsi əslində tarixən tayfa, qəbilə, xalqların tarixi-dini mənsubiyyətinə bağlı formalaşmış, zamanla mövcud ehkamların xalq məişətində sınama, təcrübələrdə qorunmasını şərtləndirmişdir. Təbriz toy törənlərinin ən mühüm tərəfi məclisin müxtəlif musiqi, nəğmələr üzərində qurulmasıdır. Məzmun baxımından bu nəğmələr çoxşaxəlidir.

Güney Azərbaycan folklorunda Təbriz qədim adət-ənənələri, xalq inanc, sınamaları, deyimləri, əfsanə və nağıl mətinləri ayrı-ayrı mərasim rituallarının zənginliyi, daha əski görüşlərin qaynağında tarixiliyi və s. baxımından milli-mədəni irsin araşdırılmasında ayrıca yer tutur. Təbriz folklor mühitinin çoxşaxəli şifahi ənənəsində mərasimlər, xüsusilə toy mərasimləri, onun ritual, mifoloji kökləri mükəmməl, ənənəvi etnopoetik modeli, universal semantik sistemi ilə xüsusi əhəmiyyət kəsb edir.

Toy mərasimlərinin mənşəyi, təşəkkül prosesi ümumtürk məişət törənlərinin məzmununa bağlı Təbrizdə də tarixən bu ənənəyə uyğun mərhələli şəkildə keçirilmişdir. “Elçilik”, “hə alma”, “şirni və kəbin kəsmə”, “paltar aparma və üzük taxma”, “həna gecəsi” mərasimləri gəlinin bəy evinə köçürülməsidə “toy günü” ilə yekunlaşdırılmışdır. Qeyd edək ki, toy adət-ənənlərində burada qızın uzun müddət nişanlı qalması və toydan sonrakı təşkil olunan məclislərə uyğun “Bayram payı aparmaq”, “Nubarçalıq”, “Qurbanlıq”, “Çilə payı” (çilə qarpızının qız evinə aparılması), “Ayaq açma”, “Əl öpmək”, “Xonça aparmaq” kimi ayrıca mərasimlərdən təşkil olunmuşdur. Təbrizdə qədim toy mərasimləri günlərlə davam etmiş, aşıqların

məclisə dəvəti, müxtəlif məişət oyunlarının keçirilməsi, əski zamanlardan qorunub saxlanan rəqs ənənələri, qavalla müşayiət olunan ayrı-ayrı nəğmələrlə keçirilmişdir. Toy günü bu bölgədə ilk olaraq bəyin sağdış, soldışı, gəlinin qız-gəlinlər, məşşatə ilə hamama yola salınıb, qarşılanması ilə başlanmışdır. Yaxın qohum, dostlardan hədiyyələr toplanılması , qızıl-zinyət əşyalarının bağışlanması, qurban ritualları, nəzir-niyazla təşkil edilən bu mərasimdən sonra bəy qız evinə yollanıb, gəlini ata evindən öz ocağına gətirir. Analoji şəkildə digər mərasimlərdə olduğu kimi, oğlanın qız evində qarşılanması müxtəlif lirik nəğmələrlə başlanmışdır:

Bazardan aldıx soğanı,
O soğanı, bu soğanı
Sağ olsun oğlan doğanı,
Toylar mübarək, mübarək.

Bazardan aldıx seyini,
O seyini, bu seyini.
Sağ olsun ağa qeyini,
Toylar mübarək, mübarək (1, 40).

Oğlan evinin qarşılanması da bu mərasimdə çox vaxt məşşatəyə həvalə olunmuş və o, əlində qaval çalıb oxuya-oxuya qonaqları qarşılamışdır.

İfa prosesinin gerçəkləşdiyi bu mərasimdə nəğmələr qarşılıqlı şəkildə oxunaraq şəxsi hiss, lirik duyğularda ifadə olunur və eyni zamanda mətnlərdə emosionallıq artır, nida formasında nitq vasitələri üstünlük təşkil edir:

Toyun başlarux sazınan,
Şirin-şirin avazınan.
Gəlin gəlir sazınan,
Toylar mübarək, mübarək! (1, 41)

Yaxud başqa bir ritmdə:

Toy düyüsün arıtmışıq,
Damnan dama dağıtmuşuq,
Qız nənəsin qarıtmışuq,
Ey güli-reyhan,
Reyhan biçərəm mən,
Damad toyunda candan keçərəm mən. (6, 30)

Yeri gəlmişkən qeyd edək ki, toyun bu mərhələsində qız və oğlan tərəfindən oxunan nəğmələr xalq lirik şeirinin ümumi poetik ənənəyə tabeliyi, formul təbiətindən irəli gələrək ayrılıq, sevinc, vüsal, ev, yol və s. bir çox situasiyalar əsasında motivləşir. Oxunan müxtəlif məzmunlu

nəğmələrin ardınca gəlinin beli onun qaynı, qardaşı, yaxud oğlan evinin gənclərindən biri tərəfindən aşağıdakı arzulamayla bağlanılır:

Anam, bacım qız gəlin,
Əli-əyağı düz gəlin,
Yeddi oğlan istərəm,
Son beşiyi qız gəlin.

Maraqlıdır ki, Urmiya adət-ənənələrində bu ritual bəzən "yeddi oğlan bir kor qız"a arzulanaraq icra olunur. Ata evindən çıxan qızın namus, ismət, gələcək taleyinin oğlan evinə, onun ailəsinə tapşırılması mənasında bu adət od-alovun şöləsi, şam tutmaqla yerinə yetirilir. Qədim Təbriz toy adətlərində gəlinin oğlan evinə uğurlanmasında nəğmələrin motivi ilk olaraq ona müraciətlər üzərində qurulan lirik mətnlərdə yer alır:

Gəlinə getdi bir cüt qoyun,
Qız adamı yeyin doyun.
Gəlinin başmağın qoyun,
Bizi yola salın gedək.
Boynuna şal dola gedək.
Gəlin dur gedək, dur gedək,
Bacım dur gedək, dur gedək. (2, 339)

Yaxud,

Gəlin başmağın sarıdı,
Geymə, dabanın ağrıdı.
Maşın qapıda hazırdı,
Gəlin dur gedək, dur gedək,
Bacım dur gedək, dur gedək. (2, 339)

Gəlinin musiqi, nəğmələrin sədaları altında yola salınması həmçinin burada uyğun rituallarla həyata keçirilirdi ki, onların izi bugünkü toy mərasimlərində də qorunub saxlanmaqdadır. Gəlinin üzünə al-qırmızı sal salınması, üzərlik dolandırma, ayna tutma kimi müxtəlif sınamalara bağlı inanclar bu qəbildəndir. Qədim dövrlərdə gəlinin ata mindirilməklə ata evindən yola salındığında müxtəlif inanc və təcrübələrin məzmununa bağlı atın bəzənməsi, bəy, gəlinin yəhərdə oturmazdan əvvəl bir çox rituallara əməl etməsi vacib sayılırdı. Gəlin atı burada şənliyin, mərasimin mahiyyətinə bağlı al-qırmızı şalla süslənirdi ki, bu rəng çaları sevinc, həyat, fərəh, xoşbəxtliyə, işarə etməklə, eyni zamanda geyim, əşyalarda buta təsviri elementi ilə birlikdə şər qüvvə, bəd ruhlardan qorunma inancını daşıyırdı. Mərasim folklorunda toy törənlərinin təşkilində geyimlərin məhz bu rəng üzərində qurulması da oxşar inancların məzmunu ilə əlaqədardır. Təbriz toy törənlərində uyğun rituallar bərəkət, dini, qorunma rituallarına görə fərqlənir. Bərəkət-bolluq arzulanması toy rituallarında əsasən çörək, düyü, nabat və

müxtəlif şirniyyat, un məmulatlarının bölünməsi, paylanması, səpilməsi ilə həyata keçirilirdi.

Dini ritualların toy törənlərində yerinə yetirilməsi əslində tarixən tayfa, qəbilə, xalqların tarixi-dini mənsubiyyətinə bağlı formalaşmış, zamanla mövcud ehkamların xalq məişətində sınama, təcrübələrdə qorunmasını şərtləndirmişdir. Toy mərasimində bu baxımdan kəbin kəsilməsi ayrıca qeyd olunur. Kəbin kəsilməsi mərasimində "əqd" süfrəsi açılır ki, din xadimi-mollanın iştirakı ilə əqd siğəsi oxunub, kəbin kəsilir. Daha çox Urmiya ərazisi toy dəblərində yerinə yetirilən qızın "bəxt köynəyi"ni tikmə ritualı əski Təbriz toy törənlərində də vaxtilə icra olunmuşdur. Bu rituala görə, kəbini kəsilən oğlan və qızın başı üzərinə rəngli parça tutulub, daha sonra qənd ovulur. Qızların əlində ayna, müxtəliş alqış, arzulamalara bağlı nəğmələr oxunmaqla "bəxt köynəyi"nin tikilməsi rituallaşır.

Bərəkəti təmsil edən sınama, inanclardan fərqli olaraq, dini rituallarda dua, üzərlik və s. daha çox qoruyucu rituallara daxildir.

Mərasimə yerinə yetirilən bu ritualların digər qaynağı söz-deyim-alqışlara bağlıdır. "Ağ bəxt görəsən", "Ağ bəxt, altın təxt olsun", "Ağ bəxti xeyir olasan", "Ağ günlü, ağ ipəkli olasan", "Allah bəxt versin, təxt ayağına gəlsin", "Allah bir yasdıxda qocaltsın", "Bəxtin üzüvə gülsün", "Qız-gəlin görəsən", "Taza gəlinin qədəmi sayalı olsun" və s. alqışları da bəd, şər qüvvələrin uzaqlaşdırılması, dağıdılması ovsun təcrübəsi əsasında formalaşmışdır.

Təbriz toy törənlərinin ən mühüm tərəfi məclisin müxtəlif musiqi, nəğmələr üzərində qurulmasıdır. Məzmun baxımından bu nəğmələr çoxşaxəlidir. Qədim dövrlərdə xüsusi ifaçı, çalğıçıların olmaması səbəbindən bu mərasimlər elə toy iştirakçıları, qız-gəlinlər, el aşıqları tərəfindən həyata keçirilirdi. Gəlinin ata evində öyüd-nəsihətlərilə yola salınması, oğlan evində qarşılanma, bəy-gəlin, toya gələn qonaqların tərifi və s. bu nəğmələrin motivlərini təşkil edir. Bu motivlərə uyğun da zamanla ana-nənələrimiz, qız-gəlinlər bir-birindən fərqli şux, lirik, məzəli nəğmələr qoşmuş və bu nəğmələri, toydan-toya, mərasimdən-mərasimə ötürərək yaşatmışdılar. Folklor ədəbiyyatının spesifikliyindən irəli gələrək bu lirik parçalar məclisdən-məclisə, eldən-elə yayıldıqca "ifaçı" tərəfindən improvizasiya olunaraq müxtəlif variantlarda yayılmışdır.

Lokal, yerli nəğmə mətnlərini nəzərə alaraq bu nəğmələrin bir neçəsinə diqqət yetirək. Məlumdur ki, ümumiyyətlə, Azərbaycan toy mərasimlərində oxunan "Gəlin xoş gəldin, xoş gəldin" nəğməsi bu bölgədə də daha geniş şəkildə yayılmışdır:

Gəlin deyir, qardaş-qardaş,
Yaşın tökər yavaş-yavaş.

Ağa-qeynin sənə qardaş,
Gəlin xoş gəldin, xoş gəldin.

Gəlin deyər bacı, bacı,
Yaşın tökər acı-acı.
Xanım baldız sənə bacı,
Gəlin xoş gəldin, xoş gəldin. (1, 41)

Gəlin deyər ata-ata,
Yaşı tökər yata-yata.
Ağa qaynatan sənə ata.
Gəlin xoş gəldin, xoş gəldin. (6, 32)

Qeyd edək ki, bu mahnının Qüzeydə yayılmış ən geniş variantı isə aşağıdakı şəkildədir:

Gəlin deyər: "Hanı, atam?
Qoyunu quzuya qatam".
Qaynatandır sənin atan.
Gəlin deyər: "Hanı qardaş?"
Axıdar gözlərindən yaş.
Qayınındır sənə qardaş.
Gəlin deyər: " – Hanı bacım?
Su üzündə qaldı saçım".
Baldızındı sənin bacın...
... Gəlin xoş gəldin, xoş gəldin,
Bizim bu evə xoş gəldin. (3, 82)

Təbriz toylarında mütəmadi olaraq oxunan belə nəğmələrdən biri də "Əli bala" mahnısıdır:

Əlibala, başmaxların yağlaram,
Sənə qurban, üstünə gül bağalaram,
Əlibala, mərəxəslig almasan,
Sənə qurban, zülüm-zülüm ağlaram.

Əlibala, peykanıvın şəstinə,
Sənə qurban gül bağlaram üstünə.
Əlibala, eşitdim evlənmisən,
Sənə qurban, məni də al üstünə. (2, 341)

Təbriz toy mahnılarının digər bir qrupunu oğlan, qız, ata, ananın dilindən oxunan nəğmələr təşkil edir ki, bu nəğmələrin bəziləri məzəli forma, məzmunda ifa edilir:

Oğul atası deyir:
Ay dədə dul allam, dul allam,

Dula qul ollam, qul olam.
Ata cavabında:
Dul arvat sağır gamış,
Bizə gəlir fısafıs.
Dul arvat duvardan aşdı,
Saçı qıçına dolaşdı.
Ay oğul dul alma, dul alma,
Dula qul olma, qul olma (6, 33)

Təbii ki, zaman keçdikcə ana-nənələrin oxuduğu bu nəğmələr daha təkmil formada xanəndələrinin repertuarına daxil edilərək oxunmuş, eyni zamanda məclislərin təşkili, idarə olunması aşıqlara həvalə edilmişdir. Aşıq sazı, sözü toy mərasimlərinin başlıca məzmununu təşkil etməklə tarixi bir ənənəyə çevrilmişdir.

Ədəbiyat

1. Abdər Zəhra. Təbrizdə qədim toy dəbləri. “Azərbaycan El bilimi” dərgisi. 1391. 699 s.
2. Güney Azərbaycan Folkloru. V kitab (tərtib edənləri: f.ü.f.d. Mətanət Maşallah qızı (Abbasova). Dr. Hüseyn Şəqidərəcək (Soytürk). Bakı, “Elm və təhsil”, 2015, 388s.
3. Nəğmələr, İnanclar, alqışlar. (Hazırlayan A.Nəbiyev). Bakı, 1986. 342 s.
4. Polad Əli. Mədəniyyətin beşiyi: Təbriz. İstanbul,Novruz. 2015, 861 s.
5. Toy və halay mahnıları. Bakı: Gənclik, 1980, 111 s.
6. Valayi Həmid. Subay oğlan-qızların oxumaları. “Azərbaycan El bilimi” dərgisi. 1391, (25), s.33

М.Аббасова

Старинные свадебные песни ритуалные обряды в тебризе

Резюме

В Тебризе старинные свадебные обычаи и традиции, ритуальные обряды с точки зрения историчности, включает в себя древние представления народа, их мышление и веру. В статье исследуется то, как в Тебризе происходит организация этих обрядов, претворяется в жизнь опробование и изначальной форме ритуалов и мотивация текстов песен.

Происхождение свадебных церемоний, процесс его становления в свете общетюркских корней связанны исторически, которые и в Тебризе соблюдаются, и поэтапно претворяются в жизнь. Проведение

религиозных ритуалов в свадебных церемониях исторически формировалась у племен, имеющие историко-религиозную принадлежность и со временем опробование существующих догм в народном быту обуславливает его сохранность.

Сильная сторона свадебных церемоний в Тебризе состоит в том, что здесь играют разную музыку и поют песни. С точки зрения содержания эти песни многогранны.

M.Abbasova

Tabrized handicrafts tournaments and ceremony relations

Summary

Historical traditions and ceremonial rituals in ancient Tabriz are containing the ancient imagination, thoughts and beliefs of the people. In the article have been studied organization of these ceremonies in Tabriz, implementing appropriate rituals at the source of test experiences, motivation of song lyrics.

The origins of the wedding ceremonies, and the process of formation, were historically held in Tabriz in the phased form, according to the content of the general household traders.Performing religious rituals at wedding parties originally originated from the tribal, tribal-historical and religious identity of the peoples, and in the course of time it becomes necessary to preserve the existing beliefs in public life.

The most important aspect of the Tabriz weddings is the assembly based on different music and songs.In terms of content, these songs are multidimensional.

Rəyçi: Əziz Ələkbərli
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SEVDA İMANOVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA-nın Folklor İnstitutu
sevda imanova@yahoo.com

OYUNLARDA MAGİK MOTİVLƏR

Açar sözlər: Oyun, magiya, folklor, mif, mifologiya, folklorşünaslıq.
Ключевые слова: игра, магия, миф, мифология, фольклор.
Keywords: Game, magic, folklore, myth, mythology, folklore.

Məsələnin qoyuluşu: Oyunlar folklor-magiya əlaqələrinin semantik strukturu və tipologiyasının tədqiqi baxımından çox zəngin material verir. Bu gün daha çox uşaq və yeniyetmələrin "repertuaraını" təşkil edən oyunlar, əslində, çox qədim mərasimlərin qalıqlarıdır. Zamanla həmin mərasimlər öz aktuallığını itirdikcə uşaq oyunlarına çevrilmişdir. Epoxal transformasiyalar oyunların ritual strukturuna təsir edərək, bir çox cəhətləri yaddaşlardan silsə də, onlarda magik motivlərin izlərini görmək və bərpa etmək mümkündür.

İşin məqsədi: Oyun və magiya probleminə dair Azərbaycan folklorşünaslığındakı fikirlərdən (bax: 5; 2; 3; 1; 4) göründüyü kimi, oyunlar magik motivlərlə zəngindir. Əlbəttə, onların hamısını burada təhlil etmək mümkün deyildir. Lakin oyunlar bir-birindən nə qədər fərqlənsələr də, onları birləşdirən ümumi magik motivlər vardır. Biz səciyyəvi nümunələr əsasında həmin motivləri təhlil etməyə çalışacağıq.

Qarabağdan toplanmış mətndə deyilir: "Novruz bayramında cavan qızdar yığışırdıq. Bir dənə güzgü qoyurduq stolun üstünə. Güzgünün qabağına qoyurduğ su, buğda, bir də dəmir. Saynan gəlirdilər qızdar. On dənə qız olurdı. Otururduq. Bir dənə yekə xoruz tutub gətirirdik. Xoruzu qoyurduq güzgünün qabağına. Xoruz güzgüdə özünə baxırdı, belə ürkən kimi olurdu. Bığdıya tərəf gedirdisə, demək, sənin ərin zəhmətkeş olacağ, çörək qazanıb gətirəcək. Amma əgər suya tərəf gedirsə, demək bu olacağ piyanıska, qazanmıyacağ, oğru olacağ, heş nə gətirməyəcək. Dəmirə tərəf getsə, deməli bı olacax, qabaxlar adət idi də, ya traktarist olurdu, ya şofer olurdu. Bir də uje, axırda, qurtarandan sonra həmən nənə çıxırdı, deyirdi ki, qızdar, mən sayıram, siz hər şeyi yadınıza salın:

Bir, iki – bildirki.
Üç dörd – qapını ört.
Beş, altı – daş altı.
Yeddi, səkkiz – firəngiz.
Doqquz, on – qırmızı don,

– deyəndə bir dənə qız qırmızı donnan girirdi içəri, başdıyırdı rəqs eləməyə. Demək, həmən o qızın həmən il də baxtı açılırdı” (6, 208-209).

Bəxt – gələcək hadisələr deməkdir. Bəxti bilmək də öz növbəsində gələcəyi bilmək deməkdir. Novruz bayramında icra olunan bu oyun bəxtsınama ayinidir. Bu ayin magiyaya əsaslanır. Xoruz bəxtsınama obyektidir. İnsanların bəxti onun hərəkətlərindən asılıdır. Başqa sözlə, xoruzun hərəkətləri, daha doğrusu, hansı əşyaya baxması bəxti sınanan qızın gələcəyini müəyyənləşdirir. Bu, həm də magik yuolla gələcək hadisələrə təsir etmək deməkdir. Çünki “bəxtindən xəbər tutan” insan “bəxt-proqnozun” necəliyindən asılı olaraq, bu hadisələrin baş verməsinə, yaxud baş verməməsinə çalışır. Hər iki halda digər təsiredici (gedişatı önləyən, yaxud ona təkan verən) ayinlərə əl atılır. Bu da öz növbəsində magik aktların bir-biri ilə bağlı silsilə təşkil etdiyini göstərir.

Qarabağdan toplanmış başqa bir mətnə diqqət edək: “Bu oyun bəzi bölgələrdə “Sanama”, “Barmaq sanadı”, bəzi bölgələrdə isə “İynə-iynə” adlandırılsa da, əsasən, “Barmaq oyunu” kimi tanınır. Bir neçə uşaq cəm olub sanama yolu ilə usta (başçı, ya molla) seçirlər. Uşaqlar əllərini açıb üzü üstə yerə qoyurlar. Sonra usta aşağıdakı sözləri deyir və hər barmağın üstünə bir heca (kəlmə) ilə işarə edir.

Əl-əl-əllənə.
Sən vurginən çəpənə,
Əldən çıxdı kəpənə,
Şah, şux, şaha bacı,
Molla dedi, çək əlini.

Əllərin yerə qoyandan sonra usta yuxarıdakı sözlərin əvəzinə aşağıdakı sözləri söyləyər:

Bər, bər inci,
Bər kəşinci,
Şam ağacı,
Şatır keçi.
Qoz ağacı,
Qotur keçi.
Happan,
Hoppan,
Yarıl,
Yırtıl,
Su iç,
Qurtul.

Hansı barmağın üzərinə qurtul hecası düşsə, o barmaq cərgədən çıxar. Bu iş bütün barmaqların aradan çıxmasına qədər davam edir.

Usta axıra qalmış barmaq sahibinin qulağından tutub deyir:

Razi ha, balam razi,
Tikib donunu dərzi.
Abbası verim xərclə,
Toyun təzədən başla.
Qarğa qur,
Qarğa istəyirsən, quş?

Uşaq qarğa, və ya quşdan birin istər. Uşağın istədiyi göydən uçana qədər və ya görünənə qədər usta uşağın qulağını çəkər, yerdə qalan oyunçular isə uduzmuş oyunçunu təqlid edərlər. Usta quş və qarğa əvəzinə istənilən başqa varlıqların adını qeyd edə bilər (6, 211-212).

Burada magik motiv iki əsas səviyyədə müşahidə olunur:

Birincisi, barmaqların şəxsləndirlməsi:

Hər barmaq bir nəfəri təmsil edir. Bu, magiyada əsasdır. Məsələn, cadulamada cadulanan obyektin kuklası yaradılır. Yaxud cadulama onun paltarına aid bir hissəinin üzərində icra olunur. Həmin paltar hissəsi paltarın sahibini təmsil etdiyi kimi, burada da barmaqlar insanları təmsil edir;

İkincisi, magik imperativlərdən istifadə:

Magik aktda ovsunlayıcı, təsiredici gücə malik əmredici sözlərdən – imperativlərdən istifadə olunur. Burada da "Hoppan, // Yarıl, // Yırtıl, // Su iç, // Qurtul" kimi əmredici sözlər magik imperatvilərin izlərini özündə saxlayır.

Magik sözün gücündən istifadəni "Dəvədöyüşdürmə" oyununda da görürük: Bu oyunda, "əsasən, qara dəvələr iştirak edərdi. Bu mərasim böyük meydanlarda, talalarda keçirilirdi. Döyüşə hazırlanan dəvə əvvəlcədən yaxşı bəslənirdi. Dəvə döyüşdürənlər ortalığa çıxar, dəvələri kəllə-kəlləyə gətirər, döyüşə qızışdırardılar. Dəvə döyüşdürülərkən bir sıra mahnılar da oxunardı:

Nər dəvəm alçaq gedər,
Qolunda qolçaq gedər.
Nər dəvəmin gözləri,
Yerə dəyməz dizləri.
Nər dəvəm ahəstədi,
Səsi hələ pəstədi.
İndi nərim yellənər,
Oba-ocaq dillənər.
Nər dəvəm qavatlıdır,

Nər dəvəm qanadlıdır.
Nər dəvələr sərildər,
Qara nərim nərildər.
Meydan yeri toz eylər,
Nər dəvəm pərvaz eylər.
Nər dəvəm qavatlıdır,
Nər dəvəm qanadlıdır (6, 241).

Magik söz ritualı aşağıdakıları əhatə edir:
– Dəvənin qolundakı qolçaq və ahəngdar qaçışı tərifənir;
– Dəvənin iti gözləri və yerə dəyməz dizləri tərifənir;
– Dəvənin səsi tərifənir;
– Dəvənin qaçışı quşun uçuşuna bənzədilir;
– Dəvənin rəqiblərini qorxuya salan nəriltisi tərifənir;
– Dəvənin gücü, qüvvəti, mərdanə duruşu tərifənir.

Bütün bunların hamısı dəvəyə magik sözün gücü ilə təsir etmək məqsədilə edilir.

Oyunlarda magik motivlərin təzahür səviyyələrindən biri təqliddir. Bir sıra uşaq oyunları böyüklərin həyatını təqlid edən aktlardan təşkil olunur. Məsələn, mətnlərdən birində deyilir: "Gəlincəh bəziyirdih. Onda bir qoja arvat vardı. Həmmeşə qızdara gəlincəh bəzeerdi. Tuman tikerdi, qəşəh sufat qoyordu, qəşəh dodax qayırerdı. Saş qoyurdu, paltar geyindirerdi. Ağ eleerdilər bu düymüyə. Ağı belə eleerdilər, qaş qoyurdular, göz qoordular, ağız qoordular. Bunu da qoordux bir çöpün üsdünə. Burya qoordux bağleerdıx, bu olurdu bir kukla. Paltar geyindirerdilər, olordu gəlincih. Hərəmizin öz gəlinciyi olardı. Yaylaxlarda daşdan öycük qurordux. Orda istikan qayırerdıx, çay qaynaderdıx, yiməh qayırerdıx. Bir-birimizi qonax çağırerdıx, qonşumuzu qonax çağırerdıx. Bir qız olmordu. İyirmi-otuz qız olordu" (6, 252).

Burada ilk baxışdan heç bir magiya yoxdur. Lakin bu, indiki halında belədir. Gəlinciklə oynanılan bu uşaq oyununa onun yarandığı, icra olunduğu ibtidai çağların ritual "poetikası" kontekstində yanaşdıqda mənzərə dəyişir. İbtidai çağlarda yetkinlik yaşına çatmış qızlar və oğlanlar inisiyasiya mərasimlərindən keçirdilirdilər. İnisiasiya, sadə şəkildə ifadə etməyə çalışsaq, keçid mərasimi deməkdir: qızlıqdan qadınlığa, oğlanlıqdan kişiliyə, subaylıqdan evliliyə və s. Qızlıqdan qadınlığa keçid ritualı gələcəkdə evli qadın həyatını yaşamalı olan bir qıza qadınlığın bütün sirlərinin öyrədilməsini nəzərdə tuturdu. Buraya cinsi həyat aktlarından tutmuş, mətbəx işlərinə, uşaq saxlamağa qədər ən müxtəlif işlər daxil idi. Bu cəhətdən indi qız uşaqlarının oynadığı "evcik-evcik" oyunu, əslində, həmin ritualların qalıqlarıdır. Gəlincik bu kontekstdə qızın qadın olarkən doğacağı

uşağı simvollaşdırır. Gələcəyin qadını indi bir qız ikən həmin gəlincik vasitəsilə gələcəkdə doğulacaq uşağına məhəbbətini təlqin edir. Bu proses magik təlqinetmə aktıdır.

Uşaqlar arasında "Gizlənpaç", yaxud "Gizlən-qaç" adı ilə məşhur olan oyunun variantlarından birinə diqqət edək: "Uşaqlar bir yerə yığılıllar. Sayıllar:

Əl, əl, əpənəy,
Əldən çıxdı kəpənəy.
Kəpənəyin sarısı,
Yumurtanın yarısı.
– Əmi, hara gedirsən?
– Ala dağa gedirəm.
– Ala dağda nəyin var?
– Bir oğlum var, bir qızım.
Qızımın adı Fatma!
– A Fatma, Fatma, Fatma,
Yatanda rahat yatma!
Yeddi xoruz, bir fərə,
Fatmanı verdik ərə!

Yaxud:

Tamara, Tamara tat qızı,
Apar, dedim sat qızı.
Doluşdular faytona,
Sürdü Bağdanobuya.
Tamara getdi beş günə,
Gəlmədi on beş günə.

Son söz kimdə qurtarırsa, o adam gözünü yumur. Bir dəqiqə uşaqların gizlənməyi üçün vaxt verir. Gözlərini açmaq istəyəndə deyir:

Gizdənpaç,
Gəldim, qaç.

Sonra o, gözünü açıb gizlənən uşaqları tapır. Hər uşağı tapdıqca gözünü yumduğu yerə tüpürüb deyir:

– Tfu, bazar...

Əgər kimsə göz yumannan xəlvət gəlib "bazar" eliyib tüpürsə, onda həmin adam genə təkrar yummalı olur. Yox, əgər hamını tapırsa, onda kim birinci tapılıbsa, o adam gözünü yumur.

Oyunun sonunda bir nəfər deyir:

Nağıl,
Hər kəs evinə dağıl! (6, 254-255)

Burada magik motiv öz izlərini oyunun "Tfu, bazar" adlanan aktında daha çox qorumuşdur. Göründüyü kimi, gözünü yuman uşaq gizlənən uşaqları tapdıqca tez gəlib göz yumduğu tərəfə tüpürərək "Tfu, bazar" deyir. Kimsə ondan xəlvət gəlib həmin aktı icra etsə, göz yuman oyunu başa çatdıra bilmir və təzədən göz yummalı olur.

Bu, əyləncəli uşaq oyunu magik-mifoloji təsəvvürlər baxımından çox zəngin semantikaya malikdir. Onu mənalı elementləri səviyyəsində təhlil etməyə çalışaq:

1. Göz yummaq xaosu təmsil edir. Mifik təsəvvürlərdə göz yummaq, korluq o biri dünyanı, ölüm dünyasını, xaosu simvollaşdırır. Bu cəhətdən oyunun xronotopu iki hissədən – xaosdan və kosmozdan təşkil olunur: Göz yuman xaosda, göz yummayanlar – kosmosdadırlar.

2. Oyunun funksional strukturu xaosdan kosmosun yaranmasını simvolizə edir. Bəxtinə göz yummaq düşən uşaq xaosdan çıxmağa, digərləri isə onu xaosda saxlamağa çalışırlar. Çünki göz yumanın xaosdan xilas olması ilə kimsə (ilk tapılan uşaq) xaosa daxil olacaqdır.

3. "Bazar" kosmosdan xaosa keçid prosesini simvolizə edir. Bazar – alış-veriş, mübadilə məkanıdır. Göz yuman gizlənmiş uşaqları tapdıqca xaosdan kosmosa doğru keçid edir (irəliləyir).

4. "Tfu, bazar" deməklə tüpürmə bütün halarda kosmosyaratmağa xidmət edən magik aktdır. Göz yuman hər dəfə tüpürməklə kosmosa doğru bir mənzil irəliləyirsə, ondan xəlvət gəlib ora tüpürəınlər də öz kosmoslarını (kosmik mövqelərini) qorumaq üçün bu aktı icra edir və onu xaosda saxlayırlar.

5. İnsanlar yaman gözdən qurtulmaq üçün göz vuran tərəfə tüpürürlər. Bununla da gələn təhlükəni dəf etmək istəyirlər. Təhlükənin tüpürcəklə dəf edilməsi magik təsir etmə aktıdır.

"Qodu-qodu" oyunu birbaşa magik aktlarla bağlıdır: "Hava açmıyanda, nəmişdik olanda deyirdilər ki, qodu gəzdirmək lazımdı. Adət də beləydi ki, gərək hər iki adamın adı eyni ola, ikisi də anasının ilki olar, onda onnar gəzdirər. Yekə çömçənin ortasınnan qaşığı qoyurdular, üstünnən qırmızı parça atırdılar, muncuxnan bəziyirdilər. Həmin qodunu götürüf gedərdilər qapılara. Oxuyurdular.

Qodu-qodunu gördünüzmü?
Qoduya salam verdinizmi?
Qodu gedənnən bəri
Heç gün üzü gördünüzmü?

Qara toyux qanadı,
Kim vurdu, kim sanadı?
Gedirdim elçiliyə,
Qara it baldırmı daladı.
Yağ verin yağlıyım,
Dəsmal verin bağlıyım.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu gül bağlar.
O gülün birin üzəydim,
Saç bağıma düzəydim.
Oğlunuzun, qızınızın toyunda
Dərə aşağı, dərə yuxarı süzəydim.

Biri xurcunu götürürdü, biri də qodunu. Yığılan payı uşaqlar arasında bölürdük. Səhərisi həqiqətən hava açılırdı" (6, 302).

Buradakı magik element və motivlərə diqqət edək:

1. Magik oxşarlıq motivi: qodu gəzdirənlər adaş və evin ilk doğulan uşaqlar olmalıdır.

2. Magik kukla: yekə çömçənin ortasınad qaşıq qoyub, üstündən qırmızı parça atılıb, muncuqla bəzədilmiş oyuncaq üzərində magik ayin icra olunan obyekti simvollaşdırır.

3. Magik söz ayini: oxunan nəğmə təbiətə magik sözlə təsir etmə aktıdır.

Bəzi uşaq oyunları bütövlükdə magik təsir etmə ritualını xatırladır. Məsələn, "Qara qazan" oyununa diqqət edək: "Uşaqlar toplaşıb iki dəstəyə ayrılırlar. Hər dəstə özünə başçı seçir. Sonra oyunçular üzbəüz durub deyişirlər.

Birinci dəstə: – Qara qazan doldumu?
İkinci dəstə: – Doldu da, boşaldı da.
Birinci dəstə: – Çomçə yarım oldumu?
İkinci dəstə: – Oldu da, boşaldı da.
Birinci dəstə: – Anan saçını yudumu?
İkinci dəstə: – Yudu da, daradı da.
Birinci dəstə: – Hansı qızını ərə verirsən?
İkinci dəstə: – Balaca qızımı ərə verirəm.
Birinci dəstə: – Toyuna gələk, yasına?
İkinci dəstə: – Toyuna.
Birinci dəstə: – Toynan gələk, tütəknən?
İkinci dəstə: – Toynan da, tütəknən də.

Birinci dəstə çalıb oynaya-oynaya o biri dəstəyə qarışır. Uşaqlar böyüklərin toy adətlərini başa düşdükləri şəkildə icra edirlər: gəlini

bəzəyirlər, saçını hörürlər, xına yaxırlar. Əllərinə güzgü və lampa götürüb oxuyub oynaya-oynaya üzü niqablı qızı qarşı dəstəyə doğru aparırlar.

Sonra hər şey təkrarlanır.

Bu dəfə sonuncu sorğulara başqa cavab alırlar:

Birinci dəstə: – Toyuna gələk, yasına.

İkinci dəstə: – Yasına...

Dəstələr ağlaşma qururlar. Uşaqlar guya saçlarını yolurlar, üzlərini cırırlar, sinələrinə döyürlər, ağı söyləyirlər, əllərini, sifətlərini qara qazanın hisinə bulaşdırırlar" (5, 454).

Burada magik motiv uşağın gələcək taleyinin müəyyənləşdirilməsi haqqında təsəvvürlərlə bağlıdır. Hər şey verilən cavabdan asılıdır. Cavabla toy, yaxud yas modelləşdirilir. Bu, bütövlükdə taleyin magik üsulla "proqnozlaşdırılmasıdır". Magiya özünü həm söz, həm də hərəkət aktlarında göstərir. Böyüklər tərəfindən icra olunan bu magik ritual sonradan aktuallığını itirərək uşaqların repertuarına keçmişdir. Təbii ki, böyüklərin icra etdiyi ritualda heç kəs yas arzulamırdı, lakin insan özünün antimənəvi davranışları ilə özünü "yas" durumuna sala bilərdi.

İşin elmi yeniliyi və əsas nəticəsi: Oyunların magik motivlər baxımından təhlili göstərir ki, uşaq oyunlarının mühüm bir qismi ibtidai magik rituallarla bağlıdır. İbtidai dövrün öz yerini yeni epoxlara verməsi ilə böyüklərin icra etdiyi bu magik rituallar zamanla öz aktuallığını itirmiş və uşaq oyunlarına çevrilmişdir. Bu prosesdə magik rituallar bir çox atributlarından məhrum olmuşdur. Lakin oyunlara ritual-mifoloji kontekstdə yanaşdıqda onlardakı magik motivləri bərpa etrmək mümknün olur.

İşin nəzəri və praktiki əhəmiyyəti: Məqalənin nəzəri əhəmiyyəti bu işdən magiya problemi ilə bağlı araşdırmalarda nəzəri qaynaq kimi istifadə imkanları, praktiki əhəmiyyəti isə bu mövzunun ali məktəblərdə folklorun prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

Ədəbiyyat

1. Abbasov E. Qarabağdan toplanmış nağıllarda oyun elementləri: magik və didaktik aspektlər / Qarabağ xalq oyunları və meydan tamaşaları. Bakı: Elm və təhsil, 2015, s. 175-199

2. Bayat F. Şamandan səmazənə: oyun və oyunçu. Bakı: Elm və təhsil, 2017, 228 s.

3. Cəlil C.F. Türk və Skandinav eposlarının müqayisəli tipologiyası / Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2013, 219 s.

4. Xavəri S. Xalq oyunlarının funksional strukturu / "İslam Coğrafiyası və Azərbaycanda xalq oyunları və meydan tamaşaları"

beynəlxalq elmi konfransının materialları. Bakı: Elm və təhsil, 2016, s. 258-266

5. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası. Bakı: Elm və təhsil, 2013, 540 s.

6. Qarabağ xalq oyunları və meydan tamaşaları. Toplayıb tərtib edənlər: M.Kazımoğlu (İmanov), F. Bayat (Gözəlov), İ.Rüstəmzadə, T.Orucov, E.Abbasov. Bakı: Elm və təhsil, 2015, 358 s.

С. Иманова

Магические мотивы в играх

Резюме

Анализ магических мотивов показывает, что важная часть детских игр связана с примитивными магическими ритуалами. Эти магические ритуалы, совершенные взрослыми во времен примитивной эпохи к их новым эпохам, со временем утратили свою актуальность и стали детской игрой.

В процессе эволюцие магические ритуалы были лишены многих атрибутов. Однако, когда вы приближаетесь к играм в ритуальном мифологическом контексте, магические мотивы могут быть восстановлены.Здесь магический мотив связан с идеей будущей судьбы ребенка. Все зависит от ответа.

Ответ моделируется свадьбой или настроением. Это «предсказание» судьбы судьбы в целом. Маг проявляет себя как в словах, так и в действии. Этот волшебный ритуал, выполненный взрослыми, позже прошел через детский репертуар, потеряв свою актуальность.

Естественно, что в ритуале, совершенном взрослыми, никто не хотел плакать, но человек мог заставить себя «оплакивать» своим собственным произволом.

S.İmanova

Magic motivation in games

Summary

An analysis of magic motives, show that an important part of common games for children are related to primitive magic rituals. These magic rituals were performed by adults, however, by the time of the primitive era, their new epochs lost their relevance and therefore resulted in these magic rituals seeming as common games for children. Due to this procedure, magic rituals have been deprived of many attributes. Nonetheless, when you approach the games in a ritual mythological context, magic motives can be restored.

Here the magic motif is related to the idea of the future fate of the child. Everything depends on the answer. The answer is modeled on a wedding or a mood. This is the "prediction" of the fate of fate as a whole. Magician shows himself in both words and action.

This magic ritual performed by adults has later gone through the children's repertoire, losing its relevance. Naturally, in the ritual performed by the adults, no one wanted to mourn, but the man could have made himself "mourning" by his own arbitrary behavior.

Rəyçi: **Muxtar İmanov**
Akademik

NAZƏNDƏ HACIYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti
nazende.haciyeva1960@mail.ru

ƏNƏNƏVİ MÖVZULARA YENİ MÜNASİBƏT

Açar sözlər: poeziya, mövzu, ədəbiyyat, tərənnüm, məhəbbət, müasirlik, keyfiyyət, aktual məsələ
Ключевые слова: поэзия, предмет, литература, пение, любовь, современность, качество, актуальная проблема
Key words: poetry, subject, literature, singing, love, modernity, quality, actual issue

Azərbaycan poeziyasında əsrlər boyu qələmə alınan bir neçə əsas mövzu olub ki, şairlər indi də dönə-dönə həmin mövzulara müraciət edirlər. 60-80-illər poeziyasında da yazılan şeirlərin, poemaların əksərən bu mövzularda qələmə alındığının şahidi oluruq. Bunları vətənpərvərlik, təbiət və sevgi mövzuları kimi qruplaşdırmaq olar. Əlbəttə, bu bölgü şərtidir.Çünki vətənpərvərlik mövzusunda yazılan bir əsərdə də sevgi xətti, yaxud sevgidən, saf məhəbbətdən bəhs edən əsərdə də vətənpərvərlik tərənnüm oluna bilər. Yaxud, təbiət gözəlliklərinin tərənnümündə vətənpərvərlik və sevgi xəttinin olması da istisna edilmir.

Altmışıncı illər Azərbaycan poeziysı ilk növbədə, öz müasirlik keyfiyyətləri ilə diqqəti cəlb edir. Dünyada və ölkədə baş verən ictimai-siyasi-mənəvi proseslər, elmi-texniki inqilabın həyatda, istehsalatda oynadığı rol, kosmos erasının başlanması və buna müvafiq olaraq insanların da şüur və intellekt baxımından yüksəkliyə meyli, zamanla, əsrin dinamikası ilə ayaqlaşmaq istəyi, eyni zamanda, ana təbiətə, kökə, ilkinliyə, torpağa əbədi məhəbbətin təzahürü poeziyada müasirliyin yeni bir məzmun kəsb etməsini şərtləndirirdi. Müasirlik heç də gündəlik mövzuları qələmə almaq, zahirən aktual səslənən məsələləri işıqlandırmaq mənasını daşımamışdır. Tənqidçi Mürşüd Məmmədovun ifadəsincə desək: «Müasirlik əsrin, zamanın yüksək sənət dilində ifadə və təcəssüm olunan bədii həqiqətidir. Müasirliyin belə anlayışı sənət əsərində gerçəkliyin fəlsəfi dərkini də özündə ehtiva edir. 60-cı illərin poeziyasında müasirlik məhz belə planda qoyulur və mənalandırılırdı. ..Müasirlik, təkcə müasir mövzuları (pambıq və üzüm yığımının gedişi, kosmik gəminin buraxılması, təbabətdə və təbiətdəki yenilklər, əlamətdar hadisələrə cavab verilməsi kimi) qələmə almaq şəklində başa düşülə bilməz. Belə olsaydı, əsərin müasirliyi çox üzdə olan bir

keyfiyyət olardı. Belə dərk olunan müasirliyin müəyyən hadisələri öz-özlüyündə ancaq «bu günün» epizodlarıdır» (Mürşüd Məmmədli. Poeziya-yeni təfəkkür işığında (monoqrafiya). Bakı, «Yazıçı»,səh. 1990. 22-23).

1960-80-ci illər Azərbaycan poeziyasında müasirlik ilk növbədə, əsrin, zamanın ən qlobal hadisələrini, planetdə baş verən ictimai-siyasi dəyişiklikləri, insan və zaman münasibətlərini, dünyanın mürəkkəb mənzərəsini və əhval-ruhiyyəsini canlandırmaq kimi ən mühüm mövzularda özünü göstərirdi.

Rəsul Rza həmişə müasir şair olmuşdur və onun müasirliyi təkcə dünyanı düşündürən problemləri, insanın əsr və zaman haqqında düşüncələrini əks etdirən şeirlər yazmasında deyil, həm də şeirinin özünün müasirliyi idi. O, adi, sadə sözlərlə, ifadələrlə dərin fəlsəfi fikirləri ifadə etməyin ustası idi.

Ümumiyyətlə, R.Rzanın 60-70-ci illərdəki yaradıcılığı əvvəlki onilliklərdə əldə etdiyi poetik təcrübənin uğurlu davamı olmaqla yanaşı, həm də yeni, oricinal xüsusiyyətlərin bütün parlaqlığı ilə üzə çıxmasının təzahürü idi. Altmışıncı illərin əvvəllərində Rəsul Rzanın «Rənglər» silsiləsi meydana çıxdı, bu müasir, assosiativ düşüncə tərzinin Azərbaycan şeirində orijinal bir ifadəsi idi. Məlumdur ki, bütün xalqların dilində, təsviri sənətlərində rənglərin simvolikasına dair zəngin təsəvvür və yozumlar vardır. Rəsul Rza da "Rənglər" silsiləsini yazanda məhz Azərbaycan xalqının dilində, sənət və dil yaddaşında olan rəng yozumları və simvolikasını böyük ustalıqla poetik dilə çevirmiş, maraqlı lirika nümunələri yaratmışdır. Çünki rəng simvolikasında həm xalqın əxlaqi təsəvvürləri, həm mərasim və ovqat çalarları vardır.

Fərqli cəhət odur ki, şair qara rəngin rəmzlərini açarkən folklor simvollarını qəzet və publisistika dili ilə izah və ifadə edir. Qaranı "əbədi ayrılığın ağrısı" adlandıranda biz ölümə və matəmə işarə edildiyini anlayırıq. Və ya "Yaşamaq üçün sürünənlərin çoxu" ifadəsini oxuyanda biz onu xalq dilindəki "qara camaat" məfhumunun qəzet dili ilə ifadəsi kimi qəbul edirik. "Bəzi insan niyyəti" ifadəsini isə biz el dilində işlənən "qaraniyyət adam" ifadəsinin sinonimi kimi başa düşürük. "Ləkəli sözlər" ifadəsi isə "qara yaxmaq" deyiminin sinonimidir.Poeziyada müasirlik məzmun yeniliyi ilə bərabər buna müvafiq forma yeniliyini də özündə əks etdirir. Əgər məzmun yeniliyində müəyyən təzə fikir, konsepsiya ilə qarşılaşırıqsa, buna uyğun da kamil forma və yeni üslub nəzərə çarpmalıdır. Bu mənada B.Vahabzadənin, N.Xəzrinin, Ə.Kərimin, Qabilin, H.Arifin, Ə.Kürçaylının, C.Novruzun, N.Həsən-zadənin, M.Arazın 60-80-ci illər yaradıcılığı öz müasirliyi ilə həmişə diqqət mərkəzində olmuşdur. B.Vahabzadənin «İnsan və zaman» silsiləsindən olan şeirləri təkcə onun yaradıcılığında deyil, ümumən müasir Azərbaycan poeziyasında mühüm hadisə kimi qiymətləndirildi. Görkəmli tənqidçi Yaşar Qarayev «Anlamaq və yanmaq ehtirası» məqaləsində yazırdı: «Altmışıncı illər bu poeziyada bədii detalın fəlsəfi dərinlik və vüsətlə, təfsilatın əlvanlıq və miqyasla da vəhdət təşkil etməyə başladığı dövrdür.

«Məktəb» silsiləsindəki bədii saflığı, təzadsız aydınlığı indi rəng polifonizmi, boyalar bolluğu əvəz edir. Bu poeziya özü də artıquzaq bir kənddə çalınan məktəb zəngi kimi yox, planetə səs salan həyəcan zəngi kimi, Bethovenin və Qalileyin, Nəsiminin və Babəkin, Buhenvald harayının, Xatın fəryadının yaddaş zəngi kimi səslənməyə başlayır. Şair həm tarix, həm də Dünya adlı iki planetə eyni vaxtda səyahətə çıxır, insanı da iki qoşa planetdə-zaman və bəşər laylarında təsvir edən şeir və poemalarını yazır» (Yaşar Qarayev. Ədəbi üfüqlər. Bakı,1985. Səh.175-176). B.Vahabzadənin bir şeirində müasir poeziyanın və müasir şairin məramı belə ifadə olunurdu:

İstərəm sətirlərin bu günümdən səs alan
əks-sədaya dönsün.
Əsrimizin nəbzi də ahəngində döyünsün.

«Əsrin nəbzi» o illərdə «poeziyanın nəbzi»nə çevrilirdi və Azərbaycan şairləri müasirliyi məhz bu çevrilmədə görürdülər. Bəxtiyar Vahabzadənin yaradıcılığının ikinci dövrü (1960-1980) onun bir şair kimi daha da populyarlaşması illəridir. Onun bir şair kimi fikrən yetkinləşməsi əllinci illərdən başlamışdı, yaradıcılığının ən zəruri keyfiyyətləri artıq bir çox cəhətdən özünü daha qabarıq şəkildə təcəssüm etdirirdi, lakin altmışıncı illərdən başlayaraq B.Vahabzadə həmin keyfiyyətləri tam və dolğun şəkildə formalaşdıra bildi. «Ana dili» şeirindən başlanan, «Gülüstan» poemasında isə daha parlaq şəkildə təcəssüm olunan milli özünüdərk altmışıncı-səksəninci illərdə şairin şeir və poemalarında başlıca vurğuya çevrildi. Altmışıncı illərdə dünyada gedən qlobal proseslər, azadlıq müharibələri, Afrikada, Latın Amerikasında baş verən inqilabi hadisələr, Stalinin şəxsiyyət kultunun uçulub yerlə yeksan olunması, Elmi Texniki Tərəqqinin insan həyatına dərindən nüfuz etməsi və s. olaylar heç şübhəsiz, təbiəti və temperamenti etibarilə çox həssas bir şair olan Bəxtiyar Vahabzadənin yaradıcılığına təsirsiz qala bilməzdi. Xalq yazıçısı Mehdi Hüseynin onu «narahat şair» adlandırması da səbəbsiz deyildi.

Bizim poeziyaya şeirlə ifadə olunmuş, yüksək ideallar, fəlsəfi mühakimələrlə aşılanmış əsərlər lazımdır, bunsuz hər hansı bir böyük poeziyanın varlığını ümumiyyətlə təsəvvür etmək mümkün deyildir. Lakin bu o demək deyildir ki, günəşin batmağını və ya çıxmağını, gülü və bülbülü, yaxud qayın ağacını poetik surətdə tərənnüm yolu ilə böyük fikir və düşüncələri ifadə etmək olmaz».

S.Vurğunun yaradıcılığı da fəlsəfi lirika nümunələri ilə zəngindir, biz fəlsəfi düşüncə tərzini Rəsul Rzanın yaradıcılığında da izləyə bilərik. Bəxtiyar Vahabzadə də əsrlərdən gələn bu ənənəni davam etdirmişdir.

B.Vahabzadənin 1960-cı ildən başlayaraq qələmə aldığı şeirlərin bir qismi «İnsan və zaman» kitabında (1964) toplanmışdı. Bu silsiləcən olan şeirlərini o, başqa kitablarında da təqdim edir. Şairin «Barmaqlar», «Göy-

Yer», «İki saat», «Qaliley», «Tələsirəm mən», «Barmaqlar», «Zaman», «Hüdüd», «İllərə nə var ki..», «Bir ürəkdə cörd fəsil», «Yer öz yerindəmi?», «Mən ya avtomat», «Bizə elə gəlir ki», «Köhnə-təzə», «Nəsə çatmır», «Emadin-«Volqa», «Antenna», «Baş», «Neo», «Kibernetika», «Ağıl-Göz», «Sürət» və s. şeirləri fəlsəfi lirikanın nümunələri hesab etmək olar. Şair dəyişən, yeniləşən Zamanın İnsan fikrində doğurduğu təbəddülatları əks etdirir. Dünyada baş verən hər bir hadisə, Elmi Texniki İnqilabın göstəricisi olan hər hansı kəşf, Vaxt, Sürət, Hərəkət, Ölçü və s. anlayışlar şairin fikrini hərəkətə gətirir, o, bu haqda düşüncələrini suallar, xitablar, nidalar şəklində ifadə edir. Bu suallar bəzən öz cavabını da tapır, bəzilərisə cavabsız qalır. Xitablar və nidalar isə həyəcandan, hissin, duyğunun coşqunluğundan irəli gəlir, daha çox heyrət məqamındadır. Ümumiyyətlə, heyrət məqamı şairin fəlsəfi lirikasında önəmli yer tutur. Şairin «Heyrət!» adlı bir şeiri də var:

«Heyrət, ey büt!» dedi dünyaya qələm
Aləmi bir seyrim yüz heyrətimdir.
Mən heyran olmasam yaza bilmərəm
Mənim nəğmələrim-öz heyrətimdir.

Şairin «İnsan və zaman» silsiləsində həm Zamanın, həm də heyrətdə olan İnsanın obrazları ilə qarşılaşırıq.

Müasirlik həmişə tarixiliklə vəhdətdə olmuşdur. Keçmişin, tarixi hadisələrin təsviri sənətkar üçün müasir dövrün suallarına tarixdə cavab axtarmaq, bununla da keçmişlə bu günün qırılmaz bağlılığını sübut etmək həqiqətindən doğmuşdur. 60-80-ci illərin bir çox poetik nümunələri müasirliklə tarixiliyin qoşa qanad kimi bir-birilə necə vəhdətdə olduğunu sübut etdi. B.Vahabzadənin. M.Arazın, N.Həsənzadənin, Xəlil Rza Ulutürkün, S.Rüstəmxanlının, M.İsmayılın poeziyasının ən gözəl örnəkləri tarixiliyin müasirliyini, müasirliyin tarixiliyini, əsrlər və nəsillər arasındakı tarixi körpülərin varlığını, mənəvi mövcudluğunu əks etdirir.

Ədəbiyyat:

1. Azərbaycanın Bəxtiyarı (B.Vahabzadəyə həsr olunmuş məqalələr toplusu). Bakı,Azərnəşr, 1995.
2. Anar Vəziroğlu. Ayağa dur, Azərbaycan! (monoqrafiya). Bakı, «ULU» nəşriyyatı, 2002.
3. Aydın Dadaşov. Müstəqillik dövrünün dramaturgiyası (monoqrafiya). Bakı, 2005.
4. Yaşar Qarayev, Şamil Salmanov. Poeziyanın kamilliyi (monoqrafiya) . Bakı, «Yazıçı», 1985.
5. Yaşar Qarayev. Poeziya və nəsr (məqalələr toplusu), Bakı, «Yazıçı»,1979

N.Haciyeva

A new relationship to the tradition subjects

Summary

Azerbaijani poetry has been chosen for all centuries with its philosophical content. The poetry of Nizami, Khagani, Fuzuli, Nasimi, Javid, S. Vurghun defined the philosophical attitude, flow and direction of philosophical thoughts, life, life, existence, existence-death, the world's poetry poetry.

There are several main themes in the poetry of Azerbaijan that have been written centuries ago, and the poets are now turning to the same subjects. In the 60-80's poetry, we are witnessing the poems and poems we wrote most of the time.

These can be grouped as patriotism, independence, nature and love. Of course, this is the condition of division. In a work on patriotism, patriotism can also be praised in a book of love, of pure love. Or it is not excluded that there is a patriotism and love line in the beauty of nature.

Н. Гаджиева

Новое отношение к традиционным темам

Резюме

Азербайджанская поэзия была выбрана на протяжении веков с ее философским содержанием. Поэзия Низами, Хагани, Физули, Насими, Джавида, С. Вургуна определила философское отношение, поток и направление философских мыслей, жизни, жизни, бытия, бытия-смерти, поэзии мира.В поэзии Азербайджана есть несколько основных тем, которые были написаны много веков назад, и поэты теперь обращаются к тем же предметам. В поэзии 60-80 годов мы являемся свидетелями стихов и стихов, которые мы писали большую часть времени. Их можно сгруппировать как патриотизм, независимость, природу и любовь. Конечно, это условие разделения. В работе по патриотизму патриотизм можно также похвалить в книге любви или любви чистой любви. Или не исключено, что в красоте природы есть патриотизм и линия любви.

Rəyçi: Xəlil Yusifli
Filologiya üzrə elmlər doktoru, professor

ƏMİNƏ QƏDİMOVA
Pedaqogika üzrə fəlsəfə doktoru
amina @mail.ru

AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ İNKİŞAFINA DAİR

Açar sözlər: Azərbaycan, uşaq ədəbiyyatı, inkişaf, bədii əsərlər
Ключевые слова: детская летература, развитие, художественные произведения.
Key words: children's literature,development, artistic works

Hər bir şəxs dünya mədəniyyətinin naliyyətləri çərçivəsində ilk növbədə mənsub olduğu xalqın milli mədəniyyətini öyrənməlidir. Bəşəriyyətin keçdiyi uzun inkişaf yolu tarixində əvvəlki nəsillərin istedadı və gərgin əməyi ilə yaradılmış sərvətləri əxz edib mənimsətməklə yeni mədəniyyət yaratmaq mümkündür. Bu baxımdan respublikamızda mədəni irsə göstərilən qayğı diqqətəlayiqdir. Böyüməkdə olan gənc nəslin tərbiyə olunmasında ən başlıca vasitə yeni keyfiyyətli, yüksək bədii dəyərə malik uşaq ədəbiyyatıdır. Uşaq ədəbiyyatı ümumi ədəbiyyatın tərkib hissəsidir. Ədəbiyyatın öyrədilməsinin başlıca məqsədi yüksək ideya-bədii dəyərə malik əsərlərin öyrənilməsi əsasında uşaqların dünyagörüşünü genişləndirmək, nəticə etibarilə onların vətənpərvərlik ruhunda tərbiyə olunmalarına kömək etməkdir. Uşaqıar üçün yazılmış bədii nümunələr də ətraf mühitin, cisim və hadisələrin bədii inkasıdır. Uşaq ədəbiyyatı uşaqların hiss və emosionallığını dərindən hiss edir, onların surətləri isə uşaq şəxsiyyətinin formalaşmasına təsir edir. Bədii əsərin qavranılması bədii obrazların köməyi ilə baş verir. Bu baxımdan uşaq ədəbiyyatı ümumi ədəbiyyatdan fərqlənməsə də, kiçik yaşlı uşaqların anlaq səviyyəsini nəzərə almaq baxımından fərqlənir. Azərbaycan yazılı ədəbiyyatı təqribən min illik bir dövrü əhatə edən qədim tarixə malikdir. Uşaq ədəbiyyatı isə sonralar XIX-XX əsrlərdə formalaşmış və müəyyən inkişaf yolu keçmişdir. Azərbaycan uşaq ədəbiyyatının yaranması və inkişafı ölkəmizdə maarifçilik ideyasının yayılması ilə bağlıdır. XIX yüzillikdə Azərbaycanın ayrı-ayrı yerlərində qəza məktəblərinin açılması oxu materiallarına ehtiyac yaratdı. Ədəbiyyatımız bu vaxta qədər böyük inkişaf yolu keçmişdi, çox görkəmli sənətkarların maraqlı sənət əsərləri var idi, lakin bunlar uşaqların anlaq səviyyəsinə uyğun deyildi.

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan A.Bakıxanov bu ehtiyacı belə ifadə edir: "Mən nə qədər axtardımsa, uşaqların təlimi üçün elə bir kitab tapa bilmədim ki, o asan və anlaşılan bir dil ilə onların əxlaq gözəlliyinə dəlalət etsin. İşlənməkdə olan bəzi kitablar o

qədər qarışıq-dolaşıq ibarələrlə yazılmışdır ki, müəllimlərin özləri dərk edə bilmirlər. Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq çox çətindir.

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan uşaq ədəbiyyatının inkişafına qayğı göstərməyə başlayır. Əsrin əvvəllərində uşaq mətbuatı orqanına ehtiyac açıqaydın hiss edilirdi. "Dəbistan", "Rəhbər" "Məktəb" jurnallarının nəşrə başlaması bu ehtiyacın qismən də olsa ödənilməsinə xidmət etmək məqsədini daşımışdır. Dövrün açıqfikirli ziyalıları həmin jurnalların nəşrini alqışlamışdır. Xalqın maariflənməsi yolunda yorulmadan çalışan yazıçı N.Nərimanov 1906-cı ildə "İrşad" qəzetində "Dəbistan" jurnalının nəşri münasibətilə dərc etdirdiyi məqaləsində yazırdı:"Bu vaxtadək kitabsızlıqdan uşaqlarımız zərərli, əqidəni pozan kitablar oxuyub naəlac qalmışlar. "Dəbistan" isə bu tövr kitabların aradan götürülməyinə səbəb olub, zəmanəmizə lazım olan məlumatlar verməyini gözləyirik. Bəli, oxuyanlarımızda qeyrətli qardaşlarım, işlən. Qoy millətin afərin səsi sizən ürək verib qeyrətinizi dəxi də artısın".Həmin jurnallar arasında nəşr baxımından uzun ömürlüsü "Məktəb" jurnalı olmuşdur. Sonralar Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələri kimi şöhrətlənən A.Səhhət, A.Şaiq, S.S.Axundov, S.M.Qənizadə və b. sənətkarlar həmin jurnalların səhifələrində maraqlı yazılarla çıxış etmişlər.XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan uşaq ədəbiyyatına qayğı getdikcə artır. Ədəbiyyatımızın görkəmli simaları öz yaradıcılıqlarında uşaq ədəbiyyatını inkişaf etdirməyə xüsusi yer verirlər. Azərbaycan uşaq ədəbiyyatını Mirzə Ələkbər Sabirsiz təsəvvür etmək çətindir. Ədəbiyyatımızda çox ciddi bir üslubu olan inqilabi satiranın yaradıcısı Sabirin əsərləri öz kəsərliliyi ilə fərqlənir. Lakin böyük istedad sahibi olan Sabir uşaqlar, hətta kiçik yaşlı uşaqlar üçün də gözəl nümunələr yazmışdır. İnkar edilməz həqiqətdir ki, valideynlər yenicə dil açmağa başlayan uşağına "Yaz günləri", "Uşaq və buz" kimi şeirləri öyrədir. Hələ sözləri aydın tələffüz edə bilməyən uşaq:

Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri!...

misralarını əzbər deyir. Bu, Sabir şeirinin sadəliyi, oynaqlığı, ahəngdarlığı, poetik gücü, başlıcası isə uşağı əhatə edən mühitlə bağlı olması onun qəlbinə, şüuruna nüfuz etməsinə şərait yaradır. Bu böyük söz ustadı uşağı əhatə edən ətraf mühit, əşya və hadisə haqqında sözlə lövhə yaradır.

Dərsə gedən bir uşaq,
Çıxdı buz üstə qoçaq.
...Sürüşdü birdən-birə
Düşdü üzü üstə yerə.

misraları oxunanda həmin lövhə-buz üstə sürüşüb yıxılmış uşaq adamın gözü qarşısında canlanır.

Yaxud "Qarınca" şeirini oxuyanda kiçik həşərat olan qarışqanın özündən böyük və ağır olan şeyi izini itirmədən apardığı göz qarşısında canlanır.

M.Ə.Sabirin mənzum hekayələri, təmsilləri uşaqlar üçün daha maraqlıdır. Həm də bu ədəbi nümunələr maraqla oxunması ilə yanaşı uşaqların əməyə, işə sövq edilməsi, doğruçuluğa istiqamətləndirilməsi baxımından olduqca faydalıdır. Böyük şair uşaqlar üçün nəzərdə tutduğu belə əsərləri yazarkən xalq yaradıcılığı və klassik ədəbiyyatdan bəhrələndiyi aydın hiss olunur: məsələn,"Yalançı çoban" mənzum hekayəsinin məzmunu "yalançının evi yandı heç kəs inanmadı" xalq məsəlinə əsaslanır. "Qoca bağban" mənzum hekayəsi məzmunca Nizami Gəncəvinin "Kərpickəsən qoca ilə cavan oğlanın hekayəsi" ilə səsləşir. Hekayədə söylənən "Əkiblər yemişik, əkirik yesinlər" fikri ciddi əhəmiyyət kəsb edir: yaşlı nəsildən miras qalan maddi nemətdən istifadə edən gəncləri əməyə, maddi istehsal prosesində iştirak etməyə çağırır. Azərbaycan uşaq ədəbiyyatında M.Ə.Sabirin mövqeyindən danışanda onun "Ağacların bəhsi", rus təmsilçisi İ.A.Krılovdan tərcümə etdiyi "Qarğa və tülkü" əsərləri diqqəti daha çox cəlb edir. Bu əsərlərdə şair nitqləndirmə və şəxsləndirmə yolu ilə insan əxlaqında özünə yer edən lovğalıq, yaltaqlıq, yalançı tərifə uymaq kimi mənfi xüsusiyyətləri tənqid obyektinə çevirir.

Abbas Səhhət Azərbaycan uşaq ədəbiyyatının görkəmli simalarından biridir. A.Səhhət bir sıra ciddi romantik əsərlərlə yanaşı, uşaqların maraq dairəsinə, anlaq səviyyəsinə uyğun kiçik şeirlər, təmsillər də yazmışdır. A.Səhhətin uşaqlar üçün yazdığı şeirləri dil sadəliyi, həyatla bağlılığı baxımından fərqlənir və sevilə-sevilə oxunur. Şairin "Koç", "Tənbəl", "Məktəb şagirdi", "İki uşaq", "Ana və oğul", "Ata və oğul", "Oğru və anası", "Ana və bala" və s. kimi əsərləri bu qəbildəndir. Abbas Səhhətin uşaqlar üçün yazdığı şeirlər üslubca sadə olduğu kimi, tərbiyəvi cəhətdən də olduqca faydalıdır. Belə şeirlərdə düzlük, doğruçuluq, şəhmətsevərlik kimi mənəvi keyfiyyətlərin uşaqlara aşılanması qarşıya məqsəd qoyulur. Bunlarla yanaşı, uşaqlar onlar ıəhatə edən mühitlə, təbiətlə, adamların həyat tərzi ilə tanış edir.

A.Səhhətin yazdığı təmsillər ("İki dana", "Sərçə və qırğı", "Qarışqa və milçək", "Gün və külək", "Ayı və arılar", "İt və kölgəsi", "Uşaq və aslan" və s.) də Azərbaycan uşaq ədəbiyyatını zənginləşdirən nümunələrdir.

Şair uşaqlar üçün maraqlı orjinal əsərlər, yazmaqla yanaşı, tərcümə yolu ilə də Azərbaycan uşaq ədəbiyyatını zənginləşdirmişdir. O, rus və Avropa ədəbiyyatının bir sıra görkəmli nümayəndələrinin yaradıcılıq nümunələrini Azərbaycan dilinə tərcümə etmişdir.

Abdulla Şaiq uşaq ədəbiyyatı ilə ardıcıl məşğul olmuş Azərbaycan uşaq ədəbiyyatının təməlini qoymuşdur. Onun poetik yaradıcılığında gənc

nəslin nəcib mənəvi keyfiyyətləri, ana vətənə sədaqət, əməyin qüdrəti bədii əksini tapmışdır.

A.Şaiq yaradıcılığına tərcümə və qəzəllə başlasa da, ilk mətbu əsəri "Laylay" adlı uşaq şeiri olur. O, 1906-cı ildən başlayaraq silsilə şeirləri ilə milli uşaq poeziyamızın incilərini yaradır.

A.Şaiqin uşaq psixologiyasına uyğun çoxsaylı şeirlərin müəllifidir. "Xoruz", "Uşaq və dovşan", "Keçi", "Çoban mahnısı", "Yetim çücə", "Payız nəşməsi", "Ana yurdum", "Vətən nəğməsi", "Vətən" "Bahar" və s. kimi şeirlər dillər əzbəri olan və uzun müddət yaddaşdan silinməyən ədəbi nümunələrdir.

Uşaq poeziyasına diqqətlə və qayğə ilə yanaşan Mikayıl Müşviq müxtəlif yaşlı məktəblilər üçün silsilə şeirlər, "Şəngülüm, Şüngülm, Məngülüm", "Kəndli və ilan", "Vuruşmalar" , "Qaya" kimi poema və mənzum nağıl qələmə almışdır. Şairin əsərlərinin mövzu dairəsi geniş, bədi-siqləti bitkin və kaloritli idi.

Osman Sərıvəlli "Balaca dostlar" beynəlxalq və xalqlar dostluğu mövzusunda qiymətli əsərlər yazmışdır.

Əsrin qırxıncı illərindən sonra Azərbaycan uşaq ədəbiyyatının inkişafı söz sənətkarlarının diqqətini xüsusilə cəlb edir. Xalq şairi Səməd Vurğun poeziyasında da uşaqlar üçün yazılmış şeirlər vardır. Bunlar şairin zəngin bədii irsi içərisində özünəməxsus yer tutur. S.Vurğun uşaq şairlərinin qarşısında çox ciddi vəzifələr qoyurdu. O, "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı silsilə məqalələrində uşaqlar üçün dərin məzmunlu əsərlər yazmağın, bu sahəyə diqqəti artırmaq üçün bir çağrış rolunu oynadı. S.Vurğun yazırdı:

"...Biz uşaqlarla danışdığımız zaman-insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman-insan üçün yazdığımızı unutmamalıyıq".

Böyük şair yazıçıları gənclik və gözəllik, təbiət eşqi, məhəbbət kimi bəşəri mövzularda əsərlər yazmağa, gəncliyi sağlam ruhda tərbiyə etməyə çağırırdı. M.Seyidzadə və M.Dilbazi uşaqlar üçün yazdığı şeirlər bu cəhətdən diqqəti cəlb edir. M.Seyidzadə əlli illik yaradıcılığı dövründə kiçik və orta yaşlı məktəblilər üçün müxtəlif janrlarda 50-dən çox şeir və tərcümə kitabı nəşr etdirmişdir. Şair xalq poeziyasına və klassik ədəbi ənənələrə sadiq qalaraq, gənc nəsildə nəcib duyğular və əxlaqi keyfiyyətlər aşılayan gözəl əsərlər yaratmışdır.

Vətənin təbii gözəllikləri M.Dilbazinin şeirlərində həssaslıq və incəliklə tərənnüm olmuşdur. M.Dilbazi vətənə məhəbbət, onun keşiyində duranlara ehtiram təlqin edən şeirlər qələmə alır:

...Laylasında anam mənə
Belə demiş dönə-dönə:
-Bir anan mən, biri Vətən,

Yadda saxla bunları sən.

Kiçik qəhrəmanın dili ilə deyilmiş bu parçada "Ana" və "Vətən"-məfhumu vəhdətdə götürülür. M.Dilbazinin "Bizimdir", "Ölkəm", "Bakının işıqları" və bir başqa şeiri vətəndaşlıq qüruru ilə yazılmış bədii-estetik hisslər aşılayan nəğmələrdir.

M.Dilbazi bir sıra poema da yazmış, Azərbaycan xalqının tarixi keçmişini və müasir həyatını real bədii lövhələrdə təsvir etmişdir. O, uşaqlar üçün yazdığı "Rehyan", "Balaca nümayəndə", "Xeyir və şər", "Qardaşlar", "Balaca dostlarım", "Sevincin dünyası" və s. poema və məzmun nağıllarında zəngin mənəvi keyfiyyətlərə malik olan balaca vətəndaş obrazları yaratmışdır. Uşaq poeziyasında ənənəvi mövzularla yanaşı, böyük elmi kəşflər, ölkəmizin nəhəng tikliləri, beynəlxalq aləmdə baş verən hadisələr, kosmos və sairə bədii əksini tapmışdır. Həmin məziyyəti "Bahar, adlar, uşaqlar", "Yaşar və Nur nənə", "Sözlər, nəğmələr, nağıllar, laylalar" (T.Elçin), "Ağ çəmən", "Balaca həkim", "Dovşanın ad günü", "Məni günəşə at"(X.Əlibəyli), "Meşənin mahnısı", "Bir evim var", "Körpə günəş", "Dağ yolu" (İ.Tapdıq" "Bağçada yolka", "Bəxtiyar uşaqlar"(T.Mütəllibov) və b. əsərlərində uşaq şeirlərində görmək olar. Bununla yanaşı demək olar ki, hər bir uşaq şairin özünəməxsus fərdi yaradıcılıq xüsusiyyətləri, dəsti-xətti, manerası vardır. M.Rzaquluzadə, E.Ağayev, Z.Cabbarzadə, X.Hasilova, T.Elçin, İ.Tapdıq, M.Əliyev, T.Mütəllibov, H.Ziya, T.Mahmud, M.Aslan, Z.Xəlil, Ə.Babayev, B.Həsənov, Ə.Səmədzadə, N.Süleymanov, Ə.Əhmədova və b. ədəbi-yatımızda uşaq yazıçısı kimi Azərbaycan uşaq ədəbiyyatının çoxsaylı nümayəndələri yetişdiyi kimi, janr, mövzu, məzmun cəhətdən də zənginləşir, bu ədəbiyyat şeir, nəşr, dramaturgiya istiqamətində inkişaf edir.

Ədəbiyyat

1.Həsənov A.Azərbaycan uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə. Bakı. 1997
2.Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. Bakı. 1993
3.Kərimov Y. Qönçə. Bakı. 1985
4.Kərimov Y. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı. 1997
5.Köçərli Friudinbəy. Balalara hədiyyə.Bakı. 1992
6..Qədimova Ə.Məktəbəqədər təhsil müəssisələrində bədii nümunələrin öyrədilməsi. Bakı. 208
7.Rəhimov A. Ana dilinin tədrisi metodikası. Bakı. 2003
8.Rəhimov A. Uşaq hekayələri. Bakı. 1917

А.Кадимова

Проблема развития детской литературы Азербайджана

Резюме

В статие исследуются основные аспекты развития детской литератури. Автор акцентирует внимание на там, что морально-нравственный идеал младшего покаления формируется под влиянием литературы для детей. Худотеавенная литература формирует у детей любовь к Родине, верность, чувство долга и трудолюбие. Художественная литература высокого художественно-эстетического уровия дает осиову для формирования здорового мировоззрения. Также в статье отмечается особая роль художественной литературы в развитии интеллекта, индивидуальности, способности к исследованию и обобщению.

Позаботившись о детской поэзии, Микаил Мушфиг написал стихи и стихи о поэзии для разных возрастных школьников, таких как «Шуманулум», «Шумм», «Менхулюм», «Крестьянин и змея», «Штрихи», «Гая». Тема работы поэта была широкой, содержание было исчерпанным и калорийным.

A,Gadimova

On the development of children's literature in Azerbaijan

Summary

The article deals with some aspects of the development of children's literature.

The importance of artistic literature is important when shaping social and moral ideas in man's adoption of public behaviornorms. Artistic samples areinstilled in children love and loyalty to the homeland, andsocial moral qualities are instilled/ An initial foundation is laid for the formation of his outlook/ It develops the sognitive ability of artistic children, insreases the clarity of ideas, enhances fheir intellectual activity, and expresses their desire to exchange ideas and express their opinion.

Taking care of child poetry, Mikayil Mushfig has written poems and poems about poetry for various aged schoolchildren, such as "Shumanulum, Shfulm, Mengülüm", "Peasant and Snake", "Strokes", "Gaya". The subject of the poet's works was wide, the content was exhausted and caloric.

Rəyçi: Vasif Adilov

Filologiya üzrə fəlsəfə doktoru, dosent

YEGANƏ HÜSEYNOVA
Filologiya üzrə fəlsəfə doktoru
Gəncə Dövlət Universiteti
yeganesabirhuseynli@gmail.com

TARİX YAZAN ŞƏHİDLƏR

Açar sözlər: İstiqlal, tarix, azadlıq, Azərbaycan
Key words: İndependence, history, freedom, Azerbaijan
Ключевые слова: Истиглал, истории, свобода, Азербайджан

Azərbaycan xalqı əsrlər boyu zülm və istismar altında yaşamışdır, lakin buna baxmayaraq vətəninin azadlığı uğrunda, siyasi-ideoloji qadağa və təzyiqlərdən qanı-canı bahasına xilas olması üçün mübarizələr aparmışdır. Azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin qəsbkar torpaq iddialarını pərdələmişlər. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, hamilə qadınlara işgəncələr vermiş, insanları diri-diri yandırmışlar. Neçə-neçə məktəb, xəstəxana, məscidlər, milli memarlıq incilərini dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər. Bu soyqırım Azərbaycan xalqı və dövlətçiliyinin tarixində baş vermiş faciəli hadisələrə milli yaddaşın təzahürüdür. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-cı illərin ortalarında daha da güclənən anti-azərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin qanlı yanvar hadisələri baş verdi. Getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

Bəxtiyar Vahabzadənin 1990-cı ilin 20 yanvar hadisələrini özündə əks etdirən "Şəhidlər" poemasında ibrətamiz səhnələri ilə qarşılaşırıq.

Poemanın "Proloq" hissəsi vaxtilə qadağan olunmuş bir müraciətlə – Allaha ünvanlanmış suallarla başlayır. Nicat və xilas yolu, haqqın nahaqqa əyilməməsi təmənnası burada əsas qayədən xəbər verir. "Nə istəyir bu millət?" adlı bölmədə şair xalqın istiqlal duyğusunun, azadlıq təşnəliyinin zaman-zaman sıxılıb içərisində qaldığını, bu haqq işi uğrunda mübarizəyə qoşulmağın zərurəti və son nəticədə yurdsevər bu ərənlərin "ekstremist" deyə şərlənməsinin bir fitnə-fəsad işi olduğunu ön mövqeyə çıxarır. Xalqlar dostluğuna, "xilaskar Qızıl Ordu"ya abidə ucaldan bir millətin ürəkaçıqlığı, sadəlövhlüyü ucbatından başına gətirilən məkrli oyunlar "Təzadlar içində" bölməsinin əsas məramını bütün tərəfləri ilə nümayiş etdirir.Abşeron yarımadasını, Bakının giriş qapılarını ayrı-ayrı cinahlardan ölüm saçan atəşlə, qanla təhdid edən ordu hissələrinin, xüsusi təyinatlı hərbi birləşmələrin törətdiyi cinayətlərə qarşı dinc əhali tərəfindən qisas və intiqam çağırışları səslənir. Anaların ah-naləsi poemada olduqca təsirli boyalarla canlandırılır.Poemanın misralarında bununla belə şəhidlərin tarix içərisində öz əməlləri ilə tarix yazmalarından qürur hissi keçirmək, milləti bir anın içində yumruq kimi birləşdirmək eşqi, canlarını xalqın azadlığı yolunda fəda edən Vətən aşiqlərinin adı ilə bağlı olan bir əməl kimi dəyərləndirilməsi xüsusi olaraq nəzərə çarpır.

Keçmiş rus-sovet qoşunlarının tərkibindəki çağırılmamış qonaqların içərisində xüsusi təlim keçmiş, bədnam qonşuları təmsil edən şəxslərin olması bir tərəfdən erməni fitnəkarlığını açıq-aydın büruzə verməklə bərabər, milliyətcə erməni olan təyyarəçi Georgi Rantikoviçin erməni mundarlığına etiraz əlaməti olaraq özünü intihar etməsini təsvir edən səhnələr hələ insanlar arasında haqq və ədalət hissinin itmədiyini aydın şəkildə göstərir. Ancaq poemada on üç yaşlı məktəbli qızcığazın–Larisanın, ömrünün ixtiyar çağlarını yaşayan yetmiş yeddi yaşlı Sürəyya Lətif qızının, yaralılara, imdad istəyənlərə yardım edən Baba müəllimin, öz həkimlik borcunu yerinə yetirməyə can atan Aleksandr Marxevkanın... günahsız qanlarının axıdılması poemada təzadlı və ziddiyyətli dramatizmi bütün miqyası ilə əks etdirməkdədir.Poemanın finalı şəhidlər haqqında, onların xalqın azadlıq və istiqlalı yolunda fədakarlığını tərənnüm edən notlarla tamamlanır. Bu həm də şəhidlik haqqında, qəhrəmanlıq və şücaət barədə əbədiyyət nəğməsi kimi səslənir. Qanlı yanvarda doğulan körpələrin onundan doqquzunun oğlan uşağı olmasını şair "... şəhidlərin boşalan yeri"nin əvəzlənməsi kimi qiymətləndirməsi poemaya nikbin ovqat aşılayır, qəm-qüssədən silkinib çıxmaq, gələcəyə nikbinliklə yanaşmağı təlqin edir.

Beləliklə, keçən əsrin 50-ci illərinin sonlarında qələmə alınan "Gülüstan"da Azərbaycan istiqlalının labüdlüyü və zərurəti idealına edilən xəyanət əsas ideya və məqam kimi müəyyənləşirsə, artıq 90-cı ildə Qızıl ordunun öz azadlığı və müstəqilliyi uğrunda ayağa qalxan dinc əhalinin,

Vətən mücahidlərinin qızıl qanını axıtmaqla öz simasızlığını, ölən imperiyanın süqutunu bariz şəkildə nümayiş etdirməsi "Şəhidlər"də gerçəkləşir. Əslində "Gülüstan" və "Şəhidlər" və daha sonralar "Gülüstan"ın ikinci hissəsi və davamı kimi qələmə alınan "İstiqlal" poemalarını vahid ideya istiqaməti birləşdirir. Müəllifin zaman kəsiyində yaranan bu əsərlərini əslində bir trilogiya da adlandırmaq olar. Xronoloji ardıcıllıq tələb edir ki, "Gülüstan"dan "Şəhidlər"ə keçid reallaşsın və son nəticədə "İstiqlal"da özünün zirvə məqamına yüksəlsin. Ancaq Bəxtiyar Vahabzadənin bir müəllif kimi bu trilogiyanı tərtib və düzümündə də elə bir qəbahət yoxdur: "Gülüstan", "İstiqlal" və "Şəhidlər"."İstiqlal" poeması 1999-cu ildə qələmə alınıb. "Gülüstan"ın ikinci hissəsi kimi nəzərdə tutulan poema Azərbaycanın bütövlüyü uğrunda yorulmaz mübariz Mahmud Çöhrəqanlıya ithaf olunub. Bu zərurəti gerçəkləşdirən, əsərin yazılmasını gündəmə gətirənlərdən biri İshaq Ozan oğlunun adı elə poemanın ilk bəndində xatırlanır. "İstqilal" poemasının başlanğıc hisslərindən etibarən "Gülüstan"ın xatırladılması əslində xalqın başına gətirilən fəlakətlərin sadalanması, təsəvvürə gətirilməsi kimi anlaşılmalıdır.Dünya çapında gedən ictimai siyasi təbədüllatlar da poemada əsas baxış və münasibət ücün əsaslı fakt kimi seçilir. Məsələn, bir-birinə nə az, nə çox düz qırx il həsrət qalan almanların beton sədləri yararaq qovuşmaq əzmi poemada haqqın tez-geç qələbə çalacağına dərin inam hissini poetik şəkildə ifadə edir. Azadlığı, istiqlalı öz idealı seçən hər bir xalqın sonda çalacağı qələbəyə qovuşmaq ücün əzmkarlıq nümayiş etdirməsi, qanı-canı hesabına öz istəyinə çatmağın yeganə yolunun məhz mübarizələrdən keçildiyi poemada ucadan səsləndirilir:

Torpağı yoğurur vaxt özü qanla
Vaxt gəldi, bircə söz min dünya açar.
Artıq anlamışıq ahla, amanla
Nə məftil əriyir, nə sərhəd uçar (114, 712).

Şairin istiqlalın nəticəsi kimi güneyli-qüzeyli Azərbaycanın nə vaxtsa (yaxın müddət ərzində) bütövləşən xəritəsinin görünəcəyinə dərin inam bəsləməsi bu istəyin gerçəkləşəcəyini şübhə altına almır.

Əslində, milli istiqlal düşüncəsi Bəxtiyar Vahabzadənin yaradıcılığa başladığı ilk vaxtlardan onun şeirlərində bu və ya digər şəkildə poetik ifadəsini tapmışdı; poemalarında isə şair problemi konflikt şəklində qoymağa çalışmış və buna nail olmuşdur. Belə ki, "Mərziyə", "Gülüstan", "İstiqlal" poemalarında şair tarixə ekskurs edərkən milli istiqlal mücadiləsində bir addım belə geri çəklimir. Özü də bu vətəndaşlıq cəsarəti sovet rejiminin ən kəskin bir dövründə – 50-ci illərin sonu-60-cı illərin əvvəllərindən başlayaraq təxminən otuz illik bir yol gəlmişdir. Bu yolda şair özünün vətəndaşlıq qayəsindən bir addım belə çəkilməyərək milli istiqlalın poetik səlnaməsini yaratmağa nail olmuşdur. Bəxtiyar Vahabzadənin yaradıcılığında bəhs etdiyi

istiqlalın poetik səlnaməsinin son duracağı "Şəhidlər" poemasıdır. Məsələ burasındadır ki, şairin bu mövzuda yazdığı "Aylı gecələr" poeması ilə "Şəhidlər" arasında təxminən əlli illik bir zaman məsafəsi dayanır. Bu zaman məsafəsində şairin yaradıcılığında istiqlal qırmızı xətt kimi keçmişdir. İsiqlal, azadlıq, müstəqillik uğrunda şəhid olmuş qurbanların mücadilə əzmini təsvir edən poemada şəhidlərin torpağa, xalqa "səcdə qılmaları", haqsızılığın üstündən "haqqa körpü salmaları", vətəni sevmək üstündə "günahkar sayılmaları"nın poetik səlnaməsi təsvir edilir. "Proloq", "Nə istəyir bu millət", "Təzadlar içində", "Eşq olsun sizə", "matəm mərasimi", "Axı biz neyləmişdik?", "Xəcalət", "İlham-Fərizə" və s. fəsillərdən ibarət poemada xalqın azadlıqsevər övladlarının müstəqillik uğrunda mücadiləsinə bir rekviyem təsiri bağışlayır. 1990-cı ilin yanvar qırğınından cəmi bir neçə ay sonra yazılan poemada hadisənin təsirilə yazılmış sətirlər qırğını törətmiş orduya və onu Azərbaycan qarşı göndərənlər üçün bir ittihamdır.

Beləliklə, Bəxtiyar Vahabzadə yaradıcılığında milli istiqlal düşüncəsinin təsvirinin böyük bir tarixi olduğunu görmək mümkündür. "Şəhidlər" poeması, əslində xalqın milli istiqlalı uğrunda apardığı mübarizənin nəticəsi idi. Buna qədər şairin milli istiqlal uğrunda mübarizəsinin müxtəlif mərhələlərinin poetik səlnaməsini yaratmağa nail olmuşdur. Əgər sovet dövründə bu mübarizə müxtəlif kontekstdə, müxtəlif şəkildə baş verirdisə, 80-ci illərin sonu 90-cı illərin əvvəllərində açıq tendensiya ilə təsvir edilir. Bu ondan irəli gəlirdi ki, bu mərhələdə xalqı onun istiqlalından cəmi bir neçə ay və il ayırırdı.

ƏDƏBİYYAT:

1. Vahabzadə Bəxtiyar, Əsərləri: 11 cilddə, VI c., Bakı: Çaşıoğlu, 2003, 776s.
2. Vahabzadə Bəxtiyar Əsərləri: 11 cilddə, VIII c., Bakı: Azərbaycan, 2005, 848 s.
3. Vahabzadə B. Şəhidlər (Poema). Azərbaycan Mədəniyyət Fondu. Bakı: Elm, 1990, 48 s.

Y.Huseynova

Who wrote the history of martyrs

Sammary

In fact, the first time he had been reflected in his poems Bakhtiar Vahabzadeh to one or another in poetic creative thinking of national independence; And in the poem of the poet problem of trying to put a jar, and has achieved this.Bakhtiar Vahabzadeh in the work of the national

independence of thinking can see that the image of a great historical. In fact, the poem "martyrs" in the struggle for national independence was the result of the people.

Before that, various phases of the struggle for national independence of the poet poetic səlnaməsini managed to create. If in the soviet period in this fight, but in different ways in different contexts, open the trend is described by the end of 80 years in the early 90s.

Э.Гусейнова

История пишущих шехидов

Резюме:

На самом деле, у Бахтияра Вагабзаде, которые с самого начала в той или иной форме поэтических нашла выражение в его стихах национальной независимости; Поэт поэмах а проблема конфликта в виде оставить, и добился этого.

В творчестве бахтияра Вагабзаде национальной независимости мысли, что можно увидеть изображения большую историю.

Поэму "шехиды", на самом деле борьбы нашего народа за независимость в результате было. До этого поэта национальной борьбы за независимость различных этапов поэтически səlnaməsini удалось создать. История пишущих шехидов

Если в советское время этой борьбы, то конце 80 годов, в начале 90 годов тенденция с открытой описывается по-разному в различных контексте.

Rəyçi: Bədirxan Əhmədov
Filolofiya üzrə elmlər doktoru, professor

KÖNÜL MƏMMƏDOVA
Gəncə Dövlət Universiteti
konul.memmedli@mail.ru

CABBARLI İDEALI

Açar sözlər: ədəbiyyat, şair, yaradıcılıq, mətbuat, əsər, yazıçı, dramaturgiya.
Ключевые слова: литература, поэт, творчество, пресса, произведение, писатель, драматургия.
Key words: literature, poet, creativity, press, work, writer, drama.

Cəfər Cabbarlı Azərbaycan ədəbiyyatı tarixində bir yazıçı kimi və dramaturq kimi öz yolu olan bir şəxsiyyət idi. Cəfər Cabbarlının yaradıcılığına məxsus emosionallıq, dərin psixologizm, incə lirizm və yerinə görə ideya – estetik məqsəd yazıçının dramaturgiyasında özünü qabarıq şəkildə göstərmişdir. Aktual həyat problemləri qaldırmaq cəsarəti, hadisələrə ayıq, fəal sənətkar münasibəti, yüksək prinsipiallıq və həqiqi vətəndaşlıq mövqeyi, habelə digər ideya – bədii məziyyətlər Cəfər Cabbarlı yaradıcılığını səciyyələndirən mühüm amillərdən biridir. O, əsərlərini hansı quruluşda yazmağından asılı olmayaraq həyat hadisələrini ifadə edirdi. Burada mən dahi rus tənqidçisi V.Belinskinin bir fikrini xatırlayıram: "O şey ki, həyatda ola bilməz, o, sənətdə də yalandır, başqa sözlə, həyatda ola bilməyən şey poetik də ola bilməz. Kim istəsə ki, kağız üzərində də, yazdığı şeirlərdə də şairliyi görünsün, o gərək əvvəlcə qəlbən şair olsun və öz təbiətinə uyğun olaraq, həyatın poetik tərəfini görsün. Poeziya təkcə kitablarda deyil, - o, həyatın öz nəfəsindədir." XIX əsrin sonlarına doğru türk ədəbiyyatında gedən islahatlarda Avropa təsiri açıq – aydın hiss edilirdi. Bu təsirin nəticəsi idi ki, Azərbaycan ədəbiyyatında yeni bir janr – dramaturgiya yaranırdı. Dramaturgiya janrının həm ideya – məzmun, həm forma, həm də üslüb cəhətcə formalaşmasında C.Cabbarlının rolu danılmazdır.

C.Cabbarlının yaradıcılığı Azərbaycanda ictimai – siyasi hadisələrin mürəkkəbləşdiyi bir dövrə təsadüf edir. Akademik Mirzə İbrahimovun qeyd etdiyi kimi, "XİX əsrin sonları, XX əsrin əvvəllərinə doğru Azərbaycan iqtisadiyyatında baş verən kapitalistləşmə meyli və Bakıda kapitalizmin sürətli yüksəlişi demokratizmin yayılması, dərinləşməsi və inkişafı üçün dərin zəmin yaratmışdı."(60,42) Azərbaycanda ictimai – siyasi durumu vaxtında, düzgün quymətləndirən milli ziyalılar millətin tərəqqi və özünüdərkinə hava və su qədər gərəkli olan qəzet və jurnalların nəşrinə başlayırlar. XX yüzilliyin əvvəllərində Mirzə Cəlal Yusifzadənin Bakıda nəşr etdirdiyi "Həqiqəti - əfkar" qəzetində C.Cabbarlının ilk mətbu əsəri çap olunmuşdur. İlk dəfə mətbuata 1911 – ci 5 noyabrda "Eşidənlərə" və

"Şücaətim" şeirləri ilə gələn şair üslubu ilə poeziyada da özünəməxsus iz qoymuşdur. Bundan sonra yazıçı işıq üzü görən bir çox mətbuat orqanında yorulmadan çalışmış, onlarla poetik və publisistuk əsərlər çap etdirmişdir.

Öz sələfləri və müasirləri kimi, o da cəmiyyətin tərəqqisi və inkişafında mətbuatın bədii və publisistik sözün gücünə inanırdı. Onun zəngin bədii irsi içərisində elə bir əsər yoxdur ki, xalqın mənafeyilə, dövrünün zəruri məsələlərilə bağlanmamış olsun. C.Cabbarlı ədəbiyyatın qarşısında müasir tələblər qoyan realist yazıçı idi. O xoşa gəlməyən ictimai quruluşu dəyişmək və oxucuda təsir oyatmaq üçün çalışırdı. Cabbarlı üçün ədəbiyyat iti bir silah idi. ənətkara görə təsir oyatmaq keyfiyyətinə malik olmayan əsər mövcud ictimai quruluşun bəlaları əleyhinə mübarizə apara bilməz. Cabbarlını narahat edən ictimai məsələlər, onun satirik şeirlərində özünü göstərirdi. O, tərəqqi üçün milli zəminin möhkəmliyinin təmininə və bunun qorunub fikir verilməsini tələb edirdi. Cabbarlının fikrincə, tərəqqi yolunda milli özünəməxsusluğu unutmaq olmaz. Xaricə kor – koranə aludəçilik milli mədəniyyətimizi məhv edər.

Onun "Babayi – Əmir" jurnalının 1915 – ci il 9 sentyabr tarixli 21 – ci nömrəsində çap olunan "Hürriyyət və təsəffürü – nisvan" satirasında "mən azadlıq deyəndə belə azadlığı nəzərdə tutmurdum" deyir:

Bu vaxtda yaraşırmı, xanımlarım, bizə bulvar?
Eşitmişsinizmi bizim türklərdə böylə məsəl var.
Əvvəlcə çıx yoxuşu, sonra gözlə pişdə həmvar:
Siz indidən ki, belə tutmuşsuz, bununla nə artar?
Qudurmayın siz, a qızlar, axır bəlayə düşərsiz
Sizi o qədər döyərlər ki, ah – vayə düşərsiz.

Cabbarlı istər poeziyasında, istərsə də dramaturgiyasında dövrünün xırda məişət məsələlərindən tutmuş ictimai hadisələrinə qədər öz münasibətini bildirmişdir.XX əsrin əvvəllərində maarifpərvər xadimlərin iştirakıı və səyi nəticəsində mətbuatın inkişafı Cabbarlı kimi yazarların yaradıcılıq potensialını üzə çıxarmağa imkan verdi. Onun 1915 – ci ildə "Babayi - əmir" jurnalında dərc edilən satirik şeirlərində "millətin ehtiyacını görməyə bəsirəti olmayan" varlıları, xalqın mənafeyinə işləməyən cəmiyyəti – xeyriyyələri, hürriyəti – nisvan əleyhinə çıxan alimləri, "günbəgün tuluq kimi şişən mollaları" kəskin tənqid edirdi.

"Görməkdəyəm" satirik şeirində Cabbarlı fikrini son misrada daha aydın ifadə edir:

Yazgilən arsızlar, görcək bərəltsin gözlərin,
Boynu şalbandan yoğundur, seyyidin yaz sözlərin.
Müftəxordurlar axundlar, bəsləyirlər özlərin.
Mollalarımızdan çoxun mən bixuda görməkdəyəm,
Milləti – məhzunu binitqi nida görməkdəyəm.

Bütün yaradıcılığı boyu Cabbarlı ziddiyyətli sənətkar kimi görünür. Onun yaradıcılığında ölümlə həyat arasında gedən mübarizədə bir tərəfin tam qalib olmaması da sənətkarın yaradıcılığındakı ziddiyyətli məqamları açıq – aşkar ortaya qoyur.

Yazıçı – dramaturq Tanrıya gah üsyan edir, onunla razılaşmır, gah da müti şəkildə bu reallıqla razılaşmalı olur. Cabbarlı "Yaşamaq" şeirində ziddiyyətli məqamları aşağıdakı beytdə belə ifadə edir:

Neçin, neçin yaşamaq? Ölməmək! Nədir məna?
Neçin şu dörd yanı sarmış əzabə bağlanmaq?
Neçin əzilmək, üzülmək, iməkləmək bica?
Neçin həyatə səbəbsiz dözüb ayaqlanmaq?

Narahatlıq, həyatdan doğan suallar, bu suallara cavab tapmaq meyli Cabbarlının bir çox əsərlərində özünü göstərmişdir. Diqqət etsək görərik ki, dünya ədəbiyyatında Hötenin, Bayronun, Hüqonun, Azərbaycan ədəbiyyatında H.Cavidin, habelə Cabbarlının yaradıcılığında belə cavabsız suallar əsas yer tutmuşdur. İnsan öz keçirdiyi sarsıntılı məqamların, olmuşların və olacaqların cavabını hər zaman axtarır. Daxili iztirablarına son qoyacaq, ona ümid verəcək nəyi isə gözləyir, bunu tapa bilməyəndə isə ya ölür, ya da həyatla barışaraq tanrıya sığınır. Beləliklə, bütün sualların cavabını onun varlığında tapmış olur. Yazıçının sualları hər yerdə sükutla qarşılanır. Cabbarlı yaradıcılığının özəyi məhz bu struktur üzərində qurulmuşdur. Demək olar ki, sənətkar həyatın gözəlliyini, davamlılığını poeziyasında ifadə etmək üçün iki mərhələdən keçmişdir. Bu mərhələlərdən birini yuxarıdakı beytdə etirazı bir qədər yumşaldan və yüngülləşdirən, artıq həyatın davam etdiyini və yaranışın da gözəlliyini dərk etdirən sonrakı beytdə ifadə edirdi:

Hayır, Hayır! Yaşamaq! Bir vüsalədək yaşamaq!
Deyir, qoşar yürəgim! Onda bir işıqlı xiyal!
Bədən bulur yenə qüvvət, itər şu yorğunluq,
Nədir əcəb bu ziya?... İştə şanlı bir ideal.

Qeyd etmək lazımdır ki, Cabbarlı Azərbaycan ədəbiyyatında M.F.Axundzadədən sonra dramaturgiyanı özünəməxsus tərzdə inkişaf etdirən sənətkardır. Onun psixoloji dramları gənclərin mənəvi təkamülünə, xarakterlərin formalaşmasına xidmət edir. Azərbaycan ədəbiyyatında bu mərhələ Cavid və Cabbarlı ilə başlanır. Cabbarlının "Aydın" və "Oqtay Eloğlu" əsərlərinə nəzər salsaq görərik ki, əsərdə proseslər daha çox dərəcədə insanın qəlbində və düşüncələrində gedir. Buradakı ideyalar bilavasitə sosial həyatın ziddiyyətləri ilə bağlıdır. "Aydın"da oxuyuruq: "Dühalar düşməni, zəkalar, iradələr qatili adət!: Öz varlığını göstərmək istəyənlər heç bir adətə, qanuna boyun əyməməlidirlər". "Məni ancaq arzularım idarə edir... İnsan arzusu uğrunda heç bir şey qarşısında

durmamalıdır. Budur mənim prinsipim".Bu ideya "Od gəlini"ndə şox gözəl açılır. İnsan cəmiyyətin yaratdığı bütün buxovları qırmaq, öz həyatını şəxsi istəklərinə uyğun qurmaq əzmi göstərir. Ancaq Cabbarlının yaşadığı dövrdə əlbəttə, bu mümkün deyildi. Cabbarlı bu əsərlərdə yaradıcılığına xas olan ziddiyyətli məqamlardan istifadə edir. Bütün əsərlərində var – dövlət hərisliyinə, meşşanlığa, cismani hissiyata, şəhvətə qarşı kəskin mövqe tutan, insanlığı tərənnüm edən Cabbarlı burada sanki adət - ənənəyə, dinə qarşı meydan oxuyur. "İnandığı bir əqidəni, doğru sandığı bir məsləki ancaq öz mənfəətinə, şəxsi səadət və ehtiraslarına fəda edən adama nə ad vermək olar" – fikrinin müəllifi də Cəfər Cabbarlıdır.Cabbarlı insanın aliliyi, onun son məqsəd olması mövqeyindən çıxış edir. Dramaturq həyat haqqında fəlsəfi düşüncələrini toplayaraq vəhdətdə vermişdir. Görünür Cabbarlı bu gün ona görə aktualdır ki, o, təkcə zahiriliyi deyil, alt qatlardakı qanunauyğunluğu, hadisələri deyil, mahiyyətlər arasındakı münasibətləri qələmə alırdı.

Ədəbiyyat:

1. İ.Həbibbəyli. XX əsrin əvvəllərində Azərbaycan yazıçıları. Bakı, 2004
2. B.Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I və II cildlər, Bakı, 2010, 2011
3. Y.Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər. Bakı, 2002
4. Müasir Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik. İki cilddə, I-II cild, Bakı, 2007

K.Mammadova

Jabbarli's ideal
Summary

The language of Jabbarli's main works is a simple, clear literary language that is close to spoken language. However, Jabbarli's language has not always been and has not improved. His language has also gone through a certain development path as creativity. The positive and disadvantages of Jabbarli's creativity are also related to his language. Jafar Jabbarli is a national artist who has given invaluable service to the evolution of Azerbaijani literature, culture, art, richness of our spiritual wealth, national consciousness, patriotic feelings, purity of language, freedom and independence of ideology. His intense and controversial atmosphere, his rich and multifaceted creativity, the richness of his life, the short and meaningful life dedicated to the realization of national ideals, will continue to be an attractive subject for many centuries in the history of Azerbaijani literary

criticism. In all his works, Jabbarly, who sincerely opposes the state of the state, the clannishness, the fleshly lust, praises humanity as if it is a tradition against religion. The dominance of Jabbarli is his position of being the ultimate goal. The dramatist has accumulated his philosophical thoughts about life and has united. Apparently today, Jabbarli is urgent that he deals not only with outspokenness, but also with the substance of the law.

К.Мамедова

Идеал Джаббарлы

Резюме

Язык основных работ Джаббарли - простой, понятный литературный язык, близкий к разговорной речи. Однако язык Джаббарлы не всегда был и не улучшился. Его язык также прошел определенный путь развития, как творчество. Положительные и недостатки творчества Джаббарли также связаны с его языком. Джафар Джаббарлы - национальный художник, который оказал неоценимую услугу эволюции азербайджанской литературы, культуры, искусства, богатства нашего духовного богатства, национального самосознания, патриотических чувств, чистоты языка, свободы и независимости идеологии. Его интенсивная и противоречивая атмосфера, его богатое и многогранное творчество, богатство его жизни, короткая и значимая жизнь, посвященная реализации национальных идеалов, будут оставаться привлекательной темой на протяжении многих веков в истории азербайджанской литературной критики.

Во всех своих работах Джаббарлы, который искренне выступает против состояния государства, клановости, плотской похоти и похоти, хвалит человечество, как будто это традиция и традиция против религии. Преобладание Джаббарлы - его позиция быть конечной целью. Драматург накопил и объединил свои философские мысли о жизни.

Rəyçi: **Asif Rüstəmli**
Filologiya üzrə elmlər doktoru, professor

SEVDA HÜSEYNOVA
Bakı Mühəndislik Universiteti
shuseynova@beu.edu.az

QƏRB VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA YARADICI ŞƏXSİYYƏT OBRAZI

Açar sözlər: tarixi-bioqrafik bədii obrazlar, prototip, şəxsi həyat təcrübəsi, bioqrafik romanlar, janr, ədəbiyyat, elmi-ədəbi abidə, monoqrafiya.
Ключевые слова: исторические- биографические художественные образы, прототип, личный жизненный опыт, биографические романы, жанр, литература, научно-литературный памятник, монография.
Key words: historical-biographical artistic characters, prototype, personal life experience, biographical novels, genre, literature, scientific-literary monument, monograph

.

Yaradıcı şəxsiyyət obrazı ədəbiyyatda fenomen şəxsiyyətlərin özlərinin yenidən ədəbiyyat müstəvisinə gətirilməsi, yaradıcı insanların- yazıçı, şair, dramaturq və incəsənət xadimlərinin ədəbiyyatşünaslıqda görünməyən tərəflərinin obrazlı ifadəsinin öyrənilib tədqiq edilməsi indiyə qədər ciddi elmi tədqiqat obyektinə çevrilməmişdir.

Yaradıcı şəxsiyyətlər qeyri-adi düşüncə sahibidirlər. Onların fikir, düşüncə və ideyaları çox vaxt digər peşə sahiblərinin fikir, düşüncə və ideyalarından fərqli olur. Yaradıcı şəxsiyyətlər dünyanın sənət mülkünün yaradıcılarıdırlar. Bir sözlə, yazıçı, şair, dramaturq, rəssam və s. yaradıcı şəxsiyyətlər haqqında yazılan bədii sənət nümunələri ədəbiyyatın inkişafı yolunda müəyyən dəyərləri ilə daha çox diqqəti çəkir.

“ Obrazlar”, yaxud “ xarakterlər” haqqında kitablar XVII əsrdə geniş yayılmışdır. Və bu kitabların böyük qismi eramızdan əvvəl yaşayıb yaratmış yunan filosofu, Aristoteldən sonra Peripatetik məktəbinin yaradıcısı Teofrastusun (Theophrastus, c. 371-287 B.C.) sonralar Latın dilinə tərcümə olunmuş “ Obrazlar” (“ Characters”) adlı əsəri bazasında yayılmışdır. Bu əsər məşhur 23 obraz haqqında kitab kimi tanınmışdır. “ Obrazlar” kitabının ingilis dilinə tərcümə nəşri 1616-cı ildə Con Heley (Jhon Healey, c. 1585-c. 1616) tərəfindən hazırlanmışdır. Əslində obrazlar haqqında yayılmış əsərlər XVII əsr ədəbiyyatında ədəbiyyatın həm də janrlarından biri kimi tanınmışdır. Beləliklə, XVII əsr Britaniya ədəbiyyatında bu janrın məşhur olduğu, XVIII əsrin bir sıra mətbu orqanlarında, o cümlədən “ Spektator”-da (“ Spectator”) onun dərin izlər qoyduğu göstərilir.

Əslində obrazlar, yaxud xarakterlər cəmiyyətdəki bir sinfin, yaxud fərdin davranış və görüntüsünün bədii mücəssəməsinin ümumiləşdirdiyini,

eləcə də təsvirini verdiyi dövrün məşhur ədəbi forması kimi XVII əsr Britaniya ədəbiyyatında müstəsna yerini tapmışdır.

Obrazların təsnifatına gəlincə ədəbiyyatşünaslıqda onun bir neçə forması göstərilir:

- tarixi-bioqrafik bədii obrazlar;
- yazıçının yaratdığı uydurma bədii obrazlar;
- bədii obrazlarda gizlin həqiqətləri ilə çıxış edən yazıçı "mən"i;
- yazıçının özü tərəfindən yaradılan öz obrazı;
- memuarlarda sənət adamlarının yaratdığı şəxsi obrazları.

Ədəbiyyatşünaslıq termini olan obraz sözünə diqqət yetirək. Bu sözün *surət, tip, xarakter* kimi başqa ədəbiyyatşünaslıq terminləri ilə oxşar cəhəti nədir? Obraz ətraf aləmin, ideyaların müəyyən estetik prinsiplər əsasında bədii inikasıdır [11], [15]. Obraz kimi surət də bədii əsərdə canlı, əyani şəkildə təsvir edilən ideya, hiss, həyat hadisəsi və insandır. Bədii yaradıcı obraz və ya surət sənətin varlığa münasibətləri haqqında, sənətkarın rolu haqqında təsəvvürlərlə, bədii idrak problemi ilə bağlı olan mürəkkəb, çoxcəhətli bir anlayışdır. Ədəbiyyatda, sözün dar mənasında yazıçının təsvir etdiyi insanlara surət və ya obraz deyilir: məsələn, Piter Akroydun "Uilyam Şekspir" əsərində Şekspir obrazı. Böyük rus tənqidçisi V.Q.Belinski yazırdı ki, yazıçı surət və obrazlarla düşünür, o, həqiqəti sübut etmir, təsvir edir.[13, 163-164]. Tip hər hansı dövrün, sosial təbəqənin, insan xarakterinin əsas xüsusiyyətlərini özündə birləşdirən ədəbi qəhrəman, surət, ümumiləşdirilmiş obrazdır. Bədii əsərlərdə yaradılan bir çox obrazların əsasında real həyatdan götürülmüş konkret şəxslər (prototip) dayanır. Lakin müəllif onların xarakterindəki əsas cəhətləri qabartmaqla, olmayanları əlavə etməklə dövrünün tipik obrazlarını yaradır. Məsələn, U.S.Moemin "Ay və qara qəpik" əsərindəki Çarlz Strikländ o dövrün rəssamlarının ümumiləşdirilmiş obarzıdır. İnsanın ruhi, mənəvi xüsusiyyətlərinin məcmusu olan xarakter isə bədii əsərdə fərdi sifətləri müəyyən,hərtərəfli və parlaq bir şəkildə təsvir edilən insan surətləridir. İnsanın xarakteri onun müxtəlif şəraitdəki davranışında, başqa adamlara münasibətində, ictimai və şəxsi həyatın müxtəlif hadisələrə verdiyi qiymətdə təzahür edir.

[13, 185-186]. Hər bir xarakter müəyyən ümumbəşəri dəyərlərin daşıyıcısı olmaqla yanaşı, yalnız onu səciyyələndirən bir sıra fərdi cəhətlərə malik olur. Bu baxımdan müəyyən janrlara məxsus əsərlərdə, məsələn, təmsil və hekayələrdə surətlər xarakter səviyyəsinə qalxa bilmir. Məsələn, bir çox təmsillərdə tülkü hiyləgərliyin, dovşan qorxaqlığın təcəssümü kimi çıxış edir və heç bir fərdi xüsusiyyəti ilə yadda qalmır. Fərdiliyi, ziddiyyətli daxili aləmi ilə seçilən xarakterlər əsərdəki kolliziyanın yaradılmasında, ideyanın açılmasında böyük rol oynayır [11], [15]. Müasir dünya ədəbiyyatında yaradıcı şəxsiyyət obrazının ən incə cizgilərlə təsvirinə tarixi-

bioqrafik və ictimai romanlarda rast gəlmək mümkündür. XX əsr dünya ədəbiyyatında yaradıcı şəxsiyyətlərin həqiqi obrazlarını və ya onların prototiplərini yaratmış yazıçılardan R.Elman, Q.Robert, C.M. Kutzee, U.S.Moem, P.Akroyd, İ.Stoun, A.Peryuşa L.Feyxtvanger, A.Morua və s. yazıçıların müstəsna yeri vardır.

XX əsrin geniş yayılmış bədii janrlarından biri olan bioqrafik roman janrı qədim tarixə malikdir. Bu ədəbiyyatşünaslıqda yazıçının yaradıcılığının onun şəxsi həyat təcrübəsinin ifadəsi kimi, onun yaşadığı dövrlə, tarixi şəraitlə, mübarizələrlə, ona xas olan ideya, yaradıcılıq axtarışları və ziddiyyətləri ilə sıx əlaqədə və kompleks halında öyrənmək metodudur [13, 29-30]. Bu metodun tərəfdarları bioqrafik cəhəti sənət üçün həlledici yaradıcılıq amili hesab edirlər. Bu janrın ilk nümunəsinin eramızın birinci yüzilliyində yaşamış qədim yunan filosofu Plutarxın yazdığı "Müqayisəli bioqrafiya" əsəri ilə başlandığı söylənilir. Bu janrda müəyyən bir yaradıcı şəxsiyyətin həyatı, taleyi ədəbi - bədii və ya elmi şəkildə sənədləşdirilmiş bir formada təqdim edilir. Bu kimi əsərlərdə istedadın qeyri-adiliyi öz ilkin inikasını tapsa da, onun mənəvi-ruhani xüsusiyyətləri və mənşəyi ədəbi düşüncə tarixinin yeni tərəfi kimi təqdim edilir. Bioqrafiya janrı bədii struktur baxımından tarixi təhkiyə, elmi bioqrafiya və bədii sənədliliklə səciyyələndirilir. Janrın dəqiq elmi izahının mürəkkəbliyi araşdırma obyektinin özü – yaradıcı insan şəxsiyyəti, onun bioqrafiyası ilə bağlıdır. Bu janrın ən görkəmli nümayəndələri L.Feyxtvanger və A.Moruadır.

Müasir dövr bioqrafik metodun yaradıcısı hesab edilən Sent Böv Balzak, Jorj Sand, Viktor Hüqo, Aleksandr Düma kimi yazıçıları yaxından tanımış və onların bəziləri ilə dostluq münasibətləri saxlamışdır. O, üç cildlik "Ədəbi portretlər"ində və sonrakı əsərlərində yazıçıları adi canlı adamlar kimi təqdim etmiş, oxucu təsəvvüründəki romantik yazıçı obrazını aradan götürməyə cəhd göstərmişdir. O, yazıçını bütün adamlar kimi müəyyən vərdişlərlə, simpatiya və antipatiyalarla yaşayan şəxsiyyətlər kimi göstərmiş, onların məişətini xırda və məxsusi detalları ilə qələmə almışdır.

XX əsrdə fransız yazıçısı Andre Morua yazıcıların bioqrafiyasını dəqiq faktlar əsasında yazmaqla bioqrafiya janrının yeni roman formasını yaratmışdır. Məşhur yazıcıların bioqrafiyasını faktiki cəhətdən sənədli, təhkiyə cəhətdən isə bədii şəkildə təqdim edən romanlar ədəbi-bədii düşüncə tarixində maraqla oxunan əsərlər silsiləsini təşkil etmişdir. Ədibin Balzak, Hüqo, Jorj Sand, Düma, Flober və başqaları haqqında yazdığı bioqrafik əsərlər bədii roman kimi oxucularının sevimli əsərləri sırasına daxil olmuşdur.

XX əsr İngilis ədəbiyyatı yaradıcı şəxsiyyət obrazları ilə zəngindir. Belə ki, yaradıcı şəxs sadəcə maraqlı bir insan deyildir, o həm də tarixi düşüncə kontekstində yaradıcı simaların yeni bədii obrazının daşıyıcısıdır, eləcə də həmin şəxsiyyətin yaşadığı epoxanın realist bədii inikasıdır. Yazıçılar eyni

zamanda yaradıcı şəxsiyyətlərin obrazlarını yaratdıqları əsərləri ilə oxucunu o dövrün mədəniyyəti, ab-havası ilə tanış edib yeni bir mənəvi körpü yaradırlar. Bu baxımdan tarixi kontekstdə mövcud yaradıcı şəxsiyyətlərin tərcümeyi-halının , o cümlədən obrazının yaradılması və o dövrün tarixi-ictimai mühitinin yenidən qurulması ədəbiyyatda yeni tendensiyanı özündə ehtiva edir.

Müasir İngilis ədəbiyyatında yaradıcı şəxsiyyət obrazlarını yaratmış yazıçılardan C.Faulz, Q. Robert, P. Akroyd, U.S.Moem, R.Holms, A.N.Vilson, M.Holroyd, Hermion Li, K.Tomalin və başqalarının yaradıcılığında yaradıcı şəxsiyyət obrazı müəyyən yeri ilə seçilir. Adları çəkilən müəlliflər Uilyam Şekspir, Oskar Uayld, Çarlz Dikkens, Con Kits, Tomas Hardi və Pol Qogen kimi yaradıcı şəxsiyyətləri yaradıcı şəxsiyyətləri tarixi kontekstdə ədəbi müstəviyə gətirərək yaşayıb-yaratdıqları dövrün fonunda təqdim etmişlər.

"Şekspir: Bioqrafiya" ingilis yazıçısı Piter Akroydun bioqrafiya janrında yazdığı romandır. Əsərdə klassik Şekspir obrazı dünya şekspirşünaslığında dahi dramaturqun tarixi və realist bədii obrazını yaradan ən yaxşı əsər kimi diqqəti çəkir. Müəllifin "Dikkens" bioqrafik romanında yazıçı Çarlz Dikensin realist bədii obrazını özünəməxsus yazıçı təhkiyəsi və qələmi ilə yazmışdır. Ədəbiyyatşünaslıq elmində Çarlz Dikkensin həyatı və yaradıcılığının öyrənilməsində adını qeyd etdiyimiz romanın mühüm əhəmiyyəti və rolu təkzib edilməzdir. Romanda Çarlz Dikkens obrazı yaradıcı şəxsiyyətlər obrazları arasında müasir oxucunun və ədəbi-tənqidi arealın adamlarını heyrətləndirə biləcək fakt və sənədlər bazasında qələmə alınmışdır.

Uilyam Somerset Moemin "Ay və qara qəpik" romanında bütünlüklə özünü sənətə vermiş insanın yaratmaq eşqi, həyatın adiliklərinə qarşı biganəliyi, incəsənətə dərin ehtirası əks olunub. "Ay və qara qəpik" əsərinin əsas qəhrəmanları təzəcə ədəbi yaradıcılığa başlamış gənc yazıçı və rəssam Çarlz Strikləndddir. Hadisələri nəql edən gənc yazıçı Somerset Moemin öz obrazıdır. Əsərdə gənc yazıçı və Çarlz Strikləndddən başqa, Missis Uoterford, missis Cey, Riçard Tuayninq, Corc Rod, mister Van Buş-Teylor, Dirk Stryov kimi yaradıcı şəxslər də təsvir olunmuşdur.

Adlarını yuxarıda qeyd etdiyimiz yazıçıların əsərlərində yaradıcı şəxsiyyətin bioqrafiyasının real, eləcə də adi, təsadüfi faktlar əsasında bağlantılarını özündə təcəssüm etdirir. Bu romanlardakı əhatəli həyat materialı obrazların məişətində və ictimai münasibətlərində təqdim edilir. Onu da qeyd edək ki, yazıçıların toxunduğu mövzuların, qəhrəmanların, təsvir etdikləri məkanların yaradıcı obrazların şəxsi həyatı ilə bağlılığı ideyası bir çox əsərlərdə təsvir və tərənnüm edilir. Hazırda məşhur sənət adamlarının, pop-ulduzların bioqrafiyası televiziya və radionun əsas

janrlarından birinə çevrilmişdir. Əyani materiallardan, sənədli çəkilişlərdən istifadə ilə tele-bioqrafiyalar böyük maraqla baxılır və həm də ciddi idraki və informativ əhəmiyyət kəsb edir.

Azərbaycan ədəbiyyatında yaradıcı şəxsiyyətlərin həyatının digər yazıçılar tərəfindən bədii əksi, Azərbaycanda tanınmış klassik yazıcıların həyatından bəhs edən bioqrafik roman janrının yaradıcısı, yazıçı, ədəbiyyatşünas Əzizə Cəfərzadədir. O, Seyid Əzim Şirvani, Abbas Səhhət, Mirzə Ələkbər Sabir və başqaları haqqında silsilə romanların müəllifidir. Müasir ədəbiyyatşünaslıq elmində ilk dəfə olaraq ədəbi yaradıcılığı və yaradıcılıq psixologiyası məsələlərinin öyrənilməsi və tədqiqi mühüm aktuallıq və əhəmiyyət kəsb edən vəzifələrdən biri sayıla bilər. Əzizə Cəfərzadənin "Vətənə qayıt"(Nişat Şirvani), "Aləmdə səsim var mənim"(Seyid Əzim Şirvani), "Yad et məni"(Abbas Səhhət, Mirzə Ələkbər Sabir, Ağəli Naseh), "Sabir"(Mirzə Ələkbər Sabir),"Zərrintac-Tahirə"(Tahirə Qürrətüleyn), "Eşq sultanı"(Məhəmməd Füzuli) romanları ədəbiyyatda yaradıcı şəxsiyyət məsələsinin öyrənilib tədqiq olunmasında zəngin mənbə hesab edilə bilər.

Yaradıcı şəxsiyyət obrazının bədii təhlil müstəvisində görkəmli ədəbiyyatşünas, yazıçı, publisist, mətnşünas Rafael Hüseynovun XII əsr Azərbaycan ədəbiyyatı tarixində ölməz rübailəri ilə tanınan Məhsəti Gəncəvi haqqındakı " Məhsəti necə varsa" adlı kitabının mühüm yeri və rolu vardır. Şairənin həyatı və yaradıcılığı ilə bağlı faktlar ona böyük sevgi və yüksək peşəkarlıqla qələmə alınmışdır. "XII yüzillikdə dünyanın heç bir xalqının ədəbiyyatında Məhsəti qüdrətli, Məhsəti səviyyəli və Məhsəti istedadlı bir qadın şair görünmür" – yazan ədəbiyyatşünas alim Rafael Hüseynov haqlı olaraq Məhsətini yalnız Şərqin deyil, eləcə də bütün dünya ədəbiyyatının mirvarisi hesab edir. Şairənin müəmmalar zəncirini xatırladan həyat və yaradıcılığını izləyən ədəbiyyatşünas alim onun xəyal, mif, əfsanə olması barəsindəki yanlış qənaətləri elmi cəhətdən araşdırıb Məhsəti xanımın gerçək şəxsiyyət obrazını yaratmışdır.

Həmin fundamental monoqrafiyada Məhsəti Gəncəvinin həyat və yaradıcılığı, şəhraşub janrı ilə bağlı elə bir cəhət, elə bir istiqamət yoxdur ki, elmi-nəzəri tədqiqata cəlb edilməmiş olsun. Şərq, rus və Avropa dillərində mövcud olan 245-dən artıq qədim əlyazma nüsxələri, cünglər, təzkirələr, tarixi və fəlsəfi traktatlar, ədəbi-bədii əsərlər, nəzəri monoqrafiyalar əsasında qələmə alınmış, yenidən təkmilləşdirilmiş variantda 2005-ci ildə "Məhsəti Gəncəvi - özü, sözü, izi" adı ilə nəşr edilmiş, dünyanın tanınmış orientalist alimlərinin böyük rəğbətini qazanmış bu əsər Azərbaycan filologiyasının dünya şərqşünaslığı tarixinə XXI yüzillikdə bəxş etdiyi monumental elmi-ədəbi abidəsi kimi dəyərləndirilmişdir.

Məhsəti Gəncəvi yaradıcılığının ecazkarlığı, hələ şairənin sağlığında diqqəti cəlb etmiş və araşdırmalara yol açmışdır. XX yüzillikdə də Azərbaycanda onun rübailəri dəfələrlə dilimizə tərcümə edilmişdir. Onun sənət aləmi Qərbi Avropa ölkələrində də böyük maraq oyatmışdır. Görkəmli alman şərqşünası Frits Mayer 1967-ci ildə "Die shone Mahsati" "Gözəl Məhsəti" ("Die shone Mahsati") adlı samballı monoqrafiya qələmə almışdır.

Mehdi Hüseynin "Nizami" (1940), Səməd Vurğunun "Vaqif" (1937), Həmid Araslının "Şairin həyatı" (1967), Məmməd Səid Ordubadi "Qılınc və qələm" (1946), Hüseyn Cavid "Xəyyam" (1935) və s. kimi Azərbaycan ədəbiyyatının inciləri sayılan əsərlər ədəbiyyatda yaradıcı şəxsiyyət obrazının araşdırılmasında müstəsna tədqiqat materialıdır.

Ədəbiyyat

1.Ackroyd, P. Dickens. Vintage, 2002, 608 p.

2.Ackroyd, P. Shakespeare: The biography. Knopf Doubleday Publishing Group, 2010, 592 p.

3.Cəfərzadə Ə. Aləmdə səsim var mənim. Bakı: Gənclik, 1972, 223 s.

4.Cəfərzadə Ə. Eşq sultanı. Bakı: Şirvannəşr, 2005, 204 s.

5.Cəfərzadə Ə. Sabir. Bakı: Azərnəşr, 1989, 227 s.

6.Cəfərzadə Ə. Vətənə qayıt. Bakı: Gənclik, 1977, 302.

7.Cəfərzadə Ə. Yad et məni. Bakı: Gənclik, 1980, 316 s.

8.Cəfərzadə Ə. Zərrintac-Tahirə. Bakı: Göytürk, 1996, 207 s.

9.Hüseynov R. Məhsəti Gəncəvi – özü, sözü, izi. Bakı: Nurlan, 20015, 560 s.

10. Hüseynov R. Məhsəti-necə varsa. Bakı: Yazıçı, 1989, 334 s.

11. İsmayılov R. Nəcəfov E. Dilçilik və ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı:Altun kitab, 2016.

12. Maugham, W.S. Ay və Qara Qəpik. Bakı: Qanun Nəşriyyatı, 2012, 256 s.

13. Mirəhmədov Ə.M. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif nəşriyyatı, 1978, 199 s.

14. https://www.britannica.com/biography/Peter-Ackroyd

15. https://www.azleks.az

16. www.search.ndltd.org

S.Huseynova

Character of a creative personality in the literature of Azerbaijan and Western countries

Summary

The article deals with the sources of character of creative personality in the literature of Azerbaijan and Western countries. Furthermore, answers for such questions as "Who is creative personality?", "What are his/her peculiarities?" are provided and interesting facts are presented to the reader`s attention regarding the classification of creative characters in the article. Moreover, it has been brought into notice that historical-biographical novels play an exceptional role in the study of the life experience and creativity of realistic creative personalities, as well as, in the study of time they lived. Creative personalities have exceptional way of thinking.

Their ideas, thoughts are often different from the ideas, thoughts of other people. In short, literary works about writers, poets, artists *et al*. play specific role in the development of literature. In modern English literature, such writers as J.Fauls, G. Robert, P. Ackroyd, U.S.Maugham, R.Holms, A.N.Wilson, M.Holroyd, Hermione Lee, K.Tomalin and others created character of creative personalities in their works.

The characters of creative personalities such as William Shakespeare, Oscar Wilde, Charles Dickens, John Kits, Walter Scott, Thomas Hardy and Paul Gauguin presented the historical personality in the historical context, in the background of the time they lived and created. The works of Aziza Jafarzadeh, Rafael Huseynov, Mehdi Hussein, Samad Vurgun, Hamid Arasli, Mammad Said Ordubadi, Huseyn Javid are an exceptional research material in the study of creative personality in Azerbaijan literature.

С.Гусейнова

Художественные образы в западной и азербайджанской литературе

Резюме

В статье рассматриваются источники образа творческой личности в литературе западных стран и азербайджанской литературе. В статье, в то же время, есть ответы на такие вопросы как «Кто является творческой личностью?», «Каковы его особенности?», и интересные факты представлены к вниманию читателя относительно классификации творческих персонажей. Более того, было замечено, что исторические-биографические романы играют исключительную роль в изучении жизненного опыта и творчества реалистических творческих личностей, а также в изучении времени, в котором они жили. У творческих личностей есть исключительный способ мышления. Их идеи, мысли часто отличаются от идей, мыслей других людей. Короче говоря, литературные произведения о писателях, поэтах, художниках и др. играют особую роль в развитии литературы.

В современной английской литературе такие писатели, как Дж.Фаулс, Г. Роберт, П. Акройд, У.С.Моэм, Р.Холмс, А.Н.Вилсон, М.Холройд, Гермиона Ли, К.Томалин и другие, создали характер творческих личностей в своих работах. Персонажи творческих личностей, такие как Уильям Шекспир, Оскар Уайльд, Чарльз Диккенс, Джон Китс, Вальтер Скотт, Томас Харди и Пол Гоген, представили историческую личность в историческом контексте на фоне того, как они жили и создавались. Работы Азизы Джафарзаде, Рафаэля Гусейнова, Мехди Хусейна, Самеда Вургуна, Хамида Арасли, Мамеда Саида Ордубади, Гусейна Джавида являются исключительным исследовательским материалом в изучении творческой личности в азербайджанской литературе.

Rəyçi: Şahin Xəlilli
Filologiya üzrə elmlər doktoru, professor

SEVDA İSGƏNDƏROVA
ADMİU
sevdaisgenderova@gmail.com

ÜZEYİR HACIBƏYLİNIN YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLIK MÖVZUSUNUN TƏCƏSSÜMÜ

Açar sözlər: bəstəkar, vətənpərvərlik, beynəlmilləlik, marş, himn, mahnı.
Ключевые слова: композитор, патриотизм, интернационализм, гимн, песня, Узеир Гаджибейли, патриотические песни, День музыки, кантата, великий лидер Гейдар Алиев.
Key words In particular, the genre includes genres: primitive, gymnastic, epic and lyric poems.

Üzeyir Hacıbəylinin estetik konsepsiyasında millilik, beynəlmiləllik və vətənpərvərlik problemləri bir-birilə sıx əlaqələnmiş və bu xüsusiyyətlərin onun yaradıcılığı üçün xarakterik olduğunu qeyd etmək istərdik. Musiqidə millilik problemi bəstəkar üçün ilk növbədə xalq musiqi ənənələrinə ehtiyatla yanaşma məsələsi ilə bağlıdır.

1910-cu ildə "Cavanlara xitab" adlı məqaləsində Ü.Hacıbəyli yazırdı: "İndi camaat arasında, ələxsüs cavanlar arasında vətəndən, millətdən danışmaq dəb düşmüşdür. Bu, pis dəb deyildir, əncaq bu söhbətlər çox zaman danışıqlardan ibarət olur." (1, səh.209-210).

Ü.Hacıbəyli həmin məqalədə vətənpərəst olmaq üçün üç şərtin vacib olduğunu göstərirdi: "birincisi budur ki, vətənpərəst olmaq istəyən şəxs gərək öz vətəninin tarixini, ədəbiyyatını, coğrafiyasını yaxşıca bilsin; ikincisi budur ki, gərək o şəxsin bir peşəsi olsun və öz əmlləri ilə vətənə xeyir verə bilsin; üçüncüsü budur ki, vətənin xeyir-şərini öz xeyir-şərindən vacib hesab etsin, özünü vətənə fəda etməkdən qorxmasın." (2, səh. 437)

Bütün bu üç şərti həyat və yaradıcılığında parlaq şəkildə təcəssüm etdirən dahi Üzeyir Hacıbəyli sözün əsl mənasında vətənpərvər olmuş, onun beynəlmiləl və vətənpərvər ideyaları musiqi problemləri sahəsində öz geniş ifadəsini tapmışdır. Özünün publisist fəaliyyətində ehtiraslı vətənpərvər kimi çıxış edərək, öz xalqının azadlığına və maariflənməsinə böyük köməklik göstərmişdir. Dövründəki cəmiyyətin bütün nöqsanlarını qamçılayaraq, xalqın azad olmasına mane olan qüvvələri tənqid edirdi. Öz xalqının əsl vətənpərvəri kimi başa düşürdü ki, Azərbaycan xalqının azad olmasını və mənəvi inkişafını digər xalqlarla qarşılıqlı əlaqələrdən, onlarla təmasdan ayrı düşünmək mümkün deyil.

Bütün həyatı boyu xalqın tərəqqisi uğrunda çalışan Üzeyir Hacıbəyli böyük istedad sahibi olmaqla yanaşı, eləcə də vətənpərvər

ideyaların təbliği sahəsində ictimai fəaliyyət aparan sənətkar idi. Azərbaycan musiqi mədəniyyətində vətənpərvərlik mövzulu əsərlərin ilk nümunələri dahi Üzeyir Hacıbəyli tərəfindən yaradılmışdır. Bəstəkarın bir çox əsərlərini nəzərdən keçirdikdə onların mövzu dairəsinin vətənpərvərlik mövzusuna həsr olunduğunu, epik xarakterli və mübarizə ruhlu əsərlər olduğunu görmək mümkündür. Bu əsərlərdə tərənnüm olunan vətən sevgisi, millət təşəbbüsü, düşmənə nifrət, qəhrəmanlığa çağırış ən ali insani keyfiyyət kimi təqdim olunur. Ü.Hacıbəylinin yaradıcılığında hərbi-vətənpərvərlik mövzusunda mahnılar, marşlar və vətəni tərənnüm edən himnlər xüsusi yer tutur.

Üzeyir Hacıbəylinin yaradıcılığı müəyyən tarixi dövrlərlə sıx bağlı olub, özünəməxsus mövzu dairəsi və janrlarla təmsil olunmuşdur. Onun vətənpərvərlik ruhlu əsərləri Azərbaycanda baş verən ictimai-siyasi hadisələrlə bağlı tarixi dövrlərdə yaranmışdır. Bu baxımdan Ü.Hacıbəylinin yaradıcılığında üç tarixi dövrə nəzər salaq: 1918-1920-ci illər; 1920-1930-cu illər; 1941-1945-ci illər.

1918-1920-ci illərdə müstəqil Azərbaycan Demokratik Respublikası dövründə bəstəkarın özünün sözlərinə "Milli marş", Əhməd Cavadın sözlərinə "Azərbaycan", "Çırpınırdı Qara Dəniz" əsərləri yaranmışdır. Bu əsərlər janrına və musiqi dilinin xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Hərbi-vətənpərvərlik mövzusunda yazılmış ilk nümunə olan "Milli marş" öz ritmi və pafoslu ifadə tərzi ilə seçilir. Azərbaycan Respublikasının Dövlət himni olan "Azərbaycan" adlı marş isə təntənəli və möhtəşəm ifa tərzinə görə himnin janrının əsas xüsusiyyətlərini özündə əks etdirir. Beləliklə də, Üzeyir Hacıbəylinin yaradıcılığında 1918-1920-ci illər əhəmiyyətli dövr olub, məhz bu illərdə bəstəkarın vətənpərvərlik mövzulu mahnıları və marşları yaranaraq, Azərbaycan musiqisində bu janrların əsası qoyulmuşdur.

1920-ci illərin sonu, 30-cu illərin əvvəllərində Azərbaycan kütləvi mahnılarının ilk nümunələri yaranır. Dahi Ü.Hacıbəylinin 1920-1930-cu illərdəki yaradıcılığında vətənpərvərlik mövzusu, vətəni müdafiəyə çağıran mahnı və marşlara rast gəlmək mümkündür: "Piyadalar marşı", "Qızıl əsgər marşı" (sözləri M.S.Ordubadi), "Komsomolçu qız" (sözləri M.Təhmasib), "Kolxoz çöllərində", "Mazut", "qara gözlər", "Süvarilər mahnısı", "Səni gözləyir" (sözləri H.Natiq), "Pilotlar" (sözləri M.Seyidzadə) və sairə. Kvadrat quruluşlu bu mahnılar özünün sadə melodiyası ilə diqqəti cəlb edir. Marş xüsusiyyətlərindən istifadə olunması bu əsərlərə dəqiqi quruluş və fəal hərəkətli metro-ritmik cəhətlər gətirmişdir. "Komsomolçu qız" mahnısında azadlığa çıxmış Azərbaycan qadını tərənnüm olunur. Mahnının çağırış intonasiyaları, şən major səslənməsi və çevik marş ritmi gəncliyin sevinclə həyata başlamasına və onun mərdanə addımlar atmasına aid təəssürat yaradır.

Tariximiz üçün çətin olan 1941-1945-ci illərdə incəsənət qarşısında xalqın həyatını və faşist işğalçıları ilə mübarizəni hərtərəfli təcəssüm etdirmək, insanları həyacanlandıran, düşündürən və narahat edən məsələləri, dövrün ən mühüm problemlərini əks etdirmək kimi məsul vəzifə qoyulmuşdu. Bu çox mühüm vəzifə idi. Balə ki, incəsənət geniş kütlələrə güclü təsir göstərən vasitələrdən biridir. Vətənpərvərlik ideyaları-vətənin obrazı, qəhrəman oğulların rəşadəti musiqi sənətinin əsas mövzusunu təşkil etməyə başladı. (3, səh. 30).

Üzeyir Hacıbəylinin 1941-1945-ci illərdəki fəaliyyətində vətənpərvərlik mövzusuna və marşlara daha geniş yer verilir. Bəstəkarın janrından asılı olmayaraq, bu illərdə yaratdığı əsərlərdə vətənpərvərlik, mərdlik, qəhrəmanlıq, düşmənə nifrət və fədakarlıq motivləri ifadə olunurdu. Bu baxımdan əlbəttə ki, cəbhə hadisələrini, müharibə səhnələrini, əsgərlərin daxili aləmini, mərdliyini təcəssüm etdirən əsərlər daha aktual idi.

Bu dövrdə yaranmış "Çağırış" (sözləri S.Əliyeva), "Döyüşçülər marşı", "Vətən ordusu", "Ey vətən", "Zəfər himni" (sözləri S.Vurğun), "Cəbhəyə", "Yaxşı yol", "Şəfqət bacısı", "Yaxşı yol", "Yaralı döyüşçünün hekayəti" (sözləri S.Rüstəm), "Ananın oğluna nəsihəti" (sözləri M.Bayramov) əsərlərində milli musiqi köklərinə bağlılıq özünü qabarıq göstərərək, melodiyanın hərəkətindəki interval genişliyi, marş ritmi və musiqi dilinin əsas xüsusiyyətləri ilə seçilir. "Yaxşı yol" mahnısında əsgərlərin cəbhəyə yola salınması təsvir olunur. Burada vətənpərvərlik mövzusu lirik planda təcəssüm etdirilmişdir. Mahnıda ayrılığın kədəri və eyni zamanda yenidən görüşməyə möhkəm inam ifadə edilmişdir. Mahnının müşayiətindəki təsvir xüsusiyyəti sadə, ifadəli melodiyanın addımabənzər ritm ilə birlikdə səslənməsi onun təsirini gücləndirərək, qabarıq və canlı lövhəyə çevirir.

Bəstəkarın bu dövrdə müraciət etdiyi kantatalarında ölkədə baş verən ictimai-siyasi hadisələr və görkəmli şəxsiyyətlər təcəssüm olunur: Firdovsinin 1000 illiyinə, Nizaminin 800 illiyinə həsr olunmuş kantataları, Mirzə Fətəli Axundovun 125 illiyinə həsr olunmuş kantata, Samur-Dəvəçi kanalının açılışı münasibətilə yazılmış kantatası, xalqın Böyük Vətən Müharibəsində göstərdiyi igidliyi tərənnüm edən "Vətən və cəbhə" kantatasını misal göstərə bilərik. Solist, xor və simfonik orkestr üçün yazılmış "Vətən və cəbhə" kantatası müharibə illərində Ü.Hacıbəylinin yaratdığı ən iri həcmli əsərdir. Onun yaradıcılığında yeni instrumental janr olan mübariz xalq kişi rəqslərinin ənənələrini və bir çox xüsusiyyətlərini pözündə birləşdirən "Cəngi" əsəri də həmin illərdə yaranmışdır. "Cəngi" xalq çalğı alətləri orkestri üçün bəstələnsə də, bir qədər sonra bəstəkar onu fortepiano üçün işləyir. "Cəngi"nin mərdlik, qəhrəmanlıq ifadə edən musiqisi xalqın vətənpərvərlik ruhunun əksi idi. Bəstəkarın əsərində bu

qədim rəqs yeni həyat qazanmış, dövrümüzün qəhrəmanlarının obrazını təcəssüm etdirən odlu, ehtiraslı, müasir döyüş musiqisi xarakteri əldə etmişdir. Ü.Hacıbəylinin marş-oyun havası ruhunda yazılmış "Cəngi" əsərindən sonra tezliklə bir çox bəstəkarlarımız ona bənzər qəhrəmanlıq əsərləri bəstələyirlər.

Böyük Vətən Müharibəsinin qurtarması şərəfinə dahi bəstəkar "Qələbə himni", "Azərbaycan SSR Dövlət Himni" vokal-simfonik əsərlərini bəstələyir. Bu əsərlərin hər biri xalqı xoş gələcəyə səsləyərək, onlarda gələcək həyata inam, qurmaq və yaratmaq hisslərini gücləndirir.

Azərbaycan mədəniyyətinin yorulmaz himayədarı olan Ümummilli Liderimiz Heydər Əliyevin dahi bəstəkara xüsusi sevgisi və rəğbəti vardı. Onun sərəncamı ilə Şuşada və Bakıda bəstəkarın ev muzayləri yaradılmış, bəstəkarın doğum günü- "Musiqi günü" kimi qeyd olunmuşdur. Ulu Öndərimiz Heydər Əliyev dahi bəstəkarın yaradıcılığına və həyat yoluna yüksək qimət verərək demişdir: "Bəşəriyyət tarixində elə dahi şəxsiyyətlər olub ki, onların yaradıcılığı bilavasitə olaraq xalqın ürəyində və yaddaşlarında əbədi iz buraxıb. Belə dahilərdən biri Üzeyir Hacıbəylidir. Onun irsinin yaşaması naminə, mədəniyyətimizin, mənəviyyatımızın yaşaması naminə sizin hamınızı şücaətə, qəhrəmanlığa, vətənpərvərliyə dəvət edirəm". (4, səh. 6).

Beləliklə, Ü.Hacıbəyli yaradıcılığının canlı təcrübəsi beynəlmiləllik və vətənpərvərliyin sabitliyini və doğruluğunu təsdiq etdi. Bəstəkarın estetik prinsiplərində vətənpərvərlik mövzusu daima aktual bir mövzu olaraq qalmışdır. Ü.Hacıbəylinin yaradıcılığında vətənpərvərlik mövzusu xüsusi yer tutub, bu nümunələrdə müxtəlif janr xüsusiyyətləri: marş, himn, epik və lirik mahnı əlamətləri cəmlənmişdir.

İstifadə olunan ədəbiyyat

1. Zamanov A. "Əməl dostları". Bakı, Azərnəşr, 1979.
2. Səfərova Z. Azərbaycanın musiqi elmi. Bakı, Azərnəşr, 2006.
3. Fərəcov S.Üzeyir Hacıbəyli-125, Bakı, 2010.
4. Qarabağlı S. Heydər Əliyev və Üzeyir bey fenomeni. Bakı, Kaspi qəzeti, 2017, 15 iyun.
5.

Севда Искендерова

Концепция патриотизма в творчестве Узеира Гаджибейли

Резюме

Представленная статья посвящена воплощению патриотизма в работе Узеира Гаджибейли. В статье творчество композитора делится на три основных этапа: 1918-1920, 1920-1930, 1941-1945 гг. . В каждый из этих периодов выделяются работы композитора по патриотизму и подчеркивается их историческое значение. Во время независимой Азербайджанской Демократической Республики в 1918-1920 годах на слова композитора был создан «Национального марш », на слова Ахмеда Джавада «Азербайджан», «Черное море». В конце 1920-х - начале 1930-х годов появились первые примеры массовой музыки Азербайджана. Деятельность Узеира Гаджибейли в 1941-1945 годах придала гимнам большой патриотизм и гениальность.Наконец, делается вывод о том, что У. Гаджибейли был патриотом в своей творческой работе.

В частности, образцы содержат множество жанров: примитивные, гимновые, эпические и лирические черты песен.

Sevda Isgenderova

Embodiment of patriotism in the creativity of Uzeir Hajibeyli

Summary

The proposed article is devoted to the exploitation of patriotism in the work of Uzeyir Hajibeyli. In the literary composition of the composer is divided into three main stages: 1918-1920, 1920-1930, 1941-1945. .

Each of these epochs runs on the composer's work on patriotism and is guided by their historical significance.

During the period of 1918-1920, the composer of the Azerbaijan Democratic Republic, the National Marsh, was in Ahmed Javan at the "Azerbaijan", "Black Sea". In the 1920s, the 1930s, the first major musicians of Azerbaijan came to the conclusion.

The work of Uzeyir Gadzhibeyli in 1941-1945 was a great patriotism and genius. Gadzhibeyli was a patriot in his creative work.

Rəyçi: Elmira Məmmədova-Kekeç
Filologiya üzrə fəlsəfə doktoru, dosent

AYTƏN RÜSTƏMZADƏ
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
ayten_rustamzade@mail.ru

SÜLEYMAN RƏHİMOVUN HEKAYƏ YARADICILIĞINDA MİLLİ KOLORİT

Açar sözlər: S.Rəhimov, milli kolorit, milli xarakter, obraz, xalq
Key words:S.Rahimov, national color, national character, image, people
Ключевые слова: С.Рагимов, националъный колорит, националъный характер, образ, народ

Hər bir xalqın söz sənəti ilk növbədə öz milli müəyyənliyi və öz milli xarakteri ilə seçilir. Milli ədəbiyyat, milli yazıçı, milli xarakter, milli boyalar kimi termin və ifadələr artıq uzun illərdir ki, ədəbiyyatşünaslıqda dərin kök salmışdır. Xalqın bədii söz sənətinin xarakterik xüsusiyyətlərini, onun inkişaf yolunu, dünya ədəbiyyatında yerini və rolunu müəyyənləşdirmək üçün ən başlıca meyar millilikdir, milli psixologiyanın, milli xarakterin inikasıdır.

Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərində yaranan bir sıra obrazlar məhz bu komponentləri özündə əks etdirmişlər. İri həcmli nəsr əsərləri ilə yanaşı, hekayələr də bu problemi təhlil etmək üçün zəngin material verir.

Milli psixologiyanı dərindən duyan görkəmli sənətkarımız Süleyman Rəhimov həm də gözəl hekayə ustası olaraq, ədəbiyyatımıza bir sıra gözəl, yaddaqalan hekayələr bəxş etmişdir.

Onun "Dillənən duz" hekayəsinin üzərində dayanmaq istərdik. Qeyd edək ki, bu hekayə həqiqətən olmuş əhvalat əsasında qələmə alınmışdır.

Məşədi Musa bəy Hüseyn kişiyə bir ürgə söz versə də, vədinə xilaf çıxır. Məqsədimiz Məşədi Musa bəyin namərdliyi barədə danışmaq deyil, Hüseyn kişinin kasıb ailəsinin qonağı ləyaqətlə qarşılamağını vurğulamaqdır.

Məşədi Musa bəy hər dəfə onlara qonaq gələndə bütöv bir toyuğu yeyir, üstündən də bir kasa qatıq içirdi. Əsərdə qeyd olunur ki, ev yiyəsi qonaq üçün yumurtlayan toyuğu kəsir. Məlumdur ki, adətən yumurtlayan toyuğu kəsmirlər, çünki, evi, ailəni yumurtasız qoymaq olmaz. Deməli, kəsməyə başqa toyuq olmadığından ev yiyəsi məcburdur yumurtlayan toyuğu kəsib qonağa bişirsin. Çünki qonaq üçün hec nə bişirməməyi, hər bir azərbaycanlı, nə qədər yoxsul olsa da, özü üçün ayıb sayardı.

Yəqin ki, hər hansı bir başqa millətin nümayəndəsi Məşədi Musa bəyə bildirməkdən çəkinməzdi ki, onun qonaq üçün toyuq bişirməyə hal-hazırda imkanı yoxdur.S.Rəhimovun daha bir hekayəsinin "Kamaləddin əmiyə çay" hekayəsinin də üzərində xüsusi dayanmaq lazımdır.

Müəllif Kamaləddin əmini belə təsvir edir: "Kamaləddin əminin qonağı gəldimi, onun tökülü qaşqabağı açılacaq, qırışıq sifəti günəş kimi güləcəkdir. Qonaq da cümlə–cahan qayğısından azad olub, cənnət guşəsinə düşdüyünü güman edəcəkdir. Evində ehtiyatı oldu–olmadı, təfavütü yoxdur, — qonağın ürəyi istəyən sayaq xörək–çörək hazırlanacaqdır. Kəndin kənarında dikələn uca qayanın kəlləsində, sırıltılı çayın yuxarı yaxasında, qarşı dağların axar–baxarında yerləşən evdə bir dəbdəbə başlayacaq ki, qonaq özünü nağıl dünyasında sayacaq. Plov qazanı köz üstündə dəm alacaqdır. Kəklikotulu dovğada ağac çömçə üzə–üzə fırlanacaqdır. Çatılan tonqalın közündə quzu kababı cızıldayacaqdır. Qızılbalıq xına kimi qızaracaqdır" (1–156)Kamaləddin əminin şəhərdə yaşayan qohumları və dostları onun evinə gəlməyi xoşlayırlar, müəllif qeyd edir ki, bir günlüyə gələn qonaq yerini rahatlayıb bir həftə qalası olur."Arvad, çörək ki, var, itən yerə getməz, — deyə Kamaləddin əmi qol–qıçdan düşən arvadının könlünü almağa cəhd edəcəkdir. — Əlbəttə, bizim də ayağımız bir gün şəhərdəki qohumlarımızın evinə dəyər..." (1–156)

Ancaq payız aylarında təsadüfən Kamaləddin əminin yolu şəhərə düşəndə onun gözlədiyinin əksinə olaraq, Kamələddin əmini heç kim sevinə–sevinə qarşılamır. Əliboş gəldiyini görənlər özləri bilmədən üzlərini turşudurlar. Kamaləddin əmi beş nəfərin evinə gedir, hər evdə də onu 2 stəkan çaya qonaq edirlər. Nahar vaxtı olmasına baxmayaraq, heç kim Kamaləddin əmiyə xörək–çörək təklif etmir. Kamaləddin əmi hər bir evə gedəndə o biri evdən ac gəldiyini deyə bilməzdi, çünki, belə şeyi o, eyib sayır, onun nəzərində deyicilik pis şeydir. Kamaləddin əmi acqarına on stəkan çay içməli olur. O, su satılan dükana girib bir şüşə "Badamlı" alır, şüşəni başına çəkib son qətrəsinə qədər içib küçəyə çıxır.

"—Kamaləddin əmiyə çay!... Kamaləddin əmiyə çay! — deyə yanan ürəyin "Badamli" suyu ilə buz kimi soyudan kişi qonaqçılarının qarasınca deyindi.

—Zalım uşaqlarının birisinin evində bircə dilinə gətirən olmadı ki, Kamaləddin əmiyə bircə parça da olsa quruca çörək!..." (1-159)

Hekayə kiçik həcmli olsa da, əslində çox şey deyilir. Müəllif qeyd edir ki, Kamalıddin əmi şəhərə gəldiyi gün mehmanxanada otaq tutur, həmin gün naharını və şamını yeməkxanada edir. Ertəsi gün səhər yeməyi vaxtı tək darixir. Ona görə də nahara qohum, dost evinə getməyi qərara alır. Əslində o, kiminsə evinə aclıqdan yox, insanlarla ünsiyyətdə olmaq, dost–tanışla görüşmək üçün gedir. Kamaləddin əmi "bir gün bizim də ayağımız şəhərdəki

qohumların evinə dəyər” deyəndə heç də onu nəzərdə tutmurdu ki, o, qohumları, dost–tanışı evində hörmətlə qarşıladığına görə mütləq nə vaxtsa şəhərə gedib bunun əvəzini gözləməlidir. Müəllif onu da göstərir ki, Kamaləddin əminin yolu payızda şəhərə təsadüfən düşür. Əslində, Kamaləddin əmi şəhərə tez–tez gedən də deyil. “Bizim də ayağımız bir gün onların evinə dəyər” deyəndə Kamaləddin əmi onu nəzərdə tutur ki, özünün yerində başqası da olsa qonağı beləcə qarşılayardı. Onun fikrincə, qonaqpərəstlik hər bir insana xas olan xüsusiyyətdir, qonağı başqa cür qarşılamazlar.Müxtəlif xalqlarda qonaqpərəstliyin müxtəlif formalarda təzahürünə rast gəlirik. Ukraynalıya, rusa, gürcüyə, azərbaycanlıya, özbəyə qonaqpərvərlik, nəcabət görmək olar. Ev sahibi kimi bu keyfiyyətləri həmin xalqlar öz ənənələrinə, milli mərasimlərinə, milli vərdişlərinə, uyğun büruzə verəcəklər. Burada milli atmosfer, milli hava qonağı bürüyəcəkdir.

Həqiqətən də qonaqpərvərlikdə Azərbaycan çaları seçilir. Ləyaqətli azərbaycanlı öz evində çörək olmadığı halda belə bunu qonağa hiss etdirmədən qonşudan borc alar, ancaq onu ac yola salmaz. Özü, uşağı quru yerdə, həsir üstə yatar, ancaq qonağa saxladığı yorğan–döşəyə toxunmaz, qonaq otağının səliqə–sahmanını pozmazdı.Azərbaycan xarakterində kövrəklik, daxili hüzn üstün olduğundan qonaqpğrvərlikdə də başqa xalqlardan fərqli olaraq açıqlıq (məsələn, kasıblığını qonağa bildirmək) adət deyil.Azərbaycanlılarda qonaqpərəstliyin özünəməxsus təzahür forması, bu xüsusiyyətin qədimlərdən gələn incəlikləri xalq yaradıcılığında, eləcə də klassik ədəbiyyat nümunələrinə dərin iz salmışdır. Qonaqpərəstlik məişətə elə daxil olmuşdur ki, bu milli zehniyyətdə də xoşbəxtlik, bərəkət simvolu sayılmadadır. Qonağı qarşılamaq, ona ləyaqətlə xidmət etmək üçün görülən tədbirlər əhalidə adətə çevrilmişdir. Azərbaycanlı ailəsinin yorğan–döşəyə, yatacaq avadanlığına ayrıca diqqət verməsi, bunların rahatlığı və səliqəliliyi qədimlərdən bəri davam etdiyini “Kitabi–Dədə Qorqud”da sübut edir. İndinin özündə də bizdə az-az ev tapılar ki, orada bütün ailə üzvlərindən başqa qonaq üçün də əlavə 5–6 dəst iri yorğanlı, qalın döşəkli, yumşaq balışlı-mütəkkəli yatacaq avadanlığı olmasın. Bu rahatlıq şox zaman qonaq üçün nəzərdə tutulur ki, qonaqpərəstliyin azərbaycanlılarda özünəməxsus əlamətlərdə üzə çıxdığı həmin faktla bir daha təsdiq olunur.Azərbaycanın təsəvvüründə qonaq öz gözünün qabağında, ayağının altında kəsilən qoyunla qarşılanırsa, bu qonağa hədsiz hörmət və ehtiramdır. Ancaq bu adəti bilməyən, uzaq bir ölkədən gəlmiş bir qonaq üçün bu adət qəribə, əcaib görünə bilər.Əlbəttə, ümumi cəhətlər nə qədər şox olsa da, xalqların xarakterini eyniləşdirmək düzgün deyildir.Bildiyimiz kimi, xalqların müasir məişətində, xarakterində də yaxın, müştərək xüsusiyyətlər çoxdur ki, bunların bədii inikasının təhlili milli bədii qəhrəmanların səciyyəsini müəyyənləşdirməyə aydınlıq gətirir. Eyni həyat şəraitinin, ictimai əlaqələrin

müxtəlif millətlərin nümayəndələrinə, onların psixologiyasına təsiri müxtəlif formada təzahür edir. Bu bədii həqiqətə moldav və Azərbaycan nəsrinin müvafiq kəndli obrazlarını misal gətirmək olar. Moldavan yazıçısı Andrey Strımbyanın hekayə və povestlərinə xalqın milli xüsusiyyətlərinin, milli xarakter və koloritin orijinal əlamətləri realist cizgilərlə verilmişdir. "Çil xoruz", "Gözdən iraq olanda", "Kolorad böcəyi" əsərləri moldavan kəndlərinin güzəranı, adamlarının xarakteri barədə müəyyən təsəvvür oyatması baxımından xüsusilə maraqlıdır. Tudos xala oğlunu görmək üçün kənddən Kişinyova gəlir. Onun obrazı bizim Azərbaycan nəsrində rast gəldiyimiz, övladı şəhərdə oxuyan yaxud işləyən sadə anaların obrazına bənzəyir. Q.Qasımzadə haqlı olaraq onu M.Cəlalın "Açıq kitab" romanında oğlunun dalınca Bakıya gələn anaya bənzədir. Şəhərə münasibətdə üzə çıxan kənd sadəlövhlüyü və baməzəliyi bu anaya xas ümumi əlamət kimi diqqəti cəlb edir. Tudos xala sadə güzəranlı bir qadındır. O, əlinə keçənlərdən oğluna sovqat gətirir: rəngarəng əskilərə bükülmüş çoxlu yumurta, borş (borş gətirməyini o belə izah edir: neyləyəsən ki, bu şəhərdə ancaq hava pulsuzdur) və diri xoruz. O deyir: "Kəsəcəyəm. Qoy mənim oğlum da ev zaması yesin (Zama–moldavan toyuq şorbasıdır). Toyuq şorbasına bütün xalqların mətbəxində rast gəlmək olar, ancaq müxtəlif xalqların dilində onun müxtəlif adları var.Avtobusda zənbildən çıxan xoruz qanad çala-çala ora-bura dolanır və banlamağa başlayır. Bu hadisə sərnişinlər üçün əyləncəyə çevrilir. Şəhərli gənclər xoruza işarə ilə Tudos xala ilə zarafatlaşmağa başlayırlar:

"—Nədənsə yazığın səsi kallaşıb. Boğazını mineral su ilə yaşlamaq lazımdır.

—Uşaqlar, mən gələndə ona quyu suyu içirtmişəm.

—Daha yaxşısı, mineral sudur.

Əlvan yarlıqlı, ağzı açıq butulka estafet kimi əldən ələ keçərək xoruza doğru gəlir.

Əylənmək və vaxtı öldürmək istəyən cavanlara xoş gəlsin deyə, Tudos xala butulkanın boğazını xoruzun didiyinə tutdu. Xoruzun dimdiyi açılmadı, qadın dedi:

—Uşaqlar, butulkanızı alın. Mənim xoruzum kəndlidir, mineral suyun nə olduğunu bilmir".

Şəhərdə xoruzunu əlindən qaçıran qadının onu qova-qova küçə hərəkət qaydalarını pozması, "şəhər əhlinin kara gəlməzliyi" barədəki mühakimələri olduqca təbii və koloritlidir.

Milli adət-ənənələrin kəndli psixologiyasında daha davamlı olması barədəki bəzi mülahizələrin təsdiqi üçün bu hekayə tutarlı fakt verir. Kəndli psixologiyasında millilik təkcə yaşlı nəslə aid deyil, yeni nəsildə də davam edib gəlməkdədir. Bunu kəndli qocanın da, cavanın da şəhərə-ənənələrin

qırılıb pozulması üçün kəskin yol tutan bir mühitə münasibəti aydın göstərir. Andrey Strımbyanunun "Gözdən iraq olanda" əsərində isə şəhərdən kəndə qayıdan Kima adlı gənc oğlanın hərəkətləri bu cəhətdən maraqlıdır. O, avtobusdan düşüb kəndlərinə piyada yollanır. Çəmənlikdə uzanır, buludları seyr edir. Ciblərindəki kağız qırıntılarını — trolleybus, kino biletlərini çıxarıb hamısını tullayır. O deyir: "Qoy məndə şəhəri yada salan heç bir şey qalmasın..." Kəndli psixologiyasının xüsusi mülkiyyətə bağlılığı və sovet dövründə, kolxoz quruluşu şəraitində bu psixi əlamətin sarsıntıya uğramasını bütün o zamanki SSRİ–yə daxil olan respublikaların xalqlarının həyatında müşahidə etmək olardı. Lakin bu dönüşün, bu sarsıntının üzəçıxma əlamətləri bütün xalqlarda eyni deyildir. Yerli kolorit, milli xüsusiyyət, milli xarakter məhz burada özünü göstərir.

Milli xarakteri səciyyələndirən xüsusiyyətlər müsbət və mənfi obrazların realist planda fərdiləşdirilməsi yolu ilə aşkara çıxarılır. Bundan əlavə, eyni xalqın nümayəndələri arasındakı münasibətlərin təsviri vasitəsilə də bir milli xarakteri digərindən fərqləndirmək olar.

Məsələn, V.Şukşinin hekayələrinə nəzər salaq. V.Şukşin əsərlərində milli kolorit güclü olan müəlliflərdən biridir. Onun qəhrəmanları — istər müsbət, istərsə də mənfi personajlar tipik ruslardır. Əsl rus mühitinin yetirmələridir.

Misal üçün "Kürəkənim bir maşın odun oğurlayıb!" hekayəsinə müraciət edək.

Adi bir ailə-məişət söhbətindən başlayan dava, əvvəlcə ər-arvad arasında, sonra da kürəkən və qaynana arasında elə bir şəkil alır ki, axırda qayınana kürəkəni məhkəməyə vermək dərəcəsinə çatır. Hərçənd ki, söz-söhbət boş bir şeydən başlamışdı. Qaynana və kürəkən bir-birinə cürbəcür sözlər deyir, təhqirlər yağdırır, qayınana kürəkəni qonşular arasında biabır etmək məqsədilə "kürəkənim bir maşın odun oğurlayıb!" deyərək həyətdə qışqırıq salır.

Bu cür epizodlara bir azərbaycanlı müəllifin hekayələrində rast gəlsə idik, bu bizə qeyri-real, deyri-təbii görünərdi. Çünki Azərbaycan mühitində, Azərbaycan kəndlərində belə səhnələrə rast gəlmək mümkün deyil. Məqsədimiz başqa bir xalqın nümayəndələrini pisləmək, özümüzün isə ancaq müsbət keyfiyyətlərə malik olduğumuzu iddia etmək deyil. Hamıya yaxşı məlumdir ki, rus xalqının nümayəndələrinə hər sözü üzə demək xas olan bir xüsusiyyətdir. Bu zaman onlar qarşısındakının kim olduğundan asılı olmayaraq o adamın inciyib-iciməyəcəyi haqqında düşünmürlər.

Azərbaycan xalqının nümayəndəsi isə mütləq qadın qohuma münasibətdə ehtiyatlı davranır, müəyyən bir pərdəni heç vaxt aradan götürmür. Bunu da inkar etmək olmaz.

Qonağa münasibət məsələsində ruslar sözü açıq deməkdən, qonağın hər hansı bir hərəkətindən narazılıq bildirməkdən çəkinmirlər. M.Zoşşenkonun yas mərasimi təsvir olunan "Stəkan" hekayəsində bu xüsusiyyət çox qabarıq şəkildə öz əksini tapmişdır.

Arvad ərinin vəfatının qırxıncı gününü qeyd etmək üçün onun bir dəstə iş yoldaşını evinə dəvət etmişdir. Stolun üstündə samovar var, hər qonaq özü üçün nə qədər istəyirsə, çay süzüb içə bilər. Evin xanımı bunu qonaqlara əvvəldən demişdi və bildirmişdi ki, məclisdə elə bir ləziz xörək verməyərək, belə şeylərə imkan yoxdur, ancaq nə qədər istəsəniz çay içə bilərsiniz.

Məclis iştirakçılarından biri özü üçün çay süzərkən stəkan qəflətən samovarın kranına toxunub çatılayır. Əlbəttə, bir bahalı stəkan da sınsa idi, azərbaycanlı ev yiyəsi bu hadisəni böyüdüb söz eləməz, "canımız sağ olsun, qabın sınması xeyirliyədir" deyərdi. Hekayədəki ev yiyəsi bunu görüb deyir: " — Nə oldu, atam, yoxsa stəkanı sındırdınız"? Qonaq cavabında: "Boş şeydir, Marya Andreyevna, stəkan sınmadı, çatladı" — deyir. Qadının acığı tutur: "Hər şeyə boş şey kimi baxsaq, bilirsiniz nə olar? Biri stəkan sındırar, o biri samovarın kranını çıxarıb aparar, üçüncüsü salfetkanı cibinə qoyub gedər. Belə də iş olar?" Vəfat edənin qardaşı söhbətə qarışır: "Heç ayıb deyil sizin üçün? Dul qadın xərc çəkib məclis düzəldib, sizi dəvət edib. Siz isə dul qadının qab-qacağını sındırırsınız".

Qonaq bundan inciyərək deyir: "Çayınızdan da ki, olmaz. Saman dadı verir". Beləliklə, dava düşür, ev yiyəsi ilə qaynı qonağı məhkəməyə verərək, stəkanın pulunu ödəməyi ondan tələb edirlər. O adam da məcbur olub pulu ödəyir. Əslində bu cüzi bir məbləğdir, ancaq ev yiyəsinin bu məsələdə prinsipiallığı oxucuda gülüş doğurmaya bilmir.

M.Zoşşenkonun digər hekayəsində, "Lampa" hekayəsində də bu münasibəti görürük. Zefirovlar ailəsi gənc ailədir. Onlar evlərində şənlik məclisi təşkil edir, bir qrup dost-tanışı qonaq çağırmışlar. Məclisin şirin yerində evin xanımı pörtmüş, qızarmış halda, əsəbiliklə ucadan deyir: "Deyin görüm, ayaqyolundakı lampanı kim çıxarıb, kim oğurlayıb? Belə də biabırçılıq olar? Heç kimə etibar yoxdur. Adam gərək qonaqların ayaqyoluna da buraxmasın". Sözsüz ki, qonaqlar günahsız olduqlarını sübut etməyə çalışırlar. Zefirovlar, hətta onların ciblərini də bicə-bircə yoxlayırlar. Lampa heç kimdən tapılmır. Evin xanımı qonaqlardan üzr istəyir, sonra qonaqlar yavaş-yavaş dağılışmağa başlayır. Ertəsi gün məlum olur ki, evin xanımının atası qonaqların lampanı çıxarıb aparacağından qorxaraq, lampanı özü çıxarıb cibinə qoyubmuş. Müəyyən qədər içki içəndən sonra o, pəncərədə oturaraq yuxuya getmişdir. Məclisdəki söz-söhbətdən onun xəbəri olmur, çünki o, artıq pəncərədə yatmışdı. Ən gülməlisi odur ki, qızının ev əşyası olan lampanı qorumağa çalışan atanın səyi əbəs olur, çünki o, pəncərədə böyrü istə yuxulayanda lampa onun cibində sınır.

Belə bir hadisəni hər hansı bir azərbaycanlı müəllif qələmə almış olsaydı, oxucuya bur qeyir-təbii və qeyri-real görünərdi. Çünki bu cür hərəkətlər bizim mühit üçün həmişə yad olub.

Məlumdur ki, zəhmətkeş xalqın milli xarakterində qabaqcıl, demokratik keyfiyyətlərlə yanaşı, köhnə, mürtəcə əlamətlərin də izi qalır. Hər hansı milli xarakterin əsas xüsusiyyətləri realist qələmlə əks etdirilərsə, deməli, onun canlı insana məxsus cizgiləri — həm müsbət, aparıcı keyfiyətləri, həm də bəzi zəif və nöqsanlı cəhətləri əhatə edilmiş olur. S.Rəhimovun "Sevəsi olmadı" hekayəsini də xüsusi qeyd etmək lazımdır.

S.Rəhimovun məqsədi Yasəməni ifşa etmək deyildir, müəllif qəhrəmanının halına acıyır, onun avamlığına görə heyfsilənir.

"Ömür karvanını sürüb başa vurmuş bir qarı ölərkən qızları, nəvələri, bütün qohum-əqrəba böyük bir vay-şivən səsi ərşə ucaltdı. Get-gedə qarının böyük qızı qızışdı, üz-gözünə əl atdı. Dörd uşağın anası, yekə arvad özündə sağ-islahat qoymadı.

Yasəmən də qızışıb özündən çıxıb, Baloğlanla əhd-peymanı da unutdu. Ala gözləri birdən genişlənən "Kukla qız" əlini xurmayı saçlarına atıb yolum-yolum edib nənəsinin qara örtüyünün üstünə çəngə-çəngə tük atdı, əkəc arvad kimi bibisayağı üz-gözünü cırdı. İş-işdən keçəndən sonra Baloğlanla əhd-peymanı yadına düşdü. Ancaq gec idi, özü də çox gec!.."

Qarı nənəsini itirən "Kukla qız" üz-gözünü cırıb eybəcər hala salaraq özünün dünya gözəlliyini də itirir. Yasəmən, vaxtı çoxdan ötüb keçən mənhus adətə öz füsunkar gözəlliyini itirdiyi üçün fikir edir, ağlayır. O, xəstələnib arıqlayır. Baloğlan kursdan qayıdanda Yasəmən onun gözünə görünməyə cəsarət etmir. Beləliklə, Yasəmən özünü gələcək ailə səadətindən də mərhum etmiş olur.

S.Rəhimov öz hekayələrində bir çox məsələlərə toxunduğu kimi, "Sonbeşik Saleh" hekayəsində də daha bir adətə —ehsan vermək məsələsinə toxunmuşdur. Əlbəttə, müəllifin fikri, heç də bu gün qüvvədə olan el adətinə qarşı çıxmaq deyil. Ancaq müəllif göstərir ki, adam heç bir şeydə gərək ifrata varmasın, həddini aşmasın.

Yaşı doxsana çatmış Ələmqulu baba dünyasını dəyişir. O, hələ sağlığında sonbeşik oğlu Salehə deyir ki, mən sənin tərsliyindən bütün yas xərcini öz üzərinə götürüb, evimizi dağıdacağından qorxuram.

Saleh isə inadından əl çəkməyərək, hələ atasının sağlığında öz qərarını bildirir ki, bütün ehsan xərcini tək çəkəcəkdir.

Yas mərasimində Saleh bacı-qardaşlarını, qohum-əqrəbanı xərs çəkməyə qoymur, ehsanı tək verir. Bu işdə ifrata varan Saleh həyat yoldaşının sözünü də eçitmək istəmir, tərsliyindən əl çəkmir. Ətrafındakılar isə bundan istifadə edirlər. Salehin maddi vəziyyəti çox pisləşir.

Müəllif bu vəziyyəti real boyalalrla, məharətlə təsvir edir: "Bu müddət ərzində Salehin saqqalı da ağardı. Baxan dedi, yəqin fikir çəkir. Kimisi dedi, sonbeşiyin ürəyi yumşaq olur. Bəzisi də dedi: bu adam atasının ölümünə dözə bilmir. Salehin dərdi-dərdinə qarşıdı...

Sanki, o vaxtlar Ələmqulu baba bu günü görür qaşqabağını sallayıb əvvəlcədən sonbeşik balasının halına ağlayırdı..."

Şübhəsiz ki, ən gözəl, qorunması vacib olan adətlərimizi də ifrata varıb bu cür eybəcər şəklə salanda nəticəsi pis olur.

Milli xarakterin inkişafında rol oynayan amil bir tərəfdən xalqın siyasi-mənəvi-psixoloji tarixinin, təkamülünün aynası olan zəngin irsi-adətidirsə, digər tərəfdən insanı əhatə edən müasir mühitdir, coğrafi şəraitdir, görüb, vərdiş edib sevdiyi təbiətdir. Orada böyümüş hər bir sənətkar vətəninin doğma guşələrini uşaqlıqdan başlayaraq öz xislətinə hopdurub qəlbində yaşadır.

Ədəbiyyat

1. S.Rəhimov. Seçilmiş əsərləri. 10 cilddə. VIII cild. B., "Yazıçı", 1980—316 s.
2. Q.Qasımzadə. Ədəbiyyatda millilik və beynəlmiləllik. B., Elm, 1982—274 s.
3. A.Hüseynov. Müxtəlifliyin birliyi. B., "Yazıçı", 1983—216 s.
4. М.Зощщенко. Рассказы. М., «Художественная литература», 1987.
5. Г. Ломидзе. Интернациональный пафос советской литературы. М., «Советский писатель», 1967—372 стр.
6. В.Шукщин. Рассказы. Б., «Язычы», 1987.

A.Rustamzadeh

The national color in the stories by Suleyman Rahimov

Summary

The article analyzes the problem of national character and national color on the basis of the stories of one of the leading figures of Azerbaijani literature S.Rahimov. The bright expression of national color in the writer"s stories is emphasized.The observation of the tradition of the respentation of the national character in the Azerbaijan prose,as well as the analysis of concrete creativity primarily on the example of S.Rahimov"s stories,reveals quite a significant manifestation of national and individual psycology,which has a consequenseof the color and scale of images.The author applies in the study of the comparative- typological method.The heroes of the stories are compared with the heroes of M.Zoshshenko,V.Shukshin and others.The

work of S.Rahimov contains rich material for observations of ration of the moral positions of the characters and rules of national psychology. The article emphasizes that the national character is not interpreted as the embodiment of only positive content. Emphasizes on individuality in creating character in a series of cases has consequense of ambiguous, multi-faceted interpretation and perseption of some "conservative heroes". The article refers to the significant contribution of S.Rahimov to the embodiment of the Azerbaijani national character as one of the attributes of the artistic and original character of his work. The actuality of S.Rahimov's stories in our days is emphasized.

А. Рустамзаде

Национальный колорит в рассказах С.Рагимова

Резюме

В статье анализируется проблема национального характера на основе рассказов одного из корифеев азербайджанской литературы С.Рагимова. Подчеркивается яркое выражение национального колорита в рассказах писателя. Прослеживание традиции воплощения национального характера в азербайджанской прозе, также анализ конкретного творчества прежде всего на примере рассказов С.Рагимова обнаруживает довольно существенное проявление национальной и индивидуальной психологии, имеющей следствием колоритность и масштабность образов. Автор применяет в своем исследовании сравнительно типологический метод. Герои рассказов сравниваются с героями рассказов М.Зощщенко, В.Шукшина и других. Творчество С.Рагимова содержит богатый материал для наблюдений о соотношении нравственной позиции характеров и норм национальной психологии. В статье подчеркивается, что национальный характер не интерпретируется как воплощение только позитивного содержания. Акцент на индивидуальность в создании характера в ряде случаев имеет следствием многозначную, многоплановую интерпретацию и восприятие восприятие некоторых « консервативных» героев. В статье говорится о значительном вкладе С.Рагимова в воплощение азербайджанского национального характера как одного из атрибутов художественности и самобытности его творчества. Подчеркивается актуальность рассказов С.Рагимова и в наши дни.

Rəyçi: Günay Qarayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

HÖKÜMƏ ALLAHVERDİYEVA
hökuma@mail.ru

M. BİRİYANIN UŞAQLIQ VƏ GƏNCLİK İLLƏRİ ƏMƏK FƏALİYYƏTİNİN ŞERLƏRDƏ, QƏLBLƏRDƏ İNİKASI

Açar sözlər: lirik və satirik şeirlər, məşəqqətli həyat, milli savaş, istiqlal, poema, dogma yurd, həsrət, insan haqları, ədalət, vətənpərvərlik, ictimai şüur, mübarizlik, azadlıq.
Ключевые слова: лирические и сатирические стихи, тяжёлая жизнь, национальная борьба, независимость, поэма, родная земля, стремление, права человека, справедливость, патриотизм, общественное сознание, борьба, свобода.
Key words: lyric and satirical poems, hard life, national warfare, independence, poem, native land, yearning, human rights, justice, patriotism, social thinking, struggle, sovereignty.

İnsan istedadının əhəmiyyəti o zaman üzə çıxır, fəlsəfi və irfani baxımdan çox zərif məntiqə uyğun mənalar insan üçün o zaman dərk edilən və real olur ki, təxəyyül qabiliyyəti qabaqcadan onu zirvələrdə uçmağa hazırlaşdırır və onun ruhunda bu mənaların siqlətinə dözmək üçün zəmin yaradır. Digər tərəfdən insanın xəyal qabiliyyəti yaradıcıdır, bu mənada ki, o özünün nəzərdə tutduğu məqsədlərə çatmaq üçün lazım olan xüsusiyyətləri və arzuladığı varlıqları yaratmaq qüdrətinə malikdir. Bunun özü mütləq xaliqin bir zirvəsidir ki, hər bir yaratdığı varlığın vücuduna özünün yaradıcılıq qüdrətinin nurunu bəxş etmişdir. İnsanın təxəyyülü ya xəyalı onun təsəvvür edə biləcəyi hər şeyi öz zehni və düşüncisində yaratmağa və ona real varlıq libası geyindirməyə qadirdir. Məsələn, şair Məhəmməd Biriya da uca zirvələrdə dayanan nadir şairlik qüdrəti ilə oxucuların ürəyinə yol tapmış və şairin məhz böyüklüyü də ondadır ki, o, keçmişdə baş vermiş faciəli hadisələri bu gündə müasir sənətsevər oxucularına şair yaratdığı obrazların sərgüzəşti və taleyində öz müasirlərinə və gələcək nəsillərə ibrət dərsi vermək üçün istifadə etmişdir. Tarixin, zamanın və mühitin yetişdirdiyi bütün böyük sənətkarlar kimi haqq-ədalət carçısı Biriyanı da düşündürən qlobal məsələlərdən biri insanların həyatı, xoşbəxtliyi və səadətidir. Biriyanı düşündürən əsas məsələlərdən biri də yaşadığı feodal cəmiyyətində hökm sürən sosial bərabərsizlik və ondan doğan sosial ədalətsizlikdir. Şairin fikrincə ictimai ədalətsizliyi yox etmək üçün ədalətli yollar axtarır, ideal hökmdarların varlığını düşünməkdir. Biriya nemətləri insanların əlindən alan təcavüzkar hökmdarları nifrət və lənətlə damğalayır və onların acınacaqlı

aqibətlərini satirik boyalarla ifşa edir. (Bax, Ə.Firdovsi: "Şahnamə". 2 cilddə, I cild Mübariz Əlizadə, Bakı, "Nurlar" Nəşriyyat Poliqrafiya mərkəzi, 2005, səh.9.) Azərbaycan poeziyasında, xüsusilə Məhəmməd Biriyanın yaradıcılığında baş vermiş yeniləşmə prosesləri, irəliyə atılmış addımlar, şairlərin formalaşmasında, bütövlükdə realist ədəbi hərəkatın dönməz şəkil almasına gətirib çıxartmışdır. (Bax: AMEA-nın vitseprezidenti, Nizami adına Ədəbiyyat İnstitunun direktoru – İsa Həbibbəyli, "Klassik Azərbaycan poeziyasında yeniləşmə prosesləri və Saib Təbrizi, Bakı, "Elm", 2017, Xəbərlər, səh.3-7) Professor Teymur Əhmədovun Nəriman Nərimanovun publisistikası barədə dediyi fikri Pişəvərinin və M.Biriyanın publisistikasına şamil etmək olar. İran milli azadlıq hərəkatının sadəcə icmalı deyil bu hadisələrin xarakteri, mahiyyəti və istiqaməti obyektiv şəkildə izah edilmişdir. İran inqilabi hadisələrini diqqətlə izləyən görkəmli ictimai xadimin alovlu sözləri xalqı ölüm-dirim mübarizəsində qətiyyətli, cəsarətli, sərvaxt, ayıq-sayıq və həmrəy olmağa ruhlandırırdı.Məhəmməd Hacı Qulam oğlu Biriya 1914-cü ildə Cənubi Azərbaycanın Təbriz şəhərində dülgər ailəsində anadan olmuş, gənc yaşlarından şeir yazmağa başlamışdır. Təbriz şəhərində orduda xidmətdə olarkən bir sıra ədalətsizliyin şahidi olmuş və şeirləndə bu ədalətsizliyi kəskin tənqid atəşinə tutmuşdur. Hələ 1941-1945-ci illərdə Cənubi Azərbaycanda nəşr olunan "Azərbaycan", "Vətən yolunda", "Ədəbiyyat səhifəsi", "Yumruq", "Xavəre nou" və digər qəzetlərdə satirik, lirik şeirləri və kiçik pyesləri, felyetonları və poemaları ilə çıxış etmiş böyük şöhrət qazanmışdır. Eyni zamanda şair 1941-ci ildən Cənubi Azərbaycanda yaranan azadlıq klubları, Azərbacan cəmiyyəti və Fəhlə Həmkarlar İttifaqında milli azadlıq uğrunda mübarizə etmişdir.Biriya 1945-ci ilin sentyabrında Cənubi Azərbaycanda Azərbaycan Demokratik Firqəsinin yaranmasına (3.09.1945), xalq hakimiyyəti və Azərbaycanın muxtariyyəti uğrunda siyasi və silahlı mübarizəyə (09.12.1945) rəhbərlik edən inqilabçılardan biri olur. O, firqənin Mərkəzi Komitəsinin üzvü olaraq inqilabi təşkilatçılıq fəaliyyəti göstərirdi. Biriya 1945-ci ilin noyabrında Azərbaycan Xalq Konqresində və dekabrın 1-də Azərbaycan Milli Məclisində (Cənubi Azərbaycanın Ali qanunverici orqanına) seçilmişdir. 1945-ci il dekabrın 12-də (1324-cü il Azər ayının 21-də) Təbriz şəhərində Azərbaycan Milli Məclisi açıldı. Bu məclis həmin gün Azərbaycan Demokrat Firqəsinin rəhbəri Seyid Cəfər Pişəvəri baş nazir (nazirlər şurasının sədri) olmaqla Azərbaycan milli hökumətini (10 nazirlikdən ibarət) təşkil etdi. Məhəmməd Biriya bu inqilabi xalq hökümətində Azərbaycan naziri oldu.1946-cı il Cənubi Azərbaycan tarixində "Milli hökumət dövrü", "Pişəvəri hökuməti zamanı" adı ilə məşhur olmuşdur. Bu dövrdə Məhəmməd Biriya Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin Büro üzvü, Milli Məclis deputatı, Azərbaycan Maarif

naziri, Azərbaycan Həmkarlar İttifaqının sədri, Azərbaycan Şair və Yazıçılar Cəmiyyətinin idarə heyətinin üzvü olaraq siyasi, ictimai və ədəbi fəaliyyəti göstərir. (Ədəbiyyat və incəsənət qəzeti №48, 25.11.1988-ci il).

Bu ildə Azərbaycanda mədəni inqilab baş verdi. Biriya bu mədəni inqilabda yaxından iştirak edirdi. Milli hökumət yaranandan bir həftə sonra (19.12.1945) maarif naziri xüsusi və hökumət məktəblərində təlim-tərbiyə işlərini Azərbaycan dilində qurmaq üçün hazırlıq aparılmasına göstəriş verdi və əməli işə başladı. Qısa müddətdə ibtidai məkətblər üçün Azərbaycan dilində dərsliklər hazırlanıb çap edildi.Cənubi Azərbaycanda ilk dəfə "Dil haqqında" Azərbaycan Milli hökumətinin qərarı çıxdı (06.01.1946). Həmin qərarda deyilirdi: "Bu gündən etibarən Azərbaycanda Azərbaycan dili rəsmi dövlət dili hesab olunur". İlk dəfə Milli Hökümət vaxtı İncəsənət və Rəssamlıq Məktəbi (19.01.1946), Dövlət Teatrı (28.03.1946), Dövlət Universiteti (12.06.1946) və digər milli-mədəni ocaqlar açıldı və işə başladılar, Azərbaycan Rəssamlar və Heykəltəraşlar cəmiyyəti yarandı. 1945-1946-cı illər Cənubi Azərbaycanda çiçəklənmə dövrü olmuşdur. 1946-cı il sentyabrın 23-dən bütün məktəblərdə dərslər azərbaycan dilində davam etdi. Məhəmməd Biriya Milli hökumətin Maarif Naziri kimi iqtisadi, ictimai və mədəni-maarif sahəsindəki islahat hərəkatının fəal iştirakçısı idi.

Azərbaycan Demokrat Firqəsi və Əyalət Əncuməni Biriyanın ictimai-inqilabi xidmətlərini yüksək qiymətləndirərək onu 10 nəfər yoldaşları ilə birlikdə Səttərxan ordeni ilə təltif etdi.İranın şah dövlətinin silahlı qüvvələri imperialistlərin köməyi ilə Azərbaycanda xalq hakimiyyətinin dağıtdığı günlər. 1946-cı il dekabrın 10-da Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin bürosu Məhəmməd Biriyanı S.C.Pişəvərinin qiyabında Mərkəzi Komitə sədri seçdi. Bütün bu hadisələr baş verdiyi günlər, Azərbaycan demokratlarına Stalin, V.M.Molotov, M.C.Bağırov vasitəsi ilə zorla qəbul etdirdiyi siyasətə uyğun olaraq Məhəmməd Biriya Azərbaycan Demokrat Firqəsi MK-si adından öz imzası ilə bir bəyannamə verdi (10.12.1946). Bu bəyannamədə deyilirdi: Şah qoşunları Azərbaycana gəlir və guya İran məclisinə seçkilərin düzgünlüyünə nəzarət etmək üçün gəlir. Seçkilər tezliklə keçirilməli və İran məclisi tezliklə təşkil tapmalıdır.Bu təcili seçki və məclis kimə lazım idi? Qeyd edək ki, 1946-cı il aprelin 4-də SSRİ ilə İran dövlətləri arasında Tehran şəhərində imzalanmış sazişə əsasən İran-Sovet birgə neft kampaniyası yaranması haqqında müqavilə bağlanmışdı. Bu müqavilə 7 ay müddətinə qədər (24.10.1946-cı ilə qədər) İranın yeni seçiləcək XV məclisinin təsvibindən keçməli idi (demək gecikirdi). İran hökuməti XV məclis seçkilərinə nəzarət etmək bəhanəsi ilə xalq hakimiyyəti hökmran olan Cənubi Azərbaycana böyük silahlı qüvvə göndərdi. Şah qoşunlarının, Azərbaycan üzərinə təcavüzünə nə İranın daxilindən nə də xaricdən etiraz edən oldu. Azərbaycana kömək edən də olmadı. O ağır

günlərdə "qüdrətli dairələr" Azərbaycan demokratlarına "məsləhət edirdilər": "Seçkilərə mane olmayın! Şahənşahın silahlı qüvvələrinə müqavimət etməyin!" Bu siyasət İran dövlətinin Azərbaycan üzərinə təcavüzünə geniş yol açdı. Eyni zamanda düşmən qarşısında Azərbaycan Demokratlarının əl-qolunu tamamilə bağladı. Beləliklə, Cənubi Azərbaycan xalqının milli azadlığı və inqilabi hakimiyyəti Stalinin haqsız neft siyasətinə və iddialarına qurban edildi.Hələ 40-cı illərin əvvəllərində çox məhsuldar yaradıcılıq fəaliyyəti göstərən Məhəmməd Biriyanın yaratdığı qələm məhsullarını – qəzəl, satira, poema, felyetonlarını və ictimai-siyasi, ədəbi məqalələrini xüsusi qeyd etməyə dəyər. "Vətən yolunda", "Azərbaycan", "Xavərenou", "Yumruq", "Qızıl şərq" və sair qəzetlərin əksər nömrələrində bu satirik nəfəsli şairin qələm məhsullarına rast gəlmək olur.

Qəm çəkmə, Əmoğlu, hələ bu millət ayılmaz!,
Ac lüt qala daim çəkə min zillə, ayılmaz.

Müəllif sanki oxucusuna müraciət edərək eybəcərliyə, haqsızlığa qarşı çıxaraq qurtuliş üçün yeganə doğru yolu zalımın cəlladın əlindəki qamçının alıb, onun özünü qrımaclamaqdan ibarətdir. Müəllif sanki oxucularına müraciətində eyni zamanda səmimi, qayğıkeş olmaq qədər dovtələb, tələbkardır. (Bax: "Azərbaycan" qəzeti, 1320-1941, № 21, Sabir Əmirov, Bakı 2000, Cənubi Azərbaycan Demokratik Ədəbiyyatı.)

Təbrizdə Məhəmməd Biriya, M.Etimad, Əli Fitrət, Çavuşi, Ərdəbildə Zakirpur, Əzim kimi tanınmış şairlər bugün Mirzə Ələkbər Sabirin yolunu davam etdirən sənətkarlardandır. Ağayi Mehdi Çavuşi Sabiri böyük ustad hesab edərkən yazır:

Ey sevgili Sabir, demə zahirdə deyilsən
Hər əsrdə, hər qərinədə varsan, onu bilsən
Səndən alıb ilham yazıram mədhüvi ustad,
Şagirdinə lütfin çox olubdur, evin abad.

Cənubi Azərbaycanın müasir şairlərindən Ağayi Biriyanın yaradıcılığında Sabirin təsirinə daha geniş surətdə rast gəlmək olur. Sabirin şeirlərindən ilham alan və bununla bərabər orijinal şeirlər yazan bu cavan şairin yaradıcılığı diqqətə layiqdir.

Get hələ, get a kargər, boş yerə çırmalanma çox,
Öz-özünə beşik kimi ortada yörğalanma çox,
Milləti məmləkət bizim, mərkəzi parləman bizim,
İşləri təhrə salmışıq, sən bizə lovğalanma çox.
Çıx aradan əkil, bala, mərəkədən çəkil, bala,
Qoy hələ paydar olaq.

Bu parçada Sabirin istehzası və kəskinliyi, Biriyanın satirik şeirlərinin üstünlüyü və sadəliyi satirik şəkildə tərənnüm edilir. (Bax: 1944-cü il,

"Vətən yolunda" qəzeti, C.X.Hacıyev, "Sabir və İranda inqilabi demokratik hərəkat" məqaləsi.)

M.Biriyanın bədii yardıcılığa gəldiyi illərdə Azərbaycanda poeziya sahəsində 2 aparıcı üslub vardır: M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Qəmkusar, C.Cabbarlı və başqalarının yaradıb davam etdirdikləri satira, H.Cavid, A.Şaiq, M.Hadi kimi sənətkarların yaratdıqları romantik poeziya. Zamanın tələbləri ilə satira dah çox geniş yayılmışdır. Satira zamanın güzgüsü idi. Çünki Sabir tərəfindən əsrin aparıcı üslubuna çevrilən "satira şəxsi nifrəti ifadə etmək səviyyəsində qalmayıb, siyasi-ictimai və inqilabi bir mahiyyət daşıyırdı." Ona görə də Sabirdən sonra satirik üsluba üz tutanlar fitnəkarlığı, yoxsulluğu, ictimai eyibləri ifşa etmək üçün onun satiralarından istifadə edirdilər. (Bax: C.X.Hacıyev, 1955, səh.133, XX əsr Azərbaycan Ədəbiyyatı tarixi, Bakı, ADU nəşriyyatı) Güney Azərbaycan ədəbiyytaının bir sıra şairləri, öndə M.C. Pişəvəri və M.Biriyanın adını xüsusi daxil etməklə Ə.Fitrət, M.Çavuşi, İ.Zakir kimi satirik şairlər də Sabir sənətindən ruhlanaraq çox şey öyrənmişlər. M.Ə.Sabir Bakı fəhlələrinin ağır vəziyyətini, kəndlilərin məşəqqətli həyatını görüb həmin acıları qələmə aldıqları satirik seirlərində yaşayırdı.Ümumiyyətlə Azərbaycan ədəbiyytatına güclü təsir etmiş, böyük şairin irsini, üslub, mövzu, forma-estetik qayə xüsusiyyətləri M.C.Pişəvəriyə və zidd faşist satirik şair M. Biriyaya da təsir etmişdir. Hər iki qələm sahibi öz şeirlərində Azərbaycan zəhmətkeşlərinin ağır həyatını, kapitalistlər tərəfindən istismarını, ehtiyac və yoxsulluq keçirmələrini, biçarə kəndlinin aclıqdan, möhtaclıqdan fəryadını mübariz inqilabi ruhla, cəsarətlə qələmə alaraq yazır:

Niyə biçarə kəndlilər möhtac?
Niyə ac, ey Xuda, neçün yalavac?
Kəndli, ey zəhmətindən aləm şad,
Öz aclığından eyləyən fəryad.
Yatma, dur. Dur da eyləyib hümmət,
Səy edib qoyma fövt ola fürsət.

(Bax: "Hürriyyət" qəzeti №19, 22 iyul 1919. Vüqar Əhməd, M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı, monoqrafiya, Bakı-Göytürk, 1998)

Azərbaycan mətbuatının özünə məxsus satirik və yumoristik bədii-fəlsəfi, ictimai-siyasi və ədəbi-publisistik sistemi yaranıb formalaşmışdır. Belə ki, xalqın həyatı, tarixi, mədəniyyəti və dili, sosial-iqtisadi, ictimai-mənəvi vəziyyəti ilə bağlı məsələlər milli azadlıq, milli özünü tanıma kimi problemlər Azərbaycan jurnalistikasının 122 illik salnaməsində xüsusi yer tutmuşdur və bugün də aktual olaraq səslənir. Azərbaycan publisistikasının poetika və estetikasının, üslub, dil və janr, forma xüsusiyyətlərinin yaranıb formalaşması və inkişafında H.Zərdabi, Ünsizadə qardaşları, G.Məmmədqulu-

zadə, Hacıbəyov qardaşları, Ə.Hüseyinzadə, Ə.Cəfəroğlu, Əkbər Ağayev kimi nümayəndələri ilə bir sırada Mircəfər Pişəvərinin və Məhəmməd Biriyanın xidmətləri vardır. Hər iki dahi şəxs təkcə ictimai xadim kimi deyil həm də bir ədib-nasir, tənqidçi və publisist kimi ədəbiyyat, mədəniyyət və mətbuat tariximizdə layiqli yer tutur. (Bax: T.Əhmədov, N.Nərimanovun yaradıcılıq yolu, Bakı, 1991, səh.259).XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb yaratmış öz yaradıcı istedadı ilə Şimali və Cənubi Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən və ədəbiyyat aləmində satira ustası kimi tanınan Məhəmməd Biriya zəngin ədəbi irsi, lirikası, satiraları, dram əsərləri və poemaları ilə böyük uğur qazana bilmişdir. Məhəmməd Biriya Vətəninə, millətinə hər zaman xoş günlər arzulayan lirik şairdir. Vətənpərvər və millətsevər şair olan Məhəmməd Biriya Azərbaycana hürriyyət, istiqlal tələb edərək yazırdı:

Bəslənir qəlbimdə sonsuz hörmət Azərbaycana
İstərəm dünyada mən hürriyyət Azərbaycana.

Biriya Vətən aşiqidir. Onun məşuqu, gözəli, sevdiyi, heyran olduğu Vətən – Azərbaycandır. Bu aşiq lirik qəhrəman, yəni şairin özü nə başqa aşiqlərə bənzəmir, nə də bu eşqdə rəqiblər olmadığı kimi rəqabətlərə də yer yoxdur. Biriya "Yari vəfadarı" olan diyarı sevənlərin də aşiqidir. Biriya təkcə vətəni Azərbaycanın deyil, onu sevənlərin, tərənnüm edənlərin də fədaisidir.

Bugünki və gələcək nəsillər qarşısında xalq mənafeini qorumağı bir vəzifə kimi qoyan şair yazır:

Mən xəyanət etmədim mərhum olan əcdadıma,
İrs tək verdim bu yurdu qəhrəman övladıma,
Hifz edin bu ölkəni, baş əyməsin cəlladıma,
Onların avazı versin şöhrət Azərbaycana.

M. Biriyanın yaradıcılığında İkinci Dünya müharibəsi mövzusu və faşizm taunun tənqidi mühüm yer tutur. Ölkələri viran, ana-bacıları ağlar günə qoyan "günəşi oğurlamaq istəyən", bəşəriyyətə ölüm, qan və zülmət toxumu səpən Hitleri "cəllad" adlandıran Biriya bütün xalqları faşizmlə mübarizəyə və əməl birliyinə çağırırdı. Ölkədə "antifaşist şair" ləqəbilə məşhurlaşan "Cənubi Azərbaycanın Sabiri" adlandırılan Biriya əsərlərinin birində yazırdı:

Ölkələri viran edən kimdir? Məgər Hitler deyil?
Yer üzünü talan edən kimdir? Məgər Hitler deyil?
Rəhimsiz surətdə bica öldürən insanları,
Əl atıb namusa, irzə, məhv edən vicdanları,
Binəva məzlumlar ilə dolduran zindanları,
Gözləri giryan edən kimdir? Məgər Hitler deyil?
Ölkələr viran edən kimdir? Məgər Hitler deyil?

İranın və Cənubi Azərbaycanın ictimai-siyasi vəziyyəti barədə mülahizələrini oxucuları ilə bölüşən Biriya dünya hadisələrinə də biganə qalmırdı. Bəşəriyyətin bəlasını, faciəsini ictimai və milli ayrıseçkilikdə, zülm və əsarətdə görən şair bütün bəşəriyyəti bu yolda inqilabi mübarizəyə səsləyirdi.

Biriyanın yaradıcılığında heç bir dövri mətbuatda çap olunmamış "Xeyirxah" təxəllüsü ilə qələmə aldığı "Gülməyim gəlir" felyetonun xüsusi əhəmiyyəti var. Biriya bu satirik felyetonunda irticanın, maliklərin, mülkədarların, hökmdarların iç üzünü açaraq öz şəxsi mənafeyi üçün eyş-işrətlə məşğul olmalarını eyni zamanda xarici imperialist sərmayədarların iç üzünü tənqid atəşinə tutaraq yazırdı:

"Məni xəbər alsanız çox da gülməkdən xoşlanan adam deyiləm. Mən elə düşünürəm ki, insan bir qədər "ağır oturub batman gəlsə" daha yaxşı olar. Amma bəzən adam elə şeylərə təsadüf edir ki, özünü gülməkdən saxlaya bilmir. 72 arxa ölənlərimi yadıma salıram ki, bəlkə məni qəm basa, gülmək yadımnan çıxar, amma görürəm ki, xeyir olmur ki, olmur.

Səsini səslərə qatan əlahəzrət, Şahənşah İran, Əlsultan İbn Sultan, Xaqan ibn Xaqan, Zəlullah Təali və Təbaruk Məhəmməd Rizayi Pəhləvi Ərvahına fədanın da radioda nitqini eşidəndə adam gülməsin nə eləsin. Piyaz həm daxili mivə şod soğan da meyvə hesab olunarmış. Bir buna deyən gərək, ay balam, sən millətin dərdini çəkməkdənsə əvvəl öz dərdinə qal. İnsan öz heysiyyətini bilmədiyi halda xalqın heysiyyətini necə müdafiə edə bilər."

Məhəmməd Biriya "Xeyirxah" ləqəbi ilə qələmə aldığı "Gülməyim gəlir" felyetonunda Məhəmməd Rza Şahın dinc əhalinin qeydinə qalmamasını, eyşişrətlə məşqul olan maliklərin, mülkədarların iç üzünü açaraq tənqid atəşinə tutmuş, sırf qatı irticanın yoxsul təbəqənin acı göz yaşları içərisində boğulduğunu, millətlərin əsarət altında inlədiyindən bəhs etmişdir.

Bu məqalə heç bir yerdə çap olunmamışdır. Məndən xəbər alsanız, çox da gülməkdən xoşlanan adam deyiləm. Mən elə düşünürəm ki, insan bir qədər "ağır oturub batman gəlsə" daha yaxşı olar. Amma bəzən adam elə şeylərə təsadüf edir ki, özünü gülməkdən saxlaya bilmir. 72 arxa ölənlərimi yadıma salıram ki, bəlkə məni qəm basa, gülmək yadımnan çıxar, amma görürəm ki, xeyir olmur ki, olmur.

A kişi, adam Hüseyn Ağa Fişəngçinin "Təbriz" radiosunda vaizlik etdiyini görəndə necə gülməsin.

Doğrudur, Hüseyn Ağa Fişəngçiyə çox şey yaraşar, amma vaizlik (boşboğazlıq) yaraşmaz. Adam öldürmək desən bacarar, ev yıxmaq desən bacarar, siyasi fırıldaq çevirmək desən becaye xod. Amma vaizlik... Sizi bilmirəm, mən ki bunu eşidəndə özümü gülməkdən saxlaya bilmirəm.

Əzilmiş xalqlara kömək etmək lazımdır. Xırda millətlərin hüququnu müdafiə etmək gözəl işdir. Amma.. əsirlər boyu Hindistanı və İranı əsarət altında saxlayan.

Şərq millətlərinin başına bir bəlayi-nagəhan olan, Ərəbistanı, Afrikanı və yüzlərcə millətləri soyub bir tikə çörəyə möhtac edən ingilis "xırda millətlərin hüququnu müdafiə edirəm" deyəndə o qədər gülürəm ki, az qala bağrım çatlasın.

İngilis hara, xırda millətlərin hüququnu müdafiə hara?!.. Doğrudan da çox gülməlidir.

Amerika "yazıq millətlərə" kömək ünvanı ilə səxavət kisəsinin ağzını açıb "əlsəbil ya ətşan!" deyir. Vallah gülməlidir.

Axı bizdə bir məsəl var. Deyərlər ki: "pişik öz dədəsi xeyrinə siçan tutmaz" bəs bu Amerikaya nə olub ki, belə hatəmtaye olub.

Zalım oğlu İranı doldurub köhnə paltar ilə, yüz minlərcə əsnaf, tacir və sənətkar əlləri qalıb qoyunlarında, vardan yoxdan çıxıb dilənçi kökünə düşüblər.

Nə var, nə var?... Amerika İrana kömək edir. Axı gülməyəsən, nə edəsən?!

Sən nə qədər ciddi, qaş-qabaqlı, ağır və təmkinli olursan ol, Ankara radiosunun "Qubels" nağıllarını eşidəndə qah-qah... çəkib güləcəksən. Çünki bu nağılların lap məzmununu bir vaxt Qubels danışardı... Torpağı sanı yaşayasız, axırda vəsiyyət də eləmədi ki, görək ondan sonra naqqallığı kim edəcəkdir. İndi Ankaraya qulaq asanda görürük ki, onun vəsi qəyumları Türkiyədə imişlər "ulayan it yuvaya qurd gətirər" deyərlər. Ankara siyasətçiləri də ulaya-ulaya axırda bir nəticə alacaqlar. Amma nə olsun, özü yıxılan ağlamaz...

Hə... axı söhbətimiz gülmək barəsində idi.. Son vaxtlar da radioda nitq irad etmək mod olub, hər yerindən duran bir bəyaniyə elan edir. Amma..

Səsini səslərə qatan əlahəzrət, Şahənşah İran, Əlsultan İbn Sultan, Xaqan ibn Xaqan, Zəlullah Təali və Təbaruk Məhəmməd Rizayi Pəhləvi Ərvahına fədanın da radioda nitqini eşidəndə adam gülməsin nə eləsin. Piyaz həm daxili mivə şod soğan da meyvə hesab olunarmış. Bir buna deyən gərək, ay balam, sən millətin dərdini çəkməkdənsə əvvəl öz dərdinə qal. İnsan öz heysiyyətini bilmədiyi halda xalqın heysiyyətini necə müdafiə edə bilər. (Bax: "Azərbaycan" qəzeti, 1327-1944, №34, səh.3)

Xeyirxah

Qılınckəsərli qələmi ilə məşhur olan antifaşist şair Məhəmməd Biriya Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Güney Azərbaycan Milli hökümətinin qurulmasında, ölkədə aprılan misli görünməyən mütərəqqi islahatların aparılmasına dair lirik, satirik şeirləri, Vətənin azadlığına həsr olunmuş

poemaları Azərbaycan ədəbiyyatında nadir sənət nümunələri sayılır. Biriya həm ədəbiyyat sahəsində, həm ictimai sahədə çox önəmli bir şəxsiyyət, xalqlar arasında dostluq körpüləri qurmuş görkəmli bir fikir və sənət adamı olmuşdur və ədəbiyyat aləminin ən önəmli yazarlarındandır.

Ədəbiyyat

1. Ə.Firdovsi: "Şahnamə". 2 cilddə, I cild Mübariz Əlizadə, Bakı, "Nurlar" Nəşriyyat Poliqrafiya mərkəzi, 2005, səh.9.
2. İsa Həbibbəyli, "Klassik Azərbaycan poeziyasında yeniləşmə prosesləri və Saib Təbrizi", Bakı, "Elm", 2017, Xəbərlər, səh.3-7
3. Mirqasım Çeşmazər, "Məşəqqətli ömür", "Ədəbiyyat və incəsənət" qəzeti №48, 25.11.1988
4. C.X.Hacıyev, 1955, səh.133, XX əsr Azərbaycan Ədəbiyyatı tarixi, Bakı, ADU nəşriyyatı
5. Vüqar Əhməd, M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı, monoqrafiya, Bakı-Göytürk, 1998
6. T.Əhmədov, N.Nərimanovun yaradıcılıq yolu, Bakı, 1991, səh.259
7. İslam Qəribli, "Məhəmməd Biriyanın əsərləri", Bakı, 2010, səh. 20,21
8. Sabir Əmirov, Cənubi Azərbaycan Demokratik Ədəbiyyatı. "Azərbaycan" qəzeti,1320-1941, № 21, Bakı 2000
9. Məhəmməd Biriya, Dövrü mətbuat. "Azərbaycan" qəzeti, "Gülməyim gəlir" felyetonu 1327-1944, №34, səh.3,

Х.Аллахвердиева

Детство и юность Мухамеда Бирии
Иника его работ в стихах и в сердцах

Резюме

В этой научной статье рассказывается о лирике Мухаммеда Бирии, которая и сегодня, восполняясь классической Восточной поэзией и в то же время богатым фольклором Азербайджана дышит со временем. Противоречивые процессы своего времени, поэтические чувства и горькие мысли происходящих событий, идея национальной независимости и свободы нации, лишения, подавляющие существование народа составляют ведущую линию его поэзии. В этой статье говорится о том, что он является научным организатором, общественным деятелем, предоставляющим незаменимые услуги в периодической печати нашей Республики, а также в развитии идей

литературы, культуры и просвещения.В статье словно свобода не желается как идеал, а показаны способы её достичь. Противоречия среды, исторических условий и человеческих прав, растоптанных под ногами отражены в работах, созданных Мухаммедом Бирии и в его сатирических фельетонах. Здесь упоминается образовательная деятельность Мухаммеда Бирии, который был певцом и министром образования Национального правительства в Южном Азербайджане в 1945-1946 годах, в то же время упоминается о крахе этого правительства. Назвав себя поэтом, родившимся для борьбы поэт, созданными произведениями находит путь к сердцам. Действительно, впоследствии он стал одним из главных борцов за свободу слова и доказал это на деле. И по сегодняшний день вечноживущий поэт живёт в сердцах.

H Allahverdiyeva

Mohammad Biriyani's childhood and youth.
The reflection of his activity in poems and hearts.

Summary

The article tells us about Biryani's lyric, his classical East poetry based on Azerbaijani folklore. The poet conveys the contradictory events of his century via poems about thinking and bad impulses, national warfare, the idea of independence and freedom, the deprivation of the nation's existence. What is more, it is told about him as a science organizer, his indispensable merits in periodicals, literature, culture and education idea development as well.In the article, independence is not only presented as an ideal dream. There are also shown ways to achieve it. The suppression of the society of the poet's time, the contradictions of the historical conditions and human rights can be clearly followed in Biriyani's satires. The article also tells us about Biryani's, a national singer and the minister's of education in 1945-1946, activities in the sphere of education and the collapse of the government at the same time.

Readers like Biriyani for his poems where the poet says that he was born for struggling. Later, in fact, he became one of the greatest strugglers for independence who proved his ideas with actions. Biriyani lives in people's hearts nowadays.

Rəyçi: **Rəhim Əliyev**
Filologiya üzrə elmlər doktoru

AYTƏN QURBANOVA
Naxçıvan Dövlət Universiteti
ayten@mail.ru

AZƏRBAYCAN DRAMATURGİYASINDA HÜSEYN CAVİD OBRAZI (2000-ci illər)

Açar sözlər: Azərbaycan ədəbiyyatı, dramaturgiya, Hüseyn Cavid
Key words: Azerbaijan literature, drama, Hussein Javid
Ключевые слова: Азербайджанская литература, драматургия, Гусейн Джавид

Azərbaycan tarixi dramlarında ədəbi şəxsiyyətlərin bədii obrazlarının yaradılması özünəməxsus ənənələrə malikdir. Bu sahədə tədqiqat aparmış ədəbiyyatşünas Davud Hacıyevin vurğuladığı kimi: "Azərbaycan dramaturgiyası tarixində sənətkarlarımızın həyatından bəhs edən ilk dram əsərini Ə.Haqverdiyev hələ 1911-ci ildə yazmışdır" **(5, s.103).** Bu əsər böyük ədibimiz Mirzə Fətəli Axundzadəyə həsr olunmuşdu. Sonrakı onilliklər boyunca ədəbiyyatımızda bu sahədə çoxsaylı yeni əsərlər yaranmışdır. Azərbaycan dramaturgiyasında ədəbi şəxsiyyətlərin bədii obrazlarından danışarkən tədqiqatçı Həsənəli Eyvazlı yazır: "Dramaturgiyamızın tarixində ədəbi şəxsiyyətlərin obrazını yaratmaq, onların həyat və fəaliyyətlərini səhnəyə gətirmək ötəri səciyyə daşımamış, əksinə, XX əsr tarixi dramaturgiyamızın ən aktual mövzularından olmuşdur" **(2, s.11).** Ümumiyyətlə, Azərbaycan dramaturgiyasında N.Gəncəvi, M.Gəncəvi, X.Şirvani, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, M.F.Axundzadə, X.Natəvan, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Qəmküsar və digər ədəbi şəxsiyyətlər barədə çoxsaylı dramatik əsərlər qələmə alınmışdır. Bu baxımdan romantik ədib Hüseyn Cavid də istisna deyil.

Dramaturgiyamızda Hüseyn Cavidə həsr olunmuş ilk əsər tanınmış sənətkar Kəmalə Ağayevanın 1982-ci ildə qələmə aldığı "Mənim tanrım gözəllikdir, sevgidir" mənzum pyesidir. Şairə-dramaturq Nafilə Abuzərlinin 1996-cı ildə yazdığı "Eşq mələyi" mənzum dramı da bu baxımdan xarakterikdir. 2000-ci illər Azərbaycan dramaturgiyasında da Hüseyn Cavid haqqında bir sıra əsərlər yazılmışdır. Həsənəli Eyvazlının "Ərtoğrul Cavid, yaxud bir ailənin dramı" (2004-2008), İsgəndər Atillanın 3 hissəli "Cavid" dramı (2009), Nizami Muradoğlunun "Hüseyn Cavid" (2012) mənzum pyesi bu baxımdan diqqəti çəkir.

Mütəfəkkir ədibə həsr olunmuş yeni əsərlərdən biri şair-dramaturq, dosent Həsənəli Eyvazlının yazdığı "Ərtoğrol Cavid, yaxud bir ailənin dramı" adlı əsərdir. Qeyd edək ki, H. Eyvazlı həm də dramaturgiya təd-

qiqatçısıdır. O, tarixi dramlarda ədəbi şəxsiyyətlərin bədii obrazı mövzusu üzrə tədqiqat aparmış, dissertasiya müdafiə etmiş, iki kitab və bir sıra məqalələr nəşr etdirmişdir. H.Eyvazlının "Türkmənçayda qətl", "Araz sahilində doğan günəş" və s. tarixi dramları da vardır.

Şair-dramaturq H. Eyvazlının "Ərtoğrol Cavid, yaxud bir ailənin dramı" adlı iki pərdəli, doqquz şəkilli mənzum faciəsində Cavidlər ailəsinin faciəli taleyi və bu aspektdə Hüseyn Cavidin həyatdan vaxtsız köçmüş istedadlı oğlu Ərtoğrol Cavidin ömür yolunun təqdimi əsas yeri tutur. H.Eyvazlı Cavidlər ailəsinə həsr etdiyi pyesin əvvəlində "Müəllifdən" başlıqlı qeydlərində bu barədə yazır: "Ərtoğrol Cavid, yaxud bir ailənin dramı" mənzum faiciəsində sovet rejiminin repressiya qurbanlarından birinə çevrilən Hüseyn Cavidin və ailə üzvlərinin faciəli taleyindən, eyni zamanda, 24 il qısa və mənalı ömür sürmüş Ərtoğrol Cavidin şair, bəstəkar, rəsam kimi fəaliyyətindən bəhs olunur" **(4, s.4).** H.Eyvazlı bu pyesdə süjetin inkişafı boyunca mövzunun xarakterinə, dramaturji situasiyalara uyğun olaraq H.Cavidin əsərlərindən, o cümlədən "İblis" və "Səyavuş" dramlarından bəzi parçaları da əsərə daxil etmiş, onların ideya-bədii baxımdan əsərlə üzvi surətdə bağlanmasına da nail olmuşdur.

Pyesin ilk şəklində Cavid ailəsinin həyatından bir fraqment verilir. Hələ ki, ailə qayğısızdır, şən günlərini yaşayır. Lakin Moskvaya səfərdən yenicə dönmüş ədib Abdulla Şaiqin dostu Hüseyn Cavidi görmək üçün onlara gəlməsi və edilən söhbətlər artıq repressiyanın addım səslərinin eşidildiyini göstərir. 2-ci şəkildə Cavidin oğlu Ərtoğrolun tələbə yoldaşı Nigara olan saf hisslərindən söz açılır. 3-cü şəkildə isə Mişkinaz, Cavid və Üzeyir bəy Hacıbəylinin təlaşlı mükalimələri verilir. Aydın olur ki, yığıncaq keçirilmiş, orada Cavid, Müşfiq və digərləri əsassız tənqid edilmişlər. Özünə qarşı uydurma böhtanları təkzib edən Cavid Üzeyir bəyə deyir:

Axı neyləmişəm mən bu zəliyə,
Məni damğalayır, "pantürkist" deyə.
Mən türkəm, danımmı türk olduğumu,
Türkün mayasından yoğrulduğumu.
"Peyğəmbər"i yazdım, "islamçı" oldum,
"Topal Teymur" ilə "pantürkist" oldum.
"Şeyx Sənan"la nəyəm, "İblis"lə nəyəm?
İstədim, bunları duram söyləyəm. **(4, s.21)**

Bu səhnələrdə Cavidin "İblis" əsərindən bəzi fraqmentlərin, xüsusən İblisin monoloqundan parçaların dialoqlara qatılması otuz yeddinci ilin repressiya, şər, böhtan mühitinin xarakterini, insanın insana qənim kəsilməsini mənalandırmağa yönəlmişdir. Özünün də başı üqzərində qara

buludların sıxlaşdığını anlayan Cavid başına bir iş gələrsə, ailəsinə diqqət göstərməyi dostu Abdulla Şaiqdən xahiş edir.

Faciənin 4-cü şəkilində Ərtoğrolla Üzeyir bəyin söhbətindən bəlli olur ki, artıq Cavid də həbsə alınıb.Üzeyir bəy dostunun oğluna təsəlli verir. Növbəti epizodlarda məhbus Cavidin Dövlət Təhlükəsizlik Komitəsində sorğu-suala tutulduğunu, uydurma böhtanlara məruz qaldığını görürük. Onu pantürkistlikdə, gizli təşkilat qurmaqda. xarici dövlətlə əlaqədə, xalqın əleyhinə işləməkdə ittiham edirlər. İttihamçılar da Yemelyanov, Qriqoryan, Markaryan kimi namərdlər, xalqımıza qənim kəsilib: "Əlimdə olsaydı külli-ixtiyar, Qırardım türkləri dünyada nə var", -deyən alçaqlar. Cavid onların saxta ittihamları önündə əyilmir, qətiyyətlə çıxış edir:

Bu torpaq, bu mahal, bu el mənimdir,
Sizin tək gəlmələr bizə qənimdir.
(Əli ilə Markaryanla Qriqoryanı göstərir)
Külli-ixtiyarı veriblər sizə,
Böyük "dayınız" var, nə vecinizə.
Məni əyə bilməz nə böhtan, nə şər. **(4, s.33)**

Pyesin sonrakı şəkilləri artıq Cavidin iştirakı olmadan cərəyan edir. Dahi şairin həbsə alınaraq sürgünə göndərilməsindən sonra onun ailəsi bəlalara düçar olur. Ağır günlərdə Üzeyir bəylə müğənni Bülbül bu ailəyə yardım əli uzadırlar. Cavidin oğlunu işə düzəldirlər. Ərtoğrol müharibə illərində əsgərliyə çağırılır, lakin vərəm xəstəliyinə tutulur. Bir müddət Tiflisdə müalicə olunduqdan sonra Naxçıvana gətirilir və 1943-cü ildə dünyasını dəyişir. Bütün bunlar pyesdə müvafiq təqdimin tapmşdır.

Əsərin axırıncı şəkilində isə illər sonra, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Cavidin məzarının Sibirdən Naxçıvana gətirilməsi, son nəticədə ailənin bütün üzvlərinin - Hüseyn Cavidin, həyat yoldaşı Mişkinaz xanımın, oğlu Ərtoğrolun və qızı Turanın Naxçıvanda Cavidlər məqbərəsində uyuması, torpaqda qovuşması nəzərə çatdırılır ki, bu epizodlarda həmin şəxslərin xəyali iştirakını görürük. Mənzum faciənin sonunda məqbərə önündə dayanmış Cavidin dili ilə ədəbiyyatın, mədəniyyətin böyük hamisi olan ulu öndərə minnətdarlıq ifadə olunur:

O böyük insanın böyük ürəyi
Bizə məhəbbətlə qurdu sarayı.
Məni o gətirdi Sibirdən bura,
Əzablı, qırx illik qəbirdən bura.
Qovuşduq illərin həsrətliləri,
Seçdik əbədilik məkan bu yeri... **(4, s.69)**

H.Eyvazlının "Ərtoğrol Cavid, yaxud bir ailənin dramı" əsəri ilə bir məqama da diqqət yetirmək istərdik. Pyesin birinci şəklində A.Şaiq dostu Cavidlə söhbətində Stalinin törətdiyi qanlı qırğınlar barədə deyir:

Adını qoyubdu "repressiya",
Daha kimsələri saylmayır saya. **(4, s.13)**

Bizə elə gəlir ki, burada uyğunsuzluq var, çünki Stalin həyata keçirdiyi bu qanlı qırğınları repressiya adlandırmamışdı. Bu, sonralar işlədilən adlandırmadır.

Cavidşünas alim İsgəndər Atillanın 2009-cu ildə qələmə aldığı üç hissəli "Cavid" dramı nəsrlə yazılmışdır, lakin mətnə bir sıra şeir parçaları da daxil edilmişdir. Burada Hüseyn Cavidin ömür yolunun müxtəlif mərhələləri və ədibin həmin mərhələlərdəki ovqatı, yaşantıları onun əsərlərindən götürülmüş parçalarla müşayiət olunur. Başqa sözlə desək, Cavid əsərlərindən fraqmentlər ardıcıl olaraq süjetin üzvi komponenti kimi çıxış edir, Cavid obrazları da əsərin surətləri ilə qaynayıb qarışır. Ədəbiyyatşünaslıqda qeyd olunduğu kimi, müvafiq tarixi dramlarda "ədəbi şəxsiyyətlərin yaradıcılığı ilə bərabər, onların yaşadığı dövrün ictimai-siyasi hadisələri, həyat tərzi və mübarizəsi, sənətkar və vətəndaş mövqeyi və s. məsələlər bu əsərlərin süjet xəttini təşkil edir" **(3,s.16).** İ.Atillanın pyesi də bu cəhətdən maraq doğurur.

Əsər gənc Cavidin Naxçıvan şəhərində vaxtı ilə təhsil aldığı "Məktəbi-tərbiyə"də müəllimi olmuş maarifçi Məhəmməd Tağı Sidqi ilə görüşü ilə başlayır. Cavid gözlərini müalicə etdirmək üçün Təbrizə gedəcəyini bildirir. Bu, pyesin ekspozisiya hissəsidir. Bunun ardınca isə Sidqinin ölümü, Cavidin Təbrizdən qayıtdıqdan sonra təhsil üçün İstanbula getməsi dramatik təqdimatda önə keçir. İstanbulda tənqidçi Abdulla Surla birlikdə məşhur türk filosofu Rza Tofiqdən dərs alması, çoxsaylı bədii və fəlsəfi kitablar oxuması, dünyagörüşündə baş verən dəyişikliklər və s. məsələlər də Cavid obrazının təkamül prosesi kimi səhnəyə gətirilmişdir. Növbəti səhnədə biz Cavidi Tiflisdə görürük. O, dostu, tənqidçi Əziz Şəriflə söhbətləşir, oxuduqları yeni kitablar, baxdıqları teatr tamaşaları barədə fikir mübadiləsi aparır. Tarixi gerçəkliyə uyğun olaraq bu səhnədə Cavidin Tiflisdə Şeyx Sənanla bağlı ədəbi düşüncələrinə də yer ayırılmış, o zaman yazdığı "Şeyx Sənan" pyesindən parçalar da mətnə qatılmışdır. Sonrakı səhnələr Bakıda cərəyan edir. 1917-1918-ci illərin təlatümlü hadisələrinin əks-sədası kimi bəzi epizodlar pyesin bu bölməsində əsas yeri tutur. Bakıda inqilabi çıxışlar gücləınir. Fəhlə tətilləri baş verir. Bu məqamda Cavidin "Şeyda" pyesindən bir marş mətnə qatılır.

İsgəndər Atilla müxtəlif siyasi qüvvələrin, ayrı-ayrı təbəqələrin (müsavatçıların, bolşeviklərin və s.) baş verən hadisələrə münasibətini də yığcam detallarla nəzərə çatdırmışdır. Hüseyn Cavid obrazı da bu kontekstdə

təqdim olunur, onun istiqlal duyğuları vurğulanır. Vətənpərvər şairin Naxçıvanın qorunması uğrunda mübarizələrdə yaxından iştirakı, burada Kazım Qarabəkir paşa ilə görüşü və s. məsələlər də diqqəti çəkir. Cavidin Mişkinaz xanımla ailə həyatı qurması da pyesdə öz dramaturji təcəssümünü tapmışdır. İsgəndər Atilla bir cavidşünas kimi 1920-1930-cu illərin mətbuatını, Yazıçılar İttifaqında gedən müzakirələrin stenoqramlarını, məhkəmə materiallarını diqqətlə öyrənmiş, bunlardan həm mühitin, həm də Cavid obrazının təqdimində istifadə etmişdir. Həmin illərin real mənzərəsini verən müəllif bəzi epizodik obrazları ümumi şəkildə (Tənqidçi və s.) adlandırsa da, Cəfər Cabbarlı, Səməd Vurğun, Süleyman Rüstəm, Mehdi Hüseyn, Mikayıl Müşfiq, Əli Nazim, Məmmədkazım Ələkbərli, Mustafa Quliyev, Hənəfi Zeynallı, Abbas Mirzə Şərifzadə kimi şair, yazıçı, dramaturq, tənqidçi və teatr xadimlərini öz adları ilə vermiş, onların Cavidə münasibətini ifadə edərkən daha çox qaynaqların materiallarına üz tutmuşdur. Bütün bunların fonunda Cavidin əyilməzliyi, mətanəti, idrakı daha qabarıq şəkildə görünür. Aşağıdakı dialoq bu baxımdan xarakterikdir:

Mehdi – İstedadına və ədəbi çəkisinə baxmayaraq Cavid inqilab epoxasının sənətkarı deyil. Osmanlı təsirindədir. Onun təfəkkür sistemində Azərbaycan varlığını ifadə edəcək ünsür yoxdur. Əski Cavid yaradıcılığı onu ədəbiyyat və əbədiyyət məzarına aparır.

Cavid: – Kimin tutduğu yol onu hara aparırsa, bunu tarix göstərəcək.

Səməd:

Nədən şeirimizin baş qəhrəmanı
Gah İrandan gəlir, gah da Turandan?
(Cavidi göstərir)
Böyük bir şairin yazdığı dastan
Gah İrandan gəlir, gah da Turandan.

***Cavid*: -** Komsomol, səninki də Rusiyadan gəlir.

Tənqidçi:-...Cavid ... Lenin-Stalin bayrağı altına girmir, əyilmir.

Cavid: - Cavid sınar, əyilməz.

Tənqidçi *(mənalı):-* Biz səni əyərik, Cavid əfəndi...”Sosializmi istəməyənlərə ölüm, qisas və nifrət!” **(1, s.50)**

Beləcə, Cavidin amansız tale yolu onu saxta ittihamlarla Bakıda məhbəsə, sonra isə Uzaq Şərqə sürgünə aparır. Mütəfəkkir ədibin bütün bu proseslərdəki yaşantıları, həyəcanları, düşüncələri çox təsirli şəkildə ifadə olunmuşdur. Yeri gəldikcə ovqata və mühitə uyğun olaraq ədibin “Peyğəmbər”, “Səyavuş”, “Azər” və digər əsərlərindən dəqiqliklə seçilmiş parçaların dialoq, yaxud monoloqlar şəklində mətnə əlavəsi də özünün bədii effektini vermişdir. Cavid ailə üzvlərinin iztirabları, ədibin həbsindən sonra onların üzləşdiyi ağlasığmaz təqib və haqsızlıqlar da pyesdə özünün

inandırıcı təcəssümünü tapmışdır. Əsər Hüseyn Cavidin sürgündə ölümü, mənəvi ömrünün əbədiyyəti barədəki fraqmentlə tamamlanır.

Şair-dramaturq Nizami Muradoğlu "Hüseyn Cavid" adlı 2 hissəli, 16 şəkilli psixoloji mənzum faciəsində (2012) mütəfəkkir ədibin keşməkeşli ömür yolunun səciyyəvi səhifələrini, onun xarakterini, dünyagörüşünü, mühiti və müasirlərini dolğun şəkildə təqdim etmişdir.. N.Muradoğlu H.Cavidin oğlu Ərtoğrul Cavid haqqında "Bu dünyanın məzarları ağlamaz" adlı sənədli poemanın da müəllifidir.

"Hüseyn Cavid" pyesinin nəşrinə yazdığı "Redaktordan" başlıqlı qeydlərində akademik Rafael Hüseynov əsəri yüksək qiymətləndirmişdir: "N.Muradoğlu ilk dəfə olaraq Hüseyn Cavidin Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizənin maraqlı fraqmentlərini bədii şəkildə işıqlandırmış, şairin azad duyğularını poetik dillə ifadə etmişdir… Dövrün ictimai-siyasi mənzərəsi bədii boyalarla təsvir edilmiş, 37-ci ilin ədəbi mühitinin cansıxıcı olayları təsvir edilmişdir…Dram əsəri Hüseyn Cavidin həyat amallarının işıqlandırılmasında, onların hərtərəfli şəkildə vətəndaşlarımıza çatdırılmasında uğurlu bir addım kimi qiymətləndirilə bilər" **(6, s.8).**

Əsərin ilk şəklində Cavidin ömür-gün yoldaşı Mişkinaz xanımla görüşüb vidalaşması təsvir olunur. Dialoqun davamından anlaşılır ki, Cavid Təbrizə, azadlıq mücahidi Şeyx Məhəmməd Xiyabani ilə görüşə gedir. Bunun ardınca isə onun Şeyxlə görüşü verilir. Onların hər ikisi Azərbaycanın birliyi, istiqlalı naminə çalışacaqlarını bəyan edirlər. Lakin Şeyx vaxtsız öldürülür. İkinci şəkildə isə artıq 1937-ci ilin qanlı-qadalı, şər-böhtan dolu günləri səhnəyə gətirilir. Azərbaycanın o zamankı rəhbəri Mir Cəfər Bağırovun və yüksək dövlət postlarına soxulmuş Sumbatov, Qriqoryan kimi xalqımıza qənim kəsilmiş ermənilərin iç üzü dialoqlar vasitəsi ilə açılır. 3-cü şəkildə Müşkünaz xanımın narahatlığı, Əhməd Cavadın həyat yoldaşı Şükriyyə xanımla bu barədə telefonda danışması təsvir olunur. Sonra isə məkan dəyişir, M.C.Bağırovun iştirakı ilə fəallar yığıncağında "xalq düşməni" axtarışı və ifşası səhnəsi verilir. Bir sıra gənc qələm sahibləri də bu işdə fəallıq göstərirlər (Şəmsi Nalan və s.). Yığıncaqdan sonra H.Cavid, Ə.Cavad və M.Müşfiq eyni gecədə "xalq düşməni" böhtanıyla həbsə alınırlar. Pyesin 4-cü şəklində gənc şair Ş. Nalanla həyat yoldaşı Nazilə xanımın mükalimələri, Şəmsinin təklikdə özünün özünə etirafları da təsirli səhnələrdir.

5-ci şəkildə isə həbsxana mühiti təsvir olunur. Həbsxana barmaqlıqları arxasında M.Müşfiq, Ə.Cavad, H.Cavid görsənir. Akademik Muxtar Kazımoğlu N..Muradoğlunun "Hüseyn Cavid" mənzum pyesinin 20 oktyabr 2016-cı il tarixdə keçirilən təqdimat mərasimindəki çıxışında demişdir: "Hüseyn Cavid" mənzum dramının maraqlı və təsirli səhnələrindən danışarkən həbsxana həyatını əks etdirən səhnələri xüsusi

qeyd etmək lazım gəlir. Bu səhnələrdə Nizami Muradoğlu Hüseyn Cavid, Əhməd Cavad və Mikayıl Müşfiqin timsalında sənətkar şəxsiyyəti məsələsini diqqət mərkəzinə çəkir. Müəllif təsirli detallarla göstərir ki, həbsxana şəraiti, həbsxanadakı müxtəlif təzyiq vasitələri sənətkar şəxsiyyətinin bütövlüyünü poza bilmir" **(7).** Həbsxanaya həyat yoldaşını ziyarətə gəlmiş Müşkünazla şair arasındakı dialoq Hüseyn Cavidin məğrur xarakterini bir daha göstərir:

Müşkinaz
Sonra nə olacaq düşündünmü heç?
Bəlkə Bağırova "günahımdan keç"
Söyləsən, incitməz, bağışlar daha.
H.Cavid
Bən pənah apardım Böyük Allaha,
Kimsəyə baş əyməm, onlar bənimçin
Bir heçdir. Onların günahı çin-çin... **(6, s.47-48)**

Üç məhbus şairin- H.Cavid, Ə.Cavad, M.Müşfiqin həyat yoldaşları ilə həbsxanada görüşdüyü səhnə əsərin ən təsirli bölümlərindən biridir. Cavid-Müşkünaz, Cavad-Şükriyyə, Müşfiq-Dilbər mükalimələri adicə söhbət deyil, obrazların dünyagörüşlərinin, daxili aləminin, ictimai baxışlarının əyani təzahürüdür… 6-cı şəkildə Ərtoğrol ilə tələbə yoldaşı Səlmanın dialoqu verilir. 7-ci şəkildə dramatik hadisələr yenidən həbsxana divarları arasında baş verir. Artıq Şükriyyə həbs olunmuşdur. Əhməd Cavadla Mikayıl Müşfiq qətlə yetirilmişlər. 8-ci şəkildə müstəntiqlə Cavidin dialoqu şairin yenilməz xarakterini açmaq baxımından düşünülmüş yaxşı vasitədir. 9-cu şəkildə yenə də otuzuncu illərin ədəbi mühitinin gənc nümayəndələrinin tərəddüdlü ovqatı diqqət mərkəzinə çəkilir. Pyesin 10-cu şəklində Cavidin istintaqının davamı təsvir olunur. 11-ci şəkildə H.Cavidin Sibirə sürgündən öncə ailəsi ilə olan son görüşü təsvir edilir. Cavid son məqamda oğluna xitabən deyir:
Ərtoğrol, bilirəm, necə çətindi,
Ağırlıq tək sənə düşübdü indi.
Anadan, bacıdan sən ol muğayat,
Şərəflə yaşayın, qalın salamat. **(6, s.92)**

On ikinci şəkildə isə Cavidi artıq Sibirdə, həbsxananın əlillər zonasında görürük. Məhbuslarla bir söhbətin gedişatında Cavid Bakıda olarkən yazdığı son dramlardan biri, mətni indi də tapılmayan "Atilla" pyesi barədə də məlumat verir. Cavidin Bakıya ailəsinə məktub göndərməsi, niskilli duyğularını, nigarançılıq ovqatını dilə gətirməsi səhnəsi də pyesin təsirli epizodlarındandır.

Pyesin 13-cü şəklində sürgündə olan şairin oğlu Ərtoğrolun əsgərliyə getməsi, ana-bacısı ilə vidalaşması, hamısının Cavid üçün narahatlıq keçirməsi təqdim olunur. 14-cü şəkildə Sibirdə sürgün həyatı yaşayan Cavidin iztirabları, yanıqlı düşüncələri təsirli bədii vasitələrlə nəzərə çatdırılmışdır. Daima vətən, xalq üçün çalışan, bu amalla yazıb-yaradan ulu Cavid son monoloqunda da el-obanı, yurdun acınacaqlı taleyini və faciəsini unutmur, özünün istiqlal duyğularını dilə gətirir:

Bölündü məmləkət, dağıldı dövlət,
Elə bil yox imiş bu böyük millət.
Yetməzmi bu qədər əzab, iztirab?..
Azadlıq yasaqmı "Azadistana"?!
Hürriyyət gəlməzmi Azərbaycana?! **(6, s.104)**

Bunun ardınca Cavidin dünyasını dəyişməsi, məhbusların kədəri özünün dramatik ifadəsini tapmışdır. Pyesin 15-ci şəkilində isə artıq 1956-cı ildir. Şəxsiyyətə pərəstiş ifşa olunmuş, repressiya qurbanlarının günahsızlığı üzə çıxmışdır. Cavidə və digər günahsız qurbanlara bəraət verilir. Amma o da danılmazdır ki, repressiya qurbanlarına, o cümlədən ulu Cavidə əsl bəraəti ümummilli liderimiz Heydər Əliyev vermişdir. Pyesin sonuncu şəklinin də məhz ulu öndər Heydər Əliyevin portretinə xitabən deyilən sözlərlə tamamlanması da bu baxımdan məntiqlidir.

Nizami Muradoğlunun "Hüseyn Cavid" pyesində dramaturji konfliktin qoyuluşu, həlli təbii və inandırıcıdır. Müəllif xüsusən Cavid obrazının əhatəli təqdiminə nail olmuş, bunun üçün onun mühiti və müasirlərini də səhnəyə gətirmişdir. Əsərin dili səlis və aydındır. Bir sıra məqamlarda Cavidin əsərlərinin dil-üslub xüsusiyyətlərindən bəhrələnmək də duyulur. Bəzi məqamlarda Hüseyn Cavidin, eləcə də Ə. Cavadın, M. Müşfiqin, onun xanımı D.Axundzadənin, şair Ə. Müznibin misralarından da istfadə əsərin ümumi ideya-bədii arxitektonikası ilə üzvi surətdə bağlanmışdır. N.Muradoğlunun bu əsəri Sumqayıt dövlət dram teatrında tamaşaya qoyulmuşdur.

Əsərlə bağlı bir kiçik iradımız da var. Faciənin üçüncü şəklində Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Hüseyn Cavidin xanımı ilə telefon söhbətində deyir:

Caviddən danışıb o parçalanmış,
Əhmədi, Müşfiqi tənqid eyləyib.
Deyəsən, bizim də işimiz əyib**... (6, s.26)**

Aydındır ki, burada Əhməd deyəndə o, Əhməd Cavadı nəzərdə tutur. Lakin xatırladaq ki, şairin adı Cavad, təxəllüsü Əhməd idi. Şükriyyə xanımın da onu Əhməd yox, Cavad kimi adlandırması daha inandırıcı olardı.

Bütövlükdə Hüseyn Cavidə həsr olunmuş pyeslər həm mövzu-ideya əlvanlığı, həm də sənətkarlıq məziyyətləri baxımından təqdirəlayiqdir.

Ədəbiyyat

1. Atilla İ. Cavid. Bakı: ADPU, 2009, 76 s.
2.Eyvazlı H.C. Tarixi dramlarda ədəbi şəxsiyyət obrazı. Naxçıvan: Məktəb, 2009, 186 s.
3.Eyvazlı H.C. Azərbaycan dramaturgiyasında ədəbi şəxsiyyət məsələləri. Naxçıvan: Məktəb, 2015, 180 s.
4.Eyvazlı H.C. Seçilmiş əsərləri, 1-ci cild. Naxçıvan: Məktəb, 2015, 377 s.
5.Hacıyev D. Azərbaycan ədəbiyyatında tarixi dram. Bakı:Yazıçı, 1983, 159 s.
6. Muradoğlu N. Yaşayan Cavidlər. Bakı: Elm və təhsil, 2012, 192 s.
7.Kazımoğlu M. Ədəbi məhkəmələrə rəğmən Cavid Cavid olaraq qalırdı. http:// www.moderator.az/news/157363.html 03/11/2016

A.Kurbanova

Hussein Javid's character in azerbaijani drama (2000 years)

Summary

Hussein Javid's (1882-1941) creativity which has a special place in the history of world culture and is considered unique pearls of world poetry treasure, establishes a new, original period in the development of Azerbaijan poetica-esthetic thought. There is a great deal of artistic work on Huseyn Javid in Azerbaijani literature. Some of these are dramatic work H.Eyvazli's, I.Atilla's, N.Muradoglu's. There have been analysed charakteristic works, their idealogial-literary features have been clarified. Today those materials has an important role for to learn the historical reality.

The first piece dedicated to Huseyn Javid in our drama is the play "My God is Beautiful, Love", written by famous artist Kamala Agayeva in 1982. The drama of "The Angel of Love" written by poet-dramatist Nafil Abuzarli in 1996 is characteristic of this aspect. In the 2000s, a number of works on Hussein Javid were written in Azerbaijani drama. The drama of Hasanali Eyvazli's "Ertugrul Javid or a family drama" (2004-2008), Iskender Atilla's 3-part "Javid" drama (2009), Nizami Muradoglu's "Hussein Javid" (2012)

А.Курбанова

Образ Гусейна Джавида в азербайджанской драматургии (2000-ые годы)

Резюме

Творчество Гусейна Джавида (1882-1941), занимающее уникальное место в истории азербайджанской литературы, произведения которого считаются одним из редких сокровищ поэзии и драматургии, является одним из новых, оригинальных этапов в развитии азербайджанских художественно-эстетических идей. В азербайджанской литературе многие авторы писали разные художественные произведения о судьбе Гусейна Джавида. Среди них есть несколько драматические произведения.

Первой пьесой, посвященной Гусейну Джавиду в нашей драме, является пьеса «Мой Бог прекрасна, любовь», написанная известным художником Камалой Агаевой в 1982 году. Драма «Ангел любви», написанная поэтом-драматуристом Нафилой Абузарли в 1996 году характерный для этого аспекта. В 2000-х годах в азербайджанской драме был написан ряд работ Гусейна Джавида. Драма «Этругрюл Джавид или семейная драма» Гасанали Эйвазли (2004-2008), трехчастная драма Искендера Атиллы «Джавид» (2009), «Хусейн Джавид» Низами Мурадоглу (2012) В статье анализириуются характерные драматические произведения Г.Эйвазлы, И.Атиллы, Н.Мурадоглу, связанные с темой, выявляются их идейно-художественные особенности. Эти произведения имеют серьезное значение с точки зрения в выявлении исторических реальностей.

Rəyçi: Hüseyn Həşimli
Filologiya üzrə elmlər doktoru, professor

İLHAM DADAŞOV
Sumqayıt Dövlət Universiteti,müəllim
Ilham dadasov 69 @ qmail

XIV-XIX ƏSRLƏRDƏ AZƏRBAYCAN VƏ ŞƏRQ POEZİYASININ AZƏRBAYCAN TƏSVİRİ İNCƏSƏNƏTİNDƏ ROLU

Açar sözlər: Miniatür,xalçaçılıq və divar rəsmləri.
Keywords: Miniatures,carpet makinq and mural pointinqs.
Ключевые слова: Миниатюры,ковроводство и настенные рисунки.

Azərbaycan və Şərq poeziyasının Azərbaycan təsviri incəsənətində özünəməxsus və danılmaz rolu vardır.Əsrlər boyu təsviri incəsənət ustaları Azərbaycan və Şərq poeziyasından bəhrələnərək çox dəyərli və maraqlı əsərlər yaratmış və dünya mədəniyyəti xəzinəsinə əvəzsiz incilər vermişlər.Bu poeziya öz rəngarəngliyi və misilsiz, gözəl əsərləri ilə daim təsviri incəsənət ustaları üçün ilham mənbəyi olaraq onların yaradıcılığında müxtəlif mövzularda əsərlərin yaradılmasına ruhlandıraraq böyük təkan verici qüvvə olmuşdur. Məhz bu qüvvə Azərbaycan və Şərq poeziyasının Azərbaycan təsviri incəsənəti ilə qarşılıqlı şəkildə bir-birindən bəhrələnməsinə, əsrlərlə inkişaf etməsinə və çox mükəmməl və bənzərsiz sənət əsərləri yaradılmasına böyük təsir etmişdir.Azərbaycan və Şərq poeziyasının incilərini bütün dünyada tanınmasında və məşhur olmasında təsviri incəsənət ustalarının da böyük əməyi olmuşdur.Orta əsrlərdən bəri Azərbaycan və Şərq poeziyasından istifadə olunan mövzular təsviri incəsənətin miniatür,divar rəsmləri və xalçaçılıqda öz əksini tapmışdır.Əsasən miniatür sənəti müsəlman Şərq xalqlarının çoxəsrlik incəsənət tarixinin ən maraqlı səhifələrindən biridir.Təsviri incəsənətin xüsusi bir növü olan miniatür öz təbiəti etibarilə kitab illustrasiyası olub klassik Şərq poeziyasının bilavasitə təsiri altında inkişaf etmiş və bundan bəhrələnərək bir-birindən fərqli mövzularda miniatürlər çəkmişlər.Bu miniatürlər orjinal kompozisiya qurluşuna və füsunkar koloritə malik olmaqla digər xalqların miniatürlərindən fərqlənirdi.Dünya təsviri incəsənətində müxtəlif sənət növlərinin yaranmasında, inkişafında bu miniatür əsərlərin böyük əhəmiyyəti və təsiri olmuşdur.

Araşdırmalar göstərir ki,Azərbaycan incəsənətində miniatür boyakarlığı özünəməxsus şəkildə xüsusi yer tutur.Qədim əlyazmalara çəkilən kiçik ölçülü illüstrasiyalar öz orjinallığı ilə bütün dünyada şöhrət qazanmışdır.Azərbaycanda miniatür sənətin inkişafı əsasən XII əsrin sonu –XVII əsrləri əhatə etmişdir.Bu dövrdə Elxanilərin paytaxtı Təbriz şəhərində

Qazanxan və onun baş vəziri Rəşidəddinin təşəbbüsü ilə "Came ət-Təvarix"(Ümumdünya tarixi") əsəri
yaranır.Sonralar,Qiyasəddinin vəzirliyi dövründə (1328-1336) Böyük Təbriz şahnaməsinin miniatürləri yaranır."Şahnamə" nin dünya şöhrəti qazanmış bu nüsxədəki miniatürlərin sənətkarlıq səviyyəsi olduqca yüksək və zəngindir..

Azərbaycan miniatürünün yeni çiçəklənmə dövrü XVI əsrə təsadüf edir.Bu isə ilk növbədə Soltan Məhəmməd,Mirseyid Əli,Müzəffər Əli,Mirzə Əli və başqa məşhur azərbaycanlı miniatür rəssamların adı ilə bağlıdır.Həmin rəssamların Azərbaycan və Şərq poeziyasından bəhrələnərək 1520-1530-cu illərdə Firdovsinin"Şahnamə"sinə və 1539-1543-cü illərdə Nizaminin"Xəmsə"sinə Sədinin "Bustan", əsərlərinə çəkdikləri miniatürlər bu sənətin ən gözəl və qiymətli nümunələri hesab edilir.Bu miniatürlərdə hər şey kompozisiya qurumu və obrazların həllindən tutmuş ən kiçik ünsürlərə qədər yüksək bədii zövqlə,misilsiz ustalıqla işlənmişdir

.O,dövrün miniatür rəssamlardan ən görkəmlisi Soltan Məhəmmədi xüsusi qeyd etmək olar.Soltan Məhəmmədin əsərlərinin bədii-estetik təsir qüvvəsinin əsasını təşkil edən,onlara əsrarəngiz gözəllik verən zəngin kolorit və dekorativlik Azərbaycan miniatürləri üçün səciyyəvi üslub xüsusiyyətlərindən olub,onları başqa məktəblərin əsərlərindən fərqləndirirdi.-Rəssamın hələlik bəlli olan ən görkəmli əsərləri 1537-ci il tarixli "Şah-namə"də,Hafizin divanı və 1539-1543-cü illərdə Şah Təhmasib üçün hazırlanmış Nizami"Xəmsə"sinin məşhur əlyazma nüsxəsində toplanmışdır-.Bundan əlavə Sankt-Peterburqda Saltıkov-Şedrin adına kitabxanada,-İstanbulda,Londonda,Paris,Vaşinqton,Krakov və bir çox başqa böyük şəhərlərin muzey və kitabxanalarında rəssamın Şərq poeziyasından bir sıra maraqlı mövzularda portret əsərləri,süjetli miniatürləri və kitab rəsmləri saxlanılır.

Nizaminin 1524-1525-ci il tarixli"Xəmsə"əlyazmasına (Nyu-York,Metropoliten muzeyi) çəkilmiş"İskəndər Xaqanın qəbulunda"və Nəvainin 1527-ci il tarixli divanına(Paris,Milli kitabxana) çəkilmiş"Bəhram Gur ovda" adlı miniatürlər rəssamın ilk əsərlərindən hesab edilir.Bu əsərlər orjinal kompozisiya qurluşu,parlaq cingiltili boyaların kontrast düzümündən,əlvan rəng ləkələrinin ritmik təkrarlanmasından yaranan füsunkar kolorit,şux dekorativlik,ifadəli obrazlar,realistik və əfsanəvi ünsürlərin qəribə vəhdətindən yaranmış mənzərə Soltan Məhəmmədin əsərlərinə başqa vüsət,məna dərinliyi,forma gözəlliyi verir,onların emosional təsir gücünü daha da qüvvətləndirir,onları dözümlü edir,həmin və oxşar mövzulu başqa miniatürlərdən fərqləndirir.

Soltan Məhəmmədin daha bir maraqlı mövzuya müraciyyəti olub. Bu mövzu Məhəmməd peyğəmbərin Miracı ilə bağlı idi. Ümumiyyətlə, Şərq miniatür sənətində sayca çox az olan dini süjetlər də çəkilirdi. Onlar əsasən

Məhəmməd peyğəmbərin həyatını əks etdirirdi, imamlardan və mələklərdən xəbər verirdi. Adətən bu təsvirlər bədii toplıuların və yaxud murakkaların (albomların) tərkibinə daxil edilirdi.

XVI əsrin II yarısında Şahqulu,Sadiq bəy Əfşar,Vəlican,Məhəmmədi kimi böyük ustalar da Azərbaycan və Şərq poeziyasının təsiri altında müxtəlif mövzularda yüksək zövqlü əsərlər yaratmışlar. Daim Azərbaycan poeziyasının korifeylərinin ölməz əsərləri miniatür rəssamlar üçün tükənməz ilham qaynağı olmuş və onların yaradıcılığını yüksək humanist ideyalarla zənginləşdirmişdir.

XVI-XVİİ uüzilliklərdə toxunmuş bədii parçalar da dövrün miniatür sənətinin təsiri altında yaranmışdır.Bu dövrdə güləbətin tikmələr xüsusilə Təbriz,Bakı,Şamaxı və Naxçıvanda geniş yayılmışdır.Yüksək bədii xüsusiyyətlərə malik güləbətin tikmələrin adı Füzulinin də şeirlərində çəkilir.Tikmələrimizdə bəzək kompozisiyalarının əsasını nəbati və həndəsi ornamentlər təşkil etsə də,burada ayrı-ayrı hallarda süjetə malik çox maraqlı kompozisiyalara da rast gəlirik.Belə kompozisiyalarda adətən ov səhnələri və Nizaminin "Leyli və Məcnun"poemasından götürülmüş müxtəlif epizodlar və s. təsvir olunurdu.

Bu proseslər öz əksini Azərbaycan xalçaçılığında da tapmışdı. Dekorativ tətbiqi incəsənət növlərindən biri olan xalçaçılıq böyük islam mədəniyyətinə və qədim tarixi ənənələrə malik xalqlara məxsus sənətdir.Çoxsaylı və müxtəlif funksiyaları özündə birləşdirən Azərbaycan xalçası bütün praktiki mənaların cəmindən daha artıq əhəmiyyət kəsb edirdi.Azərbaycan xalçası təkcə milli həyat tərzinin əsas elementlərindən,dekorativ tətbiqi sənətin növmüxtəlifliyi deyildi;onunla xalqın mövcudluğunun mənəvi, əxlaqi normaları və islami dəyərləri bağlıdır.Azərbaycanda xalça toxuculuğu tətbiqi sənət növünün ən qədim sahələrindən biri hesab edilir.Bununla əlaqədar Quba-Şirvan,Gəncə Qazax, Qarabağ,Təbriz xalçaçılıq məktəblərinin xalıları özünəməxsus və bənzərsiz formada bütün dünyada məşhurdur.Bu xalçalarda görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin "Leyli və Məcnun""Xosrov və Şirin"poemalarından götürülmüş səhnələr çox mükəmməl şəkildə təsvir edilmişdir.Xalçaların boyalarının tükənməz zənginliyi,naxışlarının təkraredilməz qovuşuğu,yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir.Xalça naxışlarının səciyyəvi xüsusiyyətlərindən biri də onda təsvir olunan mühit əşyalarının verilməsidir.Bu cəhətdən bitki,heyvanat,həşarat və quşların stilizə edilmiş təsvirləri,həmçinin ulduz,paxlava, üçbucaq,dördbucaq,beşbucaq,altıbucaq, səkkizbucaq və sair həndəsi formaların təsviri Azərbaycan xalçalarının əsas naxışlarını təşkil edir.Əsrlər boyu xalq tərəfindən yaradılıb,nəsildən-nəslə

yadigar verilən xalçaçılıq özündə milli dəyərləri saxlayaraq ,daim inkişaf edərək, dünya mədəniyyətinə öz töhfəsini verməkdədir.

Azərbaycan mədəniyyəti xəzinəsinə əvəzsiz incilər vermiş təsviri incəsənətin ən gözəl səhifələrini divar rəsmləri təşkil edir.Bu rəsmlərdə Azərbaycan poeziyasından özünəməxsus şəkildə istifadə olunaraq bir-birindən fərqli müxtəlif süjetlərdə orjinal divar rəsmləri çəkilmişdir.Rəssamlar çəkdikləri əsərlərdə əsərin ruhunu və əsil ideya məzmununu düzgün əks etdirərək çox orjinal kompozisiyalar yaratmışlar.Və bu kompozisiyalar əsrlərlə insanları düşündürmüş, öz gözəlliyi və ecazkar fırçalarının zərifliyi ilə heyran edərək bütün dünyada şöhrət qazanmışdır.

XVIII-XIX əsrlərə aid olan Şəki,Şuşa,Quba və Lahıc divar rəsmləri indiyə kimi qeyriadi gözəlliyi ilə bizi heyran edir.Şəki xan sarayının rəsmlərini müxtəlif vaxtlarda usta Abbasqulu,usta Qənbər Qarabağlı,Əliqulu və Qurbanəli çəkmişlər.Bu rəsmlərdə heyvanat və nəbatat aləmindən motivlərə,ov və müharibə səhnələrinə və Azərbaycan poeziyasının dahilərindən Nizaminin "Xosrov və Şirin","Yeddi gözəl","Leyli və Məcnun"poemalarına çəkdikləri əsərləri yer alır.

XIX əsrdə Azərbaycan incəsənətində Mirzə Qədim İrəvani və Mir Möhsün Nəvvab kimi rəssamlar da öz əsərləri ilə böyük şöhrət qazanmışdılar.Bu rəssamlar öz çəkdikləri əsərlərində də Azərbaycan poeziyasına,lirikasına və dünya şöhrəti qazanmış əsərlərinə böyük yer vermişlər.

Araşdırmalar göstərir ki, Mir Möhsün Nəvvab hərtərəfli biliyə və çoxcəhətli yaradıcılığa malik ziyalı olaraq həmdə.xəttat,rəssam,şair və musiqişünas idi.Nəvvabın yaratdığı kitab illüstrasiyaları arasında ilk növbədə 1864-1865 –ci illərdə yazdığı "Bəhr-ül həzən"("Huznlər dəryası") adlı poetik əsərə çəkdiyi şəkilləri qeyd etmək olar.

XIX yüzilliyin ikinci yarısında Azərbaycanın kitab ustaları bir sıra illüstrasiyalı əlyazmaları hazırlamışlar.Nəməlum rəssamın "Kəlilə və Dimnə"nin əlyazmasına,habelə şamaxılı rəssam Nəcəfqulu Məşədi oğlunun 1877-ci ildə "Yusif və Züleyxa"əsərinə çəkdiyi illüstrasiyalar öz orjinallığı ilə diqqəti cəlb edərək insanı valeh edir.

Bu dövrdə məşhur Azərbaycan şairəsi Xurşud-banu Natəvan da öz lirik şeirlərinə ("Bülbül və qızıl gül","Şam və pərvanə") çox gözəl maraqlı illüstrasiyalar çəkmişdir.Şairə özü də əla bədii tikmə ustası, xəttat və rəssam idi.

Əsrlərlə Azərbaycan və Şərq poeziyasının təsviri incəsənətdə ki, böyük rolu incəsənətin müxtəlif növlərinin inkişafına öz təsirini göstərmiş və bu poeziyadan istifadə olunan mövzulardan yaranmış incəsənət əsərləri dünya mədəniyyəti xəzinəsində öz yerini tutmuşdur.Məhs bu əsərlərin dünyaya tanınmasında və təbliğində təsviri incəsənət ustalarının da danılmaz əməyi

olmuşdur. Təsviri incəsənət ustalarının əməyi nəticəsində Azərbaycan və Şərq poeziyasının əsərlərindən istifadə olunan mövzular diğər xalqların incəsənətinin inkişafında da öz təsirini göstəmiş və onların yaradıcılıqlarının inkişafında böyük əhəmiyyəti olmuşdur. **Elmi yeniliyi:**Məqalədə XIV-XIX əsrlərdə Azərbaycan və Şərq poeziyasının təsviri incəsənətdə ki, böyük rolundan danışılır və bu rolun daim təsviri incəsənətin inkişafında əhəmiyyətli rolu göstərilir. **Tətbiqi əhəmiyyəti:** Mövzudan ali məktəblərdə təsviri incəsənət ilə bağlı mühazirə və seminarlarda istifadə oluna bilər.

Ədəbiyyat siyahısı

1. İncəsənət bəşəriyyətin misilsiz sərvəti. Bakı: Ayna Mətbu Evi, 2004. s.46
2.Yaşamaq yanğısı.Bakı: "İşıq"nəşriyyatı,1989..s.21
3. Həsənzadə C,Hacınski E. İncəsənət bəşəriyyətin misilsiz sərvətidir.Bakı: Ayna Mətbuat Evi, 1999. s.37
4.Həbibov N. Rəssamlıqdan söhbət. Bakı:Uşaq və gənclər, 1961s.67.
5.Rasim Əfəndi Azərbaycan incəsənəti. Bakı:2007.s.22
6 Robinson B., Persian miniature, Oxford, 1957, text page 8, ill..s.18.
7.Kerimov K.Dj.. Sultan Muxammed i eqo şkola. M., İskusstvo, 1970, s.103
8.Əfəndi R.Azərbaycan dekorativ-tətbiqi sənəti (XI-XVIII yüzilliklər).Bakı: Çaşıoğlu 1999.s.67.
9.C.Ağayeva,İ.Əhmədov. İncəsənət. Bəşəriyyətin misilsiz sərvəti.Bakı:-"Ayna Mətbu Evi".2004.s.44

Dadashov Ilham Minajat

Role Azerbaijan and Eastern poetry in XIV-XIX centuries
The role of Azerbaijan in the fine arts

Summary

The article deals with the qreat role of Azerbaycan and Eastern poetry in descriptive art in XIV-XIX centuries.This role has ever influenced on the development of descriptive art.Themes taken from the works of outstandinq poets of Eastern Poetiy have been.

He sourse of ispiretion end motivated the creation of artists works.The works made and painted on the themes taken from the tremendous Orient Poetry and used in miniatures,carpet makinq and mural pointinqs have found their own piace in the worlds culture treasure.

It also gives information about the important role of Sotan Mohammed one of the founders of miniature art and famous artist Mir Mohsun Navvabs works in the development of descriptive art

Дадашов Илгам Минаджат оглы

Роли Азербайджанской и Восточной поэзии XIV-XIX веков в изобразительном искусстве.

Резюме

В статье говорится о вольшой роли Азербайджанской и Восточной поэзии XIV-XIX веков в изобразительном искусстве. Эта роль постоянно оказывает влияние на развитие изобразительного искусства.Темы использованные известными мастерами Восточной поэзии легли в основу и вдохновляли своим энтузиазмом работы мастеров изобразительного искусства.

В средние века используемые миниатюры,ковроводство и настенные рисунки на темы Восточной поэзии нашли свое место в нарисованных,-сотканных работах которые вошли в сокровищницу мировой культуры.

Основоположникам Азербайджанского миниатюрного искусства стали Солтан Магомед, известный художник основоположник изобразительного искусства Мир Мовсум Навваб.

Rəyçi: **D.A.Cümənov**
Filologiya üzrə fəlsəfə doktoru

İLHAMƏ BAXŞƏLİYEVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
b_ilhame88@yahoo.com

1930-1950-CI İLLƏR AZƏRBAYCAN ROMANININ JANR TIPOLOGİYASI

Açar sözlər: *roman janrı, inqilabi roman, Azərbaycan həqiqətləri, sosrealizm ədəbiyyatı, realizm ənənələri, janr strukturu, "istehsalat" romanı.*
Ключевые слова: жанр романа, революционный роман, Азербайджанские истины, *литература соцреализма,* традиции реализма, структура жанра, производственный роман.
Key words: *novel genre,* revolutionary novel, Azerbaijan truths, *socrealism literature, traditions of realism, structure of genre, occupational novel.*

Azərbaycan romanının inkişafının ən parlaq mərhələlərindən biri 1930-1950-ci illərdir. Tədqiqatçılar 1930-1950-ci illəri, bir qayda olaraq, sovet dövrü Azərbaycan ədəbiyyatının klassik mərhələsi hesab etmişlər. Azərbaycan romanının "Şamo", "Saçlı", "Yoxuşlar", "Dünya qopur", "Qızlar bulağı", "İki od arasında" ("Qan içində"), "Dumanlı Təbriz", "Qılınc və qələm", "Dirilən adam", "Bir gəncin manifesti", "Açıq kitab", "Yolumuz hayanadır?", "Gələcək gün", "Böyük dayaq", "Abşeron", "Səhər", "Yanar ürək", "Doğma və yad adamlar", "Söyüdlü arx" və s. təkrarsız nümunələri bu dövrdə yaranıb və sosrealizm ədəbiyyatına aid olan bu əsərlərdə Azərbaycan həqiqətlərindən söhbət gedir.

Elçin "Sosrealizm bizə nə verdi?" adlı tədqiqatında Azərbaycan ədəbiyyatının sovet dövründə "itirdikləri" və "qazandıqları"nı analitik süzgəcdən keçirərək, roman janrının inkişafını həmin dövrün əsas "qazanc"larından hesab edir: "Bir sıra ədəbi janrlar var ki, onlar sosrealizmə qədər Azərbaycan ədəbiyyatında yox idi, vardısa da, formalaşmamışdı, "özününküləşdirilməmişdi", ibtidai şəkildə idi. Misal üçün, roman janrını götürək. Bizim bir sıra ədəbiyyatşünaslarımız milli roman janrımızın tarixini Nizaminin poemalarından başlayır, bəziləri "Rəşid bəy və Səadət xanım"ı (İsmayıl bəy Qutqaşınlı), başqa bir qisim "Kitab yüklü eşşək"i (Əbdürrəhim Ağa Talıbov) milli romanımızın ilk nümunəsi kimi qəbul edir və s. Ancaq həqiqət bundan ibarətdir ki, məhz sosrealizm roman janrını Azərbaycan ədəbiyyatının milli faktına çevirdi" (1, s. 43-44)

İstər sovet dövründə, istərsə də müstəqillik illərində meydana çıxmış bütün tədqiqatlarda, milli romanın təşəkkül tarixi müxtəlif dövrlərdən və

əsərlərdən hesablansa da, janrın ədəbiyyatda sistemli, ardıcıl, həlledici mövqe qazanması məhz 1930-1950-ci illərə aid edilir. Himalay Qasımov "Müasir Azərbaycan romanı. Janrın poetika və tipologiyası" (2) və "Azərbaycan romanının inkişaf problemləri"(3) monoqrafiyalarında 1930-1950-ci illəri "Azərbaycan romanının ilk inkişaf mərhələsi" kimi, buna qədərki dövrü isə "Azərbaycan romanının bədii qaynaqları" kimi səciyyələndirmişdir. Milli romanın ayrı-ayrı nümunələrdə deyil, ədəbi prosesin aparıcı janrı kimi yerinin möhkəmlənməsi məhz bu dövrlə bağlanır.

Tədqiqatçılar bunu, ilk növbədə, bədii-tarixi zərurət kimi, Azərbaycan xalqının həyatında baş verən geniş və köklü dəyişmələrin roman miqyasında dərk olunması ilə bağlayırlar. Məmməd Cəfər göstərir ki: "ilk romanların əhatə etdiyi hadisələr sovet oxucusunu son dərəcə maraqlandıran, oxucunun bilavasitə gördüyü, yaşadığı, iştirak etdiyi müasir həyat hadisələri idi. Romanların çoxunda sovet hakimiyyəti uğrundakı mübarizə illərində Azərbaycanın müxtəlif şəhər və kəndlərində baş verən inqilabi hərəkat və 1920-1930-cu illərdəki yeni həyat uğrunda mübarizələr təsvir olunurdu" (4, s. 110).

"İnqilabi romanlar" sosialist realizmi ədəbiyyatının təzahürüdür, tədqiqatçıların fikrincə, ilk növbədə, rus ədəbiyyatında yaranmış, varlığın inqilabi dərkinə yönəlmişdir. İlk inqilabi romanlar Maksim Qorki, Dmitri Furmanov, Aleksandr Fadeyev, Mixail Şoloxov və b. onlarla yazıçıların yaradıcılığında meydana çıxmış, sosialist inqilabının təsiri ilə başqa xalqların ədəbiyyatına da yayılmışdır. "Belə ki, bütün hallarda 20-ci, 30-cu illər romanı böyük nəsrin prinsipial yeni janr formasıdır, məhz romanda xüsusən aydın şəkildə sosialist realizmi metodunun təşəkkülü və inkişafı (milli modifikasiyaları və sosialist mahiyyəti ilə) nəzərə çarpır" (5, s. 55). O cümlədən bolşeviklərin Azərbaycanı işğalından sonra ölkədə sosialistləşdirmə prosesi başlamış, Azərbaycan ədəbiyyatında sosialist realizmi cərəyanının yaranması nəticəsində ilk "inqilabi romanlar" da təşəkkül tapmışdır.

Belə bir roman janrının varlığı 1930-cu illərə qədər Azərbaycan ədəbiyyatında bəlli deyildi və bu barədə söz açan bütün tədqiqatçıların fikrincə, "inqilabi roman" modeli ədəbiyyatımıza rus sovet ədəbiyyatından sirayət etmişdir. "Müvəffəqiyyətin ikinci səbəbi də gənc nasirlərin rus sovet bədii nəsrindən, xüsusən klassik rus romanlarından səmərəli istifadə etməyə səy göstərmələri idi. Gənclərin romanlarında Qorki, Şoloxov, Fadeyev nəsrinin müsbət təsiri aydın hiss olunurdu" (4, s. 110).

Azərbaycan ədəbiyyatında ilk inqilabi romanlar Əbülhəsənin "Yoxuşlar" (1930), "Dünya qopur" (1933), Süleyman Rəhimovun "Şamo" (1931, 1940), M.S.Ordubadinin "Dumanlı Təbriz" (1933), "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940), Mehdi Hüseynin "Daşqın" (1933-1936),

"Tərlan" (1938), Mir Cəlalın "Dirilən adam" (1935), "Bir gəncin manifesti" (1939), Əli Vəliyevin "Qəhrəman" (1940) romanları sayılır. Bu romanların uğurunu heç də yalnız dövrün tələbi ilə inqilabi janra müraciətdə, "janr təqlidi"ndə axtarmaq düz olmaz. Janrların bir ədəbiyyatdan digərinə keçməsi təbii prosesdir. Dram janrları da Azərbaycan ədəbiyyatına XIX əsrdə, M.F.Axundzadədən sonra Qərb ədəbiyyatından daxil olmuşdur. Habelə 1930-cu illərə qədər maarifçi və realist romanların yaranması Azərbaycan yazıçılarına Qərb ədəbiyyatının təsiri ilə olmuşdur. Əsas məsələ yeni roman modelinin də klassik ədəbiyyat ənənələri əsasında qəbul və dərk olunmasıdır.

Məmməd Arif yazırdı: "Azərbaycan ədəbiyyatında keçmişdə roman janrı inkişaf etmədiyi üçün sovet romançıları bu sahədə milli ənənələrdən, demək olar ki, məhrumdurlar. Lakin Azərbaycan klassik nəsrində roman olmamışsa da, yüksək sənətkarlıqla yaradılmış hekayə və povestlər olmuşdur... Klassik nasirlərimizin realist hekayələrində Azərbaycan bədii nəsrinin ən yaxşı ənənələri yaranmışdır. Bu ənənələr sovet romançıları üçün də zəngin milli ənənə mənbəyidir. Süleyman Rəhimov da, Mirzə İbrahimov da, Hüseyn Mehdi də, Mir Cəlal da bu ənənələrdən istifadə etmişlər və etməkdədirlər" (6, s. 418). Mehdi Hüseyn göstərir ki: "Romanın yaradıcıları bir tərəfdən Azərbaycan dramaturgiyası və nəsrinin banisi Mirzə Fətəli Axundovun və onun realizm yolunu davam etdirən Cəlil Məmmədquluzadənin, Ə.Haqverdiyevin, Nəriman Nərimanovun zəngin irsinə arxalanır, digər tərəfdən isə klassik və müasir rus ədəbiyyatının və həmçinin dünya ədəbiyyatının nəhəng təcrübəsindən geniş surətdə istifadə edirdilər" (7, s. 230).

Beləliklə, 1930-cu illərin ilk inqilabi Azərbaycan romanlarının janr strukturunun rus inqilabi romanı ilə milli realizm ənənələrinin vəhdətində formalaşması haqqında fikirlərin mövcud olduğunu görürük. Əgər sovet dövrü tənqidçiləri bu romanlarda daha çox sosialist realizmi xüsusiyyətlərini axtarırdılarsa, bugünün ədəbiyyatşünasları, əksinə, milli ənənələrə üstünlük verirlər. Məsələn, Tehran Əlişanoğlu "Tarixin həqiqəti, ədəbiyyatın şahidliyi" adlı tədqiqatında Süleyman Rəhimovun "Şamo" romanını bugünün nöqteyi-nəzərindən təhlil etməyə çalışır. "Şamo" romanında milli gerçəklərin realist inikasının xeyli dərəcədə tənqidi realizm ənənələrinə bağlandığı"nı, "romanda Azərbaycan romantik nəsr təcrübəsinin öz yeri, izi" olduğunu (Şamo-Qəmər xəttində) müəyyən misallarla şərh edərək, belə bir qənaətə gəlir ki: "Əsərin nə konfliktində, nə kompozisiya qurumu, hadisələr cərəyanında, nə də ayrı-ayrı xarakterlərin məzmununda inqilaba yer yoxdur. "Şamo"da "inqilabi məzmun" yaradıcı başlanğıc olmayıb, ekzotika, bəzək səciyyəsindədir. İctimai konflikt səviyyəsinə yüksəlmədiyindən patriarxal intriqalara fon olur..." (8, s. 58)

Doğrudur, romanda Şamo surətinin inqilabçı obrazı kimi "çox ağır inkişaf etdirilməsi" (4, s. 119), "İnqilabi məzmunun ekzotik səciyyə daşıdığına görə yaradıcı başlanğıca çevrilə bilməməsi" kimi (2, s. 180) tənqidi cəhətlər başqa müəlliflər tərəfindən də səslənmişdir, amma bu, heç də üstündən səksən il keçdikdən sonra romanın tipologiyasını dəyişməyə, Azərbaycan ədəbiyyatında ilk inqilabi romanlardan biri kimi yaranmış, daha sonrakı mərhələdə epopeya səviyyəsinə yüksəlmiş əsərin ilkin janr təyinatını danmağa bəs etmir. M.Arifin yazdığı kimi: "Şamo" romanını oxuyanda biz köhnə kəndin oyanmasının çətinliklərini, yoxsul kəndlilərin düşmənlərini, onların ayılmasını istəməyənlərin sayca nə qədər çox, amansız olduqlarını görürük. Lakin biz ümidsiz olmuruq, çünki yazıçı yoxsul kəndlilərin gücünə inanır, zəhmətkeş kəndlilərə dərin rəğbət bəsləyir, hadisələri onların mənafeyi nöqteyi-nəzərindən işıqlandırır" (6, s. 428). Bütün sadalanan cəhətlər: varlığın inqilabi dəyişmədə təsviri olub, məhz "inqilabi roman" janrına xasdır.

Yaxud başqa bir misal. Təyyar Salamoğlu "Mir Cəlal nəsrinin əbədiyaşar nümunəsi" adlı məqaləsində (9) yazıçının "Bir gəncin manifesti" romanının sovet ədəbiyyatşünaslığında "Azərbaycanda sovet hakimiyyəti uğrunda gedən mübarizədən bəhs edən" əsər kimi təhlili ilə kifayətlənməyib, mətnin alt qatında "xalq ruhunun ifadəsi"ni "milli və bəşəri məzmun"da axtarır. Və bunu romanda romantik və realist nəsrə xas olan məşhur epizodlarda – Sonanın "vağzal ingilisi"nə xalçanı satmaması və Baharın acı taleyini əks etdirən xətdə görür. Hətta ingilis müstəmləkəçiliyinə qarşı yönəlmiş etiraz səhnələrində yazıçının birbaşa rus-sovet müstəmləkəçiliyini nəzərdə tutduğunu ehtimal edir. Son qənaət olaraq, romanın əhəmiyyətini "Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizədən" daha çox humanist ideya əks etdirməsində görür: "Həqiqi bədii ədəbiyyat heç vaxt insana humanist münasibətdən kənarda yaranmamışdır və yaranmayacaq" (9, s. 119).

Son fikirlə razılaşmamaq olmaz, amma həmin qayə "Bir gəncin manifesti" romanını heç də yarandığı dövrün inqilabi kontekstindən çıxarmağa əsas vermir. Sosialist realizminə xas "həqiqi bədii əsərlər" də humanist qayə daşıyır, "xalq ruhunun ifadəsi"nə çalışır, "köhnə dünya" ilə barışmayıb, "milli və bəşəri məzmun"u yalnız reallığın təsvirində deyil, inqilabi varlıqda – "dəyişən dünya"nın təsvirində axtarır. Müstəmləkəçiliklə, zülmlə barışmazlıq romanın ümumi ideya əsasında durur və bunu mətndə Sonanın romantik etirazı da ifadə edir, Baharın acı taleyi də, Mərdan və silahdaşlarının "köhnə dünya"ya qarşı birbaşa inqilabçılığı da. Bütün bunlar məhz "inqilabi roman"a xas olan cəhətlərdir və fikrimizcə, ingilis müstəmləkəçiliyi əvəzinə romanda sovet müstəmləkəçiliyi axtarmaq mətnə sonradan müdaxilə kimi bədii əsərin dəyərini azaltmaq demək olardı.

Misallardan göründüyü kimi, bu gün ədəbiyyatşünaslar sovet dövrünün romanlarından bəhs açarkən sanki onları "inqilabi məzmun"dan məhrum etməyə, milli gerçəkləri həmin romanların alt qatında gizlənən "realizm" və "romantizm" ənənələrində axtarmağa çalışırlar. Bu mövqe özlüyündə heç də etiraz doğurmur, çünki qeyd olunduğu kimi, ilk Azərbaycan inqilabi romanlarının məziyyətləri həm də milli nəsr ənənələrinə söykənmələrində idi. Amma "Yoxuşlar" (1930), "Dünya qopur" (1933), "Şamo" (1931, 1940), "Dumanlı Təbriz" (1933), "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940), "Daşqın" (1933-1936), "Tərlan" (1938), "Dirilən adam" (1935), "Bir gəncin manifesti" (1939), "Qəhrəman" (1940) və s. romanların məhz "inqilabi roman" kimi yarandığını danmaq olmaz. "İnqilabi varlığın dərki" bu romanların janr təyinatıdır, səciyyəsini ifadə edir. Azərbaycan realist nəsrinin C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli kimi klassikləri milli varlığın tənqidi dərkini əsərlərində geniş panoramla təsvir etmişdilər. Bir anlığa adını çəkdiyimiz "inqilabi romanlar"ın milli mündəricə və məzmununu, burada təsvir olunan patriarxal həyatı, mübarizələrdən, toqquşmalardan kənar gündəlik cərəyan edən hadisələri təsəvvür etsək, yazıçıların klassikləri yalnız təkrar etdikləri, həm də zəif şəkildə təkrara yol verdikləri görünə bilər. Milli həyatın patriarxal mahiyyətini başa düşmək üçün maarifçi və realist əsərlər kifayət edirdi.

Məmməd Arif yeni romanların xüsusiyyətlərindən bəhs açaraq yazırdı: "Lakin istər Azərbaycan klassik nəsri, istərsə də rus sovet romanları Azərbaycan romançıları üçün ancaq zəngin bir yaradıcılıq mənbəyi olmuşdur. Azərbaycan romanı yeni bir hadisə olduğu üçün biz ondan əvvəl yaranan ənənələri qeyd etməklə kifayətlənə bilmərik. Bizi, birinci növbədə, Azərbaycan sovet romanı yeni bir keyfiyyət kimi, novatorcasına bir hadisə kimi maraqlandırır" (6, s. 419). Dövrün romanlarını düzgün dəyərləndirmək üçün, ilk növbədə, janr tipologiyasına həssas olmaq gərəkdir.

Janr zənginliyi inqilabi romanlarda İkinci Dünya müharibəsindən sonrakı dövrdə müşahidə olunur. Kənddə sinfi mübarizələrdən bəhs edən "kənd romanları"nı, "kolxoz quruculuğu" romanlarını (S.Rəhimovun "Saçlı", Əli Vəliyevin "Çiçəkli", İmayıl Şıxlının "Ayrılan yollar", Mirzə İbrahimovun "Böyük dayaq" və s.), fəhlə və zavod həyatından, ölkədə nəhəng tikintilərdən söz açan romanları (Ənvər Məmmədxanlının "Burulğan", Mehdi Hüseynin "Abşeron", "Qara daşlar", Manaf Süleymanovun "Yerin sirri", Mir Cəlalın "Təzə şəhər", Əvəz Sadığın "Mingəçevir" və s.) "istehsalat romanları" kimi fərqləndirirlər.

Bu zaman Məmməd Arif "Azərbaycan sovet romanı" məqaləsində 1930-1950-ci illər romanlarını bütövlükdə belə təsnifləndirir: "Mövzu cəhətindən şərti olaraq romanlarımızı üç qrupa ayıra bilərik: sosialist əməyi və yeni insan, xalqın azadlıq hərəkatı və siyasi-beynəlxalq mövzu" (6, s.

420). Birinci sırada o, yuxarıda qeyd olunan "istehsalat romanları"nı, ikinci sırada "Daşqın", "Dünya qopur", "Şamo", "Bir gəncin manifesti", "Səhər" (Mehdi Hüseyn), "Nina"(Sabit Rəhman), "Zəngəzur" (Əyyub Abbasov) romanlarını, habelə M.S.Ordubadinin "Qılınc və qələm", Zöhrabbəyovun "Odlu diyar" tarixi romanlarını, üçüncü sırada isə "Gələcək gün" və Əbülhəsənin "Müharibə" romanlarını təhlilə cəlb edir.

Sonrakı illərdə də 1930-1950-ci illər romanlarına verilən eyni tipoloji təsnifat əsasən qüvvədə qalır. Məsələn, Qulu Xəlilov romanları süjet tiplərinə görə qruplaşdıraraq: "fəhlə sinfinin ilk təşəkkül illərindən bəhs edən" "Döyüşən şəhər", "Araz", "Gizli Bakı", "Səhər" və s. romanları bir; "1917-1920-ci illərin hadisələrindən, vətəndaş müharibəsindən, inqilabçı Bakı proletariatının kəndlərə, kəndli sinfinə təsirindən və yeni həyat uğrunda gedən mübarizədən bəhs edən və geniş epik lövhələr verən "Şamo", "Dünya qopur", "Daşqın", "Bir gəncin manifesti", "Turaclıya gedən yol", "Buludlar dağılır", "Zəngəzur", "Şimal küləyi" və s. romanları başqa bir; "yeni sosialist mülkiyyətinin qələbəsindən bəhs edən "Yoxuşlar", "Qəhrəman", "Tərlan" romanlarını ayrı; "50-60-cı illərdə kolxoz kəndinə həsr edilmiş "Ayrılan yollar", "Çiçəkli", "Böyük dayaq", "Söyüdlü arx", "Yarpaqlar", "Ürək dostları", "Həsrət", "Aran" və bu kimi romanları fərqli; "süjetində dayanan üçlük (aşiq, məşuq, rəqib) sxemasına görə "İkinci məhəbbət", "Körpüsalanlar", "Adilənin taleyi", "Telefonçu qız" romanlarını isə özgə bir qrupda qruplaşdırır (10, s. 80-82). Həmin təsnifat (bəlkə sonuncu qrupu çıxmaqla) mahiyyətcə "inqilabi romanlar"ın mövzular üzrə modifikasiyalarından ibarətdir.

Müstəqillik illərində yaranan tədqiqatlarda 1930-1950-ci illər romanlarının "mövzu etibarilə" təsnifatı şərti bölgülər kimi qiymətləndirilir. "Bu gün "inqilabi-tarixi", "vətəndaş müharibəsi", "kolxoz quruculuğu", "istehsalat" və s. mövzularda yazılan əsərləri yalnız mövzu tipologiyası baxımından qiymətləndirib mühüm daxili struktur dəyişiklikləri nəzərə almamaq faydalı hesab edilə bilməz. Məlum olduğu kimi, 30-cu illər Azərbaycan romanının janr imkanları yuxarıda qeyd edilən mövzuların əsasında genişlənməyə başlamışdır..."(2, s. 81) Tədqiqatçı dünənin romanlarını bu gün sadəcə mövzular üzrə deyil, fərdi yazıçı üslubu, "sənətkarlıq axtarışları və qəhrəman problemi" ətrafında fərqləndirməyi faydalı hesab edir. Alimə görə, "Məsələn, Şamo surətində həm epopeya, həm roman, həm dram qəhrəmanının imkanları birləşdirilib. Əgər o, xalq taleyinə qovuşanda epopeya mövzusunu ifadə edirsə, şəxsi taleyini düşünəndə, ailəsinin və sevgilisi Qəmərin gənclik xoşbəxtliyini fikirləşib mübarizəyə girişəndə roman, mövzu və ideyanı kəskin qarşıdurmalar əsasında həyata keçirəndə dram poetikasını ifadə edir" (2, s. 81)

Azərbaycan "inqilabi romanları"nın məqsədi daxili və xarici faktorların təsiri ilə XX əsr Azərbaycan həyatında, milli varlıqda baş verən inqilabi dəyişiklikləri dərk etmək, təcəssüm etdirməkdir. 1920-1950-ci illərdə Azərbaycan həyatında nə baş verir, ölkədə hansı hadisələr cərəyan edir, Azərbaycan insanı hansı tarixi proseslərin şahidi və iştirakçısı olur, sosializm quran ölkədə kommunist ideologiyası və idarəetməsi xalqın başına hansı bəlaları gətirir, Azərbaycan xalqı bu sınaqdan və ümumən "sovet eksperimenti"ndən necə çıxır? "İnqilabi romanlar" bizə bu həqiqətlərdən söz açır, o dövrü, zamanı, XX əsrin birinci yarısında Azərbaycan həyatında baş verənləri dərk etməyə təkan verir.

Sovet dövründə "inqilabi romanlar"da daha çox "sovet hakimiyyətinin qələbəsi", "sosializm quruculuğu" pafosuna diqqət yetirilmişdir. Amma bu romanlarda eyni zamanda həmin prosesin çətinlikləri, milli gerçəklərdə doğurduğu etiraz və müqavimətlər, ictimai şüurla siyasi proseslər arasındakı ziddiyyətlər, Azərbaycan xalqının xarakteri, etnoqrafik xüsusiyyətləri, kənd və şəhər həyatının konkret reallıqları da əksini tapmışdır ki, bu cəhətlərə yalnız müstəqillik dövründə müəyyən qədər nəzər salınmışdır. "Təsadüfi deyil ki, milli həyatla inqilabi gerçəklər arasında təzad problemi bilavasitə inqilab mövzusunda yazılmış əsərlərdə də özünə geniş yer tapır. "Şamo", "Dirilən adam", "Dünya qopur", "Tərlan", "Qəhrəman" kimi romanlarda Azərbaycan kəndinin varlığı, real mənzərələri, həyat və məişəti konkret bədii ifadəsini tapdığı halda, burada gedən inqilabi iş, inqilabi fəaliyyət, "sosialist inqilabçılığı" son dərəcə mücərrəd, yayğın səciyyədə − məhz "iş" kimi, tədbir kimi təsvir edilir..."(11, s. 133)

Bu gün "inqilabi romanlar"ın nümunəsində dövrün mənəvi ab-havasını, zaman və məkan vəhdətində bütöv Azərbaycanın ictimai coğrafiyasını "bərpa" edə bilirik. Azərbaycan "inqilabi romanı" 1930-cu illərdə Azərbaycan həyatını geniş epoxal dəyişmələr fonunda təsəvvür etməyə imkan verən "Şamo", "Dünya qopur", "Daşqın", "Dirilən adam", "Yoxuşlar", "Bir gəncin manifesti" və s. kimi örnəklər yetirmişdir. "İnqilabi romanlar" 1940-1950-ci illərdə də yaranmaqda davam edir. M.S.Ordubadi "Dumanlı Təbriz" romanını (1933-1948) tamamlayır. Süleyman Rəhimovun kənd həyatından söz açan üç cildlik "Saçlı" romanı (1943, 1948-1949) meydana çıxır. Mirzə İbrahimovun "Gələcək gün" romanı (1948) müharibə dövründə Cənubi Azərbaycanda cərəyan edən milli-demokratik hərəkatın isti izi ilə yaranır. Mehdi Hüseyn Azərbaycanda fəhlə hərəkatının tarixinə yenidən nəzər salan iki hissəli "Səhər" romanını (1950-1953) qələmə alır. Əyyub Abbasov iki kitabdan ibarət "Zəngəzur" romanında (1953-1956, 1957) "inqilab" hadisələrini Qərbi Azərbaycan torpağında (hazırkı Ermənistan Respublikası) izləyir, geniş panoram təsvirini verir. Roman "Böyük Oktyabr sosialist inqilabının 40 illiyinə ithaf" (12, s. 3) olunsa da,

əsərdə milli tarixin gerçəklərinə doğru daha bir addım atılmış, ermənilərin Zəngəzurda törətdikləri qırğın və faciələrdən də söhbət getmişdir. Qılman Musayev (İlkin) "Qalada üsyan" romanında (1959) inqilabi hadisələri Zaqatala torpağında, Əli Vəliyev "Turaclıya gedən yol" romanında (1958-1959) Qubadlı bölgəsində, Yusif Şirvan "Buludlar dağılır" romanında (1959) Lənkəran qəzasında, Pənah Makulu "Səttarxan" romanında (1957) bir daha Cənibi Azərbaycanda –Təbrizdə izləyir, təsvir edir.

"İnqilabi romanlar"ın modeli dəyişməsə də, mövzu-predmet təsvirindən də görünür ki, yazıçılar sosialist inqilabının milli tarix işığında dərkinə can atır, eyni zamanda tarixi hadisələrin Azərbaycan coğrafiyasını genişləndirməyə çalışırlar. "İnqilabi romanlar"ın tematikası da genişlənir. Böyük Vətən müharibəsində uzun döyüş yolu keçmiş Əbülhəsən bu tarixi hadisənin isti izi ilə, alman faşizmi üzərində sovet əsgəri və xalqın qələbəsinin ruhunu ifadə etməyə çalışan çox cildlik "Müharibə" romanını (1950) qələmə alır, ikinci cilddən başlayaraq romanı "Dostluq qalası" (1955, 1956, 1970) adlandırır. Azərbaycan xalqının İkinci Dünya müharibəsində iştirakı, şücaət və qəhrəmanlıqlarından söz açan romanlar yaranmağa başlayır. Həsən Seyidbəyli və İmran Qasımovun "Uzaq sahillərdə" (1953), Süleyman Vəliyevin "Mübahisəli şəhər" (1957) romanları müharibə mövzusuna yeni nəfəs gətirir.

1930-1950-ci illər Azərbaycan romançılığı tipoloji baxımdan janr müxtəlifliyinin əsasını qoymuşdur. Azərbaycan romanının sonrakı inkişafı bu ənənələrə söykənmişdir.

Ədəbiyyat:

1. Elçin, Sosrealizm bizə nə verdi? Sovet dövrü ədəbiyyatı haqqında. Məsələnin qoyuluşuna dair. Bakı, "Mütərcim", 2010, 76 s.
2. Himalay Qasımov, Müasir Azərbaycan romanı. Janrın poetika və tipologiyası. Bakı, 1994, 148 s.
3. Himalay Qasımov, Azərbaycan romanının inkişaf problemləri. Bakı, "Nurlan", 2008, 336 s.
4. Azərbaycan ədəbiyyatı tarixi, Üç cilddə. 3-cü cild, Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1957, 562 s.
5. З.Кедрина, Роман и время // Советский роман. Новаторство. Поетика. Типология. Москва, «Наука», 1978, 694 с.; с. 54-89
6. Məmməd Arif, Seçilmiş əsərləri, Üç cilddə, Birinci cild, Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1967, 620 s.
7. Mehdi Hüseyn, Əsərləri. 10 cilddə. 10-cu cild. Bakı, "Yazıçı", 1979, 272 s.

8. Tehran Əlişanoğlu, Tarixin həqiqəti, ədəbiyyatın şahidliyi (Süleyman Rəhimovun "Şamo" romanı əsasında) // T.Əlişanoğlu, Milli nəsrdə Azərbaycan obrazı. Bakı, "Elm və təhsil", 2017, 616 s.; s. 52-64

9. Təyyar Salamoğlu, Mir Cəlal nəsrinin əbədiyaşar nümunəsi // T.Salamoğlu, Azərbaycan ədəbiyyatının müasir problemləri. Bakı, "E.L. NPŞ MMC", 2014, 512 s.; s. 110-119

10. Qulu Xəlilov, Süjet və tipiklik // Q.Xəlilov, Həyat və idrak, Bakı, "Yazıçı", 1980, 361s.; s. 76-122

11. Tehran Əlişanoğlu, XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı, "Elm", 2006, 312 s.

12. Əyyub Abbasov, Zəngəzur. Bakı, Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1956, 572 s.

I.Baxshaliyeva

Genre typology of Azerbaijani novel in 1930-1950

Summary

The article deals with the emergence, development and genre features of the Azerbaijani novel in 1930-1950. The years from 1930 to 1950 has been characterized by the researchers as the "first devel

opment stage" of the Azerbaijani novel. The article evaluates the typological classification of the novels published between 1930 and 1950 by literary scholars. The novels of the studied period include the "revolutionary novels" and their various genre modifications – "historical – revolutionary", "occupational", "village", "war" novels. "Revolutionary novels" give us opportunity to see the life of Azerbaijani people in 1930 -1950 years, the contradictions in national truths. At the same time along with the new community building pathos, the foreign elements in national life, destructive tendencies can be observed in these novels. Although these novels were the manifestation of the socrealism literature, they were directed to the ingenious understanding of the existence. The novels published between 1930 and 1950 give impetus to understand the events occurred in the Azerbaijani society in that period. The article prefers to study these novels in the complex social and political context in which they emerged and in accordance with the genre. The novels published between 1930 and 1950 created a culture of this genre in national literature and stimulated further development of the profession of a novelist in Azerbaijan.

И.Вахшалиева

Жанровая типология азербайджанского романа в 1930-1950 годах

Резюме

В статье идет речь о зарождении, развитии и жанровых особенностях азербайджанского романа в 1930-1950 годах. 1930-1950 годы расцениваются исследователями как «первый этап развития» азербайджанского романа. В статье оценивается типологическая классификация романов 1930-1950 годов, данная учеными литературоведами. Романы указанного периода представляются «революционными романами» и их различными жанровыми модификациями – «историко-революционные», «производственные», «сельские», «военные» романы. «Революционные романы» дают возможность наблюдать жизнь в Азербайджане в 1930-1950 годах, а также противоречия в национальных реалиях. Одновременно, в этих романах, наряду с созидательным пафосом нового общества, также можно наблюдать инородные элементы в национальной жизни, разрушающие тенденции. Несмотря на то, что эти романы являются проявлением литературы социалистического реализма, они направлены на революционное восприятие существа. Романы 1930-1950 годов способствуют пониманию происходящих в жизни Азербайджана в первой половине XX века. В статье отдается предпочтение исследованию романов данного периода в сложном общественно-политическом контексте, в соответствии с жанровым назначением. Романы 1930-1950 годов создали традицию данного жанра в национальной литературе, способствовали последующему развитию азербайджанского романа.

Rəyçi: **Tehran Əlişanoğlu**
Filologiya elmlər doktoru, professor

VÜSALƏ NƏBİYEVA
e-mail: vusala_nv@mail.ru
Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

MERİ STYUARTIN HƏYAT VƏ YARADICILIĞI

Açar sözlər: Meri Styuart, romantik saspens, tarixi romanlar, dedektiv əsərlər, fentezi janrı, "Merlin" trilogiyası
Key words: Mary Stewart, romantic suspense, historical novels are, detective works, fantasy genre, the "Merlin" trilogy.
Ключевые слова: Мэри Стюарт, романтический саспенс, исторические романы, детективной произведения, фэнтези жанр, "Мерлин" трилогии.

XX əsr ingilis ədəbiyyatında roman janrında yazılmış əsərlər əhəmiyyətli və diqqəti cəlb edən bir mövqeyə malikdir. Bu dövrdə ingilis ədəbiyyatında ərsəyə gətirilən romanlar həm məzmun etibari, həm də məhsuldarlıq baxımından xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, XX əsr ingilis ədəbiyyatında Cozef Konradın (1857-1924), Ceyms Coysun (1882-1941), Virciniya Vulfun (1882-1941) yazdığı romanlar qədər Meri Styuartın (1916-2014) da qələmə aldığı romanlar olduqca maraqlıdır. XX əsr məşhur ingilis yazıçısı, tarixi romanların və o cümlədən məşhur "Merlin" triologiyasının müəllifi Meri Florens Elinor Reynbov Styuart 17 sentyabr 1916-cı ildə Böyük Britaniyada, İngiltərədə Darem qraflığının Sanderlend şəhərində keşiş ailəsində anadan olub. Meri Styuart Yeni Zelandiyadan gəlmiş keşiş Frederik Reynbov ilə Meri Edit Mettyusun izdivacından dünyaya gəlmişdi.

Meri Styuartin ailəsinin maddi vəziyyətləri o qədər də ürəkaçan deyildi. Meri Styuart məktəbə getdiyi illərdə rəssam olmaq istəyirdi, lakin valideynləri, xüsusilə də anası qızının bu istəyinə qarşı çıxır. Anası Meri Styuarta Oksford, Kembric və Darem kimi ali məktəblərin birində təhsil almağı məsləhət görür. Meri ailənin maddi vəziyyyətini nəzərə alaraq Darem Universitetini seçir. Çünki, o dövrdə Darem Universiteti tələbələrə digər Univesitetlərdən çox təqaüd verirdi. Meri Styuart Darem Universitetində ingilis dili və ədəbiyyatı müəllimi ixtisası üzrə təhsil almış və 1938-ci ildə Universitetin bakalavr dərəcəsini yüksək nəticələrlə, fərqlənmə diplomu ilə bitirmişdir. M.Styurt ixtisası üzrə təhsilini davam etdirərək 1941-ci ildə Darem Universitetinin magistr dərəcəsini müvəffəqiyyətlə başa vurur. M.Styuart 1956-cı ilə qədər ingilis dili və ədəbiyyatı müəllimi işləyir.

Ruhani ailəsində böyüyən Styuart ciddi qaydalar və ənənələr çərçivəsində, milli və dini ruhda tərbiyə almışdı. 1945-ci ildə M.Styuart işdə

geologiya professoru Frederik Henri Styuartla tanış olur. Həmkarlar arasında yaranan münasibətlər nəticəsində üç aydan sonra onlar ailə həyatı qururlar. Styuart ailə qurduqdan sonra bir neçə həftə ərzində hamiləlik zamanı qarın boşluğunun iltihabı xəstəliyindən əzab çəkdi. Peritonit xəstəliyi zamanı M.Styuart dünyaya uşaq gətirə bilmədi və uzun müddətdən sonra sonsuz olmasını qəbul etdi. Yazıçının əri ona təsəlli verdi. M.Styuart dünyaya gətircəyi xəyalını qurduğu uşaqlar üçün nəzərdə tutduğu adlar onun yaradıcılığında öz əksini tapdı, yazdığı kitabların qəhrəmanları kimi o uşaqların adlarını əbədiləşdirdi.

M.Styuart müəyyən müddətdən sonra ingilis ədəbiyyatı müəllimi kimi əvvəlki işinə qayıtdı, amma yazıb-yaratmağa çalışırdı, ilk oxucusu olan əri həmişə onu ruhlanandırırdı. Yazıçının əri hər zaman həyat yoldaşının yaradıcılığı ilə yaxından maraqlanır və ona dəstək olur, Meriyə problemlərinin həll edilməsində, qarşılaşdığı çətinliklərin öhdəsindən gəlməkdə ona kömək edir, mənəvi dəstək olur. Bir neçə ildən sonra Frederikə Edinburqda iş təklif edirlər və bu səbəbdən Meri ilə Frederik işləmək və yaşamaq üçün Edinburqa köçmək qərarına gəlirlər. 1956-ci ildə onlar Edinburqa köçür və M.Styuartın əri Fredrik burada geologiya və mineralogiya sahəsi üzrə professor kimi məşhurlaşır, həmçinin Britaniyanın aparıcı alimlərindən birinə çevrilir. Styuart ədəbiyyata romantik triller müəllifi kimi başladı. Lakin bununla kifayətlənməyərək müxtəlif mövzulara müraciət etdi. 60-cı illərin sonu 70-cı illərin əvvəllində Meri Styuart Kral Artur haqqında tarixi romanlar qələmə almağa başladı.

1968-ci ildə Meri Styuart Kral İncəsənət Cəmiyyətinin üzvlüyünə layiq görülür, onun yaradıcılıq irsi isə Şotlandiyanın Milli kitabxanasının bir hissəsi olur. Geologiya sahəsində mühüm nailiyyətlərə imza atan yazıçının əri Frederik Henri Styuart 1970-ci ildə London Geologiya Cəmiyyəti tərəfindən Layel medalı (Lyell Medal) ilə təltif olunur. 1974-ci ildə Styuartın həyat yoldaşı Fredrikə cəngavərlik titulu verilir. Merinin həyat yoldaşı ilə Avropadakı səyahətləri zamanı yaranan yeni təəssüratlar və emosiyalar ingilis yazıçını yeni romanlar yazmağa ilhamlandırır. 2001-ci ildə M.Styuartın əri Frederik vəfat edir. Meri və Frederik bir-birinə olduca sadiq və bağlı insanlar idi, Fredrik ölənə qədər onlar bir yerdə xoşbəxt yaşayıblar.

Meri Styuart müxtəlif janrlar üzrə, o cümlədən də dedektiv, romantik saspens, tarixi romanlar yazaraq öz qələmini sınasa da əsasən tarixi və fentezi janrında qələmə aldığı romanları ilə məşhurdur. Dedektiv, tarixi və mistik romanların müəllifi kimi daha çox məşhur olan Meri Styuart müasir dövrdə ingilis ədəbiyyatının inkişafında mühüm və əhəmiyyətli yerlərdən birini tutur. Meri Styuartın yaradıcılığında ağıllı və tədbirli qadın qəhrəmanlar tərənnüm edilir. Meri Styuartın yaratdığı qadın qəhrəmanlar təhlükəli hallardan çıxış yolu tapır, yaranmış bütün çıxılmaz və təhlükəli

halların öhdəsindən uzaqgörənlik və müdrikliklə gəlməyə müvəffəq olurlar. Meri Styuart tarixi əsərlərlə yanaşı, həmçinin uşaq kitabları və poeziyası da qələmə almışdır. Amma 97 yaşında dünyasını dəyişmiş Meri Styuart ilk növbədə tarixi roman və fentezi janrı ilə tanınmışdır. 1954-2014-cü illərdə gərgin şəkildə yaradıcılqla məşğul olan Meri Styuart tarixi roman və fentezi janrı ilə yanaşı dedektiv, qotika və mistika janrında da bədii əsərlər yazmışdır. Meri Styuartın bədii və intellektual zəkasının məhsulu olan detektiv və romantik üslubda yazdığı tarixi romanlar yüksək oxucu kütləsinin zövqünü oxşamış və bu baxımdan da romanları kitab halında çap olunduqdan sonra milyon tirajlarla satılmışdır.

Meri Styuartın 1954-cü ildə "Hodder & Stoughton" nəşriyyatı tərəfindən nəşr olunan "Madam, Will You Talk?" ("Madam, siz danışacaqsınız?") adlı ilk kitabı dedektiv janrında idi. Ümumiyyətlə, Merinin əsərlərinin əksəriyyəti məşhur "Hodder & Stoughton" nəşriyyatı tərəfindən çap olunmuşdur. Sevgi romanı üslubunda yazılan "Madam, Will You Talk?" əsərinin adı qədim ingilis xalq mahnısından götürülmüşdü. Əsərin qəhrəmanı Çariti Selborn Fransanın cənubuna avtomobildə səyahətə çıxır və səyahət əsnasında Şelli Devid adlı oğlan ilə tanış olur və bu tanışlıq onun bütün həyatını dəyişdirir. (1)

Kəskin süjetli sevgi romanı olan "Wildfire at Midnight" ("Gecəyarısı yanğını") əsəri ilk dəfə 1956-ci ildə dərc olunub. Bəzi tədqiqatçılar "Gecəyarısı yanğını" əsərinin erotika janrında olmasını vurğulayırlar. Londonda məşhur model kimi fəaliyyət göstərən Canetta Bruki şəhərin gərgin işindən və səs-küyündən uzaqlaşaraq istirahət etmək üçün Skay adasında yerləşən balaca otelə gəlir. Burada o qəflətən öz keçmiş əri Nikolas Druri ilə qarşılaşır. Oteldə anlaşılmaz şəkildə qətl törədilməsi bütün işləri bir-birinə qatır, bütün otel heyəti, qonaqlar bu müəmmalı hadisəyə çaşbaş qalırlar. Lakin Canetta Brukinin yeni tanış olduğu həmkarların əməkdaşı, otelə səyyah qismində gəlmiş Rodrik Qrant cinayətin üstünü açır. (2)

Meri Styuartın dedektiv, romantik saspens janrında yazdığı "Thunder on the Right" ("Sağ tərəfdəki şimşək") əsəri 1957-ci ildə nəşr olunur. Meri Styuartın bir çox romanlarının qəhrəmanı kimi bu əsərin də qəhrəmanı qadındır. Əsərin qəhrəmanı Cennifer Silver öz xalası qızıyla Fransaya gəlir. Cennifer burada iki il əvvəl itgin düşən Stefen Meysfildlə qarşılaşır. Cenifer və Stefen özləri istəmədikləri halda qaçaqmalçıların qaranlıq dünyasına düşür, Cenifer və Stefen amansız sınaqlarla qarşılaşır. (3) Bir çox tədqiqatçıların nöqteyi-nəzərincə Merinin dedektiv, romantik saspens janrında yazdığı "Thunder on the Right" əsərini tədqiqatçılar ən romantik kitab adlandırır. Çünki bu əsərdə müəllifin ideal təsəvvürləri ilə yanaşı amansız reallıq da öz əksini tapmışdır.

Yazıçının 1958-ci ildə qələmə aldığı "Nine coaches waiting" ("Doqquzda maşını səni gözləyir") əsəri də dedektiv janrda yazılmış sevgi romanı idi. Əsərin qəhrəmanı olan gənc ingilis Linda Martin Fransaya səfərə çıxır və Fransanın ucqar kəndində mürəbbiyə işləmək qərarına gəlir. 23 yaşlı Linda Fransada qaldığı və tərbiyəçi kimi işlədiyi qəsrin sakinlərinin münasibətlərdə anlaşılmazlıq, laqeydlik, soyuqluq və gərginlik hiss edir. Linda burada hər iki valideynlərini avtomobil qəzasında itirmiş doqqu yaşlı Filliplə mürəbiyyə kimi davranmaqla kifayətlənmir və onunla dostluq edir. İsveçrənin Cenevrə şəhərində zəngin bir ailədə dünyaya göz açan Fillip burada qohumlarının himayəsində qalır. Qohumları Fillipə qarşı olduqca laqeyd münasibət bəsləyir. Fillipə 15 yaşınadək qəyyumluq etmək hüququnu öz üzərinə götürmüş Leon de Valminin də qardaşı oğluna göstərdiyi münasibət heç də ürəkaçan deyil. Leon de Valminin 30 yaşlı oğlu Raul de Valmi ilə tərbiyəçi Linda Martin arasında meydana gələn sevgi münasibətləri də romana yeni ab-hava bəxş edir. (4) Əsərin geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanması Merinin xəfiyyə və sevgi mövzunda öz qələməni bir daha müvəffəqiyyətlə sınamasına bariz nümunədir.

M.Styuart 1959-cu ildə yazıb bitirdiyi "My brother Michael" ("Mənim qardaşım Maykl") adlı əsəri elə həmin ildə də nəşr olundu. Meri Styuart bu əsərə görə Böyük Britaniya Dedektiv Yazıçılar Assosasiyası ("Crime Writers' Association") tərəfindən 1960-cı ildə "Qızıl xəncər" mükafatına layiq görülmüşdür. Həmçinin onu da qeyd etmək yerinə düşərdi ki, Meri Styuartın 1965-ci ildə qələmə aldığı və elə həmin ildə də nəşr olunan "Airs Above the Ground" ("Torpaq üzərində uçuşlar") adlı əsəri də Britaniya Dedektiv Yazıçılar Assosasiyası tərəfindən "Qızıl xəncər" mükafatına layiq görülmüşdür.

Romantik saspens janrından qələmə alınmış "My brother Michael" əsərinin qəhrəmanı Kamilla Heyven tamamilə məzuniyyət vaxtı Yunanıstana səfərə çıxır. Yolda o, gözlənilməz şəkildə Simon Lester adlı özünə yad olan bir insan ilə tanış olur. Simon İkinci Dünya Müharibəsi zamanı ölən qardaşı Maykl haqqında daha çox məlumat əldə etmək üçün Yunanıstana gəlibdir. Simonun qardaşı Maykl on dörd il bundan əvvəl Parnasda həlak olubdur, Simon qardaşının "ruhunu sakitləşdirmək" üçün bu qədim yunan xarabalığına gəlibdir. Simonla tanışlıqdan sonra Kamillanın əsrarəngiz yol macərası başlayır. (5)

M.Styuartın "The Ivy Tree" ("Sarmaşıqla sarınmış ağac") adlı növbəti əsəri 1961-ci ildə nəşr olundu. Meri Styuartın sayca altıncı romanı olan bu əsərdə də romantika və gərginlik birgə addımlayır. "The Ivy Tree" əsərinin baş qəhrəmanı Meri Qrey adlı cəsarətli, ağıllı və gənc qadındır. Kanadadan İngiltərəyə yeni gəlmiş Meri Qreyin zəngin malikanə sahibinin səkkiz il itmiş nəvəsinə bənzərliyi hadisələrin axarını dəyişir.

M.Styuartın 1962-ci ildə qələmə aldığı "The Moon-spinners" ("Ay-dönən adamlar") əsəri 1964-cü ildə Amerikan rejissoru Ceyms Nilson tərəfindən lentə alınıb. Əsərin qəhrəmanı Nikola Ferris adlı gənc ingilis qızıdır. Nikola Böyük Britaniyanın Yunanıstanda yerləşən səfirliyində katibə olaraq çalışır və Afinada diplomatik, işgüzar fəaliyyətlə məşğuldur. Gənc Nikola məzuniyyət vaxtı istirahət etmək üçün Krit adasına gəlir. Krit adasında qaldığı mehmanxananın sahibinin soyuqqanlı davranışları diqqət çəkir, otel sahibinin bu laqeyd davranışının öhdəsindən gələn yeganə adam Nikkolanın qardaşı Stratos olur. O da bacısı kimi Londondan gəlmişdir. Çox keçmədən ortaya Mark adlı mülayim xasiyyətli və maraqlı bir ingilis çıxır və onunla dost olurlar. Lakin Ağ dağlarının ətəyində yerləşən kənd mehmanxanasında baş verən qətl hadisələrin axarını dəyişdirir. Bu gözlənilməz şəxs hadisəyə görə qətlin şahidi olan iki gənc polislər tərəfindən aparılır. Nikola cinayəti törədən qatilin mehmanxana sakinlərindən və yaxud da yerli sakinlərdən kimin olmasını aydınlaşdırmağa cəhd göstərir. (6)

Meri Styuartın 1964-ci ildə nəşr olunan "This Rough Magic" ("Qorxulu sehir") əsərinin adı Uilyam Şekspirin "Tufan" əsərindən götürülmüşdür. "This Rough Magic" əsəri 1965-ci ildə ən yaxşı roman kimi «Amerika dedektiv yazıçıları» assosasiyası tərəfindən təqdim olunan Edqar Allan Po ədəbi mükafatına layiq görülmüşdür. Dedetkiv janrda yazılmış əsərdəki hadisələr Yunanıstanda baş verir. Romandakı intriqa Britaniyanın Yunanıstanda yerləşən səfirliyinin qulluqçuları ilə qaçaqmalçıların arasında baş verir. Əsərin baş qəhrəmanı olan gənc aktrisa Lüsi Uorunq isti cənub dənizində yerləşən tənha adaya bacısının yanına qonaq gəlib və təsadüfən öyrənir ki, onun sevimli kumiri qonşuluqda yaşayır. (7) Gözəl aktyor Culian Geyl iki il əvvəl naməlum səbəblərdən səhnəni tərk edib. Adadakı sakit həyat tərzi gözlənilmədən dəyişilir, bu rahat həyat qəfildən pozulur və bir birinin ardınca dəhşətli hadisələr baş verir. Qorxu, təhlükə və ölüm dedektiv və romantik saspens janrında qələmə alınmış əsərin əsas süjet xəttini təşkil edir.

Yazıçının "Airs above the Ground" ("Yer üzərində uçuşlar") adlı növbəti əsəri 1965-ci ildə nəşr olunmuşdur. Müəllifin saspens janrında qələmə aldığı bu əsər də 1966-cı ildə Edqar Allan Po ədəbi mükafatı ilə təltif olunmuşdur. Əsərin adı hərbiçilər üçün at hazırlayan süvari təlim məktəbindən götürülmüşdür. Meri Styuartın digər əsərlərində olduğu kimi bu romanda da əsərin baş qəhrəmanı qadındır. Əsərin baş qəhrəmanı Vanessa Mart itkin düşmüş ərini axtarmaq üçün Avstriyanın paytaxtı Vyanaya yola düşür. İki il əvvəl ailə həyatı qurduğu onun ərinin axtarmaq üçün yola çıxan Vanessa Mart səfər əsnasında müxtəlif sərgüzəştlərlərlə qarşılaşır. (8)

M.Styuartın romantik saspens mövusunda yazdığı "The Gabriel Hounds" ("Qabriel tazıları") adlı əsəri ilk dəfə 1967-ci ildə çap olunub. Əsərin qəhrəmanı Kristi Mansel İngiltərədən Livana və Suriyaya səyahətə çıxmışdır. Gənc yaşında olan ingilis gözlənilmədən Suriyanın paytaxtı Dəməşqdə əmisi oğlu Çarlz ilə qarşılaşır və bu qarşılaşmadan sonra əmioğluların möhtəşəm macərası başlayır. (9)

Ümumiyyətlə, bu dövrdə Meri Styuartın yaradıcılığında dedektiv janrı üstünlük təşkil edirdi. Bu baxımdan Meri Styuartın 1968-ci ildə nəşr olunan "The Wind Off the Small Isles" ("Kiçik adaların küləyi") adlı sevgi romanında da xəfiyyəlik janrının elementləri öz əksini tapmışdır. 1976-cı ildə yazdığı "Touch Not the Cat" ("Pişiyə toxunmayın") sevgi romanı da məhz dedektiv janrındadır. İlk dəfə 1988-ci ildə nəşr olunan "Thornyhold" ("Tikanlı monastır") əsəri isə fentezi janrında qələmə alınmışdır. Ədibin "Stormy Petrel" ("Kiçik fırtınaquşu") adlı əsəri 1991-ci ildə nəşr olunmuşdur. 1997-ci ildə çap olunmuş "Rose Cottage" ("Qızılgül kotteci") əsərinin əsas mövzusu isə sevgidir. Yazıçını 1981-ci ildə çap olunmuş "The Castle of Danger" ("Təhlükəli qəsr") əsəri də məzmun baxımından maraqlıdır.

XX əsrin 70-ci illərindən başlayaraq Meri Styuart Kral Artur dövrü (Arthurian saga) haqqında silsilə tarixi romanlar yazmağa başlayır. Yazıçının bu qəbildən olan "The Crystal Cave" ("Büllur mağara") adlı əsəri 1970-ci ildə çap olunur. Mifoloji qəhrəmanların da əks olunduğu bu macəra romanında fentezi janrının xüsusiyyətləri də öz əksini tapmışdır. Əsərdəki hadisələr V əsrdə Britaniyada kral sarayında baş verir. Kral Artur dövrü əfsanələrinin əsas qəhrəmanlarından biri olan Merlin "The Crystal Cave" romanın baş qəhrəmanıdır. Əsər orta əsrlərdə Böyük Britaniyada meydana gəlmiş əfsanələr əsasında qələmə alınmışdır. Romanın baş qəhrəmanı olan Merlin bu əfsanələrdə də cadugərliyi ilə məşhur idi. "The Crystal Cave" romanına görə Meri Styuart 1971-ci ildə Mif-poetik fentezi mükafatı (*Mythopoetic* Fantasy *Award) ilə təltif olunur. (10)*

Meri Styuartın qələmə aldığı məşhur "Merlin" trilogiyasının ikinci əsəri olan "The Hollow Hills" ("Dərə-təpələr") ilk dəfə 1973-ci ildə çap olunub. Bu kitab "The Crystal Cave" əsərinin davamı kimi nəzərdə tutulmuşdur. Əsər 1974-cü ildə müəllifin ikinci dəfə Mif-poetik fentezi mükafatını (*Mythopoetic* Fantasy *Award) qazanmasına vəsilə olur. Əsərdə Merlinlə yanaşı* Kral Artur, Uter Pendraqon, İqrqina, Artur Pendraqon, Maqnus Maksimus, Ambrosius Avrelianus kimi yaddaqalan obrazlar vardır.

"Merlin" trilogiyasının sonuncu əsəri olan "The Last Enchantment" ("Sonuncu sehrbazlıq") romanı 1979-cu ildə çap olundu. Əsərdə gənc Arturun Merlinin məsləhəti və köməkliyi sayəsində apardığı gərgin mübarizə öz əksini tapmışdır. Merlin artıq qocalmışdır, lakin buna baxmayaraq o Artura hər zaman olduğu kimi sadiq qalmışdır. Meri Styuartın bu romantik

epopeyası əsasında 1991-ci ildə "Merlin of the crystal cave" ("Merlinin billur mağarası") adlı film də çəkilmişdir. Filmdə Merlinin uşaqlıq dövründən tutmuş yetkinlik və ahıl çağlarına qədər olan dövr Meri Styuartın "Merlin" trilogiyası əsasında lentə alınmışdır.

Meri Styuart "Merlin" trilogiyasını bitirdikdən sonra da bu əfsanəvi şəxs haqqıda əsər yazmağa davam edir. Yazıçının 1983-cü ildə çap olunmuş "The Wicked Day" ("Qəzəb günü") adlı əsərinin əsas mövzusu da Kral Artur dövrünə həsr olunmuş əfsanələrindən götürülmüşdür. Merinin 1995-ci ildə çap etdirdiyi "The Prince and the Pilgrim" ("Şahzadə və zəvvar") adlı əsəri Kral Artur dövrünə həsr olunmuş sonucu əsəridir. Ümumiyyətlə, Meri Styuartın Merlinin həyatına həsr etdiyi əsərlər "The Crystal Cave", "The Hollow Hills", "The Last Enchantment" trilogiya təşkil etdiyi halda, bu trilogiyaya "The Wicked Day" və "The Prince and the Pilgrim" adlı iki əsər də əlavə etdikdən sonra Kral Artur dövrünə həsr edilən pentalogiya meydana çıxır. Kral Artur dövrünə həsr edilən bütün bu əsərlərin hamısı fentezi janrında qələmə alınmışdır. Bu əsərlərə görə Meri Styuart iki dəfə Mif-poetik fentezi mükafatına layiq görülümşüdür.

Meri Styuart uşaq yaradıcılığı sahəsində də öz qələmini sınamışdır. Ədibin bu sahəyə həsr etdiyi "The Little Broomstick" ("Kiçik süpürgə") əsəri 1971-ci ildə nəşr olunmuşdur. Yazıçının vəfatından sonra bu əsərə 2017-ci ildə "Meri və ifritənin gülləri" adı altında animasiyalı film çəkilmişdir. M.Styuartın 1974-cü ildə fentezi janrında qələmə aldığı "Ludo and the Star Horse" ("Ludo və Ulduz at") adlı povesti də uşaqlar üçün nəzərdə tutulmuşdu. M.Styuartın 1980-ci ildə yazdığı "A Walk in Wolf Wood" ("Canavar meşəsində gəzinti") adlı povesti də fentezi janrında idi.

M.Styuart poeziya janrına da müraciət edir və onun şeirlərinin toplandığı "Frost on the Window: And other Poems" ("Pəncərənin qabağındakı şaxta") adlı şeir kitabı 1990-cı ildə nəşr olunur. Meri Styuartın qələmə aldığı şeirlər toplusunda əfsanəvi cadugər Merlinə, heyvanlara, quşlara və digər mövzulara həsr olunmuş şeirlər öz əksini tapmışdır. Buradan da göründüyü kimi Merlin obrazı Meri Styuartın ən çox sevdiyi obrazlardan biri olmuşdur.

Meri Styuart 1996-cı ildə mistika janrındakı nailiyyətlərə görə Aqata mükafatının xüsusi laureatı kimi təltif olunur. 3 iyul 2009-cu ildə isə məzunu olduğu Darem Universiteti M.Styuarta Universitetin Fəxri doktoru diplomu təqdim edilir. (11) Ömrünün son illərini Şotlandiyada yaşayan Meri Styuart 9 may 2014-cü ildə Arqayl-end-Byut əyalətinin Lox-O adlı yaşayış məskənində vəfat edir. İyirmidən artıq romanın müəllifi olan Meri Styuartı müasir dövrün ədəbiyyat tənqidçiləri Britaniya yaçılıarının ən yaxşı nümunələrindən biri hesab edirlər. Kasıb ailədə dünyaya göz açan Merinin əsərləri müxtəlif dairələrinin və müxtəlif səviyyəli oxucuların zövqlərini

oxşayır. Onun əsərləri misli görünməmiş tirajla satışa çıxırdı və həmişə bestsellerlər arasında özünəməxsus yer tuturdu.

Ədəbiyyat

1. Мэри Стюарт. Мадам, вы будете говорить? М.: Эксмо, СПб.: *Домино*, *2010* г.
2. *Мэри Стюарт*. *Костер в ночи* (Огонь в *ночи*). М.: Эксмо, 2008.
3. *Мэри Стюарт*. *Услышь гром справа*. *М*.: Махаон, 1999 г.
4. Мэри Стюарт. *Девять карет ожидают тебя*. *М*.: *1992*.
5. Мэри Стюарт. *Мой брат Майкл.* М.: Эксмо, *2007 г*.
6. Мэри Стюарт. Лунные прядильщицы. https://www.e-reading.club/book.php?book=55138
7. Мэри Стюарт. Грозные чары. *М*.: Эксмо-Пресс, 2013 г.
8. Mary Stewart. Airs Above the Ground. https://www.goodreads.com/book/ show/ 27696.
9. Mary Stewart. The Gabriel Hounds. https://www.goodreads.com/ book/show/27691.
10. Mary Stewart. Merlin Trilogy. https://www.goodreads.com/book/show/ 27689.
11. https://www.dur.ac.uk/resources/ceremonies/congregation/stewart_mary.pdf

В.Набиева

Жизнь и творчество мери стюарта

Резюме

Английская литература всегда была популярна среди женщин-писателей. М. Стюарт, одна из самых известных *писательниц* XX века имела собственный индивидуальный стиль и всегда получала любовь у читателей. На протяжении своей творческой деятельности она писала о детективных, романтических, исторических темах. Геройи М.Стюарта имеет все виды гуманного поведения, в то же время, автор мастерски написала об отрицательных характерах принадлежащих к человеку.

Мэри Стюарт изобразила самый памятный период, который считается поворотным периодом истории. Интерес писателя к истории отражает богатое влияние художественных произведений, описание проблем возникших в определенный эпоху и актуальность многих событий, культурной ситуации, обычаев и традиций, отражает влияние на убеждений и правил в жизни человека. Она виртуозно описывала

исторические личности и вызывала у читателей любовь к древним периодам. М. Стюарт со следами народного исторического опыта в написанных ею литературных произведениях мастерски изобразила национальные исторические корни своего народа.

V.Nabiyeva

Mery stewart's life and creativity

Summary

The English literature is always popular with its women-writers. M.Stewart, one of the famous writers of the XX century had her own individual style and always gained the love of readers with her writings. She wrote on detective, romantic, historical themes during her creative activity. The hero of M.Stewart's writings has all kinds of humane behaviours, at the same time, the writer masterly wrote about negative characteristics belonging to a human being.

Mary Stewart depicted the most memorable period that is considered the turning point of history. The writer's interest to history reflects the impact of cultural situation, customs and traditions, rules and beliefs on the richness of literary works, the description of problems aroused in a certain period and the topicality of many events in a human life. She described historical persons masterly and caused the readers to love the ancient periods. M.Stewart skillfully depicted national historical roots of her people and herewith traces of people's historical experiences in the literary works written by her.

Rəyçi: Aygün Məmmədova
Filologiya elmləri doktoru, dosent

LEYLA QƏDİROVA
Bakı Slavyan Universiteti
leyla.gadirova87@gmail.com

ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ MÜHARİBƏ DÖVRÜNÜN KİŞİ TİPAJLARI

Açar sözlər: çağdaş, bədii nəsr, müharibə, kişi tipajları, Qarabağ
Ключевые слова: современность, художественная проза, война, мужские типажи, Карабах
Keywords: modernity, artistic prose, war, male types, Karabakh

Hər bir dövrün özünün bədii mətnləri olduğu kimi, bu mətni aça biləcək həm də kodları olur. Bu kodlar dövrün psixologizmini, düşüncəsini, həyatını bütünlüklə açmaq üçün ən yaxşı vasitələrdən biri olur. Bu kodlar həm bədii mətndə, həm də bu mətnlərdəki obrazlarda bu və ya digər şəkildə təzahür edir. Nəzəriyyəçi alim Qorxmaz Quliyev "Mətnin kodunu açmaq üçün açar mövcuddurmu?" sualına cavab arayarkən doğru olaraq belə bir qənaətə gəlir: "Mövcuddur: bədii nümunələr mahiyyətləri etibarilə bütün topluma ünvanlandıqlarına görə mətni açıqlamaq üçün onun hər bir nümayəndəsinin özəl açarı var, yəni bədii nümunənin yaradıldığı dili bilən hər bir şəxs onu oxuyub özümlü dərk edə bilər" (1, 41).

Həqiqətən də hər bir bədii mətn özündə müəyyən informasiyanı ehtiva edir, yazıçı, sənətkar təsvir etdiyi dövrə uyğun informasiyanı verməklə qalmır, həm də bu informasiyanı hərəkətə gətirən obrazlarını yaradır. Dövrün, yazıçının əsərdə vermək istədiyi mesajları açmaq üçün obrazlar da ən yaxşı vasitələrdən biri olur. Bu mənada çağdaş Azərbaycan nəsrini gözdən keçirmək yetərlidir. Əgər bu dövrün ən böyük hadisəsinin müstəqillik və bu müstəqillikdən doğan ictimai-siyasi hadisələr fonunda Qarabağ müharibəsi olduğunu nəzərə almış olsaq, onda müharibə nəsrinin də yaranmasını qanunauyğunluqla qarşılamaq mümkündür. Artıq otuz ilə yaxın bir dövrü əhatə edən müharibə getdikcə informasiya xarakterindən çıxaraq bədii əsərlərin mətnini, süjet xətlərini və müxtəlif obrazlarını özündə ehtiva edir. Başqa sözlə, çağdaş Azərbaycan bədii nəsrində Qarabağ müharibəsinin xronikasını izləmək mümkün olmasa da, onun cəmiyyətdəki əks-sədasını, insanların həyatındakı, düşüncəsindəki psixoloji aspektlərini müəyyən kodlar vasitəsilə öyrənmək mümkündür. Bu kodlardan biri də obrazlardır. Xarakterik haldır ki, bütün dövrlərdə müharibələr zamanı kişi tipajları önə çıxır. Bu, hər şeydən əvvəl, müharibənin baş qəhrəmanının xalq, xalqı

müharibədə təmsil edənin isə kişilər olduğunu deməyə əsas verir. Lakin bu da var ki, kişilər kimi olmasa da, qadınlar da müharibə nəsrində əsas yerlərdən birini tutur. Bu da kişi tipajlarını bütün mahiyyəti ilə dərk eləməyə əsas verir. Sovet dövründə beynəlmiləlçilik tərbiyəsi almış Azərbaycan insanının birdən-birə müharibə labirintinə düşməsi onun bu hadisələrə davranış kodlarını da müəyyənləşdirməli oldu. Əvvəlcə torpaq, vətən uğrunda canından keçən oğulları haqqında publisistikada yazılar getdi, sonra isə bədii əsərin qəhrəmanına çevrildilər. İlk hekayələrdə sənədlilik daha çox nəzərə çarpırdı. Hər hansı bir eldən, obadan müharibəyə gedərək igidliklər göstərmiş oğulların qəhrəman obrazı yaradılmağa üstünlük verildi. Lakin zaman keçdikcə müharibənin özünün obrazı da bədii nəsri məşğul etdi, onun psixologiyası ilə yanaşı, bədii nəsrdə müharibəni əks etdirən, onun psixologiyasını açan sırf bədii təxəyyülün məhsulu olan obrazlar da yaradılmağa başladı. Müharibədən uzaqlaşdıqca onun mahiyyəti daha yaxşı dərk olunur və ən yaxşı əsərlər də bu zaman yaranır. İkinci dünya müharibəsi zamanı yazılan əsərlərdə də belə olmuşdur. Getdikcə Qarabağ müharibəsinin əzabları, ziddiyyətləri, mahiyyəti bədii əsərlərin süjet xətlərinə daha yaxşı ifadə olunurdu. Hadisələrə nüfuz etmək, dövrün, müharibənin mahiyyətini üzə çıxarmaq baxımından yazılan əsərlərin sayı çoxalmağa başladı. Sabir Əhmədov, İsi Məlikzadə, Vidadi Babanlı, Elçin, Aqil Abbas, Ağarəhim Rəhimov, Hüseynbala Mirələmov, Əlabbas, Şərif Ağayar, Nigar, Elçin Hüseynbəyli, Miraslan Bəkirli və b. yazıçıların əsərlərində müharibə dövrünün hadisələri təsvir edilmişdir. Sabir Əhmədovun "Kef", "Axirət sevdası", İ.Məlikzadənin "Məndən nigaran qalmayın", Elçinin "Bayraqdar", "Qarabağ şikəstəsi", V.Babanlının "Ana intiqamı", A.Rəhimovun "Qoşa qanad", "İkili dünyam", A.Abbasın "Dolu", Əlabbasın "Halal qan" və s. əsərlərində müharibə dövrünün psixologiyası müxtəlif rakurslardan açılır. Bu dövrün ədəbiyyatını araşdıran Elçin Mehrəliyev fikrimizcə onun xarakterini düzgün müəyyənləşdirərək yazır: "Qarabağ mövzusunda yazılan hekayələr əsasən hadisə, dramatik situasiya hekayələridir. Belə əsərlərdə əsirlik, əlillik, qaçqınlıq müsibətləri ilə üzləşən insanların obrazlarının yaradılması, onların mənəvi məhrumiyyətlərə məruz qalmasının, sıxıntı və iztirablarının təsvir-təhkiyə yolu ilə oxuculara çatdırılması, yəni ağrılı gerçəkliyin naturalistcəsinə əks etdirilməsinə üstünlük verilməsi ən səciyyəvi əlamətlər kimi diqqəti cəlb edir..." (2, 249).

Bu əsərlərdə müharibə dövrünün kişi tipajları başlıca yer tutur. S.Əhmədli bir yazıçı kimi, müharibə mövzusuna və müharibə dövrünün obrazlarını yaradan ilk yazıçılardan olur. Sovet dövründə heç bir siyasi, ideoloji konyukturaya getməyən yazıçının hələ Qarabağ hadisələrinin ilk illərində "Yanvar hekayələri" yaranmışdır. Bu hekayələrin birində yazıçı Yanvar qırğını zamanı oğlu şəhid olmuş atanın öz oğullarını axtarması

səhnəsini təsvir edir. Məsələ burasındadır ki, yazıçı bu obrazı daha çox özünün obrazı, yəni prototipi kimi təqdim etmişdir. Bu təsvirlərdə obrazın-yazıçının nə qədər əzab çəkməsi göstərilir. O, şəhid olmuş oğlunun meyidini tapmaq üçün morqları gəzir. Morqları gəzərkən onun kimi faciə yaşayan insanların ağrılarını, əzablarını təsvir edir. O, fəryad çəksə də, bu şəhidliyin müstəqillik yolunda qurban getdiyindən oğlunun arxasınca danışmır. Fikrimizcə, yazıçı burada ilk dəfə olaraq Ata obrazında müharibə dövrünün kişi tipajını yarada bilmişdir. Lakin cəmi bir neçə il sonra yazıçının oğlu Məhəmməd Qarabağ döyüşlərində həlak olarkən eyni vəziyyəti yenidən yaşayır; əvvəlcə bədii, sonra isə həyatda. Oğlu Məhəmmədin itkisini yazıçı "Axirət sevdası" əsərində əks etdirmişdir. Bu dəfə də yazıçı özünün, oğlunun ölümünə qarşı haray salan bir Ata obrazını yaratmışdır. Eynilə "Yanvar hekayələri"ndə olduğu kimi, burada da Ata oğlunu görmək üçün cəbhəyə gedir. Lakin onu heç yerdə tapa bilmir, ürəyinə min bir fikir gəlir, oğlunun harada olması haqqında ona heç bir məlumat verilmir. Kor-peşiman cəbhədən geri dönən ata yolboyu "Əgər bizim mənzilimizin pəncərələrindən işıq gəlsə, deməli nə isə olub. Yox, pəncərələr sönük olsa, həmişəki qaydasındadır",-deyə düşünür. Lakin atanın düşündüyü başına gəlir: "Odur bizim mənzilimiz-beşinci mərtəbədə, yataq otağındanmı işıq yanırdı-çaşdırdım... Elə ki, mənzilin qapısından qoluma girmiş bu oğlanla içəri ayaq basdım. Bütün qohum əqrabanı, otaqları dolu gördüm. Orta-böyük otaqda çəhrayı ipək örtük çəkilmiş cənazə qoyulmuş, anası başdan oturmuş, xalaları, qonum-qonşu cənazənin dövrəsində halay qurub əyləşmişdilər.

-Yox! Yox! Yox... Ola bilməz. İnanmıram! Məhəmməd, balam mənim! İnanmıram!-cənazənin ayağında çöküb, dizin-dizin onun üstünə can atdım: -Açın üzünü! Götürün örtüyü. Mən onu görmək istəyirəm!.. Mən səni haralarda axtarırdım, balam?! Gəlibmişsən, özün gəlibmişsən?! Məndən qabaq gəlib çıxmısan evimizə. Bütün nigaranlıq bitdi!" (3, 78).

S.Əhmədlinin yaratdığı Ata obrazı oğlunun axtarışını sona çatdırır, nigarançılıq, nisgil bitir. Lakin onun yoxluğu ilə barışmaq istəməyən ata, indi də onun ruhunun axtarışına çıxır; dünya, varlıq, aləmlər barədə informasiyalar oxuyur, oğlunu nəzərində, xəyalında canlandırır. Yazıçı obrazın-özünün daxilindəki sualları cəmiyyətə ünvanlayır. Tənqidçi İradə Musayeva bu obrazın xarakterini düzgün müəyyənləşdirərək yazır: "Bu romanda baş qəhrəman müəllifin özüdür. Başına gələn bədbəxt hadisənin təsvirini şəxsiləşdirmir, əksinə, onu zamanın, bitməmiş müharibənin bir fraqmenti kimi verir. Və var gücü ilə cismən itirdiyi oğlunu yaddaşda, ruhda, havada-sanki hər yerdə "bərpa etmək", yenidən yaratmaq istəyir" (4, 282).

Fikrimizcə, S.Əhmədli bu romanında həm müharibənin, həm də müharibə dövründə Atanın zamanla, hadisə ilə bağlı obrazını sənətkarlıqla yaratmışdır. Nəticədə "Axirət sevdası" əsərindəki Ata obrazı cəmiyyətin

ümumiləşmiş kişi obrazı kimi mənalanmışdır. Əslində romanın baş qəhrəmanı atanın obraz həyatı bundan sonra başlayır. Yazıçı diqqəti cəmmiyyətin sosial problematik həyatına yönəldir. Atanı həmişə ölüm düşündürür. Sanki bundan sonra qəhrəmanın ölüm haqqında düşüncələrinə yer verilir. Cəmiyyətdəki xaosla kosmosdakı xaos paralellik təşkil edir. Psixoloji ovqat obrazın bu cür situasiyalarda nə cür davrandığını bütün reallığı ilə üzə çıxarır. Beləliklə, yazıçı "Axirət sevdası" əsərində müharibə həqiqətlərinin acısını qəbul edən və bununla yaşayan Atanın obrazını yaratmış olur. Tənqidçi Tehran Əlişanoğlu yazıçının diqqətinin ölümə fokuslanmasını "Yanvar hekayələri"nin davamı kimi əlaqələndirir. Tənqidçi "Axirət sevdası" əsərinin başlıca uğuru kimi, əsərin qəhrəmanını görür: "Bununla belə, romanın başlıca uğuru, sözsüz ki, bədii qəhrəmanda ehtiva olunub. Əvvəldən axıra müəllif roman düşüncəsini məhz onun içindən buraxır və sanki (habelə yaşadığımız gerçəklikdə) parça-parça, qırıq-əlahiddə görünən məzmunları bu əsnada bir araya gətirir, bütövü verir. Bu mənada çəkinmədən demək olar ki, yazıçı fəhmi çağımızın nə vaxtdan bəri xiffətində olduğumuz roman dərkinə nüfuz edə, işləyə bilmişdir" (5, 35).

S.Əhmədlinin Qarabağ trilogiyasının digər əsərləri "Kef", və "Ömür urası" romanlarında da baş qəhrəman ahıl yazıçı- ziyalıdır. "Kef" əsərinin qəhrəmanı da cəmiyyəti düşünən, sosial çətinlik içində çırpınan bir kişi tipajıdır. Müəyyən mənada bu romandakı baş qəhrəman da elə "Axirət sevdası" əsərində oğlunu itirən yazıçının özüdür. Yazıçı ahıl ziyalının bir gününü təsvir edir. Lakin bu bir gündə onun xarakterini, düşüncələrini açmağa nail olur. Sosial çətinlik içində çırpınan yazıçı-ziyalı axşam gözlənilən bir sərəncamda onun da adının olacağını və bundan sonra həyatının müəyyən bir səhmana düşəcəyini fikirləşir. Ancaq gözlənilən sərəncam oxunsa da, onun adı siyahıda çıxmır. Maraqlıdır ki, yazıçı "Kef" romanının baş qəhrəmanına ad verməmiş, onu "Kişi" adlandırmışdır. Olsun ki, müəllif bununla obrazı ümumiləşdirməyə çalışmışdır. Hər halda "Kef" romanının qəhrəmanı Kişi müharibə və keçid dövrünün kişi tipajını bütün reallığı ilə əks etdirir. "Axirət sevdası"ndan sonra "Kef"ə keçidini təhlil edən tənqidçi Ə.Cahangir belə bir doğru qənaətə gəlir: "Reallığa məhz belə yüksək nöqtədən baxış yazıçıya həyatın dibindəki faciələrə enməyə və bu faciələri kinayə ilə "kef" adlandırmağa imkan verdi. Romanın qəhrəmanı olan Kişinin əsas problemi istər fərdi-şəxsi, istərsə də milli-siyasi baxımdan dədə yox, oğul dərdi, əsərin əsas problemi isə gələcək mövcudluq problemidir" (6, 14).

Postsovet Azərbaycan nəsrində Qarabağ müharibəsi, qaçqınlıq, keçid dövrünün kişi tipajlarını yaradan yazıçılardan biri də Elçinin bir-birinin davamı olan "Qarabağ şikəstəsi" və "Bayraqdar" povestlərində də eyni mühitin təsviri verilir. Onun qəhrəmanları müstəqillik dövrünün

qəhrəmanlarıdır. Hadisələr də Azərbaycan demokratik respublikasının 85-ci ildönümünə az qalmış, yəni 2003-cü ilin mayında baş verir. Əsərin qəhrəmanları da cəmi bir neçə il əvvəllər erməni işğalı nəticəsində özlərinin yurd və yerlərindən didərgin düşmüş qaçqınlardır. Yazıçı burada əsasən, kişi obrazları üzərində dayanır, onların yeni zaman və məkandakı xarakterini açmağa çalışır.

Maraqlıdır ki, hər iki əsər yazıçının təqdimində "Qaçqınlar silsiləsi" başlığı altında təqdim olunur. Şəhərdə dəmir çarxların səsini Şuşadan gələn "Qarabağ şikəstəsi"nin müşaiyəti Cümünü başqa bir dünyaya aparır. Yazıçının Cümünü nağıl dünyasında təsvir etməsi hadisələrin hərəkətliliyini təmin etməklə yanaşı, tipajın da canlı çıxmasına imkan yaratmışdır. Bu da təbiidir. "Qarabağ şikəstəsi" və "Bayraqdar"ın qəhrəmanları Cümü Şuşada doğulub boya-başa çatsa da, yer üzünün ən cənnət məkanını Buzovna yataqxanasına dəyişməli olmuşdur. Yazıçının bu əsərlərində yaratdığı Cümü, Surxay Bayraqdar, Kolxoz kişi, Ağasəlim, erməni Arsen və b. kişi tipajları bədii nəsrimiz üçün yeni və orijinaldır. Elçinin bu qəhrəmanları yer, yurd sevgisini içində yaşadan və o torpaqlar üçün xiffət çəkən obrazlardır. Bu obrazların özünəməxsusluğunu dəyərləndirən tənqidçi Elnarə Akimova Elçin tipajlarının ürəyindəki, düşüncəsindəki dərddə doğma yurdun ağrı-acılarını görür: "Qaçqın düşənə qədər Şuşada, bazar başında çayçı işləyən, birdəfəlik əlində "beşmərtəbəli çay sarayı gətirən" Gözlə-Gəlirəm Məmməd kişi Buzovnanın fəhlə yataqxanasındakı skamyada günlərini saymaqla ömrünü başa verir. Qırx ildən artıq Şuşada tarix müəllimi vəzifəsini daşıyan Fərzəli müəllim Molla Fərzəliyə çevrilib, yaxud Şuşada taksi sürücüsü işləyən Cümünü dərd içki aludəçisinə döndərir" (7, 126).

Əlbəttə, yazıçı hər iki povestdə kişi tipajlarının həyatını keçmişdə və indi verməklə, onların müxtəlif situasiyalardakı xarakterini verməyə çalışmışdır. Bu xarakter kişi qəhrəmanlarının yaşam tərzi ilə müvazi şəkildə verilir. Həyatın, şəraitin, müharibənin Kişi tipajlarına necə əl gəzdirməsini, xarakterinin necə dəyişməsi son dərəcə reallıqla təsvir edilir. Bu mənada Cümünün iki hərəkəti üzərində dayanmaq lazım gəlir. Belə ki, Cümü İsraildən gəlmiş və arvadı Sonaya bağışlanan fransız ətrini pulsuzluqdan satıb ona paltar almağı özünə sığışdırmadığı halda, Ağadadaşın itmiş qırmızı xoruzunu, iki toyuğunu motorellerinə qoyub evinə gətirir. O, fikrini belə əsaslandırır: "-Sizi çaqqal yeyənəcən, elə bizimkilər yeyər.-Sonra, elə bil özünə bəraət qazandırmaq üçün:-Çaqqallar yeməyə şey tapacaq" (8, 167),- deyir. Əlbəttə, bu detalla yazıçı qaçqınlıq həyatının bizə tanış olmayan yeni bir üzünü açır, qaçqın kişi tipajının xarakterik xüsusiyyətlərini bütün reallığı, çılpaqlığı ilə verməyə çalışır.

Postsovet dövründə yazılan əsərlərdən bir neçəsində yaradılan kişi tipajları içərisində döyüşçü-obrazlar da mühüm yer tutur. Belə ki, A.Abbasın

"Dolu" romanında müəyyən müharibə dövrünün Kişi tipajlarına rast gəlmək mümkündür. Çağdaş nəsrin axtarışlarında müharibə mövzusunun başlıca yer tutması təbiidir. Romanın müharibədən müəyyən bir zaman keçməsindən sonra yazılması Kişi tipajlarının kifayət qədər dolğun, məzmunlu çıxmasına imkan yaratmışdır. Bunun da müəyyən bir əsasları vardır, müharibədən bəhs edən əsərin tipajları da müharibə qəhrəmanları olur. Bu mənada A.Abbasın "Dolu" romanını həm də kişi tipajları qalereyası adlandırmaq yerinə düşər. Təsadüfi deyil ki, romanın bu məziyyətini akademik Nizami Cəfərov da görmüş və xüsusi olaraq qeyd etmişdir: "Məncə bu əsər daha çox obrazları ifadə edir. Deyək ki, burada Dünyanın Ən Varlı Şəhərinin də, həmin şəhərə müdaxilənin də obrazı var. Çünki müdaxilə proses kimi verilmir, obraz kimi təqdim olunur" (9, 7-8).

Əlbəttə, romanda tənqidçinin də qeyd etdiyi kimi, Qarabağın, müharibənin, Ağdamın obrazları da vardır, lakin bu obrazlarla yanaşı, müharibə dövrünün adamlarının tipajları çoxluq təşkil edir. At Belində Olan adam, Pələng, Komandir, Səhiyyə Nazirinin Müavini, Rəis, Birinci, Polyaniçko, Drakon, Vurğun Vurmuş Cavanlar və başqa bu kimi tipajlar bütövlükdə müharibənin ziddiyyətlərini, xarakterini üzə çıxarır. Göründüyü kimi, yazıçının əksər kişi tipajları şərti xarakter daşıyır. Lakin onlar şərti adlandırılsa da, hər birinin özünəməxsus insani keyfiyyətləri, xarakteri vardır. Roman boyu bu kişi tipajlarının xarakteri ilə tanış olduqca, onların şərtilikləri yox olur, əvəzində müharibənin iç üzünü açan obrazlar görürük. Romanın içində yaşadığımız hadisələrdən bəhs etməsi, buradakı tipajların bir çoxunun dillərdə gəzən "dastan"larda yaşaması müəllifdən "Xahiş edirəm, bu əsərdə kim isə nə isə axtarmasın, bu yazıçı təxəyyülündən başqa bir şey deyil" izahını yazmağı zəruri etmişdir. Bu tipajlar içərisində Komandir diqqəti daha çox cəlb edir. Yazıçı bu obrazla "Dünyanın ən varlı şəhərinin" düşmənə verilməməsi üçün göstərdiyi çabaları vermək istəmişdir. O, bu şəhərin düşmənə verilməməsi üçün hər şeyə hazırdır. Hətta bunun üçün cinayətə getməyi belə göz altına alır. Müharibə zamanı bu cür sərtliklər onun xarakterindən irəli gəlir. Komandirin Bakıdan gələn polkovniki güllələməsinin də əsasında məhz bu amil dayanırdı. Çünki Bakıdan gələn polkovnikin torpağın qorunması üçün fədakarlıq göstərmədiyi, həvəssiz döyüşdüyü açıq görünürdü. Belə hiss olunurdu ki, sanki onu zorla döyüş bölgəsinə göndəriblər. Yazıçı bunun səbəbini Bakıdan gələn polkovnikin psixoloji durumu ilə əlaqələndirir. O, elə hesab edirdi ki, Dünyanın Ən Varlı Şəhəri onun deyil, ona görə də fədakarlıq göstərməyə dəyməz. Aydındır ki, bu da onun sovet hərbi təhsili almasından irəli gəlirdi. Komandir isə burada doğulmuş, boya-başa çatmışdı. Düşmənə öz gücünü göstərməsə doğma şəhəri əldən gedəcək, insanlar qaçqına çevriləcəklər. Komandirin düşüncəsində buradakı döyüşçülər ya qəhrəman, ya da alçaq olmalı idi. Ona

görə də hamıdan qəhrəmanlıq tələb edirdi. Lakin yazıçı onun bu xarakterini yalnız müharibə şəraitində deyil, həm də dinc dövrdə göstərməklə dəyişmədiyinə işarə vurur. Müharibədə fədakarlıq göstərən Komandir elə bir zaman gəlir ki, onu vətənə xəyanətdən başqa, demək olar, bütün maddələrdə təqsirli bilib həbs edirlər. Onun müstəntiqə, "Mənim əlimdə hansı dövlət əmlakı olub ki, mənimsəyim?",- sualı müstəntiqin özünün də xarakterini açmaq üçün ən yaxşı vasitə olur. Komandirlə Müstəntiq arasında gedən dialoqda hər iki tipajın xarakteri açılmış olur: "-Komandir, mən də bilirəm ki, heç bir dövlət əmlakı mənimsəməmisən. Amma neyləyim, mən balaca adamam. Özün komandir olmusan. Sən döyüşçülərinə əmr edirdin ki, gedin ölümə, onlar da gedirdi?! Gedirdi! Mən də əmrə tabeyəm. Nə əmr eləyirlər, onu da yerinə yetirməliyəm. Ya da gəlib səninlə bir kamerada oturmalıyam. İndi rəva bilərsən ki, bir sürü uşağımı qoyub gəlim bura? Mən yazmasam, nə çox müstəntiq.

Komandir də rəva görməmişdi ki, müstəntiq bir sürü uşağını qoyub gəlib onunla bir kamerada yatsın. Gülüb demişdi:

-Yaz rəis, yaz! Nə yazsan qol çəkəcəm. Kişi adamsan ki, nakişiliyini boynuna aldın" (10, 196).

Kiçik bir detalda yazıçı Komandirin xarakterini üzə çıxarır, bu və digər yerlərdə kiçik detallar vasitəsilə tipajın xarakterini açmağa nail olur. Bunu nəzərdə tutan tənqidçi Cavanşir Yusifli yazır: "Onun personajlarının xarakteri, diqqət edilərsə, məhz bu detallar üzərində "qurulur", ancaq əl işi elə ustadır ki, yapışan yerlər sadəcə görünmür. "Dolu" romanında Komandir bütöv xarakterdir-hər bir hərəkəti, mimikası, münasibəti, jestləri, üz-göz ifadəsi...ilə. Müharibə mövzusunda bu tip xarakterləri yaratmaq çox çətindir, ən təhlükəli cəhət həmişə əmrlər verən, döyüşü istiqamətləndirən adamın obrazının sxematik alına bilməsidir. Komandir bir daha xatırladaq ki, canlı və bütöv obrazdır" (11).

Müharibə dövrünün kişi tipajları başqa bir yazıçının-Ağarəhim Rəhimovun bədii nəsrində də mühüm yer tutur. Müharibə mövzusunu nəsrə gətirən ilk yazıçılardan biri kimi, onun yaradıcılığında postsovet dövrünün kataklizmləri ilə yanaşı, qarabağ müharibəsinin müxtəlif aspektləri də canlandırılır. Müharibənin xarakterini açmaq üçün yazıçı kişi tipajlarından da istifadə edir. "Canavar balası" hekayəsi, "İkili dünyam", "Gəlinqayada qoşa məzar", "Ovlaq keçidi", "Səfalət" romanlarında müharibənin içində və arxa cəbhədə olan kişi tipajlarının yaradılması çağdaş bədii nəsrimizdə mühüm yer tutur. "Gəlinqayada qoşa məzar" povestində ermənilərə əsir düşməmək üçün azərbaycanlıların qarlı-çovğunlu gündə apardıqları mücadilə təsvir edilir. Buradakı tipajların bəziləri erməni əsirliyində öldürüldüyündən obraz səviyyəsinə qalxa bilməsə də, mətanətliliyi, əsirlikdə belə onların sözünü deməməsi və ölümü üstün tutmaları reallıqla verilir. Öz

evini tərk etmək istəməyən Əkrəm kişi ermənilərin qəfil hücumu ilə öldürülür. Kəndə hücum edən ermənilər silahsız insanları qətlə yetirirlər. Kənddə gizlənib qalan qız-gəlini qocalıb əldən düşmüş, ömrünün qürub çağını yaşayan Kərəm kişi erməni faşistlərinin əlindən qurtarmaq üçün onları azərbaycanlılar yaşayan başqa kəndlərə aparmağa çalışır. Onun planına görə Çıraqlı meşəsindən keçib Gəlinqaya səmtinə getməklə qız-gəlini ermənilərin əlindən xilas etmək mümkündür. Yazıçı burada onları müxtəlif situasiyalardan çıxarır. Ermənilər izlədiyindən körpənin səsi onların yerini nişan verə bilərdi. Əgər ermənilər onların yerini müəyyənləşdirsə idi, onda qız gəlinlərin hamısı erməni əsirliyinə düşəcəkdi. "Əsir alınsaq, namusumuz ayaqlar altına düşəcək, mənim balam...Bu sözlərim üçün bağışla məni!..",- deyə Kərəm kişi adamların narahatlığını Sədaqətə çatdırır. Lakin bunun nə demək olduğunu özü də yaxşı başa düşürdü. Bu o demək idi ki, körpənin səsi kəsiməlidi, yoxsa hamısı ələ keçəcəkdi. Lakin bu da kömək etmir, ermənilər onların yolunu kəsib mühasirəyə alır, öldürdüklərini öldürür, qalanlarını isə əsir alırlar. Ermənilər Kərəməli kişini tutub qulağını kəsməyə çalışırlar. Nə qədər əlləşsələr də Kərəməli qulağının kəsilməsinə, təhqir olunmasına imkan vermir. Lakin onu bərk-bərk dirəyə sarıdıqdan sonra bunu etmək mümkün olur. Sonra isə yandırırlar. Bütün bunlar Kərəm kişinin gözləri qarşısında baş verir. Yazıçı Kərəm kişini ağıllı, dəyanətli bir personaj kimi verir. O, qocadır, ermənilərə etirazını açıq şəkildə bildirmir, ancaq həmişə əsirləri və onları buradan qurtarmağın yollarını fikirləşir. Belə bir vaxt gəlib çatır, Növrəstə qapıçı Qriqoryanı öldürərək əsirlərin açarını götürüb onları azad edir. Kərəm kişi onları çox çətinliklə də olsa xilas edir. Yol boyu çətinlikləri dəf edərkən Kərəm kişinin xarakteri açılır. Kərəm kişi kimi onun dəstəsində olan kişi tipajları da dəyanətli, torpağını sevən obraz kimi mənalanır. Onların xarakterini ümumiləşdirən əsas cəhətlərdən biri mənəviyyatdır. Kərəm kişi, Musa, Fərid, Vəli kimi tipajları birləşdirən onların dözümü, mənəviyyatıdır. Vəli mövcud situasiyada belə düşünürdü: "-Mən burda öləcəm. Bir də əsir düşüb alçaqların, namərdlərin təqibi, təzyiqi altına düşməyəcəm...Musa intihar edəndə mən çox heyfsləndim. Özlüyümdə onu iradəsiz, dözümsüz sandım. Sən demə səhv düşünmüşəm. Sən demə Musa bunların hamısını əvvəlcədən duyubmuş... Heyvan kimi ömür sürməkdən, düşmənə boyun əyməkdən ölümünü əfzəl sayıb. İndi başa düşürəm ki, Musa ləyaqətini qorumaq üçün şərəfli ölümü qəbul edib" (12, 67).

Hətta müharibənin ən çətin zamanlarında belə onlar namusunu, mənəviyyatlarını qorumağa çalışırlar. Bütün bunlar Azərbaycan türkünün xarakteri kimi mənalanır. Tənqidçi Tehran Əlişanoğlu "Qoşa qanad" povestində kişi tipajlarının xarakterini təhlil edərkən gəldiyi qənaət maraq doğurur: "Kimisində ağıl-müdriklik-Kərəm kişidə olduğu kimi, yaxud iradə-mərdlik-cürət-Vəlidə olduğu tək, ya hiylə-tədbir-dəyanət-Növrəstədəki kimi,

ümumən insanlara rəhbərlik etmək, liderlik bacarığı kimi təzahür edən xüsusiyyətlər öz ətrafında digər personajları da toplayaraq bütövlükdə düşmənə qarşı mübarizə aparan el, camaat, xalq obrazını ortaya qoyur" (13, 26). Beləliklə, postsovet Azərbaycan nəsrinin kişi tipajlarına nəzər salarkən müharibə obrazlarına daha çox rast gəlirik. Bu da hər şeydən əvvəl, müharibə mövzusunun bədii nəsrimizdə geniş şəkildə işlənilməsindən irəli gəlir. Lakin bu əsərlərin heç də hamısında dövrün, müharibənin fəlsəfəsini, xarakterini açan tipajlar işlənilməmişdir. Hadisəçiliyə daha çox aludəçilik bəzən tipajın xarakterini bütün dolğunluğu ilə göstərməyə imkan verməmişdir. Bununla belə, S.Əhmədli, Elçin, A.Abbas, A.Rəhimov kimi yazıçıların yaradıcılığında ədəbiyyatımızda yeni kişi tipajlarına rast gəlmək olur. Bu tipajlar İkinci dünya müharibəsindən bəhs edən kişi tipajlarından geniş şəkildə fərqlənir.

Ədəbiyyat

1. Quliyev Q. Xüsusidən ümumiyə (məqalələr toplusu). Bakı, Elm və təhsil, 2016, 320 s.
2. Mehrəliyev E. Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu. Bakı, 2008,
3. Əhmədli S. "Azərbaycan" jurnalı, 1998, N1-2,
4. Musayeva İ. XXI əsrdən baxış: ədəbi tənqid və bədii söz. Bakı, Elm və təhsil, 724 s.
5. Əlişanoğlu T. Sabir Əhmədlinin Qarabağ trilogiyası. "Tənqid.net", 2008, N1 (5), s. 33-45
6. Əsəd C. Kim yatmış, kim oyaq. Bakı, Yazıçı, 2012, 520 s.
7. Akimova E. Yeni təfəkkür və ədəbi tənqid. Bakı: "MBM", 2013, 280 s.
8. Elçin. Seçilmiş əsərləri. 10 cilddə, II c., Bakı, Çinar-Çap, 2005, 523 s.
9. Cəfərov N. "Dolu" ədəbiyyatın "Qarabağnamə"sidir. "Tənqid.net", 1008, N5, s. 46-52
10. Aqil A. Dolu (roman). Bakı: “Təhsil”, 2008, s. 5-14
11. https://www.azadliq.org/a/24462092.html
12. Rəhimov A. Əsərləri. 10 cilddə, II c., Bakı, BQU, 2008, 556 s.
13. Əlişanoğlu T. Nəsrdə Qarabağ müharibəsinin aspektləri. Bakı: "BQU" nəşriyyatı, 2013, 155 s.

Гадирова Л.

Мужские типажи эпохи войны в современной азербайджанской прозе

Резюме

В статье анализируется мужские типажи эпохи войны в современной художественной прозе. Отмечается, что каждая эпоха имеет свои художественные тексты, а также коды, которые могут раскрыть данные тексты. Эти коды являются одним из лучших способов полностью раскрыть психологию, мышление и жизнь эпохи. Эти коды отображаются в тексте, а также в образах и изображениях этих текстов. Когда мы рассматриваем мужские типажи постсоветской азербайджанской прозы, часто сталкиваемся с воинственными образами. Это, прежде всего, связано с тем, тема войны широко распространена в нашей художественной прозе. Однако мужские типажи, которые раскрывают характер, философию эпохи, войны, были разработаныне во всех этих работах. Все больше изображения действий иногда не позволяет показать мужские типажи в полном объеме. Тем не менее, в произведениях писателей, таких как С.Ахмадли, Эльчин, А.Аббас, А.Рахимов, мы находим новые мужские типажи в нашей литературе.

Gadirova L.

Male types of the era of the war in modern Azerbaijani prose

Summary

The article analyzes male types of the war era in contemporary artistic prose. It is noted that each epoch has its own artistic texts, as well as codes that can disclose these texts. These codes are one of the best ways to fully reveal the psychology, thinking and life of the era. These codes are displayed in the text, as well as in images and images of these texts. When we consider the male types of post-Soviet Azerbaijani prose, we often encounter bellicose images. This, above all, is connected with the fact that the theme of war is widespread in our artistic prose. However, male types that reveal the character, the philosophy of the era, the war, were not developed in all these works. More and more images of actions sometimes do not allow to show male types in full. Nevertheless, in the writings of writers such as S.Ahmadli, Elchin, A.Abbas, A.Rahimov, we find new male types in our literature.

Rəyçi: Rəhilə Qeybullayeva
Filologiya üzrə eləmlər doktoru, professor

ELMİRA BABAYEVA
XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı
elmirababayeva0791@gmail.com

MÖVLUD SÜLEYMANLI NƏSRİNIN POETİKASI

Açar sözlər: Mövlud Süleymanlı, "Altmışıncılar", nəsr, poetika, lirik-psixoloji detal, obrazlar aləmi.
Key words: Movlud Suleymanli, "Sixties", prose, poetics, lyrical and psychological detail, the world of images.
Ключевые слова: Мовлуд Сулейманлы, "Шестидесятники", проза, поэтика, лирико-психологическая деталь, мир образов.

"Altmışıncılar"dan sonra nəsrə gələrək hekayə, povest, və romanlarında cəsarətlə bir sıra ictimai-siyasi problemlər qaldıran M.Süleymanlının yaradıcılığı hər şeydən əvvəl, nəsrin poetikası və obrazlar aləmi baxımından da özünəməxsusluq qazanır. Onun nəsrini mövcud ədəbi qüvvələrin yaradıcılığından fərqləndirən amillər sırasında bu xüsusiyyətlər üzərində geniş dayanmaq lazım gəlir. Aydındır ki, nəsrimizin rastlaşdığı yeni gerçəkliklər müəllifdən müasir bədii təfəkkür tərzi ilə yanaşı, poetika məsələlərində və obraz yaradıcılığında da yeni bir mərhələnin başlanmasını şərtləndirirdi. Artıq "altmışıncılar"ın yaradıcılığında zahiri monumentallıqdan, geniş panoramçılıqdan, sxematiklikdən və şablonçuluqdan qurtarmaq təmayülləri 70-ci illər nəsrində yeni bədii statusda çıxış edir. Nəsrdə şablonçuluq, sxematiklik poetikasının süni epik vüsətin yerini lirik-psixoloji detalların təsviri tutur. Hadisə və süjetlərin monumentallığını indiyə qədər nəsrdə öz əksini tapmayan adi, kiçik insan obrazları, onların daxili aləminin inikası əvəz edir. Bu təmayül xüsusilə R.Rövşən və M.Süleymanlı yaradıcılığında daha qabarıq nəzərə çarpır. Əsasən şair kimi tanınan R.Rövşən "Daş" povesti və bir neçə hekayəsində poetika məsələləri ilə diqqəti cəlb etdi. M.Süleymanlı da nəsrin daxili strukturunda etdiyi əhəmiyyətli dəyişikliklərlə nəsrdə keyfiyyət və harmoniya məsələlərinə daha çox diqqət yetirəcəyini vəd edirdi. Bədii düşüncənin özünəməxsus təsviri və gerçəkliyi səciyyələndirən keyfiyyətlərin inikasında sənətkarlıq məsələlərinə daha çox diqqət yetirilməsi tənqidçi A.Hüseynovun da nəzərindən yayınmamışdır. Hələ nəsrdə ilk addımlarını atan gənc nasirlərin yaradıcılıq poetikasında yeni elementlərin üzə çıxarılması da məhz A.Hüseynova müyəssər olmuşdur. O, yazırdı: "Gənc nasirlərdən V.Nəsibin, M.Süleymanlının, R.Rövşənin, Şahmarın, B.Vəziroğlunun yaradıcılığı da həmin mülahizə baxımından ("altmışıncılar"ın fərdi simalarının müəyyənləşməsi, gerçəkliyin estetik şərtlərinin rəngarəngliyi və s.) diqqətəlayiqdir.

Onlar nəsrimiz üçün yeni olan boyalarla həyatın təcəssümünə çalışırlar" (2, 66).

M.Süleymanlının nəsr poetikasını şərtləndirən amillər müxtəlif, rəngarəng və zəngindir. Şübhəsiz burada öncə yazıçının özünəməxsus poetik sisteminin varlığından, daha sonra isə ritm, intonasiya, detal, təfərrüat və obraz yaradıcılığı problemlərindən danışmaq yerinə düşərdi. Bədii təfəkkürün ifadə vasitələri, söz, psixologizm kimi məsələlər də poetikanın ədəbi-bədii materialını təşkil edir.

Şübhəsiz, müharibə və onun dəhşətləri haqqında çox yazılmışdır. Xüsusilə müharibə illərinin övladları olan İ.Hüseynov, Ə.Əylisli, S.Əhmədov kimi yazıçılar məhz bu mövzu ilə ədəbiyyatda özlərini təsdiq etmişdilər. Ancaq M.Süleymanlı "Payız muştuluqları" hekayəsində bəşəri fəlakəti fərdi faciədə əks etdirməyi üstün tutdu. Yazıçı müharibədən sonrakı həyatda müharibənin vurduğu yaraların yavaş-yavaş sağalması prosesini yeni poetik elementlərlə səciyyələndirir. Bu element poçtalyon Əyri Tapdığın insanlara muştuluq aparması üçün keçirdiyi həyəcanların canlı təsvirindən ibarətdir. Dava qurtarandan dörd ev muştuluqlayan Mədətdən fərqli olaraq Əyri Tapdıq gündə gedib qonşu kənddən məktublar gətirərdi. Ancaq indi camaata məktub yox, muştuluq lazım idi. Nəhayət, onun da muştuluqlamaq növbəsi gəlib çatdı. O, bu dəfə qonşu kənddən tək gəlmirdi, çoxdandır yolunu gözləməkdən quruca nəfəsi qalan qarının oğlu Cəfər müəllimlə birlikdə gəlir, qarını muştuluqlayacağına sevinirdi. Lakin Tapdıq muştuluğunu almağa belə qalmır. Çünki Cəfər müəllimin iki ayağı yox idi. İllər boyu həsrətlə, intizarla yolunu gözləyən qarı doyunca sevinə bilmədiyi kimi, Tapdıq də muştuluğunu gözləmədən bu kədərli mənzərəni tərk edib gedir.

M.Süleymanlının ilk hekayələrində və "Şanapipik" povestində ünsür şəklində olan poetik sistem, bizə elə gəlir ki, "Dəyirman" povestində daha da formalaşmağa doğru gedir. Məhz bu əsərdə realist nəsr ilə nağıl poetikası ilk dəfə olaraq vəhdətdə çıxış edir. Yazıçının nəsrə gətirdiyi bu realist-nağıl poetikası onun ədəbi düşüncədəki bədii imkanlarını bir qədər də artırmış olur. Əslində, elə povestin ədəbi aləmdə böyük səs-küylə qarşılaşmasının bir səbəbi də, məhz, əsərdə yeni poetik sistemin yaradılması, yaxud mövcud nəsr poetikasına yeni elementlərin gətirilməsi olmuşdur. Buna bir sıra tənqilçilər, o cümlədən, K.Abdullayev də işarə etmişdir. "Dəyirman" povestinin əfsanələrimizlə, nağıllarımızla qəribə səsləşməsi var. Şübhəsiz bu səsləşmə öncə povestin poetikasında, daha sonra isə qədimdə əcdahaların gəlib şəhərin suyunu kəsməsi kimi hadisələrlə bağlıdır. Realist nəsr-nağıl poetikası, demək olar ki, bütünlüklə povestin daxili strukturunu əhatə edir, müəllif nağıl estetikasına xas olan ideallaşdırma üsuluna və rəmzləşdirmə üslubuna müraciət edir: "Bir kötüyün qırağında üç oğlan oturmuşdu, üçünün də barmaqları qızıllı, dişləri qızıllıydı. Boylarına görəydimi, qızıllı

barmaqlarına görəydimi, qızıllı dişlərinə görəydimi, oturuşlarına, danışıqlarına görəydimi, nəydisə bir-birindən seçilmirdilər. Biri qanrılıb alyanaqlı, ağ xalatlı göyçək kababçını səslədi" (4, 8).

Povestdə konfliktin mərkəzinə qoyulan xeyir və şər antitezasının mənasını açmaq üçün müəllif realist-nağıl (əfsanə) poetik sistemindən istifadə etməkdə haqlıdır. Çünki, 70-ci illərdə nəinki ədəbi senzura, eləcə də siyasi senzuranın gözündən yayınmaq mümkün deyildi. Lakin dövrün gerçəkliyinin təsvirində nağıl poetikası da müəllifi tənqidlərdən, hücumlardan qoruya bilmir. Yazıçı X.Hasilova povesti "qəzəblənmədən oxuya bilmir". Müəllifi qəzəbləndirən sosialist gerçəkliyində baş verən hadisələrin, adamların təhrif olunmasıdır. Onun fikrincə, "oxucu povesti səhifələdikcə çıxılmaz bir vəziyyətdə qalır. Müəllif hansı kəndi təsvir edir, bu adamlar hansı dövrdə yaşayırlar? Əgər bizim günlərin təsviri isə, bəs hanı bizim kənd zəhmətkeşlərimiz?" (1).

Əslində, "Dəyirman" povestinin, mövzu və ideyasını, poetik sistemini tənqidçidən əvvəl gərək yazıçı yaxşı dərk edəydi. Ancaq belə olmur, X.Hasilova oxucular adından (?) danışaraq povesti oxuduqca çıxılmaz vəziyyətə düşdüyünü qeyd edir. Fikrimizcə, yazıçını qəzəbləndirən "Dəyirman"da M.Süleymanlının yeni bədii düşüncə və yeni nəsr strukturunu (konflikt, süjet, bədii detal və portret, təfərrüatların təsvirində realist nağılvarilik və s.) ortaya qoyması olmuşdur. Məhz "Dəyirman"da müasir gerçəklik nağılvari təfəkkürün köməyi ilə realist nəsrin əsas komponentinə çevrilərək ona yeni xüsusiyyət gətirmişdir. Povestdəki müəllif təhkiyəsi, obrazların, hadisələrin məkan və zamanın təsvirində şərtilik və rəmzilik, alliterativ cümlələr - bütün bunlar yazıçının və yeni nəsrin poetikasını şərtləndirən amillərə çevrilir. Eyni zamanda, povestdə xeyirin bütün sətirlərdə boylandığını hiss etməmək olmur: "Günəş dağların dalına elə sevinclə enməkdəydi ki, elə bil dünya üzünə bir də çıxmayacaqdı. Dağların, buludların kölgələri böyüdüyündən yer üzü ləkə-ləkə olmuşdu. Dəyirmanın balaca bacası, süd əmirmiş kimi, günəşin son işığını sormaqdaydı. Amma bu işıqdan da heç kəsin xəbəri yoxuydu" (6).

Yeni nəsr poetikasının təşəkkülündən, onun özünəməxsusluğundan yaradıcı şəkildə "qidalanan" M.Süleymanlı, eyni zamanda, ədəbi prosesdə yeni bir mərhələyə keçmənin də zərurətini başa düşürdü. Nasirin yaradıcılıq simasının müəyyənləşdirilməsində poetik sintaksisin önə çıxması da elə bu dövrə təsadüf edir. "Köç" romanında, "Yel Əhmədin bəyliyi", "Şeytan" povestində onun nəsr poetikasına yeni elementlər daxil olur. Bu əsərlərdə nağılvari təfəkkür realist əsərlərin üzvi komponentinə çevrilmişdir. Əslində, bu ədəbi proses dünya ədəbiyyatında (xüsusilə Latın Amerikası ədəbi fikrində) çoxdan başlamışdı: Bu poetik sistemin keçmiş sovet nəsrinin əsas xüsusiyyətlərindən birinə çevrilməsini də nəzərə alsaq (bu xüsusiyyət

Ç.Aytmatovun, İ.Əfəndiyevin ("Sarıköynəklə Valehin nağılı"), qismən də Ə.Əylisliinin ("Adamlar və ağaclar" trilogiyası yaradıcılığında daha əlamətdar olur), həmin təmayülün ilk dəfə olaraq kompleks şəklində M.Süleymanlı yaradıcılığında peyda olmasını təbii qarşılamaq olar. M.Süleymanlı nəsr yaradıcılığının bu mərhələsində daha qlobal məsələlər qoymağa, müasir sivilizasiyanı narahat edən problemləri tarixi yaddaşın köməyi ilə təsvir etməyə can atır. Elə ədəbi tənqid də nəsrdə baş verən bu təmayülü müsbət amil kimi qiymətləndirməkdə haqlı görünürdü: "Bu baxımdan nağılvari təfəkkürdə bir müasirlik də vardır: dünya daim dəyişir, inkişaf edir, lakin dövrlər, əsrlər arasında fərq olduğu kimi, daxili bağlılıq da mövcuddur, hər əsr digərinə bənzəmir... "Biri vardı, biri yoxdu" kəlamı bütün zamanlara aid olan hadisələr, münaqişələr, psixoloji nəzəriyyələr arasındakı uyğunluğun, vəhdətin ifadəsidir. Nağılvari təfəkkürün ölməzliyi elə burasındadır". Ədəbi prosesdə baş verən bu təmayülü A.Hüseynov da vaxtında hiss edərək, hazırda folklora istinad etmənin bütünlükdə ittifaq ədəbiyyatında, dünya bədii fikrində güclü olduğu qənaətində olsa da, bundan faydalanmağın müxtəlif yolları olduğunu göstərirdi. Onun fikrincə, indi dəbdə olan "nağıl", "mif", "pritça" sözləri bəzən xalis metafora kimi səslənir, yazıçı xalq ədəbiyyatının formal əlamətlərinə, təhkiyə üsulunun zahiri elementlərinə əməl edərək əsərini nağıla, dastana bənzədir (2, 178). M.Süleymanlı nəsrində isə folklor ruhu və poetikası yazıçının "bədii düşüncəsinin, həyatı estetik qavrayışının üslubunun mayasında duyulur". A.Hüseynovun folklor koloritinin M.Süleymanlının "Köç" əsərinin ruhuna hopması fikrini "Yel Əhmədin bəyliyi" və "Şeytan" povestlərinə də aid etmək olar. Belə ki, məhz bu əsərlərin ruhunu, poetik sistemini nağılvarilik, dastanvarilik təfəkkür tərzi əhatə edir. Bu cəhətdən "Köç" romanının ritmi və intonasiyası üzərində ayrıca dayanmaq lazım gəlir.

"Köç" romanında da yazıçı öz məqsədinə çatmaq üçün bilərəkdən (!) elə bir bədii intonasiya seçmişdir ki, bu intonasiya tarixi yaddaşı, baş verən hadisələri, mətləbləri çatdıra bilsin. Aydındır ki, nağılın bir qütbündə xeyir, o biri qütbündə isə şər qüvvələr durur. "Köç" romanı da məhz bu iki qütbün müxtəlif konfliktlərlə əyaniləşən hadisələri üzərində qurulmuşdur: "Üç yüz ildən çox idi Qarakəllə kökü ilə Qanıq nəslinin arasında qan axırdı. Üç yüz il idi ki, iki kök arasında döyüşlər gedirdi. Üç yüz il idi yan-yana, qırıla-qırıla, təzədən cücərə-cücərə yol gəlirdilər. İmirin atası axırıncı Qarakəlləydi" (3, 28).

Romanın ümumi axarını təşkil edən bu mübarizə əsər boyu konkret hadisə və kolliziyalarla müşayiət olunur. Bu hadisə və kolliziyaların əsasında da "biri vardı, bir yoxdu" təhkiyəsi durur. Yazıçı əsər boyu bu təhkiyəni qoruyub saxlamaqla eyni zamanda romanın ritmini saxlamağa çalışır: "Göyüş atdan düşdü, yamacdan quzuqulağı, yemlik, quşəppəyi yığdı. At

birdən-birə kişnəyib ayağını yerə döydü. Yamacdan bir tülkü çıxdı, itələnə-itələnə özünü dərəyə saldı. Üç atlı başının üstünü aldı.

– Tərpənmə, Qarakəllə Göyüş! (3, 26).

Burada, keçmiş zamanda sintaktik və bütöv şəklində sıralanan sözlər bir sistem təşkil edərək konkret hadisəni bütün varlığıyla canlandırır. Göyüşün atdan düşməsi, quşəppəyi yığması, atın birdən-birə kişnəməsi, tülkünün özünü dərəyə salması və üç atlının onun başının üstünü alması hadisəsi cəmi bir neçə cümlədə əhatə olunur. Yazıçı bütün bunları canlı nitqin sayəsində formalaşdırmağa nail olur. Bu cür parçalar əsərin müxtəlif yerlərində səpələnsə də, bir-birini izləməklə yanaşı, həm də bir-birini tamamlayır. Düşmənin Qarakəllə tayfasının qoyun sürülərinə hücum etməsi səhnəsi də eyni şəkildə canlı intonasiya ilə təsvir edilir: "Qutluğun yoğun, xırıltılı səsinə bayaqdan qanlı-qanlı ləhləyən qoyun itləri yerlərindən qopub özlərini atlıların üstlərinə saldılar, çaxnaşma düşdü, itləri qamçıladılar. Atlıların üçü sürüyə çatdı. Beyrək çomağına çəkilib onların qabağını kəsdi. O biri atlıların qonarğasına düşmüş yoldaşını səslədi:

– Batıq, atları vur, çoxdular" (3, 71).

Təsvir olunan bu gerçək mənzərə yalnız yazıçı dilinin səlisliyi, nağılvari poetik sistemin qarşısında əyaniləşir, hadisə bütün təfərrüatı ilə canlandırılır. Burada hər hansı bir sözün mətndən çıxarılmasının mümkün olması bir yana, ritm və intonasiya nəsrin poetikasında əhəmiyyətli rol oynamışdır. Tənqidçi K.Vəliyevin yazdığı kimi, "Çətin ki, yazıçı öz intonasiyasını tapmadan yaxşı əsər yaza bilsin. Hətta intonasiyanın ana xətti, bir olan yazıçının ayrı-ayrı əsərlərinin hər birinin öz informasiyası olmalıdır. Əks halda üslub yeknəsəkliyi yaranır, intonasiya ölgünləşir, yazıçı səs rənglərinin verdiyi üstünlükdən istifadə edə bilmir" (8, 234).

"Köç" romanında nağılvari təfəkkür tərzində ümumiləşdirmə, rəmzləş-dirmə elementlərindən də geniş istifadə etməklə yazıçı əsərin poetik sistemində məntiqi ardıcıllığı davam etdirir. Bir dövrə, bir əsrə sığmayan hadisələri bəzən yazıçı ümumiləşdirmə nəticəsində cəmi bir neçə cümlədə ifadə edir: "İlxıda atlar, naxırda inəklər doğdu, sğırçılar, ilxıçılar təzə doğulan buzovları, dayçaları çiyinlərinə götürüb otlaqlardan alaçıqların qabağına gətirdilər. Dayçaların, buzovların anaları kişnəyə-kişnəyə, mələyə-mələyə qaçıb özlərini yurda saldılar.

...Beləcə Qarakəlləliləri yurda bağlayan duyğular artmaqdaydı. Qılınclarını, oxlarını açıb alaçıqlara qoymuşdular, əlləri boş idi. Yəqin elə ona görə də darıxıb, kövrəlib qəribsəyirdilər" (3, 70).

Ola bilsin ki, bu sətirləri bütün bəşər tarixinin keçdiyi yola da aid etmək olar, ancaq M.Süleymanlı burada Qarakəlləlilərin köçərilikdən oturaq həyata atılmalarını (bəlkə qayıtmalarını!) təsvir edir. Yazıçı tarixi mərhələləri bir və ya iki hadisə daxilində bütün reallığı ilə ümumiləşdirə

bilir. Qarakəlləlilərin at belində gəzmələri, köçəri alaçıqların qazma daxmalarla əvəz olunması, qan intiqamı, ilk oğurluq, əmanətin nəsildən nəslə çatdırılması, tayfa ədavətinin qəbilədaxili ədavətə keçməsi, tanrının Allahla əvəz olunması və s. bunların hər biri hər hansı bir romanın kolliziyasını təşkil edə biləcək hadisələr olmasına baxmayaraq, yazıçı məhz nağılvari təfəkkür poetikasının köməyilə məqsədinə nail olur.

Romanda rəmzlər silsiləsinə də geniş yer verilir. Vaxtilə həqiqət olan bu hadisələr bu gün bizə nağıllarda olan sehr kimi görünür. Kişilik rəmzi yalnız Qarakəllə tayfasına deyil, həm də Qanıquşağı nəslinə aid edilir. Sevənlərə (düşmən olsalar belə) buta verilməsi, insanların hadisələri əvvəlcədən görüb duya bilməsi, müxtəlif təbiət hadisələri (yağışın yağması, ildırım çaxması və s.), ən sağalmaz yaraların bir otun köməyi ilə sağalması, insanın sınmış sümüklərini yenidən bir-birinə yapışdıraraq bitişdirməsi və s. nağılvari rəmzlərin yalnız bir hissəsidir. Bütün bunlar əsərdə zahiri səciyyə daşımır, onun ideya və məzmunu ilə qovuşuq şəkildə təqdim edilir.

Yazıçı Qarakəlləlilərin əzəli yurdlarına dönüşünü, torpağa bağlılıqlarını cəmi bir neçə sətirdə ifadə etməyə çalışır: "Yeddi bölük olub yeddi pay yer əkdilər, Qoşqar evindən toxum gətirməyə atlı göndərdilər. Yer şumladılar, toxum səpdilər. Yeddi gündən sonra Dədənin üstündə göyərdi, əkinlər də. Ağ dəvəylə başlanacaq qorxu yavaş-yavaş yaddan çıxırdı" (3, 71).

Yeddi rəqəminin xalqımızın mifik təfəkküründə xüsusi yer tutduğundandır ki, müəllif bu parçada yalnız rəqəm alliterasiyası yaratmaq istəməmişdir, xalqın keçib gəldiyi yolda rəmzlərin əhəmiyyətini də ifadə etməyə çalışmışdır. Əsərdə etnoqrafik informasiyaların, ekzotik epizodların geniş yer almasını da, yazıçının nəsr poetikasını zənginləşdirən amillər sırasına aid etmək mümkündür. Bütün bunlar M.Süleymanlının nəsr poetikasının yaranmasına ciddi əhəmiyyət verdiyinin qabarıq göstəricisidir.

M.Süleymanlının nəsr poetikasına zənginlik və özünəməxsusluq gətirən əsərləri sırasında "Yel Əhmədin bəyliyi", "Şeytan", "Duzsuzluq" povestləri və qismən də "Səs" romanı üzərində geniş dayanmaq lazım gəlir. Özünün poetik nəsr sistemi baxımından "Şeytan" və "Yel Əhmədin bəyliyi" bu dövrün nəsr əsərlərinə yeni bir poetik sistem gətirir. Şərlə mənəvi-psixoloji toqquşma bu əsərlərdə yalnız maraqlı və orijinal təhkiyə üslubu ilə şərtlənmir, eyni zamanda bədii detal və təfərrüatların ardıcıllığı, sistemliyi ilə yadda qalır. Bu əsərlərin səciyyəvi xüsusiyyətlərindən biri də məhz poetik sistemdə ayrı-ayrı komponentlərin (ritm, intonasiya, psixologizm, detal və təfərrüat və s.) bir-birini tamamlamışdır. Nəsr poetikasında detal və təfərrüatın rolunu xüsusi qiymətləndirən tədqiqatçı K.Vəliyevin "nəsrdə bu problemlərin hər şeydən əvvəl sənətkarın yaradıcılıq metodundan, daxil olduğu ədəbi-estetik məktəbdən, fərdi üslubdan asılıdır" (7, 57) fikrində

böyük həqiqət vardır. Məhz bu komponentlərin hər biri ayrı-ayrılıqda və birlikdə nəsr poetikasını, sənətkarlıq səviyyəsini müəyyənləşdirən əsas obrazlardan birinə çevrilir.

"Şeytan" və "Yel Əhmədin bəyliyi" povestləri üçün tapılan detal başlıca rol oynayır və sonrakı süjet və hadisələrin inkişafında həlledici mövqeyə malik olur. İnsanların şeytanlaşması ilə, şeytanların insanlaşması kimi qeyri-adi bir detal povestin bədii mahiyyətini təşkil edir. "Yel Əhmədin bəyliyi"ndə isə qəhrəmanın yel kimi uçub getməsi bədii, psixoloji vəziyyətlərinin orijinal təsviri ilə müşayiət olunur. Şeytanla bağlı əsər boyu təqdim olunan detal və təfərrüatlar bütünlüklə onun mahiyyətini üzə çıxarır: "Şeytanın bu dünyada bir öküzlərdən xoşu gəlməzdi, bir sudan, bir də taxıl zəmilərindən. Amma itləri hürdürərdi, atları minərdi, keçiləri daşa dırmaşdırardı, pişikləri məzəyə çəkərdi. Adamları salırdı bir-birinin üstünə. Belə şeylər idi şeytanı yaşadan. Dəyirmançıydı, Fatı qarıydı, mollaydı, qazıydı. Bu cür adamlar olmasaydı, şeytanın dünyada nə işi vardı. Yalanlar, yalançılar idi şeytanı yaşadan. Şeytan da yalan içində atıb-atıb, daylağın çapırdı" (3, 203).

M.Süleymanlı əvvəldə təsvir etdiyi detalları şüurlu olaraq təfərrüatlarla möhkəmləndirir və beləliklə, əsərin poetik sisteminin uğurlu çıxmasına nail olur. Şeytanın Fatma ilə dəyirmançını yoldan çıxardıqdan sonra onların hərəkət və davranışlarını aşağıdakı detalla xarakterizə edir: "Fatma dəyirmana boş gedib dolu qayıdırdı. Başını salmışdı aşağı. Eşşək də ayağını sürüyürdü, Fatma da. Dəyirmançı yenə də daşının üstündə oturmuşdu, qəlyanını tüstülədirdi. Qəlyanının tüstüsü də şeytan yolu eləyib burula-burula qalxırdı. Dəyirmançı gördü Ağca gəlir, yerindən durdu, təzədən oturdu" (3, 200).

Şeytanın bir-bir kənd camaatını "şeytanlasdırması" müxtəlif detallarla təsvir edilir, şeytan hər bir insanın təbiətinə xas xüsusiyyətdən irəli gələrək onu təsir altına ala bilir. Detal və təfərrüatların zəncirvari həlqəsi bütövlükdə əsərin poetik sistemini təşkil edir. Nəticədə, geniş epik təsvirin ayrı-ayrı hadisələrin təfərrüatları konkret detallarla göstərilir. Detalların düzülüşündə müəllif müşahidələrinin reallığı ilə yanaşı, detallar arasındakı əlaqə, ardıcıllıq və sistemlilik də diqqətdən yayınmır.

"Səs" romanında isə yazıçının nəsr poetikası lirik intonasiyaya söykənib, buradakı hadisələr, əhvalatlar, insan taleləri duyğulu, kədərli və kövrək dil ilə təsvir olunur. Cəmiyyətdə mənəvi tarazlığın pozulmasının milli faciə kimi verilməsi bədii cəhətdən kifayət qədər əsaslandırılır. Detal və təfərrüatların bir-birini tamamlaması müəllif niyyətinin dərinliyindəki ən incə məqamları belə üzə çıxarır. Haley təbiətdəki və cəmiyyətdəki səslər arasındakı harmoniyanı hiss edir, duyur. Cəmiyyətdə öz yerini tapa bilməsə də, öz daxili səsi ilə itin səsi arasındakı ünsiyyəti "oxuyaraq" bir qədər

rahatlıq tapır: "İt hürdü, itin səsinin yenə pəncərəyə necə dəydiyini, pəncərənin necə titrədiyini hiss elədi, elə bil əlini şüşəyə vurdu, şüşələrdən iniltiyə bənzər uğultu keçdi, taxçadakı büllur qablar yenə sızıldaşdı, sonra ağzı qaralmış qara pianinonun dilləri ilə öz içindəcə söylənməyə başladı. İtin hürməsindən tutmuş büllur qabların sızıltısınacan bütün səslərdə qəribə bir nizam, uyğunluq vardı ki, o, bu binaya köçəndən bütün səslərin kökünü öz içindən duyub başının ağrısından əzab çəkə-çəkə dinləyirdi" (5, 13).

"Səs" romanında yazıçının nəsr poetikasında yeni təhkiyə üsulu, detalların və təfərrüatların məntiqi ardıcıllığı M.Süleymanlının poetik nəsr sahəsində də virtuoz bir sənətkar olduğunu aşkara çıxarır. Bu əsər şəxsiyyət və cəmiyyət, fərd və ekoloji mühit, insan və təbiət kimi problemlərin əks etdirilməsi baxımından gərgin axtarışların məhsuludur.

M.Süleymanlı nəsrinin poetikasının səciyyəvi cəhətlərindən biri də povest və romanlarında qoyulan problemlərin bədii həlli üçün müəllifin həyat hadisələri və faktlarının özünəməxsus təsvir formasıdır. Elə bədii materialın özü də M.Süleymanlı yaradıcılığında əsas məqsədə xidmət edir - gerçəkliyə estetik münasibətin bütün parametrlərini göstərmək.

Doğrudur, müəllif bəzən həyat materialının süjet və kompozisiyaya gətirilməsində həddən artıq ifratçılığa varır. Bu materiallar (bəzən eyni xarakterli) yazıçı müşahidəsinin nəticəsi kimi o qədər çox yer alır ki, həm süjet və kompozisiyanı ağırlaşdırır, həm də yazıçı əsas məqsəddən yayınır. "Ceviz qurdu" əsərindəki həyat materialının hər biri bir əsərin süjet xəttinə qoyulan problemlər olmasına baxmayaraq, yazıçı bütün bu hadisələri bir romanda eyniləşdirə bilmişdir. Nəticədə, romanın poetikasına xələl gəlmiş, strukturu zədələnmişdir. Zədələnmiş bədii strtukturda isə müasir dövrün mənəvi, əxlaqi, sosial problemlərinin qoyuluşu və həlli çətin olduğu qədər də mümkünsüz görünür.

M.Süleymanlının nəsr poetikası bir də onunla şərtlənir ki, yazıçı hər hansı bir hadisənin epik təsvirindən çox, onun mahiyyətinə varır və daha çox analitik təhlilləri üstün tutur. Analitik assosiativ təhlil M.Süleymanlının xüsusilə "Dəyirman", "Şeytan", "Yel Əhmədin bəyliyi" povestlərində, "Köç" və "Ceviz qurdu" romanlarında üstünlük təşkil edir.

M.Süleymanlının nəsr poetikası analoqu olmayan bir sistemdir, bu sistemin araşdırılmasında yazıçının bədii təfəkkür tərzi ilə yanaşı, doğulub boya-başa çatdığı torpağın milli etnoqrafik ruhu da əsas rol oynayır.

ƏDƏBİYYAT

1. Hasilova X. Qorxunc dəyirman. "Ədəbiyyat və incəsənət" qəz., 1979, 3 avqust.
2. Hüseynov A. Sənət meyarı. Bakı: Yazıçı, 1986, 315 səh.
3. Süleymanlı M. Köç (roman və povestlər). Bakı: Yazıçı, 1984, 278 s.
4. Süleymanlı M. Səs (povestlər və roman). Bakı: Yazıçı. 1988, 376 s.
5. Süleymanlı M. Günah duası. Bakı: Gənclik, 1993, 232 səh.
6. Təhmasib T. Dünyanı dəyirmana çevirənlər. "Ədəbiyyat və incəsənət" qəz., 1988, 16 dekabr.
7. Vəliyev K. Bədii detal və təfərrüat //Ulduz, 1979, № 3, s.57-64.
8. VəliyevK. Sözünsehri. Bakı: Yazıçı, 1986. 301 s.

E.Babayeva

The poetics of prose of Movlud Suleymanli
Summary

After the "sixties" the creativity of M. Suleymanli, who, starting with prose, decidedly raised a series of socio-political problems in stories, narratives and novels, first of all became peculiarity from the point of view of poetics of prose and the world of images. It is necessary to concentrate especially on these features among those factors that distinguish his prose from the creativity of existing literary forces.

It is obvious that the new realities that our prose has encountered, caused the author to start a new stage in the creation of poetics and creativity alongside the style of modern artistic thinking. Already in the creativity of the "sixties" the tendency to get rid of external monumentality, extensive panoramism, schematism and templateshipactsin the new artistic status in the prose of the 1970s. In prose, lyrical and psychological details are replacing the artificial epic sphere of the poetics of templateship, schematism.

Factors that make the poetics of prose M. Suleymanli are varied, colorful and rich. Undoubtedly, here it would be appropriate to speak first about the existence of a peculiar poetic system of the writer, and then about the problems in rhythm, intonation, details and creativity of the images.

The poetics of prose of M. Suleymanli is a system that has no analogues. In studying this system, along with the writer's artistic thinking, the national ethnographic spirit of the land, where he was born and raised, plays an important role.

Э.Бабаева

Поэтика прозы Мовлуда Сулейманлы
Резюме

После “шестидесятников” творчество М. Сулейманлы, который начиная с прозысмело поднял ряд социально-политических проблем в рассказах, повествованиях и романах, прежде всего, стало своеобразным с точки зрения поэтики прозы и мир образов. Необходимоособенно сосредоточится на этих особенностях среди тех факторов, которые отличают его прозу от творчества существующих литературных сил. Очевидно, что новые реальности, с которыми столкнулась наша проза, обусловливал автору начать новый этап в создании поэтики и творчества наряду стиля современного художественного мышление. Уже в творчестве “шестидесятников” тенденции избавлении от внешней монументальности,обширнойпанорамности, схематичности и банальности выступают в новой художественной статусе в прозах 1970-х годах. В прозе лирико-психологические детали заменяют искусственную эпическую сферу поэтику банальности, схематичности.

Факторы, которые делают поэтику прозы М.Сулейманли разнообразны, красочны и богаты. Несомненно, здесь уместно было бы говорить сперва оналичие своеобразной поэтической системе писателя, а потом о проблемах вритме, интонации, деталях, подробностях и творчестве изображениях.

Поэтика прозы М. Сулейманли - это система, не имеющая аналогов. При изучении этой системы наряду с художественным мышлением писателя важную роль играет национальный этнографический дух земли, где он родился и вырос.

Rəyçi: Gunay Qarayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ŞƏLALƏ QULİYEVA
BDU-nun "Televiziya və radio jurnalistikası" kafedrası
selale_meh@mail.ru
selalequliyeva8@gmail.com

AUDİOPUBLİSİSTİKADA İFADƏ VASİTƏLƏRİNİN SİNTEZİ PROBLEMİ

Açar sözlər: radio proqramı, janr, yayım, radiojurnalist, dinləyici, auditoriya, efir, fabula, süjet.
Ключевые слова: радиопрограмма, жанр, трансляция, радиожурналист, радиослушатель, аудитории, эфир, фабула, сюжет.
Key words: Radio transsmision, genre, broadcasting, radio journalist, audience, ether, plot, topic.

Qərb ölkələrində bəzi müəlliflər yayımın proqramlaşdırılmasını "auditoriyanın qavrayışının idarə edilməsi – mikrorejissura və mikromontaj" adlandırırlar. İlk növbədə, proqramlaşdırmanın mahiyyətini düzgün dərk etmək, onu nəzərdə tutulan fəaliyyətin planı, gerçəkləşdirilən işin düşünülmüş sistemi kimi qavranmaq vacibdir. Günün radio kompazisiyasını qurmaq asan məsələ deyil, kanalın yayım siyasətini əks etdirən səhər, günorta, axşam bloklarını düzgün müəyyənləşdirmək üçün proqram direktorluğunun işinə çox təcrübəli əməkdaşlar cəlb olunmalıdır (4. s. 37). Yayım təşkilatı kimi kompazisiyası ilə bağlı mürəkkəb vəzifələri həll edərək bütün dünyada auditoriya toplamış BBC radiosunun təcrübəsi çox maraqlıdır. Əməkdaşlar üçün hazırlanan xüsusi təlimatlarda proqram tərtibçilərinə ümumi yaradıcılıq məsələləri ilə yanaşı, etik və psixoloji problemlərin incəlikləri ilə bağlı konkret tövsiyyələr verilir. Bu tövsiyələrə görə, ilk növbədə cəmiyyətdə sosial qrupların maraqları nəzərə alınmalıdır. Çünki, demokartik ölkələrdəki gerçək söz azadlığı və fikir plüralizmi cəmiyyəti "parçalanmışdır" və bütün tərəflərin rəy və əhvalının nəzərə alınması vacibdir. Bu mənada BBC - nin yayımı üç başlıca marağa əsaslanır: 1) proqramın öz marağı; 2) proqramda iştirak edənlərin marağı; 3) auditoriyanın marağı (10. s. 167).Radiostansiyalar proqram kompazisiyasını öz məqsədlərinə, formatlarına, maliyyə imkanlarına görə hazırlayırlar. Bütövlükdə stansiyanın yayım siyasətini və ayrılıqda bir sutkanın veriliş şəbəkəsini dolğun əks etdirən bu kompazisiya " proqram təkəri" adlanan sxemdə aydın ifadə olunur (11.s. 37).

Bəzi proqram direktorları günün ayrı-ayrı vaxtları üçün bir neçə təkər hazırlıyıb işləyirlər. Məsələn, ayrı- ayrı radiolarda (ANS ÇM, Azad

Azərbaycan, İctimai) səhər saatlarına hazırlanmış proqrama diqqət yetirsək görərik ki, bu şəbəkələrdə oxşarlıq mövcuddur:

1. *Xəbərlər buraxılışı. Hava haqqında məlumat.*
2. *Hazırda dəbdə olan bir neçə mahnı.*
3. *Saat 8-11 arası müxtəlif səhər verilişləri. Bir neçə saatlıq efir boyunca aparıcının dinləyici ilə ünsiyyəti və müxtəlif informasiyaların auditoriyaya çatdırılması.*
4. *Reklam bloku anonslar .*
5. *70-80 –ci illərin ən yaxşı mahnıları ilə müasir musiqilərdən ibarət mahnılar.*
6. *Xəbərlər buraxılışı. Hava haqqında məlumat.*
7. *İqtisadiyyat xəbərləri, İdman xəbərləri . Hava.*
8. *Cinql : dəbdə olan şlyager və reklamlar.*
9. *Ən yaxşı mahnılardan, hitlərdən ibarət musiqi toplusu.*
10. *Xəbərlər buraxılışı.*
11. *İnstrumental mahnılardan ibarət musiqi çələngi.*
12. *Reklam bloku anonslar.*

Nəzərdən keçirdiyimiz "proqram təkəri"ndən də göründüyü kimi, müasir radiolar daha çox musiqi, informasiya və qismən də mətnli verilişlərin növbələnməsi üzərində dayanır. Radiolar əsasən informasiya və musiqi formatında fəaliyyət göstərir. Digər tərəfdən, radionun təbiəti, müasir statusu, onun imkanları və gerçəkliyi əks etdirmə üsulları ilə bağlı mütəxəssislər arasında müəyyən fikir ayrılığı olsa da, hamı bir məsələdə yekdildir ki, efir musiqi və informasiya yayımı üçün misilsiz dərəcədə geniş meydan açır. Təbii ki, bu meydandan səmərəli istifadə etmək aparıcıların əsas vəzifələrindən biridir. Radionun hüdudsuz auditoriyası və bu auditoriyaya geniş təsir imkanları var. Təbii ki, bu auditoriyanı daim maraqlandırmaq, onu cəlb etmək və öz "orbitin"də saxlamaq üçün radio güclü və cəlbedici yaradıcılıq cəbbəxanasına, aydın proqram siyasətinə və parlaq yayım dəst-xəttinə, təbii ki, həm də radio yaradıcılığının əsaslarını yaxşı bilən peşəkar jurnalistlərə, rejissor və prodüsserlərə malik olmalıdır. Redaksiyadan konkret mövzuda tapşırıq alan , yaxud öz seçdiyi mövzu ilə bağlı veriliş hazırlamaq istəyən jurnalist, ilk növbədə, beynində gələcək efir əsərinin formasını müəyyənləşdirir, xəyalında, bir növ, bu verilişin modelini cızmağa çalışır. Bu tələskənlik deyil, əksinə gələcək məhsulun hazırlanması, strukturun müəyyənləşməsi, əsas istiqamətlərin cızılması, lazımi informasiyaların lazımi məqamlarda verilməsi barədə ilkin düşüncələrdir. Belə daxili, virtual hazırlıq olmadan obyektə gəlmək, fakt toplamağa girişmək, müsahiblər axtarmaq, nəyə diqqət yetirmək, hansı faktları qabartmaq, səs elementlərindən necə istifadə etmək problemini həll etmək çox çətindir. Gələcək efir materialını beynində "bişirməyən", onun

əsas modelini cızmayan jurnalist çox vaxt yazı məqamında kompyuter qarşısında aciz qalır, nədən və necə başlayacağını bilmir, forma tapmağa çətinlik çəkir, janrı intuitiv seçir və nəticədə onun əlindən yararlı bir material çıxmır. Ona görə də bu vəziyyətə düşməmək və uğurlu radio əsər yaratmaq üçün, ilk növbədə, yaradıcılıq adlanan mürəkkəb prosesin incəliklərini, bu prosesin məhsulu olan əsərin tərkib hissələrini, ümumi strukturunu, modullarını bilmək çox vacibdir.Həssas dinləyicilərə zövqlü, maarifləndirici verilişlər təqdim etmək üçün aparıcı və yaradıcı heyət verilişin dramatruji strukturunu müəyyən etməlidir., radioda olan bütün verilişlərin öz dramatruji strukturu olmalıdır.

Efirdə səslənəcək verilişin tam dolğun təsəvvür edilməsi radio jurnalistinin məharətindən və ədəbi əsas olan mətnin mükəmməlliyindən çox asılıdır. Efirdə ardıcıllıqla nələrin olacağını və necə səsləndiriləcəyini, dramaturji qanunlara, əyaniliyə və asan qavrayışa necə əməl olunacağına dəqiqliyi ilə göstərmək əvvəlcədən yazılmış ədəbi materialdan çox asılıdır. Jurnalist əsəri üçün etibarlı bünövrə tükənməz müxtəlifliklərlə zəngin olan həyatın, reallığın özüdür. Həyat materialı dedikdə, ilk növbədə, jurnalistin araşdırıb öyrəndiyi və istinad etdiyi sosial reallıq nəzərdə tutur. Bu reallıq isə həmişə jurnalist mətnində əks etdirildiyindən çox zəngin olur. Jurnalistin ustalığı onda üzə çıxır ki, o, həyatın bu zənginliyi içərisində mövzunu aça biləcək zəruri məqamları seçib mənalandıra bilsin. Mahiyyət etibarilə yaradıcılığıa aparan yolu seçmək, nəyisə fərqləndirə bilmək, elə jurnalist peşəsinin əsasıdır. Bütün sahələrdə, o cümlədən radioda çalışan jurnalistlər həmişə yaradıcılıq problemini necə effektli həll etmək çətinliyi ilə üz-üzə qalırlar (7. s. 8).Hazırda radioproqramlara nəzər yetirsək, bu problemlərlə qarşılaşa bilərik. Məsələn: Azad Azərbaycan radiosu (1.603) səhər verilişlərinə diqqət yetirsək görərik ki, səhər verilişinin ssenarisi yoxdu sadəcə müəyyən əlaqəsiz materialları oxumaqla kifayətlənir. Bir az əvvəl qeyd etdiyimiz kimi jurnalist mətnində həyat materialı olmaldır. Misal gətirdiyimiz radionun səhər proqramlarında insan faktoru olsa da onun önəmlilik dərəcəsi çox aşağıdır. 3 dekabr 2009-cu ildə efirə gedən səhər verilişinə nəzər yetirsək görərik ki, verilişin ssenarisi yoxdur və veriliş sadəcə efir zamanı yaranır. Verilişin pərakəndəliyi onun ssenarisinin olmamasından xəbər verir. Müxtəlif həyat materialını özündə birləşdirən informasiyalarla isə aparıcı tanış deyil. Bəs radiojurnalist həyat materialına hansı meyarlarla yanaşmalı, onu necə işıqlandırmalı, öz seçimini nəyə əsasən müəyyənləşdirməlidir? Təbii ki, bu məsələdə aktual mövzu seçimi etmək,verilişin ideyasını müəyyənləşdirmək, süjet qurmaq, ümumi kompozisiya problemini həll etmək önəmli rol oynayır.Mövzu jurnalistin hər hansı əsərində toxunduğu və müəyyən həyati material əsasında aşkara çıxardığı əsas məsələlərin məcmusu, hər hansı vəziyyətin müzakirə

predmetidir. Radio verilişinin məzmununun əsas məqamı da mövzu adlanır və bu ayrı-ayrı süjetlərdə, motivlərdə, epizodlarda işlənib hazırlanır. Hər bir verilişən ideyası olmalıdır. Həm səhər, həm günorta, həm də axşam saatlarına təsadüf edən verilişlərin ideyasının olması vacibdir. İctimai radionun səhər proqramlarına qulaq asdıqda, burada müəyyən ideyanın olduğu duyulur. 7-dən 10-a kimi yayımlanan veriliş xüsusi proqram əsasında fəaliyyət göstərir. Səhər verilişnə xas olan bir neçə elementi özündə birləşdirən bu proqramda müxtəlif rubrikalar da var. Hər bir saat öz ideyası ilə fərqlənir. İkinci saata qulaq assaq görərik ki, burada konkret mövzunun qoyulması onun ideyasının ortaya çıxmasına yardım edir. Məsələn, Qış Olimpiya oyunları zamanı verilişin ikinci saatı "Olimpiya oyunlarında Azərbaycanın qalib gəlmə şansları haqqında" danışılırdı. Studiya dəvət olunan qonaqlarla birlikdə müzakirə edilən mövzunun əsas ideyası Azərbaycan idmanın şanslarını bu oyunlarda qiymətləndirmək idi. Ümumiyyətlə səhər verilişlərinin əsas ideyası günün başlanğıcında insanlara yeni informasiyalar çatdırmaqdır. Jurnalist mövzunu müəyyənləşdirdikdən, həyat materialını öyrəndikdən, faktları topladıqdan sonra yaradıcılıq işinin birinci mərhələsi sona yetir. Yəni məzmunla bağlı hər şey məlumdur. İndi bu mövzuya uyğun forma seçilməlidir. Bunun üçün formanı təşkil edən kompazisiya və onun elementlərinin bilmək vacibdir.Kompozisiya tərtibetmə, birləşmə, əlaqə - əsərin tərtibatı, birləşdirilməsi, əlaqələndirilməsi, qanunauyğun qurulması, vahid tam təşkil edən ayrı-ayrı hissələrin (elementlərin) nisbəti. Efir (jurnalistika) əsərində gerçəkliyin bədii - publisistik inikasının xüsusiyyətindən asılı olaraq zamanca və məkana görə ayrı-ayrı düşmüş müxtəlif hadisələrin əlaqələndirilməsi; bu və ya digər təzahürün mahiyyətini açan məna blokları; müxtəliftipli faktlar və müşahidələr; adamların rəy və düşüncələri. Amma kompozisiya, sadəcə, ayrı-ayrı hissələrin "yapışdırılması" deyil, o, müxtəlif məzmun daşıyıcılarının elə şəkildə birləşdirilməsini nəzərdə tutur ki, bütöv əsərin yaradılması mümkün olsun. Səs montajına, yaxud mətnin şərhinə başlamazdan əvvəl müəllif (rejissor) gerçəklik üçün xarakterik olan əlaqə tiplərinə kömək edə biləcək optimal kompozisiya forması seçməli və bu prosesdə zaman və səbəb - nəticə cəhətlərinə üstünlük verməlidir. İstənilən forma əsərin əsas ideyasının dinamik inkişafının və meydana çıxmasının inikasıdır. İstənilən əsərdə, o cümlədən radio verilişində kompozisiya müəllifinin əsas fikrinin məntiqi şəkildə açılmasına xidmət edir. Kompozisiya, ilk növbədə, hadisələrin cərəyan etdiyi məkanda müəllifin düşündüyü fikrin, ideyanın açılmasında, konkret hərəkətlərdə və epizodlarda özünü göstərir. Bəzi alimlər kompozisiyanı hər hansı verilişin, tamaşanın, ədəbi materialın təşkili prinsipi kimi də xarekterizə edirlər. Onların fikrincə, sənədli əsərin kompozisiyası, adətən, onun mövzusu və ideyası ilə şərtlənir

və müəllifin mövqeyini ifadə edən, ssenarinin ən dərin əlaqələrini açan faktların, hadisələrin birləşməsindən ibarətdir (9. s. 145).

Süjet təhkiyə prosesində dramaturji qaydalar əsasında mövzunun açılması üsuludur. Bədii əsərdə iştirak edən surətlərin xarakterlərini açıb göstərən və əsərin əsas konflikti ilə bağlı olan əhvalat, tarixçə də süjet adlanır(8. s. 46). Ekran – efir əsərlərində intellektual və emosional konstruksiya kimi qəbul edilən süjetin strukturuna üç ədəbi süjetdən fərqli olaraq jurnalistikada süjet çoxşaxəli deyil, "yığcamdır"dır. Çünki, jurnalistikada "süjet" dedikdə faktların, hadisələrin, fikirlərin davamiyyəti başa düşülür. İnsanların xarakterləri, talelər, ictimai ziddiyətlər, münaqişələr də burada açılır. Bir qayda olaraq, jurnalistika süjetlərində hadisələrin inkişafı bir-biri ilə bağlı olur, kulminasiya və problemlər süjetinin açılması isə az qala ən inkişaf etmiş hissəyə çevrilir. Süjet hadisənin və ya təzahürün mexaniki sürəti, predmetin quruluşunun səthi inkası deyil, o, yaradıcılıq prosesinin nəticəsi kimi meydana çıxır və müəllifin izlədiyi sosial məqsədə uyğun şəkildə qurulur. Süjet məfhumu dramaturgiya anlayışı ilə sıx bağlıdır. Məsələn: Azad Azərbaycan radiosunda 10 Yanvar 2010-cu ilə olan səhər verilişini nümunə gətirərək, bütünlükdə 106.3 Fm-də olan səhər verilişləri haqqında təsəvvür yaratmaq mümkündür. Bu tarixə olan verilişə qulaq asanda bir-biri ilə bağlı olmayan müxtəlif informasiyaların birləşməsindən ibarət olduğunu başa düşərik. Belə ki, verilişdə demək olar ki, heç bir faktın, hadisənin, fikirlərin davamiyyəti yoxdu. Sadəcə əlaqəsiz informasiyaların bir-birinin ardınca oxunması ilə müşahidə edilən 2 saatlıq veriliş dinləyici də heç bir maraq oyatmır. Ən azından bu zaman çərçivəsində verilişdə mövzu müxtəlifliyi olduğu üçün aparıcı verilişdə süjet də yarada bilmirdi. Ümumilikdə müasir dövrdəki səhər verilişlərinə nəzər yetirsək görərik ki, həm Azad Azərbaycanda, həm ANS ÇM-də, həm də İctimai radioda olan səhər verilişlərinin strukturu demək olar ki, eynidir. ANS –də (102 FM) "Hər Səhər" verilişinə nəzər yetirsək və onunla Azad Azərbaycan radiosu ilə müqayisə etsək aralarında böyük fərq hiss olunmur. Lakin , bir fakta da nəzər yetirmək lazımdır. ANS ÇM - də 3 saat davam edən proqramın konkret sxemi də mövcuddur. Birinci saat informasiya və musiqi, ikinci saat konkret mövzuya həsr olunur və bunula bağlı qonaqlar da çağırılır. ANS ÇM kimi İctimai radioda da ardıcıllıq gözlənilir. Burada olan səhər verilişlərinin konkret sxemi var. Bu sxemə nəzər yetirsək görərik ki, səhər verilişinin ikinci saatı konkret mövzu ətrafında qurulub. Müzakirəyə qoyulan mövzu 1 saat boyunca davam etdirilir. Mövzu ilə bağlı faktlar, hadisələr artan xətlə inkişaf etdirilir. Bununla bağlı qonaqlar da dəvət olunur və müzakirə mövzusu inkişaf etdirilir və muliminasiya nöqtəsinə çatdırılaraq düyünün açılması ilə nəticələnir. Bu cəhətdən də bu bir saat dinləyici də maraq oyadır və müzakirəyə qoşulur.

Kütləviliyi və unikal qabiliyyəti ilə seçilən radioda yaradıcılığın başlanması, ictimai, siyasi və mədəniyyətə aid verilişlərin yaranması nəticəsində radiojurnalistikanın ictimai həyata fəal müdaxiləsi hər bir ölkənin hakim dairəsində qorxu yaradıb. Ümumdünya məkanında radio siyasətini tənzimləyən xüsusi tədbirlər planı hazırlanıb, cəmiyyətə təsir mexanizmləri haqqında, siyasi baxışları gerçəkləşdirən vasitə kimi ondan necə yararlanmaq barədə düşünülüb (12. s.7).

İstifadə olunan ədəbiyyat

1. Dadaşov A. Dramaturgiya, B., 2004
2. Dadaşov A. Ekran dramaturgiyası, Dərslik B., 1999
3. Ekran- efir qəzeti, 12 mart 1996
4. Əhmədli N. Kütləvi İnformasiya vasitələri xaricə siyasi təbliğat sistemində, B,.2004
5. Əlizadə Y.M., Məhərrəmli Q. M. Azərbaycan efiri: tarix və müasirlik. B.,2006
6. Əlizadə Yalcın. Radiojurnalistikanın əsasları. Bakı, 1991
7. Ивик В.Л. Журналист с микрофоном, М., 2000
8. Mehdi F. Mətbuatda publisistika, B., 1981
9. Məhərrəmli Q. Radio dalğalarında, B., 1999
10. Основы радиожурналистики, М., 1984
11. Repkova T. Yeni dönəm: Demokratik cəmiyyətdə peşəkar qəzet buraxmaq yolları, (rus dilindən tərcümə) B., 2005
12. Щерель А.А. Радиожурналистика, М.,Издательство Московского университета, 2000
13. http://uzeyirbook.musigi-dunya.az/

Sh.Kuliyeva

The problem about synthesis means of expressions in audialism

Summary

The plot in radio journalism is a an effective tool for professional journalists. In order to understand the specificity of radio, it is necessary to understand its nature, sound palette, specialty, and in particular radio language and style. It is impossible to prepare a good radio program without knowing its nature, pronunciation rules, and literary styles based on literary language norms adjusted to oral speech. The characteristics of radio language and the professionalism of radio presenter's work are among the major features leading to emergence of quality radio programs.Interference

of radio journalism to public life is undeniable as a result of emergence of public, political and cultural radio programs, and of radio creativity.It will be clear for an audience if communication is prepared correctly based on the rules between means of expression in audialism. This factor demands from radio journalists sensitivity, advance comprehensive understanding, and further delivery of the topic to the audience.

Ш.Кулиева

Проблемы синтеза средств выражения в аудиопублицистике

Резюме

Сюжет в радиожурналистике не является композиционной формулой с жёсткими канонами, в руках профессиональных журналистов он становится творческим инструментом, дающим отличный эффект. Чтобы уметь пользоваться этим инструментом, познать его тонкости, надо знать природу радио, его специфику, звуковую палитру, а самое главное надо знать язык радио и особенности его стиля. Невозможно создать хорошую радиопередачу не зная звукового образа радио, речевых стилей устного языка, опирающихся на нормы литературного языка , и правил литературного произношения. Особенности языка радио и тонкости работы ведущего тоже являются одними из ключевых факторов, играющих основную роль в в создании передачи и ее качестве. Неоспоримо активное участие радиожурналистики в общественной жизни в результате создания общественных, политических и культурных программ и творчества на радио, отличающегося массовостью и уникальными способностями, Для аудитории будет понятнее если в аудиопублицистике среди способов выражения связь, основываясь на правила, будет правильно построена. Этот фактор требует от радиожурналиста чувствительности, сперва самому в полной мере понять тему, а уже затем передать ее аудитории.

Rəyçi: Nəsir Əhmədli
Filologiya elmləri doktoru, professor

PƏRVİN HÜSEYNOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pervin@mail.ru

ÜZEYİR HACIBƏYLİNİN 1918-1920-ci İLLƏR ƏRZİNDƏ QƏLƏMƏ ALINAN FELYETONLARINDA MÜSTƏQİLLİK İDEALI

Açar sözlər: *felyeton, satira, milli müstəqillik, milli birlik*
Ключевые слова: фельетон, сатира, национальная независимость, национальное единство
Key words: satirical articles, satire, national independence, national unity

Böyük bəstəkar, ictimai xadim, mühərrir və istedadlı jurnalist Üzeyir Hacıbəyli XX əsrin ilk onilliyində olduğu kimi Azərbaycan Demokratik Respublikasının mövcud olduğu 11 ay ərzində də mətbuat səhifələrində öz satirik məzmunlu yazıları ilə çıxış edir və milli azadlıq uğrunda mübarizəsini davam etdirirdi. Sadəcə, 1918-1920-ci illərdəki məqalə və felyetonları öncəki illərdəki mühərrirlik fəaliyyətindən ictimai şəraitin daha kəskin olması və artıq Azərbaycanın öz müqəddəratını özü həll etməyə cəhd etdiyi bir dövrə təsadüf etməsi ilə seçilir, ədibin bu mərhələdəki yaradıcılığı öz mündəricəsi etibarilə də fərqlənirdi. Həmin felyetonlarında – "Ordan-burdan" və "Surna"larda tənqidi ruhla yanaşı, Vətənin azad yaşamasından ilhamlanan yazıçının fərəhli ovqatı da hiss olunurdu.Qeyd edək ki, Üzeyir Hacıbəylinin 1918-1920-ci illərdə dərc olunan felyetonları, əsasən, "Filankəs" və "ÇI" gizli imzaları ilə qələmə alınmış və ikinci imzası 1919-cu ildən 28 aprel 1920-ci il tarixinədək redaktoru olduğu "Azərbaycan" qəzetində istifadə olunmuşdur.1918-ci ildə çap olunan "Ordan-burdan"larında "Filankəs"in azad ölkənin vətəndaşı olmasına görə, xalqının öz müqəddəratını həll etmək üçün öz müstəqil siyasət yürüdən hökumətinin olmasına görə fərəh hissi keçirdiyinin şahidi oluruq. Lakin Üzeyir bəyin felyetonları üçün xarakterik olan satirik ifadə üslubu bunlarda da hakimdir.

Məsələn, 1918-ci ilin 29 oktyabr tarixli "Ordan-burdan"ında o, hələ azad bir ölkənin vətəndaşı olmağın necə böyük bir səadət olduğunu tam mənasında dərk etməyən Azərbaycan vətəndaşlarının ümumiləşmiş obrazı ilə özünün dialoqunu təqdim edir. Bu satirik dialoqda dırnaqarası vətəndaşla "Filankəs"in söhbəti nəticəsində ölkədə yaranmış vəziyyətdən hər kəsin bəhrələnmək istədiyini, vəzifə davası apardığını görürük. "Filankəs" isə öz cavablarında sadə danışıq dili ilə müstəqil dövlətin hər bir vətəndaşın hüququnu qoruduğu kimi, eyni zamanda hər bir vətəndaşın da onu qorumalı olduğunu əsaslandırır. MəqalədəBaqqal Kərbəlayi Kərim kimi şərti "vətəndaş"ın suallarından biri belə səslənir: "Allah sənə ömür versin, pəs qadan alım, bunlar (Xalq Cümhuriyyətinin nazirləri nəzərdə tutulur) hansı

padşahın vəzirləridirlər?" "Filankəs"in cavabı isə qısa olur; "Sən padşahın". (1; s.288) Millət vəkilləri – parlament üzvləri haqqında danışarkən isə belə dialoqla qarşılaşırıq. Kərbəlayi Kərimin "Vallah, yaxşı başa düşmürəm!" – ifadəsinin qarşılığında "Filankəs" geniş bir nitq söyləməli olur: "Bax bu vəzirlər Azərbaycan hökumətinin millət vəzirləridirlər və sən də Azərbaycan hökumətinin millətisən: pəs demək bu vəzirlər sənin vəzirlərindirlər! İnşallah, elə ki təzəliklə millət evimiz (parlamanımız) açılar, ondə baxıb görərsən ki, həqiqətdə də vəzirlər sənindir! Və bu dəsgah hamısı ondan ötrüdür ki, sən bir növ istirahət ilə dolanıb, azad çörəyini azadə yeyə biləsən, ancaq bu azadlığı sənin üçün qan töküb alan türk milləti-nəcibəsindən və türk qəhrəman ordusundan qəflətdə olmuyub onlar haqqında həmişə duaçı olasan..." (1; s.289)Göründüyü kimi, 1918-ci ildə sadə xalq nümayəndələri yeni yaranan müstəqil respublikanın tarixi əhəmiyyətini hələ tam məsuliyyəti ilə dərk edə bilməyiblər. Üzeyir bəy də bu insanlara həqiqəti anlatmaq kimi çətin və məsuliyyətli işi icra edənlərdən biri kimi felyetonlarında hər zamanki maarifçilik fəaliyyətini davam etdirir.

Müəllifin digər, 16 noyabr 1918-ci il tarixli "Ordan-burdan"ında da yumoristik gülüşlə "Padşah dərdimizi nə bilir ki, bizə də qanun qoysun. Yaxşısı budur ki, o öz təxtində əgləşub çayını içsin, qanunu biz özümiz qoyaq, çünki dərdimizi özümüzdən başqa kim bilər?" – deməklə yanaşı, sadə dillə mövcud reallıqları anlatmasını görürük. Üzeyir bəy Azərbaycanın uğurlarına sevinərək, bu sevinci xalqı ilə bölüşmək istəyir. O yazır: "Bugünki gün Azərbaycan türkləri üçün üçünci bir səadət günüdür! Birinci səadət günümüz irsi düşmənlərimizin puç olduğunu gördigimiz gün idi. İkinci səadət vətənimizin qan soranlar və onların qab yalıyanları əlindən böyük türk qardaşlarımızın qəhrəman əlləri ilə xilas edildigini gördüyimiz gün idi. Üçüncü səadət günümüz isə – bugünki gündür ki, azad millətimiz məşvərətə yığılıb böyük qurultay düzəldəcəkdir ki, özü üçün qanunlar qoysun". (1; s.290) Bu cümlələrdə Azərbaycan tarixində XX əsrin əvvəllərində, bir ildə baş vermiş üç mühüm hadisə öz əksini tapıb. Azərbaycanda ermənilərin xalqımıza qarşı törətdiyi qırğınların qarşısının alınması, ölkəmizin xarici qəsbkarlar və onların havadarlıq etdiyi yerli ünsürlərdən qurtularaq müstəqillik əldə etməsi və nəhayət milli qanunverici orqan – parlamentin açılması kimi əlamətdar hadisələri coşğu ilə təqdim edir. Üzeyir bəyin: "Yaşasın millət səsi olan birinci milli parlamanımız!" – nidası böyük sevincin təntənəli ifadəsidir. Amma bu məqamda da o, öz fərdi üslubuna sadiq qalaraq satiranın imkanlarından bəhrələnir, ermənilər "irsi düşmənimiz", ingilis və rusları "qan soran", yerli hakimiyyət orqanlarında partiya nümayəndələri kimi çıxış edən rus, erməni və başqa digər millətdən olan komissar, qlasnı, aktivistlər və s. ünsürləri isə "onların qab yalayanları" adlandırır.

Müəllifin 7 yanvar 1919-cu ildə dərc olunan "Ordan-burdan"ında da milli hökumətin işini pisləyən, onu millətçi siyasət aparmaqda suçlayan əcnəbi ünsürlər, xaricdən güc alan fraksiya və komitələr satira atəşinə tutulur, milli

azlıqları təxribata uymamağa çağırır. Üzeyir bəy bir rəmzi obraz – Anna İvanovnanın timsalında Azərbaycanda yaşayan ruslarınyeni yaranmış milli hökumətdən razı olduğu halda, kənardan olan ünsürlərin bu mehriban münasibətə kəc baxmasını belə ifadə edir: "Öz-özümə Anna İvanovnaya deyirəm ki, bax, Anna İvanovna! Görürsən, Azərbaycan hökuməti nə yaxşı mehriban hökumətdir. Səni qulluğa qoyur, sənə məvacib verir, əmma sizin rus milli komitəniz hökumətimizi pisləyir, deyir ki, ruslara guya zülm edir. Bax o cürə yalan sözlərə qulaq asma, onlar yalançıdırlar, xaindirlər!" (1; s.294) Üzeyir bəyin Xalq Cümhuriyyəti dönəmində qələmə alınan felyetonlarından, bəlkə də, ən maraqlısı və satiranın imkanları baxımından ən kəskini "Sülh konfransında" da adlanan 9 yanvar 1919-cu ildə işıq üzü görmüş "Ordan-burdan"dır. Burada xarici ölkələrdən birində keçirilən konqreslərdən birində daşnak, rus milli komitəsi, Bakı sosialistlərinin Azərbaycan nümayəndələrinə qarşı təxribat və əks təbliğat aparması pislənilir. Felyetonda konqres zalında baş verən hadisə belə təsvir olunur. İclasda daşnakların Azərbaycan nümayəndələrini "başkəsən, qarın yırtan quldur" adlandırmaları arsız-arsız səsə qoyulur. Şər-böhtan atanlardan savayı,azərbaycanlıların "quldur" olmasına səs verən olmadığından Azərbaycan nümayəndələri zalda qalır.Səs vermənin nəticələri maraqlıdır: "İngilislər, firənglər, amerikanlar və sair Yevropa və Amerika millətləri nümayəndələri məsələdən xəbərdar olmadıqlarına görə bitərəf qalıb səsdə iştirak etməyirlər. Əl qalxızanlar bunlar olur: daşnaklar (iki əlləri ilə), RMK-lar və Bakı S-lar". (1; s.296)1919-cu ildə beynəlxalq aləmdə müstəqil Azərbaycanın lehinə olanların da kim olduğunu bu felyetonda yaxşı tanımaq olur. Üzeyir bəy yazır: "Gürcülər, dağıstanlılar, osmanlı türkləri, hindlilər, əfqanlar, türkmənlər və Volqaboyu müsəlmanları, qərəz, ərəb əmirləri ilə İran vəzirlərindən başqa, hamı islam nümayəndələri əl qalxızırlar". (1; s.297)

Məqalədə ermənilərin Azərbaycan nümayəndələrini oğru, quldur adlandırıb məclisdən kənarlaşdırmaq cəhdi baş tutmadıqda onlar həmişəki kimi öz əsl çirkin simalarını göstərirlər, məqsədlərinin həyata keçməsi üçün "əlli ildən bəri" yaltaqlandıqları dövlətləri"demokratiyanın düşməni", "imperialist" adlandırırlar: "Burada oturan yevropalılar həqiqi demokrat deyildirlər, bəlkə hamısı imperialistdirlər! ...Qafqazı tatarlara və gürcülərə verən bunların tomsonları oldu. "Samasud! Samasud!!"(1; s.297) Üzeyir bəyin 1920-ci ilin mart və aprel ayları ərzində "Azərbaycan" qəzetində dərc etdirdiyi "Surna" ümumi başlıqlı silsilə felyetonları da azadlıq ideallarının əksi etibarilə xüsusi maraq doğurur. 1920-ci ilin mart ayının 25-i tarixində işıq üzü görən belə bir felyetonda Üzeyir bəy bir ana və övladın dialoqunu verir. Klassik münazirə forması olan "Dedim-dedi" şəklində qələmə alınan bu satirik dialoqda milli hökumətin qanun islahatı aparması, müstəqil qanunverici orqanı – parlamenti olması alqışlanmaqla yanaşı, ana dilinin saflığının qorunması da qaldırılır. Üzeyir bəy "Parlaman", "məclisi-

məbusan” sözləri ilə tarixən cəmiyyətdə qəbul olunmuş “divanxana” terminini qarşılaşdırır. “Deputat” və ya “məbus əfəndilər” əvəzinə, “vəkil”, “ministr”, “nazir” sözlərinin qarşılığında “vəzir”, “presidatel”, “sədr” əvəzinə, “ağsaqqal” sözünü işlədir, “sekretar” yerinə “mirzə”, “kosyor” qarşılığında “xəlifə” deməyi üstün tutur. Ən maraqlısı da budur ki, dilimizin milliliyini qoruyan obraz elə məhz anadır. Yazıçının məqalədə son sözləri də maraqlıdır: “Gördüm ki, anam çox bilicidir, dedim, ay ana, kaş ki, sən mənimlə bütün idarələrimizin hamısını gəzib, hər kəsə özünə görə ad qoyaydın və bizə ana dili öyrədə idin....” (s.300) Qeyd edək ki, bu məqalə eyni zamana bir maarifçilik amalı da daşıyır. Belə ki, o, bu yeni siyasi terminlərin mənasını sadə xalq kütləsinə açıqlayır.Ədib 14 aprel 1920-ci ildə dərc olunan felyetonunda yeni qurulan sovet dövləti ilə dostluğa çağırışın saxta olduğunu nəzərə çatdırır. Sovet dövlətinin də sələfi Çar Rusiyası kimi xırda, lakin müstəqil yaşamaq istəyən xalqların dövlət müstəqilliyinə göz qoyduğu tənqid atəşinə tutulur.

Bu “Surna”lardan birində Üzeyir bəy 1920-ci ildə aprel işğalına qədərki bəzi mühüm hadisələri nəql edərək öz tənqidi münasibətini bildirir. Burada firqəçiliyin hökumət böhranına yol açması tənqid atəşinə tutulur. Müəllif yazır: “...əgər bizdə firqəçilik olmasa idi, o halda Azərbaycan Cümhuriyyətində bir ilin ərzində iyirmi doqquz kərə “kabinə böhranı” əmələ gəlməzdi”. (1; s.310) Üzeyir bəyin bu hökumət böhranına da münasibəti kəskindir. O, satiranın kəskin metodlarından biri olan kinayədən istifadə edərək yazır: “...xaricilər bizə gülüb deyirdilər ki, yazıqlar, hanı sizin bir o qədər layiqli adamınız ki, hökumət qura biləsiniz? Əmma indi həman xaricilər yandıqlarından ağlayırlar, çünki baxıb gördülər ki, bizim nəinki bir hökumət, hətta iyirmi doqquz hökumət qurmağa da adamlarımız varmış. Hələ bugün-sabah otuzuncunu da quracağıq!” (1; s.310) Üzeyir bəy Hacıbəylinin bu məqalə və felyetonlarnı oxuduqda dövrün mənzərəsi tam çılpaqlığı ilə göz önündə canlanır. Biz bir anlıq Üzeyir bəyi bir bəstəkar, komediyanəvis dramaturq, aktyor və musiqiçi kimi unuduruq, onu bir ictimai xadim, maarifpərvər ziyalı, istedadlı jurnalist kimi dərk edirik. Bu yazılarda Üzeyir bəy bir vətənpərvər və vicdanlı jurnalist kimi də diqqəti cəlb edir.Onun bütün digər əsərləri ilə ümumi pafosa sahib olan felyetonları Azərbaycançılığın ümumi musiqisini səsləndirir.Azərbaycanın öz müstəqilliyini əldə edib, yenidən itirməsindən sonra biz Üzeyir bəyin musiqisində ədən gedən cənnət üçün ağını eşidirik. Amma onun 1918-1920-ci illərdəki satirik bədii nəsri Azərbaycançılığın elegiyasıdır. Burada şənlik də var, kədər də.

Ədəbiyyat

1. Hacıbəyli Üzeyir bəy. Bayrağımız sarsılmaz.- Bakı: Avrasiya Press, 2011.-428 səh.

2. Hacıbəyov Üzeyir. Seçilmiş əsərləri.- Bakı: Yazıçı, 1985.- 653 səh.

П.Гусейнова

Идеал независимости в фельетонах Узеира Гаджибейли, написанных в 1918-1920-х годах

Резюме

Узеир Гаджибейли как и в начале XX века, так и в период Азербайджанской Демократической Республики, выступал своими сатирическими произведениями на страницах прессы и продолжал свою борьбу за национальную независимость.

Но статьи и фельетоны, написанные 1918-1920-х годах, отличаются своим содержанием. В этих фельетонах – «Ордан-Бурдан», «Сурна» и др. – помимо критического настроя, чувствуется радостный дух писателя в связи с независимостью родины. В статье фельетоны, написанные в период Азербайджанской Демократической Республики, были проанализированы на обширном материале из богатого наследия великого композитора, писателя, драматурга и публициста Узеира Гаджибейли.

P.Huseynova

The ideal of independence in the satirical articles of Uzeir Hajibeyli, written in 1918-1920

Summary

Uzeyir Hajibeyli, as well as in the beginning of the 20th century, and during the period of the Azerbaijan Democratic Republic, spoke with his satirical works on the pages of the press and continued his struggle for national independence.

But the articles and feuilletons written in the 1918-1920s differ in their content. In these satirical articles - "Ordan-Burdan", "Surna", etc. - besides the critical mood, the joyful spirit of the writer is felt in connection with the independence of the motherland. In the article, feuilletons written during the period of the Azerbaijan Democratic Republic were analyzed on the extensive material from the rich heritage of the great composer, writer, playwright and publicist Uzeyir Hajibeyli.

Rəyçi: Afaq Ramazanova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ÜLVİYYƏ AĞAMİROVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
İngilis dili kafedras
peterburqa@mail.ru

DAİM QƏLBİMİZDƏ YAŞAYACAQ BÖYÜK ALİM

Açar sözlər: alim, yaradıcılıq, elmi əsərlər, şəxsiyyət, müəllim, məqalə, sahə, elmi araşdırma
Ключевые слова: учёный, творчество, учёные записки, личность, учитель, статья, участок, научное исследование.
Key words: scientist, creative work, scientific creations, personality, teacher, article, field, research.

Böyük alim-ədəbiyyatşünas, tarixçi, politoloq professor Vaqif Arzumanlı XX və XXI əsr ümumilikdə Azərbaycan elminin inkişafında əvəzsiz xidmətləri olan, bitməz-tükənməz elmi axtarış və araşdırmalara, yüzlərlə məqalə, eləcə də 40-a qədər kitablara və monoqrafiyalara malik bir şəxsiyyət olub. Həmçinin məlumdur ki, Vaqif Arzumanlı Azərbaycan ədəbiyyatını, tarixini, ümumiyyətlə vətənimiz Azərbaycanla bağlı bütün bilik və bacarığını xarici ölkələrdə də təmsil və təbliğ etmişdir. Ömrünün demək olar ki, hər bir anını elmə, ədəbiyyata, siyasətə, bir sözlə, elmi yaradıcılığa və fəaliyyətə həsr etmiş bu şəxsiyyət haqqında bir çox görkəmli insanlar, jurnalistlər, elm xadimləri, akademik və alimlər məqalələr yazmış, onun elmi fəaliyyəti və yaradıcılığına öz fikir və münasibətlərini bildirmişlər. Vaqif müəllim də bir çoxları haqqında məqalələr, hətta kitablar belə yazmışdır. Onun xatirəsinə az da olsa kiçik bir yazı yazmağı mən də özümə borc bildim.

Onun ölümündən 4 il keçir... Amma nədənsə onun haqqında bir şey qələmə almaq bəlkə də mənim üçün böyük hünər tələb edirdi; düşünürdüm ki, gərək yazdığım həqiqətən alimin şəxsiyyətinə, onun özünün sağlığında olan düşüncəsinə, dünya görüşünə layiq olsun. Təkcə onu demək kifayətdir ki, ömrünün son anınadək əlindən qələm düşməyən, yorulmadan yazıb-yaratmaq eşqi ilə dolu olan professor Vaqif Arzumanlı 8 dildə sərbəst, mükəmməl danışa bilirdi, eləcə də onun bir çox əcnəbi dillərdə (rus, litva, fars, ingilis və s.) əsərləri, yazıları çapdan çıxmışdır. Ən əsası isə onun tərcümə əsərlərini, xüsusilə baltikyanı xalqların ədəbiyyatının tərcümələrini vurğulamaq olduqca vacibdir. Məlumdur ki, bir əcnəbi dili hərtərəfli mənimsəmək, onun mövcud qayda-qanunlarına düzgün əməl etmək böyük səbr, ustalıq, uzun illər və insandan səriştə, istedad, bilik tələb edən bir işdir. Buna görə də bu qənaətə gəlmək olar ki, Vaqif müəllim xüsusi istedadı, qeyri-adi bilik-bacarığı sayəsində bu keyfiyyətlərə bütünlüklə sahib idi.

Arzumanlı yaradıcılığı bununla bitmir. Onun demək olar ki, elmin bir çox sahələrində nailiyyətləri olmuşdur. Onlardan biri də geniş kütləyə malik olan, hər bir kəsin maraqla izlədiyi jurnalistika sahəsidir. O, uzun illər Azərbaycan televiziyasında çalışmış, "Vətəndaş" verilişinin müəllif və aparıcısı kimi fəaliyyət göstərmişdir. Həmçinin, "Elturan" ("Milli məsələlər") jurnalının, "Ədəbi əlaqələr" toplusunun Baş redaktoru, "Qartal" nəşriyyatının direktoru, "Fəryad" qəzeti Redaksiya Heyətinin üzvü olması onun bu sahəyə də necə dərindən bələd olduğunu bir daha sübut edir. Bununla yanaşı, Vaqif müəllim bir neçə illər ərzində Azərbaycan EA Milli Münasibətlər İnstitutunun direktoru (1992-1999-cu illər) vəzifəsində çalışmışdır. 2003-cü ildə isə Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun "Xarici ölkələr ədəbiyyatı və ədəbi əlaqələr" şöbəsinin müdiri seçilmişdir. [3, 40] Əlbəttə, bir idarəni, heyəti idarə etmək, müdir vəzifəsində çalışmaq, müəyyən bir işə rəhbərlik etmək üçün böyük məsuliyyət, səbr, xüsusi qabiliyyət və ən əsası elmli, bilikli olmaq gərəkdir ki, Vaqif müəllim də bütün bu keyfiyyətlərə malik şəxsiyyət idi.

Vaqif Arzumanlı ömür yolunun xronologiyasına nəzər yetirsək görərik ki, onun yaradıcılığının hər bir ili müəyyən fəaliyyətləri ilə tarixə düşüb, müxtəlif hadisələrlə yaddaşlara həkk olub. Odur ki, ömrünün bir ilini belə hədər etməyən, boşa çıxarmayan alim bütün bu işləri, yəni fəaliyyət göstərdiyi müxtəlif sahələri layiqincə eyni zamanda, lakin fərqli məkanlarda yerinə yetirmişdir. Və nəhayət, ən şərəfli peşələrdən biri sayılan müəllimlik vəzifəsinin də öhdəsindən ustalıqla, məharətlə gəlmişdir. Belə ki, Bakı Dövlət Universitinin Filologiya, Tarix, Jurnalistika, Beynəlxalq münasibətlər və kitabxanaçılıq fakültələrində bir neçə fənləri – "SSRİ xalqları ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı", "Azərbaycan folkloru" və s. fənlərini tədris etmişdir. Bütün bunların nəticəsidir ki, Vaqif müəllim bir çox fəxri fərmanlara, diploma, "Qızıl qələm" mükafatına layiq görülmüşdür.

2012-ci ildə çapdan çıxmış görkəmli dramaturq, ictimai və dövlət xadimi M.F.Axundzadənin anadan olmasının 200 illiyi münasibətilə "M.F.Axundzadə və Qərbi Avropa ədəbi-nəzəri fikri" adlı monoqrafiyasında alimin bu fikirləri xüsusilə diqqətimi cəlb edir: "Düzünə qalsa, elə mənim də Mirzə Şəfi irsini araşdırdıqca Mirzə Fətəli irsinə olan marağım get-gedə çoxalıb və imkan daxilində hər iki mütəfəkkirin həyat və yaradıcılığını öyrənməklə yanaşı, onları bir-birinə bağlayan telləri də araşdırıb üzə çıxarmağa çalışmışam". [1, 18] Bu mənada, Vaqif müəllimin araşdırması, yazıları, elmi əsərləri əsasən böyük və dərin faktlara əsaslanır. O, hər hansı bir məsələdən, mövzudan söz açarkən və ya elmi əsərlərinin adına diqqət yetirdikdə onun daha çox müqayisələrini, bir çox tarixi faktlara kökləndiyini, daha dəqiq demiş olsaq, yazılarının daha çox informasiya xarakterli olması bir oxucu kimi mənə böyük mənəvi zövq verir.

Başqa bir misal olaraq qeyd etməliyik ki, Vaqif Arzumanlının yetirməsi olan jurnalist Xosqədəm Baxşəliyeva ilə birgə yazmış olduğu "Türk dünyası və "Böyük Ermənistan" xülyası" kitabında da bir çox maraqlı və vacib tarixi faktlar vardır ki, onları öyrənmək, əzbər bilmək hər bir azərbaycanlı üçün olduqca əhəmiyyətlidir. Həmin kitabda 1813-1991-ci illərdə Azərbaycan ərazilərinin sahəsi, erməni təcavüzü nəticəsində 1988-1994-cü illərdə Azərbaycan Respublikasında zəbt edilmiş, dağıdılmış və yandırılmış yaşayış məntəqələri və sosial obyektlərin sayı, həmçinin 1918-ci ildə İrəvan quberniyasında dağılmış və boşaldılmış azərbaycanlılara məxsus yaşayış məntəqələrinin siyahısı arxiv materiallarına əsasən cədvəl şəklində aydın və dəqiqliklə göstərilmişdir. Orada qeyd olunur ki, 1813-1828-ci ilə qədər Azərbaycan ərazisi təxminən 410 min kv. km. idi. 1813-1828-ci illərdə Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycan – sahəsi təxminən 280 min kv. km. Rusiya əsarəti altındakı Şimali Azərbaycan – sahəsi təxminən 130 min kv. km. 1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi – 86,6 min kv. km. Beləliklə, Azərbaycanın deyildiyi kimi 20 faiz yox, təxminən 80 faiz ərazisi işğal altındadır. [2, 186] Bu baxımdan düşünürəm ki, bu kitabın da digər elmi və tarixi əsərləri kimi çox böyük rolu vardır.

Sözsüz ki, hərtərəfli biliyə, geniş dünya görüşünə malik olan, hər şeyə vaqif olan bu şəxsiyyət haqqında saatlarla danışmaq, səhifələrlə yazmaq olar. Onu da qeyd etməliyəm ki, alimin həyat yoldaşı Cananə xanımın dediyinə görə, Vaqif müəllimin yarımçıq qalmış, həyat imkan vermədiyi səbəbindən tamamlanmamış iki kitabı da yazı masasının üstündə qalmışdır. Əminəm ki, o yaşasa idi, hələ nə qədər əsərlər yazılar, vətən uğrunda, xalq yolunda işlər görülərdi. Bu qısa ömür yolunda onun qədər fəaliyyət göstərən, vətəni, xalqı üçün sonsuz və əvəzsiz xidmətləri olan ikinci bir insan, şəxsiyyət tanımıram. Düşünürəm ki, o hamımız üçün, həmçinin mənim üçün ideal bir nümunədir. Vaqif Arzumanlı təkcə elm aləmində deyil, həmçinin adi həyatda da sadə bir insan kimi demək olar ki, bütün insani keyfiyyətlərə, mənəvi-əxlaqi dəyərlərə malik olan şəxsiyyət, canlı ensiklopediya idi. O, ailəsinin hər zaman layiqincə keşiyində duran zəhmətkeş ailə başçısı, qayğıkeş ata olmuşdur. Sağlığında onun kimi bir alimlə ünsiyyət qurmaq, onunla həmsöhbət olmaq mənim üçün həqiqətən böyük bir sevinc hissi, xoş, sözlə təsvir edilməz duyğu idi. Vaqif müəllimin insana münasibəti, yanaşmasından aydın görmək olurdu ki, o həqiqətən qarşısında olan insana, həmsöhbət olduğu bir şəxsə qarşı çox diqqətli və düşüncəli idi. Bunu sağlığında öz əmelləri ilə sübut edirdi.

Vaqif müəllimin ölüm xəbərini eşitmək inanılmaz, olduqca sarsıdıcı və həqiqətən çox ağır bir itki oldu. Onu tanıyan hər bir kəs üçün onun yoxluğunu qəbul etmək çətin idi. Bu pis xəbəri dərk eləmək bəlkə də onun

ölməz alim olduğunu qəbul etdiyimiz üçün belədir. Deyirlər ki, ancaq dahi insanlar əbədi yaşayır. Necə ki onun əsərləri daim yaşayır və yaşayacaq da! Onun bizlərə yadigar qoyub getdiyi hər bir kitabı, yazıları daim Vaqif Arzumanlını bizə xatırladacaq. Düşünürəm ki, bundan sonra da elmin bir çox sahələrində böyük xidmətləri, yüksək fəaliyyətləri olan bu qeyri-adi istedada malik alimi gələcək nəsillərə tanıtmaq onun yaradıcılığına bələd olan insanların mənəvi borcu, insanlıq vəzifəsidir.

Allah böyük alimə rəhmət eləsin!

ƏDƏBİYYAT:

1. Vaqif Arzumanlı. M.F.Axundzadə və Qərbi Avropa ədəbi-nəzəri fikri. Bakı, 2012
2. Vaqif Arzumanlı, Xosqədəm Baxşəliyeva. Türk dünyası və "Böyük Ermənistan" xülyası. Bakı, 2008
3. Professor Vaqif Arzumanlı - 60. Soraq kitabı. Bakı, 2007

Ульвия Агамирова

Великий учёный, вечно останется в наших сердцах

Резюме

Прошло четыре года со смерти Великого учёного-политолога, историка, переводчика, литературоведа - Вагифа Арзуманлы. В этой статье, творчество учёного ещё раз было обследовано и анализировано полностью. Книги, которые он написал, будут переданы к будущим поколениям. На самом деле, его литературное наследие, которое обосновано в разных науках, будет очень важно для каждого человека, как полезного средства. Вагиф Арзуманлы был автором почти сорока книжек и монографий. Но жаль, что его две книги остались не дополнены…

Он до конца своей жизни занимался безустанно литературной деятельностью. Его идеи вечно были связаны со своей родиной и проблемами со своим народом. У него были успехи в различных участков науки. Так, что он награждался почётными грамотами и заслужил известные награды «Золотой карандаш» (Гызыл гелем). Он также давал отзывы многим книгам, которые написаны разными авторами.

Вагиф Арзуманлы писал свои научные книги и монографии в разных языках – Азербайджанским, русским, персидским, английским и литовским языках. Как переводчик, у учёного были переводы многих книг, стихотворений и проз из латышского, литовского, эстонского и русского языках. И одновременно он переводил произведения Азербайджанских поэтов и писателей к литовскому и русскому языкам.

Ulviya Aghamirova

Great scientist who will live in our heart forever

Summary

Four years passed from the death of great scientist – politician, historian, translator, specialist in literature – Vagif Arzumanli. In this article the creative work of the scientist has been investigated once again and analised altogether. The books that he wrote will be passed down to generations as useful means and his literary heritage based on different sciences will be very significant for everyone. Unfortunately, two books of the author of nearly fourty books and monographs had been left unfinished…

He had been working on his literary work tirelessly till the end of his life. His ideas were always connected with his native country and the problems of his nation. He had achievements in different fields of science. So that, he was rewarded with honourable orders and deserved the notable reward so-called “Golden pen”. He also gave references for many books that written by different authors.

Vagif Arzumanli wrote his scientific books and monographs in several languages, such as in Azeri, Russian, Persian, English, Lithuanian and so on. As a translator the scientist had translations – books, verses and prose works from the Latvian, Lithuanian, Estonian, Russian languages and at the same time, he translated the works of Azerbaijani poets and writers from Azerbaijani into the Lithuanian and Russian languages.

Rəyçi: **Nailə Sadıqova**
Filologiya üzrə elmlər doktoru, professor

САДАТ АСЛАНОВА
АУЯ
aslanova-saadat@mail.ru

СЕМАНТИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ АНГЛИЙСКИХ И РУССКИХ ГЛАГОЛОВ

Ключевые слова: глагол, классификация, семантическая структура, совершенный/ несовершенный вид
Açar sözlər: feil, təsnifat, semantik quruluş, bitmiş/ bitməmiş tərz
Key words: verb, classification, semantic structure, perfective/ imperfective aspect

Глагол одна из самых больших частей речи. Никакая другая часть речи не имеет столь богатой и сложной системы грамматических форм, как глагол.

Работы многих учёных показали, что в лингвистической литературе пока ещё не существует общепринятой семантической классификации глаголов, основанной на точно определённом количестве дифференциальных смысловых компонентов.

Любая классификация, в том числе и классификация лингвистических объектов, основывается на определённых свойствах, общих для объектов данного класса. Классификация глаголов представляет собой частный случай лингвистической классификации. Отсюда возникает вопрос: с какими задачами связано построение семантической типологии глаголов?

Это должно быть именно семантическая классификация. Эта типология должна принимать во внимание реальное, онтологическое сходство и различие описываемых глаголами положения вещей. Выражение «положение вещей» употребляется в самом широком смысле: то, что может иметь место в каком-нибудь мире (определение соответствующего английского термина «state of affairs»: «what can be the case in some world») [2,46].

Предметом семантики является не реальный мир, а концептуализация мира. Каждый язык располагает средствами интерпретировать одну и ту же ситуацию множеством разнообразных способов. Центральной задачей лингвистики является изучение этих средств и их функций. Язык отражает мир только косвенным образом. Он отражает концептуализацию мира» [2, 47].

В данной статье мы рассмотрим некоторые, наиболее известные, классификации английских и русских глаголов. В центре нашего вни-

мания – те классификации, которые показывают, что признаки, по которым различаются глаголы в обоих языках, являются грамматически существенными, в частности, они важны для изучения аспектологических свойств глаголов.

1. Классификация З. Вендлера.

Первый вариант классификации З. Вендлера был опубликован в 1957 году, более поздняя версия изложена в книге «Verbs and Times// Linguistics in Philosophy» в 1967 году. М.Я.Гловинская в своей книге излагает именно эту версию [3, 25].

В классификации З.Вендлера внимание сосредоточено на одном, чрезвычайном аспекте предикативного значения, а именно: как соотносить денотат с временным отрезком. Вендлер различает четыре класса глаголов:

1. глаголы исполнения ***(Accomplishments)***, например: *paint a picture, make a chair, draw a circle;*

2. глаголы деятельности ***(Activities)***, например: *run, walk, swim, drive a car;*

3. глаголы достижения ***(Achievements)***, например: *recognize, spot, find, die*;

4. глаголы состояния ***(States)***, например: *know, believe, have, love.*

Разбиение глаголов на четыре класса приводится на основании многих критериев, но М.Я.Гловинская приводит лишь следующие:

1. способность – неспособность глагола употребляться в продолженной форме;

2. сочетаемость – несочетаемость глаголов с тремя типами обстоятельств: с обстоятельствами длительности типа *долго, два часа*; с обстоятельствами точности типа в *тот момент, в два часа;* с инклюзивными обстоятельствами времени типа за три минуты.

По способности иметь или не иметь актуально-длительное (продолженное) значение глаголы делятся на процессы, которые его имеют, и на процессы, которые его не имеют.

Процессы далее делятся на глаголы деятельности и глаголы исполнения по признаку сочетаемости – несочетаемость с инклюзивными обстоятельствами времени.

Глаголы деятельности не сочетаются с ними: * *Я бежал за два часа.*

* *Я рисовал за три минуты.*

Глаголы исполнения сочетаются с этими обстоятельствами: *Я написал письмо за два часа. Я нарисовал кружок за три минуты.*

Не процессы делятся на глаголы достижения и глаголы состояния на основании двух сочетаемых признаков из числа упомянутых выше.

С обстоятельствами длительности сочетаются глаголы состояния и не сочетаются глаголы достижения: *Я знала его два года. Я много лет люблю его, но *Я долго находил письмо. *Я два часа приходил к нему.*

С обстоятельствами точности , наоборот, сочетаются глаголы достижения и не сочетаются глаголы состояния: *В три часа я достиг вершины. Я заметил его ровно в два часа, но* В три часа я знал (любил) его.*

Классификация З. Вендлера не ориентирована непосредственно на действительность, а построена на чисто лингвистических основаниях, такие глаголы как *спать, болеть* попадают в группу «деятельность». Зато глаголы *знать, думать, что…,* которые в прежних классификациях к состояниям не относились, теперь попадают в группу ***состояние.***

Классификация Вендлера З. в той или иной мере лежит в основе всех современных классификационных работ по глаголу, в частности, тех, которые непосредственно связаны с аспектологией. Эта классификация – одна из наиболее влиятельных. Как указывает Падучева Е., «она стала таковой после того, как была осознана её аспектуальная значимость» [5, 30].

2. Классификация У.Чейфа

У.Чейф в своей работе сделал различия между семантическими структурами следующих четырёх групп предложений.

1. a. The wood is dry . *«Дрова сухие».*
b. The dish is broken. *«Блюдо разбито».*
2. a. The wood dried. *«Дрова высохли».*
b. The dish broke. *«Блюдо разбилось».*
3. a. The men laughed. *«Мужчины рассмеялись».*
b. Harriet sang. *«Гарриет пела».*
4. a. The men tightened the rope. *«Мужчины натянули канат».*
b. Harriet broke the dish. *«Гарриет разбила блюдо».*[6, 117]

В группе 1 о некоем существительном *(дрова, канат, блюдо, слон)* говорится, что оно находится в определённом состоянии или положении (*сухой, натянутый, разбитый, мёртвый).* Глагол в них определяется как состояние, и он сопровождается существительным, которое является его патиентом (объектом воздействия). Патиент определяет собой, чем является то, что находится в данном состоянии.

Остальные предложения, принадлежащие группам 2,3,4, содержат глаголы, которые не характеризуются, как состояния. Простым правилом, позволяющим отличить не состояние от состояний, является то, что они отвечают на вопрос What happened? «Что произошло?»; What's happening? «Что происходит?» и.т.д.

Процессы и действия. В предложениях группы 2 дело имеется с процессами, причём о существительном говорится, что оно изменило своё состояние. Глагол в подобных предложениях дополнительно проявил себя как процесс. Поскольку процесс всё ещё предполагает наличие отношения между существительным и состоянием, поскольку всё ещё правомерным представляется утверждение, что в предложениях 2 существительное является патентом глагола. Глаголы же в группе 3 другого рода. Они не имеют ничего общего ни с состоянием, ни с изменение состояния; напротив, они выражают деятельность или действие, нечто, что кто-то делает. Простое правило, которое помогает отличить действие от процесса, состоит в том, что предложение, содержащее действие, является ответом на вопрос What did N do? «Что делал N?», где N – какое либо существительное.

What did Harriet do? *«Что делала Гарриет?»*
She sang. *«Она пела».*
но не :
** She died.* *«Она умерла».*

Напротив, часто случается, что простое предложение, содержащее процесс, отвечает на вопрос What happened to N? «Что произошло с N?», на который простое предложение, содержащее действие, не является годным ответом:

What happened the Harriet? *«Что произошло с Гарриет?»*
She died. *«Она умерла».*
но не:
** She sang.* *«Она пела».* [6, 119]

Существительное в предложениях, содержащих действие, наподобие 3 не может уже считаться патентом глагола. Она характеризует собой нечто, что не находится в каком-то состоянии и не меняет своего состояния скорее, оно выражает собой нечто выполняющее действие. Такое существительное может быть названо агентом глагола. Таким образом, состояния и процессы сопровождаются патентами, а действия – агентами. Например, в предложениях 4 группы глагол является одновременно и процессом, и действием. В качестве действия он выражает, что делает некто, его агент. Агент по-прежнему остаётся тем, кто делает что-то, однако в 4 группе агент делает это по отношению к чему –то (или иногда чем-то), что является патентом процесса.

What did Harriet do? *«Чтосделала Гарриет?»*
She broke the dish. *«Она разбила блюдо».*
What happened to the dish? *«Что случилось с блюдом?»*
Harriet broke it. *«Гарриет разбила его».* [6, 119]

На основе выше написанного У.Чейф выделил четыре семантические характеристики для глагола:

1.состояние,
2.процесс,
3.действие,
4.процесс действие.

Не трудно заметить, что в классификации У. Чейфа речь фактически не идёт о глаголах как таковых, а о более широком понятии – о предикатах.

3. Классификация Маслова Ю.С.

Из классификаций, которые нам предстоит рассмотреть, наиболее ранней является классификация Маслова Ю.С. Гловинская М. характеризует её как наиболее "семантичную" [4, 64].

В своей классификации Маслов ставит своей целью вывести "конкретные особенности видовых значений и видовых свойств рассматриваемых глаголов в русском языке из особенностей их лексической семантики, из некоторых субъективных свойств самих обозначаемых этими глаголами действий" [4, 65].

Маслов выделяет три больших разряда глаголов:

1. непарные глаголы несовершенного вида,
2. непарные глаголы совершенного вида,
3. пары соотносительных глаголов.

Для каждого разряда указывается его общее свойство, проявляющееся в одинаковом видовом поведении всех глаголов, состав разряда (конкретные лексико-семантические группы) и семантический признак, общий для глаголов данного разряда и объясняющий его видовые особенности. Классификацию Маслова Ю.С. можно представить следующим образом.

Непарные глаголы несовершенного вида обозначают процессы, лишенные внутреннего процесса и не поддающиеся моментализации, например, *быть, существовать, присутствовать, содержать, пахнуть, плотничать, царствовать, стоять, лежать, любить, плакать, полагать, ходить, идти, ждать и т.д.*

Непарные глаголы совершенного вида обозначают внезапные скачки и другие действия, не поддающиеся процессуализации, например, *рехнуться, отобедать, искусать, постоять, возненавидеть*

и д.р.

Парные по виду глаголы имеют менее однородную семантику и делятся на три основные группы:

а) тип *делать –сделать, ловить –поймать, умирать – умереть.* Глаголы противопоставлены по линии попытка – успех (или тенденция – осуществление). Ср. *ловил, но не поймал;*

б) тип *видеть – увидеть, говорить – сказать.* Глаголы несовершенного вида обозначают, непосредственный, непрерывный эффект, "т.е. такие действия, которые, даже будучи взяты в сколь угодно краткий момент своего протекания, не могут мыслиться как оставшиеся "неэффективными", "безуспешными". Формы несовершенного вида и совершенного вида противопоставлены по значению длительности и мгновенности.

в) тип *приходить – прийти, колоть – кольнуть.* Глагол несовершенного вида не может быть употреблён в конкретно процессуальном значении (**Смотри, он приходит)*, глагол совершенного вида обозначает факт скачкообразного "точечного" перехода к новому качеству.

4. Классификация Ф. Данеша

Классификация Ф. Данеша описывается на основе сведений, изложенных в книгах Н.С.Авиловой и М.Я.Гловинской.

Все глаголы Данеш делит на динамические, и обозначают протекающие ситуации, (ср. *делать, спать, гореть)* и статические (ср. *лежать, болеть).* С другой точки зрения, глаголы делятся на глаголы активного действия (*делать, работать)* и неактивные глаголы (*гореть, лежать).* Динамические глаголы двух последних групп делятся на процессы и события. Процессы не приводят к каким-либо изменениям в ситуациях (ср.*веселиться, гореть, работать)* а события приводят-приводят (ср.*чинить, таять).* При этом активные динамические действия-события включают "исходное" и завершающее состояния; переход к завершающему состоянию осуществляются при помощи агента.

Всего, получается, таким образом, пять семантических классов глаголов:

*1.*динамические активные процессы или действия, например: *веселиться, работать, танцевать;*

*2.*активные динамические события, например: *белить, рисовать, чинить;*

3.динамические неактивные процессы, например: гореть, светить, спать;

*4.*динамические неактивные события, например: *таять, гаснуть, замерзать;*

*5.*статические неактивные события, например: *белеться, лежать.*

Активность (неактивность) характера семантики действия, а затем статичность и динамичность, далее процессуальность и событийность этого характера играют существенную уточняющую роль для характеристики предельности (не предельности) признаваемой решающим семантическим фактором, влияющим на возможность (невозможность) вступления глагола в видовое соотношение.

Ф. Данеш не ставит вопрос об отношении семантики глагола к возможности (невозможности) для него вступить и видовое соотношение. Иногда он даёт глагол в видовой паре, иногда в форме одного вида. Данеш подчёркивает непоследовательность учёта видовой парности в своём анализе: "Видовые противопоставления приводим в целях экономии несистематично" [1, 15].

Подход, применённый Ф.Данешом, уточняет характер семантики глагольного действия именно в плане выявления возможности-невозможности вступления глагола в видовую пару, с одной стороны и в плане выявления различных типов видовых пар, с другой стороны.

По классификации Ф.Данеша все неактивные глаголы являются глаголами абсолютного несовершенного вида, за исключением небольшой группы динамических глаголов, выражающих изменение состояния субъекта и способных к видовой аппозиции, к созданию видовой пары.

Что касается глаголов неактивных, в частности глаголов обладания и принадлежности, Данеш чётко выделил эти глаголы в числе главных типов статических ситуативных значений, т.е. значений ситуации: "Главные типы ситуативных значений - существования, местонахождения и принадлежности" [1, 70].

Исследования обоих языков показывают, что классификацию глаголов можно строить на разных основаниях. Главная цель семантической классификации глаголов – помочь структуровать лексикон и способствовать лучшему организованному, более однородному описанию их семантики. С более формальной точки зрения, главные цели – это идентификация компонентов значения, формирующих семантику глагола, спецификация наиболее тонких элементов, различающих близко сходные глаголы и изучение связи между синтаксисом и семантикой .

СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ.

1.Авилова Н.С. Вид, залог и семантика глагольного слова. М., 1976.
2.Булыгина Т.В. К построению типологии предикатов в русском языке.
3.Гловинская М.Я. Многозначность и синонимия в видовременной системе русского глагола. М., 2001.
4.Маслов Ю.С. Вид и лексическое значение глагола с современном русском литературном языке. Очерки по аспектологии. М., 1984.
5.Падучева Е.В. Динамические модели в семантике лексики. М., 2004.
6.Чейф У. Значение и структура языка. М.,1975.

S.Aslanova

İngilis və rus dillərində feillərin semantik təsnifatı

Xülasə

Məqalədə ingilis və rus dillərində mövcud feillərin semantik təsnifatından bəhs edilir. Bildiyimiz kimi, feil nitq hissələri içərisində ən böyüyü olaraq digər nitq hissələri ilə müqayisədə daha zəngin və mürəkkəb qrammatik forma sisteminə malikdir. Dilçilik ədəbiyyatında feillərin dəqiq sayda müəyyən edilmiş differensial semantik komponentlərə əsaslanan və ümumi olaraq qəbul edilən semantik təsnifatı hələ ki, mövcud deyil. İstənilən təsnifat, o cümlədən, linqvistik obyektlərin təsnifatı, bəhs edilən sinfin bütün obyektlərinə aid olan müəyyən xüsusiyyətlərə əsaslanaraq tədqiq olunan hadisələrin mahiyyətinə daha dərindən nüfuz etməyə kömək edir.

Məqalədə əsasən ingilis və rus dillərində feillərin dörd dilçi alim tərəfindən irəli sürülmüş təsnifatlarına yer verilir. Feillərin semantik təsnifatının əsas məqsədi leksikonların quruluşuna kömək etməkdən və onların semantikasını daha yaxşı təşkil edilmiş, daha homogen formada təsvir etməkdən ibarətdir. Daha formal nöqteyi nəzərdən baxsaq, əsas məqsəd feilin semantikasını təşkil edən məna komponentlərinin müəyyən-ləşdirilməsindən, bir-birinə hədsiz dərəcədə oxşar feilləri ayırd edən ən incə elementlərin spesifik xüsusiyyətlərinin müəyyən edilməsindən və sintaksis ilə semantika arasındakı əlaqənin öyrənilməsindən ibarətdir.

S.Aslanova

Semantic classification of English and Russian verbs

Summary

The article deals with semantic classification of verbs in English and Russian. As is generally known verb is one of the largest parts of speech having a richer and more complicated system of grammatical forms than any other part of speech. Research work by many linguists show that there still doesn't exist a generally accepted semantic classification of verbs based on exactly defined number of differential semantic components in linguistic literature. Any classification including the one of linguistic objects is based on certain qualities common for the objects of the given class favoring a deeper penetration to the core of the phenomena studied.

The main aim of semantic classification of verbs is to help structure the lexicon and contribute to a better organized , more homogeneous description of their semantics. From a more formal point of view, main objectives are the identification of semantic components forming the meaning of a verb, specification of subtle elements differentiating closely similar verbs, and the study of relation between syntax and semantics.

Rəyçi: **İradə Hüseynova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

MÜNDƏRİCAT

MƏSUD MƏMMƏDOV
LEYLA MƏCIDOVA
AZƏRBAYCAN DİLİNIN “İLƏ”, “TƏK”, “TƏKİN”, “NƏ” MORFEMLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ 3
ƏSMƏTXANIM MƏMMƏDOVA
MÜASİR FARS DİLİ SEQMENTASİYASINDA /CC/ NOVLU SAMİT BİRLƏŞMƏLƏRNİN FONETİK SƏCİYYƏSİ 12
LEYLA MAHMUDOVA
MÜASİR FARS DİLİNDİ HƏMCİNS MÜBTƏDALI CÜMLƏLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ 19
LALƏ MİKAYILZADƏ
AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN İNKİŞAF TƏMAYÜLÜNDƏ NİTQ VƏ DİLİN ROLU 24
NAİLƏ MƏMMƏDOVA
ŞƏLALƏ ABASOVA
NİTQDƏ SƏS MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI ÜÇÜN İŞLƏRİN MƏZMUNU 30
ŞƏRQİYYƏ HÜMBƏTOVA
“OĞUZNAMƏ”NIN DİLİNDƏ PAREMIK VAHİDLƏRİ QRAMMATIK CƏHƏTDƏN FORMALAŞDIRAN ÜÇÜNCÜ NÖV TƏYINI SÖZ BIRLƏŞMƏLƏRI 38
DÜRDANƏ ƏLİYEVA
TÜRKOLOGİYADA FOLKLOR MƏTNLƏRNİN DİL VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ (Biblioqrafik təhlil) 47
SEVƏR ORUCOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ OXU MƏTNLƏRİ VƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR 68
XƏYALƏ ƏLİYEVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SİNTAKTİK KONSTRUKSİYALARIN ÇOXMƏNALILIĞININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİNDƏ PRESUPPOZİSİYANIN ROLU . 73
NİGAR SEYİDOVA
FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TƏRCÜMƏSI ZAMANI YARANAN ÇƏTİNLİKLƏR 84

GÜLBƏNİZ MEHDİYEVA
ERKƏN ORTA ƏSR TARİXÇİSİ MUSA
KALANKATUKLUNUN "ALBAN TARİXİ" ƏSƏRİNDƏ
ORONİM VƏ HİDRONİMLƏR 90
ÇINARƏ QULIYEVA,
İRADƏ MƏMMƏDOVA
THE WAY EDUCATIONAL TECHNOLOGY AFFECTS
TEACHING AND LEARNING 98
MEHRİBAN ƏFƏNDİYEVA
FRANSIZ DİLİNİN LEKSİKALOGİYASINA DAİR 105
XOŞQƏDƏM HÜSEYNZADƏ
İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ
ZAMANI QRAMMATIK MATERIALLARIN METODIKASI 111
СОЛМАЗ АМИРОВА
СТРУКТУРА УЧЕБНОГО ТЕКСТА 116
NƏRGİZ PAŞAZADƏ
İNGİLİS DİLİNİN AMERİKAN VARIANTINDA İŞLƏNƏN
ONOMASTİK REALİLƏR 123
RƏNA MUSTAFAYEVA
О ПРЕПОДАВАНИИ РУССКОГО ЯЗЫКА КАК
ИНОСТРАННОГО 131
МАСУДА СЕЙИДАЛИЕВА
SMARTPHONES ALS HILFSMITTEL IM
DEUTSCHUNTERRICHT 137
SABINA RƏHIMOVA
ПРАГМАТИКА В ЛИНГВИСТИКЕ:
О ПОСТАНОВКЕ ВОПРОСА 144
SƏBİNƏ İSMAYILOVA
"-MAN" VƏ "-WOMAN" SÖZLƏRİ İLƏ DÜZƏLƏN
İXTİSAS ADLARI 152
NOBAHAR ƏZİZOVA
TƏLİMDƏ MOTİVASIYANIN YARADILMASI YOLLARI 158
YEGANƏ QƏHRƏMANOVA
AZƏRBAYCAN DİLİNDƏ HAL VƏ ŞƏXS-XƏBƏRLİK
KATEQORIYASININ QARŞILIQLI ƏLAQƏSİ 164
YUSIFOVA PÜSTƏXANIM
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İMPLİSİT İNKARLIĞIN
QRAMMATİK VASİTƏLƏRLƏ İFADƏSİ 170
GÜNAY MƏMMƏDOVA
İNGİLİS DİLİNİN VARİANTLARININ YARANDIĞI GƏMİ,
"SHIP ENGLISH" 178

YETƏR ƏHMƏDOVA
O НЕКОТОРЫХ АСПЕКТАХ ПРОСОДИЧЕСКОЙ ОРГАНИЗАЦИИ ВЫСКАЗЫВАНИЙ В НЕРОДСТВЕННЫХ ЯЗЫКАХ 183
MÜNƏVVƏR ƏSGƏROVA
TÜRKOLOGİYADA VƏ AZƏRBAYCAN DİLÇİLİYİNDƏ NOMİNATİVLİYİN TƏDQİQİ 193
AYGÜN RƏHİMOVA
PRESUPOZİSİYA VƏ ONUN LİNQİVİSTİK KONTEKSTDƏ TƏHLILI 202
SEVDA RZAYEVA
AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ MÜASİR TƏLİM METODLARINDAN İSTİFADƏ 207

ƏDƏBİYYATŞÜNASLIQ

SƏİDƏ ABBASOVA
MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN ROMANLARININ BƏDİİ-SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ..... 216
ŞAKİR CƏFƏROV
MİR CƏLALIN YARADICILIĞINDA ANA MƏHƏBBƏTİ İLƏ VƏTƏN SEVGİSİ BİR-BİRİNDƏN AYRILMAZDIR 228
MƏTANƏT ABBASOVA
TƏBRİZDƏ QƏDİM TOY NƏĞMƏLƏRİ VƏ MƏRASİM RİTUALLARI 233
SEVDA İMANOVA
OYUNLARDA MAGİK MOTİVLƏR 240
NAZƏNDƏ HACIYEVA
ƏNƏNƏVİ MÖVZULARA YENİ MÜNASİBƏT 250
ƏMİNƏ QƏDİMOVA
AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATININ İNKİŞAFINA DAİR..... 255
YEGANƏ HÜSEYNOVA
TARİX YAZAN ŞƏHİDLƏR 261
KÖNÜL MƏMMƏDOVA
CABBARLI İDEALI 266
SEVDA HÜSEYNOVA
QƏRB VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA YARADICI ŞƏXSİYYƏT OBRAZI..... 271
SEVDA İSGƏNDƏROVA
ÜZEYİR HACIBƏYLİNİN YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLIK MÖVZUSUNUN TƏCƏSSÜMÜ 279

AYTƏN RÜSTƏMZADƏ
SÜLEYMAN RƏHİMOVUN HEKAYƏ YARADICILIĞINDA MİLLİ KOLORİT 284
HÖKÜMƏ ALLAHVERDİYEVA
M. BİRİYANIN UŞAQLIQ VƏ GƏNCLİK İLLƏRİ ƏMƏK FƏALİYYƏTİNİN ŞERLƏRDƏ, QƏLBLƏRDƏ İNİKASI .. 293
AYTƏN QURBANOVA
AZƏRBAYCAN DRAMATURGİYASINDA HÜSEYN CAVİD OBRAZI (2000-ci illər) 303
İLHAM DADAŞOV
XIV-XIX ƏSRLƏRDƏ AZƏRBAYCAN VƏ ŞƏRQ POEZİYASININ AZƏRBAYCAN TƏSVİRİ İNCƏSƏNƏTİNDƏ ROLU 313
İLHAMƏ BAXŞƏLİYEVA
1930-1950-CI İLLƏR AZƏRBAYCAN ROMANININ JANR TIPOLOGİYASI 319
VÜSALƏ NƏBİYEVA
MERİ STYUARTIN HƏYAT VƏ YARADICILIĞI 329
LEYLA QƏDİROVA
ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ MÜHARİBƏ DÖVRÜNÜN KİŞİ TİPAJLARI 338
ELMİRA BABAYEVA
MÖVLUD SÜLEYMANLI NƏSRİNİN POETİKASI 348
ŞƏLALƏ QULİYEVA
AUDİOPUBLİSİSTİKADA İFADƏ VASİTƏLƏRİNİN SİNTEZİ PROBLEMİ 358
PƏRVİN HÜSEYNOVA
ÜZEYİR HACIBƏYLİNİN 1918-1920-ci İLLƏR ƏRZİNDƏ QƏLƏMƏ ALINAN FELYETONLARINDA MÜSTƏQİLLİK İDEALI 365
ÜLVİYYƏ AĞAMİROVA
DAİM QƏLBİMİZDƏ YAŞAYACAQ BÖYÜK ALİM 370
СААДАТ АСЛАНОВА
СЕМАНТИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ АНГЛИЙСКИХ И РУССКИХ ГЛАГОЛОВ 375

ELAN

"Elm və təhsil" nəşriyyatı "Filologiya məsələləri" jurnalında çap olunan məqalələrlə bağlı "İlin məqaləsi" adlı müsabiqə elan edir. Məqalələr münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Müsabiqənin nəticələri ildə iki dəfə – iyun və dekabr aylarında açıqlanacaq. Qaliblərə diplom və pul mükafatı veriləcək.

I yer 300 manat
II yer 200 manat
III yer 100 manat

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

Dizayn: **Zahid Məmmədov**
Texniki redaktor: **Yadigar Bagırova**

Çapa imzalanmış 15. 09. 2018.
Şərti çap vərəqi 48,5 Sifariş № 12.
Kağız formatı 70x100 1/16. Tiraj 300.

---

*jurnal **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.